KLASSİK AZƏRBAYCAN ƏDƏBİYYATI

YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİ

ƏSƏRLƏRİ

YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİ

ƏSƏRLƏRİ

ÜÇ CİLDDƏ

III CİLD

“AVRASİYA PRESS”
BAKI-2005

*Bu kitab "**Y.V.Çəmənzəminli**. Əsərləri. Üç cilddə. III cild" (Bakı, Elm, 1977) nəşri əsasında tərtib olunmuş və təkrar nəşrə hazırlanmışdır*

Tərtib edən: **Tofiq Hüseynoğlu**

894.3613 - dc 21
AZE
Çəmənzəminli Yusif Vəzir. Əsərləri. Üç cilddə. III cild. Bakı,
"AVRASİYA PRESS", 2005, 440 səh.

Əsərlərində xalq nağıllarının ruhunu, Azərbaycan dilinin sehrini qoruyub saxlamış, bu dilə, bu ədəbiyyata ömrünün son gününə qədər namusla xidmət etmiş Yusif Vəzir Çəmənzəminli Azərbaycan ictimai fikrinə təkcə zəngin bədii yaradıcılığı ilə daxil olmamışdır. Onun milli folklora, ədəbiyyat tarixinə dair dərin tədqiqləri bu gün də əhəmiyyətini saxlayır.

"Əsərləri"nin oxuculara təqdim olunan bu son cildində yazıçının ədəbitənqidi və publisist yazıları, oçerk və xatirələri ilə yanaşı, "Bir cavanın dəftəri", "Həzrəti-Şəhriyar", "Altunsaç" kimi bədii nəsr, dram və ssenariləri, "Azərbaycan ədəbiyyatına bir nəzər", "Tarixi, coğrafi və iqtisadi Azərbaycan" və s. əsərləri toplanmışdır.

Cildə salınmış müxtəlif məzmunlu və rəngarəng yazıları Yusif Vəzirin hekayələri, felyetonları ilə sıx əlaqəlidir, onlardakı fikirlərin publisist tərzdə ifadəsidir. Dilimizi, ədəbiyyatımızı, zehnimizi dünyanın mədəni sərvətləriylə zənginləşdirmək istəyindən yaranmış həmin məqalələr ədibin romanlarını da tamamlayır, onların ideya və bədii dəyərinin daha yaxşı işıqlandırılmasına kömək edir.

ISBN 9952-421-07-7

© "AVRASİYA PRESS", 2005



Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir



BİR CAVANIN DƏFTƏRİ

22 **mayis**[1], 1905. Deyəsən atam getməyimə razı olacaq. Anama qaldıqda, o çoxdan razıdır. Məqsədim xalamı görüb, ziyarət etmək deyil – onu bir o qədər də könlüm istəmir – şəhərimizdən bıqmışam, qaçmaq istəyirəm. Tühaf deyilmi, orta məktəbin altıncı sinfinin tələbəsi hələ öz şəhərindən başqasını görməmişdir. Halbuki buralardan bıqdım, yoruldum; gözlərim yeni yerlər, yeni simalar, yeni üfüqlər görmək istəyir. "Yenilik" – deyə bütün varlığım hıçqırır. Gör atam nə deyir:

– Qürbət ellərdə nə var? Niyə gedirsən? Çox da xalan ordadır.

Kişi qocalmışdır – varlığımın köhnə mənalara sığmadığını dərk eləmir.

Atam məhdud bir adamdır, ehtiyac və məfkurəsi də məhduddur: oruc tutar, namaz qılar, doşaba qatılmış qoz ləpəsi yeyər.

Bu qədər.

23 mayis. Axşam atamla yenə danışdıq. Dedim:

– A kişi, fəqir olduğunu bilirəm. Amma otuz manat verməyə qüvvətin çatar. İndiyə qədər mən səndən pul istəməmişəm, indi otuzca manat yol xərci istəyirəm.

Atam tərs adam da olsa, bu səfər məni diqqətlə dinlədi və iki barmağı ilə qulağının içindən bir tük dartıb dedi:

– Ay oğul, axı otuz manat bir igidin mayasıdır, bunu necə verim?

– Nə olar ki? Mən də sənin oğlunam, mənim də bir arzum var...

Yaş məni boğdu, sözlərim yarımçıq qaldı. Atam qəti də olmasa razılıq verdi. Sabah pulu alsam bir həftədən sonra yola düşərəm. Anam başqa cür davranır.

– Qorxma, – deyir, – atan verməsə, mən sənə pul taparam.

Vallah yaxşıca arvaddır. Yəqin sandığında pulu var. Axı müsəlman arvadlarında xoruz səsi eşitməmiş pullar olur, görürsən, cındıra bağladı, sandığın küncünə atdı. Xülasə, gedirəm. Kefim kökəlir. Anam deyir:

[1] Mayis – may

– Bala qürbət ellərdə din-məzhəb sözləri danışma, başına iş açarlar – yazığam.

Məclislərdə mollalarla mübahisə etdiyimi anam bilir. Atam kəndə alış-verişə gedəndə adət üzrə xeyir-şərə mən gedirəm. Məclisdə molla başda oturur; onun yanında oturmağı kimsə özünə yaraşdırmadığı üçün ətrafı həmişə boş olur. Adətlərə zidd getmək məndə bir xəstəlikdir.

Qapıdan girib, düz yuxarı başa keçirəm. Bu "xətama" qarşı xalq[1] bir şey söyləmir – "gəncdir, anlamır" – deyirlər. Lakin mənim dini mübahisələrə girişib, dinsiz mülahizələr yürütməm heç kəsin xoşuna getmir. Bir məclisdə ətəbatdan[2] yeni gəlmiş bir mollanın bilgisini yoxlamaq məqsədi ilə ondan bir məsələ soruşdular:

– Pişiyin tükü niyə pakdır, itinki murdar? – dedilər. Gənc molla məsələnin çətinliyini duyaraq qızardı, bozardı, dili belə dolaşdı. Pişik haqqında rəvayət olunan hədisi söyləsə də, məclisi qane edə bilmədi.

Axırda köhnə mollalardan biri məğrur bir şəkil alaraq dedi:

– Həzərat, molla olmağı asan bir iş bilməyin. Bu cavanın molla olmasına hələ çox qalıb. Gərək bu, müctəhidlər tərəfindən cild-cild yazılmış kitabları oxusun, püxtə mollalar məclisində olub, mübahisələrdə bişib çıxsın. Onda o, xalis molla ola bilər... İndi verilən məsələ barədə ağalara ərz edim. Mötəbər risalələrdə belə yazırlar: allahü-təbarəkə və taala Adəmi yaradanda, məlumunuzdur ki, şeytani-ləin tüğyan etdi, büxl və həsəd büruzə verdi. Hətta xaliqi-ləmyəzəlin[3] hüzurunda cürət edib, Adəmin heykəlinə tüpürdü. Şeytani-ləinin tüpürcəyi gedib Adəmin qarnının üstə bənd oldu. Allah-taala buyurdu, o tüpürcəyi Adəmin qarnının üstündən qazıyıb atdılar. Onun yerində göbək əmələ gəldi və atılan torpaqdan da it vücuda gəldi... İt şeytanın tüpürcəyinə qarışmış torpaqdan nəşvünüma olduğu[4] üçün murdar heyvan sayılır. Mötəbər kitablarda belə yazılmışdır...

Molla böyük bir qürurla sözlərini bitirib, məclisi başdan-ayağa süzdü və hər tərəfdən "Afərin" səsi eşitdi.

Mən özümü saxlaya bilmədim.

– Axund, – dedim, – nə vaxta qədər bu yazıq camaatı boş nağıllarla bəsləyəcəksiniz?..

---

[1] "Camaat" mənasında işlənmişdir

[2] Ruhanilərin təhsil aldığı ali mədrəsə

[3] Ləmyəzəl – ölməz, daimi

[4] Əmələ gəldiyi

Bunuca deməyə müvəffəq oldum – müridlərin mırıltısı sözlərimə xitam verdi. Vəhşi gözlər parıldadı, bardaş quranlar qalxıb dizi üstə oturdu, dizi üstə oturanlar qalxıb bardaş qurdu. Məclisdə tühaf hərəkətlər görüldü. Tapançaya belə əl atan oldu. Bu əsnada "həzərat, aram" – deyə mollanın səsi eşidildi:

– Bu cavan rus məktəbində oxuyur, dini-mübinə lazımınca vaqif deyil, cahildir. Günah bunda deyil, bunu kafir məktəbinə yollayan valideynindədir.

Mən yenə etiraz etdim. Başqa xalqların tərəqqi etməsindən, bizim geridə qalmamızdan bəhs edərək, məclisin bir hissəsini öz tərəfimə çevirə bildim.

Bu vəqə əvvəl şəhərdə bir qələyan[1] törətdi, sonra xalqın qulağı doldu. Indi artıq mənim məclislərdəki etirazlarım təbii kimi görünür.

Yalnız anam mənimlə razılaşmaq istəmir.

– Camaat avamdır, səni öldürər, – deyir. Mən anamın ehtiyat etməsinə için-için gülürəm. Ölüm nə deməkdir? Gənclik vulkanından qopan bir qığılcım.

24 mayis. Bu gün gəzməyə getmişdik. Bərk yorulmuşam. Axşam saat doqquz. Yuxu gözümdən tökülür... Gecəniz xeyrə qalsın...

25 mayis. Dünənki gəzmək pis keçmədi. Şəhərin[2] ətrafında görmədiyim bir çox yerləri gördüm. Ləzzəti damağımdan getmir. Qəribə burasıdır ki, burada doğulub, iyirmi il də yaşamışam, hələ bu gözəl çeşmələrə, bağlara, kahalara rast gəlməmişdim. Çıxmaq istədikdə həmişə anam demiş:

– Bala, ölkə xarabdır, görürsən nələr olur... Allah eləməsin... Ölərəm... Çıxma, bir şey də olmasa, adına pis söz deyərlər. Biçarə arvad məni bu iyirmi ilin müddətində qız kimi qorumuş.

"Bala, məktəbə gedəndə həmişə küçənin ortası ilə get-gəl, şenliksiz küçəyə ayaq basma, səni xoş dindirənə sərt cavab ver, – deyə öyüd vermiş...".

İndi artıq "kişi" olmuşam, bığ və saqqalım cücərir; yavaş-yavaş yoldaşlarımla gəzməyimə müsaidə olunur.

İyirmi illik məhbəs həyatı. Gəncliyin ən şehli və təravətli vaxtlarını müsəlmanların qorxusundan damın altında keçirmişəm... Mən qız deyiləm ki, mənə həsrətlə baxırsınız. Qoy qızlar baxsınlar, pak ürək-

[1] Həyəcan, çaxnaşma

[2] Söhbət Şuşadan gedir

ləri də döyünsün. Gedirəm. Müsəlmanların üzündən qurtaracağam. Anam mənə alt paltarı tikir. Sabah gedib özümə çamadan və başqa yol şeyləri alacağam.

26 mayis. Yağışlıqdır, bazara gedə bilmədim. Dumandan göz-gözü görmür. Insan sıxıntıdan bağırmaq istəyir. Sabahdan kitablarımı toplayıb, sandığa qoydum ki, mən gedəndən sonra əl-ayağa dolaşmasın.

Anam mənə baxaraq "ah" çəkirdi. Deyəsən gözləri də yaşarırdı.

– Bala, – deyir, – kitablarını belə görəndə ürəyimə pis gəlir.

Xırda bacılarım da anama baxıb onlar da ağlamsınırlar. Avam yazıqlar. Kağız-dəftərlərimi də yığışdırdım, arasında bir lazımlı şey tapmışam, onu da özümlə Aşqabada aparacağam. Mənim adımla adlanır. Bu hürufatı bir il bundan əvvəl icad etmişəm. "Murad hürufatı" ilə hər nə yazsan, yazıldığı kimi oxunar. Basması ayrı və yazması da ayrı cürdür. Soldan sağa yazılır. Bir səsin bircə şəkli var... "Şərqi-Rus" qəzetindəki "Məhəmməd Ağa xətti" buna nisbətən çox geridə qalır, çünki ərəb hərfini islah etməklə xəstəlik bitmir. Mənimki isə məsələni kökündən həll edir.

Bu hürufatı gənclər arasında yayıram.

27 mayis. Şəhərimiz ikiyə ayrılır: qərb tərəfində ermənilər, şərqdə müsəlmanlar yaşayır. Qocaların nağılına görə əvvəllər ermənilərlə müsəlmanlar qarışıq yaşamışlar. İkisinin də adət və ayinləri bir imiş: bir-birinə də "dinayrı qardaş" deyərmişlər. Müsəlman uşaqları sünnət olunarkən çox vaxt ermənilər kirvə olarmışlar. Atam deyir ki, məhərrəmlikdə müsəlmanlar dəstə təpərkən erməni çocuqları da dəstəyə girib "Heydər, Şəftəl" deyərmişlər. Müsəlmanlar erməni pirlərinə nəzir edib, qurban aparırmışlar. Bir gün Çətənə Məmməd adlı birisi gecə gedib erməni kilsəsinin zəngini vurur. Ermənilər tökülüb zəngi vuranı axtarırlar, tapmırlar. Keşiş gəlib çıxır. Çox düşündükdən sonra zəngin qeybdən vurulmasına qane olurlar. Qoca bir erməni də göydən nur endiyini gözü ilə görmüş deyə, şahid keçir. Hər kəs möcüzəyə inanaraq kilsəyə dolub ibadətə başlayır. Baş qarışıqlığından istifadə edən Çətənə Məmməd ermənilərin başmaqlarını qapıdan yığışdırıb çuvala doldurur... Sabah, deyirlər, başmaqları erməni kəndinə aparıb, toyuq-cücəyə dəyişir.

İndi ermənilər müsəlmanlardan ayrı yaşayırlar. Abad məhəllələri, gözəl küçələri, kaşanə evləri var. Şəhərin bütün ticarəti onların əlindədir, hər sahədə sənətkarları, mütəxəssisləri və elm adamları vardır.

Qız və oğlanlar üçün ibtidai və orta realni məktəblər açmışlar. Məktəbə getməyənləri yoxdur. Hökumət və şəhər müəssisələri də erməni məhəlləsindədir.

Müsəlmanlar isə köhnə "çətənəliyində" davam edir. Bir "rus-tatar məktəbi"ndən və bir neçə mollaxanadan başqa bir şeyə malik deyilik... məhəllələrimiz tamamilə xarabadır: erməni sərhəddindən aşağı lağımların üstü örtülmədiyi üçün iydən nəfəs çatlayır, küçələrdə işıq yox, gecələr hərə öz fanusu[1] ilə çıxır... Adamlar da ki, qurda dönüb, bir-birini yeyir: adam öldürmək adi bir şəkil almışdır... Tam bir cəhalət.

Mədəni səviyyəmizi ölçmək üçün bunu bilməlidir: realni məktəbdə oxuyan 300-400 tələbədən yalnız on beşi müsəlmandır, bunlar da bəy balalarıdır ki, dördüncü sinifdən yuxarı getmirlər; qızların da oxumaları şərən günah sayılır...

Şəhərdə, Peterburqda təhsil görmüş bir doktordan, dəftərxanalarda bir neçə mirzədən başqa ziyalıya müsəlmanlar malik deyillər. Bir dənə dülgərimiz, bir dənə dərzimiz yoxdur. Papaqçı, dəmirçi, nalbənd, başmaqçı və şərbafdan başqa sənətkara gümanımız gəlmir... Yerdə qalanı zırı-zırrama, ağzı dualı qulyabanilər...

Bu gün çamadan alıb hamballa erməni məhəlləsindən enirdim, bir də küçədəki baqqalın biri üzünü mənə çevirib:

– Şəhərimizdə bir maral var idi, o da gedib, bizi yetim qoyur, – dedi və köksünü çəkdi. Baqqalın komplimenti mənə güllə kimi əsər elədi, qan beynimə vurdu. Dükana tərəf sıçradım, baqqal qaçdı. Əlimə tərəzi keçdi, götürüb tabaqların üstünə qolazladım, qatıq qablarını bir-birinə qatıb sındırdım... Bir qoca kişi gəlib məni sakit elədi:

– Qadan alım, sən nəcibsən, ona qoşulma. Allah onun bəlasını versin, dilinin yiyəsi deyil.

28 mayis. Dünən axşam yoldaşlarım Həsən, Mürsəl və Rəcəblə bulvarda idik. Bulvar erməni hissəsinin cənub-qərb tərəfində yeni salınmışdır, dağa doğru dolama xiyabanları, gözəl yay klubu, qəhvəsi var, yanında realni məktəb üçün möhtəşəm bir bina yapılır[2]. Aşağıda, yaşıl ağaclar arasında gizlənən rəngarəng taxtapuşlu, məğrur kilsəli şəhər, dağlarla əhatə olunmuş; buludlara dalmış Murovla çılpaq Bağrıqan arasındakı açıqlıq minbir rəng çalır... Bu mənzərəyə tamaşa etdikdə, sanki ruh böyüyür, qanadlanıb göylərə doğru uçmaq istəyir...

[1] Fanus – fənər

[2] Yapmaq – tikmək

Yoldaşlarıma dedim:

– Uşaqlar, bilirsiniz, şənbə nə təhər olsa, gedirəm.

Hamı mənə qibtə edər kimi üzümə dik baxdı. Mürsəl gülə-gülə:

– Bu xarabanın üzündən qurtarırsan. Görək biz başıdaşlı bu üç ay yayı necə küllənəcəyik.

Doğrudan da qışda başımız dərsə qarışır, yayda isə insan darıxır.

Həyatımız bir həyat olsa, insan səfalı bir yerdə darıxarmı? Həyat bir həyat deyil. Müsəlmanistanın dedi-qodusundan baş götürüb bulvara qaçırıq, burada da mənəvi rahatlıq yoxdur. Hansı tanış erməni qızına yanaşırsan, ətrafdan sənə min daşnaq gözü ağardılır. Müsəlmana erməni qızı ilə gəzmək yasaqdır.

Canım, bu milli ədavət nəyə lazımdır? Əsrlərdən bəri bir yerdə yaşaya-yaşaya gəldik, dost və qardaş yaşayışına nə üçün davam etməyək?..

Xülasə...

Həsən dedi:

– Burada könülaçan bir şey yoxdur, gəlin dağın başına çıxaq.

Razı olduq. Rəcəb getmədi. Dağa dikləndik. Bulvarın hasarını aşıb yuxarı çıxdıq. Sıldırım bir qayada oturub ayaqlarımızı aşağı salladıq.

Qarşımızda dərin və qorxunc bir uçurum var idi. Dibində, iki dağın arasındakı çay ayın şüasında sınıq güzgü parçasını andırırdı. O tayda ətrafı meşə ilə bürünmüş Topxana sükut içində idi... Sağ tərəfdəki Kirs qarlı başını göylərə yüksəldib sanki ulduzlarla dərdləşirdi. Bu əzəmətli mənzərə qarşısında üçümüz də susub qalmışdıq. Bu halda çayın qaranlıq dərədən yüksələn əsrarəngiz şırıltısı: "Dünyada yalnız bircə dəfə yaşanılır" – deyə, mənə anlaşılmaz kədərlər təlqin etdi.

Bir də kim isə aşağıda yanıqlı səslə oxudu:

"Qırıldı bülbüllər, boş qaldı bağlar".

Xəstə ürəklərimizə atəş səpildi – için-için yandıq. Nədənsə səs qırılıb yarımçıq kəsildi.

– Amandı, Həsən, yandıq – deyə, Həsənə yalvardıq. Onun gözəl səsi var idi. Başladı:

"Xumar-xumar baxmaq göz qaydasıdır,
Lalə tək qızarmaq üz qaydasıdır.
Pərişanlıq zülfün öz qaydasıdır,
Nə badisəbadan, nə şanədəndir".

Bu halda Rəcəb böyürdən çıxdı. Qəmli bir halda oturub başını aşağı saldı. Məsələni duyduq. Həsən gülə-gülə:

– Dostum, – dedi, – deyəsən qızla gəzməyə yenə razı olmayıblar?

Rəcəb dinmədi. Mən Həsənə göz vurub başladım:

– Canım, qız bunu istəyir, bu da qızı. Bilmirəm bu ortaya girənlər nə deyir?

Rəcəbin yarası qanayan kimi oldu, başını dik qaldırıb söyə-söyə:

– Vallah, bilmirəm bu köpək uşaqları bizdən nə istəyirlər?

Rəcəb sözlərini elə məzəli qeyzlə bitirdi ki, gülməkdən az qaldı qəşş edək. Həsən sual verməyə başladı:

– Axı bu gün görüşəcəkdiniz, bəs necə oldu?

– ?!

– Mən ölüm, necə oldu? Rəcəb bir az gülümsünərək:

– Əşi, görüşəcəkdik; demişdi, aşağıda, ağacın altında gözlə gələcəyəm.

Məktub verəcəkdi... Bir köpəkoğlu dəllək şagirdi bizə göz verdi, işıq vermədi.

Rəcəb sözünü bitirib yenə qəmlənərək başını aşağı saldı.

– Deməli, məktubu ala bilmədin? Rəcəb yavaş səslə:

– Aldım.

– Bəs niyə gəzmədin? Rəcəb yenə qeyzlə:

– Əşi, deyirəm dəllək göz verdi, işıq vermədi.

– Deməli, dəlləkdən qorxdun, hə?

İndiyə qədər cürətsiz görünən Rəcəb Mürsəlin sözündən alovlandı:

– Yox bir, öldüm. Vallah beşi yığılsa, arxa yerə vermərəm. Qızın xatirəsi üçün dinmirəm: qorxur atasına xəbər versinlər ki, qızın müsəlmanla gəzir.

Rəcəb bir az susdu. Sonra birdən əlini çiynimə vurub dedi:

– Murad, sən öl, bilirsən Hayqanuş necə qızdır? Deyir:

– Rəcəb, bizi təqib edənlərdən zəhləm elə gedir ki, görməyə gözüm yoxdur.

Bunu erməni qızı söyləyir... Qəribə işdir. Deyirlər qızla gəzən kim olur-olsun, istər sərsəri olsun, amma erməni olsun. Mən məktəb şagirdi, eyibliyəm, çünki müsəlmanam. Məntiq varmı? Nə vaxta qədər din fəsad toxumu əkməkdə davam edəcək?

Dağdan aşağı enirdik. Saat on idi. Rəcəb hələ də Kərəm dədə kimi yanırdı. Onu danışdıran eşq havası idi.

29 mayis. Darvaza döyüldü. Gedib açdım. Xudu idi. Xudunu tanıyırsınız

– qəssab Kərbəlayı Vəlinin oğludur. Sənəti sərsərilikdir. Ən böyük məharəti: məhəllədəki baqqal dükanının qabağında mərcə gedər.

– On xiyar yeyim, pulunu ver.

– Yeyə bilməzsən.

– Yeyərəm.

Doğrudan da yeyər, zorla da olsa yeyər. Şəhadət barmağını tərpədərək beş girvənkə tut yeyər, üstündən də bir neçə girvənkə qıcqırmış qatıq içər. Bu böyük bir məharət deyilmi?

Xudu məni görcək boynunu çiyninə qoydu:

– Ay bəy, – dedi, – başına dönüm, toyuğum qaçıb buraya girib, qoy gəlim tutum.

Mən heyrətlə:

– Toyuq buraya haradan gələ bilər – dörd tərəf uca barıdır?

Xudu yalvarar bir sifətlə:

– Ay bəy, vallah əlimdən uçdu.

Acığım tutdu, həm də gizlincə güldüm. Biçarə Xuduya yazığım gəldi. Xudu öz aləmində məni sevmiş. Mən bunun məhbubu olmuşam.

Ha-ha-ha. Məni görmək istəyəndə gələr toyuğu divardan içəri atar, sonra da ağlamsına-ağlamsına qapını döyər. Toyuğu tutmaq bəhanəsi ilə məni ziyarət edər. Doğrusu bu sətirləri yazmağa utanıram. Qorxuram dəftərim ələ düşə, rüsvay olam. Amma bu sirlərdən kimsə xəbərdar olmaz, zənnindəyəm, çünki dəftəri həmişə çamadanda saxlayıram, açar da özümdə olur.

Əvvəl Xuduya acığım tutdu, onu döymək istədim. Sonra vaz keçdim. Acığım soyudu, bir az da ona yazığım gəldi. Xudu kimdir?

Xudu müzür bir mühitin meyvəsi. Qadınları çarşabda olan bir cəmiyyətin üzvü Xududan artıq olmaz ki...

Toyuğu tutub Xuduya verdim və sərt bir sima ilə:

– Xudu, – dedim, – bir də toyuğun uçub bizim həyətə düşsə, səni buradan sağ buraxmayacağam. Bunu dürüst bil.

Xudu bərk qorxdu. Üzümə baxmağa belə cəsarət etmədi. Çıxdı.

Arxasından darvazanı bərk çırpdım... Nədənsə sonradan əsəbiləşdim.

Bədənim əsməyə başladı.

* * *

Camaşırım hazırdır. Şənbə günü gedirəm. Anam yol üçün suxarı və fətir də bişirəcək. Zarafat deyil, mən anamın ən böyük oğluyam.
Çocuqluğumda məni atıb – tutub dey
ərmiş:

"Mən anamın ilkiyəm
Ağzı qara tülküyəm..."

İndi belə bəzən başımı dizinin üstünə qoyaram, eyni sözləri təkrar edər. Mənə bəslədiyi eşqini anam yalnız bu sözlərlə ifadə edər. Bizim analarımız səs-küy və şöhrət bilməzlər. Məhəbbətlərinin zahiri əlamətləri belə yox kimidir. Bir dəfə də olsun anamın məni öpməsini xatırlamıram.

Amma xəstə oluramsa... yatağımın ətrafında pərvanə kimi dolanar, gecə yuxu, gündüz rahatlıq bilməz. Belə analar sevilməzmi?

30 mayis. Gecə saat iki. Yenicə yatağımdan qalxıb, çırağı yandırmışam.

Gözlərimə yuxu gəlmir...

31 mayis. Kefim yoxdur. Yuxusuzluqdan rəngim qaçmış, hava da könlüm kimi pərişandır, göyün qara buludları qəlbimin qüssədən qaralmış qanına bənzəyir...

Bu qədər mənəvi əzabın səbəbi nədir?.. Oğru, əyri, yolkəsən, avara, uşaqlara sataşan həp bizdən.

Mənim şəxsi tərbiyəm, qanacağım, ləyaqətimlə uğraşan varmı?

– Kimdir, müsəlman?

– Kafi.

Başqa bir şey arayan yoxdur. Əminəm ki, bir İvanın və ya Henrixin oğlu olsaydım, ən böyük hörmətə nail olardım. Nə edim ki, atam Məşədi Əbdül, özüm də Muradam...

1 həziran.[1] Gedib saçlarımı dibindən vurdurdum: indi ki, qızların məndən zəhləsi gedir, qoy büsbütün getsin. Mən ki, xoş rəftarımla onların rəğbətini qazana bilmədim, qara telimləmi qazanacağam? Sabah səfərdir, dərdlərim unudular zənnindəyəm... Öz evimizdə belə yad olmuşam.

Ürəkdən danışmaz, gülməz, əylənməz, hər şeydən qorxardım.

Atam məni tez-tez döyər, taleyim belədir, – deyə etiraz etməzdim.

Yalnız ata deyil, çocuqları hər kəs döyər.

[1] İyun

Şəhərimizdə on yeddi məhəllə var, hər məhəllənin bir məscidi və xüsusi həyatı var. Bir məhəllənin çocuğu o birisinə getdimi döyərlər. Bu adətdir. Ən gözəl tərbiyə çocuğu həyət hasarından kənara buraxmamaq idi. Mən də belə böyüdüm. Yoldaş yox, oyuncaq yox, bizimləməşğul olan yox. Ətrafımdakılara bir sual verdikdə:

– Az danış, başım getdi, – deyə cavab alardım. Çocuqluq şərəfim qırılar, daxili aləmimə çəkilib mənəvi yaralarımı qəmlə bəslərdim.

Yadımdadır, bir dəfə bir araba qayırıb qarda gizlicə sürüşdüm. Şalvarımın arxası yaş olmuşdu – bu, sirrimi açdı. Məni bol döydülər, arabamı da sındırıb, dəmir sobada yandırdılar. Arabadan sonra bir həftə yasa batdım, xəlvət guşələrə çəkilib gizli-gizli ağlardım, Beləcə, ətrafın zorbalıqları, vəhşəti, istibdadı qəlbimin şüşəsini sındırdı. Qəlbimdə daimi bir yaram var. Hər bir acı söz, acı rəftar ona toxunar, nalələr qoparar.

2 həziran. Sabah ertə hambal gəldi, şeylərimi götürdü ki, karvansaraya aparıb faytona qoysun – tək səbir gəldi. Şeyləri alıb hambalı yola saldılar ki, tək səbirdən sonra səfərə çıxmaq olmaz. Səbrin səfərə dəxli olmadığını anlatmağa qalxışdımsa da, bir nəticə vermədi. Atam-anam çəkilib işlərinə getdilər, mən də bu avamların dərdini qəlbimə doldurub odlandım.

* * *

Bu axşam heç yerə getmirəm. Gülşəni dağılmış bülbül kimi pərişanam. Fəğan etmək istərdim, lakin fəğanımı dinləməyə müstəid bir adam varmı? Təkcəyəm, kimsəsizəm, fəğanım da təkcədir. Yeganə yoldaşım, bircə sirdaşım dəftərimdir. Indi pəjmürdə halımla onun qarşısında durmuşam. Kirpiklərim göz yaşlarımı saxlamağa acizdir. Budur, odlu bir damcı əlimin üstünə düşdü, o birisi dəftərimi islatdı. Ağlayıram, bəli acizəm, zəifəm. Bu göz yaşlarımdan bir düzüm yapıb səadət ilahəsinin gərdənindən assaydım da.

Ev pərişan, dava-dalaş, deyişmə, qarğış. Atam anamı döyür, anam da acığını qızlardan alır. Bu bədbəxt məxluqa qarşı yapılan zülmü gördükdə, insan dəli olmaq istəyir.

Bu qaranlıq məhbəsdən çıxdıqda bundan daha da qaranlıq küçəyə düşürəm. Vəhşi kişilər gözləri ilə məni yeyirlər. Fəna komplimentlərindən qızarıram, çaşıram, özümü itirirəm. Yenə xaraba evə dönürəm.

Ev pozuq, küçə pozuq, əcnəbilər arasında bizə yer yox. Məktəb bunlardan da xarab: dinirsən, "tatarskaya lapatka" deyə başına çırpırlar. Tarix dərsi də ki, bir şərəf əzabı – hər sətri xalqımıza və keçmişimizə bir tənə və istehza...

"Dərd çox, həmdərd yox, düşmən qəvi, tale zəbun".

3 həziran. Xoruzbeçələrin banlayışı sanki yeni bir aləmdən xəbər verirdi. Xumarlanan gözlərim alaqaranlığı süzür, məstliyində davam edirdi. Xoruzlar təkrar banlaşır, məni yuxudan ayıldırdılar. Dan ulduzu sönük şüaları ilə gözümə çarpdı, təbəssümlər göndərən kimi oldu. Cəld geyinib bağçaya endim. Quyudan su çəkib üzümə vurdum, ayıldım. Gözəl bağçam dərin bir sükuta dalmışdı. Yüzlərcə bakir libaslı qönçələr günəşin yaldızlı[1] şüasını gözləməkdə idi, zanbaqlar məğrur başlarını yüksəldərək səf çəkmişdilər, məni görcək təzim edən kimi titrəşdilər, rəngarəng pərvanələr həzarbutaların ətrafına fırlanaraq rayihədən məst olmuşdular... Əlimdə bel əlvan çiçəklərin arasından keçərək, hər yeri yoxladım: alaqları dartıb atdım, kolların diblərini qazıb boşaltdım, quru budaqları qayçılayıb atdım.

Günəş göründü, bağçaya zər səpildi, ətrafı süsləyən şeh inciləri minbir rəng çaldı, çiçəklər nəşələr saçdı, altun qanadlı pərvanələr və arılar mizrabı simlərə vurar kimi güllüyü lətif təranələrlə doldurdular.

Belə söykənib bağçanı heyrətlə seyr edirdim. Ürəyim birdən sıxıldı, qərib hisslər duydum: acı bir nəşə qəlbimi yaraladı... Sinanın gözəl siması çiçəklər arasından yüksəlib gözlərimi əsir etdi...

* * *

Tam bir il (əsrlərcə uzun sürən bir il) əvvəl idi. Sinanı ilk dəfə görmüşdüm. Uzun boyu, al yanağı, qara atlaz saçları, xoş baxışı hala[2] gözlərimin qarşısında cilvələnir. Onu görməmişdən əvvəl yuxusuz gecələr bilməzdim, qəlbimi viran etdi. Ilk dəfə olaraq yeni həyat üçün ayıldım.

Kefim yoxdur, yaza bilmirəm. Sonu sabaha qalsın.

* * *

[1] Qızılı ya gümüşü, parlaq

[2] Hələ də, indi də

* * *

4 həziran. Çar hökuməti erməni kilsəsinə məxsus əmlakı almışdı. Bizim vəqf əmlakı da alınmış və indiyə qədər geri verilməmiş – bizimlə hesablaşan kimdir ki? Rusiyanın rus-yapon müharibəsi və inqilab kimi çətinliklərindən istifadə edərək daşnaq firqəsi terrora başladı: günün günorta çağı hökumət məmurlarını küçələrdə öldürməyə başladılar. Şuşada da az adam qırmadılar. Şəhərə əsgər gəldi, idareyi-ürfiyyə elan olundu. Sina gələn kazak zabitlərindən birinin qızı idi. Osetin idilər. Ona ilk dəfə balkonda rast gəldim. Bu kifayət idi. O gündən etibarən o cazibəli sima varlığıma hakim kəsildi. Hər gün neçə dəfə balkonun altından keçər, onu görmək istərdim, bir gün görməsəm, dəli kimi olardım. Mənim üçün ən məsud dəqiqələr balkonun altında keçirdiklərim olurdu. Başqa vaxtlarım əzabdan ibarət idi. Məni heç bir şey maraqlandırmırdı – məktəb zindan, ev zindan, hər yer zindan idi. Nə yoldaşların danışığı, nə evdəkilərin söhbətləri – heç biri məni məmnun etmir, biləks acığıma səbəb olur. Yazıq çocuqları mən də incitməyə başlamışdım.

Sina ilə tanış ola bilmədim, yəni fikrində də deyildim. Bütün mənəvi mükafatı yalnız onu görməkdə bulurdum.

Getdi. Bir müddət dərd içində çırpındım. Zaman unutdurdu. İndi çiçəklərlə bərabər yenə qoxulayır, yenə qəlbimə qonaq gəlir.

* * *

Axşam saat ondur. Evimizdə hamı yatmışdır. Bir bizdə deyil, şəhərdə "müsəlman" deyilən burunlu-qulaqlı bütün məxluq yatmışdır. Bunlar günün qulağı batandan bir saat sonra çörəklərini yeyib, namazını qılıb yatağa sərilirlər. Nə etsinlər – oxumaq, yazmaq yox, kitab yox, əyləncə yox... heyvani bir həyat.

Bağçanın bir guşəsində şam işığında oturub yazıram. Bilirəm atam işığı görsə üzümü danlayacaq:

Gecənin yarısına kimi də deyəcək çıraq yanarmı? Belə tələfxərclik olmaz ki, sən eləyirsən? Mən bir qəpik qazanınca can allaha verirəm, sən də mənə qəsd eləyirsən.

Bunlar atamın həmişə dediyi sözlərdir. Bu sözləri çocuqluğumdan eşidirəm:

– Ədə, pələsək vurma, başmaq yırtıldı.

16

– Ədə, ağaca dırmanma, şalvar yırtıldı.

– Ədə, az ye, çörək qurtardı.

Bu kimi ifadələrə qulaqlarımız alışmış. Bu sözlərin sayəsində cəsarətimiz qırılıb getmişdir. Ata-anamızdan bir əmr sadir olar deyə kirpiklərimizi qırpmağa belə cürət etməmişik. Indi iyirmi üç yaşım var (rəsmi kağızlarımda yaşım iyirmidir, bu doğru deyildir), həm də atamın

nüfuzundan qurtara bilmirəm. Neçə gündür avamlığı ilə başıma ip salıb oynadır: şənbə günü tək səbir gəldi, səfərimə razı olmadı, dünən saat xoş deyilmiş, bu gün "bəni yumə"dir, nəhs gündür, sabah qəmər əqrəbdə olacaq... Müsəlman il uzunu saat xoşladır, fala baxdırır, qurana istixarə etdirir. Axırda da hamıdan geridə, kirli və vəhşi bir həyat keçirir. Bizim sadəliklə işimiz yoxdur, hər şey mürəkkəb və dolaşıqdır.

Bircə ayların adına bax: Məhərrəm əl haram, Səfər əl müzəffər, Şəvval əl mükərrəm. Bircə adam adlarına bax: Məşədi Imamqulu, Kərbəlayı Ocaqverdi, Hacı Yaftıməli... Bircə adətlərə bax: məhərrəmlikdə xəncər götür, öz başını vur-yar qanın tökülsün, bədənini deşdir, dərindən qıfıl, güzgü, ox as... hər şey dolaşıq, hər şey ağıl şaşdıracaq qədər axmaqdır...

Mən də bu çürük mühitin meyvəsiyəm. Qara suda bitmiş yarpız kimi, həm özümü, həm də başqasını acılayıram. Atam məndən dilgir, mühit məndən dilxor.

Evdə ağzımı açıb danışa bilmirəm:

– Sən danışma, heç bir şey bilmirsən. Böyüyün sözünə bax! – deyə hər tərəfdən ağzıma vururlar. Böyük də barı böyük ola. Yazıq ağzının çörəyini yeməyə qadir deyil. Özü də dünyada molla Səlimdən böyük, ondan müqəddəs bir sima tanımır. Onu görəndə səcdəyə düşür. Molla da müridlərin əhvali-ruhiyyəsinə gözəlcə bələddir – başlarına ip salıb istədiyi yerə sürüyür. Qəribə burasıdır ki, atam məni də molla Səlimə mürid etmək istəyir, deyir:

– Niyə ağanın yanına getmirsən, səni çox xəbər alır.

Deyirəm:

– Getmirəm, çünki mənim boynuyoğun və insafsız adamla işim yoxdur.

– Bu sözlərimin üstündə atam bir dəfə az qaldı vurub məni öldürsün. Bir iri daş götürüb belimə salmaq istəyirdi, qaçdım, canım qurtardı. Atamın məndən zəhləsi gedir, məni laməzhəb bilir:

– Sən moltanısan, – deyir, – sənin allahın yoxdur. Atam mənim oxumağıma əsla razı deyil. Məni məktəbə qoyan anam olmuş, sonra da özüm davam etmişəm. Atam molla Səlimin məsləhəti ilə məni məktəbdən çıxarmaq istəmiş, bacara bilməmiş. Dörd ildən bəri bu barədə atamla danışığımız olur, söyür, söylənir, çığırır, bağırır – əlinə bir şey gəlmir.

5 həziran. Sabah ertə yenə atamla sözüm çəp gəldi. İstehzalı bir təbəssümlə dedim:

– Ay dədə, bəs qəmər əqrəbdən nə vaxt çıxacaq?

Atam ciddi cavab vermək istədi, lakin istehzalı təbəssümümü gördükdə şaşırdı. Nə cavab verəcəyini bilməyib darvazaya tərəf getdi və sonra nə düşündüsə, geri döndü:

– Ədə, – dedi – atamın goru haqqı sənin məzhəbin-zadın yoxdur.

Nə şəriət tanıyırsan, nə imam. Heç zad tanımırsan. Gör nə təhərdisə molla Səlim ağa kimi kişi də səndən razı deyil.

Atamın sözlərini kəsdim:

– Sən molla Səlimin atasının goru, qoy oturum – dedim, – molla Səlim yaxşı olsa, evində arvad sürüsü saxlamaz. Adam sözü danış.

Atamın rəngi üzündən götürüldü, çuxasının qolunu titrək əli ilə çirməyib üstümə yüyürdü... Mənə yaxınlaşdıqda əllərini aşağı saldı.

Mətanətli baxışım onu bir az da utandırdı:

– Çörəyim səni tutsun, – deyə kişi başını aşağı saldı və yavaş-yavaş geri çəkildi.

Deməli, nə vaxt gedəcəyim yenə bəlli olmadı... Anama deyirəm:

– Ay ana, bəs məni nə vaxt yola salırsan?

Deyir:

– Belə olsa, heç vaxt.

– "Belə olsa" hansıdır? – deyə ehmal soruşuram. Anam acıqlanır:

– Özünü xora-xoşa qoymusan, yekə kişini uşaq kimi ələ salıb oynadırsan, üzünə ağ olursan. Sonra da deyirsən günahkar odur.

Gülmək məni tutur, anam daha da acıqlanır.

– Dişi pişik kimi hırıldama, – deyir. Gülmək məni götürür. Gülürəm.

Axırda rişxəndli bir qayda ilə cırıq arxalığının qolundan yapışıb yuxarı qaldırıram, yenə gülürəm. Anam da gülür və qolunu dartıb məndən qurtarandan sonra:

– İtil o yana, vurulmuş! – deyə gedir. Arxadan ona bir müddət tamaşa edirəm. Çirkli paltarını və yalın ayağını gördükdə həm ağlayıram, həm gülümsünürəm.

– Yazıqlar, – deyirəm, – sizin içinizdə yaxşıca oda düşüb yanıram.

Anam dönüb ciddi bir sima ilə baxır və inanmaz bir səslə:

– Balam, – deyir, – sənə nə pislik eləyirik? Başından bir tük əskik olmağına razı deyilik. Sənə nə yamanlıq eləyirik?

Anam cavab gözləyən gözləri ilə bir az üzümə diqqətlə baxır, mən də onu süzürəm və öz-özümə düşünürəm:

"Anam və atamla mənim aramda bir uçurum var; nə bunlar bunu keçməyə müstəiddir, nə məndə meyl var. Uçurum əbədidir. Bunların yaralarına duz səpməkdən vaz keçməm yaxşı deyilmi?"

– Ana, – deyirəm, – mənə heç biriniz yamanlıq eləmirsiniz. Ancaq sən allah, məni tez yola salın gedim...

Anam sakit olur və ehmal səslə:

– Arxayın ol, şənbə günü allah qoysa gedərsən.

– Allah qoymasa nə təhər olsun...

Anam yenə acıqlanır. Əllərini çırpıb ümidsiz bir halda məndən uzaqlaşır. Tək qalıram. Peşman oluram. Öz-özümə darılıram.

* * *

Neçə gün var ki, bulvara getmirəm. Bu gün yoldaşlarım dalımca gəlmişdilər. Həyətdə oturub çay içdik, hal danışdıq. Baxıram bu dörd yoldaşın hərəsində bir xasiyyət var: heç biri o birinə bənzəmir. Mənsub olduqları ailə tamamilə başqa-başqadır. Həsən həkim oğludur. Həkimlik bunlarda irsidir, atadan oğula keçir. Təhsili də evdə alarlar. Mürsəl bəy balasıdır. Böyük bir imarətləri var, lakin bu imarət uçubtökülüb, xaraba bayquş yuvasını andırır. Atası il uzunu kənddə olar, ailəsi də şəhərdə acından ölər. Mürsəlin qışın soyuğundan örtünməyə bir paltosu belə yoxdur. Böyük qardaşı studentdir, ikisi də gözəl oxurlar. Rəcəbin atası tacirdir, pul müamiləyə verər, axır vaxt qaçaqçılıq edir. Bu saat silaha yaxşı pul verildiyi üçün Rəcəbin atası da zəngin olmuşdur. Aramızda ən laübalı Həsəndir. Başlıca vaxtı kefə gedir. Çarşablı qızlardan belə bir çox dostları var.

Mən də ki, bəlli: kitab yolunda hər şeydən keçərəm. Peterburqdan məcmuələr gətirdirəm, böyük bir kitabxanam var.

Bugünkü söhbətimiz çox əndişəli keçdi. Həsən hamımızdan yaşlı və təcrübəli olduğu üçün bizim dərk edə bilmədiyimiz bir çox məsələni aydınlaşdırdı:

– Görürsünüz, – dedi. – Bizə qarşı düşmənçilik artır. Özləri də bərk hazırlaşır: bol tüfəng, tapança və patron alırlar. Daşnaq fədailərinin əlindən şəhərdə yer yoxdur. Bunlar hamısı kəndlərdən gətirmə adamlardır.

Rəcəb Həsənin gülə-gülə dediyi sözlərdən dilgir oldu:

– Hamı satır, – dedi, – biri də mənim atam. O, satmasa nə olacaq ki?

Mən heyrətlə:

– Bəs hökumət bilmirmi? – dedim.

Həsən güldü:

– Elə bu işləri edən hökumət deyilmi? Dovşana qaç, tazıya tut deyir. Bakıdakı qırğını qubernator eləmədimi?

Mürsəl:

– Məlum işdir, – dedi, – xalqı bir-birinə qırdırmaqla inqilabı susdurmaq istəyir.

Bu məsələ ətrafında uzun-uzadı danışdıq. Bilmədiyimiz və maraqlandığımız bir çox işlər aydınlaşdı. Mən şəxsən ayılan kimi oldum.

Keşişlər çocuqlara, görünür, şovinist bir tərbiyə verirlər. Əsgərliyə çağırılan gənclər kəndlərdən şəhərə toplandıqda müsəlmanlara hücum edirlər. Bunlar hamısı daşnaqların propaqandası nəticəsində imiş.

Bunlar nəyə lazım? Əsrlərdən bəri yan-yana yaşayan iki xalq arasına nifaq salmağın faydası nədir? Xülasə, biz cahil, ermənilər də mədəni dəli. Erməni kitabxanasına tez-tez kitab almağa gedirəm. Erməni məsələsinə dair nə qədər kitab yazmışlar. Hamısı da kin və ədavət saçır. Gənclər bu kitabları oxuyaraq yollarından sapırlar. Nə isə, bu işlər xoşuma getmir. Əlimdən də bir iş gəlmir... Könülaçan da bir iş yoxdur.

6 həziran. Yenə qara buludlar könlümü bürümüş, yeni həyat acılığı damağıma çökmüş. Dərdlərimə şərik axtarıram. Dəftərim, sevgili dostum səhifələrini məndən əsirgəmir. Yazıram. Qələmimin ucundan göz yaşları damır. Ürəyim sızıltılarını kağıza tərk etmək istəyir. Yazığam, bəxtiqarayam. Keçmişim qəm, hal-hazırım qəm, gələcəyim qaranlıq. İşıq əsəri görünmür, gənclik də dayanmır, gedir. Məndən uzaqlaşır. Dayandırmaq istəyirəm, dayanmır, ah-zar eləyirəm, nalələrim cavabsız qalır.

Hərdən iztirabla güzgünü qarşıma qoyub özümə tamaşa edirəm.
Çöhrəmi solğun gördükdə ürəyim odla dolur. Üzümdə gənclikdən heç

bir nişanə qalmamış, xəzan yarpağı tək saralıb solmuş. Alnımda, gözlərimin ətrafında, dodaqlarımın səmtində acı həyat izləri görünür, tam simam qırışmağa başlayır. Qara iri gözlərim qəmli pəncərələrindən vəfasız dünyaya dalğın-dalğın tamaşa edir.

– Ağla, – deyirəm, – ağla ey bəlalı gözlərim. Gənclik mülkündən əlin çıxır, ümid şamlarını zəmanə söndürmək istəyir.

Gözlərim sanki sözlərimi dinləyərək buludlu qəlbimdən qanlı yaşlar axıdır. Qocalmağıma inanmaq istəmirəm. İstəyirəm hələ həyatımın baharına inanım, ümidlə yaşayım, səadətin şux baxışının məftunu olum, güzgü aman vermir:

– Gənclik gedir, – deyir, – tale üz gizləyir, bahar gülləri qönçə ikən solur. Qələm əlimdən düşür. Başımı yazı masasına söykəyib cənnətini itirmiş Adəm kimi, aləmi göz yaşında boğmaq istəyirəm.

* * *

İndicə bulvardan gəlirəm. Neçə gün evdə oturmağım yoldaşları heyrətə gətirmiş. Bilxassə, Manya çox maraq etmiş. Rast gəldikdə mən onu soyuq qarşıladım, o isə gözləmədiyim bir tərzdə mehriban idi: gülə-gülə təzim etdi və keçdikdən sonra döndüm, o da dönüb mənə baxırdı. Ona darıldığımı görünür duymuş. Ehtimalım doğru oldu, bir az sonra bir çocuq göndərib mənimlə görüşmək istədiyini bildirdi. Bulvarın kənarında yarım saatlıq vüsala nail oldum.

Uzun saçının ucu ilə oynayaraq:

– Mənə çoxmu darıldınız? – deyə başını qaldırıb üzümə baxdı, mərcan yanaqları daha da qızarıb parladı.

– Təbii deyilmi? – dedim. – Bizdən qaçmaq bizi vəhşi zənn etmək deməkdir. Bu da doğrusu mənəvi əzablar verir. Məndən münasibətsiz bir hərəkət gördünüzmü?

Manya utanaraq:

– Görmədim. Həmişə sizin nəzakətinizdən bəhs edirəm.

– Bəs məndən qaçmanızı nə ilə izah etməliyəm?

Manya qızardı, şaşdı, cavabdan aciz qaldı, dili dolaşaraq:

– Bilirsiniz... Belədir... Müsəlmanlarla gəzməyimizə razı olmurlar.

Bizdə nə ixtiyar var?

– Manya, – dedim, – bu gün Rusiyada inqilab olub. Bu inqilabın şüarlarından biri də dini və milli, ziddiyyəti ortalıqdan qaldırmaqdır.

Biz gənclərin vəzifəsinə nə düşür?

Manya sözlərimi kəsdi:

– Bunları bilirəm, – dedi. – Amma nə edə bilərəm ki...

Manya sözlərini bitirərək günahsız gözləri ilə gözlərimin içinə baxdı, sanki: "Bizi zahirən ayırsalar da, qəlbən birik" – demək istəyirdi.

Ağacın arxasından bir seminariya tələbəsi göründü. Onu Manya görcək əlini cəld uzadıb iri addımlarla uzaqlaşdı, mən də məyus bir halda xiyabana döndüm. Rəcəbə rast gəldim.

– Səni gəzirəm, – dedi, – haradasan? Anlatdım.

– Xoşbəxtsən! – deyə köksünü ötürdü.

Bir neçə dəqiqə sükut içində keçirdik. Sonra Rəcəb:

– Student Xaçaturyanı gördünmü? – deyə sordu.

– Görmədim, necə?

– Bir dərnək təşkil etmək istəyir, müsəlmanlardan da sənin lə məni cəlb etmək istəyir.

– Nə dərnək?

– Gəncədə Süleyman Mehmandarov adlı bir gimnaziya tələbəsi var. Bu tələbə sosialistdir. Buraya gəlib, beynəlmiləl bir təşkilat yapmışdır.

Xaçaturyan da onun üzvüdür. Xaçaturyan bizə leksiya oxuyacaq.

– Bu yaxşı fikirdir, ancaq heyf ki, mən gedirəm. Istəyirsən, Mürsəli cəlb et.

Rəcəb düşündü.

– Nə bilim, görək, – dedi.

Bu əsnada Həsənlə Mürsəl yanaşdı. Həsən həmişəki kimi bığlarını burub, zümzüməsinə davam edirdi, Mürsəl də belini əyib, çənəsindəki yumşaq tükləri burmaqda idi.

Həsən istehza ilə:

– Gecə keçir, – dedi, – gəlin gedək, bozbaşımızı yeyək, yataq.

Yoxsa indi atam gələr əlində fanus bura çıxar, qızların yanında rüsvay olaram.

Hamımız qəhqəhə çəkib güldük. Həsən zarafatında davam edirdi:

– Zalım oğlunun bir papağı da var arşın yarım. Atalarımızın arasında yenə Mürsəlinkindən yaxşısı yoxdur. Bir iş var ki... onun da papağı təkər kimidir. Buradan buraxsan düz bulvarın aşağısında dayanar.

Ha-ha-ha.

Atalarımızın sözü danışılanda utanardıq, Mürsəl də qızarıb, Həsənin qoluna girdi və ortalığa söz qatmaq üçün:

– Bir segah de, qulaq asaq, – dedi. Həsən gülə-gülə:

– Segahı neynirsən? Indicə evə çatdıqda atamız bir elə segah deyəcək ki, dadı sabaha qədər damağımızdan getməyəçək. Bu saat yatıblar (xasiyyətləridir – gün batan kimi soyunurlar), elə ki, darvazanın döyəcəyini üç dəfə kəlmə-kəlmə vurdum, biləcək mənəm. Bu kifayətdir, zümzümə başlayacaq: "Başınıza dönüm, – deyəcək, – adam da bir bu qədər gəzərmi? Axır bilmirəm o bulvarda nə var ki, bu oradan üəl çəkmir. Biz görmüşdük bağa gəzməyə gündüz gedərlər, daha gecə getməzlər, özü də hər gün yox, düşəndə bir. Bu, iş-peşə eləyib...".

Deməli qapıya gəlincəyə qədər "çalacaq". Mən də adət eləmişəm, heç dinmirəm. Deyir, deyir, yorulur.

Rəcəbin də yaraları təzələndi, o da atasından şikayətə başladı:

– Mənimki də tutub ki, gəl məktəbdən çıx, səni evləndirim. Həmişə də məsəl çəkər, deyər: "Uzun ayaq zibil gətirər".

Həsən gülə-gülə Rəcəbin sözlərini kəsdi:

– Sənin də ayaqların yaxşı ki, gödəkdir. Ha-ha-ha. Yoxsa kişinin evini lap zibillərdin.

Rəcəb Həsənin sözlərindən pərt oldu. Çünki alçaqboy və gödək ayaqlı olduğundan dilgir idi. Bunların xatırlanmasını istəməzdi.

Bir müddət sakit keçdi. Ermənilərin işıq və geniş küçələri bitib, bizim dar və qaranlıq küçələr başlandı...

Həsən sükutu pozdu:

– Başına daş düşsün, müsəlman, – dedi. – Bircə küçələrə bax, uçuq daxmalara bax. Barı lağımların üstünü də örtdürmürlər ki, bəlkə bu üfunət kəsilə.

– Kim örtdürəcək, – dedim. – Şəhər idarəsində adamımız yoxdur ki. Orada bir neçə hacı var, onlar da iclas zamanı yatırlar.

Hamı susdu. Sanki bu xalqın ayılmasına kimsənin inamı yox idi.

Mən də şapkamı qəmli gözlərimin üstə çəkib, dərin bir sükuta daldım.

7 həziran. Eyni məsələ, həyat məsələsi həmişə məni düşündürür.

Şüur nə böyük əzabdır! Dünyada insan bir dəfə yaşayır, gənclik müvəqqəti bir hədiyyədir – bunları dərk edirəm, lakin istifadə edə bilmədiyimdən yanıb bitirəm. Yaşayışımız bir yaşayışmı? Çıxacaq lazım – bunu da bilirəm, ancaq yolu itirmişəm... Atalar deyir: "Sabah gü-

nünə qızmayan axşam gününə heç qızmaz". Mənim gənclik sabahım elə sislərə dalmış ki, günəşin istisinə ümidim heç də qalmamışdır. Gəncliyimin bütün zinəti yoxsulluqdan ibarətdir. Başqaları qızların nəzərini cəlb etmək üçün gündə bir paltar geyir. Mənim də allahdan istiğasəm[1] budur ki, çəkməm tez yırtılmasın, şalvarımın arxası tez deşilməsin. Çünki (Allah eləməsin) mənə belə bir müsibət üz versə, tamamilə halım xarablaşar. Odur ki, səhər yuxudan oyanar-oyanmaz təftiş başlanır: acı bir iztirabla çəkmələri qaldırıb altlarına baxıram, üstlərini əlləşdirirəm, dabanlarını gözdən keçirirəm. Sonra qorxa-qorxa şalvara əl atıram, qaldırıb arxasını işığa tuturam... Süzülüb işıq verdikdə şalvar əlimdən düşür, ixtiyarsız halda donub qalıram. Bir az keçmiş öz gözlərimə inanmamağa başlayıram: yenidən şalvarı qaldırıb diqqətlə tamaşa edirəm. Hövsələdən çıxıram. Əlac nədir? Bilirəm atam pul verməyəcək, "niyə tez yırtıldı?" – deyə hələ məni də lazımınca məzəmmət edəcək. Özümün də ki, pulum yoxdur, iyirmi-otuz manta dərsdən pul qazanmışdım, o da kitaba, dəftərə və başqa xərclərə getdi. Ümidimi yenə atama bağlayıram. Anamı öyrədirəm ki, atamı yola gətirsin. Atamın da yola gəlməsi neçə ay çəkir. Tərs kimi də paltarın yırtılması mayisin sonuna təsadüf edir. Istidən paltolu gəzmək olmaz, paltosuz da cırıqlar göz qarşısında... Başqaları gəzib əylənəndə mən də evdə oturub cırıq dərdi çəkirəm.

Bədbəxtliyə bax ki, bu gün baxıb görürəm çəkməmin üstü çatlamış. Bilirəm bir-iki gündən sonra deşiləcək...

* * *

Bu axşamı da keçirdik getdi. Bu gün Rəcəb axşamadək bizdə idi. Naharı da bir yerdə elədik. Rəcəblə dostam. Onunla mənimki tutur. Qeyri-mütəəllimlər kitabdan dilxordurlar. Rəcəbdə bu sifət yoxdur. Bu da mənim kimi şairpərəstdir. Həmişə şairlərin xoşumuza gələn əsərlərini bir yerdə oxuyuruq. Bunun ən sevdiyi şair Lermontovdur, mənimki lord Bayron. Mən də Lermontovun aşiqiyəm, amma təqlidim Bayronadır. Tez-tez tərcümeyi-halımı onunku ilə müqayisə edirəm.
Onun təsviri[2] həmişə yanımda olur.

[1] İstiğasəm – xahiş, yalvarıb kömək istəmək
[2] Əksi, şəkli

Bu gün də Henrix Heynedən bir qədər tərcümə elədik. Şeir albomum bir az da dövlətləndi. Dindar bir adam müqəddəs kitablardan həzz anlayan kimi mən də şeir albomumdan ruhani bir ləzzət aparıram. Ürəyim dərdlənəndə bağçanın bir guşəsinə çəkilib oxuyuram. Kərəm kimi od tutub yanaram, göz yaşlarım həzin-həzin yanağım aşağı axar. Özgələrin şeirləri dərdlərimə tərcüman ola bilməzsə, öz şeirlərimlə halımı bəyan etməyə çalışaram. Amma şeirlərimi bir kəsə oxumaram. Çünki onlar hisslərimin vasitəsidirlər. Bu vasitəlik bir sirri-müqəddəslə əhatə olunmalıdır. Mən özümü balaca bir şair hesab eləyirəm. Ürəyim də şair ürəyi kimi yaralıdır. Dərdlənəndə yaralarımdan soyuq qan axmağını hiss eləyirəm...

8 həziran. Sabah tezdən gedirəm. Allah eləyəydi, daha tək səbir gəlməyə idi. Bir tərəfdən sevinirəm, bir tərəfdən də ürəyim açılmır. Şad ola bilmirəm. Həmişə mənim şad olmağımda da bir ürək sızıltısı gərək olsun. Tutqun qəlbimlə ətrafımdakılara "xudahafiz" deyirəm. Əlvida! Ey sevgili kitabxanam. Sağlıqla qal, istəkli Bayronum. Kim bilir, bəlkə geri qayıtmayacağam. Bəlkə qəza qürbət ellərdə mənə əcəl şərbəti hazırlayır. Bağçam təkcə qalacaq. Gül bülbülsüz, bağça Muradsız olarmış. Salamat ol, gözəl bağçam. Rayihənlə damağımı çox oxşamısan. Qəmli dəqiqələrimi, ənbərəfşan çiçəklərinlə əhatə edib mənə şadlıq nə olduğunu dəfələrlə anlatmısan. İndi səni, zəhmətlərim məhsulunu qoyub gedirəm... Ağlama, vəfasız yarlı qızcığazlar kimi çox da döyükmə. Ötər aylar, dönər illər, məni də unudarsan. Keçmişim qəm, hal-hazırım qəm, gələcəyim naməlum...

15 həziran. Dünən sabah ertə gəlib A[1] şəhərinə çıxdım. Hava qayət isti idi. Belə isti mən ömrümdə görməmişdim. Lakin istidən artıq dilgir olmuram.

Çünki şəhərimiz məni o qədər təngə gətirmişdi ki, oradan çıxıb cəhənnəmə də getməyimə razı idim. Bura ki, cəhənnəm deyil. Bizim şəhərdən çox-çox gözəldir, O köhnəlik, qədim adət və qaydalar gərək burada olmasın. Camaatı da sözbaz, əxlaqı pozğuna bənzəmir – çoxu əcnəbidir.

Düşdüyüm evdən də razıyam. Xalam və əri pis adama bənzəmirlər. Mənim yolumda çox zəhmət çəkirlər. Dünən axşam mənim görü-

[1] Söhbət Aşqabaddan gedir.

şümə çoxluca kişi gəlmişdi. Bunların birini də tanımıram. Şəhərimizdən çoxdan çıxıblar. Xalamın əri qonaqların yanında mənimlə aşkarca fəxr eləyirdi. Mən danışdıqca hamı gözlərini tabe bir halda mənim ağzıma dikirdi. Biçarələr elə yazıqdırlar, elə elmsizdirlər. Başları xırda ticarətə qarışıb, bilmərrə dünyadan xəbərləri yoxdur. Xalamın əri bir balaca arifləşib, özünün savadı yoxdursa da, "Molla Nəsrəddin" oxunanda guş və huşla qulaq verir. Tez-tez gülür və deyir: "Köpək oğlu Molla Nəsrəddin qərib bijdir". Xalam avam bir arvaddır. Şapkama yapışdıqdan sonra əlini suya çəkir, deyir onu urus tikib.

Dünən axşam qonaqlar gedəndən sonra məni o ki, var üzərlik tüstüsünə verdi, qorxur ki, qonaqların gözü mənə dəysin. Xülasə, bura da bizim ev kimi avamlıq və nadanlıqdır. Lakin incimirəm: xalam və əri çox sadəlövh və səmimi adamdırlar. Məni də çox istəyirlər.

16 həziran. Bu gün şənbə olduğu üçün bazarda şenlik çox idi. Məni bir xeyli müsəlmanla[1] tanış elədilər. Görünür, şəhərdə iki müsəlman studenti və bir neçə gimnaziya şagirdi var. Bir xeyli də xırda məmur var. Bunlar buranın ariflәridirlər. Qəribə burasıdır ki, cəmi şəhərdə məndən başqa realni şagirdi yoxdur. Amma qəribə qızlar da var. Buranın məktəb qızları göy zolaqlı paltarda və ağ döşlükdə gəzirlər. Bu libas qızlara çox yaraşır. Bunları gördükdə adamın ruhu həllənir.

18 həziran. Bu axşam yeznəmin mağazasının qabağında oturub bazardan ötüb keçənə tamaşa edirdim. Qarşımdan iki qız keçdi. İkisi də məktəb qızı idi. Biri mənə bir elə halda nəzər elədi ki, elə bil gözlərini məndən çəkməyə bir o qədər də qadir ola bilmirdi. Onun nəfis bənizi və qara gözləri zehnimi istila elədi. Belə ki, fövrən əsir oldum. Özüm də heyrət içindəyəm...

19 həziran. Yavaş-yavaş xalama bələd oluram. Görünür, şəhərdə buna tabe arvadlar çox imiş. Xalam da Seyid Cahanın müridlərindəndir. Seyid Cahan bir arvaddır ki, bu şəhərdə əvvəl ocaq (pir) çıxardıb. Ona görə onun xatiri camaat arasında mənzurdur. Məclisə daxil olduqda hamı dik ayağa qalxır. Seyid Cahanın sağ tərəfində xalam oturar və onun nə əmri olsa camaata bildirər. Xeyir və ya şər xörəyi verildikdə Seyid Cahan əli ilə boşqaba plov qoyar və xalam onu məclisdə gəzdirib hərəyə bir neçə düyü dadızar Seyid Cahanın əli dəyən plovdan arvadlar savab qazanarlar.

[1] Aşqabadda yaşayan azərbaycanlılara işarədir.

Xalamın əri Kərbəlayı Əsəd ixtiyarsız bir kişidir: xalam nə deyərsə, o da onu qəbul edər. Bunlar bir-biri ilə çox mehriban dolanarlar. Heç aralarında sözləri çəp gəlməz. Özləri də dünyadan çox razıdırlar. Ancaq bircə dərdləri var – övladları yoxdur. Çox dualar yazılıb, çox nəzirlər olunub – nəticəsi görünmür. Bu yolda xalam çox çalışır. Kərbəlayı Əsədin bişmişinə ədviyyələr qarışdırır, ona kasni və bədmüşk arağı içdirir. Özü də çilləsini kəsdirir, axar su üstünə çıxır, qurd dərisinin altından keçir, duaçı və falçıya gedir. Zənn edirəm ki, bunların övladı olsa, onu istədiklərindən boğub öldürərlər. Çünki uşağa olan məhəbbətləri ölçüyə gələn deyil.

20 həziran. Dünən axşam yenə həmən qaragöz qıza rast gəldim.

Lətif qızdır. Məni görcək başını çiyninə qoyub həsrətlə baxdı. Nəzərimiz bir-biri ilə görüşüb elə bil dərdləşməyə başladı. Mən qaldım kənarda, nəzərimsə onun nəzəri ilə dostlaşıb getdilər. Nazikbədən qız əli ilə şlyapasını tutub uzaqlaşırdı və hər addımı zehnimdə izlər buraxırdı.

* * *

Bekarçılıqdır. Gündüzlər istidən evdən çölə çıxmaq mümkün deyil. Pəncərələrin dal qapılarını bağlayıb yazıram. Hər nə ağlıma gəlir onu kağızda qeyd eləyirəm. Istəyirəm məhəlli müsəlmanlara dair bir məqalə yazam, göndərəm qəzetə. Bir də deyirəm qoy qalsın. Buranın müsəlmanları ya Mərakeş müsəlmanları, fərq yoxdur. Hamısının azarı avamlıqdır. Məktəb lazımdır. Məktəb olmasa, fikirlər pasdan xilas ola bilməz. Bu nəsil gərək özbaşına qoyulsun, gələn nəslə tərbiyə və təlim verilməlidir. O böyüdükcə köhnə nəsil ölüb gedəcək və özü ilə də eyiblərini aparacaq. Ona görə bu nəsli tərpədib acıqlandırmamalı. Elə eləməli ki, övladlarını üsullu milli məktəbə göndərsinlər. Vəssalam. Yoxsa yüz min vəz eləyəsən, Kərbəlayı Əsəd dönüb avropalı olmayacaq. Köhnə adamları təzələmək həm o adamlara ziyandır, həm millətə.

Burada bir şəxs var. Əvvəllər məşhur molla olub. 1905-ci il inqilabı bunu "ayıldıb", indi şürbi[1] olub düşür çöllərə. Bunun rəyincə avropalılıq və mədəniyyət ancaq şərab içib küçələrdə tərbiyəsiz əməl-

[1] İçkiçi, Şərab düşgünü.

lər törətməkdə imiş. Bu misaldan bircə mətləb hasil olur: köhnələrin təzələnməsi faydasız olur. Quru ağacı düzəltməyin çarəsi ağacı sındırmaqdadır. Yaxşısı budur ki, yaş çubuqlardan başlayaq. Çubuqlar da balalardır. Bunlara tərbiyə verməli ki, düz bitsinlər. Yaşasın çocuqlar.

21 həziran. Yenə ürəyimə qəm dolmuş. Bilmirəm məndən nə istəyir. Xəstə kimiyəm. Lakin bu qəm qeyri qəmlərə bənzəmir. Ürək sancısından həzzlər görürəm. Bilmirəm mənə nə olub. Ətraf məzmununu məndən ötəri dəyişib. Səbəbsiz ağlamaq istəyirəm. Güman ki, eşqə giriftar oluram, sevmək istəyirəm. Ürəyim tez-tez əsir. Qaragöz qız da varlığıma gün-gündən malik olur. Onu görmək istəyirəm. Onun xoş baxışı etina ilə doludur. Mənə qalib gələn də etinadır.

Qara gözlər! Birisi qəsdi-can eləyir. Bəs o birisi nə eləyir? Ona da mən qurban olaram...

* * *

Bu axşam yenə "Qaragöz"ə rast gəldim. Qızardı. Gülümsündü. Biləsən üzündə nə qədər məlahət var. Qəsdən qarşımda durdu və başladı bir uşaqla söhbət eləməyə. Getdi, yenidən geri qayıtdı və yenə mənə baxa-baxa ötdü. Mən də onu təbəssümlə qarşıladım və yanıqlı gözlərimlə müşayiət elədim. Başdan ayağa nəzər yetirdim.

Xurmayı saçına abı lent bağlamışdı. Sarı, zərif çəkmələri vardı. Ürəyim sızıldayır. Tanış olmaq istəyirəm. İstəyirəm onunla danışıb gəzəm. Nə böyük xoşbəxtlik! Mümkünmü?

22 həziran. Student Nəsib vədə vermişdi ki, məni şəhərin siyasi adamları ilə tanış eləsin. Özü ictimaiyyun[1], inqilabiyyun[2] firqəsinə mənsub olduğu üçün məni öz adamları ilə tanış elədi. Həftədə iki dəfə bizə məruzə oxuyacaqlar. Bu çox yaxşı oldu. Bilərəm görək dünyada nə var. Doğrusu, siyasi işlərlə az aşnayam. Rusiya inqilabı gərək mənə də bir şey versin.

Əlbəttə, qovğaya girdiyimi xalam və Kərbəlayı Əsəd bilməyəcəklər. Çünki bilsələr, təşvişə düşərlər. Müsəlmanlar siyasi işlərdən çox qorxurlar. Studentlərin həbsə alınmağını eşitdikdə deyirlər:

– Heyf, zəhmət çəkib oxumuşdu, əməyi zaye oldu. Kişilərin övladlarına əvvəlinci nəsihəti budur:

[1] İctimaiyyətçilər
[2] Inqilabçılar

– Başını aşağı sal, öz işində ol. Padşahla padşahlıq eləmək olmaz.

Xülasə, qara lələşin ictimaiyyun firqəsindəndir. Amma bilsələr qorodovoylar tutub apararlar həbsxanaya. Qəribə şeylər Nəsib nağıl eləyir. Moskva inqilabında bunu az qalıblar öldürsünlər. Libasını dəyişib qaçıb. Neçə təzkirəsi[1] və paltarı var. Bu gün onu tutmaq fikrinə düşsələr, qiyafəsinə təğyir verib şəhərdən gedər. Nəsibin başına min oyun gəlib. Bir ay bundan əqdəm bir nitqinin üstə on beş gün qazamatda yatdı. Çıxan kimi yenə işindən əl çəkmədi.

Dədəsi bir fəqir adamdır. Müsəlmanlar onu sonsuz bilirlər. Deyirlər:

– Nəsibdən ona haray olmayacaq.

...Bu axşam xurmayı saçları görməsəm divanə olasıyam. Yəhudi şagirdlərindən təvəqqe edəcəyəm məni tanış eləsinlər. Ümidim də budur ki, tanış olam. Deməli, bu axşam məni böyük bəxtəvərlik gözləyir.

Məhbubəmin zərif əlini əlimə aldıqda, bilmirəm ruhum hansı göylərə yüksələcək. Bəli, cənnət quşları kimi uçacağam.

23 həziran. Dünən axşam şəhərə çıxdım. Tanışlıq dursun kənarda, məhbubəmi görə də bilmədim. "Sən saydığını qoy dursun, Murad, gör usta Kərim nə sayır" – demişlər. Deməli, cənnət quşu ola bilmədim. Qanadlarım mafraq imiş.

* * *

Bu gün heç yerə çıxmayacağam. Başıma gün vurub, zökəm olmuşam. Şəhərdə isti 58 dərəcədir. İtlər həyətdə torpağı eşib özlərinə dam qayırıb gizlənirlər. Toyuqlar qanadları düşük bir halda ləhləyirlər. Dünən qəribə bir iş gördüm: bir pişik mis məcməidə uzanıb qaşıqları qucağına basmışdı.

Bu istidən sonra xalq gecələr bağlar guşəsinə çəkilir. Cavanlar üçün həftədə iki axşam klubda seyr olur. Musiqi və rəqs hamını oraya toplayır. Gözəl keçir, heyf ki, mən rəqs eləmirəm. Hamı da təəccüb eləyir. Daha demirlər ki, bizim evlərdə dərd və xiffətdən başqa ayrı şey yoxdur. Hər kəs çox xiffət çəkir, ona "namuslu" deyirlər. Cavan üçün

[1] Təzkirə – vəsiqə

musiqi, nəğmə, şad bir məclis qadağandır. Rəqs eləmək, ələlxüsus Avropa rəqsi, bəlkə də günahdır. Biz gün görməmişik, zindan çəkmişik.
Məhəllədə bir adam ölsə gərək hamı ona yas saxlaya, yəni qırx gün oxumaya, çalmaya, kef və ləzzətdən əl çəkə. Bu gün biri ölür, sabah biri, o biri gün bir ayrısı. Sən də təziyə saxlayırsan. Bir ölünün qırxı çıxmamış, bir ayrısı ölür, onun qırxı çıxmamış bir qeyrisi tələf olur. Xülasə ömürdən bilmərrə vaz keçirik (osmanlı demişkən).

Əcnəbi balaları da məndən təəccüblə soruşurlar ki, niyə rəqs eləmirsən? Deyirəm: "xədiməm", deyirlər "neçə oğlun var?". Dirilər elə bilirlər ki, ölülər halva yeyir. Deyirəm: "Canım, gözüm əcnəbilər. Vallah biz halva yemirik. Ölülər halva yeməzlər". Biz ölüyük. Bizim qayəmiz axirətdir. Axı, bizə bu "fani" dünya nə lazım. Qoy "murdar" əcnəbilər bu dünyanın ləzzətini aparsınlar. Canım biz ölüyük. Biz halva yemirik. Vəssalam.

24 həziran. Nə xoşdur məhbubəyə rast gəlmək. Nəfəsin tutulur. Qan dalğaları yanaqlarına çırpır. Gözəl yavıqlaşır. Sən özünü itirirsən. Gözlərin dünyada məhbubədən başqa heç kəsi görmək istəmir. Varlığına hüsn yağır. Ənbərin saçların rayihəsi aləmi bürüyür. Cənnət qapısı açılır. Huri simalın sənə qəmzələr bəxş edir. Qönçə dodaqlarında təbəssümlər oynayır. Pəh! Pəh! Gözəlin səxavətinin ucu-bucağı yox. Lütfünün bərabəri yox.

Məst olma gözlərim – fürsəti fövt eləyirsən. Gözəl başını çiyninə qoyaraq qüruba doğru gedən günəş kimi "əlvida" demək istəyir.

Sərxoşluq aludəsi olma gözüm – səxavət qapıları bağlanır.

Qoyma günəş batır, zülmət ətrafı bürüyür.

Heyhat! Məhbubə keçdi. Şadlıq rayihəsi də özü ilə getdi. Hüsn aləmi itdi. Həqiqət acısı damağa çökdü. Ətraf mənhus simasını ehya etdi. Eyiblər, qabalıqlar ortaya çıxdı. Cəmi vücudum yasa büründü. Bircə laqeyd hafizəm fəxrlə məhbubəmin təsvirini saxlamağa çalışır.
Elə bil qəmli gözlərimə demək istəyir: "Qəm yemə, kəmfürsət gözlər, bağçamdakı gözələ tamaşa etməyə muxtarsan".

25 həziran. Dünən evdən çölə çıxmadım. Bu gün də deyəsən çıxmayacağam. Bazar ertəsi bazarda şenlik olmur. Çox darıxıram. Gündüzlər evdə, gecələr də getməyə yer yox. Qiraətə də meylim kəsilib.
Gətirdiyim "İctimaiyyət və arvad", "İqtisadi söhbətlər" oxunmamış

durur. Nəqahətim[1] var. Bu istidə yorğana bürünüb otururam. Qoy ömürdən yarıyanlar ölümdən qorxsunlar. Mən ki, dirilikdən bir fayda görmədim. Vəfasız ömür. Birinə xoş, birinə acı ömür. Mənə qara boyanmış ömür. Doğrusu səndən narazıyam. Çünki nəzərini məndən çəkmisən. Bir cansağlığı nədir ki, onu da məndən əsirgəyirsən. Mənə mal-dövlət vermədin, yaxşı tərbiyə vermədin, şöhrətli milli ad vermədin, şəxsi səadət vermədin...

27 həziran. Gördüm. Ziyarətinə nail oldum. Kitabxanaya gedirdi.
Arxasınca getdim. Bütün yollar onun lətif qoxusu ilə dolmuşdu. Damağım cənnəti duydu. Gözəl, kitab qiraəti ilə məşğuldur. Görəsən nə oxuyur? Romanmı? Qəhrəmanlara rast gəldikdə məni yad edirmi?
Görəsən eşq qəmini duyurmu? Mənim çəkdiklərimin mində birini hiss edirmi?..

28 həziran. Allah bizi müsəlmanların qaranlığından hifz eləsin.
Amin!

Müsəlman şagirdlərinin içində Qulam adlı birisi var. Bu bədbəxt Qulam 18 yaşında hələ üçüncü sinifdədir. Oxumaqdan soyuyub. Məktəbdən çıxmaq istəyir. Dədəsi də buna çox razıdır. Mən buraya gələni Qulam mənimlə dost olub və təhsilində davam etməyə qərar verib. Yenidən dəri papağını çıxardıb şapka qoyub. Dədəsi rus şapkasından dilgir olub deyir:

– Murdar şapkaları başına qoyunca gəl gül kimi dükanımızda otur, alış-veriş elə. Və "gül kimi dükan"da baqqal dükanıdır. Məndən təvəqqeeləyir ki, Qulamın başından oxumaq sevdasını çıxardım. Mən də işə qarışmıram...

Dünən axşam qapılarını döyürəm, dədəsi çıxır. Salam verirəm və deyirəm:

– Qulam evdədirmi?

– Evdədir. Nə eləyirsən başına dönüm? – deyir.

– Kluba aparmaq istəyirəm.

"Klub" sözünü eşitcək, kişi dəli olur, tüstüsü vurur başına, özünü güclə sakit edib deyir:

– Ağrın alım, bu sözü səndən heç gözləmirdim. Klub mənim oğlumun yeri deyil.

[1] Nəqahət – halsızlıq

Məsələyə meydan verməyib keçirəm.

Bu gün yeznəmi bazarda tutub, gilayə torbasını açıb. Klubu biədəb bir yer sanırmışlar. Yazıq müsəlmanlar. Fahişəxanalara övladlarını göndərməyə heç də maneə göstərmirlər. Çocuqların pak bir şadlıq mənbəyi klubdan qorxurlar. Yazıq bizə!

29 həziran. Qəribə işlər. Özüm də məəttəl qalmışam. Ciddi adamlara yaraşmayan hərəkət. Dünən bazarda "Qaragözləri" gördüm. Mənə adi təbəssümünü bağışladı. Məst olaraq arxasınca getdim. Yolda qarşıma Qulam çıxdı. Birinci dəfə olaraq duydum ki, Qulam da "Qaragözlərin" düşkünüdür. Qulamdan təvəqqe elədim ki, getsin bazara. Fikrim bu idi ki, tanış olam və sonra Qulamı da tanış edəm. Qulam getdi. Mən "Cənnət guşəsinə" çəkildim.[1] "Qaragözlər" bacılığı ilə küçədə gəzirdi. Yavaş-yavaş getdim. Bunlar da mənim dalımca.

Aralarında pıçı-pıçı danışıb gülürdülər. Mən duruxdum. Bunlar qarşımdan keçdilər. Ürəyim şiddətlə döyünməyə başladı. Qulaqlarıma gurultu dolurdu. Keçdikdən sonra dönüb dala baxdılar. Yenə gülümsündülər. Guya mənimlə oynamaq istəyirdilər.

Ay ağacların arasından çıxmışdı, bədirlənmişdi. Elə bil mənim halıma gülürdü. Birdən utandım. Ciddi sima ilə geri döndüm. Küçənin döngəsində marağım ciddiyyətimə qələbə çaldı. Dönüb geri baxdım.

Könlüm "Qaragözləri" yenidən şiddətlə istəməyə başladı.

30 həziran. Kefsizləmişəm. Xalam yanımdan bir dəqiqə uzaqlaşmır.

2 təmuz.[2] Mən bazara çıxmayandan bəri çox işlər olub. Axşamçağı küçə ilə keçirdim. Gördüm uşaq-muşaqlar oturub "Qaragözlərin" evinin qabağında. Qulamı da burada gördüm. (Deməli Qulam "Qaragözlərilən" tanış olub). Xülasə təzim edib keçdim. Birdən Qulam məni çağırdı. Döndüm. Mən döndükdə "Qaragözlər" bacılığı ilə durub qaçdılar evlərinə. Qulam da məni çağıra-çağıra bir də başladı öyüd verməyə. Guya qızları mən qaçırmışam. Çünki tanış deyilmişəm. Pərt oldum. Acığım tutdu. Nə qədər fikirləşdim, özümdə heç bir təqsir görmədim. Bütün qəbahət Qulamda oldu. O məni çağırma-

[1] "Qaragözlərin" iqamətgahı mənim üçün cənnət güşəsidir (müəllif)

[2] 2 Iyul

saydı, mən də geri dönməzdim. Geri döndüyüm üçün də qızlar pərakəndə düşdülər. Bu nə vəhşilik? Mən xortdan deyiləm ki, məndən qızlar qorxurlar?..

3 təmuz. Dünəndən bəri çox dəyişilmişəm. "Qaragözlərin" məndən qorxub qaçması közlərimi açdı. Indiyə kimi onun yolunda çəkdiyim qüssələrimə heyfsilənirəm. Heyf ürəyimin sızıltılı həyəcanı, heyf közlərimin bakir yaşları. Bütün çəkdiklərim vəhşi bir qızcığaz üçün imiş.

Ayıldım. Ağlımın ürək hiyləsinə uğradığını duydum. İxtiyar və iqtidarım da ayıldı. Varlığımın dərin guşələrindən səslər eşidilir; ağıl qüvvəsini toplasın, ürək sərhəddinə çəkilsin. Bütün şiddətimlə əmr edirəm: nəfsim ağlıma tabe olmalıdır, gözlərim çocuq hərəkətindən əl çəkməlidir. Ayaqlarım arsız bir surətdə südəmər uşaqların dalınca yüyürməməlidir, Bədənimin cəmi əzası nizamını itirməyərək öz vəzifəsi ifasına məşğul olmalıdır. Bunlar olmalı.

4 təmuz. Məsələ aydınlaşdı. O gündən rahatlıq görməyən Murad bu gün sakit oldu. Bir şagirdlə danışdım. Görünür ogünkü hərəkətimdə heç bir qəbahət yoxmuş. Ancaq mən "tatar" olduğumdan bir azca şübhəli imişəm. Sözün açığı: ləkəli imişəm.

Mən belə güman etdim ki, mənə də adi nəzərlə baxılır. Çünki mən edadi şagirdiyəm. Ağlım və biliyim də qeyrilərindən əskik deyil. Amma yox – mən "tatar" imişəm. Mənim üçün din və millət bir o qədər də mənalı şeylərdən deyil. Millət və məzhəb ayrılığı olmayaraq bəşəri sevirəm. Insanlar arasında məncə fərq yoxdur. Ancaq qüsurum bu imiş ki, "tataram".

Cavanam. Bakir paklığıma xələl yetişməyib. Bütün qız və arvadları bacı deyə, tanıyıram. Günahım yalnız budur ki, "tataram".

5 təmuz. Dünən dərd məni götürmüşdü. Axşam baş götürüb şəhərdən çıxdım. Hava sərin idi. Dərin sükut içində yaşayan qum təpələrinə qəmli addımlar ata-ata çıxdım. Məsud həyatdan uzaq, təbiətin laqeyd ağuşuna yıxıldım. Bütün varlıqdan bezmişdim.

Ay buludlar arxasında gizlənmişdi. Ayın bu gizlənişində guya dərin bir sirr var idi. Guya ağca buludlar onun eşqinə mübtəla olub ətrafına toplanmışdılar. Hərdən ay buludlardan xilas olub bədirlənirdi və narın şüasını sədəf danələri tək kainata səpirdi. Bu bədirlənməkdə o

qədər hüsn və məlahət var idi ki, buludlar məst olurdular və ayı yenidən bağırlarına basıb kökslərində gizləyirdilər. Buludların səadətə nail olmaqlarına həsəd aparırdım. Çünki mən də onlar kimi eşq sevdasına mübtəla olduqda məhbubəmə həsrət qalmışdım və çoxdan bəri tanışlığa müvəffəq olmayıb hicranına odlanırdım. Buludların xoşbəxt dəqiqələrinə tamaşa edib həsəd aparırdım. Bunlar azad idilər. Din və milliyyətə tabe deyildilər. Bunlar üçün təzyiq və məhdudiyyət yox idi.

Mən də bulud olmaq xəyalında idim. Ağca buludlar, – deyirdim – sizing ruh və qəlbiniz də ağ, gününüz ağ, könlünüz şad, meydanınız geniş. Ağca buludlar – qəmsiz dərvişlər. Mən də sizin kimi məsud olmalı idim.

6 təmuz. Kluba getmişdim. Bir uşaq vasitəsilə "Qaragözlərlə" (adı Asiya imiş) danışdım. Görünür, heç kəs mənim hərəkətimdən təhqir olunmayıb. Ancaq... mən "tatar" olduğum üçün bir az şübhəliyəm...

7 təmuz. Asiyanı gördüm. Həmişəki deyil. Dodaqlarındakı təbəssüm yox olub. Gözləri də qəmli görünür. Yəqin bilir ki, mən ondan rəncidə-xatir olmuşam. Yenə eşq odu məndə şiddətlənir. Çünki Asiyanın gözləri qəmləndikcə mən də qəmə boğuluram. Yox, onun könlü sıxılınca mənim həyatım məhv olmalıdır.

8 təmuz. Asiya evlərinin qabağında oturmuşdu. Qəsdən yan küçəyə döndüm ki, onunla qarşı-qarşıya çıxmayım. Rəsmi tanışlıq axtarıram ki, mübahisəyə kirişim. Milli qüsurlara görə millətdən nifrətlənməməlidir.
Bu barədə ciddi olaraq danışmalıdır.

10 təmuz. Bazarda yoldaşların arasında birdən gəzmək fikri meydana çıxdı. Şad bir halda, toplandıq. Getdik tədarük görməyə. Ət aldıqda tacir Səfər gördü. Marağı, görünür, həyəcana gəldi. Arxamızca düşdü. Səfər istəyirdi bizim orucluqda gəzməyə getməyimizi isbata yetirsin. Dükanbədükan gəzdikcə bu da bizimlə gəzirdi. Axırda tab edə bilməyib soruşdu. Biz də cavab vermədik. Sabah tezdən küçəni kəsdirmişdi; işi dürüst bilmək istəyib.

Şeyləri faytona yığdıq və qarmon çala-çala yola düşdük. Yandı töküldü.

Tacir Səfərin azarı var. Şəhərdə olan hadisələrdən onun gərək xəbəri olsun. Gecələr pəncərələr dalında pusar, gündüzlər də küçələrdə pələsək vurar.

Qəribə insanlar var.

* * *

Gəzmək çox gözəl keçdi. Amma axşam şəhərə qayıtdıqda bir az qorxduq. Bazarda güllələr atıldı. Dedilər dava düşdü. Xalq bir-birinə dəydi. Görünür, dükan basıb pul aparırlarmış.

11 təmuz. Gün gündən keçir. Tanışlıq yoxdur. Əvvəlcə asan görünən getdikcə müşkülə düşür... Bu saat Asiya yanımda olsa idi, diz üstə düşərdim. Tövbəsi qəbul olmuş asi[1] kimi şadlıq yaşları tökərdim. Başımı söykərdim onun pak qoluna, Kəbə ziyarətini duyardım. Amma o burada yoxdur, ürəyim xəzan görmüş bülbül kimi nalə və fəryad eləyir...

13 təmuz. Qulamdan çoxdan bəri təvəqqəm budur ki, məni Asiya ilə tanış eləsin. Dünən Asiyaya ricamı söylədi. Asiya deyib:

– Niyə məni onunla indiyə kimi tanış eləməmisiniz?

Görünür, onun da meyli var imiş. Ancaq dünən mümkün olmadı, çünki Asiyanı anası iş dalınca göndərirdi, başı qarışıq idi. Son sözləri bu olub:

– Tələsməsin.

Asiya bu sözləri söylədikdə yüz addımlıq bir məsafədə durmuşdum. Dodaqlarındakı gözəl təbəssüm məni məst etmişdi.

Tanış olmaq qəsdi ilə ürək çırpıntısına uğradım. Qarşımdan xəzan yeli əsdi. Dedi:

– Tələsməsin.

İstədim xəstə ürəyimi açam, məni öldürən dərdləri ona bildirəm.
Mənə təskinlik verdi:

– Tələsməsin.

Gecə-gündüz ah-zarım göylərə çıxır. Göz yaşlarımda boğulub ölürəm. Hövsələm darıxır, səbrim kəsilir. Birdən ümid bəxş edirlər:

– Tələsməsin.

14 təmuz. Sabah çayı mənə ləzzət vermir. Ətrafımdakılardan zəhləm qaçır. Fikrim, xəyalım, dərdim, zikrim:

– Tələsməsin.

Həzin yel əsir. Sarı yarpaqlar hərlənir, fırlanır. Ürək təbiətə qarşı sıçrayır, nazlanır, əzilir, ağlayır. Lakin soyuq qanla deyirlər:

– Tələsməsin.

[1] Üsyan edən, itaət etməyən.

15 təmuz. Heç güman etmirdim. Çünki yazıq Mariya (qonşumuz məmurun qızı) həmişə bizə gələr, xalamla bir yerdə iş görərlər. Düşəndə mənimlə də söhbət elər. Axır vaxtlar Mariyanı çox qəmli görürdüm. Mənə həsrətlə baxırdı. Üzünə baxdıqda qızarırdı.

Bu gün masamın üstdə bir məktub görürəm – Mariya mənə yazır.

Zavallı qız məni sevirmiş.

Mariyanın məktubu məndə bir təəssüf oyatdı. Qıza yazığım gəlir. Doğrusu Mariya gözümdən düşdü. Səbəb nədirsə bu məktubdan əvvəl Mariyanın xatirini çox istəyirdim.

Mariya dursun kənarda, Asiya yadıma düşdükdə cəm vücudum donur, ürəyim döyünməsini susdurur.

Ah, Asiya. Biləsən nə qədər səni istəyirəm. Yeməyib, içməyib, illərcə gözlərinə baxıb doyardım...

16 təmuz. Günəş doğdu.

Günəş doğdu, xəstə ürəyim işıqlandı. Asiya ilə tanış oldum. Bu axşam Asiyanın əlciyəzini sıxdım. Nə böyük səadət! Nə böyük gün. Gündüz bir az erkən bazara çıxdım. Asiyanı küçədə gördüm. Gülümsündü. O qədər dadlı idi. Sonra Qulamı tapdım, dedim:

– Nə təhər olsa bu gün gərək məni tanış eləyəsən.

Razı oldu. Getdik. Asiya bacılığı ilə qənnadı dükanında idi. Qapıda gözlədik, çıxdıqda düşdük dalınca. Bir az getmişdik, məni Qulam təqdim etdi. Əlini sıxdım. Yuxumu? Həqiqətmi? Tanış olduğuma inana bilmirəm.

Amma tanış oldum. Bütün kainat bunu bilsin ki, məndən xoşbəxt adam yoxdur. Bəli, mən xoşbəxtəm. Çünki məşuqəmin əlinin hərarəti hələ əlimdən getməyib.

* * *

Gözəl axşam idi. Mülayim hava ruhu oxşayırdı. Mağazalar adət xaricində olaraq qapanmamışdı. Elektrik işığı guya kəsb-qüvvət etmişdi.

Qızlar yerişlərində belə yüngül idilər ki, elə bir pərvanələr çiçəkdən-çiçəyə sıçrayırdılar.

Hamısı qanadlı idi. Mələk idi. Kainatda yeni əlamətlər var – mənə ilham olunmuşdu. Ürəyimdə qüdsiyyət duyğuları doğmuşdu.

– Oyan, – dedilər.

Gözlərimi açdım. Göydən rəhmətlər nüzul[1] edirdi. Tale alnıma təmas etdi. Əlini öpdüm. Nədənsə gözlərimin yaşlarını saxlaya bilmədim.

– Ağla! – dedilər.

Susdum. Məndə fövqəladə bir şadlıq vücuda gəldi. Yaşlarımı topladım. İnci danələri tək ipə düzdüm. "Yadigar" deyə gizlədim.

Bir də səadət yeli əsdi. Qanadlandım. Uçdum. Ruhum məhzuz[2], ürəyim pürümid[3]. Ulduzlar təzim edirdilər. Yadigarımı təqdim etdim.

Qönçə dodaqları parıldadı. "Asiya" deyə tale qara həyatıma ağca bir səhifə əlavə etdi.

17 təmuz. İlk sabah.

Tanışlığın ilk sabahı nə bəxş edir?

Yüngül külək, sərin hava. Ruhumda yüngüllük, ürəyimdə şadlıq, dodaqlarımda gülüş... Bunlar da tanışlıq töhfələri.

Tanışlıq bütün vücudumu, bütün mənəviyyatımı sarsıdıb, mənim üçün yeni həyat başlanır. Dünən köhnə Murad öldü, bu gün yeni

Murad doğuldu, keçmişlərə "əlvida" dedi. Yaşasın eşq günəşinin ilk şüası – tanışlıq. Xeyirli olsun yeni sabahımız. Var olsun Asiya – gözüm, canım, bəxtim.

18 təmuz. Dünən klubda idim. Asiya da orada idi. Anasının yanına qısılmışdı. Çox gözlədim, müvəffəq oldum. Gəzmək istədikdə yanaşdım.

Əvvəllər danışmağa söz tapmadıq. O da döyükdü.

– Gedirəm anamın yanına, – deyirdi.

Söz açıldı. Şəhərdə darıxdığımı söyləyib, ədəbiyyata keçdim. Nə oxuduğunu sordum. Dedi rus ədəbiyyatı ilə məşğuldur. Asiya rus ədəbiyyatını tərtib olunmuş bir nizamnaməyə tabe halda mütaliə edirmiş...

Lermontovu çox sevdiyindən artıq xoşuma getdi.

Xülasə, bir neçə dəqiqə gözəl keçirdikdə böyürdən Qulam çıxdı, başında da papaq.

– Təəssüf ki, ayrılmaq icab edir, – dedi. Getdi. Bütün şadlığımı da özü ilə apardı.

---

[1] Yağırdı, tökülürdü, nazil olurdu

[2] Həzzli, həzzlə dolu, razı, xöşbəxt, şən

[3] Ümidlə dolu, ümidli.

* * *

Asiyanı sevirəmmi?

Onu sevirəmmi? – Bu sual dünəndən bəri məni məşğul eləyir. Asiya ilə danışdıqda məndə fövqəladə bir şey görünmədi. Adi bir qızla açıq-açığına söhbət elədik. Asiya mənə yoldaş kimi görünür.

19 təmuz. Asiyanı bir dəqiqəliyə çağırdıq, evlərinin qabağında on dəqiqə danışdıq. Onun sözü, söhbəti, hərəkəti məni kefləndirirdi. Dodaqları sabahın hələ günəş görməmiş qönçələrinə bənzəyir. Şümal boyu, ağ libası bakir zanbaqları andırır.

Asiya bizi böyük bacısı ilə tanış etdi. Təskinlikmi? Özü tez-tez çıxmalı ki, mən də dərdlərimi ona söyləyim. Ürəyimdə yaralarım çoxdur. Asiyanı istəyirəm. Bəli sevirəm.

20 təmuz. Mariya məni gözləri ilə hər yerdə təqib eləyir. Yazıq qız, Xalama da dərdlərini söyləyib. Xalam gülə-gülə deyir:

– Ay zalım, heç olmazsa, onu bir danışdır. Xalama cavab verirəm. Haqqım varmı Asiyadan başqa qeyri qızlarla danışam? Yoxdur.

21 təmuz. Asiyanı gördükdə həqiqət aləm bilmərrə yadımdan çıxır. Kainatda əzəlki boşluq ehya olunur. Bu boşluqda Asiyanı görürəm. Bütün həyat və varlıq ondan doğulur. Onun gözləri mənim üçün bir günəş: baxdıqda ruhumun dərin guşələrini nurlandırır, onun dodaqlarım rəhmət qapısı – təbəssümlər oynatdıqda ümidlər səpir, şəfqətlər yağdırır.

Nə pakdır onun məktəb libası. Açardım döşlüyünü, sərərdim torpağa, üzümü Kəbə deyə çöndərərdim ona, dualarım yüksələrdi, haqq qapısına doğru gedərdi. Bəndələr əfv olunardı.

Nə xoşdur onun yerişi – iman verir, paklıq bəxş edir.

Asiyanı gördükdə səadəti duyuram – ürəyim, qanım, bütün vücudum çırpınır, şadlanıram, süslənirəm...

22 təmuz. Dünən müsəlman teatrına getmişdik. Sirk də oynadılar.

Kafir görməsin. Çox geridəyik. Rollar əzbərlənməmiş, səhnə bərbad.

Teatrda papiros tüstüsü, səs... Min biədəblik. Sirkin bir tərəfinə pərdə çəkilib, dalında arvadlar otururlar. Bunlar da uşaqlarını gətiriblər, cığbığdan qulaq tutulur. Uzunbirçək həmşərilər adamı az qalırlar gözləri ilə yesinlər. Biçarə vəhşilər.

Teatrda da davasız iş keçmədi. Yarımçıq getdim. Yazıq bizə!

23 təmuz. Asiya qapıda durmuşdu. Qulamla yanına getdik. Söhbətimiz dadlı olmadı. Qulam dadını qaçırtdı. Qız mənə sual verdiyi yerdə görürsən böyürdən çıxdı: axmaq bir cavab verdi. Gədə zəhləmi lap tökdü. Qoymur bir parça danışaq. Asiya soruşur ki, roman oxumaq sevirəmmi? Bu suala gözəl cavab verərdim və arada da ürəyimin dərdlərindən də söylərdim. Qoymadı. Hərgah biz tək olsaydıq çox danışardıq. Qulamdan təvəqqe elədim sabah mane olmasın. Fikrim budur
Asiya ilə məxsusi dərdləşim. Ona deməli o qədər sözüm var: gizligizli, dərdli-dərdli...

24 təmuz. "Asiya uşaqdır. Yekə kişi uşağın dalınca düşüb" deyirlər. Mənə işarə edirlər. Bu da məni əzir, sıxır. Asiyanın uşaqlığını inkar etmirəm. 14 yaşında bir qızdır. Amma həqiqi məhəbbəti anlayan olsa, məni müttəhim eləməzlər. Asiyaya qarşı ən dərin, hisslər bəsləyirəm. O mənim üçün müqəddəsdir. Məgər müqəddəsatı sevmək günahdır? Həqiqi istəyi gözəllik doğurar. Gözəllik də bir arvada məxsus deyil. Çeşmələr, çiçəklər, uca dağlar, vəhşi meşələr də gözəldirlər.
Bunları da çırpıntılı ürəklə sevmək təbiidir. Asiya ilə çiçəklərin, güllərin arasında fərq varmı?

Bağçada bir dəfə qırılıb düşmüş bir gül gördüm. Əyildim götürdüm. Gülün gözəlliyi məni sarsıtdı, şaşırdı. Basdım bağrıma, ağladım.

Nə üçün göz yaşları tökdüm – anlamadım. Yaşlarımda sirri-ilahi duydum. Tənha gecələr Asiya yuxuma səfalar bəxş edir. Onunla dadlı-dadlı danışıram. Birdən qanım coşur, sıçrayıram. Ayılıram. Qaranlıq gecəni hiss etdikdə mütəəssir oluram. Onda da səbəbsiz ağlayıram.

Bu göz yaşlarında da sirri-ilahi yoxmu?

25 təmuz. Kefim yoxdur.Mariyanın eşqi davam etmədədir. Dinmir, danışmır. Məni görcək özünü itirir. Amma halı çox gülüncdür. Əgər mən də
Asiya qarşısında belə islanmış toyuğa bənzəyirəmsə, vay halıma. Mariya əvvəllər mənə çox xoş görünürdü. Indi nədənsə məndə acı bir təəssüf oyandırır. Biçarə qıza yazığım gəlir. Məncə arvad o qədər qürurlu olmalı ki, həmişə kişi onun dalınca sürünməlidir. Arvad kişiyə bəyani-eşq etdikdə və ya hissiyyatlarını ifrat büruzə verdikdə bütün hüsnünü qaib edir. Asiyanı sevirəm. Asiya mənə bir çox maneələrdən

keçdikdən sonra qarşılıq göstərərsə, səadətli olaram. Amma eşqim möhkəmləşməmiş ürək qələsini təslim edərsə, dilbərliyini itirər.
Acizlik Mariyanı mənim gözümdən saldı.

27 təmuz. Bir şey yoxdur.

28 təmuz. Xalam bu gün mənə "göz-nəzər" duası yazdırıb gətirib. Deyir:

– Bala, səni şəhərdə çox deyirlər. Buranın arvadlarının gözü çox pisdir. Dilim qurusun, qorxuram.

Deməli, xalam qorxur ki, mənə göz dəysin. Onun üçün Seyid Həsən ağaya dua yazdırıb gətirib. Duanı xalam istədi şapkama tiksin.

Gülə-gülə dedim:

– Xala, urus papağında dua kəsərdən düşər. Dedi:

– Qadan gözlərimə türkəsayaqlıqdır, heç zad olmaz. Xalam israr etdi. Acıqlandım. Dedim:

– Mən həmşəri deyiləm ki, papağıma dua tikirsən. Xalam xatirimə dəymək istəmədi. Gülməyə saldı. Bu yazıqlar duaya o qədər inanırlar ki, gündə Seyid Həsənin qapısına yol döyürlər.

29 təmuz. Bazarda idim. Asiyanı gördüm. Bacıları ilə mağazaları gəzib gözdən itdilər. Yoldaşlarla çox söhbət etdikdən sonra dedilər gedək bir kef eləyək. Getdik Murtuzagilə. Məxsusi otağı var. Divarlarda osmanlı sultanının rəsmi var. Bir çox şəkilli posta[1]

vərəqələri asılıb. Hamısında da islam aləmi təsvir olunur: türk əsgərləri, tarixi binalar, cameələr və qeyriləri.

Oturduq. Murtuza yaxşı tar çalır, çaldı, ruhumuz ləzzət apardı. Sonra çarpayının altından bir şüşə Kaxetiya şərabı çıxartdılar. Qapı bağlandı. Başladılar içməyə. Mənə təklif etdilər. İstəmədim. Dedilər:

– Fanatik olma, iç. Dedim:

– Fanatik deyiləm, amma ömrümdə heç içmədiyim üçün adətimi pozmaq istəmirəm.

Qulam mənə baxıb gülümsündü. Bir də qədəhi uzatdı:

– Asiyanın sağlığına, – dedi.

Gülümsündüm. Qədəhi aldım, "yaşasın" dedim.

Dodaqlarıma yapışdıqda şərabın acılığını duydum. Gözlərim yaşardı.
Qədəhi yerə qoydum. Daha içmədim. Bilmirəm şərab içənlər bu

[1] Poçt

acı suda nə tapıblar? Yoldaşlarıma da məəttəl qalıram. Onlar çox ləzzətlə içirdilər.

30 təmuz. Evdən çölə çıxmadım. Axşam Mariya ilə söhbət elədim. Məndən məmnun qaldı. Dəftərimin bəzi yerlərini ona oxudum. Qısqanclığını büruzə vermək istəmirsə də, aşkar olur. Çox sıxılır.

31 təmuz. Boş.

1 ağustos[1]. Ayrılıq günləri yavıqlaşır. Göz yaşları ilə bütün şadlıq aləmini sirab edəcəyəm. İki ay nə tez gəlib keçdi. Gözlərimi sanki açdım-yumdum, iki məsud ayı qaib etdim. İndi yenə xaraba şəhərimizə qayıdacağam. Yenə sözbazlıq, qabalıq, cəhalət, yenə palçıq, darlıq, üfunət. Yenə şərq, yenə islam ölkəsi... Qaçmalı, genişliyə çıxmalı.

Yaşamalı və yaşatmalı, həyatın hər dəqiqəsini duymalı, anlamalı.

Bizim 23 yaşımız əbəs yerə məhv oldu. Kim bilir neçələri də məhv olacaq. Yazıq bizə – cəfalı günlülərə.

2 ağustos. Asiyanı gördüm. Ötürdüm. Sabah kluba gələcək. Sabah bircə tez açıla idi. Hər dəqiqəm illər çəkir.

3 ağustos. Xoşbəxt axşam (cümə axşamı). Asiya ilə klub bağçasında bir çox dəqiqələr gəzdim. Hər bir mövzuya dair danışdıq. Ədəbiyyat, arvad məsələsi, yəhudi məsələsi – hamısı gəlib gözümüzün qabağından keçdi. Birdən Asiya dedi:

– Mən elə güman edirdim ki, siz də əqidə və məsləkinizdə Qulama bənzəyirsiniz. Bu axşam əksi məlum oldu.

Asiyanın rəyi məni çox məmnun etdi. Dedim:

– Asiya, mən sizə yoldaşa baxan kimi baxıram. Asiya məmnun oldu və təvəqqe elədi ki, bundan sonra onu "yoldaş" deyə adlandırım.

Başımız o qədər söhbətə qarışdı ki, Asiya rəqsə getmədi. Xülasə, Asiyanın hər bir şeydə mənimlə məsləkdaş olması məlum oldu. Axırda eşqə dair söz açıldı. Həqiqi məhəbbətin ucalığını və paklığını söylədim.

Asiya özünün eşqə mübtəla olduğunu işarə ilə anlatdı. Kimə əcaba?

– Bəlli olmadı...

– Sizin adınızı, – dedi, – evdə yazacağam. Siz də mənimkini yazın ki, əbədi olaraq bir-birimizi unutmayaq. Hərgah indi ayrılsaq və neçə ildən sonra bir-birimizə rast gəlsək, birinci olaraq sizi tanıyıb yanaşacağam.

[1] Avqust

Pərvərdigara! Bu sözləri Asiya söylədikdə nə qədər səmimi və gözəl idi.

* * *

Asiya Qafqazda təvəllüd edib. On dörd yaşında ucaboylu, incə bədənli bir qızdır. Xurmayı saçları, qara gözləri, şux dodaqları onu daha da gözəlləşdirir. Asiya çox kitab oxuyur. Bir az da əsəbidir. Acıqlanır, üzü turşalır. Sonra yenə güləşüzlü və xoş rəftarlı olur.

4 ağustos. Nə xoşdur məşuqə ilə gəzilən dəqiqələr. Musiqi çalınır. Ətrafım bütün yaşıllı. Çiçəklər də qoxuyur, təzim edir.

Nə dadlıdır zərif dodaqlardan tökülən sözlər. Təbəssüm parıldayır, oynayır. Ümidlər yağır, həzzlər saçılır. Onda ruh oxşanır, ürək çırpınır. Bütün vücud qanadlanır.

5 ağustos. Asiyanı gördüm. Əlini sıxdım. Mənə soyuq göründü.
Anlamıram. Məni sevirmi? Nifrət edirmi?

6 ağustos. Gördüm. Güldü. Təzim etdim. Ötdüm. Təkrar-təkrarbaxdım. Gülümsündü.

7 ağustos. Dünən Asiyanı tanışlarıgilə ötürdüm. Eşqə dair danışdıq.

Dedim:

– Bu yay mənim üçün ən xoşbəxt yaylardan biridir. Onun üçün bu yaydan çətinliklə ayrılıram.

Asiya üzümə bir nəzər atdı. Qızardı. Sonra sözü dəyişdi.

8 ağustos. Kefim yoxdur. Bu gündən sonra bazara çıxmayacağam.

10 ağustos. Qəribsilənmişəm. Anamı, hətta atamı da könlüm istəyir. Məndə valideyn məhəbbəti heç olmayıb. Bu dəfə, deyəsən, ürəyimdəo hiss oyanır. Amma bilirəm, görməklə hisslərim yox olacaq.
Yenə fəna hərəkətləri ilə məni dilxor edəcəklər...

Əcnəbi anaları övladlarına doğru bir hami və rəhbər ola bilirlər, yoldaş və dost ola bilirlər. Bizimkilər də yumurtadan çıxmış cücələri yenə yumurtaya doldurmaq xahişindədirlər.

Atam mollanın qulu, anam ocaq, dua və cadu düşkünü. Belə batil[1] fikirlilərə mən tabe ola bilərəmmi? Bunların nüfuzu üzərimdə sabit qala bilərmi?..

11 ağustos. Yenə ovqatım təlxdir. "Uşağın" ardınca gəzmək məsələsi yenə xalqı məşğul eləyir. Bəli, Asiya uşaqdır. Qəsdən onunla

[1] Batil – qeyri-həqiqi, boş, faydasız

gəzirəm. Çünki onu sevirəm. Bunu bilməli. Amma anlayan yoxdur. Bazardan Asiya ilə keçdikdə hamı bizə dördgözlə baxır. Elə bil məni söyürlər, məni məzəmmət eləyirlər. Incinirəm, darılıram. Görəsən məni niyə qoymurlar öz ağlıma tabe olum?

Bu barədə mübahisəyə kirişməyə hazıram. Asiyanın böyük bacısı da deyəsən mənə rişxənd gözü ilə baxır. Onunla da danışmağa hazıram.

* * *

Gecədir. Yata bilmirəm. Insafım mənə rahatlıq vermir. Asiyanın mənə tay olmamasına bəzi vaxt özüm də inanıram. Birdən özümə sual verirəm: həqiqi məhəbbət üçün yaş məsələsi mühümdür, mühüm deyil?

Mənfi cavab alıb sakit oluram. Min dəfə söylədim ki, Asiya ilə bir dağ çiçəyinin mənim yanımda fərqi yoxdur.

Pərvərdigara! Halım nə yamandır. Anlayan yox, dost yox.

12 ağustos. Zavallı Murad, sakit ol, səbir et, vaxt gələr, səni də anlayarlar. Yadındadırmı, Asiyanın ürküb qaçması? Onda da tələş etdin, darıldın. Axırda işlər aşkara çıxdı. Vəhşi ğəzalə[1] bənzəyən Asiya ürkmədən əl çəkib sənə öyrəndi. İndi səninlə hər yerə gedir və hər bir söhbətinə girişir. Daha sənə qeyri müsəlmanlara baxan nəzərlə baxmır. Vaxtı gələr, ey Murad, "uşaq"la gəzdiyinin də mənası anlaşılar. Səbir et, gözlə.

13 ağustos. Neçə gün var ki, evdən çölə çıxmıram. İnsanlardan gizlənirəm. Bilmirəm məni niyə incidirlər?

15 ağustos. Asiyanı ziyarət etdim. Qəsdən doyunca danışdım. Qoy nə deyirlər, desinlər.

Şeylərimi toplayıram. Üç gündən sonra səfərdir. Sevinirəm. Axır vaxt bu şəhər də məni təngə gətirdi. Tənhalıq. Hər yerdə mənim üçün tənhalıq. Ürəyim tənha, çəkdiklərim tənha. Qaçmaq, qaçmaq lazımdır.

Məni anlayanları aramalı, dostlar tapmalı...

18 ağustos. Sabah gedirəm. Bu sözlərdə nə qədər məna var. Gedirəm, onun üçün gedirəm ki, yeni bir həyat, bilgi həyatı qazanım burada qızlarla tanış oldum, siyasi leksiyalara getdim. Axırda mənə çox-çox şeylər lazım olması aşkar oldu. Mənə bilgi və yenə bilgi la-

---

[1] Gəzal – Ceyran, ahu

zımdır. Məlumat toplamalıdır, çoxlu kitablar qiraət etməlidir. Ya bilgi, ya ölüm.

* * *

Axşamçağı Asiyanı çağırdım, görüşdük... Sakit idi. Yenə güləş simalı idi. Mən həyəcan içində, min dəfə öz-özümə təkrar etdiyim sözləri titrək səslə söylədim. Dedim:

– Əlvida, yoldaş. Kim bilir, bəlkə daha görüşməyəcəyik. Məni hərdənbir yad edin.

Asiya qızardı. Cəld əlimi sıxdı. Elə bil ki, ayrılığın nə olduğunu əvvəlcə anlamadı. Evlərinə doğru qaçdı. Mən də döndüm. Bir də qapılarının ağzında toxtadı. Dönüb həsrətlə mənə baxdı. İztirabını duydum.

Gülümsündü, qaib oldu...

1914-1935

HƏZRƏTİ– ŞƏHRİYAR

yeddi şəkilli komediya

İ Ş T İ R A K E D İ R L Ə R

S ü l e y m a n S a l e h b ə y – sabiq Türkiyə mütəsərrifi
B ə h i c ə – rəssam
İb a d u l l a – azərbaycanlı tələbə
B a ğ ı r – azərbaycanlı tələbə
X ə n d a n ə f ə n d i – türkiyəli bir şair
N a u m ə f ə n d i – tacir
Q a s t o n d e - M u s t a z – mətbuatçı
Z i y a r ə t ç i l ə r – (2)
D i y o d o n e – "Müsəlman qardaşlığı" sədri.
D r e y y e r – "Şərq dostları cəmiyyəti"nin fəxri üzvü
Ə b d ü l ə z i m p a ş a
Ə b d ü l q ə d i m p a ş a
M o l l e d e - V a l a y – "Finansier" müxbiri
A m e r i k a l ı i k i q ı z – (yaşlı)
M ü d i r ə ğ a d ı n l a r, q a r s o n l a r, i ş ç i l ə r.

BİRİNCİ ŞƏKİL

Adi Paris otelində bir otaq. Ön divarda bir pəncərə, qarşısında bir masa və iki sandaliya var. Masanın üzərində qəzetlər. Sol tərəfdə üzəri güzgülü qarderob, onun yanında mərmər masanın üzərində saxsı ləyən və şırno görünür. Sağ tərəfdə qapı; pəncərə ilə qapı arasında sadəcə dəmir çarpayı qoyulmuşdur. Süleyman Salehbəy masanın sağ tərəfində və Bəhicə sol tərəfində oturub, soyuq bir tərzdə danışırlar.

B ə h i c ə. Son zamanlar səndən heç bir qəti söz eşitməyirəm... Əvvəllər belə deyil idin. *(Sükut).* Bilsən nə qədər ağır vəziyyətdəyəm. Hamiləliyimi səfarət belə bilmiş. Məhçub oluram, heç bir yerə çıxa bilməyirəm... *(Sükut).*İstambula xəbər çıxsa, *(həyəcanla)* aman allah, atam-babam nələr çəkəcəklər. *(Ayağa durub, dəsmalı ilə gözünü silib pəncərədən dışarıya baxır. Sükut. Təkrar dönür).* Saleh, səndən heç bir şey istəməyirəm, nə əkmək, nə əlbəsə, əlimdə kəndimi təmin edəcək qədər sənətim var... Tablolarım az-çox satılır... Yalnız dünyaya gələcək çocuğumuzun atası olduğunu söylə, münasibatımıza rəsmi bir şəkil ver. Səndən ricam budur (ağlayır). Yalnız bir ad!

S ü l e y m a n S a l e h b ə y *(Bəhicənin qolundan yapışıb oturdur. Təsəlli verərək).* Bəhicəciyim, neçün talaş edirsən? Evlənəcəyimizə söz verdim, bu sözdən qaçdımmı?

B ə h i c ə *(ağlayaraq).* Qaçmadın, fəqət nədənsə, uzadırsan. Beş dəqiqə sürəcək bir nigah əqdi çətindirmi?.. Nədənsə bunu yapmaqdan çəkinirsən.

S ü l e y m a n S a l e h b ə y *(ondan ayrılıb otaqda gəzərək).* Ah, Bəhicə, sanki vaqe olanlardan xəbərin yoxdur. Mustafa Kamalın elan etdiyi 150-liklər cədvəlini eşitdinmi? İştə mənim də adım oradadır...

Deməli, xain deyə vətəndən tərk olunmuşam. Burada iş tapa bilməyirəm.

Fransızcam da oylə qüvvətli deyil... olsa nə olacaq. Fransa məmurunun orta maaşı ayda altı yüz frankdır. Oda kirəsi ilə yeməyi zorluqla ödəyir... (Sükut). Bu vəziyyətlə evlənə bilərəmmi... (Sükut). Bir az param var, o da bir gün gələr bitər... Bir türk məmurunun berikdirdiyi ara nə olacaq. Babamız zəngin olmamış ki...

B ə h i c ə *(bir az hiddətlə).* Bunu əvvəldən bilməyirdinmi? Onda aşqa tərzdə qonuşurdun.

S ü l e y m a n S a l e h b ə y. Bilməyirdim. Namusum haqqı bilməyirdim. Nə bileydim ki, karatalar mənə bir xain ünvanı takacaqlar.Dedim Kamal İstambulu alar, biz də geri dönəriz... Deyirlər, fransızlar işğal etmiş olduğu yerdə mütəsərrif olmuşsan. Pəzəvəklər, acımdan ölməyəcəkdim ki... *(Qapı tıqqıldayır).* Gəlin!

İ b a d u l l a (*əlində boş çamadan içəri girir).* Mərhaba, əfəndim *(Bəhicəyə baxaraq).* Deyəsən, mane oldum *(Bəhicə üzünü divara çevrib, dəsmalla gözlərini silir və sonra masanın üzərindən qəzet götürüb, oxumaq bəhanəsi ilə üzünə tutur).*

S u l e y m a n S a l e h b ə y. Yox, əfəndim, buyurunuz!

İ b a d u l l a *(çamadanı divarın dibinə qoyaraq).* Çoxdan göruşmədik. Qəhvədə idik. Xəndan əfəndi ilə Bağır da orada idi. İndi onlar da gələcəklər. *(Bəhicə hərəkətə gələrək, qəzeti masanın üzərinə qoyur.*

Sonra divara tərəf çönərək qalxır və hamiləliyini gizlətmək üçün incə paltosunun ətəyini irəli tutaraq çıxır. Süleyman Salehbəy onu təşyi edir).

B ə h i c ə *(qapının ağzında yavaş səslə).* Saleh, məktub yazacağam, ona cavab verərsən.

S ü l e y m a n S a l e h b ə y *(rəsmi).* Pək eyi. Gülə-gülə*! (Bəhicə əl vermədən çıxır. Saleh bəy geri dönür).*

İ b a d u l l a *(gülə-gülə Salehi qucaqlayır).* Saleh əfəndi, allahı sevərsən, bu nə kələkdir *(bir yerdə masaya doğru gəlib orada hərəsi bir sandalyada oturur).* Deyəsən azərilər demişkən, "bogazdır", olmaya kələyə düşmüsən?

S ü l e y m a n S a l e h b ə y *(şən).* Bəradər, sizin bu azəri kəlməsi çox xoşuma gəlir: çünki dünyada kələksiz keçinmək qabil deyil...

Şimdi, İbadulla *(çamadanı göstərir),* sən söylə görüm bu çamadan nə kələkdir?

İ b a d u l l a *(qəhqəhə ilə əlini ona uzadır).* Vur! *(Süleyman Salehbəy əlinə vurur).* Sən hələ onu bilməyirsən?

S ü l e y m a n S a l e h b ə y. Mən nərədən bileydim, əfəndim. Mən kələyə yenicə alışıram. Allah eşqinə, o nədir? *(Çamadanı göstərir).*

İ b a d u l l a. Əfəndim, bilirsən, yenə pulsuzluqdur. Otelə borclu idim. Otelçi şeylərimi saxlayıb, özümü qovdu. Dünən gecəni Monmartırda bir qəhvədə keçirdim. Sabah gəlib günortaya qədər Bağırgildə yatdım. Bu axşam bu çamadan ilə tanımadığım bir otelə gedəcəyik. Beş-on gün yaşayıb, pul istəyəndə çamadanı orada buraxıb bir daha gəlməyəcəyəm... Boş çamadan *(göstərir)* mənə zamin olur.

S ü l e y m a n S a l e h b ə y. Əfəndim, bu gözəl iş. Bir çamadan otuz frank, on gün yaşaya bilsən, bu ən azı yüz frank. Yetmiş frank qazanırsan. O... sən qurnaz adamsan, azəri istilahınca, tam bicsən. Bəlkə mənim işimə də çarə arayasan.

İ b a d u l l a. Nə iş?

S ü l e y m a n S a l e h b ə y. Görmədinmi? Qadın yapışıb əl çəkməyir. Bəradər, bu nəcib fransız qızları ilə illərcə yaşayırsan, heç bir ocuq olmayır. Bu bizim abdal türk qızları bunu da bacarmayırlar.

Baxsan da bir kaç dəfə görüşdük, şimdi səkkiz aylıq çocuğu var. Evlən deyir. Ölümdən, intiqamdan bəhs edir.

İb a d u l l a (bir şey kəşf edər kimi). Onun əlacı məndə.

S ü l e y m a n S a l e h b ə y (sevinclə). Yox, əfəndim?

İ b a d u l l a. Vallah, düz deyirəm. Ancaq bir şey verməlisən. Məccani olmaz.

S ü l e y m a n S a l e h b ə y. Hay-hay əfəndim, sən qurtar da.

İ b a d u l l a. Min frank gəlir?

S ü l e y m a n S a l e h b ə y. Bir ziyafətdə üstəlik.

İ b a d u l l a. Əlini ver (əl-ələ tutuşurlar). Mən aşiq olacağam.

S ü l e y m a n S a l e h b ə y. Burax canım.

İ b a d u l l a. Vallah olacağam. Coşub-daşacağam. Ağlayacağam. Əlindən-ayağından öpəcəyəm. Məktub yazacağam... Bir gün onun məktublarını bu masanın üzərində görərsən. Sonra çağırıb əxlaqsızlığını isbat edərsən, vəssalam, bir daha sənə görünməz. Bitdi. Bir gənc professor da ixtiyar qarısından yaxasını qurtarmaq üçün mənə müraciət etmişdir. Bu vasitə ilə canını qurtardım.

S ü l e y m a n S a l e h b ə y (düşünərək). bu plan fəna deyil... lakin karata məni çox sevir, qorxuram bir şey çıxmaya... Bəradər, yazdığı məktubları görsən, eşqindən çıldırır. Kəndisi rəssamdır, bənim dürlü-dürlü rəsmimi yapmış, yataq odasını bənimlə süsləmiş.

İ b a d u l l a. Onun zərəri yoxdur; elələrini çox görmüşəm. Mən yoldan çıxararam. Qadınları neçə ildən bəri tədqiq etməməyəm. Zəif nöqtələrini bilirəm. Qapısının dışarısında uzanıb gecə sabaha qədər ağlaram. Bu hala qarşı qadın qəlbi müqavimət göstərə bilərmi? Sənin işin yoxdur, sən minliyi hazırla.

S ü l e y m a n S a l e h b ə y. Əmin ol, hazırdır. Para gözləyirəm... Fəqət, bəradər, bu qız sənin bildiyin qızlardan deyil. Çox əxlaqlıdır. Qorxuram.

İ b a d u l l a. Qorxma, əxlaq nədir-zad nədir. Qəlbi olanın, hissi olanın da əxlaqı olarmı? Əxlaq taxtada, dəmirdə olar... Ha-ha-ha. Pul ilə qadında əxlaq olmaz. Sən o əxlaqsız yüzlükləri ver də bağrıma basım, sonra gör nə kələklər düzəldirəm.

B a ğ ı r *(girir)*. Mərhəba, əfəndim.

X ə n d a n ə f ə n d i *(girir)*. Mərhəba, əfəndim.

S ü l e y m a n S a l e h b ə y. Mərhəba *(yer göstərir. Çarpayının üstündə otururlar)*. Yeni nə xəbər?

B a ğ ı r. Eyilik-gözəllik. Kürd üsyanından başqa bir yenilik yoxdur.

S ü l e y m a n S a l e h b ə y. Bunu bilirik. Bən kürd olum da bunu bilməyim. Eyi yapıyurlar. Azğın Kamala o da azdır.

X ə n d a n ə f ə n d i. Nə söyliyeyim... Nəticə etibarilə Kamalmı zərər görəcək, kürdmü?.. Kiçik xalqların üsyanını bilirik. Ermənilər də üsyan yapdılar. Nə oldu... Qocaman bir xalq məhv olub getdi. Avropa kapitalistləri daşnaq başçılarına para verdi, zavallı xalqı üsyana sövq etdilər. Kürd üsyanı da eyni şeydir... Xalq bundan qazanacaqmı?..

Ağlım irməyir.

İ b a d u l l a *(gülərək).* Mən siyasətçi deyiləm. Qəzeti də əlimə aldıqda elanları və hadisələri təqib edərəm. Bir kokotun macərasını xarici nazirlərinin diplomatik söhbətlərindən üstün tuturam. Çünki mənim özüm də lotuyam, daha diplomatların lotuluğuna ehtiyacım yoxdur. .. Hər halda mənə belə gəlir ki, bu kürd işində bir kələk var.

S ü l e y m a n S a l e h b ə y *(gülə-gülə).* Sən də kəndin kələkbaz olduğu üçün hər şeydə kələk görürsən.

İ b a d u l l a. Ah, atam kələyə qurban! O kələk olmasaydı mən bu beş ili Parisdə necə yaşardım. Allah da kələkbazdır. Görürsən bir xamın birisini başına döyə-döyə yanıma göndərir ki, ye, ey lotu bəndəm.

B a ğ ı r. Lotu bəndə də yeyir, heç bizə xəbər verməyir.

İ b a d u l l *a (Bağırın sözlərini eşitməz kimi).* Keçən il İrandan bir xan gəlib çıxmışdı. Allah onun atasına behişt versin, başdan ayağa xeyir-bərəkət idi.

X ə n d a n ə f ə n d i. Keyf etdin.

İ b a d u l l a. Ah, nə keyf. Tiryəkkeş idi. Tiryəki hoqqaya doldurub lüləsinə verirdim, bəridən o yana gedirdi... Cibinə müdir olmuşdum...

Ha-ha-ha...

X ə n d a n ə f ə n d i. Ənfəs, əfəndim, ənfəs!

İ b a d u l l a. Əşi, ənfəs nədir. Kişidə *(əlilə göstərir)* yığın-yığın pul vardı. Sənin də quru bir ənfəsin var. Sən şairsən, ənfəsiyin bu yerlərdə şəltəsi işləməz.

S ü l e y m a n S a l e h b ə y. Bəradər, bu kələklərdən bizə də öyrət, bir az para qazanalım.

B a ğ ı r. bunun kələyi xırda kələkdir, ondan bir şey çıxmaz. “Qaz vur, qazan dolsun, sərçə nədir, bozbaşı nə ola”.

İ b a d u l l a. Deməli, mən sərçə oldum.

X ə n d a n ə f ə n d i. Maraq etmə, əfəndim, sərçə də bizdən yaxşıdır. O həmişə toxdur. Biz...

İ b a d u l l a (Xəndan əfəndinin sözlərini kəsərək). Biz kor yapalaq, biz tənbəl şərqli. Biz hazırına öyrənən. Iş lazım, bacara bilmirik.

Acizik. Baxın Naum əfəndi nə işlər görür. Bakıda satmadığı neft yeri qalmadı. Misirdə bir milyoner ölmüşdü. Heç kimsəsi qalmamışdı. Bir qadın tapdı, bir çocuq düzəltdi, kağızlar qayırdı. Vəkil, məhkəmə... vur ha vur. Axırda kişiyə varis çıxıb, pulları aldılar.

X ə n d a n ə f ə n d i. Ənfəs, əfəndim!

S ü l e y m a n S a l e h b ə y. O, biz Naum əfəndimi olacayız? O hələ İstanbulda ikən bursanın qurdu idi. Nə işlər yapmadı. Sonunda kamalçıların gələcəyini duyub qaçdı.

B a ğ ı r (başını tərpədərək). bizdən Naumlar yetişməz. Bizim Bakıda yerdən neft çıxıb gicləri adam eləmişdi. Bura gəldilər, paxırları açıldı – var-yoxlarını keyfə qoyub, indi avara-avara gəzirlər. Bircə iş də bacara bilməyirlər. Bizdən Naum olmaz!

İ b a d u l l a. Canım, o qədər olmaz deyirsiniz, olmayır. Gəlin ele eliyək olsun... Vallahı doğru deyirəm, gəlin düşünək, axtarak (sükut).

H a m ı. Düşünəlim (düşünürlər).

X ə n d a n ə f ə n d i (düşüncədən ayrılaraq). Olmayır, əfəndim.
Bənim şair qafama xəyaldan başqa bir şey girməyir. Hər haralarda dolaşıram, oradan (göyü göstərir) aşağı enə bilməyurəm.

İ b a d u l l a. Xəndan əfəndi, səndən bir şey çıxmaz: sən şairsən.
Hərdən bir şeir yazarsan, qulaq asarıq. Biz pul tapaq, sən də nəmi pişiyi.

X ə n d a n ə f ə n d i. O nədir?

i b a d u l l a. Kədi bilirsən: piş-piş-piş?

X ə n d a n ə f ə n d i. Sonra?

İ b a d u l l a. Biz taparıq, sən də yeyərsən. Buna nəmi pişiyi deyərlər.

X ə n d a n ə f ə n d i. Bu gözəl. Zatən şair də elə kədi kimi bir şeydir. Sıcaq saray guşəsi ola, sən də bir-iki mədhiyyə söyləyib rahat yaşayasan. Ənfəs!

İ b a d u l l a. Yox, əfəndim, bu ənfəsdən bir şey çıxmaz. Saray da bir şey deyil – can sıxar. Bilirsən necə iş? – Zəhmətsiz iş lazımdır. Para çıxan iş.

B a ğ ı r *(Süleyman Salehbəyə).* Saleh əfəndi, Naum əfəndi ilə çoxdan tanışsınız, niyə bir iş düzəltməyirsiniz. Bir iş düzəldin, biz də... bir az yağlanaq.

S ü l e y m a n S a l e h b ə y. İştə şərqliyik *(istehza ilə).* Dövlətialiyyeyi-osmaniyyənin mütəssərifi bir bəzirkan yəhuduya boyun əyərmi? *(İstehza ilə).* Biz ağa millətiz.

X ə n d a n ə f ə n d i. Ciddən eylədir. Biz ağa olmuşuz. Biz başqa şəraitdə yaşamışız. Əzilməsək, həyat yollarını öyrənəməyiz.

İ b a d u l l a (gülərək). Hələ əzilməmişik. Yahu, acından ölürük.

Otelçi əzir. Mədəmiz hər an, hər dəqiqə əzir... Daha əzilmək nəyə

deyirsən? *(O, çamadanı göstərir).* Görürsənmi? Içində heç bir şey yoxdur ancaq mənim üçün o qədər ağırdır ki, bütün varlığımı, şərəfimi, namusumu əzir... Daha əzilmək nəyə deyirsən?.. *(Qapı tıkkıldayır).*

S ü l e y m a n S a l e h b ə y. Girin!

Q a p ı ç ı *(girir).* Salehbəy, sizi telefona çağırırlar.

S ü l e y m a n S a l e h b ə y. Pək eyi *(Qapıçı çıxır).* Əfv edəsiniz, şimdi gəlirəm *(çıxır).*

İ b a d u l l a. Balam, gedək, kişiyə mane olmayaq.

X ə n d a n ə f ə n d i. Mane olmarız – o işsiz, biz işsiz. Olsa-olsa bizim kimi bir az uyur, sonra bilyarda, ya qəhvəyə gedər.

B a ğ ı r. Qaliba, parası var. O bizim kimi deyil.

X ə n d a n ə f ə n d i. Təbii, əfəndim. Mütəsərrif olmuş. Bir-iki sənə yeyər. Məsələ bizim məsələdir, daha doğrusu, mənim məsələmdir. *(Bağıra).* Çünki sizin qəbahət özünüzdədir – Bolşevik hökuməti sizə hər ay para göndərirdi, istifadə edə bilmədiniz. Məktəbi bitirib, başqaları kimi vətəninizə dönməli idiniz. Qaliba, burada təhsillərini bitirib Azərbaycana dönənlər şimdi eyi mövqe tutmuşlar.

İ b a d u l l a *(Xəndan əfəndiyə).* Xəndan əfəndi, məntiqi mülahizə və məsləhətlərdən xoşlanmam. Sözü dəyiş. Yaradılışın özündə belə məntiq yoxdur. Sən də mənə məntiq müdərrisliyi edirsən. Mən məntiqi həyatı sevməyirəm. Quş kimi işləmədən yemək və heç bir şeyə baş əyməmək. Sərsəriliyimin səbəbi bu.

B a ğ ı r *(istehza ilə).* Quşlar da bizdən xoşbəxt yaranmışlar: paltara pul verməyirlər, otelə pul verməyirlər. Aralarında pul işlənmədiyi üçün pula da ehtiyacları yoxdur... Allah quruluşundan mən də məmnun deyiləm.

X ə n d a n ə f ə n d i. Bəndəniz də belə zənn edir ki, cənabi-haqq dünyanı eyi yaratmamışdır. (Sükut). Quş da olmaq istəməzdim... İnsan olmaq da ağır işdir. Başqa bir şey olmaq istərdim...

İ b a d u l l a (gülərək). Meymun...

X ə n d a n ə f ə n d i. Meymun kəndinsən, pəzəvəng. *(Qalxıb İbadullaya hücum etmək istəyir. Bağır buraxmayır).*

İ b a d u l l a *(gülərək).* Xəndan əfəndi, darılmaq neyçün? Sən meymun olma, mən olum. Bu Parisdə meymunun hörməti insandan çoxdur. Bir aristokrat xanımın itə və meymuna qoyduğu xərci sənə qoysalar, adama bənzərsən.

X ə n d a n ə f ə n d i (*darılaraq).* Yenə xalt etdin.

S ü l e y m a n S a l e h b ə y *(şən bir halda girir).* Arkadaşlar, bəndənizi əfv buyuracaqsınız, getməliyəm.İ eyiyə bənzəyir.

H a m ı *(bir yerdə).* Söylə nə olmuş? Söylə!

İ b a d u l l a *(gülərək).* Pul çıxan işdən danış.

S ü l e y m a n S a l e h b ə y. Şlyapasını və paltosunu qarderobdan götürərək – Sonra *(hamı getməyə hazırlaşır)!*

PƏRDƏ

İKİNCİ ŞƏKİL

Naum əfəndinin iş otağı. Gözəl yazı masası üzərində gümüş yazı takımı, lampa və kitablar var. Masanın önündə iki qayış qoltuk qoyulmuşdur. Divarın dibində meşinlə örtülü taxt və kitab dolabları var. Divarlardan cürbəcür şəkillər və xəritələr asılmışdır.

Naum əfəndi oturub yazır və arabir cibindən saatını çıxarıb baxır.

N a u m ə f ə n d i *(yerindən qalxıb otaqda gəzinir).* Vaxt keçir. *(Əllərini ovuşdurub fit çalır)* Gecikdi. *(Qapı yavaş tıkkıldayır, baftalı paltarlı qapıçı gümüş təpsidə vizit-kart gətirir).*

N a u m ə f ə n d i *(Təpsidən kartı götürüb baxır).* Gəlsin (Qapıçı yavaş addımlarla çıxır).

S ü l e y m a n S a l e h b ə y *(Qapdan başını içəri soxaraq).* Gəlmək olarmı?

N a u m ə f ə n d i. Buyur. Buyur əfəndim *(Görüşürlər. Masanın qabağındakı qoltukda yer göstərir, özü də keçib arxada oturur)* Nərələrdəsən? Görükməyirsən... Bir iş yapırsanmı?

S ü l e y m a n S a l e h b ə y *(sıxılaraq).* Hala, heç bir iş...

N a u m ə f ə n d i (heyrətlə). Deməli berikdirdiyin paraları yeyib, bitirirsən... Sonra?..

S ü l e y m a n S a l e h b ə y (düşünərək). Yavaş-yavaş Fransızca öyrənirəm...

N a u m ə f ə n d i. Öyrəndin nə çıxır. Fransanın ən yüksək məmurunun maaşı bizim kimilərinin adi bir ziyafət məsrəfini ödəməz.

Ha-ha-ha! Sonra, sən Fransızcayı mükəmməl də bilsən, mövqe alamazsan, çünki sən əcnəbisən... Həqiqət böylədir! Sən bəzi divarlarda

yazılmış hürriyyət, qardaşlıq, bərabərlik sözlərinə inanma, onlar əskidən qalma şeylərdir. Onlara inanan və əhəmiyyət verən də yoxdur, ha-ha-ha!

S ü l e y m a n S a l e h b ə y *(məyus bir halda).* Siz məni büsbütünm ruhdan düşürürsünüz.

N a u m ə f ə n d i *(gülərək).* Doğru söz adamı ruhdan düşürməz, həqiqət böylədir.

S ü l e y m a n S a l e h b ə y. Pək eyi, nə etməli?

N a u m ə f ə n d i *(gülərək).* Bax bu sual xoşuma gəlir. Şunu sən mənə əvvəldən versəydin, mən doğru yol göstərərdim... Şimdi sən mənim sualıma cavab ver: yeni bir şey duymayırsanmı?

S ü l e y m a n S a l e h b ə y *(düşünərək).* Düşünürəm, bir şey görməyirəm.

N a u m ə f ə n d i. Qəzetlərdə nə var?

S ü l e y m a n S a l e h b ə y (düşünərək). Kürd üsyanından başqa bir şey yoxdur...

N a u m ə f ə n d i (gülərək). Bu azmı? Iştə bizə şu lazım.

S ü l e y m a n S a l e h b ə y. Şəxsən bizə faydası varmı?

N a u m ə f ə n d i (gülərək). Yahu . Hər bir hadisə para deməkdir. Bura Parisdir... Burada hər bir hadisə alınıb satılır... Yalnız hadisədən istifadə yollarını bilməli...

S ü l e y m a n S a l e h b ə y *(sevinərək).* Pək eyi, bən hazıram *(Hava qaralır. Naum əfəndi durub elektrik lampaları yandırır, yerində oturur).*

N a u m ə f ə n d i. Şimdi, əfəndim, məsələ böylədir. Qəzetləri təqib edirsən. Məsələnin zahirindən başqa bir də iç tərəfi var. Kürdüstan üsyanında ingilis barmağı görükür. Şimdilik məqsəd kurd istiqlalı deyil. Mosul neftini ələ gətirməkdir. Üsyan müvəffəqiyyət qazanarsa, ingilis himayəsində bir kürd dövləti də meydana çıxa bilər. Təbii, Kamal üsyanı çapuq söndürməyə çalışacaq. Lakin yolların fənalığı nəzərə alınarsa, hər halda hadisə bir aydan az davam etməyəcək. Şunları söyləməkdə məqsədim var.

S ü l e y m a n S a l e h b ə y. Naum əfəndi, müqəddimməndən bir kambinezon olduğunu duyuram.

N a u m ə f ə n d i. Təbii kambinezonsuz yaşamaq qabilmi?.. Fikrimi anladayım. Paris bursası bütün siyasi hadisələrə qarşı həssasdır.

Hər teleqraf xəbəri orda maraqla dinlənir. Şimdi biz də işsiz durmamalıyıq. *(Sükut)* Belə hadisələrdə neft krallarının altun kisələri açılır, bacaran ciblərini dolduracaq.

S ü l e y m a n S a l e h b ə y *(gülərək).* Fikrini açıq söylə, bir şey anlamayıram.

N a u m ə f ə n d i. Fikrim kürd hadisələrindən istifadə edərək... bir istiqraz yapmaqdır.

S ü l e y m a n S a l e h b ə y *(heyrətlə).* Hansı abdal parasından bezmiş?

N a u m ə f ə n d i *(sakit).* Bunu məsələyə vaqif olmayanlar deyə bilər. Madam ki, mən işə başlayıram, deməli, əsasım var. Sən bir şey ki, qeyb etməyursan. Mən sana bir çox para vermək istəyuram. Razısanmı?

S ü l e y m a n S a l e h b ə y (sevinclə). Hay, hay, əfəndim! Paradan kim qaçar ki?

N a u m ə f ə n d i. Dinlə. Şair xəyalı ilə uğraşmağa vaxtım yoxdur. Bən iş adamıyam. Bənim silahım bursadır. Bursa ilə də aşnayam. İstiqrazı yapacayam, fəqət bəzi hazırlıqlar lazımdır.

S ü l e y m a n S a l e h b ə y. Nə kibi?

N a u m ə f ə n d i. Mətbuatda əvvəlcə bir-iki teleqram buraxmalı. Biri Bağdaddan, biri Beyrutdan. Kürd təxtinə namizəd bir adamın Kürdüstandan çıxıb da Avropaya səyahətə gəldiyini elan etməli. Bir az sonra Həzrəti-Şəhriyar Marselə azim olur. Parisə gəlib Şanz-Elize otelində iqamət buyurur, ha-ha-ha! Anlada bildinmi?

S ü l e y m a n S a l e h b ə y *(gülərək).* Ah, Naum əfəndi, fikrinə nələr gəlir.

N a u m ə f ə n d i (ciddi). Işdə, Şanz-Elizedə Həzrəti-Şəhriyarın ətrafında dəbdəbəli bir hailə təşkil edərək işə başlayırız. Məsələ əfkari- ümumiyyəni ildırım qüvvəsi kimi qaplayıb, məqsədə varmaqdır.

Bir dəqiqə qaib etsək, iş pozular.

S ü l e y m a n S a l e h b ə y. Pək eyi, qəzetlər yazdı, əfkari-ümumiyyə hazırlandı. Maraqlanıb, Şanz-Elizeyə gedən oldu... Sonra?

N a u m ə f ə n d i. Nə sonra? Getsin. Gedər, Kürdüstan padşahı onu qəbul edər, ha-ha-ha!

S ü l e y m a n S a l e h b ə y (heyrətlə). Bu padşah şimdi, nərədədir?

N a u m ə f ə n d i. Burada *(Salehi göstərərək),* mənim qarşımda oturmuş.

S ü l e y m a n S a l e h b ə y *(qəhqəhə ilə sıçrayıb qalxır yerindən).* Yahu, bən padşah? Bən Həzrəti-Şəhriyar? Ha-ha-ha! Bənimlə əylənirsənmı? Şakamı yapırsan? *(Əli ilə özünü göstərərək)* Saleh kral? Ha-ha-ha!..

N a u m ə f ə n d i (sakit və ciddi). Saleh kral. Heç bir şaka yoxdur. Para qazanmaq üçün bin vasitə var, bu da biri... Məsələdən uzaq düşməyək. Burada hazırlıq yapandan sonra, sən Marselə gedib, birinçi sinif vaqonda Parisə dönərsən. Stasionda səni təntənə ilə qarşılayıb avtomobildə Şanz-Elizeyə götürüriz... Maraq etmə, bu işə əlli min frank təxsis etmişəm... İyirmi dəfə artıq qazanmasam, sərf etmərəm... Şimdi sən söylə görüm, adamın varmı?

S ü l e y m a n S a l e h b ə y. Nə adam? (Oturur).

N a u m ə f ə n d i. Elan verəcəyiz ki, Kürdüstana göndərmək üçün könüllü toplanır. Bu iş ilə məşğul olan iki adam lazımdır.

S ü l e y m a n S a l e h b ə y. Var. Burada azəri tələbələrindən Bağır adlı birisi var.

N a u m ə f ə n d i. Bacarıqlı adamdırmı?

S ü l e y m a n S a l e h b ə y. Şeytan şeydir. Siyasi mühafillərlə də əlaqəsi var, zənn edirəm gizli vəzifəsi böylə var. Hər yerə girərçıxar, sirrindən də baş açmaq olmaz.

N a u m ə f ə n d i. İşimizi pozmaz ki?

S ü l e y m a n S a l e h b ə y. Para versən, gözəl çalışar... Bir də Xəndan əfəndi var – sərsəri bir şairdir. Onun da maddi ehtiyacı böyükdür, para versək, məmnuniyyətlə çalışar. Türkiyyədən kusüb gələnlərdəndir.

Məbus olmaq istəmişsə, intixab etməmişlər.

N a u m ə f ə n d i. Pək eyi. Şimdi Qaston de Mustaza telefon edəlim də gəlsin, qəzetlərlə əlaqəyə girsin. *(Telefon borusunu götürüb qulağına tutur)* Allo – 44-45. Alo. Müsyö Qaston de-Mustaz evdədirmi? Özüdür? Axşamın xeyir. Tanıdınmı? Kimdir?.. Doğru!.. Bu saat işin var?.. Yaxşı evdə gözləyirəm. Avto ilə gəlsən daha gözəl olar.

Əfəndim, maraq etmə, parasını verərəm... Allaha ismarladım. (Telefon borusunu yerinə qoyur).

S ü l e y m a n S a l e h b ə y. Bu kimdir?

N a u m ə f ə n d i. Mətbuatçıdır. Nə məsələyə dair sifariş versən, üç-dörd günün müddətində bir kitabça yazıb gətirər. Yarın qəzətlərdə bax da, gör nə maraqlı teleqramlar nəşr edəcək.

S ü l e y m a n S a l e h b ə y. Məlumat verilsə, qəzetlər nəşr edərmi?

N a u m ə f ə n d i. Təbii, məccanən yox, pul verəcəyik. Burada, əfəndim, hər şey alınıb-satılır. Para hər şeyə hakimdir. Pul ver, qəzet baş məqaləsində bir fahişəni Həzrət Məryəm kimi təsvir etsin. Əfəndim, Avropa başqa bir aləmdir. Burada olanlar bizim şərq qafamıza sığmayır. Burada məzar belə satılır, həm də vaqon kimi sinif-sinifdir.

Yoxsula yer yoxdur. Beş min frankı olan ölü ancaq beş il məzarda yata bilər, əbədi istirahət üçün çox pul gərək. Zənginlərin itlərinə it qəbiristanında yer var, fəqir adama insan qəbiristanında yer yoxdur. Bunun üçün hər bir fırıldaq çevir də zəngin ol. Buranın qanunu belədir.

S ü l e y m a n S a l e h b ə y *(heyrətlə).* Yahu, bənim üçün sanki yeni bir Amerika kəşf olunur. Əcaba, mədəni Avropanın mədəniyyəti nərədə? Heyrət!

N a u m ə f ə n d i. Bu mədəniyyət zənginlik mədəniyyətidir, zəngin olmayana heç bir şey yoxdur. Bənim də, sənin də zəngin olmağa haqqımız yoxdurmu? Vasitə qəbahət sayılmaz, məsələ məqsəddədir...

Bir də bir şeyi unutma, yoxsul olsan meyitin bir baş klinikə götürüləcək,burnu kirli tələbələr əllərində bıçaq üzərində dəlləklik öyrənəcəklər, ha-ha-ha..! Vəzifəni bildinmi?

S ü l e y m a n S a l e h b ə y. Naum əfəndi, bir şeyi anlaya bilməyirəm – paranın bu qədər qiyməti olan bir məmləkətdə neçün boş yerə istiqrazlar verirlər?

N a u m ə f ə n d i. Əfəndim, Avropa üçün boş yer yoxdur – verilən istiqraz gec-tez hökumət vasitəsilə zəif bir hökumətin üzərinə yüklənəcək. Bunu bilməlisən. Sonra, avropalılar o qədər acgözdürlər ki, para qazanmaq üçün paranı qumar masasına atan kimi atırlar *(sükut).* Işdə, bu vəziyyətdən istifadə edəlim. (Sükut, səsini dəyişərək). Deməli, adamların var.

S ü l e y m a n S a l e h b ə y. Var.

N a u m ə f ə n d i. Pək eyi. "Kral"ı qarşılamaq üçün istasyona da bir adam getməlidir. Adamları təşviq etmək üçün onlara bir az para ver (*masanın qutusunu açıb, pul çıxarır).* Eyi olar ki, bunların hərəsinin bir rəsmi əlbəsəsi olsun... Zənn edirəm, hələlik beş min kafidir *(pulu uzadır).*

S ü l e y m a n S a l e h b ə y *(gülümsəyərək).* Yetər əfəndim (*pulu alır və məmnun bir surətdə qoltuq çibinə qoyur).*

N a u m ə f ə n d i. Bunlara bir ziyafət də ver. Qoy əylənsinlər.

Adam hər vaxt lazım olur. İnşallah, iləridə bir çox istiqrazlar yapacayız.

(Qapı yenə yavaşca tıqqıldayır). Gəl*! (Qapıçı əlində təbsi kirir, masaya yaxınlaşdıqda Naum vizit kartını götürüb baxır).* Buyursun *(qarson çıxır).*

Q a s t o n d e - M u s t a z *(girir).* Axşamınız xeyir.

N a u m ə f ə n d i – Axşamın xeyir. Təqdim edəyim *(Süleyman Salehbəyi göstərir).* Salehbəy. Mühüm bir simadır.

Q a s t o n d e - M u s t a z. Məmnuniyyətlə. (*Görüşürlər. Qaston de-Mustaz Süleyman Salehbəylə qarşı-qarşıya oturur. Süleyman Salehbəyə)*

Nasılsınız, əfəndim?

S ü l e y m a n S a l e h b ə y. Təşəkkür edirəm.

Q a s t o n d e - M u s t a z. Simanız bana tanış gəlir. "Traternute muzulman" cəmiyyətində olmamışsınız?

S ü l e y m a n S a l e h b ə y. Bir dəfə getmişdim. Yəqin orada görmüşsünüz.

Q a s t o n d e - M u s t a z. Öylə olacaq (*sükut).*

N a u m ə f ə n d i *(Qaston de-Mustaza).* Müsyö, məsələni izah etmişdim – vaqifsən.

Q a s t o n d e - M u s t a z. Bəli.

N a u m ə f ə n d i. Sabahdan etibarən işə başlamalı.

Q a s t o n d e - M u s t a z. Teleqramlar hazırdır. İstərsəniz oxuyum.

N a u m ə f ə n d i. Gözəl!

Q a s t o n d e - M u s t a z (cibindən bir kağız çıxarıb oxuyur). "Bağdad. Kürd üsyanı genişlənməkdədir. Diyarbəkirdə müvəqqəti hökumət təsis olunmuşdur. Kürdüstan krallığına namizədliyi söylənən Salehbəy buradan xaricdəki "Kürd təali cəmiyyəti" üzvlərilə görüşmək məqsədilə Beyrut yolilə Fransaya yola düşmüşdür. Alınan son məlumata görə Kamalın təskin üçün göndərdiyi ordu ağır zərbə yeyərək geri çəkilməyə məcbur olmuşdur".

N a u m ə f ə n d i. Yaxşıdır, fəqət Kürdüstanın daxili vəziyyətini bir az təfsilatı ilə yaz.

Q a s t o n d e - M u s t a z. Bu müsvəddəsidir. Təbii dəyişəcəyəm. Sabah bu "Maten" qəzetinə veriləcək.

N a u m ə f ə n d i. Yaxşı olar ki, təqribən eyni mündəricədə bir teleqram da Istambuldan "Çikaqo tribun" qəzetinə verilə. Çünki bilirsən, bu məsələ ilə Ingiltərə kapitalı daha yaxından maraqlanır.

Q a s t o n d e - M u s t a z. Olar.

N a u m ə f ə n d i. Başqa qəzetlərə neçə?

Q a s t o n d e - M u s t a z. İki gün sonra. İki gün sonra kral Beyrutdan çıxacaq. Bu, ayın yeddisinə təsadüf edir. Doğrudan da, o günü oradan Marselə vapor gedir. Məsələni ətraflı öyrənmişəm. Ayın səkkizində qəzetlərdə bir sıra teleqramlar nəşr edəcəyəm. Bunlar daha təfsilatlı və maraqlı olacaq.

N a u m ə f ə n d i. Hər halda sən yeniyetmə mətbuatçı deyilsən. Təcrübən çoxdur, səni öyrətmək olmaz.

Q a s t o n d e - M u s t a z. Əmin ola bilərsən. Əfkari-ümumiyyə lazımınça tənvir olunacaq...

N a u m ə f ə n d i. Nə zənn edirsən, bir-iki məqalə buraxsaq, neçə olar? Məsələn, "Fransanın Kürdüstanda mənafeyi"... Bilirsən, Suriyaya qonşuluq hesabilə... Məqalələri siyasətcə əsaslandırmağı özün gözəlcə bilirsən...

Q a s t o n d e - M u s t a z. Sırasilə "Maten", "Pti pariziyon", "Jurial" kimi qəzetələrdə böyük məqalələr yazaram, axşam qəzetəsi "Əntrasizona"da kiçik bir parça verərəm. Kafidir, zənnindəyəm...

N a u m ə f ə n d i. Lap yaxşı. Sabah sən qiymət öyrən, bax gör qəzetlərə nə qədər pul verəcəyik – mənə deyərsən... Bilirsən, Fransa qəzetlərinin gurultusu ingilislər arasında şiddətli qısqanclıq hissi oyadacaq. Bizə bu lazımdır.

Q a s t o n d e - M u s t a z. Hay-hay. Anlayıram.

N a u m ə f ə n d i. Daha nə kimi təşəbbüslər lazımdır?

Q a s t o n d e - M u s t a z. Bank mühafillərində nüfuzu olan biriki qüvvətli adam əldə edilməlidir. Kiçik millətlərə istiqraz veriləndə bunlarsız olmayır... Təbii, həqqi-sükut lazım...

N a u m ə f ə n d i. Bunu bilirəm. Belə bir adam tanıyırsanmı?

Q a s t o n d e - M u s t a z. Təbii. Mən onlarla görüşərəm və verəcəyiniz paranı sezdirərəm. Sonra, Parisdə yaşayan Əbdülhəmid paşaları var. Onlar da Şərqdəki hadisələrlə əlaqədardırlar.

N a u m ə f ə n d i. Lap yaxşı, bunların hamısını gör. Mənə də tanıtdır, bir gün ziyafətə dəvət edərik.

Q a s t o n d e - M u s t a z. Əvət-əvət. (Sükut. Naum əfəndi zəngi basır, qapıçı gəlir).

N a u m ə f ə n d i (qapıçıya). Operetiv gətir. (Qapıçı çıxır).

Q a s t o n d e - M u s t a z. Məsələ indi aydındır. Kralın gəlməsi məsələsi ətraflı düşünülmüşdürmü?

N a u m ə f ə n d i. Hazırdır. Salehbəy hər cəhətdə bizimlə həmrəydir.

Q a s t o n d e - M u s t a z. Çox gözəl! Çox gözəl!

N a u m ə f ə n d i (gülümsünərək). Yoxsa, işsiz oturmuş, yığdığı pulları yeyib qurtarıb. Bunu da qazandırmalıyıq.

S ü l e y m a n S a l e h b ə y. Bənə müəllimlik etdiyinizdən dolayı mütəşəkkürəm. (Qapıçı təbsidə sifon, iki şüşə şərab və qədəhlər gətirib masanın üstünə qoyur, tökmək istədikdə).

N a u m ə f ə n d i (qapıçıya). Biz özümüz tökərik. (Qapıçı gedir. Naum qədəhlərin dibinə hər şərabdan bir az töküb, başlarını sifondakı qazlı su ilə doldurur. Qonaqlara). Buyurunuz!

S ü l e y m a n S a l e h b ə y. Mersi!

Q a s t o n d e - M u s t a z. Mersi! (bir qurtum alıb təbsiyə qoyurlar və sonra mürur ilə içirlər).

N a u m ə f ə n d i (Qaston de-Mustaza). Saleh bəyin bir sıra şeytan dostları var. Dünya işində olduqca mahirdirlər. Zənn edirəm, bizə çox yardım edəcəklər.

Q a s t o n d e - M u s t a z. Çox gözəl, çox gözəl! Şərqlilər çox zəki olurlar. (Süleyman Salehbəyə). Əfəndim, biz fransızlar şərqliləri çox sevəriz.

S ü l e y m a n S a l e h b ə y. Biz də hakəza. Fransayı çox sevdim. Ciddən mütərəqqi ölkədir.

Q a s t o n d e - M u s t a z. Əvvəlcə də Fransaya gəlmişdinizmi?

S ü l e y m a n S a l e h b ə y. Xayır, gəldiyim ilk dəfədir.

Q a s t o n d e - M u s t a z. Amma, fransızca eyi qonuşursunuz.

S ü l e y m a n S a l e h b ə y. Pək mükəmməl deyil.

Q a s t o n d e - M u s t a z. Əfəndim, bir həqiqət var ki, şərqlilər dili, bilxassə fransız dilini çox çapuq öyrənirlər. Bən öylələrinə təsadüf etdim ki, parisli qədər mükəmməl bilir. (Naum əfəndi zəngi vurur, qapıçı gəlir).

N a u m ə f ə n d i (qapıçıya). Gələ bilərsinizmi?

Q a p ı ç ı. Buyurunuz, əfəndim (gedir. Qaston de-Mustaz heyrət edər kimi Naum əfəndinin üzünə baxır).

N a u m ə f ə n d i (Qaston de-Mustaza baxaraq). Axşam yeməyini bir yerdə yeyəlim.

Q a s t o n d e - M u s t a z. Əfəndim, zəhmət edirsiniz... Təbii, müsafirpərvərlik Şərqin ən məqbul adətlərindəndir. Şu adətə hörmətən məmnuniyyətlə yeyərəm. (Naum əfəndi qalxır, ona mütəaqib-qonaqlar da qalxırlar. Birdən Naum masanın qutusunu açaraq).

N a u m ə f ə n d i (Qaston de-Mustaza). Əfv edərsiniz, məsələnin ən mühümü unudulmuş. (Masadan pul çıxarıb ona verir). Şimdilik ufaq-tüfək məsarif üçün.

Q a s t o n d e - M u s t a z (pulu çibinə qoyaraq). Mersi! Mersi!

PƏRDƏ

ÜÇÜNCÜ ŞƏKİL

Qəhvəxana. Yuxarı başda yüksək bir piştaxta arxasında qəhvə sahibi xanım əyləşmişdir. Ağ döşlüklü qarsonlar tez-tez ona yanaşır, marka alırlar və yanındakı sol açıq qapıya girib, oradan müştərilər üçün qəhvə, süd, qruaşan[1] və içkilər çıxarırlar. Divar diblərində yumşaq kanapelər və ortalıqda mərmər masalar və adi sandalyalar qoyulmuşdur. Kanapelərin arasında paltar asqıları var. Masaların üzərində məcmuə, qəzet görünür. Sağ tərəfdə iki saqqallı kişi şətrənc oynayır, sol tərəfdə bir zənci ilə gənc bir qız oturub qəhvə içirlər. Arabir zənci qızı qucaqlayıb öpür və bu hərəkətə kimsə əhəmiyyət verməyir. Bir-iki kokot oturub gənclərlə gözləşirlər. Bağır ilə Ibadulla nərdtaxta oynayırlar. Qabaqlarında boş qəhvə stəkanları var. Hərdən bir oyundan aralanıb danışırlar. Tez-tez qapı açılır, qəhvəxanaya yeni adamlar – kişilər və qadınlar girir-çıxırlar. Kənarda bir qoca oturub yazır. Səs gəldikdə sinirlənərək başını qaldırır, öz-özünə mırıl-

danıb təkrar yazıya dalır.

İ b a d u l l a (Bağıra). Yaxşı, Bakıdan göndərilən bu puldan bizə verməyəcəklər?

B a ğ ı r. Nə bilim. Ağlım kəsməyir.

İ b a d u l l a. Niyə?

B a ğ ı r (bir az sərt). Əşi, necə niyə. Tələbələrə verilir, sən tələbəsən?

İ b a d u l l a (gülərək). Bəs sən tələbəsən? Mən cəmisi üç il aldım, amma sən indiyə qədər alırsan.

B a ğ ı r. Mən tələbəyəm. Sən əvvəldən heç bir yerə girmədin.

İ b a d u l l a. Afərin sənin kimi tələbəyə! İldə bir yerə girib, bir vəsiqə alıb göndərirsən. Heç qurtarmaq da bilməyirsən.

[1] Aypara şəklində bulku

B a ğ ı r. Görərsən, qurtaracağam.

İ b a d u l l a *(gülərək).* Sən öl, bic adamsan. İşini düzəldə bilirsən. Hamı ilə də dostsan. Müsavatçılarla görüşürsən, bolşeviklərlə görüşürsən, fransız cəmiyyətlərinə gedib-gəlirsən. Vallah lap zamana adamısan.

B a ğ ı r. Oynunu oyna, yaşamaq sənin xörəyin deyil.

İ b a d u l l a. Bax, bu sözünə şərikəm. Adım pis çıxmış, amma bir fağır adamam. Deyir: "Çaqqal var gödən yırtır, qurdun adı bədnam".

Hər üzünü sən vurursan, adın da heç yerdə çəkilməyir. Mən yazığın da adı aferist çıxır.

B a ğ ı r. Belədir, keyfinə bax... Düz oyna.

İ b a d u l l a. Bağır, zarafat dursun, mən ölüm mənə də bir az pul al.

B a ğ ı r. Bir yandan bir vəsiqə tap, onsuz olmaz...

X ə n d a n ə f ə n d i *(girir).* Bonjur, əfəndilər.

B a ğ ı r. Bonjur, əfəndim. *(Xəndan əfəndi oturur. O saat qarson yanaşır. Xəndan əfəndi qəhvə ismarlayır. Qarson gedib bir az sonra gətirir).*

İ b a d u l l a. Əfəndim, nə var, nə yox? .

X ə n d a n ə f ə n d i. Eyilik, gözəllik... Yahu, qəzetləri oxudunuzmu?

Bir kürd kralı çıxmış, Parisə doğru gəlməkdə imiş... Ah, karata ingilis, nələr yapıyor... Bəradər, bu ingilislər heyrət şeydirlər: əsrlərdən bəri dünyanı alt-üst çeviyorlar. Kimsə də bunlara qarşı çıxmayır.

İ b a d u l l a *(oyuna davam edərək).* Xəndan əfəndi, yanı bu Kürdüstandan bir şey çıxar?

X ə n d a n ə f ə n d i. Kim bilir, bəradər, Bolqariyadan, Sırpdan, Romaniyadan... çıxmadımı? Həp bizim hesabımıza. Kiçildikcə kiçiliriz... Suriya, Fələstin, Ərəbistan, Iraq. Nələr verdik.

İ b a d u l l a *(gülərək).* Zərər yox, əfəndim, Kürdüstanı da verin canınız qurtarsın.

X ə n d a n ə f ə n d i *(hiddətlə).* Əfv edərsiniz, əfəndim, artıq Kürdüstanı verəməyiz... Yetər*! (Yumruğunu havada fırladıb xəşin bir şəkil alır. Hamı gülüşür).*

İ b a d u l l a *(gülərək).* Xəndan əfəndi, burada yumruq qıcamadan bir şey çıxmaz. Hünərin var, müharibəyə get.

X ə n d a n ə f ə n d i. Əfv edərsən, yalnız onu yapamam. Avropa müharibəsində karata Ənvər paşa bizi cəbhədən-cəbhəyə sürüklədi,

türkün anasını ağlatdı. Yetər! Şimdi hərbi zənginlər yapsın da bən baxayım.

İ b a d u l l a *(istehza ilə).* Yox, Xəndan əfəndi, mən səni qəhrəman deyə tanırdım, səhv edirmişəm. Vətənin təhlükədə, sən də burada rahat-rahat qəhvə içirsən.

X ə n d a n ə f ə n d i. Əfəndim, bəndəniz vətən üçün çox çalışdı. Faydasını başqaları gördü. Hər kəs məbus oldu, nazir oldu, səfir oldu, biz də vətəni tərk edib qərib olduq. Bənim vətənim yoxdur.

İ b a d u l l a. Buna baxmayaraq, kürdlərə də istiqlaliyyət vermək istəməyirsən.

X ə n d a n ə f ə n d i. Iştə bu olmaz. Bunlar həp ingilis oyunudur. Suriya, İraq müstəqilmi? Millətlərin müqəddəratı deyə bağırdılar.

Bizdən alıb, özlərinə müstəmləkə yapdılar. Kürdüstan da ayrılsa, böylə olacaq. Yox, əfəndim, diplomatların tatlı dilinə aldanmağa vaxtımız yoxdur.

S ü l e y m a n S a l e h b ə y *(içəri girir).* Mərhəba, əfəndim.

H a m ı. Mərhəba! *(Salehbəy oturur. Qarson yanaşır. Saleh bəy porto ismarlayır).*

S ü l e y m a n S a l e h b ə y. Əfəndilər, birər porto da sizə versinmi?

B a ğ ı r *(sevinərək).* Salehbəy, görünür, pul almışsan.

İ b a d u l l a. O, Salehbəy!

X ə n d a n ə f ə n d i. Ənfəs!

S a l e h b ə y *(qarsona).* Birər porto. *(Qarson gedir, bir az sonra gətirir).* Bəradər, pədər bizi xatırlamış, allah ömür versin. *(Oyun bitir. Bağır nərdtaxtanı yumub kənara qoyur).*

B a ğ ı r *(istehza ilə).* Salehbəy, Kürdüstan istiqlaliyyət qazanır.

Yəqin sən də mütəsərrifliyə çağırılacaqsan. Bizə də bir katiblik yeri verərsən, zənnindəyəm.

S ü l e y m a n S a l e h b ə y *(istehza ilə).* Hay-hay əfəndim. Həpsinizə mövqe hazırdır.

İ b a d u l l a. Canım, nə hökumət, doğrusu siyasət xoşuma gəlməyir. Asudə gəzirəm, nə məsuliyyətim var, nə qorxum. Ministrlər dallarına baxa-baxa gedirlər. Mən heç yerə baxmayıram, bilirəm ki, kimsəyə lazım deyiləm. Ancaq bir göydən düşmə para olsa, keyfim ulduza hürər. Onda nə hökumət, heç ingilis kralı da mənə çata bilməz.

X ə n d a n ə f ə n d i. Mən də siyasət sevmərəm. Yüksəklər bəni qorxudur. Ən iyisi təncərədə bişirib qapağında yeməkdir.

İ b a d u l l a. Yaşa, Xəndan əfəndi. Mən də sən deyəni deyirəm:
"Azacıq aşım, ağrımaz başım" – vəssalam. Ancaq (yavaş səslə) bir az ara olmalı.

S ü l e y m a n S a l e h b ə y. Bəradər, siz çocuqsunuz, hələ hökumət tiryəkindən dadmamışsınız. Dadsanız əl çəkməzsiniz. Bən bir qədər mütəsərrif oldum, dadı hələ də damağımdan getməmişdir.

İ b a d u l l a. Süleyman Salehbəy, düzünü deyin, bir mövqe sahibi olsanız, bizi unutmazsınız ki?

S ü l e y m a n S a l e h b ə y. Heç unutmam.

B a ğ ı r. İndi belə deyirsiniz, onda unudarsınız.

S ü l e y m a n S a l e h b ə y. Namusuma and içirəm... Sizi keyflər içində üzdürərəm...

İ b a d u l l a. Yaşa, yaşa!.. Mənim borclarımı da verərsənmi?

S ü l e y m a n S a l e h b ə y. Verərəm.

I b a d u l l a. Yaşa, yaşa! (Xəndana). Ənfəs, əfəndim, ənfəs!

X ə n d a n ə f ə n d i. Ənfəs!

S ü l e y m a n S a l e h b ə y (düşünərək). Yahu, şaka dursun, bu Paris bursasında hərə bir şey satır... Zatən satılan şey də deyil... hava.

Biz neçün satmayalım?

İ b a d u l l a. Bu bəlli, iş və bacarıq lazımdır.

S ü l e y m a n S a l e h b ə y. İkisi də bəndə. Istərsinizsə, iş verim.

B a ğ ı r. Razıyıq. Xəndan əfəndinin fikrini soruşmalı.

X ə n d a n ə f ə n d i. Oyun üçün hazıram.

S ü l e y m a n S a l e h b ə y. Oyun deyil, ciddi deyirəm.

X ə n d a n ə f ə n d i. Nə isə.

S ü l e y m a n S a l e h b ə y. Deməli razısınız. Pək iyi. Bağır sən yarın saat 9-dan 12-yə qədər yaşadığın otelin bir otağında könüllü yazırsan.

B a ğ ı r (gülərək). Şakanı burax.

S ü l e y m a n S a l e h b ə y. Yahu, ciddi söyləyirəm. Yarın bu məsələ haqqında qəzetələrdə elan nəşr olunacaq. Al bu bin frankı, ilk məsarif üçündür (cibindən pul çıxarıb verir, o da cəld cibində gizləyir).

Məsələni bildinmi? Müraciət edənin adını və adresini yazacaqsan...

Şərait soruşsa, söylərsən ki, sonra bildiriləcək... Hər halda kəndinə təntənəli bir qəbul odası yaparsan.

B a ğ ı r. Anladım.

S ü l e y m a n S a l e h b ə y. Xəndan əfəndi də sənə yardım edər *(pul çıxarıb Xəndana verir)*. Şimdilik şununla iktifa ediniz. Sonra çox verəcəyəm.

X ə n d a n ə f ə n d i. Ənfəs! *(pulu gizləyir)*. Yaşasın kürd, biri ölməsə, biri dirilməz (*kənara),* avropalılar ermənilər bitirdilər, şimdi də növbə kürdündür. Yıxılana yazıq! Nə isə, bu kiçik millətlərin üsyanından neft qoxusu gəliyor (qoxulayır). Neft qoxusu.

İ b a d u l l a *(Xəndana)*. Ənfəs, əfəndi, nə mırıldanırsan.

X ə n d a n ə f ə n d i. Əfəndim, para bəndənizi... bayıldıyor, *(sandalyada sarsılır, qalxıb, onu tuturlar. Ayılan kimi olur).*

İ b a d u l l a *(gülərək)*. Bizim Azərbaycanda deyərlər: "Ərdəbil pişiyi küftə görməmiş..." Xəndan əfəndi – para!

X ə n d a n ə f ə n d i. Əfəndim, insan... tühaf oluyor.

S ü l e y m a n S a l e h b ə y. Tühaf olmazsan, alışarsan *(ciddi)*. Oturun! (*otururlar)*. Əfəndilər, Ibadullanın vəzifəsi sonra başlayacaq *(cibindən pul çıxarıb İbadullaya verir).* Şunu al kəndinə bir otaq kirala.

İyi də bir əlbəsə yapdır.

İ b a d u l l a. Yaşa! *(pulu gizləyir*).

S ü l e y m a n S a l e h b ə y. Əfəndilər, vəzifəniz bəlli. Zahirinizə böyük məna verməlisiniz. Ilk müvəffəqiyyətlər zahirdən çox asılıdır.

X ə n d a n ə f ə n d i. (*ayağa qalxıb, səhnənin ön tərəfinə yanaşır və üzünü tamaşaçılara çevirərək)* – Əfəndilər, vəzifəniz bəlli. Zahirinizə böyük məna verməlisiniz. İlk müvəffəqiyyətlər zahirdən çox asılıdır. *(Sükut)*... Ənfəs!

PƏRDƏ

DÖRDÜNCÜ ŞƏKİL

"Şanz-Elize" otelinin təntənəli salonunun bir guşəsi. Ipək örtülü məbləğ, xalı döşənmiş, divarlarda güzgü və qiymətli tablolar var. Süleyman Salehbəy yuxarıda və ətrafında Bağır, İbadulla, Xəndan əfəndi, Naum əfəndi və başqa ziyarətçilər oturmuşlar.

Hamı vizitkadadır. Arabir qırmızı geyimli, işıldar düyməli qarson gümüş təbsidə vizit kartı gətirir. Naum əfəndi bu kartları bərkdən oxuyub, ziyarətçiləri qarşılayır, Həzrəti-Şəhriyara təqdim etdikdən sonra onlara yer göstərir və özü də oturur.

Ziyarətçilərin hamısı vizitka geymişlər.

Z i y a r ə t ç i l ə r d ə n b i r i. Dəniz Həzrəti-Şəhriyarı rahatsız etmədi ki?

S ü l e y m a n S a l e h b ə y. Təbii, bir az sarsdı... Lakin zatıma qarşı ibraz olunan hüsn təvəccöh və nəzakət hər şeyi unutdurdu.

İ k i n ç i z i y a r ə t ç i. Marseldə qaldınızmı?

S ü l e y m a n S a l e h b ə y. "Kürd təali cəmiyyəti"nin israrına rəğmən, məələsəf, qala bilmədim. Bir an əvvəl Parisdə bulunub da iş başlamaq icab ediyordu.

Ə b d ü l ə z i m p a ş a. Əzimətinizdən birinci məqsəd nədir?

S ü l e y m a n S a l e h b ə y. Avropa əfkari-ümumiyyəsini böyük kürd hərəkətilə aşina etmək, bəzi ləvazimatı-hərbiyyə tədariki ilə məşğul olmaq.

Ə b d ü l ə z i m p a ş a. Planınız böyük və ciddən şayan-təbrikdir...

Əfəndim... bəndəniz qurana olduğum zaman soltan Əbdülhəmidin kürd millətinəcibəsinə qarşı iltifat buyurduqları hüsnü-təvvəccöhün izdiyadına bihəqqin çalışmışdım... Əlan məqsədi-alilərinizə üçün hər bir fəaliyyətdə bulunmağa amadəyəm...

S ü l e y m a n S a l e h b ə y. Mersi, əfəndim! Hissi-dövlətlərinizdən dolayı məmnun və mütəşəkkürəm *(Qarson əlində təbsi içəri girir. Naum əfəndi təbsidəki kartı götürür).*

N a u m ə f ə n d i *(kartı oxuyur).* Jurnalist və elmi iş namizədi Qaston de-Mustaz. (Qarsona). Buyursunlar. *(Qarson çıxır, Naum əfəndi qalxıb ziyarətçinin qarşısına gedir).*

Q a s t o n d e - M u s t a z *(girir).* Bonjur, əfəndim (görüşür). Səyahətinizi qəzetlərdə böyük maraqla təqib etdiyim Həzrəti-Şəhriyar Süleyman xana təqdim olunmaq mənim üçün şərəf və böyük səadətdir.

N a u m ə f ə n d i. Mersi, mersi. Buyursun. *(Uzaqda duraraq Süleyman Salehbəyə baxır).* Həzrəti-Şəhriyar, müsaidə buyursanız Fransanın məşhur jurnalisti və elmi iş namizədi müsyö Qaston de-Mustazı zati-nəcabətinizə təqdim edərəm.

S ü l e y m a n S a l e h b ə y *(qürurla, nəzakətlə).* Buyursunlar!

(Qaston de-Mustaz nəzakətlə yeriyib Süleyman Salehbəyin əlini sıxır).

Q a s t o n d e - M u s t a z. Fransa Şərqdən gələn hər bir böyük simaya qarşı hüsni-qəbul göstərir. Zati-nəcabətinizin də əziməti fransız qəlbində sevinc oyadır.

S ü l e y m a n S a l e h b ə y. Bən də Fransada, sevimli və müsafirpərvər Fransada bulunduğumdan dolayı iftixar edərəm, əfəndim (Qaston de-Mustaza yep göstərir, oturur).

Q a s t o n d e - M u s t a z. Şərq dostu həsəbilə böyük məqsədiniz yolunda üzərimə düşən vəzifəni ifa etməkdə ayrıca həzz duyacağımı da qeyd etməyi özümə borc bilirəm.

S ü l e y m a n S a l e h b ə y. Mersi, mersi!

N a u m ə f ə n d i. Həzrəti-Şəhriyara daşıdığı yüksək məfkurə uğrunda edəcəyiniz yardım insani bir vəzifədir, zənnindəyəm.

S ü l e y m a n S a l e h b ə y. Mersi, mersi! (Qarson əlində təbsigəlir. Naum əfəndi kartı götürür).

N a u m ə f ə n d i (kartı oxuyur). "Müsəlman qardaşlığı" cəmiyyətinin sədri, sabiq Əlcəzair istinaf məhkəməsinin fəxri üzvü, əsbəq "Əl mübarək" qəzetəsi müdiri müsyö Diyodone. (Qarsona). Buyursunlar (Qarson gedir. Naum əfəndi müsyö Diyodonenin qarşısına gedir).

D i y o d o n e (beli bükük, ağ baş, dolaşıq saqqallı, axsaq bir qoca içəri girir və kəko dil ilə danışır). – Bonjur, qardaş (Naum əfəndi ilə görüşür). Sevgili Islam əhkamı möcəbincə əzimət buyurmuş hökmdar qardaşımı ziyarət etməyi dini bir vəzifə bildim.

N a u m ə f ə n d i. Xoş gəlmişsiniz (Süleyman Salehbəyə). Həzrəti- Şəhriyar, müsaidə sadir buyurulsa, "Müsəlman qardaşlığı" cəmiyyətinin sədri, sabiq Əlcəzair istinaf məhkəməsinin fəxri üzvü və "Əl mübarək" qəzetinin əsbəq müdiri müsyö Diyodoneni zati-nəçabətlərinə təqdim edərəm.

S ü l e y m a n S a l e h b ə y (bir az yerindən qalxaraq). Buyursunlar! Məmnuniyyətlə. (Qoca təqdim olunub, göstərilən yerdə oturur).

D i y o d o n e (təsbih çıxarıb çevirərək). Qardaş, təşrifinizdən dolayı son dərəcə məmnunam. "Əl məmununə üxüvvət" – deyə buyurulmuş. Sizi görərək köhnə fərəhli xatirələrim çanlanır... (Sükut). Hələ gənc idim. Əlcəzairdə xidmətdə idim. Quranı-Kərimi oxuyub hər yolunu buldum (dəsmalı ilə gözlərini silir)... Xristianlığı atıb islamiyyət qəbul etdim... O zaman sünnət məsələsi məni çox qorxudurdu. Dedim qanım zəhərlənər... Arvad da deyirdi: "A kişi, birdən pis kəsərlər, ziyanlıq olar"... Sonra Həzrəti-Məhəmmədin din yolundakı fədakarlıqlarını xatırlayıb, mən da sünnəti fəda etdim...(Gülümsünür).

Şimdi də durur. Yazı masasının üzərində mıxdan asmışam. (dəsmalı ilə gözlərini silir)... Evə qonaq gəldikdə arvad fəxr ilə göstərər...

S ü l e y m a n S a l e h b ə y (Diyodoneyə). Cəmiyyətinizin başlıca məqsədi nədir?

D i y o d o n e. İbadət, ibadət. Müsəlman qardaşlarımızın Avropa mədəniyyətinə alışıb, pozulmaması... Bilirsiniz, şimdi əxlaq get-gedə sarsılır. Bolşevik ruhu aləmə yayılır. Sədaqət və itaət qalmayır. Hər yerdə üsyan və tüğyan. Camaatı din və hökumətə qarşı sadiq saxlamaq başlıca məqsədlərimizdəndir.

X ə n d a n ə f ə n d i. Ənfəs! (peşiman olaraq ağzını əlilə tutur).

İ b a d u l l a (yavaşca Xəndana). Adam oğlusan. Ənfəsi qoy dursun, gör kişi nə buyurur.

S ü l e y m a n S a l e h b ə y (Diyodoneyə). Ciddən müqəddəs bir vəzifə görürsünüz (Qarson təbsidə kart gətirir. Naum əfəndi alır).

N a u m ə f ə n d i (kartı oxuyur). Hindi-Çin vali-müstəşari-əsbəq katibi, Madaqaskar zabitəsi sabiq katibi, Tunis valisi müşaviri-sabiqi, "Şərq dostları" cəmiyyətinin fəxri üzvü müsyö Dreyyer. (Qarsona). Buyursunlar. (Qalxıb qarşısına çıxır, qarson gedir).

D r e y y e r (uzunboy, uzun, ağ bığlı, üzü qırışıq və başı daz qoca girir). Boyunbağına çalçarpaz bir qızıl sancaq sancmışdır. (Burnunu tez-tez çəkir). Bonjur!

N a u m ə f ə n d i (onu qarşılayıb görüşür). Xoş gəlmişsiniz. Buyurun!

D r e y y e r (burnunu tez-tez çəkərək). Neçə gündən bəri adını qəzetlərdə oxuduğum Həzrəti-Şəhriyarı, cəmiyyətimizin proqramı mucəbi olaraq, ziyarət etməni şərq dostu həsəbilə özümə şərəfli bir vəzifə bildim.

N a u m ə f ə n d i. Mersi. Xoş gəlmişsiniz. (Süleyman Salehbəyə).

Xan həzrətləri müsaidə buyursa, Hind-Çin vali-müstəşari-əsbəq katibi, Madaqaskar zabitəsi katibi, Tunis valisi müşaviri-sabiqi, "Şərq dostları" cəmiyyətinin fəxri üzvü müsyö Dreyyeri təqdim edərəm.

S ü l e y m a n S a l e h b ə y (bir az yerindən qalxaraq). Buyursunlar!

(Dreyyer yeriyib görüşür. Göstərilən yerdə oturur. Naum əfəndi də oturur).

D r e y y e r (burnunu çəkərək). Kürd milləti nəcibəsinin əlində silah istiqlal qazanması cəmiyyətimiz üzvlərini olduqca sevindirir.

S ü l e y m an S a l e h b ə y. Mersi! Mersi!

D r e y y e r (burnunu çəkərək). Himayəmizdə bulunan Suriya ilə qonşuluqda bizə dost, bizimlə sıxı əlaqədə bulunan bir yeni dövlətin olması, zənnimcə, mətlub olunan arzularımızdandır.

S ü l e y m a n S a l e h b ə y. Şərq dostu Fransa ilə sıxı və dost bir əlaqədə olacağımıza əmin ola bilərsiniz. Əsnayi-səyahətimdə Parisi başqa payitəxtlərə tərcih etməm buna dəlil olmazmı?

D r e y y e r (burnunu çəkərək). Məmləkətinizin həqiqi mənafeyini duyduğunuzdan dolayı məmnunam (Qarson təsbidə kart gətirir. Naum əfəndi alır).

N a u m ə f ə n d i (kartı oxuyur). Bursa dəllalı və "Finansiyer" məcmuəsi müxbiri müsyö Molle de-Valay. (Qarsona) Buyursun!

(Qarson gedir, Naum əfəndi qarşıya çıxır, gənc, şıq geyinmiş, diribaş, bığ və saqqalı qırxılmış Valay girir).

M o l l e d e - V a l a y. Bonjur!

N a u m ə f ə n d i. Bonjur, əfəndim. Buyurun.

M o l l e d e - V a l a y (Naum əfəndi ilə səmimi görüşərək yavaş səslə). Əfəndim, işlər eyidir. Bursada böyük propaqanda yapmışam. Bəzi bank mühafillərində Beyrut-Diyarbəkir dəmir yol imtiyazı belə mövzi-bəhs olunmadadır. İstiqraz yapacayız, zənnindəyəm.

N a u m ə f ə n d i. Çox gözəl. Gəl səni Süleyman xana təqdim edəyim, (Süleyman Salehbəyə) müsaidə buyurunuz "Finansiyer" müxbiri müsyö Molle de-Valayı zati-Şəhriyara təqdim edəyim.

S ü l e y m a n S a l e h b ə y. Hay, hay (görüşürlər, oturur).

M o l l e d e - V a l a y. Yüksək məqsədinizə xidmət etmək böyük səadətdir.

S ü l e y m a n S a l e h b ə y. Mersi, daşıdığımız məqsədə qarşı göstərdiyiniz hüsni-rəğbətdən dolayı hökumətin və millətin naminə hamınıza mütəşəkkürəm. Fransa ilə Kürdüstan arasında sıxı dostluq və mütəqabil fayda təmini üçün atdığım hər bir addımın müvəffəqiyyətlə nəticələnəcəyinə əminəm...

H a m ı (bir yerdə). Əlbəttə! Əlbəttə!

İ b a d u l l a (Bağıra. Səsi hamının səsinə qarışır). Ədə, Bağır xalaoğlu, deyəsən ovucum geyişir, pul görünür.

S ü l e y m a n S a l e h b ə y. Bizdə mütəxəssislər az olduğu üçün Fransaya bir çox imtiyazlar verməк icab edəcək, fransız kapitalı geridə qalmış ölkəmizə mədəniyyət saçar, zənnindəyəm.

H a m ı (bir yerdə). Əlbəttə! Əlbəttə!

X ə n d a n ə f ə n d i (Hamı ilə birlikdə). Əsarət saçar, zənnindəyəm.
(Qarson qundaqda yorğana bükülü bir çocuq gətirir. Naum əfəndi qalxıb onu qucaqlayır).

N a u m ə f ə n d i (qarsona). Bu nədir? (Qarson bir məktub verir. Naum əfəndi oxuyur) "Həzrəti-Şəhriyar, səltənətinizin kiçik vəliəhdini göndərirəm, müsafirlərimizə təqdim ediniz. Bəhicə". (Məktub Naum əfəndinin əlindən düşür. Əvvəl özünü itirir). Vəliəhdə?.. Vəliəhd!!! Bu nə ədəbsizlik? (Məclisdəkilər susub diqqətlə Naum əfəndiyə baxırlar. Naum əfəndi vəziyyəti duyduqda çocuğu alıb, məclisdəkilərə tərəf dönür). Parisdə yaşayan Kürdüstan tələbələri Həzrəti-Şəhriyara hədiyyə olaraq bir çocuq... Çuxa göndərmişlər.

H a m ı (bir yerdə). Sağlıqla geysin... Xeyirli olsun!..

İ b a d u l l a (hamı ilə bərabər). "Xəlvətdə buğaya gələn aşkarda doğar".

D i y o d o n e (kəkələyərək). Ah, nə gözəl, nə səmimi hədiyyə! (Dəsmalı ilə gözlərini silir).

D r e y y e r (burnunu çəkərək). Ah, nə səmimiyyət!

S ü l e y m a n S a l e h b ə y. Yuxarıya, otağıma göndərməli.

N a u m ə f ə n d i (öz-özünə). Bu qadın dəli olmuş. Gedim onu razı edim, çocuğu aparsın. Yoxsa məsələnin bu vaxtında işlər bərbad olar (Çocuğu qarsona verir, gedirlər).

D i y o d o n e (Süleyman Salehbəyə, kəkələyərək). Buradakı kürd kalonisi böyükdürmü?

S ü l e y m a n S a l e h b ə y. Əfəndim, bir az tələbəmiz var. Bundan sonra milli hökumətimiz Parisə bir çox gənc göndərəcəklər.

Baxın, bunlar da (Bağırı, Ibadullanı və Xəndan əfəndini göstərir) kürddürlər.

D i y o d o n e (gözlüyünü çıxarıb, əlilə gözlərindən uzaqda tutub tələbələrə maraqla tamaşa edir, kəkələyərək). Ah, çox gözəl. Çox gözəl! Nə ilə məşğuldurlar?

S ü l e y m a n S a l e h b ə y. Bu, (Bağırı göstərir) ali iqtisad məktəbi qurtarmışdır. Bu, (Ibadullanı göstərir) siyasi məktəb məzunudur, bu da (Xəndanı göstərir) zabitdir. (Xəndan əfəndi özünü düzəldir). Hamısı yanımda xidmətdədir.

D i y o d o n e (kəkələyərək). Ah, nə gözəl! (Bağıra, İbadullaya və Xəndana). Cəmiyyətimizə təşrif buyurub, bizi şərəfyab ediniz. Ah, nə gözəl ayinlər yapırıq. Mərakeşdən xoş-sövt bir xətib gətirmişik: xüt-

bəsilə Həzrəti-Məhəmmədin ruhunu şad edir. (Dəsmalını çıxarıb, gözlərini silir).

D r e y y e r (burnunu çəkərək). Ah, nə gözəl!

Q a r s o n d e - M u s t a z (Diyodoneyə). Əfəndim, ciddən xidmətiniz böyükdür. Bən müsəlman deyiləm, ancaq istiqlaliyyəti çox sevirəm. İslam Şərqinə sərf etdiyim əməyi bir şərəf ədd edərəm.

S ü l e y m a n S a l e h b ə y. Mersi, mersi. Şərq də Sizin kimi alicənabların xidmətini unutmaz.

D r e y y e r (burnunu çəkərək). Əfəndim, bu, Şərq dostlarının müqəddəs vəzifəsidir. Hər bir yeni addımınız bizlərdə fərəh doğurur. (Naum əfəndi girir, siması şəndir).

N a u m ə f ə n d i (öz-özünə). Bir çox vədlərlə başını əkdim. İşlər hələlik yaxşıdır. (Hamıya eşitdirərək). Əfv ediniz, telefonda ləngidim. Həzrəti-Şəhriyarın gəlməsi bank mühafillərində böyük maraq oyatmışdır. Həp görüşmək istəyirlər. Bilxassə, ingilislər çox maraqlanırlar.

S ü l e y m a n S a l e h b ə y (Naum əfəndiyə). İş saatları təyin etməliyiz.

D i y o d o n e (kəkələyərək). Təbii, əfəndim. Əməli söhbətlər üçün uzun saatlar lazımdır.

D r e y y e r (burnunu çəkərək). Təbii! Təbii!

Q o n a q l a r. Təbii! Təbii! (Qarson təbsidə vizit-kart gətirir. Naum əfəndi alır).

N a u m ə f ə n d i (oxuyur). "Əbdülqədim paşa, əsbəq qürənayi – həzrəti-padşah, xəlifeyi-ruyi-zəmin soltan Həmidxan saniyi-cənnətməkan". (Müsafirlərə). Nüfuzlu adamdır, çoxdan Parisdə yaşayır.

S ü l e y m a n S a l e h b ə y. Buyursunlar! (Qarson gedir. Naum əfəndi qapıya yanaşıb gözləyir).

Ə b d u l q ə d i m p a ş a (ağ seyrək tükləri səliqə ilə yanakı daranmış, sağ gözündə monoql, barmağında iri göy qaşlı üzük var. Girir). Bonjur, əfəndim!

N a u m ə f ə n d i (yanaşaraq). Bonjur, zati-dövlətləri! (Naum əfəndi ilə görüşür. Naum qoluna girib Süleyman Salehbəyə doğru apardıqda, Əbdüləzim paşa yerindən sıçrayıb Əbdülqədim paşanı qarşılayır.

Əbdülqədim paşa əvvəl dostunu tanımayır, sonra tanıyıb onun mətəyini öpmək istəyir. Əbdüləzim paşa qoymayır. O da öpmək istəyir, Əbdülqədim paşa buraxmayır. Bu nəzakəti ifa edərkən səhnəni dolaşırlar və Naum əfəndi bir-iki addımlıq məsafədən onları təqib edir).

Ə b d u l q ə d i m p a ş a (əyilib Əbduləzim paşanın ətəyini öpmək istəyərək). Zati-dövlətlərini gördüyüm kaç sənə oldu, ətəyinizi öpmək bəndəniz üçün böyük bir şərəfdir.

Ə b d ü l ə z i m p a ş a (öz ətəyini mühafizə edərək, Əbdülqədim paşanın ətəyini öpmək istəyir). Əstəğfürülla, əfəndimiz, zati-dövlətlərinin ətəyini öpmək bəndəniz üçün bir səadətdir.

Ə b d ü l q ə d i m p a ş a (öz ətəyini mühafizə edərək, Əbdüləzimin ətəyini öpmək istəyir). Əstəğfürülla, əfəndimiz! Zati-dövlətləriniz bəndeyi-xakisarin vəliyyülpeməsi olmuşdur. Ətəyinizi bus etmək bəndəniz üçün ibrazı-hörmət deməkdir.

Ə b d ü l ə z i m p a ş a (öz ətəyini mühafizə edərək). Əstəğfürülla, əfəndimiz, ətəyinizi bus etməyi yaşca sizdən küçüyə iltifat buyurunuz?

Ə b d ü l q ə d i m p a ş a (dik qalxaraq, hiddətlə). Sizmi bəndən küçüksünüz? Buraxınız allah eşqinə!

Ə b d ü l ə z i m p a ş a (hiddətlə). Bənmi böyüyəm! Buraxınız, allah eşqinə!

Ə b d ü l q ə d i m p a ş a (hiddətlə). Siz sarayda paşa olanda bən Babi – alidə qələm katibi idim... Buraxın allah eşqinə (üzünü ondan çevirdikdə, Naum əfəndini görür). Ah, əfəndim (gülümsünərək). Əfv buyurulsun. Bəndənizi Həzrəti-Şəhriyara təqdim etmək iltifatında bulunmazsınız?

N a u m ə f ə n d i. Məmnuniyyətlə! (Süleyman Salehbəyə). Əbdülqədim paşa, əsbət qürənayi – Həzrəti-Şəhriyar soltan-il bərrin və bəhrin əfzayi-təxti-osmani soltan il qazi, xəlifeyi-ruyi-zəmin Əbdül Həmid saniyi-cənnətməkan...

S u l e y m a n S a l e h b ə y. Təşərrüf ediyoruz.

PƏRDƏ

BEŞİNCİ ŞƏKİL

"Sarayi-Fatma" adlı ümumxananın salonu. Gözəl yumşaq meblelər qoyulmuş, xalılar döşənmiş: pəncərələrdə qiymətli vazlar görünur. Divarlar güzgülərlə bəzənmiş. Hər yerdə qırmızı ay-yıldız nəsb olunmuş, ön divarda ərəb hərflərilə "Sarayi-Fatma" yazılmışdır.

Sağ tərəfdə piano qoyulmuşdur. 3-5 əlvan paltarda qadın ağparikli tarixi libaslarla bərabər, müasir modalar da gözə çarpır. Qadınların hərəsi bir pozadadır: kimi kanapelərdə uzanmış, kimi qoltuğa (kreslo) yerləşmiş, kimi də güzgülərin önündə tualetlərini düzəldirlər. Qonaqlar smoqinqdədirlər. Səhnənin ön tərəfində Bağır, İbadulla və Xəndan əfəndi durmuşlar. Xəndan əfəndi salonun zinətinə və qadınların gözəlliyinə heyran qalaraq danışır, danışdıqca da ətrafı yabançıcasına süzür.

B a ğ ı r. Bizə deyirlər niyə məktəbi qurtarıb, Azərbaycana dönməyirsiniz. Məqsəd yaşamaq deyilmi – mən onsuz da yaşayıram. Bu gün bir kürd xanı meydana çıxıb, o biri gün Azərbaycan heyəti neft yeri satır, bir də görürsən bir arnaüt rəcalı gəldi... Biz də bunların sayəsində yaşarıq... Allah yetirir..

İ b a d u l l a. Bəzən də allahın yadından çıxırıq – otelçi bizi otelə buraxmayır, qəhvəçi qəhvə verməyir... it köküdə kəlləpəz.

B a ğ ı r. Elə o da bir keyfdir. Mən ayda bir gecə (salonu göstərir) belə yerdə keçirdikdən sonra on gün aç qalmağa razıyam. Dünya beş gündür, onu xoş keçir, sonra çəpər altında gəbər... (Xəndan əfəndini qucaqlayır). Sən nasıl düşunürsən, Xəndan əfəndi?

X ə n d a n ə f ə n d i. Yahu, heyrət (salonu və qadınları süzür)!
Xərabə Türkiyədə batıb, qalmışız, dünyadan xəbərimiz yoxdur. Böyük məcmuələrdə bir şerimiz nəşr olduqda dünyayı bizim zənn edirik (sükut). Halbuki (salonu və qadınları süzür) aləmlər varmış!..

İ b a d u l l a. Xəndan əfəndi, hələ nələr görmüşsən... Bu adi bir ümumxanadır...

X ə n d a n ə f ə n d i. Bəradər, bu da yetər... Mütəbaqisini (barmağını alnına qoyur) xəyalım tamamlar. Böyük bir faciənamə yazmalı...

B a ğ ı r. (darğın). Faciə nədir? Xəndan əfəndi? Görürəm, sən yenə ayılmamışsan. (Ciddi). Əfəndim, dünya bir lotu bazarıdır. Bacaranlar yaşayacaq, bacarmayanlar da sənin kibi başını şeir ilə tovlayacaq, vəssalam. (Çəkilib qadınlara doğru gedir; birini qucaqlayıb yanında oturur).

İ b a d u l l a. Gəlmədilər. (Xəndan əfəndiyə). Gəl əylənəlim, əziz dəqiqələri boş keçirməyəlim. (Xəndanın qoluna girib qadınlara doğru aparmaq istəyir, Xəndan əfəndi getmək istəmir, ürkür, çəkinir, nə-

hayət, çəkilib ayrı oturur. İbadulla bir dəstə qadının ortasında yerləşir. Bunlardan birisinin qulağına pıçıldayır, qadın gedib Xəndan əfəndinin qucağında oturmaq istəyir. Xəndan əfəndi ürküb çəkinir, gülüşürlər).

İ b a d u l l a (Xəndan əfəndiyə). Bəs deyirsən ənfəs, (qadını göstərir) bu da ənfəs: öz ayağilə gəlib, qucağında oturmaq istəyir, buraxmayırsan. Dodaqların var öpməyirsən, qəlbin var sevməyirsən... O şair adı sənə haram olsun. (Qadın israrında davam edir, Xəndan əfəndi buraxmayır. Nəhayət, qadın onun üzündən öpüb qaçır).

X ə n d a n ə f ə n d i (pərt bir halda). Yahu, nə cəsarət (gülüşürlər).

B a ğ ı r. Xəndan əfəndi, bütün dünya gecə-gündüz çalışıb, bir aylığa da olsa, Parisə qaçmaq üçün pul hazırlayır. Xan rəiyyəti, fabricant işçini, hökümdar ölkəni... döyəşləyib bura üçün tədarük görürlər... Sən də yuxulayırsan... (Xəndan əfəndi küsmüş bir halda susub qalır. Süleyman Salehbəy, Naum əfəndi, Qaston de–Mustaz və müdirə gəlirlər).

M ü d i r ə (Naum əfəndiyə). Başqa gələniniz olmayacaq ki?

N a u m ə f ə n d i (oynaq bir halda). Xeyr.

M ü d i r ə. Nə əmriniz var?

N a u m ə f ə n d i. Bu gecə sabaha qədər buranın (salonu göstərir) və oranın (qadınları göstərir) sahibi mütləq bizik, kimsə buraxılmayacaq.

M ü d i r ə. Təbii, əfəndim.

N a u m ə f ə n d i. Sonra... (durub birdən xanımın çənəsini əlləyir, xanım diksinir)... Sonra biz şərqliyik; hamımız yerdə oturacayız.

(Süleyman Salehbəyi göstərir). Həzrəti-Şəhriyar təxtə əyləşəcək. Hərəm qadınları da ətrafını saracaq. Hələlik bu qədər. Əmr ediniz təxt qursunlar.

M ü d i r ə. Çox gözəl!

N a u m ə f ə n d i. Bildinizmi?

M ü d i r ə. Təbii, əfəndim, ilk dəfə deyil ki, Əhməd şaha da qurmuşduq, rəhmətlik babası Müzəffər şaha da qurmuşduq.

N a u m ə f ə n d i. Tez! (Qadın gedir. Hərə bir qadına yanaşır. Bir dəqiqə sonra müdirə dönür, mavi geyimli işçilər taxt gətirib yuxarı başdan qururlar. Ətrafına yerdən xalı salınır, üzərinə ipək yasdıqlar qoyulub, qadınları cürbəcür pozalarda oturdurlar. İşçilər gedirlər).

N a u m ə f ə n d i (Suleyman Salehbəyə təzim edərək). HəzrətiŞəhriyar vəl bərqi – vəl bəhr Bəndəgahi-Humayun cülusinizə müntəzirdir.

S ü l e y m a n S a l e h b ə y. Təşəkkür edirəm (təxtdə əyləşir).

N a u m ə f ə n d i (Ibadullaya). Xariciyyə naziri həzrətləri, hərəm dairəsinə buyurun.

İ b a d u l l a. Mersi! (Keçib yerdə qadınların arasında yerləşir).

N a u m ə f ə n d i (Bağıra). Maliyyə naziri həzrətləri buyursun.

B a ğ ı r. Mersi! (qadınların arasında oturur).

N a u m ə f ə n d i (Xəndan əfəndini arayaraq). Hərbiyyə naziri əfəndimiz (dönüb Xəndanı küskün görür) yahu, bu ki, elani-hərb etmiş (ona yanaşıb qoluna girir). Nə olmuş?.. Bildim... (sükut); şair həssas olur: bu eşqilər (qadınları göstərir) qəlbinizə toxunmuş... Zərər yoxdur.

Şərqdən Parisə ilk dəfə gələndə eylə olur... alışarsınız. (Onu qaldırıb aparır, qadınların arasında yerləşdirmək istəyir, ürküb kənara oturur).

N a u m ə f ə n d i (Qaston de-Mustaza). Mətbuat dövləti-müəzzəməsinin səfiri-kəbiri buyursun.

Q a s t o n d e - M u s t a z. Mersi! (Yerləşir).

M ü d i r ə. Daha nə əmriniz var?

N a u m ə f ə n d i. Şapram şərabı.

N a u m ə f ə n d i. Çox gözəl (gedir).

N a u m ə f ə n d i (bir kənarda dura raq). Əfəndilər məndən razısınızmı?

H a m ı. Razıyıq!

N a u m ə f ə n d i. Məqsədimizə çatdıq. Əldə para var, bu gecə doyunca keyf edəriz... Sonra da allah kərimdir (qadınların arasında oturur. Qırmızı paltarlı, işıldar düyməli, qızıl qalpaq çocuqlar təbsidə şərab, qədəhlər və məzə gətirirlər. Müdirə də arxadan gəlir. Süfrə salınır. Şərablar düzülür, qədəhlər paylanır).

M ü d i r ə. Şimdilik kifayətdirmi?

N a u m ə f ə n d i. Hələ ki bəsdir. Lazım olsa deyərəm.

M ü d i r ə. Arabir gələrəm. (çocuqlarla gedir. Bir çocuq taxtın yanında qalır).

İ b a d u l l a (qədəhi doldurub qaldırır). Xəndan əfəndi, sənin sağlığına!

N a u m ə f ə n d i (Ibadullaya). Zati-dövlətləri, kərəm buyurun. (İbadulla qulaq asır). Əvvəla, qədəhləri doldurun. (Doldururlar. Salehbəyinkini çocuq doldurur). Allahdan sonra bu nemətləri bizə inayət buyuran bir zati-əqdəs var. Içəlim Həzrəti-Şəhriyarın şərəfinə (Salehbəyə).

Padşahım, bin yaşa!

H a m ı. Bin yaşa!

S ü l e y m a n S a l e h b ə y. Səbr edin! (Hər kəs susur). Həriflər, özünüz qadın içində üzürsünüz, bəs bən burda ölüm?

H a m ı. Həzrəti-Şəhriyar haqlıdır.

N a u m ə f ə n d i. Əmriniz?

S u l e y m a n S a l e h b ə y (bir qızı göstərir). Bax o boynu incili qız yanıma gəlsin. (Qız qalxıb taxtda Süleyman Salehbəylə yan-yana əyləşir)... Şimdi içəlim.

H a m ı. Padşahım, bin yaşa! (içirlər).

S ü l e y m a n S a l e h b ə y (yanındakı qıza). Gözəlim, adın nədir?

Q ı z. Janet.

S ü l e y m a n S a l e h b ə y (onu qucur). Janet deyilsən, cansan.

J a n e t. Əhməd şah buraya tez-tez gələr, o da məni "can" deyə çağırar.

S ü l e y m a n S a l e h b ə y. Sizi çoxmu sevər?

J a n e t. Çox sevər, boynumdakı bu incini də o bağışlamışdır.

I b a d u l l a (Bağıra). Bağır, necəsən?

B a ğ ı r. Dəm alıram.

İ b a d u l l a. Qədəhləri doldurun (doldururlar). Əfəndilər, Naum əfəndi ciddən böyük adamdır... Daha doğrusu...

B a ğ ı r. Da, "daha doğrusu" yoxdur ki, kişi böyük adamdır.

İ b a d u l l a. Bir qipnotizerdir (sükut). Hansı ki, başqaları... heç bir şey bacarmadığı yerdə... daha doğrusu... Mən fikrimi deyə bilməyirəm, xülasə, çox yaxşı və qəribə adamdır... Daha doğrusu...

B a ğ ı r. Daha doğrusu yoxdur; onun sağlığına içək.

İ b a d u l l a. Səmimiyyətlə içirəm. Naum əfəndi, sağ olun.

H a m ı. Naum əfəndi, sağ ol! Sağ olsun Naum əfəndi!

N a u m ə f ə n d i. Sağ olunuz.

Q a s t o n d e - M u s t a z. Bağışlayın, əfəndilər, bir əlavə edəcəyəm... (hamı qulaq asır). Mən Naum əfəndi ilə daha yaxından tanış və səmimi dostam. Naum əfəndi cazibəli bir sehrkar, həyatı və insanları bilən bir iş adamıdır. Biz Naum əfəndi ilə bir neçə əməliyyat yap-

dıq. Heç ummadığım yerdən müvəffəqiyyət əldə etdim. Siz son əməliyyatın şahidi oldunuz – siyasi bir hadisəni yoğurub, pula çevirdi..

Ağıl irməz bir adamdır. Yaşasın!

H a m ı. Yaşasın! Yaşasın! (Qədəhləri bir-birinə vurub içirlər).

B a ğ ı r (öz-özünə qədəhi qaldırır). Bağır da yaxşı oğlandır. Atası qumar məclislərinin yaraşığı, özü də beynəlmiləl nəxünəkçi. Xalq qaz vurur, qazan doldurur, Bağıra da qazın bir lələyi qismət olur. Atam yazır ki, məktəbi nə vaxt qurtarırsan? Halbuki, "Sarayi-Fatmanın" kurslarına yavaş-yavaş bələd olmağa başlayıram. (Bərkdən). Əfəndilər, maliyyə naziri Bağırbəyin şərəfinə!

H a m ı. Yaşasın!

X ə n d a n ə f ə n d i. Şair də içir.

I b a d u l l a. Yaşasın şair! Xəndan əfəndi, deyəsən, dirçəlirsən.

X ə n d a n ə f ə n d i. Yavaş-yavaş.

S ü l e y m a n S a l e h b ə y. Yahu, musiqi, dans.

H a m ı. Doğrudur. Padşahım, bin yaşa! (Naum əfəndi işarə edir, bir qadın piano çalır, qızlar rəqsə başlayırlar. Rəqs zamanı Naum əfəndi ilə Qaston de-Mustaz qalxıb Süleyman Salehbəyin yanında ayaq üstə dururlar. Xəndan əfəndi sol tərəfə, Bağır ilə İbadulla sağ tərəfə çəkilirlər. Ümumi rəqs bitdikdən sonra, pərakəndə rəqslər olur).

S ü l e y m a n S a l e h b ə y (sözlərin əvvəlini söyləmiş kimi Qaston de-Mustaza). Fikrin nədir?

Q a s t o n d e - M u s t a z. Zənnimcə, üsyanın yatırılmasını təkzib edən məqalələr və teleqramlar nəşr etməli. Məsələ birdən yatsa, ikinci əməliyyatı yapamayız.

N a u m ə f ə n d i. Əfəndim, üsyanın yalnız bir dəfə səsi gəlsin, mabədini Paris mühafillərində faydası olan adamlar özləri düzəldər.
Belə hadisələr bəzi deputatlar, maliyyə və hökumət adamlarına bir bəhanədir.
Təbii, mətbuatdakı gurultunun davamına çalışmalıyız.

İ b a d u l l a (Bağıra). Balam, pul alırlar, bəs bizə niyə bir az verməyirlər?

B a ğ ı r (İbadullaya). Daha nə verəcəklər, biz ya səhnədəki bir statist-rolumuz nədir ki, muzdu nə ola?

İ b a d u l l a. Bu məni açmadı.

B a ğ ı r. Bir ay təminsən, sonra da yeni bir macəra.

İ b a d u l l a (istehza ilə). Bir illik də paltarımız.

B a ğ ı r. Bəs az işdir.

İ b a d u l l a. Onda bir az da keyf eləyim, gözümün qurdu ölsün. (Bir qadının belini qucub rəqs edir).

S ü l e y m a n S a l e h b ə y (Naum əfəndi və Qaston de-Mustaza). Hər halda şimdi qafalar doludur. Yarın buyurun, ətraflı qonuşalım.

N a u m ə f ə n d i (bir qadına yanaşıb rəqs edərək). Hay-hay-hay (zümzümə ilə). "Yarın buyurun qonuşalım, yarın buyurun qonuşalım". (Süleyman Salehbəy və Qaston de-Mustaz rəqsə girir).

S u l e y m a n S a l e h b ə y. Yahu, Bağırbəy! Xəndan əfəndi! (Bağır rəqsə girişir, Xəndan əfəndi bir az da kənara çəkilib cibindən dəftərini və karandaşını çıxarır və karandaşının ucunu tez-tez ağzında isladıb dəftəri gah divara, gah dizi üstə qoyub şeir yazır).

X ə n d a n ə f ə n d i (qadınlara baxaraq). Sürünüz dağlara düşsün, seyri-gülüstan etsin (sükut). Sürünüz dağlara düşsün, seyri-gülüstan etsin... (Gəzinir, bəzən rəqs edənlərə dolaşır)... Sürünüz dağlara düşsün, seyri-gülüstan etsin

İ b a d u l l a (rəqs edərək zümzümə ilə). Xəndanım təndirə düşsün, başdan ayağa bişsin... əti lum-lum şişsin. (Xəndan əfəndi aldırmayaraq dolaşır, sonra bir şey çıxmadığını duyaraq, süfrənin yanında oturub, yenidən içməyə başlayır. Bir az sonra rəqs bitir, hər kəs rəqs etdiyi qadını qucağına alıb süfrəyə qədər götürür. Süleyman Salehbəy və Janet taxta çıxırlar. Hamı oturur. Müdirə gəlib baxır, gedir. Qarsonlar təkrar şərab gətirirlər).

N a u m ə f ə n d i (Xəndan əfəndiyə). Həzrəti-şair, yazdığınızı dinləmək istəriz.

Q a d ı n l a r. Rica ediriz.

X ə n d a n ə f ə n d i. Burada yaza bilməyirəm. Şeir tənhalıq istər.

S ü l e y m a n S a l e h b ə y (Xəndan əfəndiyə). Xəndan əfəndi,
bu Janeti mədh et! (Janetə). Janet, bu böyük sima da sənə qurbandır.

J a n e t. Qurban olunca, bir brilyant hədiyyə gətirsin.

İ b a d u l l a (gülərək). Yox, Xəndan əfəndi ona yoxdur.

J a n e t. O necə hərbiyyə naziridir ki, bir hədiyyə də verə bilməyir.

İ b a d u l l a. Onun əsgərləri deyil, misraları müharibə edir. (Gülüşürlər).

S ü l e y m a n S a l e h b ə y. Əfəndilər, qədəhləri doldurun (doldururlar). Əfəndilər, bizim əylənməmizin başlıca səbəbi müsyö Qas-

ton de-Mustazdır. Müsyö Qaston qayət nəzakətli, incə, eyni zamanda da mətbuat aləmində çox nüfuzlu bir adamdır. Müsyö Qaston Şərqi çox sevər, onun yolunda heç bir şey əsirgəməz. Onun şərəfinə içəlim (içir).

H a m ı. Yaşasın! (İçirlər).

İ b a d u l l a. Dinə gəlsin! (İçir).

X ə n d a n ə f ə n d i (qalxıb dizi üstə oturur). "İşgəncə, həp mənəvi işgəncə... Bu büllur qədəhlərdə parlayan nəşə ilahəsi şərab deyil, qan, məsum xalqın qanıdır... Bu şən görünən süslü dilbərlər məzarlardan baş qaldırmış qanlı kəfənli meyitlərdir. Bunlar: "Satqın şeyxlər bizi ingilis kapitalına qurban verdilər" – deyə hıçqırıyorlar... Orda qan tökülüyor, burada o qandan altun sikkələr donuyor... İştə Avropa vədlərinəinanan küçük xalqların müqəddəratı! Atəş, qan, göz yaşları. Burası bir cəhənnəm!.. Getməliyəm! (qalxır, getmək istəyir).

H a m ı. Xəndan əfəndi! Xəndan əfəndi!

İ b a d u l l a. Tez kefləndi.

B a ğ ı r. Kefli də olmasa, bir az gicdir.

N a u m ə f ə n d i. Həzrət, kərəm buyur. (Onu tutur. Xəndan əfəndi dartınır).

X ə n d a n ə f ə n d i. Buraxın, cəhənnəm carçıları!

PƏRDƏ

ALTINCI ŞƏKİL

Lüqsemburq bağı. Xiyabanın bir tərəfində geniş çəmən görünür. Ətrafı ağac və çiçəkliklə əhatə olunmuşdur. Ağaclar arasında heykəllər düzülmüş. Xiyabanın iki tərəfinə iskəmiyələr qoyulmuşdur. Mürəbbiyələr arabacıqda çocuqlar gəzdirirlər. Cürbəcür kişi və qadınlar gəlib keçir. Bəhicə bir iskəmiyə üzərində oturub qarşıdakı mənzərəni tabloya köçürür. Sabah günəşi ağacların altına sarı ləkələr səpmişdir.

İ b a d u l l a (gülümsəyərək yaxınlaşır. Bəhicə ayaq səsini eşidirsə də, əhəmiyyət verməyir). Bonjur, Bəhicə xanım (şlyapasını çıxarır və əl verməyə cəsarət etməyərək, ayaq üstə qalır).

B ə h i c ə (onun üzünə dik baxıb, işinə davam edir). Bonjur!

İ b a d u l l a (süni maraqla tabloya baxır). Aman, nə gözəl yapırsınız. Ciddən gözəl (gah tabloya, gah mənzərəyə tamaşa edərək). O

heykəl büsbütün canlıdır (sükut)... Bağışlayın, Bəhicə xanım, bu tablonu sonra nə edəcəksiniz?

B ə h i c ə (soyuq). Nasıl nə edəcəyəm – evdə qalacaq.

İ b a d u l l a (son dərəcə nəzakətlə). Sizdən bir ricam var. (Bəhicə onu süzür). Lütfən, bu tablo bitdikdən sonra bunu mənə... yadigar olaraq verin...

B ə h i c ə (heyrətlə). Nə münasibətlə?

İ b a d u l l a (bir az özünü itirərək). Əfv ediniz, bəlkə, fikrimi deyə bilmədim, çünki osmanlıca eyi bilməyirəm... Sizə çox hörmətim var... Bir xatıra olaraq...

B ə h i c ə. Çox tühaf (çalışır)!

İ b a d u l l a. Bu qədər sərt davranmağınızı bilsəydim...Hər kəsə qarşı göstərdiyim nəzakətdən dolayı, daimə hörmətlə qarşılandım...

İndi bir türk qızından belə cavabı... Əfv edərsiniz, bəni təhqir etdiniz.

B ə h i c ə (heyrətlə). Təhqir nə üçün edəcəyəm? Bir gənc ilə rəsmi tanışlıq belə olmadan, qız ona hədiyyə verə bilərmi (çalışır)?

İ b a d u l l a. Bir-birimizi iyi tanıyırıq, zənnindəyəm.

B ə h i c ə. Bir-birimizə bir dəfə təsadüf etdik, aralıqda bir laf belə olmadı.

İ b a d u l l a. Nə olar, ikimiz də türk deyilikmi?

B ə h i c ə. Çox da türküz, türk çox, həpsinə də qarşı eyni müamilədə bulunamam ki.

İ b a d u l l a. Əfv edərsiniz açıq danışalım: tutalım bir gənc sizi sevir, gecələr uyumayır, ağlamaqdan sönüb gedir... Gündə neçə dəfə atelyenizin qarşısından keçib sizi görməyə can atır... Belə səmimi bir gəncə qarşı sərt rəftar etməyə haqlısınızmı?

B ə h i c ə (rəngi qaçmış bir halda). O gəncin bir çocuq anasına qarşı belə fikirlər bəsləməyə haqqı varmı?

İ b a d u l l a. Çocuğun nə eybi. Sevən hər şeyi qəbul edər. (Sükut.

Bəhicənin həyəcanından çalışa bilmədiyi duyulur. Birdən qolundakı saatına baxır, palitranı barmağından çıxarır, tablonu molbertdən götürüb qutuya qoyur, şeyləri toplayıb qalxır).

B ə h i c ə. Allaha ismarladım, işim var (gedir).

İ b a d u l l a (arxasınca baxaraq). Ədə, bu nə yaman qız imiş. (İskəmiyədə oturub və cibindən qəzetə çıxarıb, oxumağa başlayır).

S ü l e y m a n S a l e h b ə y (yanaşaraq). Mərhəba, əfəndim.

İ b a d u l l a (sıçrayaraq, qəzeti qatlayır). Mərhəba. Pa, Süleyman Salehbəy. Buyurun, oturun (yan-yana otururlar). Bəhicəni gördünüzmü?

İndi burada idi.

S ü l e y m a n S a l e h b ə y (heyrətlə). Buralarda nə yapıyordu?

İ b a d u l l a. Rəsmlə məşğul idi. Yanaşdım, nə qədər danışdırdım, hər kələyə əl atdım – bir şey çıxmadı. Qalxıb getdi. Qəribədir ki, gedərkən bir dəfə də olsa, üzümə baxmadı.

S ü l e y m a n S a l e h b ə y (gülərək). Elə kafirdir... Sənə demədimmi... Bən onu iyi bilirəm; qəti sözündən dönməz... Bəladır, bəradər, bəla!

İ b a d u l l a (heyrətlə). Vallah, belə bir qıza ilk dəfə rast gəlirəm... Heyrət! (sükut).

S ü l e y m a n S a l e h b ə y. Qəzetdə nə var? Baxamadım.

İ b a d u l l a (gülərək). Həzrəti-Şəhriyarın təəbələrini darmadağın edirlər.

S ü l e y m a n S a l e h b ə y (düşünərək). Təbii, üsyan müvəffəqiyyətlə yatırıldıqdan sonra, əhaliyi rahat buraxmazlar ki.. (Sükut).

Karata kamalçılar eylə bir sürətlə hərəkət etdilər ki, şeyxlər qaçıb dağılmağa da fürsət bulamadılar. Bu qışda, qar basmış yollarda nasıl yapdılar...

İ nsan şaşırır.

İ b a d u l l a. Canım, bir ovuc başıpozuq xalq müntəzəm dövlət ordusuna qarşı durmayacaqdı ki. Bu da bir ingilis oyunu idi. Mosul neftinin xatirəsi üçün türkləri bir az sıxışdırıb güzəştə məcbur etmək lazım idi... Tacir pul qazanacaq, kürd də lotu xərci oldu... (Sükut).

S ü l e y m a n S a l e h b ə y (acı düşüncələrlə). Əfəndim, bu ingilislər nə karata millətdir. Bütün dünyanı bir-birilə vuruşdurub özü kənarda işini görür.

İ b a d u l l a. Kələkbazdır. Köpək uşağı çox kələkbazdır. Dünya xam, onlar usta. Hamını eşşək qayırıb minirlər.

S ü l e y m a n S a l e h b ə y (gülərək). Bax, bizim Xəndan əfəndi şairimiz də gəlir.

İ b a d u l l a. Özü də dalğındır: görünür şeir düşünür. Səsini çıxarma, görək bizi görəcəkmi? (Xəndan əfəndi onları görməyərək keçir).

S ü l e y m a n S a l e h b ə y. Ya şair!

X ə n d a n ə f ə n d i (səksənərək). Ənfəs! Ənfəs! Mərhəba, əfəndim!

İ b a d u l l a və S ü l e y m a n S a l e h b ə y (bir yerdə). Mərhəba!

X ə n d a n ə f ə n d i (yandan Süleyman Salehbəyə baxaraq). Baxsana, bu iskəmləyə sənə daha da yaxışır.

İ b a d u l l a. Xəndan əfəndidə deyəsən söz var.

S ü l e y m a n S a l e h b ə y (istehza ilə). Xəndan əfəndi daima sözlüdür. O bir müəmmadır. Şair deyilmi?

X ə n d a n ə f ə n d i (ima ilə). Naum əfəndi nərədədir?

I b a d u l l a. Kürdlər qiyam etdi, ingilislər qazandı, biz də qiyam etdik, Naum əfəndi qazandı.

X ə n d a n ə f ə n d i. Bizimki qiyam deyil idi, dəccalın xürucu kimi bir şey idi... Ah, beş pərdəlik bir komediya yazmalı.

İ b a d u l l a. Xəndan əfəndi, sənin "Sarayi – Fatma"dakı halını da orada qeyd etməyi unutma.

X ə n d a n ə f ə n d i (pərt). Nə hal?

S ü l e y m a n S a l e h b ə y (gülərək). Sərxoş olaraq, sərsəmləmişdin.

X ə n d a n ə f ə n d i. Nə sərsəmləmə? Siz rəqsə başlayanda bən uyumuşdum. Evə necə gətirildiyimdən xəbərim olmamış.

İ b a d u l l a. Meyitini aparmaq üçün filan qədər də avtomobilə para verildi...Yox şair, içə bilməyirsən (Bağır gəlir).

B a ğ ı r (şən bir halda). Mərhəba!

H a m ı. O...o, mərhəba!

İ b a d u l l a. Balam, evdə də tapılmayırsan...Öz aramızda, dünən gecə də evdə yatmamışsan.

B a ğ ı r (gülümsəyərək). Iş var... sonra deyərəm.

X ə n d a n ə f ə n d i. Yahu, para, para çıxan işdirmi?

S ü l e y m a n S a l e h b ə y (gülərək). Şair, deyəsən, alışırsan.

İ b a d u l l a. Təbii deyilmi, aclıq adama bin oyun öyrədir.

X ə n d a n ə f ə n d i. Bağır, əfəndi, ciddən nə işdir?

B a ğ ı r. Evlənirəm. Yüz min dollar cehizi var.

İ b a d u l l a (heyrətlə). Əşi, nə deyirsən!

S ü l e y m a n S a l e h b ə y (heyrətlə). Aman, əfəndim!

X ə n d a n ə f ə n d i. Ənfəs!.. "Sarayi- Fatma"ya gedyorsunuzmu?

İ b a d u l l a. Yox, artıq "Sarayi-Fatma" evində olacaq.

S ü l e y m a n S a l e h b ə y. Deməli, paraları mövqeyinə təslim veririz.

B a ğ ı r. Təbii, ancaq sizin yardımınız lazımdır.

S ü l e y m a n S a l e h b ə y (tələsik). Nə kimi? (Hamı diqqətlə dinləyir).

B a ğ ı r. Bu qız amerikalı bir zənginin qızıdır... (Gülərək). Yanı qız deyirəm, bəlkə də, qız deyil: anam yerdə bir şeydir... (Hamı gülüşür).

İ b a d u l l a. Nə eyb edər, parası olsun. Avropada qadının altmış yaşı da olsa, madam ki, rəsmən ərə getməmişdir, adı madmazeldir.

B a ğ ı r. Onun bir yoldaşı da var. O da zənginlərdəndir.

İ b a d u l l a (istehza ilə). O da, yəqin, qırx yaşardır.

B a ğ ı r. Bu qızların sərvətləri var, ad axtarırlar. Bir prinsə ərə gedib, prinses olmaq istəyirlər. Amerikada böylə adət olduğunu bilirsiniz.

S ü l e y m a n S a l e h b ə y (sevinclə). Bəlli, səni prins yapmalıyız...

Bəlli, sən bu gündən etibarən prins Bağırsan.

İ b a d u l l a (Xəndan əfəndiyə). Bu da saray şairi xacə Xəndan Ərdəbili.

B a ğ ı r (ciddi). Zarafatı buraxın... Qız şərqliləri sevərmiş. "Şərq dostları cəmiyyəti"ndə Bəhicə ilə tanış olub, ona bir sıra tablo ismarlamışdır.

Bu günlər Bəhicənin atelyesinə gələcək. Biz də hazır olub oraya getməliyiz...

İ b a d u l l a. Süleyman Salehbəy oraya gedə bilməz ki... Mənim də bir o qədər yolum yoxdur (sükut).

B a ğ ı r (Süleyman Salehbəyə mənidar baxışla). Süleyman Salehbəy istəsə hər şey olar.

S ü l e y m a n S a l e h b ə y. Nasıl istəsəm? Bu olur işmi?.. Ortalıqda çocuq məsələsi var, Yaxamı güc-bəla qurtarmışam.

B a ğ ı r (gülümsünərək). Istəsən olar. Yəni müvəqqəti də olsa, çocuq mənimdir deyəməzsənmi? Bu Kürdüstan taxtından daha qolay, daha faydalıdır.

X ə n d a n ə f ə n d i (Süleyman Salehbəyə). Ah, Salehciyim, o "Sarayi-Fatma" üçün insan hər bir şeydən keçər, zənnindəyəm.

İ b a d u l l a (Xəndan əfəndiyə). Yaşa, şairim, ayılıbsan. Vur dəysin! (Əlini uzadır).

X ə n d a n ə f ə n d i (Ibadullanın əlinə vurur). Dəysin!

S ü l e y m a n S a l e h b ə y (düşüncəli). Yahu, bir şey çıxmaz, ortalıqda bən kələyə düşərəm.

B a ğ ı r (təkidlə). Düşməzsən. Məni iyi tanıyırsan ki, yüz ölçməsəm bir biçmərəm... Bir həftədir məsələ ilə məşğulam: bir adam vasitəsilə qızın hər bir işini öyrənmişəm. Çalışmalıyıq ki, başqa ələ keçməsin.

S ü l e y m a n S a l e h b ə y (düşünərək). Bən razıyam... Baxsana, onda əvvəlcə bəni Bəhicə ilə barışdırmalısan... Çünki Bəhicə məsələyə vaqif olmalıdır. Sənin haqqında onunla bərabər bəhs açmalıyız...

İ b a d u l l a. Bilirsiniz, Bəhicənin bir neçə gözəl tablosunu ayırın, deyin bunlar bir şərq prinsinə satılmışdır. Onda qızda böyük maraq oyadacaq.

S ü l e y m a n S a l e h b ə y. Bu pək doğru!.. Məsələ maraq oyatmadadır.

Sonra sən gələrsən, təntənə ilə səni qarşılarız...

İ b a d u l l a (Bağıra). Prins Bağır, – deyə vizit-kart hazırla, gələndə qapıdan göndərərsən... Istərsən, mən də sənin şəxsi katibin olaram.

B a ğ ı r. Çox gözəl. Təfsilatını sonra düşünərik. (Süleyman Salehbəyə).

İndi Bəhicənin yanına gedimmi?

S ü l e y m a n S a l e h b ə y. Evdə olarmı? İbadulla burada görmüş.

B a ğ ı r. Olmaz, sonra yenə gedərəm...

S ü l e y m a n S a l e h b ə y. Pək iyi, yüz bin dollar ələ keçdikdən sonra bizə nə çatacaq?

B a ğ ı r. Neçə il desən səni təmin edərəm.

S ü l e y m a n S a l e h b ə y. Ciddimi söyləyirsən?

B a ğ ı r (əlini yanağına vurur). Bu ölsün. Bilirsən ki. lotunun sözü doğru olar... (Getməyə hazırlanır).

İ b a d u l l a (ayağa qalxır). Sən öl, allah yetirir.

X ə n d a n ə f ə n d i (Ibadullaya). Bəradər, bu Paris bir sirr imiş ki, (qalxır) bən şimdiyə qədər nərədə imişəm?.. Türkiyədə keçirdiyim uzun illərə yazıq.

İ b a d u l l a (əlini Xəndanın çənəsinə qoyub oxuyur).

"Altmış illik ömrüm oldu səndə bərbad, Ərdəbil.
Bir də namərdəm əgər etsəm səni yad, Ərdəbil."

PƏRDƏ

YEDDİNCİ ŞƏKİL

Bəhicənin atelyesi. Geniş pəncərəli yüksək bir otaq. Sağ tərəfdə bir qapısı var. Divarlardan bir çox şərq janrlı tablolar asılmışdır. Bir tərəfdə molbert üzərində qurtarmamış bir şəkil qoyulmuşdur, yanında palitra və fırçalar görünür. Döşəməyə xalı salınmışdır. Divarın yanındakı kanapenin üstünə qurama örtü və arxasına hərəkə xalçası salınmışdır. Şüşə caməkanlarda cürbəcür minaatürlü şərq kitabları, rəsmlər, qitələr və kitabələr var. Pəncərələrin arasından çərçivədə Konya çiniləri asılmışdır. Tabloların arasındakı məsafələr əski türk silah və geyimləri, şərq qadını zinətləri ilə bəzənmişdir. Süleyman Salehbəy ilə Bəhicə kanapenin üstündə oturub, şən bir halda danışırlar. Süleyman Salehbəy qara pidjakda, Bəhicə isə şıq paltarının üstündən mavi iş xalatı geyinmişdir.

S ü l e y m a n S a l e h b ə y. Ah, Bəhicəciyim, bilsən nə məs'udam. (Bəhicəni qucub öpür). Sanki dünyaya yenidən gəlyorum.

B ə h i c ə (xoş əda ilə). Amma çox nazlı imişsən...

S ü l e y m a n S a l e h b ə y. Quzum, hər vəziyyət...

B ə h i c ə (qalxaraq). Aman!.. (dinləyir) çocuq durmasın da... Ah, mini-mini yavurcuğum ağlayır (cəld qalxır).

S ü l e y m a n S a l e h b ə y (qalxır). Qadınlar nə axmaq olurlar: Bəhicə zənn ediyor ki, doğrudan bən ona koca olacağam. Yox, bunların həpsi oyundur. (Özünü çəkərək gəzinir). Bən, İbadullanın istilahınca, kələk səhnəsinin artistiyəm.

B ə h i c ə (qapıdan baxaraq). Salehciyim, gəliyorlar, sən qarşıla, bən çocuğu uyudum, gəlyorum. (Gedir. Süleyman Salehbəy otaqdan çıxır və haman amerikalı iki qız ilə girir. Qızlar paltolu və şlyapalıdırlar).

S ü l e y m a n S a l e h b ə y (qızlara). İştə Bəhicə xanımın atelyesi. (Göstərir).

B i r i n c i q ı z. Ah, nə gözəl! Nə gözəl!.. Tam bir sənət məbədi... (Tablolara yanaşır)... Bu tabloların hamısı Bəhicə xanımındırmı?

S ü l e y m a n S a l e h b ə y. Əvət.

B i r i n c i q ı z. Çox gözəl.

İ k i n c i q ı z (yandakı bir tablo qarşısında). Yəqin, bu İstambul qürubudur.

S ü l e y m a n S a l e h b ə y. Əvət (birinci qız da o tabloya yanaşır).

İ k i n c i q ı z. Incə minarələr qürubdə nə gözəl görünür.

B i r i n c i q ı z. Gözəl çəkilmişdir, böyük salona süs verəcək bir tablo... Əfəndim, bəs Bəhicə xanımın özü hanı?

S ü l e y m a n S a l e h b ə y. Çocuğumuzu uyudur, şimdi gələr.

B i r i n c i q ı z. Siz bağışlayın, Bəhicə xanımın zövcüsünüzmü?

S ü l e y m a n S a l e h b ə y. Əvət.

B i r i n c i q ı z. Çox məmnun olurum (əl verir, yoldaşı da görüşür).

Bəhicə xanım çox mədəni xanımdır. İngiliscə də mükəmməl danışır, İstambulda amerikan kolleci bitirdiyini söylədi.

S ü l e y m a n S a l e h b ə y. Əvət (Bəhicə girir, qızlarla görüşür).

B i r i n c i q ı z. Bəhicə xanım, zövcinizlə tanış olmaq şərəfinə nail oldum, çox incə zatdırlar. Sizdən müsaidə almaqsızın bəzi tabloları gözdən keçirdim. Əfv edərsiniz.

B ə h i c ə. Bir şey deyil.

B i r i n c i q ı z. Tablolar o qədər gözəldir ki, ayrıla bilməyirəm (təkrar tabloların tamaşasına dalırlar).

İ k i n c i q ı z. Bəhicə xanım, lütfən bu tablonu izah edərsinizmi?

B ə h i c ə. Bu, əfəndim, zeybək oyunudur. Milli türk rəqsidir.

İ k i n c i q ı z. Tühaf geyimləri var.

B i r i n c i q ı z (bir ayrı tablonu göstərərək). Bu kimdir?

B ə h i c ə. Bu türk şairəsi Xalidə ədib xanımdır. Onbaşı rütbəsində milli orduya girmiş və yunanlarla müharibə etmişdir... (Göstərir).

İştə müharibəyə gedərkən...

B i r i n c i q ı z. Xırda bir vücudda nə böyük cəsarət var.

B ə h i c ə. "Atəşdən kömələk" adlı romanı ingilis dilinə tərcümə olunmuş. Verərəm oxursunuz.

B i r i n c i q ı z. Məmnuniyyətlə. Çox maraqlı olar.

B ə h i c ə. Bu qoca türk qadını manqal qırağında oturub, hərəm ağasına fala baxdırır.

B i r i n c i və i k i n c i q ı z (bir yerdə). Bu çox maraqlıdır. (Tablonun qarşısında dayanırlar).

B i r i n c i q ı z. Bu çox orijinaldır... mütləq bənim olmalıdır.

S ü l e y m a n S a l e h b ə y (Süni məhcubiyyətlə). Məələsəf, bu tablo və sıradakılar satılmışdır... (Bəhicə Süleyman Salehbəyə heyrətlə baxır).

B i r i n c i q ı z (təəssüflə). Xeyr. Bunu artıq para verib o adamdan almaq olmazmı?

İ k i n c i q ı z. Bunları alan xöşbəxt kimdir?

S ü l e y m a n S a l e h b ə y. Şərq prinslərindən Bağırbəydir. Özü böyük sənət aşiqidir, bu yolda çox da para sərf edir. Gözəl kolleksiya-

sı var. (Bəhicə dalğın bir halda bütün söhbət əsnası Süleyman Salehbəyi süzür).

B i r i n c i q ı z (heyrətlə). Gözəl kolleksiyası var? Aman, onu görmək mümkün deyilmi, bəlkə, bu tabloları bənə güzəşt edə. Birə iki para verməyə hazıram.

S ü l e y m a n S a l e h b ə y. Görmək olar, ancaq tabloları güzəşt edərmi?.. Bilməyirəm...

B i r i n c i q ı z (israrən). Lütfən onu nə vaxt görmək olar?.. Bu prins gəncmi, qocamı?

S ü l e y m a n S a l e h b ə y (gülümsəyərək). Prins gəncdir. Tələbədir.
Gözəl və şən bir adamdır.

B i r i n c i q ı z (düşünür). Prins evlimi?

S ü l e y m a n S a l e h b ə y. Xayır...

B i r i n c i q ı z (şən çöhrə ilə). Zənn ediyorum, tabloları güzəşt edər. Prinslər alicənab və incə olurlar. Qadına qarşı hörmət bəsləyirlər.

Zənn ediyorum, bu prins də nəcib və əsil bir ailəyə və yüksək bir tərbiyəyə malikdir.

S ü l e y m a n S a l e h b ə y. Təbii, əfəndim, hər halda güzəşt edər.

B i r i n c i q ı z. Aman, nə gözəl olar! (düşünərək). Prins bura gəlməyəcəkmi?

S ü l e y m a n S a l e h b ə y. Gözləyiriz, katibi ilə bərabər gəlməlidir.

Yeni bir şeylər də ismarlayacaq.

B i r i n c i q ı z. Aman, nə səadət?

İ k i n c i q ı z. Katibi də prinsdirmi?

S ü l e y m a n S a l e h b ə y. Əvət, o da zadəgandır.

İ k i n c i q ı z. Aman, nə səadət! O da sənət məftunumu?

S ü l e y m a n S a l e h b ə y (bir az düşünərək). Necə deyim, o da başqa bir xilqət: qadın və əyləncəni çox sevər.

İ k i n c i q ı z (gülər kimi). Əyyaşmı?

S ü l e y m a n S a l e h b ə y. Xayır, əfəndim, şən bir məclis adamıdır.

Deyər, gülər, rəqs edər... Çox gəncdir.

İ k i n c i q ı z (şən). Aman, nə səadət! (Düşünərək). Bəs nə üçün gec gəldilər?

S ü l e y m a n S a l e h b ə y (saata baxır). Zənn ediyorum, bir dəqiqədən sonra gələrlər. (Qızlar palto və şlyapalarını çıxarıb kanapenin üzərinə atırlar və atelyeni dolaşaraq güzgü arayırlar).

B i r i n c i q ı z (Bəhicəyə). Tualet otağınıza getməyə müsaidə edərsinizmi?

B ə h i c ə (istər-istəməz). Buyurunuz. (Qızların hərəsi Bəhicənin bir qoluna girib, oynaq bir halda otağı tərk edirlər).

S ü l e y m a n S a l e h b ə y (öz-özünə).İ iyidir. Lakin... Bəhicənin xoşuna getməyir. Baxırsan bir dəfə də açıb ağzını Bağır və İbadulla haqqında bir söz belə söyləmək istəməyir. Bu, hər adamın doğrusunu sevir. (Sükut)... Eh, nə etməli, həyati təcrübəsi yoxdur.

(Bərkdən). Daha bilməyir ki, dünya dolaşıq xaliqin dolaşıq bir məhsuludur; yaşamaq üçün dolaşıq olmalısan. Məqsəd – iştə insana qüdsiyyət verən mələk. Vasitələr və yollar tez unudulan şeylərdir... (Bəhicə qızlarla geri dönür).

B i r i n c i q ı z. Süleyman Salehbəy, nə məsud atasınız – çocuğunuz o qədər dilbər ki,

S ü l e y m a n S a l e h b ə y. Mersi. Görünür, çocuqları çox sevirsiniz.

B i r i n c i q ı z. Çıldırıram!

İ k i n c i q ı z (kənara). Ah, çıldırmazmı? (Düşünərək) Bu prinslər də gəlmədilər. (Xidmətçi qız təbsidə iki vizit kart gətirir. Süleyman Salehbəy alır).

S ü l e y m a n S a l e h b ə y (oxuyur). Prins Bağır bəy fon Mərdəkan, prins İbadulla fon Kəlbəcər... Prinslər təşrif buyurmuşlar. (Xidmətçi qıza) Buyursunlar. (Xidmətçi qız qapıya doğru yürüyür. Qızlar o yan-bu yana yüyürüb güzgü arayırlar. Biri redikülünü açıb güzgüyə baxır, o birisi əlindən qapıb özü baxmaq istəyir. Bəhicə bir tərəfə çəkilib hiddətlə tamaşa edir).

B i r i n c i q ı z (bir-birinin əlindən qarmalamağa çalışırlar). Sən bir burax.

İ k i n c i q ı z. Yox, sən burax!

B i r i n c i q ı z. Prins ikidir!

İ k i n c i q ı z. Burax. Prins gəlir!

B i r i n c i q ı z. Bu redikül sənin deyil... səninki oradadır (kanapeni göstərir).

İ k i n c i q ı z (kanapeyə doğru qoşur). Aman ya rəbbi, bir az gec gələydi! (Güzgünü çıxarıb tualetini düzəldir).

Bağır, İbadulla və Xəndan əfəndi içəri girirlər. Üçü də vizitkalıdır. Xəndan əfəndiyə vizitka yaraşmayır. Bağırın gözündə monokl var. Qızlar cəld rediküllləri atıb məhcub bir halda biri o birinin arxasında gizlənir.

B a ğ ı r. Bonjur, əfəndilər!

İ b a d u l l a və X ə n d a n ə f ə n d i (bir yerdə). Bonjur! (Bəhicənin və Süleyman Salehbəyin əllərini sıxırlar. Bəhicə olduqca soyuq davranır).

S ü l e y m a n S a l e h b ə y. Bonjur! Bonjur! Xoş gəldiniz. Müsaidə ediniz, madmazelləri zati-nəcabətlərinə təqdim edəyim. (Qızlara). Madmazellər, müsaidənizlə. (Bağır, İbadulla, Xəndan əfəndi yeriyib qızların əllərini sıxırlar. Xəndan əfəndi tələsərək, ikinci qızın ayağını basdayır).

İ k i n c i q ı z (ayağını qaldıraraq, üzünü turşadır və Xəndan əfəndiyə tərs-tərs baxaraq). Ah, bu nə zırrama!

X ə n d a n ə f ə n d i (kənara çəkilərək ayağına xor-xor baxır).
Lazım olmayan yerdə kəklik kimi səkir. Burda topuq vurur, bu da talesizlikdəndir.

B a ğ ı r (Tabloları süzərək). Bən bu atelyeyə gələndə ciddən böyük zövq duyuram. Bu sövqü yalnız mütəəssib bir rəhban madon qarşısında duya bilər.

B i r i n c i q ı z (məsum bir halda). Prins, eyni zövqü duyan bir amerikan qızcığazı da var.

B a ğ ı r (ona yanaşaraq). Sizdəmi bir sənət könüllüsüsünüz?

B i r i n c i q ı z (Boynunu çiyninə qoyaraq, xoş bir əda ilə). Könüllüsü deyil, məftunuyam.

B a ğ ı r (qızın əlini əllərinə alaraq). Deməli, sənət zövqü bizim qəlblərimizi bir-birinə yaxınlaşdırır... Çarpıntılarını bir-birinə qovuşdurur.

B i r i n c i q ı z (ona sıxılaraq). Təbii, deyilmi?

Bunların danışığını maraqla dinləyən Xəndan əfəndi, birdən pərt olaraq dəftər və karandaşını çıxarıb, karandaşını ağzında islada-islada şeir yazır.

İ b a d u l l a (ikinci qıza). Sizdəmi rəsmi sevənsiniz?

İ k i n c i q ı z (məhcub bir halda). Doğrusu...yox...

İ b a d u l l a. Mən də yox

İ k i n c i q ı z. Əylənmək, həyatı xoş keçirmək...

İ b a d u l l a. Coşmaq...

İ k i n c i q ı z. Daşmaq...

İ b a d u l l a. Eşq alovunda...

İ k i n c i q ı z. Yanmaq, odlanmaq...

İ b a d u l l a (ikinci qızın əlini əllərinə alaraq). Bəs nə durmuşuq?

İ k i n c i q ı z (Ibadullaya sıxılaraq). Bilməm ki.

X ə n d a n ə f ə n d i (maraqla tamaşa edərək). Həriflər görən tez anlaşdılar. Ənfəs.

B i r i n c i q ı z (tabloları süzərək). Prins, deməli bu gözəl tablolar... mənimdir.

B a ğ ı r. Təbii!

B i r i n c i q ı z (ona sıxılaraq). Ah, bilsəniz nə məsudəm!

İ k i n c i q ı z (Ibadullaya). Prins, deməli burdan sonra bərabərcə əylənəcəyiz?

İ b a d u l l a. Təbii! Təbii!

İ k i n c i q ı z (ona sıxılaraq). Ah, çıldıracağam.

X ə n d a n ə f ə n d i (kənara). Sən niyə çıldırıyorsun, qoy mən çıldırım.

S ü l e y m a n S a l e h b ə y (Bəhicənin qoluna girərək). Prinslər, prinslər, ilərideki müştərək həyatınızda bizim kimi xoşbəxt olmanızı bütün səmimiyyətimlə diləyirəm. (Bəhicə hiddətli bir halda gözlərini yerə dikir, durur).

H a m ı. Mersi! Mersi!

X ə n d a n (kənara). Yaxşı, bunlar "mersi" deyir, çünki qaz vurub qazan doldurmuşlar, bəndən sormalı ki, ay abdal, sən niyə "mersi" deyirsən.

İ k i n c i q ı z (Bağıra Xəndan əfəndini göstərərək). Bu da sizing yoldaşınızdırmı?

X ə n d a n ə f ə n d i. Həriflər məni necə tez unutdular.

B a ğ ı r. Əvət, şərqlidir.

B i r i n c i q ı z (maraqla). Xristiana, bənzəməyir... Anfidelmi? Kafir?

B a ğ ı r (düşünərək). Öylə olacaq.

B i r i n c i q ı z (heyrətlə). Ah, anfidel Xristian olmayır?

X ə n d a n ə f ə n d i (kənara). Məhəmməddən nə xeyir gördüm ki, İsadan nə xeyir görüm.

S ü l e y m a n S a l e h b ə y. O şairdir, şairlər ilhamdan başqa din tanımazlar.

B i r i n c i q ı z. Ah, şairdir. Maraqlıdır. (Qızlar larnetlərini qaldırıb, onu diqqətlə süzürlər).

İ k i n c i q ı z (Larnetlə baxmada davam edir). Şairə bənzəyir, çünki çox kədərlidir.

X ə n d a n ə f ə n d i (kənara). Hım... Kədərim olmazmı?

S ü l e y m a n S a l e h b ə y (müsafirlərə). Prinslər, prinslər və Xəndan əfəndi, yemək otağına buyurunuz, bu məsud dəqiqələrin şərəfinə badənuş olalım.

H a m ı. Mersi! Mersi!

X ə n d a n ə f ə n d i (irəli yeriyərək). Kərəm buyurunuz. (Bağırı, İbadullanı və Süleyman Salehbəyi göstərrək). Bən bunlar kimi yalançı və adam aldadanları bir yerdə şərab içməm. (Üzünü kənara tutaraq) Ah, zorluların əziyyətinə davam edən əməkçi xalqım, səndən ayrıldığıma peşimanam. Bu gündən etibarən mən təkrar səninəm. Vətənə dönəcəyəm və sənlə şanlı əmək yoldaşı olacağam. (Yoldaşlarını göstərərək). Lənət bu fırıldaqçı aləmə (gedir)!

S ü l e y m a n S a l e h b ə y (Bağırın və İbadullanın üzünə baxaraq). Şair yenə axmaqladı.

B ə h i c ə (Süleyman Salehbəyə). O axmaq deyil, siz axmaqsınız.
Bütün işiniz fırıldaqçılıqdır. Kral olmuşdunuz, şimdi də prinssiniz. Yetər bu rəzalət. Utanmazlar! (Qızlara). Madmazellər, bu gənclərin heç biri prins deyil. Bu oyunların həpsi məxsus sizin paranız üçün qurulmuşdur.
Sakınınız sizi aldatmasınlar.

Qızlar əllərini oğlanların qollarından çıxarıb, kənara çəkilir və düşüncəyə dalaraq qalırlar. Gənclər Bəhicəni hiddətlə süzürlərı.

PƏRDƏ

1935

ALTUNSAÇ[1]

Kinossenari

Yazın sonu. Boz, susuz səhra. Bəzi yerlərdə istidən qupquru qurumuş, cansız kolluq və tikanlar. Uzaqda yavaş-yavaş hərəkət edən dəvələr... Onların başı üzərində tutqun səma və qızmar-bəyaz buludların parçaları. Dərinlikdə, iki təpə arasında bir dəstə adam görünür... Torpaq işi gedir. Asta, zəif işləyirlər. İnşaatın rəisi, cavan mühəndis Qaplan, yanında üzü torlu və əlləri əlcəkli mühəndis Saryov. O, göz qabağına gətirdiyi ağcaqanadları qovurmuş kimi əllərini yellədir.

Q a p l a n. Mən elə fikirləşirdim ki, siz artıq birinci xətti qurtarmısınız. Müəyyən edilmiş vaxtı pozuruq. Mən Bakıda ayın axırına işi qurtaracağımıza söz vermişəm...

S a r y o v. Nə bacarırıq, edirik. Bellə çox uzağa getmək mümkün deyil!

Bu vaxt mühəndis Salman atın üstündə gəlir. O başdan-ayağa toz içindədir.

S a l m a n. Mən bir neçə ekskavator tapa bilmişəm. Onları alanacan mənimki mənə dəydi. Indi işimiz həqiqətən irəli gedəcək.

Q a p l a n. Bir neçə ekskavator? Bu, yaxşıdır... (pauza) Kürün səviyyəsi necədir? Rejimə nəzarət edirsinizmi?

S a l m a n. Sözsüz.

Qaplan görülən işlərə diqqətlə baxa-baxa, çəllək dayanan meydançaya keçir. Fəhlə su ilə dolu çəlləyə yanaşır və su içmək istəyir, çəlləkdən nazik şırnaqla lilli su gəlir.

Qaplan bunu görür və Saryova müraciət edir.

Q a p l a n. Yəni təzə su gətirmək olmazdı? Fəhlələr hər cür bulanıq suyu içir və sonra da malyariyaya tutulurlar. Allah bilir o nə sudur!..

S a r y o v. Təsərrüfat müdiri Abdullayev Bakıya gedib, ona görə də su ilə bağlı işlər qaydasında deyil.

Yenə də sudur də!.. Bəs ağcaqanadlarla neyləyək? (Gözünün qabağına gətirdiyi ağcaqanadları qovurmuş kimi əlini yellədir).

[1] Bu əsər rus dilində yazılmışdır. Burada çəmənzəminlişünas Leyla Məcidqızının tərcüməsində verilir. (Red.)

Axşam düşüb. Otaq. Stol açılmışdır. Tənzif çəkilmiş pəncərədən həyətdə yanan ocaq və onun yanında ət tikələrini bir-birinin ardınca şişə düzən Qaplanın etibarlı əməkdaşları Mişka və Avak görünürlər.

Otaqda iki nəfər vardır: Salman və Saryov. Salman, görünür ki, darıxır və otaqda gəzişir. Saryov çantasından araq və barjom çıxarıb, stolun üzərinə qoyur.

S a r y o v *(Sifətində nifrət ifadəsi ilə). Bu dalda-bucaqda susuz gəbərmək* olar.

Salman bir anlığa başını Saryova tərəf çevirir, sakitcə ona baxır
və yenə də otaqda gəzişməyə başlayır.

S a r y o v (deyinir). Burada hər şeyə görə ən yaxşı mükafat – malyariyadır.

(Qəmgin halda ağcaqanadlardan qorunur)

S a l m a n. Sızıldamayın, Saryov, hər şey yaxşı olacaq!

Salman otaqdan çıxır. Həyətdə Mişka və Avak ocağa nəzarət edirlər. Onların yanında dayanmış Salman şişləri odun üzərində yerləşdirir. Buradan kəndli, suvaqçı Həsənin gecələr ağcaqanadlardan qorunub yatdığı talvar görünür. Oradan saz səsi və Həsənin mahnısı eşidilir. Qaplan astaca talvarın ayaq tərəfinə yanaşır və... dayanır. Həsən Altunsaç haqqında xalq əfsanəsini oxuyur...

H ə s ə n. Dünya da gənc idi, Altunsaç da. Nə Şirvanda, nə də Muğanda ona tay gözəl yox idi. O gecələr öz qızılı saçlarını hörər, hörüklərdən ulduzlar çıxardı və gündüzə çevrilərdi. Ay da, ulduzlar da ona paxıllıq edərmişlər. Hətta yapalaq belə, zalımcasına çığıraraq, səhranın qaranlıq mağaralarında gizlənərmiş. Dünya da gənc idi, Altunsaç da. O, hər gün səhər sübh tezdən durub müqəddəs Kürə gedər, üzüqoylu düşərək, səhər duası oxuyar və əbədi atəş məbədinə qayıdardı.

Müdrik və işıqlı Zərdüştün əbədi atəşi alovlanar və Altunsaçın qəlbi səhər duasının şirinliyi ilə dolarmış.

Hər gün bir-birinin ardınca belə davam edər və gənc Altunsaç bəhrəli düzənliklərdə qızılgül kimi açılarmış.

Hər şey onun gözünü oxşarmış: Azərbaycanın zümrüd düzləri, məhsuldar bağları, zümzüməli çayları, bulaqları, iti yerişli at ilxıları... Heç nə onun vecinə deyildi - nə kəhər at üstündə qaçan amazonkaların oyunları, nə də onların döyüş meydanındakı şücaətləri...

Ancaq birdən yer titrədi, kainatın parlaq günəşi batdı: Ərəb qoşunları Azərbaycanın sərhədlərini aşdılar. Onlar heç kimə rəhm etmirdilər; məbədləri dağıdır, əbədi atəşləri söndürür, münbit torpaqları atlarına tapdaladır və əhalini əsir götürürdülər...

Altunsaçın ürəyi əsirdi. O, öz yaraq-əsləhəsini geyindi, polad qılıncını götürüb ata mindi. Əbədi atəşin qorunduğu şücaətlərlə dolu olan torpaqda qisasın əks-sədası hər tərəfə yayıldı...

Polad amazonkalar dəstəsi qasırğa kimi düşmənin üzərinə uçur, nizələr dolu kimi yağırdı. Bizim doğma Altunsaç isə düşmən düşərgəsini yarıb keçərək, öz qılıncı ilə düşməni məhv edir.

Ancaq dünya düzünə deyil və bu dünyada hər şey vəfasızdır. Lamaların lənətə gəlmiş qılıncları amazonkaları da məhv etdi.

Möcüzə baş verdi: bircə Altunsaç sağ qalır. Düşmən tərəfindən izləndiyindən Qızqalası dağının zirvəsinə qalxır. O, bir anlığa dayanır, geriyə dönür və qəmli baxışlarla öz doğma torpağına baxır – hər şey viran edilmişdir, nə vaxtsa çiçəklənən vətəndə qatı tüstü dalğalanır.

Altunsaç içməli su olan bulağa enib su içir və insanların gözündən itir.

Həsənin zümzüməli səsi davam edir.

Mən bizim qədim Şirvanda bir dəfə olmamışam. Orada zümrüd dağ ucalır, o dağda da indiyədək Qızqalası xarabalıqları qalmaqdadır. Onlar özlərində əsrlərin sirrini və Altunsaçın işıq saçan simasını qoruyub saxlayır.

Ey işıq, qəmlənmə ki, Allahın yaratdıqlarının taleyi belə dəyişkəndir. Mənim sazımın dahiyanə tellərinə inan: yaz gələcək və xalq yeni bir Altunsaç yetişdirəcək! Və yenə də arxlarda su şırıldayacaq, torpaq dirçələcək, güc yığacaq və bizim vətənimiz xoşbəxtlik və məhəbbət işığı ilə nurlanacaqdır...

Gözlənilmədən Salmanın səsi eşidilir.

S a l m a n. Kabab hazırdır!

Mahnının ovsunladığı Qaplan bunu eşitmir.

S a r y o v (rişxəndlə). Bu lənglik Qaplanın zəhləsini tökmür!

S a l m a *n (güclə sezilən istehza ilə). Onun bir az şairliyi var axı... (yenidən Qaplana tərəf müraciət edir)* Rəis, yeməyə gəl!

Gecə. Həyəcan siqnalı. Kür öz sahillərindən aşıb, öz məcrasından çıxmışdır. Baraklarda işıqlar yanıb-sönür. Pəncərə qarşısında atlıların qaraltısı görünür. Salman cəld Qaplanın otağına girir, onu yazı masasının arxasında görür. O işləyir.

S a l m a n. Cəld ol! Bəndləri seldən qorumaq lazımdır.

Q a p l a n. Nə olub?

Qaplan stolun arxasından sıçrayır. Pəncərənin qarşısından Mişkanın səsi eşidilir.

M i ş k a. Mən işləri dayandırmışam. Bəndləri su basmasa, yaxşıdır. Başqa səs eşidilir.

S ə s. Kolxoz sahələri batacaq!

Qaplan tez barakdan çıxır, məşəl barakların arasını və insanların həyəcanlı sifətlərini işıqlandırır. Qaplanın və Həsənin səsi eşidilir.

Q a p l a n v ə H ə s ə n. Tez olun! Yoldaş Saryov hardadır? Adamlar hardadır?

Yığışırlar... Fəhlə kütləsi başda Qaplan olmaqla məşəl işığında Kürə doğru hərəkət edir. Mişka və Avak da buradadırlar. Hamının əlində bel və külüng vardır. Həsən camaatı yola salıb, talvara çıxır və Kürə tərəf baxır. Sakitlikdir. Həsənin anası – qoca qarı, aşağıdan oğluna baxır.

H ə s ə n i n a n a s ı. Kaş bizim bostanı su basmayaydı. Bir gedərdin, oğul.

H ə s ə n. Yox, ay ana, su hələ uzaqdadır. Həsən əks tərəfə dönür, nə isə görür, canlanır, aşağı enir. Təpədə at üzərində cavan qız görünür. O, Həsənə tərəf irəliləyir.

Q ı z. Qardaş, mühəndis Qaplan burdadır?

H ə s ə n. Yox, bacı, o elə indicə öz adamları ilə getdi. Sel gəlir. Nə lazımdır?

Q ı z. Mən mühəndisəm. Buraya təyin olunmuşam.

Həsən və anası sakit nəzərlərlə qızı süzürlər. Onların yanından kolxozçuları daşıyan arabalar, əllərində bel və kürək olan atlılar keçir. Partiya komitəsinin katibi öz atını saxlayır.

P a r t i y a k o m i t ə s i n i n k a t i b i. Uşaqlar, bütün boş adamları yığın. Kür daşır. Kolxoz tarlalarını xilas etmək lazımdır!

Q ı z (Mühəndis qız, çox düşünmədən, xurcunu atın üstündən götürüb Həsənə verir). Bunu, zəhmət olmazsa, rəisin otağına qoy.

Partiya komitəsinin katibinə yaxınlaşır. Xalq bir yerə yığılır. Ana qızın ardınca baxır və sonra kədərli nəzərlərlə oğlunu süzür.

H ə s ə n i n a n a s ı. Oğul, qurbanın olum. Bu dünya fanidir: mən bu gün sağam, sabah yox... Elə istərdim ki, ölməmişdən əvvəl səni evlənmiş görüm. (Ağlayır)

Həsənin yanında dayanan, səfərbər edilmiş kəndlilərdən biri sözarası soruşur.

K ə n d l i. Ay Həsən, yenə qarı gəlindən ötrü ağlayıb-sızlayır, darıxır? Evlən də... (pauza) bu qızla (mühəndis qızı göstərir). Çətin işdir bəyəm?

Ətrafdakılar gülürlər. Həsən də gülür.

B a ş q a b i r k ə n d l i. Həsən, bəs sən niyə yığışmırsan? Sənin bostanının tilsim-duası var bəyəm? Kür – əjdahadır: onsuz da hər şeyi udacaq!

H ə s ə n. Axı, su hələ uzaqdadır! Allah kömək edər, bəlkə heç nə olmadı.

K ə n d l i. Sən məyər bilmirsən ki, əvvəlcə dəvəni yaxşıca bağlayıb, sonra Allaha tapşırırlar?

P a r t i y a k o m i t ə s i n i n k a t i b i. Yoldaşlar, yığışmaq vaxtıdır!

Həsən xurcunu anasına verib, kəndlilərlə birlikdə sel axan yerə gedir. Dəstənin başında - partiya komitəsinin katibi və mühəndis qız. Daşqın. Ətrafdakı kəndlərin kəndliləri və kolxozçuları qurşağa qədər suyun içində təbii fəlakətlə mübarizə aparırlar. Torpaqla dolu kisələri daşıyıb, sahilə yığırlar. Dirəklər üzərində tikili qurur, ağacdan maneələr düzəldir, dirəklər arasındakı boşluqları bağlayır, onları torpaqla doldururlar. Qızğın iş qaynayır. Qaplan və Mişka hamı ilə birlikdə şücaət göstərərək Kür çayına bənd çəkməklə məşğuldurlar. Hər an Qaplanın səsi ətrafa yayılır.

Q a p l a n. Uşaqlar, kisələri verin!

Qaplan təhlükəli yerə tullanır. Mişka kisəyə görə tez-tez sahilə çıxır, birdən onun həyəcanlı səsi eşidilir.

M i ş k a. Ilan, ilan!.. Eh, lənətə gəlmiş zəhrimar!...

Q a p l a n (onun qışqırığına məhəl qoymayaraq çığırır). Tez olun kisə verin!

M i ş k a (*kürəyində kisə, görünür).* Yaxşı ki, sancmadı! *(suya girir).*

Qaplan və Avak Mişkanın kürəyindən kisəni götürüb, suyun yuyub apardığı yerə daşıyırlar. Digər adamlar da kisələrlə gəlirlər. Qaplan, Mişka və Avak hər yerə qoşur və kömək edirlər. Mişka üşüyür. Səs eşidilir.

S ə s.Yaxşıca hamamlandıq!

M i ş k a. Kisəçi çatışmır! (Ətrafda gülürlər).

Elə bil ki, su axını dayanıb. Qaplan və Mişka sudan çıxırlar. Avak orad işləməkdə davam edir. Qaplan ətrafa boylanır.

Q a p l a n. Bu, hər il təkrar olunur. Necə bədbəxtlikdir? Amma bu yaxınlarda biz bu işi yönünə qoyacağıq.

Kənarda, digər sahədə, partiya komitəsi katibi ilə yenicə gəlmiş bir qrup işləyir. Burada mühəndis qız və Həsən bəndlərin arasında işləyirlər.

H ə s ə n (həyəcanla). Şax-şəvəl gətirin!

Qurşağa qədər suyun içində, kolxozçu qadın qaçıb gəlir, Həsənlə birlikdə dirəklərin aralarını doldururlar. Partiya komitəsinin katibi bir qrup insanın yanından digər qrup insanlara yanaşır. Ruhlandırıcı sözlər deyərək, özü də sahilə bənd çəkməkdə iştirak edir. Həsən işləyə-işləyə, yandan kolxozçu qıza baxır.

H ə s ə n. Qəşəng qız, sənin adın nədir?
K o l x o z ç u q ı z. Mənim adım Nazlıdır. Nazlı! (Nazlı gülür, sahilə qaçır).

Həsənin dostu, kəndli oğlan bu mənzərəni görüb, zarafatyana.

K ə n d l i o ğ l a n. Hə, Həsən, fürsəti əldən verirsən? Allah özü göndərib. Kor nə istər: iki göz – biri əyri, biri düz... Amma sənin iki gözün də yerindədir. (Ətrafdakılar gülürlər).

Qaplanın sahəsində yenə də həyəcan var. Səslər eşidilir.

S ə s l ə r. Çuxur var! Kisələr! Su bəndi yuyub aparır... Çuxuru çayın özündə doldurmaq lazımdır!

Qaplan suyun yuyub dağıtdığı yerə atılır. Mişka və Avak da onun ardınca tullanırlar. Gərgin vəziyyət alınır. Qaplan çuxuru tuta bilir, amma su ona güc gəlir. Həyəcanlı səslər eşidilir.

S ə s l ə r. Ehtiyatlı olun, aparar!

Ancaq gecdir. Su Qaplanı aparır. Həyəcanlı səslər artır. Qışqırığa partiya komitəsi katibi və bir dəstə gəlir. Mühəndis qız və Həsən suya tullanırlar. Böyük bir çətinliklə qız Qaplanı xilas edə bilir. Şən səslər eşidilir. Mişka, Salman və Həsən Qaplanı sahildən çıxardırlar. Onu maşında aparırlar. Bütün bu vaxtı orada olan Saryov özünü Qaplana çatdırır: Mühəndis-qız çaya qayıdır.

Q ı z. Uşaqlar, çoxlu kisə verin!

İş qaynayır. Qaplanın gedişindən sonra bütün təşəbbüs mühəndis qızın və partiya komitəsi katibinin əlinə keçir. Salman Qaplanı yola salıb qayıdır və sahildə Saryovun yanında dayanır.

S a r y o v (əsnəyərək). Məyər biz bunun üçün oxumuşuq? Salman yorğun halda özünə, yaş və çirkli paltarına baxır.

S a l m a n *(gümrah halda).* Bəsdir, Saryov! Hər şeyə alışmaq lazımdır! *(Çayın təbii fəlakətlə mübarizə gedən yerinə qayıdır).*

Axşamdır. Otaq. Sellə mübarizə Qaplana ucuz başa gəlməmişdir: o xəstə yatır. Malyariya onu zağ-zağ əsdirir. Həsən də buradadır. Mühəndis-qız gəlir. O, Qaplanı sayıqlayan vəziyyətdə görür. Qaplan öz əzizini, istəklisini tovlayan kimi əllərini uzadır.

Q a p l a n. Altunsaç! Altunsaç! (Qız heyrətlə baxır. Qaplan dəhşətə gəlmişdir. Onun xəyalına aşığın nəğməsi gəlir. Əfsanəvi Altunsaç xəstənin gözlərinə görünür: onun qızılı hörükləri qığılcım təki alışır).
Gəl, gəl Altunsaç! Bizə işıq və xoşbəxtlik ver.

Görüntü yoxa çıxır. Xəstə özündə yüngüllük hiss edir, gözlərini açır və ətrafa baxır. Onun baxışları qıza zillənir.

Q ı z. Siz özünüzü necə hiss edirsiniz?

Q a p l a n. Heç... Malyariyaya alışmışam. Yaxşı... Xroniki malyariya görünür. Mən Sizi tanıdım (pauza)

Q ı z. Hə, mən təyinat üzrə bura işə gəlmişəm.

Q a p l a n. Sizin adınız nədir?

Q ı z. Altunsaç!

Q a p l a n. Altunsaç?

Aşığın nəğməsi eşidilir. Qaplan özünü itirmişdir. O bilmir ki, həqiqət haradadır, əfsanə harada. Həsən, əlində qab, Qaplan üçün kolxozdan süd gətirməyə gedir. O, yolüstü demək olar ki, sudan məhv olmuş bostana baxır. Bəzi yerlərdə öz sahələrinə baxan kolxozçular görünür. Nazlı da buradadır. Qız Həsənə yaxınlaşır. Ona zarafat-yana "dayı" deyə müraciət edir.

N a z l ı. Hara, dayı?

H ə s ə n. Süd dalıyca, xala, rəis üçün. Xəstədi o.

N a z l ı. Lənətə gəlmiş Kür sənin də xətrinə dəyib, dayı!

H ə s ə n. Islanmışın yağışdan nə qorxusu.

N a z l ı. Belə islanmış... cücəyə ocaq lazımdır. (Nazlı onun çiynindən vurub, qəhqəhə ilə gülür).

H ə s ə n. Ocaq var, od yoxdur.

N a z l ı. Od? Sən də onu tapmırsan? Kuzələri ver, gedək. (Nazlı ona incə nəzərlərlə baxır və mənalı-mənalı gülür).

Altunsaçın çox da böyük olmayan, səliqəli laboratoriyası. O, iş başındadır. Qaplan stola söykənmiş halda dayanıb.

Q a p l a n. Mən çox şadam ki, siz bizim peşəni sevdiniz... Mingəçevir - bizim gələcəyimizdir! Su, sağlam hava, məhsuldar torpaq və əbədi yanar od. Bizim əcdadlarımızın hörmət etdikləri dörd ünsür! Bütün bunların hamısını Mingəçevir verəcəkdir.

A l t u n s a ç. Biz hələ çox şey etməliyik.

Q a p l a n. Eybi yoxdur, gücümüz çatar. "Bolşeviklər xüsusi keyfiyyətli insanlardır". (Saata baxır) Bağışlayın, mən işə getməliyəm.

Qaplan geri dönür və tez laboratoriyadan çıxır. Altunsaç onu baxışları ilə yola salır və tez pəncərəyə yaxınlaşır. Onun qara gözləri uzun müddət Qaplanın arxasınca baxır. Meydanda baraklar arasında. Həsənin anası utana-utana Qaplana müraciət edir.

H ə s ə n i n a n a s ı. Çox sağ olun ki, mənim oğlumu işə götürdünüz. Onun bostanını su basıb... Mən də artıq qocalmışam. Həsəndən başqa heç kəsim yoxdur. Ölümümdən qabaq öz evimdə gəlin görmək istərdim. (Qarı ağlayır).

Q a p l a n. Qəm yemə, ana. Həsəni evləndirərik! Hər şey yaxşı olacaq!

Qarı ehtiramla Qaplana baxır. Yaxında tikintisi başa çatmamış kanalın ətrafında kəndlilər oturmuşlar. Qaplan onlara yaxınlaşır.

Q a p l a n. Siz niyə bekar oturmusunuz?

K ə n d l i l ə r (ayağa qalxırlar). Iş yoxdur, ona görə də oturmuşuq. Deyirdiniz işçi yoxdur, bax, biz kolxozdan gəlmişik... Orada işi atmışıq, burada da heç bir şey yoxdur! Alətlər yoxdur, nədir? Kim çağırıb?

S ə s l ə r. Rəis Saryov!

Q a p l a n. Bir gəlin görək!

Qaplan hirsli halda Saryovun idarəsinə yollanır, kolxozçular da onun ardınca gedirlər.

Axşamdır. Saryovun otağı. Salman onun yanındadır. Saryov pulverizator ilə mayeni tozlandıraraq ağcaqanadlarla mübarizə aparır.

S a r y o v (kinayə ilə). Nədir? Bu günkü incikliyinizin əvəzini çıxırsınız? Avam camaata görə Qaplan mənə öyüd-nəsihət verdi. Təzə xəbəri eşitmisiniz? Bu sizi maraqlandırar. Idarə layihənin hazırlanmasını bizim çox hörmətli Qaplana həvalə edib.

S a l m a n. Hə... Sizi incidiblər, yoldaş Saryov! Sizin çoxillik səriştəniz, sizin iş stajınız... başqa münasibətə layiq idi.

S a r y o v. Hə, heç! Mən bitərəfəm. Amma siz! Axı, siz partiyaçısınız, həm də yaşca böyüksünüz. Siz... Qaplanın yerində siz olmalıydınız!

S a l m a n. Mən? Mən – bizdə necə deyərlər, səhrada dəvəsi ölmüş ərəbəm:

S a r y o v. Mən Sizi başa düşürəm, ancaq siz özünüz Qaplanın təklif etdiyi iş üsuluna necə baxırsınız?

S a l m a n. Cəsarətli addımdır! O, bunu obrazlı formada "gələcəyə sıçrayış" adlandırır.

S a r y o v (*dodaqaltı).* Hə, görək bu "sıçrayış" nə ilə qurtaracaq.

S a l m a n. Nə? Siz nə dediniz?

S a r y o v. Hə, heç, elə-belə... *(hamıya lazımlı bir şəxs olan təsərrüfat hissə müdiri Abdullayev içəri daxil olur. O, mərkəzdən gətirilmiş hədiyyələri: avtomat qələmi və pnevmatik balıncı çıxarır).*

S a r y o v. O...o, xoş gəlmisiniz, Abdullayev! Yenə də hədiyyələrləsən? Budur insanların qayğısına qalan. *(Pnevmatik balıncla əlləşməyə başlayır. Sonra otaqdan çıxır).*

S a l m a n (*sakitcə Abdullayevə*). Hə, necədir? (*Abdullayev məktub verir).* (*Salman məktubu gizlədir).* Yaxşı! Deməli, hər şey yaxşıdır?

A b d u l l a y e v. Salamları var... iş gözləyirlər. Təfsilatı məktubdadır. *(Çıxır)*

Qapıda Saryovun müşayiət etdiyi Qaplanla qarşılaşır.

Q a p l a n. Mən sizin yanınıza işlə əlaqədar gəlmişəm. Qalereyada iş necədir? Bu, məni narahat edir.

S a r y o v. Hər şey necə lazımdır, eləcədir. Iş gedir.

Q a p l a n. Sizi xəbərdar edirəm: mühəndis-Altunsaçın təcrübəsi göstərir ki, qrunt etibarlı deyil, bərkitmək lazımdır... Yoxsa...

S a l m a n. Mənə elə gəlir ki, inşaat materiallarını qənaətlə sərf etmək lazımdır. Qalereyanın özülü tab gətirər... Material fondu məhduddur.

Tikinti yerində SES ön planda. Qaynar iş gedir. Altunsaç işlərə nəzər salır. Digər sahəyə keçir və Qaplanla görüşür. O, həyəcanlı və arxayındır. Işlər yaxşı gedir. Qaplan görüşdən məmnundur. O, qızın əlini möhkəm sıxaraq ona solğun gül verir.

A l t u n s a ç. Mən çox məmnunam. Burada güllər necə solğundur!

Q a p l a n. Çiçək nəmlik sevir, hisslərsə – qarşılıqlı əlaqə...

A l t u n s a ç. Oho, Siz əsl şairsiniz!

Q a p l a n. Məyər bizim məqsədimiz işgüzar həyatımızı poeziyaya çevirmək deyil?

Onların baxışları rastlaşır, elə bil ki, onlar öz aralarında gizli, sözsüz, lakin hər ikisinin başa düşdüyü sirli bir dildə danışırlar.

Q a p l a n (həyəcanlı). Bilirsiniz, mən çoxdan Sizə demək istədim...

Həyəcan siqnalı Qaplanın sözünü kəsir. Mişka xəbər verir ki, yeraltı tədqiqat yolu uçub-dağılmışdır. Qaplan və Altunsaç faciə yerinə atılırlar. Partiya komitəsinin katibi artıq orada göstəriş verir... Həsən və Avak var qüvvələri ilə işləyirlər. Yaralıları xilas edir, uçqun altda qalmış fəhlələri çıxarırlar. Mişka yaralıdır. Qaplan və Həsən onu əllərində gətirirlər. Burada da ağcaqanad və ilanlarla "təqib olunan" Saryov, elə bil nə isə edir. Salman zərərçəkənləri torpağın altından çıxartmağa kömək edir. Qaplan Mişkanı otaqda qoyub, geriyə qayıdır və axırıncı yaralını çıxarır, ona Salman və Avak kömək edirlər. Uçqun altından axırıncı Saryov və Altunsaç çıxırlar.

S a r y o v (*fürsət tapıb).* Görürsünüz bizim Qaplan neylədi? Hərçənd ki, Qaplan azərbaycanca pələng deməkdir, ancaq onun hər sıçrayışıuğurlu deyildir. Bunu müasirlərin dilində adlandırmaq olar...

A l t u n s a ç *(kəskin).* Demək istəyirsiniz ki, ziyankardır?..

S a r y o v *(çox mənalı halda çiynini çəkərək).* Necə istəyirsiniz adlandırın. Sübut edir ki, bütün günah Qaplanın boynundadır.

Partiya iclası uçqun barədə və fəhlələrin ölümündən həyəcanla danışırlar. Saryov şahid qismində cəlb edilmişdir.

A l t u n s a ç. Partiyaçı Qaplana belə hərəkətləri bağışlamaq olmaz! Bu, sadəcə ziyankarlıqdır. Partiyanın sıralarında ona yer ola bilməz. *(O, həyəcanla geriyə atılır və əlləri ilə üzünü tutur).*

S ə d r. Şahid Saryova söz verilir.

S a r y o v. Mühəndis hər şeydən əvvəl soyuq düşüncəyə malik olmalıdır. Ciddi hesab-kitabı olmalıdır. Və biz ciddi hesabı rəhbər tutmalıyıq. Ancaq Qaplanın fantaziyası dəqiq hesaba üstün gəlir.

S a l m a n. Yoldaş Saryova, əlbəttə ki, onun qanuna müvafiq hərəkətlərinə, təmizliyinə və güclü əmək qabiliyyətinə baxmayaraq, texnikada görünməmiş yaradıcı uçuş, yenilik hissi yoxdur. Qaplan bu barədə əvəzedilməzdir. Onun risk etməyə hüququ vardır. Onda yara-

dıcı təklifin yeniliyi duyulur ki, bu da bizim böyük dövrümüzün əsas keyfiyyətlərindən biridir.

S ə d r *(onun sözünü kəsərək).* Yoldaş Salman, obyektiv ol! Öz dostluq hisslərini Qaplan üçün saxla...

Unutma ki, sən partiyaçısan!

S a l m a n. Haqq-ədalət Qaplanı müdafiə etməyi tələb edir!

Salmanın alovlu müdafiəsinə baxmayaraq, partiya qrupunun ümumi münasibəti Qaplanın əleyhinə deyil. Ayrıca çıxışlarda Qaplanın "riski" fəhlələrin həyatı hesabına başa gəldiyi üçün onu tənqid edirlər. Mişka və Avakın başçılığı altında olan fəhlə qrupu

Qaplanın müdafiəsinə qalxır. Narazılıq, etiraz səsləri eşidilir.

S ə d r. Yoldaşlar, bizim qərarımız müvəqqəti olaraq saxlanılır və iş xüsusi komissiyaya verilir.

Hamı dağılışır.

P a r t i y a k o m i t ə s i n i n k a t i b i (sözarası Mişaya). Mənim yanıma gələrsən!

Nahardan sonrakı vaxt. Qaplan həyəcan keçirir. Qərar tuta bilmir, o otaqda var-gəl edir, layihələri, kitabı götürür - bir şey alınmır, kənara tullayır. Çarpayıya uzanır,

ancaq sakitləşə bilmir, ayağa qalxıb pəncərəyə yaxınlaşır.

M i ş a. (*düşüncəli halda onun hər bir hərəkətini izləyir).* Qaplan, bəsdir, üzüldün, hər şey yaxşı olacaq. *(yavaşca qapıya yaxınlaşır)*

Q a p l a n. *(təəccüblə*) Sən hara belə?

M i ş a. Məni partiya komitəsinə... çağırıblar... getmək vaxtıdır.

Q a p l a n. Nəyə görə?

M i ş a. Çağırıblarsa, demək lazımdır.

Qaplan fikri dağınıq halda gözləri ilə onu yola salır, görünür, onun həyəcanı son həddə çatmışdır... Salman daxil olur.

S a l m a n. Ey, əzizim, belə yaramaz. Sən arıqlamısan. Belə zəiflik partiyaçıya bağışlanmır.

Q a p l a n. Salman, başa düş, cavabdehlik partiyanın və hökumətin böyük etimadıdır. Amma mən onu doğrultmadım... Mən qalereyanın layihəsini verəndə elə bilirdim ki, hər şeyi nəzərə almışam. Heç nə başa düşmürəm, axı, bu necə oldu?

S a l m a n. Sən bilirsən, Qaplan, mən səni müdafiə etdim. Həmişə də müdafiə edəcəyəm. Bir partiyaçı kimi, bəlkə də mən bunu

etməli deyildim, çünki mən sənin layihənə inanmırdım. Amma mən türkəm və sən də türksən... Mən səni pis vəziyyətdə qoymaq istəmədim və bunu bacarmadım da...

Q a p l a n *(qəfil coşaraq, kəskin).* Necə yəni "mən də türkəm, sən də türksən?" Sən bununla nə demək istəyirsən? Deməli, sən mənim layihəmin əleyhinəsən? Sən bunu mənə indi açıq deyirsən?

S a l m a n. Qışqırma. Məni sakit dinlə. Bu o deməkdir ki, biz, gənc mütəxəssislər, türklər, Ittifaq qarşısında biabır olmamalıyıq. Sən bir işə məftun olursan və mən səndə bu keyfiyyəti sevirəm. Ancaq məsləhət görürəm ki, bu hoqqanı buraxasan – o səni məhv edəcək, onu həyata keçirməyə çalışma. Bizim yazıq xalq boş yerə deməyib: "Çoxu istəyən azdan da olar". Sənin layihənin mahiyyəti yoxdur.

Q a p l a n (*Salmana sınayıcı nəzərlərlə baxaraq).* Bütün bunları necə başa düşək? Bunu sən, partiyaçı deyirsən: "Bizim yazıq xalq"? O, niyə yazıq olsun ki?

S a l m a n (*ciddi görkəm alır).* Sözlərə ilişmə... Mən sənə dediklərim haqqında düşün, *(pauza)* Lakin mən getməliyəm, iş var. Hə, möhkəm ol, Qaplan... Hər şey yaxşı olacaq. *(Gedir. Qapıda isti süd gətirən Həsənlə qarşılaşır).* Hə, Həsən, sağ ol!

H ə s ə n. Sağ ol! *(Qaplan düşüncəli halda otağın dərinliyində dayanıb. İnamsızdır)* Rəis, süd istəyirsən?

Q a p l a n. *(elə bil ki, ayılır, divara yaxınlaşır, silahı divardan alır, kepkasını başına qoyub, tez çıxır)* İstəmirəm!

H ə s ə n. Onu hirsləndirən zalımın atasına lənət. Çaşdırıblar yazıq rəisi, çaşdırıblar...

Axşam tərəfidir. Həsənin qazması. Həsən sazda çalır. Anası fikirli halda ona baxır.

H ə s ə n i n a n a s ı. Bilirsən, oğul, bu Altunsaç yaxşı qızdır...

H ə s ə n. Hə...ə, onu hamı sevir!

H ə s ə n i n a n a s ı. Bilirsən, Həsən, əgər o mənim gəlinim olsaydı...

H ə s ə n. Sən nə deyirsən, ana? Mühəndis və birdən...

H ə s ə n i n a n a s ı. Oğul, hər şey taledən asılıdır! Allah elə edər ki, sən birdən onun ürəyinə girərsən... Hər şey qismətdən asılıdır.

Birdən qazmaya düşən nərdivanın yuxarısında Altunsaçın səsi eşidilir: "Olar?"
Həsən və anası, yerlərindən sıçrayıb, nərdivana yaxınlaşırlar.

H ə s ə n i n a n a s ı. Həsən, sənə demişdim ki, hər şey qismətdən asılıdır. Görürsən? (Altunsaça yaxınlaşıb, mehribancasına) Nə yaxşı ki, gəldin. Bizim bu kasıb daxmamız sənə peşkəşdir.

A l t u n s a ç. Sağ olun! (Yerdə otururlar. Altunsaç qazmaya baxır.) Tezliklə sizin bu kasıb daxmanızın sonu gələcək. Sizə təzə ev tikəcəklər.

H ə s ə n i n a n a s ı (sevincək). Nə yaxşı olar. Yeni koma və mənim yazıq Həsənimə düşən qismət.

Həsən gözləri ilə işarə edir ki, anası artıq heç nə danışmasın. Dərin sükut çökür.

A l t u n s a ç. Həsən, rəis hardadır? Heç görünmür.

H ə s ə n. O evdə yoxdur, bacı. Silahı götürüb harasa gedib.

A l t u n s a ç. Gedib... Harasa?

Altunsaç fikrə gedir. Nazlı içəri girir.

N a z l ı. Mən sənin yanına getmişdim, Altunsaç. Tapa bilmədim. İzinə düşüb bura gəlmişəm. Məni bağışla, sən mənə lazımsan, mənə ərizə yaz. Kursa getmək istəyirəm.

A l t u n s a ç. Qərara gəldin? Afərin!

N a z l ı. Bəs necə: Hamı oxuyur, mən niyə oxumayım? *(Gülür, yenidən sükut.)*

A l t u n s a ç. Yaxşı, sabah gəl mənim yanıma, hazırlayaram.

N a z l ı (*otağa göz gəzdirərək, Həsənin bir tərəfə qoyduğu sazı görür)*. Bu kimindir?

H ə s ə n (*utanaraq)*. Mənimdir.

N a z l ı. Niyə bir şey çalmırsan? *(Həsənin anasına)* Ay ana, sənin oğlunun, elə bil ki, hissi yoxdur.

H ə s ə n i n a n a s ı (ah çəkərək). Hissi var. Qisməti tapılmır.

N a z l ı. Əgər yaxşı çalsa qisməti gələcək.

Nazlının gülüşü Altunsaçın əhvalını pozur. O, qazmadan çıxır.

A l t u n s a ç *(onu fikirli yola salan Həsənə)*. Sən deyirsən Qaplan silahı götürüb?

H ə s ə n. Hə. Bu işlərdən sonra onun keyfi yoxdur. Dünən də o, gecəyə qədər oturdu. Eh, Altunsaç bacı, bizdə deyərlər: "Ho var dağa qaldırar, ho var dağdan endirər". Insanı heç nəyin üstündə çərlədərlər.

A l t u n s a ç *(səmimi və xeyirxah nəzərlərlə Həsənin üzünə baxır). (pauza)* Həsən, sən qayıt geri, məni ötürmə, mən özüm gedərəm.

Vidalaşırlar. Həsən gedir, amma dönüb uzaqlaşan Altunsaça baxır. Altunsaç təpəyə qalxır. Uzaqlaşan yollar görünür. Kədərlə uzaqlara baxır. Bir gilə göz yaşı yavaşca yanağına süzülür. Birdən üzündə şən təbəssüm oynayır: uzaqda, yolda Qaplana oxşayan bir nəfər görünür. Sifətinin şən ifadəsi yavaş-yavaş tutqunlaşır - yolçu Qaplan deyildi. Dərdin və həyəcanın ifadəsi artır. Gözlərində qeyri-ixtiyari göz yaşları görünür. Birdən tanış səs.

S ə s. Altunsaç, Siz burda nə edirsiniz?

O, geri dönür. Təpədən, əlində silah və içərisi vurulmuş quşlarla dolu zənbil, Qaplan görünür. Altunsaç sevincdən alışıb-yanan gözləri ilə bir anlığa Qaplana baxır. Birdən onun gözü ovlanmış quşlarla dolu zənbilə sataşır. Onun ova getdiyi Altunsaça aydın olur. Öz qorxularına görə o, utanır. Qəfil dönərək, heç nə demədən, gedir... "Altunsaç!" Altunsaç Qaplanın çağırışını eşitmədən, daha da tez uzaqlaşır. Partiya komitəsinin girişi. Qaplan oturub. Gözləmə dəqiqələri uzanır. Qaplan hövsələsiz həyəcandadır. Rəngi ağarmış Saryov heç kimə baxmadan otaqdan çıxır. Qaplan kabinetin qapısına yaxınlaşıb, cəsarətsiz açır. Orada telefon zəngi eşidilir. Qaplan qapını astaca örtüb, səssiz pəncərəyə tərəf keçir. Nəhayət, Qaplanı kabinetə çağırırlar. Partiya komitəsinin katibi yazı masasının arxasında tək oturub. Qaplan qorxaraq, salamlaşır.

P a r t i y a k o m i t ə s i n i n k a t i b i. Otur!

Q a p l a n. Niyə oturum?

P a r t i y a k o m i t ə s i n i n k a t i b i. Otur!

Q a p l a n (ürəksiz kətilin kənarında oturur). Mən layihənin yoxlanması ilə nə qədər məşğul oluramsa, heç nə alınmır... Amma faciə göz qabağındadır.

P a r t i y a k o m i t ə s i n i n k a t i b i. Bilirik... Aydınlaşdırarıq. Amma sən öz işini davam etdir...

Q a p l a n. Necə?

P a r t i y a k o m i t ə s i n i n k a t i b i. Hə... Hə! Sənə deyirlər: get və işlə!

Torpaq işləri gedən yer. Qaplan layihə üzərində işləyir. Mişka yaxınlaşır.

Q a p l a n. Görürsən, Mişka, mən yenə də öz yerimdəyəm.

M i ş k a. Bəs necə... Mənim briqadamda hamı belə fikirləşirdi. Elə başqaları da danışırdılar.

Q a p l a n. Başqaları danışırdı, amma Altunsaç məndən üz döndərib.

M i ş k a. Sən ondan incimə. O, fəlakətdən dəhşətə gəlib... Hamı səni günahlandırırdı. Ona ağır idi. Mən bunu görürdüm.

Uzaqda yolda Saryov və Salman. Onlar Qaplana tərəf gedirlər.

S a r y o v (rişxəndlə). Sizi təbrik edirəm!

Q a p l a n. Nə ilə?

S a r y o v. Onun üçün ki, "şir" yenə də yerindədir.

Q a p l a n. Eybi yoxdur, "Cücəni payızda sayarlar"... Qaplana yaxınlaşırlar.

S a l m a n. Təbrik edirəm. Çox şadam.

S a r y o v. Amma bilirsiniz, yoldaş Qaplan... Pis hadisələrdən qaçmaq üçün, bilirsiniz, sürəti azaltmaq lazımdır. Əlimyandı nəyə lazımdır.

S a l m a n. Yoldaş Saryov, sürət nə şeydir! Bu qədər vəzifələrin qarşısında tısbağa yerişi ilə getmək olmaz axı.

Geniş müşavirə çağırılmışdır, burada Qaplan gələcək Mingəçevirin maketini nümayiş etdirəcəklər. Müşavirə hələ başlamayıb. Dəvət olunanların çoxu oturub. Qaplan, partiya komitəsinin katibi, Avak və Mişka bir kənarda dayanıb, söhbət edirdilər. Saryov gəzişir. Salman aə Altunsaç pəncərənin yanında dayanıblar. Salmanın sözləri, görünür, Altunsaçın xoşuna gəlmir.

A l t u n s a ç. Axı, sizin arvadınız, uşaqlarınız var...

S a l m a n. Onun savadı azdır, məni başa düşmür...

A l t u n s a ç. Siz axı partiyaçısınız, onu öyrətmək – sizin borcunuzdur!

S a l m a n. Amma mənim ürəyim Sizin haqqınızda düşüncələrlə doludur.

A l t u n s a ç. Xahiş edirəm ürəyinizi cilovlayasınız. Mən Sizi sevə bilmərəm!

Altunsaç, Salman uzaqlaşaraq Qaplanın qrupuna yaxınlaşır. Bu zama Abdullayev əlində güllər gəlir. O, növbə ilə Qaplana, Altunsaça, partiya komitəsinin katibi Saryov yaxınlaşır, hər birinə gül verir, bu zaman xoş söz deyir. Nəhayət, o, pəncərənin yanında dayanan Salmana yaxınlaşır və ona da gül verir.

A b d u l l a y e v (sakit). Bu gün Bakıya gedirəm, heç bir tapşırığınız olmayacaq?

Salman gülü götürür. Təbəssümünü saxlayaraq, eyni zamanda sakit və ciddi danışır.

S a l m a n. Sakit! Axşam gələrsən.

Abdullayev yenə də təbəssümlü gözləri ilə hamıya nəzər salaraq, baş əyib, gedir.
Katibin səsi eşidilir.

P a r t i y a k o m i t ə s i n i n k a t i b i. Yoldaşlar, başlamaq vaxtıdır!

Hamı öz yerini tutur. Salman və Saryov yanaşı oturublar. O biri tərəfdən yanaşı
dayanan, maketə baxan Altunsaç, Mişa, Avak və Həsən görünür.

Q a p l a n. Mingəçevir milyon hektarlardan çox suvarılmış torpaq deməkdir, (*kadr: içi ilə su axan saysız-hesabsız kanallar).* Ucsuz-bucaqsız Mil-Muğan düzlərini pambıq qozaları örtmüşdür. (*kadr: pambıq sahələri)* Kür ram edilir və insana qulaq asır (*kadr: Kürün bəndləri və şlüzləri*), sel yoxdur, bataqlıqlar yoxdur, malyariya da yoxdur...

Bizim əməksevər xalqın üzündən sağlamlıq yağır. *(kadr: sağlam kolxozçu kişilər və qadınlar kombaynlarla taxıl biçirlər),* Kür gəmiçiliyə yararlıdır və gəmilər bir-birinin ardınca Xəzərə doğru hərəkət edir, şimala və geriyə *(kadr: çay gəmiləri)...* Azərbaycan çiçəklənir... Yeni şəhərlər və kəndlər salınır (kadr: yeni qəsəbələr, yeni parklar, bağçalar) Varlı həyat, mədəni həyat, şən həyat azad dünyanın bəzəyir, hər yerdə azad əmək var...

Birinci salman əl çalır. Hamı ona qoşulur. Şən səslər. Alqış səsləri.

S a r y o v (kinayəli gülüşlə Salmana). Xam xəyallar!
S a l m a n. Bizdə necə deyərlər: xəyal plov – arzudan hazırlanan plov.
S a r y o v. Yaxşı deyilib (özündən razı hırıldayır)

Gənclər və qocalar Qaplanı əhatəyə alır, onun əlini sıxırlar.
Altunsaçın xoşbəxt çöhrəsi. Qaplanın gözləri onu axtarır.

S a l m a n (Saryovun gülüşünü kəsərək). Gülürsünüz, yoldaş Saryov? Yenə də layihə həyata keçir. Siz bunu başa düşürsünüz, Saryov?

S a r y o v. Həyata keçir!

Axşamdır. Qadınlar və uşaqlar dəstə-dəstə barakın qarşısında dayanıb söhbət edirlər.
Saz və qarmon gəlir. Kimsə oynayır. Mişa və Həsən camaatın arasından çıxaraq,
təpəyə qalxıb, işə gedirlər. Uzağa baxırlar. Yol ziqzaq şəklində dağlardan aşağı enir.

Hava qaralır. Yol ilə atlı gəlir. Birdən onun arxasıyca, elə bil ona çatmaq üçün, bir avtomobil işıqlarını yandırıb-söndürür. Mişa və Həsən gərginliklə maşını izləyirlər. Maşın ata çatıb onu vurur. Atlı yerə yıxılır. Fəhlə kütləsi arasına uğultu düşür: o an mahnı və musiqi səsləri kəsilir. Hamı fəlakət baş verən yerə atılır. Həsən Altunsaç yaşayan evə qaçır. Tələsik pilləkənləri çıxır. Atlar hazır vəziyyətdədir. Altunsaç və Həsən atlara minib, hadisə yerinə gedirlər. Qaplan yerə uzanmışdır. Onun yanında Mişa və Avak, onların yanında Salmanın maşını dayanıb. Partiya komitəsinin katibi, milis işçiləri hadisə yerindədirlər. Salman barmaqlarını sındırır.

S a l m a n *(barmaqlarını sındıraraq).* Neçə dəfə siqnal verdim.

M i ş a *(reprika atır).* Nədənsə siqnal səsi eşidilməmişdi...

S a l m a n. Enişdir... Maşını saxlamaq olmurdu. Nə dəhşətli hadisədir!

Altunsaç yerdə hərəkətsiz uzanmış Qaplana tərəf əyilir.

H ə k i m: Onda güclü baş əzikləri var və ayağı çıxıb. Onu təcili xəstəxanaya aparmaq lazımdır. Altunsaç, Mişa, Həsən və Avak Qaplanı xərəyə qoyub, avtomobilə sarı aparırlar. O, huşunu itirmişdir. Qaplana baş verən fəlakət idarə rəisinin gəlməsinə səbəb olur. Altunsaç, Salman, Saryov, partiya komitəsinin katibi və başqaları otaqdadırlar. İdarə rəisi diqqətlə dinləyir.

S a r y o v. Mən bir qoca mühəndis, bitərəf bolşevik kimi işin tamamilə dayandırılmasını təkid edirəm. Layihəni yoxlamaq lazımdır. Risk etmək lazım deyil. İnşaat elmi-dəqiq elmdir... Heç bir fantaziyasız... Mən uğursuzluğu əvvəlcədən görürdüm. Mən layihələri Bakıya göndərməyi təklif edirəm...

S a l m a n. Mən Saryovla razıyam. Görünür, layihədə qeyri-dəqiqlik var. Amma yaddan çıxarmaq lazım deyil ki, dövlətin pulları xərclənmişdir və ona görə də yoxlanmış layihəni tez almaq və işi davam etdirmək lazımdır.

A l t u n s a ç. Məncə, layihəni yoxlaya-yoxlaya, eyni zamanda işləmək lazımdır.

K a t i b *(razı şəkildə gülümsünür).* Mən də bu fikirdəyəm. *(Altunsaça müraciət edərək)* Əgər mən bu işi Sizə həvalə etsəm, siz mənə nə cavab verərsiniz? (*gülür).*

A l t u n s a ç. Mənə?

P a r t i y a k o m i t ə s i n i n k a t i b i. Hə, hə, sənə! İşi davam etdir, Altunsaç!

A l t u n s a ç (qısa düşüncədən sonra, həyəcanlı). Mən hazıram. Mən boynuma götürürəm... ancaq yalnız sizin köməkliyinizlə, kollektivin köməkliyi ilə.

S a l m a n (ona yaxınlaşır, sevinclə əlini sıxır). Afərin, mən sənə kömək edərəm!

Altunsaç əlini çəkərək dinməzcə Salmana baxır. Altunsaçın təklifi ilə iş yerinə yollanırlar. Həsən atları verir və özü də onlarla gedir. Mişa və Avakı yeraltı yolda işləyən görürlər.

M i ş a. Beton bekaradır və azdır...

S a r y o v (əsəbi). Betonu mən düzəltmişəm?.. Necə var, elə də verirəm. Bax, Bakıdan təzəsini alacağıq. Abdullayev gələcək.

A l t u n s a ç. Abdullayevi daha gözləməyin.

Mişa heyrətlə və sual dolu baxışlarla Altunsaça baxır. Altunsaç Mişaya diqqət yetirmir. (Narazı halda Saryova) Belə bərkitmə heç nəyə yaramır! Sizə məlum olmalıdır ki, burada süxurların yatımının şəraiti və onların tərkibi sürüşməyə qarşı əlverişlidir... Siz məyər hiss etmirsiniz ki, bundan yeni fəlakət iyi gəlir? Yenidən bərkitmək lazımdır... Mən özüm buna nəzarət edərəm. Saryov vəziyyəti müdafiə etmək istəyir.

Salman elə bil ki, Altunsaçla razıdır.

S a r y o v. Deməli, siz mənə inanmırsınız? Bilirsiniz, mənim çoxillik təcrübəm...

A l t u n s a ç (onun sözünü kəsir). Mən heç vaxt sizin texniki biliyinizə şübhə etməmişəm, amma təkrar edirəm... Bərkitməyə özüm nəzarət edəcəyəm.

Onun ciddi tonu Saryovu susmağa məcbur edir. Ətrafdakılar sakitcə baxırlar.

Saryov bir az özünü itirib.

M i ş a (sözarası, sakitcə Həsənə). Nə əcəb, Abdullayev?

H ə s ə n (hər şeyi bilən bir görkəmlə). Hə! (Sifətinin ifadəsi ilə başa salır ki, o həbs olunub).

Altunsaça yaxınlaşır və sezilmədən onun ovcuna yazı qoyur.

A l t u n s a ç (gülərək oxuyur). Mişa mənə telefonla dedi ki, sən mənim yerimə təyin olunmusan. Təbrik edirəm. Sənə görə, bizim işimizə görə şadam. Aşığın nəğməsini yadıma salıram. “Mənim sazımın

dahiyanə tellərinə inan: yaz gələcək və xalq yeni bir Altunsaç yetişdirəcək! Və yenə də arxlarda su şırıldayacaq, torpaq dirçələcək, güc yığacaq və bizim vətənimiz xoşbəxtlik və məhəbbət işığı ilə nurlanacaqdır”... Mən xoşbəxtəm ki, mənim xalqımın ən əziz arzusu həyata keçir!

“Sənin aşiqin Qaplan”

A l t u n s a ç (şən halda telefona tərəf qaçır). Qaplan? Təbrikə görə sağ ol! Keyfin necədir? (pauza) Çox şadam.

Axşamdır. Salman Saryovun qapısını döyür. Qapıdan qoca qarı görünür.

S a l m a n. Yoldaş Saryov evdədir?

Q a r ı (var qüvvəsi ilə, amma sakit). Yoxdur! Bir oğlan gəldi və onu apardı...

S a l m a n (rəngi ağarmış). Çoxdan?

Q a r ı. Beş-altı saat olar!

Salman sarsıntı keçirir. O, nə isə soruşmaq istəyirmiş kimi fikirli dayanır.
Amma bir qədər tərəddüddən sonra tez dönür və gedir.m

Gecədir. Altunsaç tuneldə işləyir. Salman bir dəqiqəlik fasilədən istifadə edərək:

S a l m a n. Yoldaş Altunsaç, mənim başıma bədbəxtlik gəlib; arvadım ölüm ayağındadır. Mən bu saat stansiyaya, oradan da birinci qatarla Bakıya getməliyəm.

A l t u n s a ç. Bizim tələsik işlərimiz var. Sabaha qədər gözləyərsiniz.

S a l m a n. Axı arvadım... uşaq...

A l t u n s a ç. Yoldaş Salman, arvadınızı yadınıza salmısınız? O axı savadsızdır. Sizi heç kəs başa düşmür və başa düşməyəcək! Məndə mərhəmət axtarmayın, verə bilmərəm.

Salman, Altunsaçın əhval-ruhiyyəsini anlayıb, dönüb gedir. Xəstəxana. Qaplan uzanıb. Altunsaç, Mişa, Avak və Həsən ona baş çəkməyə gəliblər. Gül, şirniyyat gətiriblər. Həsən isə dəsmalın arasında ev piroqu gətirib. Qaplan mütəəssir olmuşdur. O,
hər şeydən əvvəl işlə maraqlanır.

Q a p l a n. Tunel necədir?

A l t u n s a ç. Bu günlərdə nəticəni gözləyirik.

Q a p l a n. Heyif ki, mən olmayacağam.

M i ş a. Eybi yoxdur. Sən sakit uzan. Tez sağal.

A v a k *(nəfəs alaraq).* Qaplan, sən öküzü öldürmüsən, ancaq dərisini çıxaranda bıçağı sındırmısan.

Q a p l a n. Təəssüf.

M i ş a. Eybi yoxdur, Qaplan. Dərini bir yerdə soyarıq.

Altunsaç Qaplanın canlanmış sifətindən gözünü çəkmir. Mişa onun baxışlarını tutur və hər şeyi başa düşür, pauzadan sonra.

M i ş a *(tələşlə).* Həsən, Avak, gedək işə...

Mişa və Həsən ayağa dururlar. Sağollaşırlar. Həsən axırıncı dəfə Altunsaça və Qaplana nəzər salır Mişa və Avaka baxıb bic-bic gülür.

Yerin altında qızğın iş gedir. Tunelin çəkilməsinin qızğın çağıdır. Altunsaç işə rəhbərlik edir. Mişa, Avak və Həsən də buradadırlar.

M i ş a *(işləyə-işləyə).* Uşaqlar, xəbəri eşitmisiniz? Gecə Salmanı tutublar.

H ə s ə n (*sevincək).* Bizdə atalar sözü var: "Suyun lal axanından qorx".

A v a k. Deməli, onu da bizim ağcaqanadlarla döyüşən döyüşçünü saldıqları yerə salıblar.

H ə s ə n *(vurğulu).* Cəhənnəmə gedən özünə yoldaş axtarar.

Hamı gülür. Səs eşidilir.

S ə s. Bizim Həsənin sözlərində nə qədər həqiqət var!"

İş öz gərgin anına yaxınlaşır. Tuneli yaran iki fəhlə qrupun bir-biriləri ilə qarşılaşması gözlənilir. Altunsaçın həyəcanı hiss olunur. Həsən tez-tez ona yanaşır.

H ə s ə n. Telefona çağırırlar...

A l t u n s a ç. Partkom? Hələlik müvəffəqiyyətlə...

Qayıdır. İş qaynayır. Altunsaç, dinləyərək, bir fəhlənin yanından digərinin yanına keçir, ruhlandırır: "Afərin, uşaqlar!"

H ə s ə n. Telefona çağırırlar...

A l t u n s a ç *(narazı halda telefona yaxınlaşır).* Hə, hələ görüşməmişik, gözləyirik...

Yerinə qayıdır. Mişa, gülərək işləyir.

M i ş a. Görünür: tək biz həyəcanlanmırıq.

Yenə də Həsən gəlir. Altunsaç bunu anlayır.

A l t u n s a ç *(əsəbi)*. Dəstəyi götürmə!

Xəstəxana. Qaplan özünü yuxuluğa vurub. Tibb bacısı barmaqlarının ucunda gedir. Qaplan ehtiyatla gözlərini açıb, tibb bacısını izləyir. Onun getdiyinə əmin olub, ayağa qalxır, axsaya-axsaya telefona yaxınlaşır. Telefon cavab vermir. Səsə tibb bacısı gəlir.

T i b b b a c ı s ı. Xəstə, Allah xatirinə! Mən axı Sizdən xahiş etmişdim... xəstə, indi həkim gələcək və dava düşəcək...

Tuneldə işlər daha gərginliklə davam edir. Altunsaç daha həyəcanla qulaq asır. Əks tərəfdən küt səs gəlir. Onun üzü işıq saçır, amma həyəcan onun üzündən tam çəkilməyib:

A l t u n s a ç. Cəld, uşaqlar! (Telefona yaxınlaşır, zəng edir) Daşınma üçün adam göndərin...

Tuneldə fəhlələr işi daha əzmlə davam etdirirlər. Altunsaç işə gərgin nəzarət edir. Tunelin ağzı açılır. Torpaq parçaları Həsənin üstünə tökülür, o, yerə yıxılır. Mişa onu qaldırır, sağ-salamat olduğunu görüb, gülür.

M i ş a. Az qalmışdı ki, Nazlı dul qalsın. (Ətrafdakılar gülür.)

Hər iki qrupun fəhlələri ağzı açılmış torpağın arasından bir-birilərinə əl verirlər. Şənlik əks-sədası.

S ə s l ə r. Yaşasın Altunsaç!, Yaşasın Qaplan!

Altunsaç özündə deyilmiş kimi telefona qaçır. Qaplanı çağırır.

Xəstəxana. Qaplan telefondadır. Tibb bacısı onun yanında vurnuxur:

T i b b b a c ı s ı. Xəstə, Allah xatirinə! Siz məni pis vəziyyətdə qoyursunuz... Baş həkim bilər... Uzanın, xəstə.

Tunel... Altunsaç telefonla danışır:

Q a p l a n. Altnsaç, Altunsaç!

A l t u n s a ç. Tuneli keçdik... Təbrik edirəm! İşləri qurtaran kimi sənin yanına gələcəyəm. (Səs kəsilir.)

Xəstəxana. Qaplan telefonla danışır:

Q a p l a n. Altunsaç, Altunsaç!

Cavab yoxdur. Yalnız fəhlələrin şən səsləri eşidilir. Birdən sakitlik çökür. Həsən sazda Altunsaç haqqımda əfsanə oxuyur.

AZƏRBAYCAN ƏDƏBİYYATINA BİR NƏZƏR
(ixtisarla)

BİR NEÇƏ SÖZ

İki il yarım bundan əqdəm Krım qəzetlərindən birində "Azərbaycan və azərbaycanlılar" ünvanlı uzun felyetonlar[1] nəşr etmişdim. Azərbaycanın tarix, ədəbiyyat, sənət, iqtisad və ictimai həyatına dair müxtəsər məlumatdan ibarət bu məqalələrin hər bir fəslini bu dəfə yeni tədqiqlər ilə genişləndirmək lüzumu hiss olundu. Və bu sayədə "Azərbaycan ədəbiyyatına bir nəzər" vücuda gəldi. "Azərbaycan və azərbaycanlılar"ın on beşdə bir hissəsi olan bu kitabça, heyf ki, biz istədiyimiz qədər tamam çıxmadı – Azərbaycandakı qarışıqlıq bir çox mənbələr istifadəsini bizə mən etdi. İkinci təbimizdə milli ədəbiyyat mühiblərimizin köməyi ilə bu qüsurlarımızı yox edərik, zənnindəyəm.

Ərzi-şükran ilə söyləməliyəm ki, tədqiqatım əsnasında bütün İstanbul kitabxanalarında hüsni-qəbul gördüm. Bilxassə, ədib və fazil möhtərəm Əli Əmiri əfəndi həzrətlərinin millətə bağışladığı qiymətli kitablardan faydalandım. Bu zata yalnız Osmanlı türkləri deyil, azərbaycanlılar da minnətdardırlar: əlli il müddətində topladığı on dörd min kitabın içində nadir əlyazmaları bulunur. Osmanlıların böyük kitabiyyat alimi möhtərəm Bursalı Məhəmməd Tahir bəyi də səmimi məhəbbətlərlə yad etməliyəm. Bu zat uzun sənələr tədqiqatı nəticəsində "Osmanlı müəllifləri" vasitəsi ilə ölmək üzrə olanları diriltmiş və ədəbi can bəxş etmişdir.

Cavan qələmlərə sevə-sevə yol göstərən bu fazil bizə də əlindən gələni əsirgəmədi – geniş məlumatından, kitabxanasından və "Osmanlı müəllifləri"nin qeyri-mətbu hissələrindən qolaylıq ilə istifadə etdik.

Bu sətirləri yazarkən böyük ustadımız Köçərli Firudin bəyin şəhid olunması xəbəri təyyid etmədə idi. Azərbaycan müstəqil fikrini yaradan, öyrədən və sevdirən bu zatın vəfatı vətənimiz və mənəviyyatımız üçün nə böyük fəlakət oldu.

[1] "Millət", iyul, sənə 1919, №№111, 113, 114, 115, 116.

Otuz ildən bəri qələmiylə aləmə qüvveyi-fikrimizi bildirən, cavanlarımıza yol göstərən, səbat və mətanət tələqin edən Firudin bəy bu dəfə də mübarək qaniylə tarixin silinməz səhifəsinə "Müstəqil Azərbaycan" deyə son sözünü yazdı... Allah rəhmət eləsin!

Bu ağır dəqiqələrdə yeganə təskinliyimiz budur ki, Azərbaycanın yeni nəsilləri bu müqəddəsat qarşısından keçərkən diz çökərək Vətən ülviyyətini və onun yolunda ölmək ləzzətini duyub və öyrənəcəklər.

İstanbul, 26 şəbat 1921.
Yusif Vəzirov.

BİRİNCİ HİSSƏ

MÜQƏDDİMƏ

Hər ölkənin ədəbiyyatı o ölkənin tarixi qədər qədim olmalıdır.
Lakin ölkədə yaşayan millətin dərəceyi-kamalı bu həqiqəti bir az dəyişdirir. Bəzən cismani qüvvətini aləmə göstərə bilən millət eyni zamanda da mənəvi məhsullarını əməli bir surətdə tarix səhnəsinə vəz edə bilmir. Mədəni millətlər, biləks, özlərini ətraflı olaraq göstərə bilirlər. Azərbaycan qədim zamandan bəri mədəni bir ölkə kimi tanınmışdır.

Təbiidir ki, Azərbaycanın yazılı ədəbiyyatının böyük və canlı bir hissəsi fars dilində idi. Şirvanlı Xaqani və Gəncəvi Nizami bu ədəbiyyatın müməssilləridirlər.

Bir çox müəlliflərimiz fars ilə bərabər, türkcə də yazıblar:

Nəsimi, Xətayi, Füzuli, Təbrizli Saib, Şah Təhmasib, Vəfa, Məxfi və sairələri.

İndi bizim ilə bərabər ədəbiyyatımızın mühiblərini maraqlandıran bir məsələ var: əcaba, əsil Azəri ədəbiyyatının başlanğıcını kimdən və hankı zamandan saymalı?

Azərbaycan ədəbiyyatı müdəqqiqi Firudin bəy Köçərli rusca yazdığı bir risalədə ədəbi tariximizi on səkkizinci əsrin ortasında yaşayan Molla Pənah Vaqifdən başlayır. Firudin bəy, Vaqifi Azərbaycan ədəbiyyatının banisi iddia edir.

Rus müstəşriqi professor Krımski ədəbiyyatımızın ayrıca olaraq

inkişaf etdiyini qeyd edir və Vaqifdən əvvəl Xətayi, Füzuli, Məsihi, Qövsi Təbrizi kimi şairlərin də Azərbaycan ədəbiyyatına məxsus olduğunu söyləyir.

"İslam tarixi" müəllifi Müller Qafqaziyada böyük şairlər yetişdiyini yazır və onlardan yalnız Ənvəri, Xaqani və Nizaminin adlarını yad edir.

Professor Kize, Mirzə Kazım bəy tərəfindən 1851-ci ildə Peterburqda təb etdirilən mənsur "Dərbəndnamə" ilə Füzulinin mənzumələrini Azəri ədəbiyyatının ən qədim məhsulu iddia etməkdədir.

Türk ədəbiyyatı alimlərindən Köprülüzadə Məhəmməd Fuad isə daha da qədim məhsullar arayır. Köprülüzadəcə, ilk Azəri şairi olmaq üzrə tanınan böyük mütəsəvvif Şeyx Izzəddin Pur Həsən Əsfərayidir

ki, səkkizinci əsri-hiçrin ilk illərində yaşayıb, Dövlətşah bin Əlaəddövlə Bəxtşah əl-Qazi əl-Səmərqəndi bu zatın türkcə və farsca şeirlər yazdığını, divanının Azərbaycan və Rumda məşhur olduğunu və türkcədə "Həsənoğlu", farsidə "Pur Həsən" təxəllüs etdiyini bildirir.

Həsənoğludan sonra ən qədim şair Qazi Bürhanəddindir. Səkkizinci (miladi XIV) əsrin sonlarında yaşayan bu şair İran üsullu qəzəllər və rübailərdən başqa türkə məxsus "Tüyüğ"lar vücuda gətiribdir.

Könüldə gizli bolsa bir tasədir,
Ömr ilə dəxi həmkasədir.

Ədəbiyyatımızın ən qədim məhsullarını meydana çıxarmaq yolunda hümmətli təşəbbüslər müşahidə olunmuşsa da, imdilik əməli nəticələr görünməyir. Deyə bilərik ki, ədəbiyyatımızın XII əsr hicridən əvvəli toxunulmamış durur. O dövrə dair bir çox adlar eşidiriksə də, onlar haqqında ətraflı məlumatımız yoxdur.

XII əsrə (miladi XVIII) məxsus Molla Pənah Vaqif dövründən ədəbiyyatımız tədqiq olunmağa başlayır. 1867 sənəsində Adolf Berje tərəfindən Leypsiq şəhərində bəzi Azərbaycan şairlərinin şeirlərini came "bir kitab təb" olunmuşdur.

Təqribən eyni zamanda Fazil Mirzə Şəfinin şeirlərinin məcmuəsi alman dilinə tərcümə olunaraq, ədib Bodenşted ehtimamilə basılmışdır.

Sonralar azərbaycanlılar da bu yolda çalışmağa başlayırlar. Məhəmməd ağa Müctəhidzadə Qarabağ şairlərinin əsərlərini toplayıb rəsmləri və qısa tərcümeyi-hallariylə çap etdirir.

Eyni yolda çalışmaq məhsulu olaraq, Nəvvab Mir Möhsün bin Hacı Seyid Əhməd Qarabaqi də "Təzkireyi-Nəvvab"ı nəşr edir.

"Tazə həyat" müdiri Haşım bəy Vəzirov Molla Panah Vaqifin şeirlərinin məcmuəsini vücuda gətirmişdir.

Lakin müdəqqiqlərin nəzərini özünə cəlb edən ancaq Qarabağ şairləri olublar. Berjenin də kitabı buna aiddir.

Bütün Azərbaycan ədəbiyyatını ətraflı tədqiq edən təkcə bir ad varsa, o da Firudin bəy Köçərlidir ki, üç cild "Azərbaycan ədəbiyyatı tarixi" meydana gətirib.

Məlumatımıza görə "Tarix"in birinci cildi xalq ədəbiyyatına, ikinci – Vaqifdən başlayan yazılı ədəbiyyata, üçüncü – yeni ədəbiyyata həsr olunub.

ŞİFAHİ VƏ YAZILI ƏDƏBİYYATIMIZ

Hər bir millətin ədəbiyyatı, məsələn, bizim dəxi ədəbiyyatımız iki qismə ayrılır: şifahi və yazılı. Azərbaycan şifahi ədəbiyyatı türk xalqının qüvveyi-fikriyyə və zehniyyəsi məhsuludur. Yazılı əsərlər isə son zamana qədər fars təsiri altında olmuş.

Şifahi ədəbiyyatımız türk milləti qədər qədimdir. Yazılı ədəbiyyatımız başqa bir yolla inkişaf edib.

Ədəbiyyat getdikcə saraylardan; əşraf və əyan məclislərindən xalqa doğru enməyə başlayıb. Və uzun müddət fars bürokratizmi ilə türk demokratizmi mübarizə etmiş və axırda türk xəlqçiliyi qələbə çalmışdır.

İŞTƏ ƏDƏBİYYATIMIZIN GETDİYİ YOL

Bu yolları tədqiq etmək üçün Azərbaycana dair yazılanlara müraciət etməliyik.

Osmanlı coğrafiyunu Katib Çələbi Azərbaycanı təsvir edərkən riçallarına dair yazır: "Bu iqlimə mənsub olan müşahirdən xaqani-kəbir Mənuçöhrə mənsub şair məşhur olub, beş yüz səksən ikidə vəfat etmişdir. "Fələki" şair; və Mövlana Kəmaləddin Məsud ki, kəlam və məntiq və həkimatdə fəridi-əsr idi, doqquz yüz beşdə vəfat etmişdir; Mövlana Nasirəddin ki, oğlu Ruma gəlmişdir; və Mövlana Rüknəddin ki, tibbdə yəd-tuli sahibi idi. Və Əbülüla Gənci, Şirvanda şairi-məşhurdur. Və fiqhayi-şafiyədən təbəqat sahiba Tiflisidir; və "Qanuniədəb" sahibi dəxi ol bələdəyə nisbət olunur".

Fələki, Əbülüla və sairə Azərbaycana mənsub edirlərsə də, bunlara dair lazım dərəcədə məlumatımız yoxdur. Məhəmməd Mömin Fələki Xaqani ilə müasirdir. Ikisi də Gəncəli Əbülülanın şagirdi olublar və eyni zamanda Şirvan şahı Mənuçöhrün məddah şairlərindəndirlər.

Osmanlı səyyahı Övliya Çələbi on birinci əsr hicrinin ortasında Təbrizi gəzmiş və orada 78 ədəd divan sahibi "fəsih-ül-lisan", bədüül-bəyan, əmləhüş-şüəra ərbabi-maarifi olduğunu xəbər verir. Zavri, Şabi, Saibi, Ədhəmi Cakəri, Cabi, Razi, divan Sahibi Seydi və Əhdi... kimi adlar sadalayır.

Övliya Çələbinin rəvayətləri mübaliğəli olsa belə, Azərbaycan paytaxtı Orta Şərqin yeganə türk mərkəzi olaraq, şair və ərbabi-elm adamları özünə cəlb edə bilirdi. Bu hal təbiidir. Lakin imdilik Övliya Çələbinin xəbərlərini təhqiq etməyə əlimizdə kafi məlumatımız yoxdur. Gələcəkdə Şərq və qərbin kitabxana və muzeyləri tədqiq olunarsa, zənn edirik ki, bir çox məsələlər aydınlaşar.

Hacı Kamal "Cameün-Nəzair"ndə iki yüz altmış altı "kamil" şairlərin əsərlərinin nümunələrini toplayıb, ləhcə etibarilə bu şairlərin bir çoxları Azərbaycana mənsubdurlar. Lakin bir çoxlarının tərcümeyihallarına dair əlimizdə heç bir vəsiqə yoxdur.

Gilanlı Sadiqinin təzkirəsi bir az bizə izahat verir: Qarapa oğlu Şahqulu bəy, Təbrizli həkim Bədik, Pirqulu bəy, Tənhayi bəy, Mövlana Kəlbəli Təbrizi kimi bir çox şairlərin qısa tərcümeyi-hallarını və şeirlərinin nümunələrini göstərir.

ŞİFAHİ ƏDƏBİYYATIMIZ

Azərbaycan türkləri zəngin bir xalq ədəbiyyatına malikdirlər. Əvvəldən bəri, nəsildən-nəslə keçib gələn bu ədəbiyyat hal-hazırda bu parçalara ayrıla bilir: Nağıl; Atalar sözləri (məsəl); Bayatı; Ağı; Vəsfi hal; Sayaçı sözləri; Düzgü; Tapmaca (bilməcə) və sairə.

Xalq ədəbiyyatı çoxdan bəri mühərrirlərimizi maraqlandırır. Rus pedaqoqlarını təqlidən, məktəb kitablarında şifahi ədəbiyyat parçalarından həmişə istifadə olunub. Bütün mühərrirlərimiz yazmağa başlamadan əvvəl xalq ədəbiyyatını toplayıb, öyrənirlər. Heyfa ki, ciddi bir məcmuə vücuda gətirilməyib və toplananlar da təb olunmayıb. Halbuki, şifahi ədəbiyyatımızda şayani-tədqiq bir çox nöqtələr var. Məsələn, bir nağıl ilə xalqın bütün fəlsəfeyi-fikriyyəsi ifadə olunur. Hər nağıl həqqin nahəqqə qələbə çalmasının parlaq bir dastanıdır. Millətin əhvali-ruhiyyəsinə vaqif olmaq üçün bir nağılın fəlsəfəsiylə aşina olmalıdır.

Həkaza, "Atalar sözləri" – millətin uzun təcrübələrinin məhsulu, qüvveyi-fikriyyəsinin münəkisi, babaların övladlara nəsihətidir.

Qələm yazanı qılınc poza bilməz.
Halva, halva deməklə ağız şirin olmaz.
Özgə atına minən tez düşər.
Ayı meşədən küsüb, meşənin xəbəri yox.
Yaman arvad, yaman qonşu, yaman at,
Birini boşla, birindən köç, birin sat.
İt hürər, karvan keçər.
Bəy verən atın dişinə baxmazlar.

BAYATI

Bayatı dörd misradan ibarət xalq şeridir ki, əksərən ilk iki surətizahirdə məzmunca son misra ilə qeyri-mərbut kimi görünür:

Ay doğdu qəlbiləndi,
Doğduqca qəlbiləndi,
Quran gətir and içim,
Bu qəlb o qəlb iləndi.

Bağça məndə, bar məndə,
Heyva məndə, nar məndə,
Sinə əttar dükanı,
Hər nə desən, var məndə.

AĞI

Azərbaycanda vəfat vücudunda arvadlar vəfatın yeddisinə qədər hər gün və bədə qırxa qədər həftədə bir dəfə pəncşənbə günləri toplanıb ağlarlar. Böylə məclisləri "Ağıçı"lar idarə edərlər. Ağıçılar ağlatmaq mütəxəssisi olaraq ağılariylə qonaqları ağladarlar.

Ağı əsasən bayatı şəklindədir. Lakin məzmunu kədəramizdir:

Bu dağlar, ulu dağlar,
Çeşməli, sulu dağlar.
Burda bir qərib ölmüş,
Göy kişnər, bulud ağlar.

Ağacda xəzəl ağlar,
Dibində gözəl ağlar,
Belə oğlu ölən ana,
Sərgərdan gəzər ağlar.

Vəfat edən cavan oğlan olursa, ağının müqəddiməsi bu surətlə başlanır.

"Açılmayan tüfəngin, sivrilməyən xəncərin öz canına qurban. Ay kimi doğdun, gün kimi batdın, minəndə at bağrı yardın, düşəndə yer bağrı yardın, saydığına salam verdin, saymadığına yan verdin, düşməninə dirsək göstərdin, qəniminə qan uddurdun.

Altıyın bədöv atına, çiyniyin süzən tüfənginə, türkiyin dolu xurcununa, ağzıyın kəsərli sözünə anan qurban".

"VƏSFİ – HAL"

Qışın son ayı bizim xalq həyatında maraqlı aylardan biridir. Atəşpərəst zamanımızdan qalma bir çox adətlər bu ayda icra olunur. Hər çərşənbə axşamı tonqal qalayıb, üzərindən "Ağırlığım, uğurluğum tö-

külsün" deyə hoppanırlar. "Cahar-şənbə deşərlər" – bir əldə bir tas su, o birində yeddi açar qapıda durub, küçədən keçənlərin ilk sözlərini dinlərlər və sonra təhlil ilə fal xeyir və ya şər ədd edərlər.

Fala baxmanın ən maraqlısı "Vəsfi – hal"dır. Bir badya su üzərinə yaylıq salınar. Falları açılmaq istəyənlər badyaya bir üzük, yaxud başqa "nişanələr" atarlar. Badyanın başında oturan xanım, badyadan çıxardığı hər bir nişanəyə bir bayatı söylər.

"Vəsfi-hal" bayatısı da məzmunca başqadır:

Göydə bir quzu gördüm,
Tükü qırmızı gördüm,
Açdılar cənnət qapısın,
Sevdiyim qızı gördüm.

Ağ at gəlir enişdən,
Sinəbəndi gümüşdən,
Bizə də nəsib olsun,
Heybədəki yemişdən.

SAYAÇI SÖZLƏRİ

Tərəkəmə xalqı arasında heyvanat qisminə məxsusdur ki, toplanıb tədqiq olunmayıb. Firudin bəy Köçərlinin "Balalara hədiyyə" ünvanlı kitabından nümunə olaraq bir parça göstəririk:

Salam əleyk say bəylər,
Bir-birindən yey bəylər,
Saya gəldi gördünüz,
Salam verdi aldınız,
Alnı təpəl qoç quzu,
Sayaçıya verdiniz,
Siz sayadan qorxmusunuz,
Səfa yurda qonmusunuz,
Ac getsin avanınız,
Tox gəlsin çobanınız...

DÜZGÜ

Şifahi ədəbiyyatın bu qismi çocuqlara məxsusdur ki, müəyyən və məntiqi bir məzmunda xalidir:

Beşdi-beşdi, ha beşdi,
Ağacdan alma düşdi,
Almanın yanı zədə,
Zədəni yeməz gədə.
Çoban çöldə gəzirdi,
Dararların dizirdi.
Çoban qoyuna gedər,
Köpəyi adam didər,
Qabağında beş keçi,
Hanı bunun əgərçi.
Ərkəc qazanda qaynar
Qənbər bucaqda oynar,
Qənbər getdi oduna,
Qarğı batdı buduna...

TAPMACA

Tapmaca – bilimçələr də çocuqlara aiddir:

O yanı çəpər, bu yanı çəpər,
İçində atlı çapar. *(Nehrə)*

Qumu qazdım qum çıxdı,
Qumdan minarə çıxdı,
Axşam olan oğlan
Səhər bazara çıxdı. *(Gecə və Gündüz)*

Bir bölük atlar,
Çəməndə otlar,
Vədəsi gələndə,
Dimdiyi çatlar. *(Pambıq)*

Ağ çöl qara toxum,
Əlim ilə əkərəm,
Dilim ilə biçərəm. *(Kağız və yazı).*

YAZILI ƏDƏBİYYATIMIZ

Yazılı ədəbiyyatımızın təqribən altı əsrlik tarixi var. Azərbaycan ədəbiyyatının baniliyi, əvvəlcə söylədiyimiz vəchlə qüvvət və qüdrət qələmiyyəsiylə məşhur Nəsimiyə müyəssər olmuş. Nəsimi ədəbi bir dövrün başçısıdır. Ədəbiyyatımız tarixini imdilik səkkiz dövrə bölə bilirik.

NƏSİMİ

Seyyid İmadəddin Nəsiminin Bağdad civarından "Nəsimi" nahiyəsindən olduğunu bir çox təzkirələr söyləyirlər. Sultan Murad xan Əvvəl zamanında diyari-Rumə səyahət etdiyini nəzəri-etibara aldıqda, Nəsimi hicrətin səkkizinci əsri ortalarında yaşadığı meydana çıxır. Deməli, Azərbaycanda və İraqi-ərəbdə Elxaniyan hökmranlığı zamanına təsadüf edir.

Milliyyət etibarilə Nəsiminin türki olduğunu rus müstəşriqlərindən Smirnov söyləyir.

Etiqadatına gəlincə, Nəsimi "hürufi" təriqətinə mənsub idi. Bu təriqətin banisi Fəzlullah Hürufidir ki, nəzəriyyələrini "Cavidannamə" ünvanlı kitabçasında nəşr eyləyir.

Nəsimi səmimi bir surətdə Fəzlullaha iradət yetirmişdi və onu "Sahibi-zaman" ədd eyləyir. Onun üçün Nəsiminin fəlsəfəsi Fəzlullahın fəlsəfəsi deməkdir. Istər türk, istər farsi divanlarında Nəsimi bu fikirlərdən ayrılmır:

...Səni-şahə qılur sücud əşya,
Sənin ilə budur vücud əşya,
Məcmueyi-kainat sənsən,
Sər-dəftəri-mümkünat sənsən.
Özgədir iki cahanə sərvər,
Sənsən otuz iki nöqtə mədhər.
Can mülkünün ərməğanı sənsən,
Təndir bu cahan, canı sənsən.
Demədimi sənin üçün ol pak,
"Lövlak ləmma, xüliqət il-əflak".

Nəsiminin şeirlərini ətraflı anlamaq üçün "Cavidannamə"yə müraciət etməlidir. Bu kitabın fəlsəfəsini başlıca bəyan edən bu fikirlərdir:

"Padşahi-ləl-yəzəl və la-yəzalın kəlmeyi-qədimi olduğu cəhətə məcmui – əşyada zahirdir".

"Cəmi əşya kəlmeyi-"kün"dən mövcuddur və ismi-eyni-müsəmmadır. Bu vəchlə insan eyni "hər kişi ki, kəndi xilqətinə yol bulur və nəfsini bilsə rəbbin bilir; Rəbbin bilsə məqsudi hasil olur".

"Hər kim aşiq olsa və eşqini gizləsə və pəhrizgar olsa, eşq içində ölsə, şəhid olur..."

Nəsimi diyari-Rumə səyahəti əsnasında hürufiliyi açıqcasına nəşr eyləyirdi. Hələb şəhərində bulunarkən cəzbi-allahiyə məğlub olur:

Eşq puşidə cənd başəm cənd,
Aşiqəm, aşiqəm bebanki-bülənd.

Deyə əhli-zahirdən gizlənməsi vacib sirləri söylədiyi üçün şəriət alimləri qətlinə fitva verdilər. Haləti cəzbidə demişdir:

Dəryayi-mühit cuşə gəldi,
Kövn ilə məkan xüruşə gəldi,
Sirri-əzəl oldu aşikara,
Aşiq necə eyləsin müdara.

Nəsimi ən böyük şairlərimizdən biridir. Əsərləriylə ədəbi məktəb təşkil eyləyir. Sonra gələn şairlərimizin çoxları Nəsiminin təhti-təsirində olmuşlar. Xətayi də bu cümlədəndir. Nümunə olaraq bir neçə parçalarını göstəririk.

Könlümün viranəsində gənci-pünhan bulmuşam,
Olmuşam şol mahə qurban, canü canan bulmuşam.

Küfrüm ol mahin qara zülfidir, imanın üzü,
Ey bilən imanü-küfrü, küfrə iman bulmuşam.

Xızr əgər Zülmatə vardı, istədi abi-həyat,
Mən dodağın çeşməsində abi-heyvan bulmuşam.

Dişlərin əksi, nigara, nəqş olalı, könlümə
Közlərim bəhrində hər dəm dürrü mərcan bulmuşam.

Küfr əgər iman deyilsə bəs niçün düşmüş ki, mən
Küfri-zülfin həlqəsində nuri-iman bulmuşam.

Eşq dərdindən xaçan könlüm usanə, çünki mən,
Dilbərin dərdində hər dəm bunca dərman bulmuşam.

Rövzeyi-rizvanə dəvət qılma, ey zahid məni,
Çün mən ol dargahdan səhni-gülüstan bulmuşam.

Ey Nəsimi, canımı şol qaşə qurban eylədim,
Gör nə göyçək şol hilali yayə qurban bulmuşam.

XƏTAYİ

Xatayi İranda bir müddət hökumət sürən Səfəvi sülaləsinin bani və birinci padşahı Şah Ismayılın təxəllüsidir. Xatayinin ulu babası ərdəbilli Şeyx Səfiəddin Əbu Ishaqdır. Onun oğlu Şeyx Musa, onun oğlu Şeyx Xacə Əli, onun oğlu Şeyx Ibrahim, onun da oğlu Şeyx Cüneyddir.

Bu şeyxlər Ərdəbildə zəvayənişin olub, böyük hörmətə malik idilər və çox da müridləri var idi. Şeyx Cüneydin müridləri ol qədər artmışdı ki, Qaraqoyunlu Cahanşah əndişəyə düşüb, Şeyx Cüneydi məmləkətdən sürgün etdi. Şeyx Cüneyd Diyarbəkrə gedib, ora hökmdarı Uzun Həsən tərəfindən hüsni-qəbul gördü və bacısı Xədicəbəyim Ağa ilə evləndi. Bu izdivacdan Şeyx Heydər vücuda gəldi.

Cahanşah, Uzun Həsən tərəfindən qətl olundu və Uzun Həsən Azərbaycan təxtinə cülus etdikdə Şeyx Cüneyd təkrar Ərdəbilə qayıtdı. Bir müddət sonra Şeyx Cüneyd başına qoşun yığıb "Qəzayi-Gürcüstan" icrasiylə məşğul ikən Şirvav hökmdarı Sultan Xəlil əlində öldü.

Oğlu Şeyx Heydər Uzun Həsənin qızı Aləmşahı aldı. Şeyx Heydər yanına çox adamlar cəm edib, xüruc etdi.

Yəqub qoşun göndərib sərəskəri Əmir Süleyman və Şirvan şahı Fərrux Yəssar vasitələrilə Şeyx Heydəri Tabasaran adlı yerdə öldürtdü.

Xətayi Şeyx Heydərin Aləmşahdan 892-də (miladi 1487) təvəllüd edən oğlu idi. 898-də (1492) qardaşı Sultan Əli Rüstəm Mirzə tərəfindən qətl olundu, Xətayi, Gilana qaçmışdı. Bir neçə il keçdi. Xətayi Gilandan çıxdı və atasının müridlərini cəm eyləyib 906-da (1500) Şirvana hücum etdi və Fərrux Yassarı öldürmək ilə atasının qisasını aldı. 907-də (1501) Şərur adlı məhəldə Əlvənd Mirzəni basıb, Təbriz taxtına oturdu. Bir neçə ilin müddətində Şah Ismayıl Xətayi məmləkətini o qədər genişləndirdi ki, Xorasandan Diyarbəkrə və Bağdaddan Dərbəndə qədər hökmü yeridi.

Şah İsmayılın nüfuzu Anadoluda da artmağa başladı. Osmanlı sultanı Yavuz Səlim xan məmləkətinin təhlükəsini duyaraq Şah İsmayıla Müharibə açdı və Çaldıran adlı yerdə 920 (1514) tarixində osmanlılar Şah İsmayıla qələbə çaldılar. Bu davada şah iki yerdən yaralanaraq özünü atdan yerə atdı və osmanlı əsgərindən biri ona hücum etdikdə şahın mühiblərindən Mirzə Sultan Əli ismində birisi özünü əsgərin qarşısına verdi və əsir oldu.

Xızr adlı bir ayrısı atını Şah Ismayıla verməklə onu ölümdən qurtardı.

Şeyx İsmayıl Xətayi 930 (1524) sənəsində Sərabda vəfat etdi və nəşi Ərdəbilə gətirilib, atasının yanında dəfn olundu.

38 yaşında vəfat edən Şah Ismayıl 24 illik səltənətində böyük cürət, mətanət və məmləkəti istedad göstərib. Böyük hökmdar Şah Ismayıl ilə böyük şair Xətayi arasında fərq azdır. Eyni mətanət və qüvvətli iman da şerini başdan-başa doldurur.

Biz əzəldən ta əbəd meydanə gəlmişlərdəniz,
Şahi-mərdan eşqinə mərdanə gəlmişlərdəniz.

Yazmağa həqqin kəlamüllahi-natiq şərhini,
Bu bəyanın elminə Quranə gəlmişlərdəniz.

Qeybi-mütləqdən təmaşayi-rüxi-ziba içün,
Bu şəhadət mülkinə seyranə gəlmişlərdəniz.

Kainatı surəti-rəhmanə təbdil eyləriz,
Ruhi-qüdsin ruhiyiz, insanə gəlmişlərdəniz.

Bir müənbər türrənin küfrünə “amənna” deyib,
Həqqə təslim olmuşuz, imanə gəlmişlərdəniz.

Saqiyi-baqi əlindən məst olub içməkdəyiz,
Qətreyi-məst olmuşuz, məstanə gəlmişlərdəniz.

Ey Xətayi, eydi-əkbərdir cəmali dilbərin.
Biz bu eydi-əkbərə qurbanə gəlmişlərdəniz.

* * *

Ey deyən kim, aqiləm, divanə xoş gəlmək gərək,
Kim qılır lafi-hünər, meydanə xoş gəlmək gərək.

Çün Əzizi-Misri-eşq olmaq dilərsən, ey könül,
Yusifi-Misri kimi zindanə xoş gəlmək gərək.

Aşiqəm dersən könül, eşq atəşindən dönmə kim,
Şəm oduna yanmağa pərvanə xoş gəlmək gərək.

Zahida, vurd eylə daim fikri, zikri ruyi-dust,
Əhli-İslamam deyək imanə xoş gəlmək gərək.

Ey könül, laf etmə kim, məni də laf edən kişi,
Mərifət meydanına mərdanə xoş gəlmək gərək.

Aşiqəm dersən könül, şərti budur aşiqlərin,
Hər nə kim cananə qılsa canə xoş gəlmək gərək.

Ey Xətayi, şerini ol yar istər dinləyə,
Dilrübalar guşinə dürdanə xoş gəlmək gərək.

Xətayinin şeirlərini üç qismə ayırmaq olar: dini, fəlsəfi və eşqə dair. Bizcə ən əhəmiyyətli şeirlər də fəlsəfəyə dairdir. Bu şeirlərdə Xətayi böyük, qəvi və mətin şəxsiyyətdən bəhs edir.

Qəvi şəxsiyyəti tərif etmək üçün bu misralara müraciət etməlidir:

Cümlə əşyadə zühur edən kəlamımdır mənim,
Xələti-ərzi-səma sirri qiyamımdır mənim.
Vaqif oldum çün zəminü asimanın gəncinə,
Cismimin sultanıyam, aləm qulamımdır mənim.

Qəvi şəxsiyyət əzəlidir. Varlıq eylə var idi, onun sirlərinə vaqif idi və bütün kainatı vələlərin şahididir. Həqq ilə şəxsiyyət dostdurlar, ya-

xındırlar. İki qüvvə ümumi sirrə malikdir. Şəxsiyyəti yaradan həqdir, lakin həqdən şəxsiyyəti vücuda gətirən səbəb inkardır:

Yer yox ikən, göy yox ikən, ta əzəldən var idim,
Gövhərin yekdanəsindən iləri pərgar idim.

Göhəri ab eylədim, tutdu cahanı sərbəsər,
İnsi, cinni, ərşi, kürşi yarədən səttar idim.

Girdim Adəm donuna, sirrimi kimsə bilmədi,
Mən ol Beytullah içində ta əzəldən var idim.

On səkkiz min aləmi gəzmiş idim cərcis ilə,
Dərya altındakı sacı qızdıran ənvar idim.

Ol zəmanda mən onun sirrin bilirdim, ol mənim,
Onun üçün həqqilə həmsir idim, əsrar idim.

Ey Xətayi, həqqi bilib tanımışam bigüman,
Onun üçün ox yaratdı, mən ona inkar idim.

FÜZULİ

Məhəmməd Süleyman oğlu Füzuli miladın on beşinci əsrində İraqi Ərəbdə dünyaya gəlib. Bəzi təzkirənəvislər Füzulinin Bağdad həvaləsindən Hilə şəhərindən olduğunu iddia edirlər. Kərbəladan olduğunun da ehtimalı var. Çünki "Divan"nın müqəddiməsində Füzuli buna işarə eyləyir: "Lillahü həmd valmənə ki, xaki-Kərbəla sair məmaliki- kəbirdən əşrəf olduğu məlumdur və rütbeyi-şerimi hər yerdə bələnd edən həqiqətdə bu məfhumdur".

Gilanlı Sadiqi Füzulinin Bayat olduğunu və İbrahim xan xidmətində Bağdada gəldiyini təzkirəsində qeyd edir.

Füzulinin şerə meyli uşaq vaxtından büruzə verilib. O zamanın münəvvər cavanları arasında "həmişə əşari-aşiqanədən qeyri nəsnə oxunmazdı və mütaliə etdikləri övraqda cigərsüz qəzəllərdən qeyri bir xətt bulunmazdı. Böylə bir mühitdə Füzuli gözəl təbinə meydan verib, sərfi-Azərbaycanca yazılmış şeirlərilə şöhrət tapdı.

Füzuli şeri təqdir və təqdis edən bir şair olduğu üçün təhsilinin inkişafına qeyrət etdi və zamanına məxsus bəzi fənləri öyrəndi; Füzulinin qənaəti bu idi ki, elmsiz şeir əsası yox, divar kimidir.

Hicrin 914 tarixində Şah Ismayıl Bağdadı aldıqda cavan Füzuli şaha "Bəngü badə" ünvanlı münazirəsini təqdim etmişdi. Bu əsərin müqəddiməsində şair Azərbaycan hökmdarını mədh edərək sonunda deyir:

Məclis əfruzi-bəzmgah Xəlil,
Cəmi-əyyami – Şah Ismayıl,
Andan asudədir qənivü gəda,
Xüldullahi – mülkə əbəda!

Qanuni Sultan Süleyman xan İraqı fəth etdikdə sədr-əzəm İbrahim paşa vasitəsilə Füzuli Osmanlı padşahının dərgahına şeirlər təqdim edib və lütflərə nail olub.

Füzuli əsərlərini türk, fars və ərəb dillərində yazıb. Türkcə yazdıqları: qəzəl və qəsidə "Divan"ı, "Şah və Gəda", "Leyli və Məcnun", "Bəngü Badə" rövzə. Farsca: qəzəl və qəsidə "Divan"ı, "Rindü Zahid", "Səhhətü mərəz". Ərəbcə qəzəl və qəsidələr yazıb. Füzulinin təqribən otuz min şeri var.

Türkcə yazdıqlarının içində ən gözəl parçalar Azərbaycan ləhcəsindədir. Lakin Bağdadın Osmanlı dövlətinə ilhaqı Füzulinin dilində təğyirə səbəb olub: o dövrdə yazılan əsərlərdə Füzuli yeni oxucularını nəzəri-etibarə alıb. "Leyli və Məcnun" bu təsirdə yazılıb.

Azərbaycanda Füzuli ən məruf şairlərdəndir. Cavan şairlər Füzulini təqlidən şerə başladılar. Xanəndələr onun göftəsini söylərlər.

"Leyli və Məcnun" opera şəklinə qoyuldu... Füzuli ən böyük şairlərimizdən biridir. Avropa müdəqqiqi Gibb bütün türk ədəbiyyatında Füzulidən böyük şair olmadığını iddia edir.

Vəfatı 980 tarixindədir. Qəbri hələ də ziyarətgahdır. Nümunə olaraq Füzulinin "Divan"ından bir neçə parça göstəririk:

Məndə Məcnundan füzun aşiqlik istedadı var,
Aşiqi-sadiq mənəm, Məcnunun ancaq adı var.

Nola qan tökməkdə mahir olsa çeşmim mərdümü,
Nütfeyi-qabildürür, ğəmzən kimi ustadı var.

Qıl təfaxür kim, sənin həm var mən tək aşiqin,
Leylinin Məcnunu, Şirinin əgər Fərhadı var.

Əhli-təmkinəm, məni bənzətmə, ey gül, bülbülə,
Dərdə yox səbri onun, hər ləhzə min fəryadı var.

Öylə bədhaləm ki, əhvalım görəndə şad olur,
Hər kimin kim, dövr cövründən dili-naşadı var.

Gəzmə, ey könlüm quşu, ğafil fəzayi-eşqdə
Kim, bu səhranın güzərgəhlər çox səyyadı var.

Ey Füzuli, eşq mənin qılma nasehdən qəbul,
Əql tədbiridir ol, sanma ki, bir bünyadı var.

İKİNCİ HİSSƏ

Füzuli ilə Vaqif arasında iki əsr var. Heyfa ki, bugünki məlumatımıza istinadən iki şair arasında yetişən müəlliflərimizi təyin edə bilmirik. Onun üçün Füzulidən sonra Vaqif dövrünə keçmək məcburiyyətindəyik.

Molla Pənah Vaqif əslən qazaxlı olub, Qarabağda yaşarmış, hicrətin 1176 tarixində Qarabağ hökmdarı Ibrahimxəlil xan Vaqifə sarayında eşikağası mənsəbi əta eləyib. O vaxtdan Vaqif, xanın ən yaxın adamlarından olub, əql və hüsn müamiləsi sayəsində xalq arasında da böyük şöhrət qazanıb. Vaqifin əfkari-ümumiyyədə məşğul etdiyi mövqeyini yaxşıca təsəvvür etmək üçün məruf bir məsəli xatırlamalıdır: o da budur: "Hər oxuyan Molla Pənah olmaz".

1212 tarixi hicridə (1797) Ağa Məhəmməd şah Qacar ikinci dəfə olaraq Qarabağa hücum etdi. Hökmdar Ibrahim xan Carü Balakənə qaçdı. Iran şahı Qarabağ paytaxtı Şuşanı zəbt etdikdə Vaqifi, oğlu Əli Ağanı və Türkiyəyə səfir təyin olunan Mirzəli Məhəmməd ağanı dustaq etdirdi. Həbsdəkilərin öldürülməsinə əmr verilmişdi. Mirzəli Məhəmməd ağa qətl olundu. Növbət Vaqif ilə oğluna gəlmədən əvvəl Ağa Məhəmməd şah öldürüldü. Ölümdən qurtaran Vaqif, dostu Vidadiyə belə yazır:

Ey Vidadi, gərdişi-dövrani gəcrəftarə bax!
Ruzigarə qıl tamaşa, karə bax, kirdarə bax!

Əhli-zülmi neçə bərbad eylədi bir ləhzədə,
Hökmi-adilin padişahi-qadirü qəhharə bax!

Taci-zərdən ta ki, ayrıldı dimaği-pürqürur,
Payimal oldu təpiklərdə, səri-sərdarə bax!

Ağa Məhəmməd şahın qətlindən sonra hökuməti idarə edən "Batman Qılınc" Məhəmməd bəy bir ədavəti səbəbinə Vaqifi oğlu ilə bərabər öldürtdü. Vaqifin qəbri Şuşa şəhərində "Cıdır düzü" adlanan yerdədir. Şəhid qəbri olduğu üçün xalq təqdis edər və arvadlar üstündə çillə kəsərlər.

Vaqifin şeirlərində Vaqifə məxsus bir sadəlik, gözəllik və zərafət var ki, sonra gələn şairlərimizə bunlar müyəssər olmadılar. Vaqif gözəllik şairidir. Bütün ilhamı da buna həsr olunubdur.

Ey Kəbəm, Kərbalam, Məkkəm, Mədinəm,
Hər zaman kuyində ziyarətimdir.
Qiblə deyib, qaşlarına baş əymək
Gecə-gündüz mənim ibadətimdir.

Hər nə desəm, sən incimə sözümdən,
Sərxoşunam, yox xəbərim özümdən,
Şol qamətin yayılanda gözümdən,
Sanasan ki, həşrü qiyamətimdir.

Bağlamışam din-imanı zülfinə,
Mənim kimi heyran hanı zülfinə,
Tapşırıb gedirəm canı zülfinə,
Yaxşı saxla, səndə əmanətimdir.

Sənsən mənim ayım, günüm, hilalım,
Dövlətim, iqbalım, cahım, cəlalım,
Gözəl üzün daim fikrü xəyalım,
Sözün dildə şirin hekayətimdir.

Sonalar xəcildir siyah telindən,
Tutilər lal olur şirin dilindən,
Şikəstə Vaqifəm, sənin əlindən,
Hər kimə ki yetsəm, şikayətimdir.

Eşqə dair mücərrəd şeirlərdən başqa Vaqifin həzliyələri var ki, lətifə, zərafət və məzəliliyi ilə Azərbaycan ətvarına məxsusdur. Bizim ruh və xasiyyətimizi bu şeirlər kafi dərəcədə təmsil edirlər:

Bayram oldu, heç bilmirəm neyləyim,
Bizim evdə dolu çuval da yoxdur.
Dügiylə yağ, hamı çoxdan tükənmiş,
Ət heç ələ düşməz, motal da yoxdur.

Allaha bizmişik naşükür bəndə,
Bir söz desəm dəxi qoymazlar kəndə,

Xalq batıbdır noğla, şəkərə, qəndə,
Bizim evdə axta zoğal da yoxdur.

Bizim bu dünyada nə malımız var,
Nə də evdə sahibcamalımız var.
Vaqif, öyünmə ki, kamalımız var,
Allaha şükür ki, kamal da yoxdur.

MİRZƏ FƏTƏLİ AXUNDOV

Avropa ədəbi şəkilləri birinci Mirzə Fətəli Axundov vasitəsilə Azərbaycan ədəbiyyatına daxil olur. Axundov birinci türk və bəlkə ilk İslam tyatronəvislərindəndir. Vaxtilə Krımda müntəşir "Tərcüman" qəzetəsi sərmühərriri Ismayıl bəy Qasprinski Axundov haqqında yazmışdı: "Vəzirovlar, Qənizadələr, Ayaz Ishaqovlar, istərsə Qazımuradovlar, Sami bəylər, Kamal bəylər belə sənət nəqteyi-nəzərindən Mirzə Fətəliyə nisbətlə aşağı qalırlar. Hətta ən müstəid, ən müqtədir Osmanlı ədibi Əbdülhəq Həmid bəyin əsərlərində belə Fətəlinin "Mərdi-xəsis" və "Müsyo Jordan"ında olan təbiilik və səmimiyyət yoxdur. "Mərdi-xəsis", yaxud qəhrəmanının ismiylə "Hacı Qara" nə qədər , nə qədər dadlı bir komediyadır".

Köçərli Firudin bəy haqlı olaraq Mirzə Fətəlini "milli ədiblərimizin atası" deyə adlandırır. Çünki milliyyət hissi birinci dəfə olaraq bu ədibdə oyanmışdır və Intibahın dəlili olan "Kritiçizm"də Mirzə Fətəlinin əsərlərilə başlayır. Şair Zakir Axundov ilə bərabər tənqid dövrünün nəsr və nəzmdə baniləri sayılırlar. Bu dövr gələcək üçün yollar təmizləmiş, milli inkişaf üçün böyük sahələr hazırlamışdır.

Zakir Mirzə Fətəliyə yazdığı məktubunda mühitini belə təsvir eyləyir:

Həddən aşıb büxlü həsəd, şərarət,
Yoldaş-yoldaşına eylər xəyanət.
Alimdə əməl yox, bəydə ədalət,
İşlərimiz olub saf kərdən-bucaq.

Üləmalər üz döndərib xudadən,
Usanmaz bir ləhzə cövrü cəfadən.
Başı əmmaməli seyyid, molladən,
Taətdə övladır o qatmaqurşaq.

Həq bilir ki, beli şallı hacılar,
Zəhrimar tək xəlqin ağzın acılar;
Düşəndə gözləməz ana, bacılar,
Bu əhldən: sinədağəm, sinədağ...

İIctimai həyatımızın qüsurlarını görüb, eynilə göstərən yazıçılarımızın ciddi və ən müqtədiri Mirzə Fətəli Axundovdur.

Mirzə Fətəli miladi-Isanın 1811-ci ilində Nuxa şəhərində dünyaya gəlib. Altı-yeddi yaşında yetim qalan Fətəlini dayısı Hacı Ələsgər himayə edib, tərbiyə və təliminə çalışıb. Türk, fars və ərəb dillərini öyrənən Fətəlini dayısı ruhani sinfinə daxil etmək istəyirmiş. Lakin, təhsili zamanı Gəncə şəhərində filosof Mirzə Şəfi ilə görüşüb tanış olduqda Fətəli fikrini dəyişir: Avropa mədəniyyəti ilə aşina olmaq istəyir.

Bu məqsəd ilə Axundov Nuxaya gəlib yeni gəşad olunmuş Rus nahiyə məktəbinə girir.

1834-cü ildə Fətəli məmurluq həyatını başlayır: Tiflisdə Gürcüstan ümurunun baş hakimi Baron Rozenin yanında Şərq dilləri tərcümanı olur və bu qulluqda ömrünün axırına qədər qalır.

Xidmətindən asudə vaxtları Axundov rus kitablarının mütaliəsilə məşğul olarmış. Onu artıqlığınca maraqlandıran fəlsəfə, iqtisadi və siyasi elmlər idi. Ehtimal ki, Rus ədəbiyyatı təhti-təsirində Mirzə Fətəlinin tyatronəvisliyə olan meyli təyin etmişdir.

1863 tarixində Mirzə Fətəli Istambula səyahət edib və islam əlifbasının təğyiri haqqında yazdığı əsərini Sədrəzəm Fuad Paşaya təqdim etmiş.

Mirzə Fətəlinin vəfatı 1878-ci ildə şübatın 28-ci günündədir. Tiflisdə müsəlman qəbiristanında dəfn olunubdur.

Mirzə Fətəli altı komediya yazıbdır:

"Hekayəti-Molla Ibrahim Xəlil kimyagər",
"Hekayəti-Müsyo Jordan",
"Hekayəti-xırs quldurbasan",
"Sərgüzəşti-vəziri-xani-Sərab",
"Sərgüzəşti-mərdi-xəsis",
"Müraflə vəkillərinin hekayəti".

Komediyalarından başqa, Axundovun "Aldanmış kəvakib" adında bir hekayəsi, türk və fars dillərində şeirləri var. Lakin Mirzə Fətəliyə

şöhrət qazandıran onun gözəl komediyalarıdırlar ki, tam mənası ilə milli həyatın bir güzgüsüdür.

Vaxtilə Avropa mətbuatında bu əsərlər haqqında bəhs olunubdur. Axundovun komediyaları 1871 tarixində Mirzə Cəfər tərəfindən fars dilinə tərcümə edilibdir. Avropalılar, görünür, ilk dəfə Mirzə Fətəlinin əsərlərini farscada görmüşlər.

Onun üçün firəng və ingilis tərcümələrində "Fars komediyası" deyə adlandırırlar. Məsələn, Barbiyer de Munard 1886-cı tarixdə basılan tərcüməyə "Troiz comedie persanes" deyir. Lakin bəzi tərcümələrdə "Türk komediyası" deyənlər də var.

Mirzə Fətəlinin şeirlərindən nümunə olaraq Qasım bəy Zakirə yazdığını göstəririk. Bu şeri Qarabağlı Mehdiqulu xanın qızı Xurşid bəyim Natəvan haqqındadır.

ZAKİR

Qasım bəy Əli bəy oğlu Zakir Qarabağ əsilzadələrindən olub, ömrünün çoxunu irsi mülkləri olan "Xızırstan" kəndində keçiribdir.

Xalq arasında həmişə hörmətə malik Zakir bir də qocalıq vaxtı xilafi-qanun bir məsələdə müttəhim olunub, ailəsilə bərabər vətənindən sürülür. Tiflisdə namdar dostları vasitəsilə Zakir haqqın meydana çıxmasına çalışıb. Bakıda üç ay sürgün həyatı keçirdikdən sonra yenə vətəninə qayıdıbdır. Bu vaqiəni Qasım bəyin Mirzə Fətəli Axundova yazdığı bir məktubunda belə anladır:

Piranəsərlikdə çərxi-kəcrəftar
Eylədi vətəndən dərbədər məni.
Neyləmişəm, bilməm, dövri-zalimə,
İncidir düşəndə bu qədər məni.

Qarabağ mülkündə mən bəxti siyah,
Bir ağ gün görmədim, Allaha pənah.
Saldı bəlalara bicürmü künah
Bir neçə müfsidü təxmi-xər məni.

Sən bir piri-tənha, zülm bihesab,
Müşküldür gətirmək bu möhnətə tab.
Yaman deyə-deyə eylədi xərab
Hamıdan ziyadə üç nəfər məni.

Biri fasiq, façir, hədsiz zinagar,
Biri əyri-üyrü, xeyli nahəmvar,
Biri danışanda baş-ayaq atar,
Bir neçə it tutdu bixəbər məni.
Adəm idim, əbəs yerə zay oldum,
Vilayət içində rusivay oldum,
Oğrulara, quldurlara tay oldum,
Sanırdı xəlayiq peyğəmbər məni.

Bu məktubda ağsaqqal Zakirin nə qədər təhqir olunduğu səmimi bir dil ilə yazılıb. Zakir hicrətin 1271-ci ilində vəfat edibdir.

Əsərlərini üç qismə ayırmaq olar: həzliyə və həcvlər, "erotik" şeirlər və klassik" qismi ki, Iran təsiri altında yazılıbdır. Zakiri tam mənası ilə milliləşdirən, bizim ağacın meyvəsi edən şeirlər onun həzliyə və həcvləridirlər. Azərbaycan təbiətinə məxsus zərafət, kinayə, kəlayə və bəzən acı rişxənd və köhnələri bəyənməyib, yeni bir şey axtarmaq... Bu nöqtələrdə Zakir bizim ilə həmruh və həmdərddir.

Sürgün həyatını dostu Mirzəyə anladıb, şikayət edərkən, orada da zərafət və lətifədən vaz keçmir. Milli şairimiz üçün acılıqda da bir məzəlik var.

Zakir mənən ətrafdakılardan uca olduğu üçün, yüksəkdən onların bütün qüsur və cahilliklərini görürdü və sakit dura bilməzdi. Qasım bəy mühitini iki misra ilə təyin edir:

Var özgə vilayətdə də tək-tək köpəyoğlu,
Hədsizdir bu viranədə, bişəkk, köpəyoğlu.

Millətə nifaq salan mollanümalar, xalqı cəhlilə qırıb öldürən həkimlər, şərarəti özünə sənət edən xainlər, oğrular, əyrilər... iştə Zakiri həp məşğul edən ictimai yaralarımız!

Ah, bu müftəxorun dad əlindən, səd dad!
Ki, salıblar necə gör məmləkətə qovğani.
Hər əlifba oxuyan adını ruhani qoyub,
Bilməz öz əbcədini, ruha çəkər suhani.
Alimü fazilü ustad, müridü mürşüd,
Nə qədər ki, görəsən dövrdə sərgərdani.

Məhərrəmlikdə Aşurə günü Şuşada düşən bir dava münasibətilə Cəfərqulu xan Nəva şəhər qazisini müttəhim eyləyir:

Matəmi böylə tutarmış məyər adəm, qazi?
Edə lənət ona bəhs sahibi-matəm, qazi!

Nəvanın bu şerinə Zakir cavab yazıbdır ki, daha da acı və rişxəndlidir:

Eyləyibdir yenə, mən hiç nə bilməm, qazi,
Xalq arasında olubdur belə mülzəm qazi.
Yaradıbdır onu ol xaliqi-əşya bieyb,
Dari-dünyada bu surət tapılır kəm qazi.
Şişənin simü zərin doldurasan xanəsinə,
Şişəvəş dişrəyə verməz yenə bir nəm qazi.
Onda mən gördüyümü görmüşəm, indən böylə,
Etməzəm taət ona gör ola qibləm qazi.
Haradan gəldi bular, eylədilər xəlqi xərab,
Biri der müctəhidəm, biri müsəlləm qazi.

Zakirin ictimai həcv və zarafatyana yazılmış əsərlərindən başqa, ciddi şeirləri də çoxdur. Bunların bir qismi xalq ədəbiyyatını andıran bir tərzdə yazılıb, digərləri isə Iran ədəbiyyatı təhti-təsirindədirlər:

DURNALARA XITAB

Bir saət havada qanad saxlayın,
Rəhm edin didəmdə yaşa durnalar!
Qatarlanıb hansı yerdən gəlirsiz
Qaqqıldaşa-qaqqıldaşa, durnalar?

Bu viladə hər gün tökülür qanlar,
Yavaş-yavaş keçin, səsiniz anlar,
Laçın yatağıdır bizim məkanlar,
Qorxuram sürbəniz çaşa, durnalar!

Diyari-qürbətdə müddətdi varam,
Gecə-gündüz Vətən deyib ağlaram,

Mən də sizin kimi ğəribi-zaram,
Eyləməyin məndən haşa, durnalar!

Mən sevmişəm onun çəmən, düzünü,
Bir də nəsib ola görəm üzünü,

Yoxsa danışırsız Vətən sözünü,
Veribsiniz nə baş-başa, durnalar!

Zakirəm, od tutub alışdı cigər,
Var isə Vətəndən sizdə bir xəbər,

Təğafül etməyin, Allahı sevər,
Dönməsin bağrınız daşa, durnalar!

KAZIM BƏY

Kazım bəy adıylə Avropada şöhrət qazanmış bu zat Məhəmmədkazım bəyin oğlu Məhəmmədəli bəydir. Dərbənd şəhərində dünyaya gəlib və ibtidai təhsilini də orada görmüşdür. Türk, fars və ərəb dillərini də Dərbənddə öyrənibdir.

O vaxtlar Avarstana qaçan Dərbənd xanı ilə Məhəmmədkazım bəyin arasındakı əlaqədən Rus hökuməti şübhələnərək Məhəmmədkazım bəyi Hacıtərxana sürmüşdü.

Miladın 1820-ci ilində Məhəmmədəli bəy atasının yanına getdi. Hacıtərxan həyatı Məhəmmədəli bəyə əlverişli oldu: Şotlandlı bir misioner ilə tanış olub ingilis dilini ondan öyrəndi.

Bədə o Məsəq (?) valisi yanında dilmanc olur. Ancaq 1836-cı ildən etibarən Məhəmmədəli bəy Darülfünun sahəsində çalışmağa müvəffəq olur: Qazan Darülfünununda türk, fars və ərəb ədəbiyyatı müəllimi təyin olunur. Çox çəkmir istedadı sayəsində "Ordinar professor" olur. Iştə bu zamandan başlayaraq Məhəmmədəli bəyin şöhrəti Avropada yayılır.

1849-da Peterburq Darülfünunun fars dili şöbəsinə müəllim təyin olunur və bu vəzifədə ömrünün axırınadək qalır. Vəfatı 1870-dədir.

Məhəmmədəli bəyin məşhur əsərləri: "Əsbə-əs-siyar", "Müxtəsər- ül vüqayat", "Tədqiqati-Uyqur", "Dərbəndnamə", "Şərq sözləri – oxşar Rus sözləri", "Müridiyun və Şamil", "Islam tarixi", "Bab və babilər"... Ən məşhur təlifi "Türk-tatar dillərinin qəvaidi"dir ki, Rus Ülum Akademiyası (Əncüməni-daneş) tərəfindən Demidov mükafatilə qarşılandı.

ŞİRVANLI SEYİD ƏZİM

Hacı Seyid Əzim Intibah dövrümüzdən bir az əvvəl yaşayan müqtədir şairlərimizdəndir. Bu şairin əsərləri şayani-diqqətdir. Heyfa ki, Azərbaycandakı qarışıqlıq Seyidin divanını əldə etməyə mane oldu. Seyid Əzimdən uzun-uzadıya bəhs etməmək risaləmiz üçün böyük qüsur da olsa, əlacsızlıqdan bu qüsuru ancaq ikinci təbimizdə düzəldə biləcəyik.

Seyidin divanının bir hissəsi müəllifin rəsmi ilə bərabər Bakıda təbb olunubdur. Bir də Təbriz təbi var ki, daş basmasıdır.

SABİR

Mirzə Ələkbər Sabir Tahirzadə hicrətin 1278-ci ili, Zilhəccə ayının əvvəlimci günündə Şamaxı şəhərində təvəllüd edib. Təhsilinin ikinci dövrü məşhur şairimiz Hacı Seyid Əzimin idarəsində olub. Sabir Seyidin məktəbində oxurkən şerə istedad göstərib və Seyid də şagirdinin istedadına böyük meydan verib. Məsələn, fars qəzəlləri oxurkən, Hacı Seyid Əzim onların türkə mənzumən tərcüməsini tələb edərmiş.

Sabirin atası oğlunun bir-iki illik təhsilindən iktifa edərək, onu dükanına dəvət edib və şerə olan həvəsini öldürmək üçün hətta bir dəfə də dəftərini cırmış imiş. Cavan şairə atasının müamiləsi o qədər ağır gəlib ki, vətənini tərk etməyə qərar verib və bu məqsədlə bir karvana qoşulub. Atası bu işdən xəbərdar olduqda onu karvandan geri qaytarıb.

Bu vəqə Sabirin bir qəsidəsində bəyan olunur:

Mən Xəlilullahi-əsrəm, pədərim çün Azər,
Səfər əz Babili-Şirvan künəm Inşallah.
Gərçi u dəftəri-əşari-məra parə nəmud,
Vəslə ba təbi-dürəfşan künən Inşallah.

Sabir 23 yaşına qədər Şamaxıda qalıb və vaxtını növhə və mərsiyəguluq ilə keçirib, 23-də Xorasan ziyarətinə getmiş və neçə illər İran və Türkistanda xırda ticarət yapa-yapa səyahət eyləyibdir. Təbiidir ki, şeir ilə də məşğul olub və rişxənd oxlarını atmağında çəkinməyib:

Həmədanda qonağımdan xəbər aldım ki, Şeyx,
Hansı məxluq sizin şəhrdə bişəkk çoxdur?
Dedi: – Az isə bu şəhrdə sayir məxluq,
Leyk, dabbaq ilə səbbaq ilə eşşək çoxdur.

Atasının vəfatı Sabiri vətəninə qayıtmağa məcbur eylədi. Şair burada evlənib və ailəsini təmin üçün quyruq əridib sabın bişirirmiş. Ağır bir məişət içində Sabir yenə şeri unutmurmuş: asudə dəqiqələrini mütaliə və yazıya həsr eylərmiş. Lakin Sabir əsl yolunu "Molla Nəsrəddin" məcmuəsinin intişarı ilə tapıb.

"Hop-hop" imzasilə yazdığı milli şeirləri ümumin rəğbətini qazandı. Bir tərəfində qara fikirli həmşəhriləri Sabirin həcvlərindən dilgir olub ona təkfir daşları yağdırırdılar. Sabir şeirlərinin altında "Din dirəyi", "Mirat", "Fazil", "Ağlar-güləyən", "Əbu Nəsr Şeybani" kimi imzalar atırsa da, təkfir və təruzdən xilas ola bilmir. Qara xalqa qarşı etirafda bulunur:

Əşhədü billahi-əliyyül-əzim,
Sahibi-imanəm, a şirvanlılar!
Yox yeni bir dinə yəqinim mənim,
Köhnə müsəlmanəm, a şirvanlılar!

İş bu yerə gəldi ki, Sabirə qəssablar kafir və babı deyə quyruq satmaqdan imtina etdilər və biçarə şair sabınçılığı atıb, maddi cəhətdən həyatı bir o qədər də təmin edilə bilməyən müəllimliyə şüru etdi. Ömrünün axırına qədər də təlim ilə məşğul qaldı.

Təmmuzun 12-də 1913 tarixində Şamaxıda vəfat etdi.

Mirzə Fətəli və Zakir ilə başlanan həqiqətnəvislik dövrünün son və ən böyük mümətli şübhəsiz ki, Sabirdir. Sabir tam mənasilə milli bir şairdir. Dili asandır, tərzi-təhriri işarəli və məzhəkdir, mövzu ictimai həyatın bütün qaranlıqlarını tənvir edəndir... Bunun üçün Sabir hər azərbaycanlının sevgilisidir.

Sabir filosofdur, mürəbbidir, inqilabçıdır, nihilistdir, hamısında da səmimidir. Şair Abbas Səhhət Sabirin tərcümeyi-halını yazarkən onun haqqında deyir: "Azərbaycan ədəbiyyatında ən əvvəl yeni bir cığır açdı ki, ondan müqəddəm kimsə o gözəl şivədə yazmamışdı. Nöqsanlarımızı və eyiblərimizi məzhəkə və məzah təriqilə qayət şirin və hər kəsin anladığı bir dil ilə, qəhqəhələr ilə oxudub islaha çalışırdı. Sabir

müqəllid deyil, bəlkə eylə mücəddidir ki, köhnə şeirlər ilə yeni şeirlər arasında bir əsrlik uçurum açdı ki, bir də, geri dönüb də o uçurumu atılmağa kimsədə cürət qalmadı.

Sabir Zakirin həcvlərindən doğma bir şairdir. Aralarındakı fərq budur ki, Zakir xəstə millətin bir əzasiylə məşğul olmuş, onu məhv edən mikrobları göstərmiş. Sabir isə bütün millət vücudunu təşrih edib onun çürümüş cəhətlərini meydana çıxarır.

Zakir məhəlli şairdir; onun əsərlərində "provinçializm" (əyalətçilik) çoxdur. Sabir isə başqa bir zamanda vücuda gəlib, ümumşərqin intibahının şahidi olduğu üçün mövzularını geniş sahələrdən alır. Odur ki, bəzən Sabir azərbaycanlılıqdan çıxıb ümumislam və bəlkə ümuminsaniyyət şairi olur.

Sabir ruhən şərqlidir, təmayülən Avropa mədəniyyətinin üftadəsidir. Millətinin mütərəqqi olmasını istər, mədəniləşməsini arzu edər.

Sabirin oxları itidir; Kimsədən qorxmaz və çəkinməz.

Daş qəlbli insanları neylərdin, ilahi?!
Bizdə bu soyuq qanları neylərdin, ilahi?!

Artdıqca həyasızlıq olur el mütəhəmmil,
Hər zülmə dözən canları neylərdin, ilahi?!

Bir dövrdə kim, sidqü səfa qalmayacaqmış, –
Bilməm belə dövranları neylərdin, ilahi?!

Məzlumların göz yaşı dərya olacaqmış, –
Dəryaları, ümmanları neylərdin, ilahi?!

Səyyadi-cəfakardə rəhm olmayacaqmış, –
Ahuləri, ceyranları neylərdin, ilahi?!

Bağın, əkinin xeyrini bəylər görəcəkmiş, –
Toxm əkməyə dehqanları neylərdin, ilahi?!

İş rəncbərin, güc öküzün, yer özününkü, –
Bəyzadələri, xanları neylərdin, ilahi?!

Hökm eyləyəcəkmiş bütün aləmdə cəhalət, –
Dildadey irfanları neylərdin ilahi?!

Surtuqlu müsəlmanları təkfirə qoyan bu
Döşdüklü müsəlmanları neylərdin, ilahi?!

Yaxud buların bunca nüfuzu olacaqmış, –
Beş-üç bu süxəndanları neylərdin, ilahi?!

Qeyrətli danosbazlarımız iş bacarırkən, –
Tənbəl, dəli şeytanları neylərdin, ilahi?!

Ərlər hərə bir qız kimi oğlan sevəcəkmiş, –
Evlərdəki nisvanları neylərdin, ilahi?!

Tacirlərimiz Sonyalara bənd olacaqmış,
Bədbəxt Tükəzbanları neylərdin, ilahi?!

Sübhanəkə, sübhanəkə, sübhanəkə, ya rəb!
Baxdıqca bu hikmətlərə heyran oluram həp!

1905-ci il inqalabı milli təşəbbüslərə meydan verdi. Köhnə məktəblər qapanıb, yeniləri açılmağa başladı. Təbii ki, bundan ötəri köhnəpərəstlər təşvişə düşdülər:

Vah!.. bu imiş dərsi-üsuli-cədid?!
Yo..x! Yo..x! oğul, məktəbi-üsyandı bu!
Molla deyil bundakı təlim edən!
Əlhəzər et, bir yeni şeytandı bu!
Dur qaçaq, oğlum, baş-ayaq qandı bu!

Sabir riyakar zahidlərilə daima düşmən idi. Millətin qəflətdə yaşamasını onlara istinad verirdi. Zahidlər də Sabiri təkfir etməkdən çəkinmirdilər.

Sabir bir şerində masqaların çıxarılmasını tələb edir:
Zahida, gəl soyunaq bir kərə paltarımızı,
Çıxaraq zahirə batindəki əfkarımızı,
Pişgahi-nəzəri-xəlqə tutaq varımızı,
Görüb onlar təhqiq eləsin karımızı,
Hər kimin ağı qara isə utansın, a balam!
Bəlkə illərcə yatanlar bir oyansın, a balam!

Şair Məşədi Sijimqulu "Molla Nəsrəddin"ə yazıb məsləhət eləyir:

Molla, sənə eyləyirəm məsləhət:
Söylə görüm, evlənim, evlənməyim?

Məşədi Sijimquluya Sabir belə cavab verir:

Ağrın alım, a Məşəd Sijimqulu,
Altmışa yetdin, demə oldun ulu,
Şükr ola allaha canındır sulu,
Çox da, kişi, tutma beşəlli pulu,
Ver pulunu dadlı, ləzzətli zad al!
Qoy babalın boynuma, get, arvad al!

Sabir mücəddid olduğu üçün şairnümaları da rişxəndi ilə unutmadı:

Ey alnın ay, üzün günəş, ay qaşların kaman,
Ceyran gözün, qarışqa xəttin, kakilin ilan.
Alma çənən, çənəndə zənəxdan dərin quyu,
Kipriklərin qamış, dodağın bal, tənin kətan.
Boynun surahi, boy-buxunun bir uca çinar,
Əndamın ağ gümüş, yanağın qırmızı ənar.
Xalın üzündə buğda, başında saçın qürab,
Qah, qah!.. qəribə gülməlisən xaniman xərab!

Vaqif ilə Sabir zamanları arasında yetişən müəlliflərdən Asi, Vəfa, Nəbati, Abbasqulu Ağa Qüdsi, Məxfi, Əli Yüzbaşı oğlu Həsən kimi dəyərli adlar var. Bunlardan Nəbati "Divan" sahibidir. Başqalarından bəzilərinin əsərləri Qarabağ şairlərinə məxsus təzkirələrdə göstərilir.

Sabir ilə müasir olan bir çox şairlərimiz də var: Abbas Ağa Nazir, Abbas Səhhət, Rəşid bəy Əfəndizadə, Şirvanlı Məhəmməd Hadi, Abbas Müznib, Dərbəndli Mirzə Səməndər, Məhəmməd Səid Ordubadi, Mirzə Abdulla Şaiq, Qarabağlı İbrahim Tahir, Gəncəli "Dabanı çatdaq xala" və başqaları.

"Rüstəm və Söhrab" tərcüməsilə şöhrətlənmiş Nazir xalqçıdır; Azərbaycan ləhcəsini başqa şivələrə tərcih edir.

Səhhət "Məğrib günəşləri" və "Sınıq saz" adlı əsərlərində Avropa ədəbi nümunələrini göstəribdir.

Məhəmməd Hadi ərəbləşmiş bir lisanda yazdığı üçün “Firdovsiilhamat” ı az oxucuların malı ola bildi.

Mirzə Səməndər gözəl təbini həcvguluğa və latayilə sərf etdi...

Son dövrdə şeir ilə bərabər nəsrdə qüvvətlənməyə başladı: hekayənəvislik ilk addımını atdı. Yeni romanlar və hekayələr məcmuələri meydana çıxdı.

Şeirdə də yenilik müşahidə olunur. Cavan şairlərimiz Hüseyn Cavid və Ə.Cavad başqa bir aləm açıldığını xəbər vermək istəyirlər.

YARALI QUŞ

Yaralıdır könlüm quşu, yaralı,
Yaralandı yazıq, aşiq olalı.
Bir dərinlikdə ki, hər düşən çıxmaz,
Qurtulmaq istəyir, qanad yaramaz.
Imdadına gələn ümidindən az...
Yaralıdır könlüm quşu, yaralı!
Dost ararkən avçı çıxdı yoluna,
Əzrayıl sağına, ölüm soluna...
Vurma, avçı, qanadına, qoluna!
Yaralandı yazıq şair olalı.
Aman avçı, bunun halını düşün,
Gözündə yaşı var, qoy onu töksün,
Sonra amadədir ölümə hər gün...
Yaralıdır könlüm quşu, yaralı!
Kədərli bir qəlbin yanıq fəğanı,
Yandırır ürəyi daşdan olanı,
Avçı, bu çırpınır, öldürmə bunu!
Yaralandı yazıq, aşiq olalı.
Yurdundan ayrılmış, yuvadan uzaq,
Əşinin gözindən, könüldən iraq.
Ümid sanadır, ey yaradan haq,
Yaralandı yazıq, aşiq olalı.

* * *

Bir gül əkdim, açılmamış dərdilər,
Zəhmətimdən bana bir tikan qaldı.
Əmək çəkdim, gün keçirdim, gül əkdim,
Əməyimdən solğun bir fidan qaldı!
Nə yazım-yaz; nə günüm gün oldu,
Könlümün çiçəyi açmadan soldu.
Qanadımı bir uğursuz əl yoldu.
Yerində bir damla quru qan qaldı.
Söylədiyim boş söz, tökdüyüm qan-yaş,
Həqqinə, kim isən, əl vurma, yavaş!
Yavaş ki, dərdimə ağlayan qardaş,
Yerinə arxamda bir düşman qaldı.
Yaralandım, sarmadılar yaramı,
Yas gününə döndərdilər bayramı,
Əlimdən aldılar son bir çaramı,
Əsəri ruhumda bir fəsan qaldı!

OSMANLIDA YETİŞMİŞ AZƏRBAYCANLI MÜƏLLİFLƏR

1. Şirvanlı Seyid Yahya Cəlaləddin

"Xəlvəti" təriqətinə mənsub bu zatın vəfatı hicrətin 842 sənədədir. Qəbri Bakıdadır. Yazdığı verdsitar xəlvətiyyə şöbələrində oxunar. Dərvişlərə lazımlı əsərlərindən biri də "Əsrar ət-talibin"dir ki, 24 fəsl üzərə yazılıbdır. "Şəfaəl-əsrar" və "Əsrar əl-vəhi" adlarında daha iki təlifi olduğu mərvidir. Müğnisada Muradiyyə kitabxanasında yazma bir məcmuədə Seyid Yahyayə mənsub aşağıdakı risalələr də var: "Məratibi-əsrarül-qəlb", "Əsrar əl-vüzu!", "Rümuz əl-işarat", "Məna- ziləl-arifin", "Şərhi-əsmayi-səmaniyyə", "Şərhi-səvalati-Gülşəni-raz", "Ətvarül-qəlb", "Elmi-lədni".Bu əsərlərin çoxu fars dilində yazılıbdı.

2. Şirvanlı Fətulla

Riyaziyun fazillərindən olub, Ikinci Sultan Murad xan dövri riçalındandır. Təhsilini Səmərqənddə ikmal edib. Müəllimləri Seyid Şərif və Əli Quşçu olublar. Birinci elmi-şəriə, ikinci elmi-riyaziyyə təlim edərmiş.

Şirvanlı Fətullanın vəfatı 857-ci (m. 1454) tarixdədir. Qəstəmoni şəhərində dəfn olunub. Başlıca təlifləri bunlardır: "Haşiyeyi-təlvih", "Haşiyeyi-müvaqif", "Şərhi-əşkali-təsis", "Haşiyeyi-şərhi-çiğmini" və sairə.

Fətullanın oğlu – Fətullazadə – "Şərhi-miftahül-ğeyb", "Haşiyeyi- təlvih" kimi əsərlər vücuda gətiribdir.

Qurani-kərimə dair qırx iki bab üzərə mürəttib "Miftahün Nicat" müəllifi Məhəmməd bin Mahmud: fiqhdən "Miftah əs-Səadət"I azan Kəmaləddin də Şirvandan yetişən fazillərdəndir.

3. Mahmud bin Məhəmməd Dilşad Şirvani.

Hicrətin səkkizinci əsrinə mənsub olan fazil və həkimlərdəndir. Türkcə yazdığı iki əsəri Müğnisada Muradiyyə kitabxanasındadır: biri "Müxtəsər tibb"dir; on dörd babdan ibarətdir. O birisi "Kamalnamə" dir ki, üç kitabdan mürəkkəbdir və 841 (1437) sənəsində təlif olu-

nub. “Töhfeyi-Muradi fi əsnafül-Cəvahir” adlı əsəri Ikinci Sultan xan namına yazılıbdır (Istanbulda “Muzeyi – humayun kitabxanası”ndadır).

Dilşad Şirvaninin bir də tərcüməsi var: “Tarixi-ibn Kəsir”.

“Tarix”in bəzi hissələri Istanbulda, Şahzadə başındakı İbrahim paşa kitabxanasındadır.

4. Yusif Ziyaəddin Məxdum

Şamaxı şəhərinin Qazi əl-Qüzati Mövlana Əli Fazilin oğludur. Ülumi-rəsmiyyəni Ərəbistanda və təsəvvüfə dair məlumatı da Şirvanlı Seyid Yahyadan öyrənmişdir. Vəfatı hicrətin 890 (1485)-ındadır. Qəbri Şamaxıdadır.

24 fəsildən ibarət “Adab ül-irşad” kitabı və elmi-ruhə dair “Silsileyil- ərvah” bu zatın təliflərıdir.

5. Baba Nemətulla Mahmud Naxçıvani

Nəqşibəndi ariflərindən olan bu zat Naxçıvanlıdır. Təhsilindən sonra vətənini tərk edərək Anadoluda Ağşəhrə köçüb. 902 (1496) tarixdə Ağşəhrdə vəfat edib və orada da dəfn olunubdur. “Fəvateh əlilahiyyə və əl-miftahil-ğeybiyyə” adlı təfsiri-şərifi məşhurdur.

“Gülşəni-raz”ə fars dilində yazılmış müfəssəl bir şərhi də var. Bir nüsxəsi İstanbul kitabxanalarının, bəziləri də Bursada, “Iynə bəyi” kitabxanasındadır.

Bunlardan başqa, Şeyx Əkbərin “Füsus əl-hökm”ini və “TəfsiriQazi” yi təhşiyə eyləmişdir.

Təsəvvüfə dair “Hidayətül-əxvan” ünvanilə əsəri, bir də “Risalətül-vücud” adlı risaləsi var (bu risalənin bir ədədi Istanbulda “NuriOsmaniyyə” kitabxanasındadır).

Təftiri-şərifin 901 (1495) tarixində müəllifin öz əliylə yazılmış nüsxəsi Istanbulda Üçüncü Sultan Əhməd kitabxanasındadır (Əndəruni- humayun).

6. Mühiəddin Məhəmməd Qarabağı

Qanuni Sultan Süleyman dövri alimlərindəndir. İlk İstanbula gəldikdə Seyid Əlizadə müavin olubdur. Tədris ilə məşğul olurmuş. Bu məqsədlə Izniqə təyin ediblər və orada da 942 tarixində vəfat edibdir.

Əsərləri 23 məqalə üzrə mürəttib mühaziratə dair "Calib əssürur" ilə Kəşşaf, Beyzəvi, Təlvih, Hidayə təliqatı və Şərhi-vüqayəyə aiddir. Cəlal Dəvvaninin "İsbatül-vacib" risaləsinə haşiyə yazıb və "AdabiİzdiyyƏ" yi şərh eyləyibdir.

7. Azəri İbrahim Çələbi

Məşhur şairlərdəndir. Həma qaziliyində ikən 993 (1585) tarixində vəfat edibdir. "Nəqşi-xəyal" ünvanlı mətbu bir mənzuməsi var. Divanı qeyri-mətbudur. "Nəqşi-xəyal" Nizaminin "Məxzənül-əsrar"ını təqlidən yazılıbdır. On iki min beytdən mürəkkəb bu mənzumə təmtal və hekayələr ilə təsviri-hal edilmiş gözəl bir əxlaq kitabıdır.

8. Molla Əhməd Şəmsəddin Qarabağı

İstanbulda Qaziəsgər olmuş bir zatdır. 1009 (1600) tarixində vəfat edib, qəbri Vəfadədir.

Əsərləri "Haşiyeyi-Beyzəyi" ilə Təlvih, Hidayə, Müvaqif, Miftahə olan təliqatdan ibarətdir.

9. Şirvanlı Əbdürrəhim

Alim bir zatdır ki, hicrətin 1024 (1615) tarixində vəfat edibdir.

Əsərləri bunlardır: "Risalə fil-məntiq", "Haşiyeyi-Əli şəradab Məsudi", "Haşiyə Əli şərhi-mətalei-əl-ənvar" və sairədir.

"Miftahüs-səadət" müəllifi Ömər bin Əli də Şirvan fazillərindəndir.

10. Üşşaqi Şəmsəddin Şirvani

Sultan Murad rabe dövri həkimlərindəndir. "Təşrihi-Əbdan və tərcümani-qəbaleyi-filosofan" adında və bəzi rəsmlərini havi əsərini təqdim edərək, əvəzində "Şeyx əl-hərəm" olmuşdu ("Təşrihin" bir nüsxəsi Əyyubda Xosrov Paşa kitabxanasındadır).

11. Məhəmməd Əmin bin Sədrəddin Şirvani

Bu fazilin təhsilinin ikmalı Istanbulda olubdur. 1036 (1626) tarixində vəfat edib və vəsiyyəti üzrə Üsküdarda dəfn olundu. Birinci Sultan Əhməd naminə əlli dörd fənndən bəhs edən "Fəvaidi-Xaqaniyyə" ni vücuda gətirdi. Bundan başqa da əsərləri var. Məsələn: "Təfsiri-Sureyi-Fəth", "Haşiyeyi-şəri-Şəmsiyyə", "Təaliqat əlatəf-

siri-Beyzəvi", "Şərhi Qəvaid-əl-əqail əl-Qəzali", "Risalə fi təhqiq əl-məbda vəl-məad" və sairə.

Şirvanlı Məhəmməd Əminin atası Sədrəddin də fazil bir zat olub "Əl-hikmətül-mütəaliyyə" kimi əsərləri var.

12. Sadiq Əfəndi Şirvani

Neçə dəfə İstanbulda Şeyxül-islam olan Məhəmməd Sadiq əfəndi məşhur alim Sədrəddin Şirvaninin oğludur. Təsəvvüfə mənsubdur.

1121 (1709/10) tarixində vəfat edib, Fındıqlı came-şərifi yanında dəfn olundu.

Bir çox qeyri-mətbu əsərləri var. Bəzilərini aşağıda qeyd edirik:

"Risaleyi-əqaid", "Risalə fi bəyan ən-nəbəvat fəzl min əl-vilayət", "Risalə fi bəyani-əqsamiz-zikr", "Risaleyi-məcüzə fibəyan əlmüsafihə", "Risaleyi-mərğubə fit-təsəvvüf", "Risalə fit-təsliyə vət-tərziyə", "Risalə fi bəyan fəzliyyət-üz-zikrəl-xəfi əla-əl Cövhəri", "Risalə fi isbat əs-sane", "Risaleyi-müntəxəbə fi əaneyil-ləhfan fi məkayəd-əş şeytan", "Risaleyi-inəfi əş-şirkə" və sairə.

13. Yusif bin Ibrahim Şirvani

Bu zat Mədineyi-münəvvərdə ixtiyari-mücavirət edərdi. Vəfatı 1134 (1721) tarixindədir. Iki çild "Miltəqi" şərhilə "Hədiyət-əs-səbih fi şərhi-müşkat-əl məsabih" ismində "Məsabihi-şərif" şərhi vardır.

14. Əbu-Bəkr bin Rüstəm Şirvani

Osmanlı dövlətinin dəftərdarlığı və sairə kimi xidmətində olmuşdur.

1139 (1726/27) sənəsində Istanbulda vəfat etdi və Süleymaniyyə camei-şərifi yanında dəfn olundu. Əsərləri: "Malayəd-əl-ədib", "Şərhi-tarixi-Vəssaf"dır. "Vəfiyat-əl-əyan"ın bir qismini də tərcümə etmişdir.

15. Həmzə Nigari Qarabağı

Bu zat Həəniyə seyidlərinə mənsub və Xalidiyə təriqətinin şeyxlərindən olubdur. Amasiyada dəfn olunmuş Şeyx İsmayıl Şirvani xülafasındadır. 1304 (1886) tarixində Xərbutda vəfat etdi və nəşi mühibləri tərəfindən Amasiyaya gətirildi.

"Nigarnamə", "Saqinamə" ünyanlı təbb olunmamış əsərləri var. Türki və farsi divanları təb olunubdu.

16. Əhməd Həmdi Əfəndi Şirvani

İstanbulda təhsilini ikmal etdikdən sonra, bəzi məmuriyyətlərdə bulunubdur. Bir zaman mülğa əncümən təftiş və müayinə rəyasətinə təyin olunubdur. 1307-də (1889) vəfat etdi. Qəbri "Əyyub"dadır.

Təb olunmuş əsərləri bunlardır: "Tərcümeyi-məqamati-həriri", "Hindistan səyahətnaməsi", "Üsuli fiqh", "Xülasətül fəraiz", "Misqalət-əl ürəfa fi-məsail-əl-hükəma", "Elm-əl-əruz vəl-qəvaz", "Türkcə müxtəsər məntiq", "Süvər-əl kəvakib", "Mədxəli-inşa", "Nəsayeh- əş Şəban" və sairə.

17. Şirvanlı Məhəmməd Xalis Əfəndi

Bu zat təhsilini vətənində başlayıb, Amasiyada davam edən və İstanbulda ikmal etmiş məşhur Tikişli Yusif əfəndidən icazat aldı. Darüş-şəfqə müəssisələrindən və müəllimlərindən olubdur. İlk tədrisi Fateh zamei-şərifindədir. Yeni fənlərin tədris və mədrəsələrin islahı yolunda çox çalışmış bir zatdır. 1331-də (1912) Istanbulda vəfat etdi və Fateh camei – şərifi yanında dəfn olundu.

"Təlxis-ün-nəhv", "Mizan əl-əzhan fi məntiq", "Elmi-kəlam",

"Üsuli-əqaid" kimi əsərləri Istanbul Darüş-şəfqəsində tədris olunmaqdadır.

Hüseynzadə Əli Bəy

Əli bəy miladın 1864-cü ili şübatın 24-də Salyan şəhərində dünyaya gəlibdir. Atası Molla Hüseyn Tiflis Müsəlman məktəbində müəllim idi. Anası Mavərayi-Qafqaz Şeyxül-islamı Salyanlı Şeyx Əhmədin qızı Xədicə xanımdır. Əli bəyin ibtidai təhsili Tiflis Müsəlman məktəbində olub, sonra hökumət gimnazini ikmal edərək Peterburq Darülfununun ümumi-təbiyyə şöbəsinə daxil olubdur.

Əli bəy kiçik ikən babası Şeyx Əhməd ilə onun yaxın dostu Mirzə Fətəli Axundovun təsirləri altında bulunmuşdur. Şeyx Əhməd ciddi bir din alimi olaraq tam mənası ilə Şərqi təmsil edirdi. Mirzə Fətəlisə hürrəndiş, tünd Volteri, təlim və təhsili etibarilə tamam qərbləşmiş bir zat idi. Tez-tez Şeyx Əhmədin evində olan müsahibə iki dostun fikri mücadilələri, şübhəsiz ki, kiçik Əlinin tərbiyəsinə qüvvətli təsirlər bəxş edirdi.

Bu iki təsir Əli bəyin Darülfünun həyatında ibrazə başlayıb. Burada Əli bəy bir tərəfdən 4 Avropa fənlərini öyrənir, o biri tərəfdən də

Şərq dilləri və ədəbiyyatilə məşğul olurdu. Avropa ədiblərinin tədqiqini də unutmazdı: Homeri, Aristofanı, Danteyi, Şekspiri, Höteni, Şilleri, Bayronu oxumuşdu. Lakin bu dahilərin içində Əli bəyin ruhuna yaxın gələn Höte olmuşdu. O zamandan bəri Hötenin "Faust"u Əli bəyin ən sevdiyi əsərlərdən idi.

1889 sənəsində Darülfünunu ikmal edər-etməz Əli bəy İstanbula səfər eylədi və orada Əsgəri-tibbiyyə məktəbinə daxil oldu.

Əli bəyin bu dövrünü "Türk yurdu" gözəlcə anladır: "Əli bəyin İstanbul Tibbiyeyi-əsgəriyəsinə daxili oraya ciddi və rayihədar bir Avropa əvayi-mədəniyyəsinin əsməsi kibi oldu. Tibbiyi-əsgəriyyə Osmanlı məkatibi-aliyəsinin ən yüksəklərindən olmaqla bərabər, Avropa ali məktəblərinə nisbətən ürfani-ümumi cəhətlə aşağı və ibtidai idi. Tələbəsinin çoxu Anadolu və Rumelinin uzaq və qaranlıq vilayətlərindən toplanmış bu məktəbdə Əli bəy bir fəcri-şimali kibi parladı.

Bir Avropa gimnazi-klassikində təlim və tərbiyə görmüş olması Avropa mərkəz mədəniyəsindən biri olan Peterburqda Darülfünün tələbəliyi etmiş bulunması, Əli bəyi məlumati-ümumiyyəcə arkadaşlarından çox yüksək tuturdu. Əs-səneyi-qədimə ilə ədəbiyyatına aşina olduqdan məadən, Alman, Rus və Ingiltərə ədiblərini xeyli mütaliə etmiş və Şərq ədəbiyyatına müstəşriqlər nöqteyi-nəzərindən vücuf peyda eyləmiş bulunuyordu, üstəsinə rəssam idi, kaman çaliyordu. Arkadaşlarının həman həpsi dövri-qədim üdəbasının ism və rəsmlərini ancaq küçük larosdan biliyorlardı; Rus əfkar və ədəbiyyatına qətiyyən biganə idilər, çoxunun gərb əfkar və ədəbiyyatına vüqufları da ancaq fransız qramer və lektorlarında höccələnən parçalara münhəsin qalmış idi. Əli bəy İstanbul məktəbi-tibbiyəsinə ğərb əfkarını, ğərb ədəbiyyatını, ğərb ürfan və mədəniyyətini, hasili gərbi tanımaqda professorlarından çox xidmət etdi. Arkadaşlarından Doktor Abdulla Cövdət bəy
Əli bəyin məktəbi-tibbiyyədəki təsirlərini şöylə nəql ediyor: "Əli bəy sakin və mütəfəkkir hamiylə əsrarəngiz vəzi-izlətpərvərisiylə üzərimizə bir... təsiri icra edirdi. Əvət, o bir Rəsülül-həq idi". Əli bəy ülum sahəsində də arkadaşlarına yeni üfüqlər açıb göstərdi. O gəlincəyə qədər Məktəbi-tibbiyeyi-şahanənin xəbəri yox idi. Əli bəy Mendeleyev sistemini öyrətdi. Əli bəy Şərq ülum və ədəbiyyatından da başqa dürlü bəhs ediyordu. Məsələn, Sərfi-Şərq üsuliylə əzbərlədilək, yaxud səhvü bəlağət tədqiqatilə uğraşılan "Rubayati-Ömər Xəyyam" Almanlardan və Jukovskidən öyrəndiyi üsul ilə öylə təşrih və izah edi-

yordu ki, arkadaşları barmaqlarını isiriyorlardı. Abdulla Cövdət bəyin daha tələbə ikən nəşr etdiyi "Ramazan bağçası" ünvanlı bir məcmuədə Əli bəyin Ömər Xəyyama dair müstəşriqlərdən toplama məlumatı intişar etdi. Ə.H. imzasını daşıyan bu məqalə Əli bəyin ilk mətbu əsəridir.

1895 tarixində Əli bəy doktor olub, İstanbulda Heydər Paşa xəstəxanasına təyin olunmuşdu. Rəsmi xidməti Əli bəyi mühərrirlikdən ayırmadı – Hötenin "Faust"unu tərcüməyi davam edirdi. Birinci parçaları "Məlumat" risaləsində "Salyani" imzasilə basıldı.

Osmanlı-Yunan müharibəsində (1897) Doktor Əli bəy Tisaliyaya göndərilmişdi. Hərbdən sonra Istanbula gəlib, yenə Heydər Paşa xəstəxanasında qulluq edibdir. 1900 sənəsi müsabiqə imtəhanını qazanıb Əskəri-tibbiyyə məktəbində cildi və firəngi xəstəlikləri müəlliminə müavin təyin olundu. Lakin Əbdülhəmid dövrü onu rahat buraxmadı və Əli bəy Qafqaza qayıtmağa məcbur oldu.

1905-ci il tarixdə həziran ayında Hacı Zeynalabdin Tağıyev, Əli bəy, Əhməd bəy Ağayev və Əlimərdan bəy Topçubaşev "Həyat" qəzetəsini təsis etdilər. Iki il qədər müdirliyi Əli bəy öhdəsində idi.

Türkliyə və hal-hazırdakı elmlərə dair mühüm məqalələri var idi.

Millətin yaşaya bilməsi və tərəqqi etməsi üçün bir əsas olaraq "Türkləşmək, islamlaşmaq və avropalılaşmaq" lüzumunu iddia eyləmişdi.

"Həyat"dan əvvəl Əli bəy mürvəci-əfkarımız olan "Kaspi" qəzetəsində rusca məqalələr yazardı. Misirdə çıxan "Türk" qəzetəsinə Ə.Turani imzasilə bir neçə məktub ilə şeirlər göndərmişdi.

"Həyat" qapandıqdan sonra Əli bəy Bakıda "Füyuzat" ünvanlı "Türkcə bir məcmueyi-islamiyyə"nin nəşrinə başladı. Məcmuənin intişarı Tişrini-sani bir, sənə 1906-dan başlayaraq bir il davam etdi və 32 nömrə çıxa bildi. "Füyuzat" oxucularına din, milliyyət, ədəbiyyat, siyasət, tarix sahələrində bir çox məlumat vermişdi.

"Füyuzat" müdirinin haqqında "Türk yurdu"nun rəyi şayani-diqqətdir: "Füyuzat" məcmuəsinin baş mühərriri biltəb türkdür və türkçidir.

"Füyuzat" qapandıqdan sonra Əli bəy "Irşad" (1908), "Tərəqqi" (1908) və "Həqiqət" (1909) qəzetlərində çalışdı. Məşhur əsəri olan "Siyasətfürüst" bu qəzetələrin təfriqə sütununda basılmışdı. Natəmam qalan bu əsərin fikir əsası Dantenin "Məzhəkeyi-ilahiyyə"sindən

məlhəm İranın qüvveyi-xəyaliyəsinin bir tarixidir. Bunda Adəm atanın zühurundan bəri gəlib-keçən İran Kəsraləri, şahları, xanları, Əbu əs-səlatii Kəyumərsin hüzurunda rəsmi bir keçid yapırlar. Hal-hazıra məxsus bəzi adamlar da o Keçidi-rəsmə tamaşa edirlər. Hökmdarlar dünyada eylədikləri yaxşılıq və pisliyə görə behişti bir səadət və ya cəhənnəmi bir əzab içində qalırlar. "Siyasətfürüst"da Əli bəyin dini, əxlaqi, siyasi və milli fikirləri bəyan olunur.

Əli bəyin "Əbdi-qəlaf və məhfuzə" adlı bir hekayəsi də var. Mətbuatdan çəkildikdən sonra Əli bəy Hüseynzadə Bakıda "Səadət" məktəbində bir müddət müdirlik eyləmişdir.

1910 tarixində Əli bəy Istanbula gəldi və müsabiqə imtəhanına girib, təkrar qazandı və Darülfünunun Tibb şöbəsində cildi və Firəngi xəstəliyin müdiriyyəti şefi oldu. Bir müddət sonra Məclisi-səhiyyə əzaliğəyə təyin olundu. Əli bəy "Türk Yurdu" məcmuəsinin müəssislərindəndir; "Türk ocağı" klubunun ağsaqqalları cərgəsinə seçildi. "İttihad və Tərəqqi" firqəsinin Üçüncü qurultayında məclisi-ümumi ezalığına intixab olundu.

Son zamanlar Əli bəy çox oxuyur, heyfa ki, bir şey qələmə almayır.

1921

TARİXİ, COĞRAFİ VƏ İQTİSADİ AZƏRBAYCAN

Əziz yoldaşımız və böyük mürşidimiz
Məhəmməd Əmin Rəsulzadəyə
sevgi ilə ithaf edirəm.

Yusif Vəzirov

MÜQƏDDIMƏ

Azərbaycan şərq ilə qərb arasında körpü təşkil edən bir ölkədir.
Ən qədim zamanlardan bəri bu körpüdən müxtəlif irqlərə mənsub millətlər keçib getmişlər. Bunlardan məmləkətimizə yerləşib, kök salanlar da olub. Təbiidir ki, gəlmələr ilə yerlilər arasında uzun mücadilə və mübarizə sayəsində qanlar qarışıb, din və dillər dəyişilib və nəticədə başqaca bir mədəniyyətə malik, ayrıca bir millət vücuda gəlib. Bu millət azəri türkləridir.

Azəriləri ovsafi xüsusiyyətlər ilə müəyyən bir şəklə soxan bir tarix var. Bu tarix islamdan çox əvvəl başlayaraq dövrlər keçirmiş; ərəblər, səlcuqlar, monğollar, iranilər, osmanlılar Azərbaycan tarixində mühüm rollar oynamışlar. Son əsr rus istilası ilə bərabər, Avropa mədəniyyəti də məmləkətə girmiş və bu sayədə Azəri mədəniyyəti inkişafiə lverişli bir sahəyə çıxmış.

Azərbaycanın tədqiqi türkoloqlar üçün yeni bir meydan açır. Bu sahə, bizcə, o qədər maraqlı və şayani-diqqətdir ki, ayrıca öyrənilməsi icab edər. Məqsədə müvəffəqiyyətlə varmaq üçün türkolojiyaya birdə azərolojiya şöbəsi artırmalıdır. Zənn edirəm ki, azərolojiya şərq tarixi- mədəniyyətinə yeni-yeni səhifələr əlavə edəcək.

Azərbaycanın keçmişinə dair iki mühüm əsər yazıldığını "Kəşfülzünun" dan[1] öyrənirik. Biri, "Tarixi-Azərbaycan" müəllifi Labün Əbu Əlhica Əlrəvadi[2]; ikincisi, "Tarixi-Aran" müəllifi Əlbərdəi. Heyfa ki, bu kitabları əldə edə bilmədik. Bunlar tapılarsa, tarixi məlumatımız üçün yeni ufüqlər açılar.

[1] Kəşfül-Zünun fi Əsamiya-Kütbül-fünun. Katib Çələbi. Birinci cild, səh. 317

[2] Aran haqda Leypsiqdə bir əsər basılmışdır: J.Marguart Untersucliangen zur gesehite Von Eran 1895-1905.

“Qüdsi”nin “Gülüstani-İrəm”i istisna olaraq Azərbaycan tarixinə həsr olunmuş başqa bir əsər mövcud deyil, zənn olunur.

“Gülüstani-İrəm” Şirvan tarixindən ibarət olub, məsələni bizim təsəvvür etdiyimiz nöqtədən tənvir eləmir. Oxucularıma təqdim etdiyim “Tarixi, coğrafi və iqtisadi Azərbaycan” əsl tariximizə müqəddimə təşkil edə biləcək, zənnindəyəm. Bu əsər bir projerdir ki, tariximiz o dairədə yazılıb, meydana çıxacaq. Vətəndaşlarımın milli tariximizə olan həvəsinə bu risalə ilə kiçicik bir xidmət edə bilsəm, məqsədimə nail olacağam, zənnindəyəm.

Müəllif

BİRİNCİ HİSSƏ

AZƏRBAYCAN VƏ SƏRHƏDİ

Məmləkətimizin adı "Azərbaykan", "Azərabadqan", "Azerbiycan", "Azərbaycan" – deyə şərq müəlliflərində mərufdur. Qədim yunan və Roma müvərrixləri isə "Atropaten" təsmiyyə edirlər. İbn Əlmüqəffe qövlünə görə "Azərbaycan" Azərbaz bin Əsud bin Sam bin Nuh və yaxud Azərbaz bin Bivərasəfin adı ilə təsmiyyə olunmuşdur. Digər rəvayətə görə, "Azər" pəhləvicə "Od", "Baykan" "Saxlayan" mənalarına olduqda, "Azərbaycan" – "Atəşxana" və "Atəşgədə" mənalarına gəlir.

İkinci ehtimalın qüvvətli olduğuna məşhur müvvərrix Təbəri, ərəb coğrafiyunu Yaqut Həməvi və osmanlı alimlərindən Şəmsəddin Sami qanedirlər.

Tarixi-Təbəricə[1] İranın ən böyük atəşgədələri Azərbaycanda imiş.
Doğrudan da, Bakı civarında Suraxanə adlı yerdə əlai atəşpərəstlər məbədləri durur və içində yaşadığımız əsrin əvvəllərinə qədər bu atəşgədələr Hindistandan belə özünə ziyarətçilər dəvət edərmişlər.

Azərbaycan qədim zamanlarda geniş bir ölkə imiş. Lakin sərhədi haqqındakı rəvayətlər müxtəlifdirlər. Tarixi-Tabəriyə görə "Həmədan həddinin ibtidasından ta Zəncana və Ohərə və axır Dərbəndi Xəzərə çıxınca bunlara Azərbaycan deyirlər. Səhayefül əxbarül-münəccimbaşi Azərbaycanın Aran və Ərməniyyə ilə müxtələt olduğunu qeyd edir və sərhədini böylə təsvir eləyir: "Şərqdə Deyləm və bəzi cəbəl şəhərləri; cənubda Iraq və bəzi cəzirə şəhərləri; qərbdə Ərməniyyə və bəzi Rume məmləkəti; şimalda Aran və Bəhri-Xəzərə müntəhi olur. Paytaxtları Ərdəbil, Şirvan və Təbriz imiş. Azərbaycana məxsus şəhərlər bunlar imiş: Xosrov, Səlmas, Cəzə[2] Naxçıvan, Berdənc, Xoy Xoyənh, Urmiyyə, Marağa, Ucan, Məyanic; Mərənd, Muğan, Bərzənd, Bərdə, Sultaniyyə.

[1] Təbəri min sənə əvvəl yaşamış mötəbər müvərrixlərdəndir. Bakı dənizinin Cənub sahilindəki Təbəristandan imiş. Vəfatı miladi 923 tarixindədir.

[2] 2 Cəzə – Cənzə – Gəncə deməkdir.

Ərəb coğrafiyunları: Əl-Müqəddəsi, İbn Hövqəl, İsmail Əbu Əlfida da Azərbaycanın Ərməniyyə və Aran ilə müxtələt olduğunu iddia edirlər. Ibn Hövqəl deyir: "Ərməniyyə, Aran və Azərbaycanı bir ölkə zənn edirik. Doğrudan da onlar bir padşah tərəfindən idarə olunur".

Yaqut Həməvi Azərbaycanın Bərdədən Ərzuruma qədər imtidad etdiyini "Möcəmül-büldan"ında[1] yazır.

Azərbaycanın abadanlığı haqqında bütün müəlliflər həmrəydilər, bağ-bağça, abad kənd və şəhərlər hər kəsin nəzərini özünə cəlb eləyir.

Bu bolluqdan dolayı Əl-Müqəddəsi Azərbaycanı "Əlrəhab" deyə təsmiyyə eləyir. Azərilər haqqında Yaqut Həməvinin rəyi şayani-diqqətdir:

"Əhalisi yumşaq təbiətli, hüsn-müamilə sahibi olub, yalnız təbiətlərinə bəxl qalib gəlmişdir, yəni bir az bəxldirlər", deyir.

ARAN

Azərbaycanın Qafqaz hissəsinə "Aran" deyirlərmiş. "Möcəmülbüldan"və "Təqvimül-büldan"da "Arran" deyə "ra"nın təşdidi ilə göstərilir. Əl-Müqəddəsi "Əhsənül Təqasim fi mərifətül Əqalim"ində "Əlran" yazır. "Əlran"ın mücərrəd istemalı "Rəvan" deməyə vasitə olduğu rəvayət olunur. Bəzi müəlliflər Aranı Arazla Kür çaylarının arasındakı yerə isnad verirlər. Əksər mənbələr, məsələn, ərəb və osmanlı coğrafiyunları "Aran"ın daha geniş bir ölkə olduğunu qeyd edirlər. "Aran"a məxsus şəhərlər bunlar imişlər: Gəncə, Bərdə, Tiflis, əvan, Naxçıvan, Muğan, Dərbənd, Şirvan, Şamaxı, Qarabağ, Ərəs, Bakı, Qızıl-Ağac, Lənkəran, Şəmkir və başqaları.

Əlyövm "Aran" Gəncə vilayətində dağ müqabili mənasında işlənir, Kür ilə Araz arasında mal-qara qışlayan yerin adıdır.

Hicrətin altıncı əsrində ibtida Aranda və sonra bütün Azərbaycanda Atabəylər dövləti təşkil olundu və hökumət yetmiş yeddi sənə davam etdi. Bu dövlətin müəssisi Kamal Sümeyraminin qulu Şəmsəddin Eldənizdir. Sultan Məsudə keçən Eldəniz azad olunub və sonra əql və fərasəti sayəsində Arana vali təyin olundu. vaxt aranda ixtilal var idi. Eldəniz Gəncə, Bakı və Şirvanı yenidən fəth etdi.

.

[1] "Möcəmül-büldan". Müəllifi Yaqut Həməvi yeddi yüz il əvvəl Azərbaycanı ziyarət etmiş bir ərəb coğrafiyunudur

Eldəniz səlcuqilərdən Arslan şahın anası ilə evlənib, oğluna "Atabəy" olmuşdu[1].

555-dən 567-yə qədər bütün hökumət əlində olduğu üçün "Atabəy- əzəm" ünvanı daşıdı. 563 tarixində Azərbaycan Atabəyinə vergi verməkdən boyun qaçıran Rey əmiri Inanca qarşı dava edib, mülkünü Azərbaycana ilhaq etdi.

568 tarixində vəfat edən Eldənizin taxtına oğlu Cahan Pəhləvan Məhəmməd keçdi. 570 tarixində Cahan Pəhləvan Təbriz və Marağanı zəbt edib, Azərbaycana qaytardı.

Cahan Pəhləvan 582-də vəfat etdi və yerinə qardaşı Qızıl Arslan Osman çıxdı. Qızıl Arslan Sultan Toğrul qiyamı ilə uzun-uzadıya uğraşdı və axırda təskin etdi. Lakin, rahat yaşayamadı; bir batini fədaisinin əlində öldü (587).

Qızıl Arslanın vəfatından sonra Eldəniz sülaləsinin hümməti ilə toplanmış böyük Azərbaycan parçalandı: Iraqi-Əcəm Qütluğ Inanc tərəfindən əldə edildi. Təbriz taxtına Qızıl Arslanın qardaşı oğlu Atabəy Əbubəkr cülus elədi.

Atabəy Nüsrətəddin Əbubəkr Cahan Pəhləvan Aran və Azərbaycanda iyirmi il səltənət sürdü. Öldükdə yerinə keçən oğlu Atabəy Müzəffərəddin Özbək on beş sənə müstəqil Azərbay canı idarə etdi.

622 tarixində Cəlaləddin Xarəzmşah Azərbaycanı istila edərək Eldəniz sülaləsinin hökumətinə nəhayət verdi.

BAKI DƏNİZİ

Bakı dənizinin bir çox adı var. Ərəblər "Bəhri-Xəzər" deyə adlandırırlar. Rus vaqeənəvisləri də bəzən bu ismi işlədirlər. Bəzi vaqeənamələrdə "Xarəzm"dən iqtibasən "Xalis", yaxud "Xalims" dəryası deyə qeyd olunmuşdur. Yalnız on altıncı əsr miladiyə məxsus bir vaqeənamədə "Bakı dənizi" ünvanı qollanılır. "Bəhri-Şirvan", "Corcan", "Qaspius", "Bəhri-Əcəm", "Bəhri-Xorasan" deyənlər də olmuş. Hal-hazır da "Kaspi" adı ilə mərufdur.

Bakı dənizi haqqında ən qədim və ən doğru xəbər məşhur Heredotdan öyrənilmişdir. Bakı dənizinin ətrafı torpaq ilə əhatə olduğunu

Heredot bilirdi. Halbuki, miladi-Isadan üç əsr əvvəl Bakı dənizi Şimal

[1] Səlcuq hökmdarlarının övladlarını tərbiyə edənlərə "Atabəy" ünvanı verilirdi.

dəryasının bir körfəzi zənn olunurdu. Bu batil fikir beş əsr davam etdi. Heredotun məlumatı İsgəndər səfəri də elmi bir şey meydana çıxarmadı. Filosof Ərəstunun şagirdi İsgəndər Zülqərneyn səfərə çıxdıqda özü ilə bərabər bir çox müvərrixlər və ərbabi-fənn götürmüşdü. Məqsəd – coğrafiya və təbii elmlərə dair məlumat toplamaq və vaqeələri yazmaq idi. Buna rəğmən İsgəndərin səfərləri haqqında əlimizdə dürüst xəbərlər yoxdur. Bakı dənizinin tədqiqi İsgəndəri məşğul edirdisə də, bu yolda bir şey yapılmanın imkanı bulunmadı. Birinci Selefəq Niqadur, bu məsələni Patruqla həvalə elədi. Patruqla Bakı dənizini ziyarət etdi, üç əsr Isadan əvvəl tədqiqi nəticəsində dənizin Şimal dəryası ilə bitişik olduğuna qənaət hasil etdi. Bu yanlış fikir yunan fənn aləmində Roma dövrünə qədər davam etdi.

Roma imperatoru Pompeyin Qafqaz səfəri bəzi coğrafi məlumatlar meydana çıxardı. Lakin Bakı dənizi haqqında yeni bir şey qeyd etmədi.

Ptolomey və Pilini də Patruqlun xətasına şərik idilər. Səhvi Ptolomey bir az düzəltdisə də, o da xətadan xali qala bilmədi: Amu-dərya və Sır-dərya çaylarının Bakı dənizinə tökülməsinə inanırdı. Ərəb coğrafiyunu Məsudi Bakı dənizinin heç bir dərya ilə rəbti olmadığını söyləyir. Məsudi bu dənizi özünə bağırsaq şəklində təsəvvür edir.

Uzunluğunu 800 və enini isə 500 mil zənn edir.

İbn Hövqəl də Bakı dənizinin quru ilə əhatə olunmuş bir göl olduğunu qeyd edir.

BAKI

Bakuyə-Badku-Badkubə-Bakı rus axınına qarşı İran şahı Dara tərəfindən yapılmış bir qələ olduğu rəvayət olunur. Məsudi qövlüncə Bakının yanında yanar dağlı cəzirələr var imiş. Hind atəşpərəstləri "Baku" dedikləri əvvəl bu cəzirələrdən ibarət imiş. Ehtimal ki, şəhər də adını buradan almış. Çünki "Baku" hindu dilində cəzirə deməkdir[1].

[1] "Basar Əlnas fi məmləkətül Qafqaz" – Şeyx Əhməd Səlyani (fars dilində yazılmış bu kitabçanın yeganə nüsxəsi müəllifin oğlu Əlibəy Hüseynzadədədir.) Şeyxin "Kitabi-kəşfüləyyam və əl-Şohur" (farsca), "Merac-Əhmədi" (ərəbcə) və "Mürəbbiül- ətfal" (türkcə) namlarında başqa əsərləri də mövcuddur.

Başqa bir qövlə görə “Baqu” kəlməsi hind lisanlarından “Keçərate- qədim” dilində “həqiqətə doğru” mənasını ifadə edirmiş[1].

Şəhərin qədim təsvirinə ətraflı olaraq yalnız Övliya Çələbi “Səyahətnamə” sində rast gəlirik. Ərəb coğrafiyunları oranın neft və vulkanları lə maraqlanmışdılar.

Osmanlı səyyahı Bakı haqqında böylə yazır: “İç qələsinin qərbə nazir bir qapısı vardır. Hədidi-Naxçivanidəndir. Mühiti yeddi yüz addımdır. Yetmiş qələ, altı yüz bədəndir. Divarının qəddi qırx zira, makidir.

Qaya üzərində olduğundan xəndəyi yoxdur. Dəruni-qələdə torpaq örtülü yetmişə qədər əski ev vardır. “Heydər Şah Camesi” namilə bir də came varsa da, minarəsizdir. Xan, həmmam və sairdən nişan yox. Lakin dərya kənarındakı ribat-əzimi minə qədər evli, bağ və bağçalı, came, xan və həmmamlı çarşı və bazarlı bir şəhər məmurdur ki, üç tərafi sud ilə mühafizə olub, üç qapısı var. Şimala açılır. Gilan qapısı, cənuba Babül-əbvab qələsi qapısı, qərbə ləbi-dəryada liman qapısıdır[2].

Bu ribatdan yeddi ədəd böyük minarə görülməkdə idi. Üç həmmamı varsa da, “Mirzə xan” həmmamı qayət xoşdur. Çarşı və bazarı o qədər müzəyyən deyilir. Lakin Moskov sərhədi olduğundan Şahsevən, diz çökən əsgərləri vardır.

Şirvan əyalətində başqaca xanlıqdır ki, üç min əsgər və on iki hakimi vardır. Başqaca qazisi və yeddi nahiyəsi vardır. Bir kaç kərə Moskov qazağı qarşı Idil nəhrindəki şaykələr ilə gəlib, Gilanı və Bakı nahiyələrini zəbt və qarət etmişdir. Çünki qarşı tərəfi üç yüz mildə Moskov diyarıdır. Hətta o sənə bu qələyi Özdəmirzadə fəth etmiş, içində osmanlılardan Qubad paşa hakim ikən əcəmin təşviqi ilə Moskov qazağı gəlib Bakı qələsini mühasirə etmişsə də, onlarla bərabər əcəmlər dəndan-itiğdən keçirilmişdir. Hala cəmikləri sahili-bəhrdə bir püşteyi-ali üzərində durur. Şəhərin havası sahilcədir. Çünki qəzalarında pirinç, kətan, bağ, bostan hasil olur. Lətif pənbəsi olur. Amma suyu neft yağı qoxar. Şəhər qürbündə yeddi yerdə neft mədənləri vardır ki, hər biri bir lövndür: sarı, qırmızı, qara ilax... Nahiyələrindən misgər, sədan, rinəb, nəvahisi-əhalisi şəmi-əsl, şəmi-rouğən yakma-

[1] “Azərbaycanın paytaxtı”. – Məhəmməd Əmin Rəsulzadə (“Azərbaycan”, nömrə 67,1918).

[2] Şimalda Dərbənd, cənubda Gilan və şərqdə liman qapıları olmalıdır. Y.V.

yıb, həp qara neft yağını çıraqda yakarlar. Xalqı qayət təndürüst və tənpərvərdirlər".

Bakı Şirvanın yeganə əskələsi olduğu üçün əhəmiyyətli bir şəhər idi. Məmləkətim bütün ixracat və idxalatı Bakı vasitəsilə olurdu. Çin, Türküstan, Rusiya və İran karvanları həmişə mətaları ilə Bakıya gələrdilər. Rusiya tüccarları elçi rəpi qoyub, duz, neft, zafəran, ipək alardılar və əvəzində Bakıya samur, balıq dişi, sincab, bulğari telatin gətirirdilər. Çinin ipəyi ən qədim zamanlarda Bakı vasitəsilə qərbə gedərdi...

Bakı Azərbaycan Cümhuriyyətinin paytaxtıdır. Hökumət məclisiməbusan və dövlətin böyük müəssisələri bu şəhərdədir. Azərbaycanlıların mədəni tarixində Bakının böyük rolu var: birinci qəzetəsi, birinci qız məktəbi, birinci milli teatrı, darülfünun, qiraətxana və kitabxana... bu şəhərdə təsis olunmuşdur[1].Bir çox cəmiyyət-xeyriyyələr, tüccari şirkətlər burdadır. Azəri sərmayədarlarının mərkəzi, Avropa təhsili görmüş əksər münəvvərlərimizin iqamətgahı Bakıdadır.

Bakı Azərbaycanın maddi və mənəvi anasıdır. Məmləkətimizin hansı yerində fəlakət üz verərsə, xalq üzünü Bakıya çevirər və Bakı sevə-sevə köməyə gedər. Iyirmi sənə əvvəl Şamaxı zəlzələsində, on beş sənə müqəddəm Qarabağ aclığında, beş il bundan irəliki Qars və Ərdəhan qırğınında zərər görmüş müsəlmanlara Bakının böyük köməyi oldu.

Bakı müqtədir müəllifimiz Abbasqulu Aqa "Qüdsi" və ilk artistimiz Hüseyn Ərəblinin vətənidir. Azəri coğrafiyunu Mövlana Əbdülrəşid bin Saleh Bakuyi də bu şəhərə mənsubdur)[2].

"Musavat" firqəsinin lideri və istiqlalımız yolunda mühüm rollar oynamış Məhəmməd Əmin Rəsulzadə də bakılıdır[3].

---

[1] Azərbaycanda qiraətxana yalnız qəzetə oxunan müəssisəyə deyirlər. Qiraətxanalarda yemək, içmək və tütün çəkmək yasaqdır. Istanbulda "qiraətxana" bizdə "qəhvəxana" mənasında qollanılır.

[2] "Bakuyi" 15-ci əsr miladinin əvvəllərində yaşamışdır. Əsəri "Təlxisül-asar və əcayibül-mülk qəhhar" ərəbcə yazılıb.

[3] Mühərrir Məhəmməd Əmin Rəsulzadə haqqında "Mətbuatımızın tarixi" qismimizdə bəhs olunacaq.

DƏRBƏND

Dərbəndin iki adı daha var: “Dəmir qanı” və “Babül-əbvab”. Rəvayətə görə bu şəhəri Iskəndər Zülqərneyn bina edib və məşhur “Səddi-Iskəndər” ilə şimaldan axıb gələn “yəcuc və məcuc”lardan cənubu mühafizə eləyibdir. Daha mötəbər qövl səddin Xosrov Nuşirəvan tərəfindən çəkildiyi və şəhərin də onun zamanında inşa olunmasıdır.

“Tarixi-Təbəri” Dərbənd haqqında yazır: “Azərbaycan nəhayətində neçə yollar vardır ki, ondan Xəzər şəhərinə gedirlər. Bəz qəredən və bəz dəryadan gedildiyindən onların cümləsinə Dərbənd deyirlər və ərəbcə “bab” deyərlər və əvvəl cəmi yollara “əbvab” deyirlər.

Orada dəniz kənarında bir şəhər vardır ki, ona Xəzər deyirlər, bu Xəzərdə cəmi yollar birləşdiyindən ona “Babül-Əbvab” deyirlər”[1].

Əbubəkr Əl-Həmədani deyir ki, Babül-Əbvab qabaq, yəni Qafqaz dağlarındakı keçidlərin ağzıdur. Orada çox qələ vardır. Əz cümlə-Babi-Sol, Babi-Lan, Babi-Şabran, Babi-Lazke, Babi-Barge, Babi-Simsin, Babi-Sərir, Babi-Filanşah, Babi-Tarunan, Babi-Təbərsəranşah, Babi-İranşah...

“Dərbəndnamə”nin şəhər haqqındakı rəvayətləri bir parça əfsanəvidir, lakin tarixi həqiqətdən xali deyil. Məlumdur ki, şimala malik türk köçəri qövmləri ilə cənub dövlətləri arasında həmişə vuruşma olurdu. Cənub mədəniyyəti zənginlik və abadanlığı ilə macəracu köçəriləri özünə cəlb eləyirdi. Yağmagir axının önünü almaq üçün tədbirlər çəkilməsini iqtiza edirdi. Bu tədbirlərin ən qüvvətlisi, şübhəsiz ki, Dərbənd səddi idi.

Şimal ilə cənubun ədavətini kəsmək üçün Qubad şah Xaqanın qızına elçi göndərdi. Xaqan razı oldu və qızını əqd edib, şahın paytaxtına göndərdi. Qubad şah təkrar elçi göndərdi və sülhün bərqərar olmasından razılıq edib, təvəqqe etdi ki, iki dövlət arasında bir sədd qərarlaşdırılsın ki, fitnə və fəsada yer qalmasın. Xaqan İskəndər səddini nişan verdi və orada bir şəhər inşa olunmasını arzu etdi. Qubad şah on min qoşun ilə bir çox ərbabi-ixtisas göndərib, Dərbəndin binasına şüru etdi. Yeddi ay müddətində İskəndər səddi təmir və şəhər bina olundu və dəmir qapılar

[1] “Tarixi-Təbəri”, tərcüməsi, cild 3. İstanbul, 1306.

Böyləcə, şimal axınına qarşı qüvvətli bir divar çəkdikdən sonra Qubad şah Xaqanın qızını bakir olaraq geri göndərdi. Qubadın fikrincə əvəz olundu. Dərbəndin müdafiəsi üçün Qubad İrandan bir çox tayfa köçürüb o səmtdə oturtdu. Xaqanın qızından olan övlad məmləkətdə nizayə səbəbiyyət verərmiş və şimal düşməni İrana daxil olarmış.

"Dərbəndnamə"nin bu əfsanəsini Əbül-Əbbas Əl-Tunsi başqa bir zamana isnad verir. Nuşirəvan Xəzər hökmdarına elçi göndərib, qızını ona vermək üzrə onun da qızını zövcəliyə istədi və düşmənə qarşı müştərək hərəkət etmək üçün ittifaq tələb etdi. Xaqan razı oldu və qızını verdi. Nuşirəvan isə hiyləgərlik edib, qızı əvəzinə cariyələrindən birini göndərdi və sonra məktub yazıb mülaqat tələb etdi. Müəyyən bir yerdə görüşdülər. Nuşirəvan sərkərdələrindən birinə üç yüz kişi alaraq türkləri qarət etməsini əmr etdi. O da padşahın əmrini yerinə yetirdi. Sabah bundan dolayı Xaqan Nuşirəvana şikayət etdi. Şah bu işdən xəbərsiz olduğunu söylədi. Sonra yenə eyni əmri verdi və Xaqanın yeni şikayətinə əvvəlki cavabı verdi. Bu dəfə Xaqan Nuşirəvanın hərəkətinə cavabən İran qoşununu qarət etdirdi. Nuşirəvan şikayət edərək ədavətin qarşısına çıxmaq çarələrini göstərdi və iki tərəf də razı olub, Dərbəndi bina etdilər. Səddin uzunluğu yeddi fərsəx oldu.

Əl-Müqəddəsin rəvayətinə görə sədd qabaq Qaf dağından enib dənizə qədər gedir. Divarın şimal cəhətində üç qapı var imiş. Şərq və cənubda, yəni dəniz və islam ölkələri tərəfdə qapılar çoxluca imiş.

Məsudi səddin Təbəsaran qələsinə qədər çəkildiyini söyləyir.

Nuşirəvan ehtiyaca müvafiq miqdarda divar uzunu dəmir qapılar asdırıb və bu qapıları Xəzər, Alan, Türk və Sərir kimi qövmlərin hücumundan mühafizə məqsədilə oraya bir çox millətlər köçürdüb oturtdu. İmtiyaz olaraq bu millətlərin hökmranlarına Nuşirəvan rütbələr əta edib və sərhədlərini göstərdi. Şirvan, Feilan, Liran, Xorasan, Təbəsəran və Zərengəran bu qəbildəndir ki, özlərinə məxsus şahları var idi. Ləkəz (Ləzgi) hökuməti o vaxt Şirvanın ən qüvvətli istinadgahı idi.

Dərbəndin şimalında Curcan ölkəsi var idi: paytaxtı Səməndər idi[1]. Xəzərlərə tabe olan bu torpaqda cənuba qarşı birinci hücumlar vaqe olardı.

İbn Hövqəl Dərbəndin Əskələsini təsvir edərkən iki divar arasında olduğunu qeyd edir. Divarlar arasında çəkilən zəncir əskələni mühafizə edərmiş, gəmilər əzan ilə əskələyə girib çıxarmışlar.

[1] Səməndərə ruslar "Petrovki" deyirlər.

Yaqut Həməvinin xəbərləri daha da maraqlıdırlar: “Dərbənddə” babül-məbhad üzərində divarda daşdan iki əstəvanə var. Hər bir əstəvanə üzərində ağ daşdan bir Arslan heykəli var. Divarın alt tərəfində iki daş var, onların üzərində dişi Arslan heykəlləri mövcuddur, qapının yanında daşdan bir insan heykəli var. Heykəlin ayaqları altında tabaşirdən bir tülkü və ağzında üzüm salxımı vardır. Şəhərin civarında suları toplayacaq bir səhric var və onun yanında bir pilləkan vardır ki, səhricə enilər. Pilləkanın yanında daşdan bir Arslan heykəli vardır ki, bunlar səddin tilsimi imişlər”.

Övliya Çələbi zamanı Dərbənd İrana tabe bir xanlıq imiş. On iki hakimi, münşi və kələntəri, yasavul, qurucu, diz çökən, çikyeyən ağaları, iki min diz çökən tülünkü, doqquz min nökəri var imiş. Qələ haqqında Övliyanın yazıları bunlardır: Qələ bir püşteyn-ali üzərində xəms şəklində bina olunmuşdur. Ustad mühəndisi binayi-aqibət əndişi bu qələyi üç blok inşa etmiş və üç ədəd mətin və qəvi üçər qat dəmir qapılarla təhkim eləmiş. Qələnin bir bloku şərq canibinə hail olan divarda iki qapı vardır. Aşağı şəhərə məkşuf iki qəvi qapısı vardır. Biri məskur qapısıdır ki, şərq tərəfdən məskur nahiyəsinə açılır. Bu qapıdan çıxanlar at arabaları ilə Şamaxı qələsinə gedərlər. Bir qapısından dəxi çənuba Dəşte-Qıpçaq, Krım, Çərkəsistan tərəflərinə gedirlər.

Qələnin üçüncü bloku dəniz tərəfinə düşmüşdür. İçində o qədər abadanlıq yoxdur. Qələnin şəkli mürəbbe olub, dairən madar cirmi on bir min altmış addımdır. Yetmiş qəleyi-əzimi vardır ki, hər birində qürəba və mücrdan üçün bir mədrəsə, bir məscid bulunması müqərrərdir. Qələnin ətrafında yeddi min altmış dəndan və bədən vardır”.

Qələdən başqa şəhərin içindəki təsviri maraqlıdır: “Qələ dərunində min iki yüzə qədər torpaq örtülü ev vardır. Cənub tərəfində divara müttəsil böyük bir saray vardır ki, İran zəmininin birinci saraylarındandır.

Bu saraya müttəsil böyük bir came var, minarəsi yıxılmış. Bu came qərbində osmanlı tərzi-memarisində bina olunmuş ziba bir həmmam vardır. Banisi məlum deyil. Qələnin şərqə açılır qayıq qapısı qürbində Özdəmirzadə Osman paşa camesi, xanları, dükanları vardır”.

ŞİRVAN

Şirvan qədim zamanlar bir şəhər olub və Nuşirəvan bina etdiyi rəvayət olunur. Əvvəlcə adı "Ənuşirəvan" imiş, sonra təxfif üçün "ənu"nu kəsiblər. "Şirəvan" qalıb. Bir qövlə görə "Şirəvand" (yəni, süd yeri) imiş, axırda "Şirvan" olub[1].

Əl-Müqəddəsinin ravayətinə görə Şirvan düz yerdə bina olunmuş böyük bir şəhər imiş. Ortasından çay axırmış. Binaları daş tikili imiş və meydanında bir came var imiş.

Başqa bir mənbədən əxz etdiyimiz məlumata nəzərən Şirvan şəhəri indiki Quba şəhərinin cənub-şərqində imiş. Guya şəhərin yerində əlan "Şirvan şah" adlı bir kənd mövcuddur.

"Həft iqlim"də Əmin Əhməd söyləyir ki, Şirvai zamani-sabiqdə ismi-şəhər idi. Hala bir neçə şəhəri müştəməl vilayət adıdır.ı Bakı, Şamaxı, Ərəs, Dərbənd və qeyri onlardandır.

Zatən tarixində də Şirvan vilayət olaraq şöhrət bulmuşdur; Həzrət Ömərin zamanından bəri ismi aydın bir şəkildə zikr olunmağa başlayır.

Azərbaycan Həzrət Ömərin xilafətində ərəblər tərəfindən alınmışdı. O zaman sərdari-əhli-islam Sürağə bin Əmir Şirvan səmtini mühafizəyə Bəkir bin Abdullanı göndərmişdi. Əbdülrəhman bin Rəbiə muqəddəmətül-ceyş təyin olunmuşdu. Əvvəl zaman fars padşahları övladından Şəhriyar nam kimsənə Şirvanda hökmran idi[2].

Əbdülrəhman və Bəkir Şirvana yavuqlaşdıqda Şəhriyar ərəblər qarşısında zəifliyini duyaraq amana gəldi və şimal axınına qarşı bir sədd təşkil edərək cənubu mühafizə etməsini təklif etdi. Məsələ Həzrəti Ömərə ərz olundu və Həzrəti-Ömər Şəhriyarın təklifini faydalı görüb qəbul etdi. "Bəni Əmiyə" əsrində Muslümə bin Əbdülmülk Şirvan cəhətlərinə səfər edib, xalqı dini-islama gətirdi.

Məsudi zamanında (hicrətin 332 tarixində) Məhəmməd bin Yəzid Şirvan şahı olub, bir aylıq qədər məsafəyə hökmü sürərdi.

Şirvan şahlarını Qazi Beyzavi "Nizamül-təvarix"də Bəhram Çubin nəslindən və Ərdəşir Babək övladından ədd eləyir. Məsudi də bu nöqteyi-nəzərdədir. Qazi Əhməd Qəffari isə "Cəhanara"da Nuşirəvan

[1] "Gülüstani-İrəm". Mirzə Abbasqulu Xan "Qüdsi"

[2] "Cahannüma"da və Əhməd Cövdət tarixində "Şəhriyar" deyə zikr olunan bu zat "Tarixi-Təbəri"də "Şəhrizad" təsmiyə olunur

zürriyyəti olduğunu qeyd edir. Şirvan şahlarının silsileyi-nəsəbləri bu üzrədir: Əbulmuzəffər Mənuçöhr bin Kəsran bin Kavus bin Şəhriyar bin Kərşasf bin Əfridun, bin Fəramərz bin Salar bin Zeyd bin Covn bin Mərziban bin Hörmüz bin Ənuşirəvan.

Mənuçöhrdən sonra evladlarından on iki nəfər Şirvanda hökmran oldular: Fərruxzad bin Mənuçöhr, Güştasb, Fərruxzad bin Fəramərzovan, Keyqubad, Kavus Keyqubad oğlu (vəfatı-773 tarixində) və sonra huşəng bin Kavus on il hökumət sürdükdən sonra səltənət Şeyx İbrahim bin Sultan Məhəmmədə keçdi (vafatı 820-də). Vəfatından sonra oğlu Xəlil Sultan oldu. 867 tarixlərində Şirvanşah padşah oldu və 906- da Şah İsmayıl tərəfindən qətl olundu. Yerinə oğlu Bəhram keçdi. Bir ildən sonra qardaşı Qazi bəy, bir ildən də sonra qardaşı Şeyx İbrahim cülus etdi. 909-da Şeyx İbrahim oğlu Sultan Xəlil taxta çıxdı. 945-də şah Təhmasib Şirvana səfər edib, Sultan Xəlili öldürtdü və bunun ilə Şirvan şahlığı münqəriz oldu.

Min tarixlərə yaxın osmanlılar iranlılara qələbə çalıb, Şirvanı aldılar.
Lakin Anadoluda Cəlalilər üsyanı zamanı Şah Abbas fürsət tapıb, təkrar Şirvanı İrana ilhaq etdi.

18-ci əsr miladinin sonlarında rus orduları Şirvanı zəbt etdi. İkinci Yekaterinanın vəfatı işləri dəyişdirdi və ruslar Şirvanı təxliyə etdilər. 19-cu əsrin əvvəllərində Şirvan xanlığı təkrar istila olunub, Rusiyaya ilhaq olundu. Şirvan bir çox böyük şəxslər yetirib: Xaqani, Seyid Əzim Şirvani, Sabir ədəbiyyatımızın zinətidirlər. Dini sahədə şöhrət bulmuş bir çox alimlər də Şirvanın məhsullarındandır[1].

ŞAMAXI

Şirvan şəhərlərindən olub, Ənuşirəvan binası olduğu rəvayət olunur. Övliya Çələbi Yəzdigürd şahı ilk banisi ədd eləyir. Ərəb coğrafiyunları bu şəhərə çox əhəmiyyət vermirlər: başqaların içində gözəlliklərindən, bağ və bağçalarından, daş və kəc tikililərindən ötəri olaraq bəhs edirlər. Rəvayətə görə Zühureyi-Musa və çeşmeyi-heyvan burada imiş. Şamaxı haqqında Övliya Çələbinin məlumatı şayani diqqətdir: "Şəhərin isminə "Şam Əxidən təxfifən "Şamaxı" deyil-

[1] Mənim "Azərbaycan ədəbiyyatına bir nəzər" ünvanlı kitabıma baxmalı. (Dər Səadət, 1921).

miş, – deyənlər də var. Bu da guya buranın ilk sakinlərinin Şamdan gəlməsindən imiş. Qırx xanlıq, qırx səkkiz qazılıq olub, qırx nahiyəsi, yetmiş qələsi, min üç yüzə qədər də məmur kəndi var. Qədim və abadan ir şəhərdir. Süleyman xan vüzərasından Ülama paşa, fərman valise Piri paşa Süleyman xanın naməsi ilə bu Şirvan şəhərinə gəlmişlər, əyani bilmüşavirə qələ miftahlarını Piri Paşaya verərək osmanlılara muti və münqad olmuşlardır. Keyfiyyət Süleyman xana xəbər verilincə qələ idarəsini Piri Paşaya təfviz buyurmuşdur. Sonra Şah Təhmasib bu qələni yeddi ay mühasirə edərək içindəkiləri aman ilə təslim aldığı halda həp devirmiş və idarəsini də bəradəri Əlqas Mirzəyə vermişdir. Sonra Əlqas Mirzə üç sənə burada hökumət sürmüşsə də, bəradərinin övzai və ətvar kəndisini şübhə və can qurxusuna düşürdüyündən 954 sənəsində Şirvanı tərk edərək, bir gecədə aldığı ənba va hüdam ilə osmanlı diyarına üz çevirmiş. Qırx günə qədər Heyhat səhrasında yürüdükdən sonra Kufəyə gəlmiş, oradan da bir gəmiyə minərək DarülSəadətə gəlib fövqəladə iltifat görmüşdür.

Mirzə Əlqas İstambulda Pərto Paşa sarayında məks etmişdir. O əsnada Ədirnədə bulunan Süleyman xan böyük bir alay ilə İstanbula gəlmiş, dirnə qapısından girmiş, şahzadə Cameyi yanında Mirzə Əlqas dəxi bu alayı tamaşa eləmişdir. Kəndisinə iltifat edən cənab padşaha: "Ey güzideyi-Al-Osman: sən bu darat və əzəmətlə nəsli ol yurda əcəm şahı olacaq qardaşıma qarşı durmursan?" – deyərək əsgərin intizam və dəbdəbəsinə heyran qalmışdır. Sonra Süleyman xan Van və Azərbaycan səfərinə getdiyi vaxt bu Əlqas Mirzəyi dəxi bərabər götürmüşdür ki, tarixi 945 Təbrizdən Lala Mustafa Paşa Şirvan vilayəti üzərinə sərdari müəzzəm olub, Əlqas Mirzə dəxi əvvəlcə Şirvanda hökumət etdiyindən böyləsincə getmiş, Naxçıvan, Rəvan, Gəncə, Şirvanı bərabərcə təxrib etmişdir. Dönüşlərində Təhmasibin vəfatı xəbərini almışlardır.

Sonra qəleyi-Şamaxı dəxi muhasirə olunaraq yeddi gündə Şah Təhmasibin oğlu Ələndi Virə ilə alınmış və yenə təmir və tərmim edilərək içinə miqdari-kafi əsgər və mühimmat qoyulmuşdur. Əlqas Mirzə ilə də Şirvan əyaləti daxilində Mahmudabad xanlığı dirilmiş. Ürəyi yanğından Mirzə bir çox kərələr əcəmə salğın edib elini, vilayətini xərab eləmişdir. Sonra Şirvanda çox münaziələr çıxmışdır. Nəhayət, Sultan Murad Salis dövründə Özdəmirzadə Osman paşa Dəmir qapını və buranı aman ilə təslim alıb, qələsini təmir etmişdir. Sonra

yenə əcəmlərin əlinə düşmüşsə də, qoca Fərhad paşa tərəfindən qurtarılmışdır. Nəhayət, yenə əcəm buraları istila elədiyindən Dəmirqapı paşası ilə Xəndan Ağazadələr xanədanı aman ilə çıxıb dəri-dövlətə gəlmişlərdir. O əsrdən bəri əcəm əlində olub, hala xanlıqdır. Qazısı, on iki hakimi var. Qələsi Kür nəhri sahilində və bir ali püştə uzərində olub, sənkin bina bir hüsni-həsindir. Hala iç qələsi müstəhkəm və məmurdur. Lakin aşağı qələsi cabeca rəxnədar olmuşdur. Düzdari, diz çökən ağası, minə qədər qələyi-nəfəratı vardır. Şəhər içində təxminən yeddi minə qədər torpaq örtülü məmurxanələri vardır. Hər öndən çay keçir. Bağ və bağçalarının həddü hesabı yoxdur. İyirmi altı məhəlləsi vardır. Meydan və Şaburan məhəlləri şəhərin qayət güzidə yerində olduqlarından qayət məsnu, evləri vardır. Yetmişə qədər mehrabı vardır. Div Əli Camei kari-qədimdir. Əski Şah Təhmasibin imiş. Lakin varouşəndəki camaət kəsirəli Cameyi-kəbir Şah Səfinin binasıdır. Binası şirindir. Hürrəmində şafei-hovuz və şadrəvanı vardır. Ətrafında tələbə hücrələri var. Fərhad paşa camei övqafi olmadığından qapıları məsduddur. Lakin tərzi-Rumda qayət gözəl camedir. Özdəmirzadə camei şimdiki halda mədrəsədir. İçində şəhərin müftisi dərs təqrir edər. Yeddi mədrəsəsi, bir imarəti-təlimi-Şah Xodabəndənəgədəd qırx ədəd məktəbi-sibyanı, yeddi ədəd həmmami – dilistanı vardır. Amma Şabudi həmmamının ab havası, lətafəti-mövqiyəsi cümləsindən gözəldir. Mütəəddid xəlvətləri, hovuz və fəvvarələri var. Meydan həmmamı, Qazax xan hammamı, Fərəc xan həmmamı qaladan dişarı olub, qala qürbündə Xosrov xan həmmamı dəxi məşhurlarındandır. Bunlardan başqa hər bağda dəxi birər həmmam və birər hovuzi-şafei bulunur. Qırx dördə qədər kargir karvansarayları vardır. Mehmandarları dünlü yaxşı canlardır. Hər kəs xanəsindəki odasını bilaqifl sədd edib çarşı və bazarda mətaini istədiyi kimi furuxt edər; xanədə mətaini hali üzrə buraxır, buna da nigahbanlar müqəyyəd olurlar. Şirvan diyarı bu dərəcə əmin-aman yerdir. İki yüzə qədər dükançası varsa da, kargiri-bedsətanı yoxdur. Lakin yenə ziqiymət mətalar həp bulunur. Qəhvəxanaları qayət müzəyyən olub kani-zərifadır.

Zəmini-məhsuldarında pirinç, pənbe, yeddi dürlü üzüm, abbasi və mələcə armudları, qarpız hüsulə gəlir, havası etidal üzrə səhldir. Zira şəhər iqlim-fasın nəhayətindədir. Dilbəri-məmduhi cahandır. Uləma və süləhası çoxdur".

ŞƏKİ (NUXA)

Övliya Çələbinin rəvayətinə görə Şəkini Gürcüstanın Şuşalə məliklərindən Aleksandr bina edib. Ərəb coğrafiyunları "Şəki", "Cahannüma", isə "Nəxud" deyə şəhəri təsmiyə edirlər.

Övliyanın rəvayəti belədir: "Aleksandr bina etmiş, andən Tağestan bəyinin zir idarəsinə keçmişdir. Sonra əcəmlərə keçmişsə də, Murad xan Salisin vəziri Lala Qara Mustafa paşa fəth edərək Lavənd xan oğlu Irkelad bəyə ehsan eləmişdir. Sonra Mustafa xanın cülusunda əcəmlərin əlinə düşmüşdür. Hala sultanlıqdır. Min miqdari əsgərə malikdir. Şirvan əyalətində bir puştə üzərində səngin bina bir qəleyirənadır.

Gəncə və Şirvan qapıları namilə iki qapısı var. Üç min xanə, yeddi mehrab çamei vardır. Çarşi içində Mirzə Əli bəy camei, qələdə Lağum oğlu Əhməd bəy və Murad xan Salis cameləri məşhurdurlar.

Xan və hamamı, sovqi-müxtəsəri var. Bağ və bağçalarında nəzirsiz ipək hüsulə gəlir".

Şəki xanlığı ilk dəfə olaraq ruslar tərəfindən ikinci Yekaterina zamanında istila olundu. Birinci Pavel rus əsgərini Şəki və başqa xanlıqlardan geri çəkdi. Lakin on doqquzuncu əsrin əvvəllərində təkrar general Sisyanov tərəfindən zəbt olundu.

Şəki böyük yazıçımız Mirzə Fətəli Axundovun vətənidir[1].

GƏNCƏ

Gəncə Aran əyalətinin paytaxtı idi. İsgəndər Rumi tərəfindən bina olunduğu rəvayət olunur. Qubad bin Firuz zamanları böyük bir şəhər imiş. Ərəb coğrafiyunları nədənsə əsərlərində bu şəhərə əhəmiyyət verməmişlər; "Cənze" deyə yalnız adını deyib keçirlər.

Gəncənin üç yüz sənə əvvəlki halını Övliya Çələbi belə təsvir eləyir: "Hala əcəm elində şəhri-müəzzəmdir. Amma qələsini şah hədəm etdirmiş. Altı min xanəli bağ və bağça came, xan, imarət və həmmam və bədestan, məmur çarşılı bir şəhərdir. Şəhər bağlı bağçalı bir səhrada vaqe olub, qibləsi tağlardır. Üzəri sərapa bağlardır ki, Gəncənin tut ipəyi hər tərəfdə məşhurdur. Dörd çevrə səhraları, yeddi nahi-

[1] Mənim "Azərbaycan ədəbiyyatına bir nəzər" adlı kitabıma baxmalı.

yəlik göydür. Pambıq, birinc, hərir ilə kar edirlər. Gəncənin at nəli, dəmiri də ipəyi kimi məşhurdur. Bu şəhər-xanlıqdır. Üç min nökərə malikdir. Münişsi, kələntəri, darğası, qazi və hakimləri vardır."

Üç əsr əvvəl şərq şəhərləri arasında Gəncənin mövqeyini şair belə təsvir eləyir:

"Çənd şəhr əst əndər İran mortəfe" təraz həme,
Behtər o sazənde təraz xoşi abu həva
Gəncə pur gənc dər Aran, Sefahan dər Iraq,
Dər Xorasan Mərv-o digər Tus-o dər Rum Ağsəfa".[1]

Gəncənin avadanlığı yolunda vaxtilə şah Abbas çox çalışmışdı. "Şah Abbas məscidi" əlyövm Gəncənin şərəfli binalarından biridir. On səkkizinci əsrin əvvəllərində osmanlılar Gəncəni gürcülər əlindən qurtardılar. Otuz illik osmanlı idarəsi Nadir şahın Qafqaz səfəri ilə bitdi. 1735-dən 19-cu əsrin əvvəllərinə qədər Gəncə gah İrana tabe, gah da hürr bir xanlıq olur. Gəncənin ruslar tərəfindən birinci işğalı 1796-da vaqe olmuş. Lakin bir az sonra tərk etməyə məcbur olmuşlar. İkinci istila (1804) general Sisyanovun hücumu nəticəsində olub. Bu davada

Gəncə hökmranı Cavad xan qəhramananə bir müdafiədən sonra şəhid olunmuşdu.

Gülüstan müahidənaməsi mücibincə Gəncə xanlığı paytaxtı ilə bərabər Rusiyaya ilhaq olundu.

Gəncə əhalisi qədimdən bəri hüriyyətlərini müdafiə və mühafizə etməklə məşhurdurlar. Gürcü istilaçuyanə hərəkətinə qarşı köks gərib, mərdanə davalarda rəşadət göstərən Gəncə vaxtilə Çingiz xanın da nəzərini özünə cəlb etmişdi.

Çingiz ordusu Qafqasiyanı tarmar edərkən Gəncəyə toxunmadı: mərdanə və qoçaq xalqa riayət onların adətindən imiş.

Gəncə milli təşkilatı ilə Azərbaycanda birincilik qazanmış bir şəhərdir. Azərbaycan istiqlalı yolunda böyük rol oynayan fəalların əksəri Gəncədəndir. Gəncə Şeyx Nizaminin vətənidir. Türbəsi də oradadır.

[1] "Mənazirül-Əvalem". Məhəmməd bin Ömər bin Bayəzidəl-şəhr bileşq. Sənə 1005 (hicri).

BƏRDƏ

İbn-Hövqəl Bərdəni "Ümmül-Aran" deyə adlandırır. İsgəndərin binası olub və Qubad ibn Firuz təmir etdiyi rəvayət olunur. "Cahannüma" nın qövlüncə hicrətin 39-cu sənəsi islamlar tərəfindən bina olundu.

Əl-Müqəddəsinin rəvayətinə görə şəhər dörd guşəli imiş. İbn Hövqəl Bərdənin uzunluğunu 1 fərsəng hesab eləyir. Eni isə bundan bir az gödək imiş.

Min sənə əvvəl Bərdə bağlı, baxçalı gözəl bir şəhər idi. Bir çox hamamlar, karvansaraylar, bazarlar şəhəri zinyətləndirirdi. Bazarın arxasında böyük bir cami var imiş. Bu camein sütunları kərpic və gəcdən, bəziləri də taxtadan idi. Evlər əksərən kərpicdən imiş. Şəhər darvazalarından birinin adı "Kürd qapısı" deyə məruf idi. Bunun yanında "Kurku" adlı bazar olurmuş. Buraya şəhərdən və ətrafdan həftədə bir dəfə bir çox xalq toplanardı. Bu gün bazar gününə təsadüf edərdi. Mətalarından ipək çarşaflar, qaytan və xalıları məşhur imiş. Bərdənin fındıq məhsulu bol olurmuş. Bərdə gözəl və zəngin bir şəhər olduğu üçün rus şaykalarının hücumuna bais olurmuş. Ruslar hicrətin üçüncü əsrindən sonra bir neçə dəfə Bakı dənizi vasitəsilə bütün Azərbaycan sahilini yəğma etmişlər. O hücumlarda Bərdə də dəfələrlə xərab olunmuş.

Bərdə ədəbiyyatımızda böyük mövqe qazanmışdır. Şeyx Nizami "İsgəndərnamə"sində bu şəhəri mərkəz ittixaz edir. Poemanın qəhrəmanı İsgəndər Bərdə hökmdarı Xoş Abəyə eşq yetirib, onun yolunda ruslar ilə müharibə edir.

"Zakir" Bərdənin keçmiş təntənəsini bir şerində gözəlcə xatırlayır.

O viladə bir mehriban görmədim,
Gəlmişəm indi də mehriban gəzəm.
Seyr eləyəm tamam Tərtərbasanı,
Varmı aşiqinə can qıyan, gəzəm.

Tülək-tərlan ovlağıdı bu yerlər,
Bərdə torpağına eləyim güzər,
Görüm qalıbdırmı Şirindən əsər,
Baxam hər tərəfə nigaran gəzəm.

Xosrovi-Pərvizin şanu şövkətin
Fərhadın ələmü qəmü möhnətin,
Şapurun çəkdiyi nəqşi surətin,
Arayib-axtarıb hər zaman gəzəm.

Dolanıb sərasər çarsu bazarı,
Gətirəm nəzərə səmti-minarı,
Görsə xəbər alam bülbüli-zarı.
Necoldu ol güli-gülüstan, gəzəm.

Deyəm hanı bunda gəzən gözəllər?
Teyhulu meşələr, sonalı göllər?
Çayın kənarında tikilən ellər?
Yoxdur heç birindən bir nişan, gəzəm.

Ol baş-başa verən sərvi-rənalar,
Hər guşədən gələn sövtü-sədalar,
Zərrim piyalələr, meyi-səhbalar,
Kərdişi-badeyi-ərğəvan gəzəm.

Adətü qanunun o diyarın mən
Görmüşəm, yazıblar xeyli mustəhsən;
Bayram gecələri ta ki sübhətən
Neçə həmdəm ilə çırağan gəzəm.

Əmirzadələr yeyib naharı,
Yenə çapırşırmı Xənəgə sarı
Boynu qəlladəli səgi-şikari
Gəmişirmi seydə suvaran gəzəm.

Bundan əzəlki tək o viranədə
Güşti tutulurmu asitənədə?
Çillədə əsərmiş, şütürxanədə
Qızmış dəvələri görüb yan gəzəm.

Aşiqə söylərmi qasid ənqərib,
Qəm yemə dilrüba sənədir nəsib.
Zimistan qeydindən çıxan əndəlib
Axtarırmı tazə aşiyan, gəzəm.

Cəvhir füruşlar satarmı gövhər?
Xublar yaraşığı görərmi zərgər?
Karvansaralarda tacir, qələndər
Necə keçər şami – qəriban, gəzəm.

Gecə-gündüz daim bangi-cərəsdən
Qulaq tutulurmu sədayi-səsdən?
Bakıdan, Dərbənddən, Krım, Çərkəsdən
Gəlirmi mətai-bipayan, gəzəm.

Sayeyi-sərvdə məcməi-xuban,
Yenə əyləşirmi xoşdilü xəndan?
Yoxsa ki, onlara saqiyi-dövran
İçiribdir mey yerinə qan, gəzəm.

Nazəninlər ta tüluyi-afitab
Oturub gecələr çəkərmi gülab?
Çeşmi-aşiq kimi fəvvarədən ab
Tökülürmü hövzə nümayan, gəzəm.

Müzəyyən məhlələr, münəqqəş evlər
Mütriblər içində həng həvasulər
Toylarda çiğrışırmı bədövlər,
Çəkirmi şeyheyi firavan, gəzəm.

Həmamlarda məsrəf olan aqçanı,
Pozğun otaqları, uçuq taqçanı,
Yıxılan tağları, viran baxçanı
Xatirimə salıb pərişan gəzəm.

Təblü ələm sahibləri xanlara,
Darğanişinlərə, pasibanlara,
Ol səri sevdalı növçavanlara
Yaxa yırtıb, çaki-giriban gəzəm.

Qibleyi-hacətə yıxıb özümü,
İmamzadəyə sürtəm üzümü,
Xak olan tənlərə tikib gözümü,
Olam sağlığıma peşiman, gəzəm.

Hərgiz bu cahana yoxdur etibar,
Səfası bir isə, yüz cəfası var,
Baş götürüb gedəm diyarbədiyar,
Eləyəm aləmi imtahan, gəzəm.

Bülbüli-biçarə verdi xəbəri,
Dedi ki, qalmayıb şənlik əsəri.
Mən Zakirəm, onu görəndən bəri
Gərək cünun olub, biyaban gəzəm.

Hal-hazırda Bərdə kiçik bir qəsəbədir. "İmamzadə" ismində ziyarətgahı var. Qədim binalardan yıxınlar durur.

QARABAĞ[1]

Hal-hazırkı Qarabağ Gəncə vilayətinin cənub hissəsindən ibarətdir. Rus istilasına qədər (1822) xanlıq imiş. Ümdə şəhəri Şuşadır. Nadir şahın vəfatı ilə doğan Iran ixtişaşı zamanı Pənah xan Cavanşir və Otuz iki nam ellərinin vasitəsilə Qarabağı əldə edib, Şuşa qələsini yapdırdı. Şuşa ədəbiyyatımızda "Şişə" adı ilə mərufdur. Ağa Məhəmməd şah Qacar bu şəhəri istila etmədən əvvəl Qarabağ hökmranı İbrahim Xəlil xana yazmışdı:

"Zi məncənəqi-fələk səngi-fitnə mibarəd,
To əbləhanə girifti miyani-şişə qərar".

Xanın eşik ağası Molla Pənah "Vaqif" Ağa Məhəmməd şaha cavabən bu misraları göndərmişdi:

"Gər nigahdari-mən anəst ki, mən mindanəm,
Şişeira dər bəğəli-səng nigəh midarəd".

Şair "Zakir" Şuşa ruhanilərinin hərəkətlərini zəmm edərkən yazır:

[1] Qarabağ tarixinə dair "Qarabağnamə" adlı bir kitab Ibrahim xanın vəziri Mirzə Camal tərəfindən yazılıb. Farsca yazılmış bu əsərin yeganə nüsxəsi cavan mühibblərimizdən
Ağa oğlu Məhəmməd bəydədir.

"Şişəyə dəsti-qəza səngi-cəfa yağdırdı,
Şişəvəş sındı bu gün rövnəş-islam yenə".

Firidun bəy Köçərli Şuşanı "şairlər yuvası" deyə adlandırır, çünki bu şəhər bir çox şairlər vücuda gətirmiş. Böyük mütəfəkkir Əhməd bəy Ağayev, Azərbaycan ədəbiyyatı müdəqqiqi Firidun bəy Köçərli, teatrnəvis Əbdürrəhim bəy Haqverdiyev və Nəcəf bəy Vəzirov, birinci türk və islam operanəvisi (kompozitor) Üzeyir bəy Hacıbəyli kimi bir çox müqtədir zatlar həp Şuşanın məhsullarıdırlar. Qafqasiyanın məşhur xanəndə və sazəndələrini Qarabağ yetişdirir.

Övliya Çələbinin rəvayətinə görə Azərbaycanda üç ədəd Qarabağ var. Osmanlı səyyahı ikisini təsvir eləyir. Biri Təbriz sərhədində başqaca sultanlıq imiş.

Əgəri Fateh Sultan Məhəmmədxan vəzirlərindən Qoca Fərhad paşa bu şəhəri dağıtmışdı. Təkrar abad olduqdan sonra Sultan Muradxan Rabe ordusu tərəfindən xarab edildi.

Üç yüz il əvvəl üç min evli, yeddi cameli, yeddi həmmamlı, üç xanlı və altı yüz dükanlı bir şəhər idi. Gözəl bağları və cürbəcür meyvələri ilə məruf imiş.

İkinci Qarabağ Naxçıvan torpağında böyük bir şəhər və sultanlıq imiş. Bu şəhərin Mənuçöhr tərəfindən inşa olunduğu rəvayət olunur. Teymurləng və başqa komandanların qışladığı Qarabağlar burasıdır. On minə qədər evə, yetmişə qədər məscidə, karvansaraylara, həmmamlara malik bir şəhər imiş. Bağlarında iyirmi altı cürə armudu olarmış: mələcə, abbasi, ordubadi kimi.[1]

"Cahannüma"ya əlavə olunan Qafqas xəritəsində yalnız bircə "Qarabağlar" göstərilir. O da Şamaxı şəhərinin şərq cəhətində, deməli, Şamaxıdan çıxdıqda Kür çayına çatmadan Qarabağlara rast gəlinərmiş.

RƏVAN

Çuxur-Səd adlı bir ölkənin paytaxtı imiş. Övliya Çələbinin qövlünə görə 810 tarixində Teymurləngin sövdəgərlərindən Xacə xan Ləhicani ismində birisi təsadüfən bu ölkəyə gəlib çıxır və məhsuldar

[1] Şuşa şəhərində əlan "mələcə" armudları əmələ gəlir.

bir yer olduğunu görüb, düyü əkmək ilə məşğul olur və bir kənd inşa edir. Sonra Şah Ismayıl o kəndin yerində qələ bina olunmasını Rəvanquluxan am vəzirinə əmr edir. Vəzir yeddi ildə bina etdiyi qələnin dını Rəvan qoyub. Ərəb çoğrafiyunları Dəbil adlı şəhərdən bəhs dirlər; Rəvanın yerində qədim bir şəhər imiş. Ipək qumaşları ilə məşhur miş. Dəbil islam hökmranlarına tabe cameli, bağlı, bağçalı şəhər miş.

Osmanlı sultanı Muradxan Salis zamanında Fərhad paşa Rəvanı ldı. Hicrətin 1014 tarixində Şah Abbas yeddi ay mühasirədən sonra əvanı Irana ilhaq etdi. 1035-də sultan Muradxan hücum edib, Rəvanı lə gətirdi. Bir miqdar əsgər ilə Murtəza paşanı hakim təyin edib, uradxan məmləkətə qayıdır. Burdan istifadə edərək Şah Səfi qoşun toplayıb, Rəvanı istila etdi.

Övliya Çələbi Rəvanı belə təsvir eləyir: "Səneyi-1045 tarixindən bəri Rəvan dəsti-əcəmdə olub. Bu vəchlə məmur və abadan olmuşdur. Lakin qələsi yalın qat divar ilə məbna olduğundan hücumi-şədidə təhəmmül edəməz... Üç ədəd qüvvətli dəmir qapıları vardır. Təbriz qapısı cənuba açılır, meydan qapısı şimala açılır ki, buna yayla qapısı da deyərlər; Cövkan meydanı bu tərəfdədir. Biri də əcəmlərin "Dərvazeyipül" dedikləri körpü qapısıdır. Üç minə qədər qələ nəfəratı, uç min xan əsgəri, yeddi min əyalət əsgəri vardır. Burası bir qaç kərə xanlar xanlığı olmuşdur. Qazısı, mollası, şeyxi-şərifi, kələntəri, darğası, münşisi, yasavul ağası, qorucu başısı, eşik ağası, diz çökən ağası, yeddi mehmandar və şəhbəndərləri vardır. Şəhər içində iki min altmışa qədər torpaq örtülü ev vardır. Ən məmuru xan sarayıdır ki, Əmirgün xan məmur etmişdir. Bu saray qürbində sol tərəfdə şah zərbxanası vardır ki, abbası və bisi kəsilir. Yayla qapısından təşrə olan böyük varuşə əski şəhər deyərlər. Xan və cameli və çarşılı, bazarlı bir varuşdur. Körpü başında xan bağı vardır. Yenə orada came, xan, həmmam, çarşı çoxdur: adətən şəhərdir".

Rəvan xanlığı Türkmənçay müahidəsi mucibincə İrandan alınıb Rusiyaya ilhaq olundu. Böyük rus inqilabı nəticəsi olaraq Rəvan Ermənistan cümhuriyyətinin paytaxtı oldu.

NAXÇIVAN

Bu şəhərin əsl adı "Nəqşe-cahan"dır. "Naxçıvan" və "Nəxşevan" "Nəqşe-cəhan"ın ərəbləşməsidir. Iran hökmdarı Qubad tərəfindən bina olunması rəvayət olunur. Övliya Çələbi Naxçıvan haqqında yazır: "Azərbaycan hüdudunda başqa xanlıqdır ki, xanı çox əsgərə malikdir. Etimadül-dövləsi, kələntəri, münşisi, darğası, diz çökən ağası, çikyiyən ağası vardır ki, bu əsnafın həp hökumətdə əlaqələri var. Qazisi, şeyxül-islamı dəxi vardır. Bu şəhəri zamani-qədimdə Şah Əfrasiyab bina etmişdir ki, hala əcdadının mədfun olduğu qübbələr nümayandır. Zamani dövətində Nəxşevan o dərəcə məmur və abadan imiş ki, dəştü səhrasında bir xətvə əraziyi-xaliyə yox imiş. Sonra moğol tayfası təməə düşüb, yer götürməz əsgərlərlə gəlib bu şəhərin nəqşe-cahanını pozaraq xarabüyəbab, qələsini münhədim edib, türab etmişlərdir. Sonra osmanlılardan Məhəmməd Salsi əsrində osmanlılar əlində ikən Şah Qümrah tərəfindən Zülfüqar xan gəlib, Nəxşivanı istila eləmişdir. Sonra Muradxan Rabe əsgəri gəlib, təbaniyəsi Məhəmməd Paşa buranı fəth etmişdir. Murad Rabedən sonra burası da məmur və abadan olmuşdur. On min iki yüz torpaq örtülü xanədani-əzimlərə arəstə, yetmiş ədəd came və ibadətxanələrlə pirastədir. Qırx məscidi, iyirmi mehman sarayı, yeddi gözəl hamamı, minə qədər dükanı var. İmarətinin əksəri gözəldir. Bağ və bağçası az olduğundan meyvəli ağacları azdır. Yeddi dürlü pambığı (zağı, zəfərani, ləli, xas, bəyaz), ğəlləsi, hüntəsi məmduhdur. Əhli-sənayesi məharətlidir. Qələmkarı Bəhrampuri, dəstəxan çitləri məşhuri-cahandır. Arpası pək qüvvətli və çoxdur. Bir ata qara arpanın dörd qiyəsi yetişir. Bostanlarında suluca qovun və qarpızı olur. Gözəlləri əbyəzəlyundur. Ərkəkləri zor zoviyəli tac, uzun sərbənd sarar, qələmkari pişək piş came geyərlər. Ayaqlarına əlvan keçə çaqışır, yaşıl, qırmızı, narıncı, turuncu papış geyərlər. Zənənləri sivri-sivri taqiyə geyib, üzərinə bəyaz azar boyanur, ayaqlarına əlvan cəzmə geyərlər. Gözəlləri qunaqun kəbudi kürkdən börki- İsfahan geyib, mirzayi delar əmsal xüraman və rəftar, zarafat və nəzakət göftar edərək xalq ilə hüsni-ülfət edərlər. Camaat kəsirəli qərib cameləri vardır ki, hər biri birər cənəti-firdous, xüldi-bərindir. Əz cümle cənabi Əhməd paşa camei, Fərhad paşa camei müzəyyən, münəqqəş, kaseyi-fəğfur və çinimina camələrdir. Neçəsinin qübbələri də

çini ilə məsturdur. Istanbul tərzi otuz üç minarələri vardır. Əhməd paşa çamei kimidir. Cənabi həmmami qayət lətif, rövşənir. Amma dərü divarı kaşi çinidir. Fərşi sərapa bərqai, bəlğəmi, sumağı mərmərdir. Öylə münəvvər bir həmmamdır ki, cümlə camları büllur və nəcəf mövrandır. Qübbəsinin ortasında böyük bir hovuz var. Xülasə bu həmmami- xoşhavanın mədhində, lətafət və nəzafətin tövsifində həsən və səhban belə aciz olsa gərək, deyil ki, bu övliyayi-bərtəqsir... sövq-şahisində ənqən xacələr münim sövdəgərlər vardır. Hər biri gəncineyiQarunə malik, maldar tüccar zuetibardır. Xalqı eyş və işrət əhlidir. Bu şəhərin rəaya və bərayası dehqani lisanı üzrə qonuşurlar. Amma arif şairləri, nədim zərifləri zarafat və nəzakətlə pəhləvi və moğoli lisanından kəlimat edərlər ki, qədim lisanlardır". Katib Çələbinin rəvayətinə görə Naxçıvanın qədimdən mətin bir hasarı var imiş. Hülaku xan oranı aldıqda xalqını qırdı və qalanı xarab elədi. Elxanilər də Naxçıvana malik idilər. Bunlar şəhəri Nəsir Tusinin təlimi ilə ala bildilər. Ağacdan toplar yapıb, içinə qurğuşun doldurub, mancanaq ilə şəhərə atdılar və bu vasitə ilə qalanı fəth etdilər.

Əmir Teymur Naxçıvanın abadanlığına çox çalışmışdır. Mirzə Şahruxun miyaşərti ilə şəhərə bir arx da çıxardılar. Azərbaycan Atabəylər hökumətini təsis edən Eldəniz xanın qəbri Naxçıvandadır.

MUĞAN

Muğan yaxud Muqan – Muğan bin Yasəf adı ilə təsmiyə olunması rəvayət edilir. Hal-hazırkı Muğan Azərbaycanın şərq cəhətində Bakı dənizi yaxınındadır. Şəhərlərindən birisi Bacrəvan imiş. Venetsiyalı Marino Sanuto miladın 320 sənə tarixində təb etdirdiyi xəritəsində Muğan haqqında yazır: "Planities Mogan, in gna tartare hyimant": (tatarlar qışlayan Muğan səhrası). Qubad şah zamanı Muğana sular çıxarılıb, abad olunmuşdu. O zamandan qalan "Kafər arxı" Çingiz zamanına qədər davam etdi. Çingiz hücumları Muğanın mədəni həyatını söndürdü. Teymurləng qədim arxları əhya etdirdi və bu sayədə səhranın həyatı təkrar canlandı. Nadir şah zamanına qədər davam edən abadanlıq yenə məhv oldu.

1828 tarixində Türkmənçay müahidəsi mucibincə Muğan Rusiyaya ilhaq olundu. Məmləkətin hüdudlarında rus əksəriyyətini təmin etmək məsələsi rus təşəbbüsü ilə Muğan səhrasında yollar açdı. Çar hökuməti Muğan səhrasını tədric ilə sulandırıb, içəri Rusiyadan mühacirlər gətirib, yerləşdirməyə çalışdı. Gözəl pambıq məhsulatı verən Muğanda az bir zamanda bir çox rus kəndləri inşa olundu. Məsudi məzkur Muğandan başqa bir də Muğan səltənəti olduğunu qeyd edir, sərhədi Şəki, Bərdə və Gəncə arası imiş; paytaxtı Muğan şəhəri imiş.

Əl-Müqəddəsinin rəvayətinə görə Muğan iki çay arasında bir şəhər imiş. Meyvə bağları və gözəl bağçaları ilə Təbrizə bərabər imiş.

Muğan bəzən müstəqil, bəzən Şirvana tabe bir halda idarə olunarmış. "Cahannüma" Qarabağ haqqında yazdıqda "Qarabağ Şirvan şərqində Muğandan bir bələdə və nahiyədir" deyir.

TƏBRİZ

Monqolcada adına Tivris, dəri dilində Tivriz, dehqanidə Tabriz deyirlər. Əsli isə fars dilindəki Təbrizdir ki, "qızdırma tökən" mənasında imiş. Rəvayətə görə Təbrizi Harun-əl-Rəşidin xatunu Zibeyda 175 hicridə bina etdirdi. Iki yüz qırx dörd tarixində zəlzələdən xarab oldu və Əbbasiyandan mütəvəkkil xəlifə onu təkrar yapdırdı. 334-də böyük bir zəlzələdən Təbriz yenə dağıldı. Qazı Rügnəddin Xoyi "Məcmueyi-ərbab-ül-Məmalik" adlı kitabında deyir ki, münəccim Əbu Tahir Şirazi Təbrizin müəyyən bir gecədə xarab olmasını xəbər vermişdi. Şəhərin hakimləri əvvəl gecə xalqı səhraya çıxardılar və münəccimin hökmü doğru olub, şəhərin əksər hissəsi zəlzələdən xərab oldu. 435 tarixində Təbriz hakimi Əmir Rəvadi Əbu Tahir Şirazinin ixtiyarı ilə şəhəri bina etdirdi.

Qədimdən Təbrizin barısı altı min qulac idi və on qapısı var idi, moğollar zamanı şəhər böyüməyə başladı və barının dişqarısında da evlər yapıldı. Qazan xan bu evlər xaricindən yeni bir divar çəkdirib, binaları, bağları Ləyankuh və Səncanı içəri aldı. Qazan xan hasarının dövrü iyirmi beş min qulac idi və altı yerdən darvazası var idi. Ucan, Şirvan, Sərdər, Duşam, Sərar, Dəvir, Təbrizin qərb cəhətində "Şam" nam yerdə Qazan xan bir şəhər bina etdi və orada özünə mədfən olmaq qəsdilə misalı Iranda olmayan bir gözəl imarət tikdirdi.

Təbrizin şərq tərəfində "Rəşid" və "Ləyan-kuh" adlı yerdə vəzir Səid xacə bir şəhər bina edib, adını "Rəşidi" qoydu. Bu şəhərdə bir çox gözəl və böyük imarətlər yapıldı. Vəzir Xacə Tacəddin Əli şah şəhərin qərb və cənub tərəfində "Niyar miyon" məhəlləsində əzim bir came bina etdi ki, səhni iki yüz əlli zira idi və eyvani- köhərindən böyük bir səfhəsi var idi. Osmanlı sultanı Murad xanın İran səfəri 1045, heyfa ki, Təbrizə böyük zərbə vurdu və o xariqüladə binalardan ancağ yıtğınlar qaldı.[1]

Ərəb coğrafiyunu əl-Müqəddəsi zamanı Təbriz gözəlliyini mühafizə edirmiş. Əl-Müqəddəsi heyrət ilə deyir: "Təbriz! Təbrizin nə olduğunu sənə kim öyrətdi? Müəzzəmül Kimyanın xalis altunudur... Gözəlliklərinin intəhası yoxdur". Təbrizin ətraflı təsvirini yalnız Övliya Çələbidən öyrənə bilərik. Ondan əvvəl, yəni hicrətin səkkizinci əsrində Təbrizi ərəb səyyahı İbn-Bətutə ziyarət eləmişdir. Heyfa ki, bir gecədən artıq qala bilməmiş. İbn-Bətutə belə nəql eləyir: "On gün sonra Təbrizə vasil və xaricində Şam deyilən mövqeyə nüzul etdik. Orada İraq padşahı Qazanın qəbri vardır. Qürbündə gözəl bir mədrəsə ilə bir zaviyə bulunur. Zaviyədə ayəndə və rəvəndəyə təam olaraq əkmək, ət, yağ ilə mətbux birinc və həlviyyat verilir.

Əmir məni mahali-bəidəyə abəfşan olan ənharü pərşağu bərgiəşcar miyanində gülən bu zaviyəyə mehman elədi. Ertəsi günü "BabiBağdad" deyilən qapıdan bələdəyə daxil və Sovqi-Qazan namı ilə məşhur, əzim bir çarşıya vasil oldum. Bu çarşı biladi cahanda məşhudəm olan çarşıların ən gözəlidir. Orada hər sənətin məhəll olaraq biri digər ilə ixtilat etməz. Guyumçu çarşısından keçərkən görmüş olduğum ənvayi-cəvahir gözümü qamaşdırdı. Mücövhərat, əlbiseyi-fatireyi- libas bulənmiş və belinə ipək qurşaq bağlamış gözəl üzlü müluklar əlində idi. Bunlar ticarət evində duraraq cəvahiri türk nisvanına ərz edər və qadınlar cəvahirdən bir çox iştira ilə bu xüsusda bir-birinə rəqabət elərlər idi. Bunu cənab həqqdən isteazəyə şayan bir fitnə ədd edirəm. Ənbəri-müşk çarşısına daxildə dəxi o halın eynini və bəlkə, özünü müşahidə elədik. Bədə Cilan kamı ilə məruf vəziri-aliyi-şahın inşakərdəsi olan cameyə vardıq. Xaricində qibləyə təvəccöh edən kimsənin sağında mədrəsə və solunda zaviyə bulunur. Camein səhni

[1] "Cahannüma", səh. 370-371

mərmər ilə, divarları qaşani deyilən Zəlicə müşabih çini ilə məfruşdur. Ortasından su keçər. Orada ənvayi-əşğar ilə üzüm götükləri və yasmin ağacı mövcuddur. Bu camein səhnində hər gün səlahi-əsrdən sonra sureyi-yəs və sureyi-fəth və sureyi-əm qiraəti mötaddır. Bələdə əhalisi bunun üçün orada toplanır[1].

Övliya Çələbi zamanı Təbriz xanlıq olub, on min əsgərə malik idi. Müftisi, şeyxül sadası, mollası, kələntəri, münşisi, darğası, qorucu başı, diz çökən ağası, çikyeyən ağası, yasovul ağası, eşik ağası, mehmandarları var idi.

Övliyaya görə Təbrizdə üç yüz iyirmi came, qırx yeddi böyük mədrəsə, yeddiyə qədər darül-hədis, altı yüzə qədər çocuqlar üçün darültəlim, yüz altmışa qədər dərviş təkyələri, altı ədəd çeşmeyi-rəvanı, min qırx səbilxanə, min altmışa qədər məhəllə, iki yüzə qədər karvansaraylar, hamamlar və bir çox başqa binalar var imiş.

Təbriz camelərinin övsafı şayani-diqqətdir. Ən qədimi Zibeydə xatun cameidir ki, qübbəsi və divarları kaşi minadan imiş. Mütəvəkkil Əliülla camei də qədim tərzdə kaşı çini ilə inşa olunmuşdur. Sultan şami-Qazan və şahi-İrani-zəmin şah Əmin cameləri də gözəl binalardan imiş. Şah Əmin camei bir minarəli, ziba hörməli, kaşı çini ilə arəste, ovcesər çəkmiş qübbələrlə pirastə, cümlə dər-divarı, bəyaz, məsiqli məhla xətai kağız ilədir. Əbyəz misal qələnmiş bir camei-zibadır ki, içinə girənin çıxacağı gəlməz[2] İranda bu imarətə "Həşt behişt" deyirmişlər.

Sultan Həsən camei Azərbaycan padşahlarından uzun Həsənin binasıdır. Əndərun və birunun dörd çevrəsi, qübbələri cümlə kastiyi-çin ilə bina olunmuşdur. Mehrab və mənbəri, müəzzinan məhfilli xırdakarlıq sənətinin bir nümuneyi-bi-bədəli olub, kimsə bərdəstərəsini qabil deyildir. Dörd tərəfində olan rovzənləri sənəti-həddadi üzrə olub, nəçəf daşları ilə sərapa təzyin və müşəşə qələnmişdir. Qəbalə qapısının cəvanib ərbəəsində olan qunaqun zihlər müqərnəs və eslimilər, kitabə və türüncələr kirişmə münəqqəş rumilərin hər biri səhər mübin mərtəbəsinə varmış, ustadi-qələmkar bu xüsuslarda yəd-tulasını köstərmişdir. Mehrabının iki tərəfində iki mövzun əsfərallun səngi parə vardır ki, hər biri bir Iran və Turan xəraci dəyər guya göhərbardır. Bu sütunların nəziri sair diyarlarda yoxdur.

[1] "Səyahətnameyi-Ibn Bətutə". Tərcüməsi, cildi əvvəl, səh. 253-254.
[2] "Övliya Çələbinin səyahətnaməsi", cild 2, səh. 249.

Əlyövm Təbriz əvvəlki gözəlliyini qayib edibsə də, xalq nəzərində əzəmətli bir mövqei vardır. Məruf məsələ görə "Aləm ilə Əcəm Təbrizə həsəd aparır, Təbriz də Parijə".

Hal-hazırda Təbriz İran Azərbaycanının paytaxtıdır. İran vəliəhdləri təxti-cülusdan əvvəl Təbrizdə iqamət edərlər. Təbriz Irana yenilik bəxş edən bir şəhərdir. Iran inqilabı buradan başladı və mürtəce Tehrana qələbə çaldı.

Təbriz bir çox alim və fazillərin vətənidir. Son zamanlar Təbriz milli hərəkat mərkəzi oldu. Cənubi Azərbaycanın müstəqil yaşamasını təmin etmək üçün bir hökumət belə təşkil etdi. Milli hökumət "Azadıstan" namilə mərufdur.

ƏRDƏBİL

Ərdəbil Azərbaycanın qədim paytaxtıdır. İslamdan əvvəl ölkəmizin mərkəzi burada imiş. Rəvayətə görə Ərdəbili Iran hökmdarı Firuz bina edərək "Bazane-Firuz" adlandırmışdı. Kitab Çələbi Keyxosrov Kayani binası olduğunu qeyd edir. Əbu Məsud deyir ki, Ərdəbil bin Ərmini bin Lənti bin Yunanə nisbət olunur.

Ərdəbil haqqındakı tarixi məlumatımızı bir neçə qismə ayıra bilərik. Bizə ən qədim xəbərləri Əl-Müqəddəsi öyrədir. Doqquz yüz il əvvəl Azərbaycanın paytaxtı möhkəm bir qələyə malik imiş. Qələnin arxasında təpə üzərində bir came var imiş. Evlərin əksəri palçıqdan yapma imiş. Və çoxlu balkonları var imiş. Ərdəbil hamamları məşhur idi, şəhərin natəmizliyi haqqında Əl-Müqəddəsi çox şikayət edir; hətta oranı dünyanın nəcasət mənbəi deyə adlandırır. Xalqının insangirizliyi, xəsisliyi, nəsihətə qulaq verməməzliyi ərəb coğrafiyununun nəzərini cəlb eləyir. Buranın alim və aqil adamdan məhrum olduğu əlavə olunur.

Hicrətin 617 sənəsi Ərdəbili ziyarət etmiş Yaqut Həməvi yazır: "Şəhərin içi və çölü gur sulu bir çay ilə sulanır. Bununla bərabər meyvə verən ağaclardan heç biri orada yetişməməkdədir. Şəhəri-məzkur ilə Bəhri-Xəzər arası iki günlük yoldur. Arada çox sıx bir meşə var. Bir təhlükə qarşısında qaldıqları zaman oraya iltica edərlər və təərrüzləri dəf üçün oraya sığınarlar. Orası adətən özlərini təhlükəyə qarşı himayə edəçək bir qələ müşabihsindədir.

Bu meşə (orman) dən ağaclar kəsib, bəzi əşya, sandıqlar, qablar, çanaqlar qayırarlar və şəhərdə çox sənətkarlar var ki, həmişə sənətlərini ikmal və islah edərlər.

Mən şəhəri-məzkurdan müfariqət elədikdən sonra tatarlar gələrək şəhəri məhv və təxrib etdilər. Əhalisi ilə tatar kafirləri arasında bir çox hərblər vüqua gəldi. Əhali şiddətlə müqabilə edərək onları iki dəfə ricətə məcbur elədilər. Fəqət tatarlar üçuncü dəfə olaraq gəldiyi zaman əhali pərişan və müqavimətdən aciz bir halda idi. Bunun üçün müdafiə edə bilmədilər. Tatarlar şəhəri zəbt edərək müsəlmanları dardəst, gördüklərini və bulduqlarını öldürdülər. Ancaq nəfəsini gizləyə bilənlər ölümdən qurtuldu. Şəhəri dəhşətli və bir daha məmur olmayacaq surətdə təxrib elədilər. Əlyövm yenə köhnə halına qayıtmışdır və tatarlar əlindədir[1].

Səfəvilərin sülaləsinin çəddi şeyx Səfiəddin İshəqq Ərdabildə dəfn olunub; Şeyxin zaviyəsi və qəbri gümüş qapılar və qızıl qəndillər ilə zinətlənibdir. Zaviyə dairəsi "bəst" sanılır, yəni canilər oraya iltica etdikdə şəxsləri məsun qalır.

Əbu Hamid Əndəlisi Ərdəbildə iki batmandan ağır, polad səsli bir qara daş görmüş, guya yağış qıtlığında bu daşı şəhərə gətirərmişlər. Onun sayəsində yağış yağarmış.

Xurafata inanan Övliya Çələbi bu daş haqqında uzun təfsilat verir: "Ərdəbildə Səbilin xariçində dəmirdən ağır, siyah müdəvvər, bir daş vardır. Təxminən üç qəntar gəlir. Müsəyqəl mücəlla bir daşdır. Sələf kahinləri bu daşın üzərinə ibranicə bir çox xəttlər yazmışlardır. Üzərinə bir adam surəti rəsm etmişlər ki, əllərini qoşade edib, səmaya tutar görülür. Ərdəbildə barani-rəhmətin nazil olmadığı vaxt əyani-kübar, siğar bu daşı yuvarlayaraq şəhərə gətirərlər. Əzəməti-xuda üç gün üç gecə baran nüzul edib, ab-rəhmət ilə məzare, qara, qəsəbat rəyyan olur. Sonra daşı yenə əski yerinə götürürlər, yağmur kəsilir. Əcibdir ki, bu daş şəhərə nə qədər yaxın gəlirsə, yağmur o qədər şiddətlənir. Ərdəbil əhalisi yağmurdan göz açamazlar. Daş yerindən qaldırılıb xarici- şəhrə götürülsə, xaricdə durduqca bəhireyi-Ərdəbil tuğyana gəlib, eli, vilayəti qərq etməyə başlar.

Bu daşın sabit olduğu məhəllədən qaldırıldığı vaxt yerində əzim, çarguşə bir qaya zühur edər ki, onun da üzərində ibrani, siryanicə bir

[1] "Möcəmül-büldan"

çox yazılar həkk edilmişdir. O çargüşə daşın on iki dəliyi vardır. Hər dəlikdən birər peykar qaynamağa başlar. Məhud daş yerinə gəlmədikdə suların qaynamaları kəsilməz. Ərdəbil uləmasının bəziləri "bu daş həzrət Musanın təpə səhrasında əsası ilə on iki kərə vurub, on iki peykər axıtdığı daşdır, – deyirlər" haqqında: "Fədrab bi asakə-l-hacəra fənfəcərat minhu-snə aşəra aynən"ayətini zikr edərlər. Lakin Ərdəbil əhalisinin zəmincə buna əcəm şahlarının çəddi olub, guya qütbi – əkbər mərtəbəsinə varan şeyx Səfinin tilsimi imiş[1]".

Övliya Çələbi zamanı Ərdəbil xanlıq imiş və üç min əsgəri, darğası, kələntəri, müftisi, qazısı, şeyxül-islamı var imiş, bir zaman osmanlılar tərəfindən fəth edilib, mir-miranlığ olmuşdur, sonra başğa əllərə düşüb, qələsi təxrib edilmişdi. Sultan Murad Rabe zamanı Xosrov paşa bu tərəfləri qarət edərkən, Ərdəbil də dağılmışdı.

Ərdəbil övsafi nöqtələri ilə xalq ədəbiyyatına sirayət edib:

"Ərdəbil bir şəhərdir hürrə özü kili,
Ərdəbil pişiyi küftə görməmiş"[2].

MARAĞA

Azərbaycanın ilk təxtgahı Marağanın Huşənk şah tərəfindən bina olunduğu rəvayət olunur. Əməvilərdən Mərvan bin Məhammməd İslam ordusu ilə gəldikdə otlaq və çəmənlərin bəyənib, şəhəri təmir etdirdi. Sonra hasarını Ibn-Əbu-əl-Sac xərab etdi. Hulaku xanın Bağdad xəlifəsi Müstənsər Billah üzərinə xüruc zamanında şəhər təkrar dağılmışdı. Osmanlı sultanı Muradxan Rabein Iran səfəri əsnasında Marağa yenə xarab oldu. Üç əsr əvvəl Marağa min əsgərə malik bir sultanlıq idi. Yeddi min yüz altmış torpaq örtülü evləri, on bir camei, qırx xanı, altmış ədəd məscidi, qırx dərviş təkyəsi, on bir hamamı, üç min dükanı var imiş.

[1] "Əsanla daşa vur" demişdik, vurmuşdu, daşdan on iki bulaq fışqırmışdı.

[2] Ö vliyanın rəvayətinə görə Ərdəbil farəsi (kəsəyən) çox və pişiyi az bir şəhər imiş. Pişiyi dəllallar bazarda qəfəs içində satarmışlar və bu beytləri oxuyarmışlar:

Ey taleban sərabə sənsureyi-səyyadə
Mövdibəvü hərane munisəvü tərabe
Sərağə deyil qəmxarə, farəyə verməz çarə.

Məşhur Nəsir Tusi altı yüz əlli yeddidə Marağada rəsədgah bina etdirib: “Zic-əl-xani” orada yazıldı. Rəvayət olunur ki, Nəsir Tusi rəsədxana fikri ilə Hülaku xana müraciət edib məsarifini ərz etdi.

Hülaku heyrət ilə:

– Bu elmi-nücumun faidəsi nədir ki, bu qədər mal sərf olunur?

– dedi.

Xacə Nəsir:

– Əmr ediniz böyük bir teşti aparıb, uça dağın başından aşağı salsınlar, amma heç kəs bilməsin.

Hülaku Nəsirin təklifini qəbul etdi. Teşt dağdan düşdükdə səsindən qoşunun içinə vəlvələ düşdü. Hülaku ilə Nəsir Tusi işdən xəbərdar olduqları üçün teştin səsindən mütəəssir olmadılar.

Nəsir Tusi dedi:

– Elmi-nücumun faidəsi budur ki, hadisələrə vaqif olmayanlar çəkdiyi iztirabı xəbardar olanlar çəkməz.

Hülaku xan məsaləni anlayıb, rəsədxananın xərclərini ödədi.

İKİNCİ HİSSƏ

İQTİSADİ AZƏRBAYCAN

Qafqasiyada mütəşəkkil dövlətlərin iqtisadca ən qüvvətlisi, şübhəsiz ki, Azərbaycandır. Paytaxtımız Bakının neft mədənləri aləmşümuldur və bundan başqa ipək, pambıq və yun kimi məhsullarımız da az deyil. Bakı dənizinin balıq və kürüsü (xavyarı) böyük bir sərvət təşkil eləyir. Qarabağın (Zəngəzur) mis (baqer) mədənləri isə parlaq bir istiqbala malikdirlər.

Azərbaycanın coğrafi mövqeyi iqtisadi cəhətlərə daha da həyat bəxş edir: Asiya ilə Avropa arasındakı tüccari yollardan biri də Azərbaycandan keçir. Türküstan və Iranın qərb ilə münasibətinin qolayı ancaq məmləkətimiz vasitəsilə ola bilər.

Azərbaycan tüccar ruhlu və çalışqan bir xalqa malikdir. Ölkəmizin bütün ticarəti azəri türklərinin əlindədir. Bu mütəşəbbis və zəki millət milli istiqlalı sayəsində əcnəbi sərmayədarlar ilə rəqabət edəcək bir qüvvə təşkil etdi: bir çox milli fabrikalar açıldı, şirkətlər meydana gəldi.Qüvvətli bir imanla söyləyə bilərik ki, müstəqil Azərbaycanda milli idarə sayəsində iqtisadiyyatımız o dərəcələrə çıxacaq ki, millətimizin yüzdə doxsan beşi sərvət sahibi olacaq.

NEFT

Azərbaycanın maddi sərvətində birincilik qazanan Bakı nefti qədim zamandan bəri tarix səhifələrində müşahidə olunur. Zərdüştün atəşgədələri burada imiş. Ərəb coğrafiyunu Məsudi deyir ki, Bakıda ağ və başqa neftlər çıxır və bəzi yerdən od çıxır. Kənardan üç günlük bir məsafədə adalar var imiş. Bunların birindəki od vulkanı uzaqlardan görünərmiş. Məsudinin qövlünə görə, ağ neft Bakıdan başqa ayrı yerlərdə yox imiş.

Övliya Çələbi Bakı mədənləri haqqında yazır: “Kimi ləbi-dəryada, kimi məskər nahiyyəsində yerdən qaynayaraq çıxar. Əsas ilicə su-

ları kimi gölcük olub, neft yağı suların üzündə qaymaq bağlar durur. Neft başqaca amanat olub, sənəvi şaha yeddi min tümən axça gətirir. Neft əmininin adamları bu gölcəkizlərin içinə girib, gülcələrlə nefti birikdirərək keçə tulumlarına doldururlar.

Sonra bunu tüccar alıb diyar-diyar götürürlər. Səkkiz rəngdə neft olur, lakin sarı neft qayət məqbuldur. Siyah (qara) neft şahlıqdır ki, əcəm diyarının Özbəkistan, Hindistan, Iraq, Gürcüstan, Dağıstan, Al-Osman sərhədlərindəki qələlərə bu qara nefti gətirib, ətraflarına çırağan edərlər. Əsgər üzərlərinə hücum etdikdə üzərlərinə və a aq altlarına neftli yorğan və köhnə əşya atıb, atəşbazlıq edərlər. Qələ və şəhər mühimmatı üçün lüzumludur. Hətta şah hüzurunda, dəri-dövlətlərində yanan məşəllər həp Bakı neftindəndir. Neftin gecəli-gündüzlü nigəhbanları var. Çünki atəş dəyərsə, ələnəhayə yanıb, sönmək bilməz. Onun üçün neft mədənlərinin kənarında dağlar kimi alınmış torpaq amadə durur. Neft mədəniyyətə bir şərarə isabət eləsə, həman cümlə rəaya və bəraya yetişib, üzərinə torpaq ataraq söndürürlər. Başqa əlacı yoxdur".

Övliyanın nəql elədiyi neft tədarükü üsulu bəzi təfərrüatı ilə on doqquzuncu əsrin ortalarına qədər davam etmiş. Yalnız son əlli sənə zərfində "buruqlar" istemalı müvəffəqiyyət qazanmış. Bakı mədənləri birinci olaraq rus tüccarlarından Kukurev ismində birisi motor və borular vasitəsilə neft ixracını təcrübə etmiş və gözəl nəticələrə rast gəlmiş. O zamandan bəri buruq istemalı ümumiyyət qazanıb. Bakının ən məhsuldar mədənləri dörd nöqtədədir: Balaxanı, Sabunçu, Ramana və Bibiheybət. Bu nöqtələrdə mövcud mədənlər azəri kəndlərinin adı ilə təsmiyə olunmuşdur.

Neft məhsulunun sənəvi miqdarı 1901-ə qədər tədricən yüksəlmiş; sonrakı illər bir az düşmüş. Məsələn, 1889-da 192 milyon put istehsal edilmiş; 1901-də məhsul 671 milyon puta varmış. 1915 sənəsinin məhsulu budur:

Balaxanıda –	66819820	put
Sabunçuda –	143097488	put
Ramanada –	53790417	put
Bibi-heybətdə –	89104794	put
Yekunu: –	342812524	put

MİS (BAQER)

Zəngəzur və Gəncə qəzaları mis mədənləri ilə məşhurdur. Buralarda mədənlərin qədim zamandan bəri işlədilməsinə bir çox dəlillər ar. Lakin Zəngəzur ehtimal ki, böyük yollardan kənar olduğu səbəbinə nə ərəb və nə osmanlı coğrafiyunlarının nəzərini özünə cəlb eləməmiş. Odur ki, bu mədənlər haqqındakı səhih məlumatımız rus istilası ilə başlayır.

Rəvan xanlığı düşdükdən sonra mis mədənləri bir müddət unuduldu. Ancaq yetmiş sənə əvvəl ciddi təşəbbüslər meydana çıxır. 1845 tarixində Rozov adında bir rus məmuru Əhər-arx nam yerdə bir fabrika təsis etdi. Rozovun vəfatından sonra Trabzondan gələn qreklər Oxiçi-çay və Səyyad daşı civarlarında iki yeni fabrika inşa etdilər. Bu fabrikaların sənəvi istehsalı 1853-cü sənədən başlayaraq min puta qədər olurdu. 1853-də Xacə Əmirov Qatar-kənd çivarında yeni mədən kəşf etdi və ildə dörd yüz puta qədər istehsal edə bildi. Sonralar qreklər tərəfindən inşa olunan yeni bir fabrikanın sənəvi istehsalı beş yüz puta qədər çıxdı. Icra olunmuş tədqiqata nəzərən Gəncə qəzasındakı Gədəbəy mədəninin hala istehsal olunmamış misinin miqdari-yekunu beş milyon puta baliğ olmaqdadır. Zəngəzur Qatar mədənində isə qırx milyon puta qədər ixrac olunmamış mis var..

İPƏK

Əvvəlcə Çində intişar bulmuş ipəkçilik beşinci əsr miladidə Orta Asiyaya və oradan Irana və Azərbaycana keçmiş. Min sənə əvvəl ipəkçilik Azərbaycanda mütərəqqi bir şəkil aldığını ərəb coğrafiyunlarından öyrənirik. Bərdənin ipək çarşafları, qaytanları o vaxtlar məşhur imiş. Görünür məhsulu ilə birincilik qazanan Şamaxı imiş; "Həft iqlim"in qövlünə görə, Şamaxı ildə iyirmi min yük ipək istehsal edirmiş. Bundan başqa, Şamaxı Azərbaycanın, bəlkə, bütün şərqin böyük bir ipək bazarı idi: Buxara, Iran və Türkiyə ipəyi də burada satılırdı.

Şirvan şahı Fərrux Yəsar 1466 tarixində Moskvaya elçi təyin etdi və əvəzində üçüncü Ivan rəsmi müməssili ilə bərabər Şirvana tüccarlar göndərdi. Dördüncü Ivanın zamanında ticarət yoluna qoyulmuşdu və Azərbaycan ipəyi Idil çayı vasitəsilə Rusiyaya gedirdi. Böyük Petronun İran səfəri bu ticarətə geniş meydan verdi.

On doqquzuncu əsrin əvvəllərində Azərbaycan xanlıqlarının istiqlaliyyətinə xitam verən Rus hakimiyyəti ipəkçiliyə yeni dövr açdı.

1802 tarixində ipəkçilik ilə aşna olmaq üçün Qafqasiyaya baron marşal Biberşteyn göndərilmişdi. 1823-də italiyalı Qustella MavərayiQafqasiyada istehsal olunan cümlə ipəyi gətirib yumaqlıq məqsədi ilə bir çarx inşası üçün hökumətdən icazə istədi. 1826 tarixində Qustellaya çarx üçün on illik imtiyaz verildi: pul və torpaq təxsis olundu. Tiflisdə yapılan bu çarxa məxsus barama (qoza) nümunə evləri inşa olundu və tut bağları salındı. 1827 tarixində Qribadbeno adlı bir əcnəbinin təşəbbüsü ilə bir cəmiyyət vücuda gəldi. Bu cəmiyyət otuz sənə müddətinə doqquz yüz iri tut bağları icarə etdi və ipək toplamaq imtiyazı aldı. Cəmiyyət Şəkidə bir çox ipəkçiliyə aid binalar yapdırdı, Avropa üsulu ilə çarxlar qurdu, məktəb açdı və mütəxəssis olaraq Italiyadan on iki əmələ ailəsi gətirtdi. Cəmiyyətin zamanında Şamaxıda sənəvi ipək məhsulu 13400 puta baliğ oldu.

On doqquzuncu əsrin ortalarında Fransa və İtaliyada barama qurdlarında xəstəliklər müşahidə olundu və ətraf məmləkətlərə də yayıldı. Bunun nəticəsi olaraq qərb ipəkçiləri nəzərlərini şərqə ətf etdilər. O zamanlar Azərbaycana da acentlər axını başladı. Qərbin ipək böhranı fiyatları yüksəltdi və hər kəs ipəkçi olmağa çalışdı. Nuxa şəhəri bir ipək mərkəzi oldu və əlli min putdan ziyadə ipək istehsal etməyə başladı. Lakin 1863-də böcək xəstəliyi Azərbaycana da sirayət elədi və nəticədə ipəkçilik bizdə də böhrana uğradı.

Xəstəlik ilə mübarizə üçün Yaponiya toxumu gətirdilər və bununla işlər bir az sağlama çıxarıldı.

1887-də Tiflisdə "Ipəkçilik istasiyonu" inşa olundu. Bu müəssisənin təşəbbüsü ilə ipəkçilik marağı xalq arasında yenə tərəqqi etməyə başladı. Hal-hazırda Qafqasiyada ipəkçilik ilə məşğul olan xalqın miqdarı iki milyondur. Sənədə 300 – 350 min put yaş barama (qoza) hasilatı var, əksəri Azərbaycanda yetişir. Azərbaycan ipəyinin bir hissəsi əlan məhəlli ehtiyac üçün sərf olunur:

Darayi kələğayı, yaylıqlar kimi qumaş və baş örtükləri məşhurdur.

PAMBIQ

Azərbaycanın pambıqçılığının da tarixi qədimdir. Ora hökmranları pambıqçılığa meydan verməк üçün verginin bir hissəsini pambıq şəklində alırdılar. Övliya Çələbi Naxçıvanın yeddi cür pambığı olduğunu söyləyir: "zağı, münlayi, zəfərani, ləli, xas, bəyaz".

Rus istilası pambıqçılığa böyük zərbə vurdu. Bunun nəticəsi olaraq Mavərayi-Qafqaz XIX əsrin ortasında yalnız qırx min puta qədər sənəvi məhsul verə bilirdi. Eyni zamana təsadüf edən Amerika daxili ixtilalı pambıq böhranı doğurdu. Bir yerdə fiyatlar yüksəldi. Bu haldan istifadə etmək məqsədi ilə azərbaycanlılar başqa əkinləri buraxıb pambıqçılığa qurşandılar. Amerika ixtilalı ilə zühur edən pambıqçılıq tərəqqisi təbiidir ki, ixtilalın izaləsi ilə də məhv oldu. Təkamüli inkişaf

1880-dən başlayır. Xaricdən gələn pambıqlardan yüksək gömrük alınması da bu sənələrdə idi.

Rusiya hökumətinin bu qərarı daxili pambıqçılığa vüsət verdi. Moskov manufakturistləri pambıqçılıq mərkəzlərini öyrənməyə və inkişafına çalışdılar. Pambıqçılıqdan hasil olan zənginlik sayəsində azərbaycanlılar bu yolda yeni əməklər sərf etdilər: əski İran "qaraqoza" sı əvəzinə, Amerika "qiniq" əkildi; pambıqları ayırtdamaq üçün yeni sistem makinələr və fabrikalar quruldu. Bu qeyrətlərin nəticəsində vətənimizin pambıqçılığı inkişafın yüksək dərəcələrinə çıxdı. Məsələn, 25 sənə əvvəl az bir miqdarda məhsulu olan Gəncə vilayəti 1911-də 746 min put pambıq yetişdirdi. Muğan səhrası da yüz minlərlə putlar məhsul verir.

YUN VƏ XALI

Məmləkətimizin yunu da böyük bir zənginlik təşkil edir. Buradakı yunun sənəvi miqdarını təyin etməyə əlimizdə sağlam rəqəmlərimiz yoxdur. Lakin yarım milyon putdan aşağı gərək olmasın. Bu miqdarın az bir hissəsi ölkədən ixrac olunur. Qalanı isə məhəlində işlənir: xalılar, keçələr, şallar, çuvallar, xurcunlar... həp bu kimi şeylər toxunur. Azərbaycan ehtiyacını dəf etdikdən sonra, xalılar əcnəbi məmləkətlərinə də göndərilir.

Azərbaycan xalılarının gözəlliyi min sənə əvvəl müvərrix Təbərinin nəzərini özünə cəlb eləmişdir. O vaxt Dərbənd ilə Bakı arasının

xalıları aləmşümul imiş. Əlan Quba, Qazax, Bakı, Qarabağ xalıları mərufdur. Lakin get-gedə nəbati boyalar dəbdən düşür və əvəzində ucuz şimik "cövhərlər" işlənir. "Cövhər" solğun olduğundan, heyfa ki, xalılarımızın qiymətini alçaldır. Nəbati rənglər işlənən yerlərin xalıları birinciliyini qaib etməmiş. Məsələn, Quba malları. Bir zaman Qarabağ xalıları xas boyaları və əlvan rəsmləri ilə ümumin rəğbətini qazanmışdı. Hər yerdən əvvəl Avropa bazarları ilə təmasda bulunan

Qarabağ, hər yerdən də əvvəl Avropanın ucuz və solğun "cövhər"ini qəbul etdi. Təbiidir ki, xalılar da gözəlliyini itirdi.

Qubadan sonra Qazax civarının xalıları məşhurdur. Azərbaycandan ixrac olunan malların içində xalı da birincilik təşkil eləyir.

BALIQ VƏ KÜRÜ

Azərbaycanın şərq cəhətini təşkil edən Bakı dənizi ən zəngin balıq mənbələrindən biridir. Balıq ovu burada getdikcə də tərəqqi etmədədir. Məsələn, 1899-cu tarixdə Azərbaycan sahilində 158 min yalnız qırmızı balıq ovlanmışdı. 1912-ci ilin rəqəmləri isə başqadır: çeşid balıqların sayı təqribən 280 minə çıxmış. Eyni sənədə kürü (xaviyar) istehsalı 32 min put olmuşdu.

HAMİŞ

Risaləmiz təbdə ikən Bakıda yeni basılan "Azərbaycan" ünvanlı kitabı aldım. "Coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat"dan ibarət bu əsər qiymətli cavanlarımızdan Məhəmməd Həsən Vəlili (Baharlı) tərəfindən yazılıb. Azərbaycana dair, ələlxüsus milli sərvətimiz haqqında ətraflı məlumat verən bu dəyərli əsəri hər bir azəriyə oxumaq və evində bulundurmağı tövsiyə edirəm.

Son zaman azəri cavanları əziz ölkəmizi öyrənmək və öyrətmək yolunda böyük hümmətdə bulunurlar[1]. Milli hərəkatın inkişafı üçün ən əvvəl özümüzü tapmalıyıq. Bunun üçün də keçmişimizi addım-addım

[1] Möhtərəm Məhəmməd Əmin Rəsulzadə qardaşımızın Azərbaycan tarixini yazdığını iftixar ilə eşidirik. Başqa bir cavanımızın mətbuatımız tarixi vücuda gətirdiyini də duyduq – müvəffəqiyyətlər dilərəm.

tədqiq edib, məmləkətimizin maddi və mənəvi məhsullarını meydana çıxarmalıyıq. Bu gün nefti ilə, aləmşümul olan Azərbaycan min sənə əvvəl məbədləri ilə şərqin böyük qibləsi idi. Yeni nəsilləri qədim məbədlərimizə doğru götürüb, onun qüvvəti ilə təkrar yüksəlməli və mənəviyyatımızı yenə aləmşümul etməli[1].

Y.V

Başlıca məxəzlərim

1. Övliya Çələbi "Səyahətnamə"si.
2. IX və X əsr miladi ərəb coğrafiyunlarının Qafqasiya, Ermənistan və Azərbaycan haqqındakı məlumatları (Əl-Müqəddəs, İbn Hövqəl və Məsudidən tərcümə) – Qaravalov. Tiflis. 1907.
3. "Cahannüma". Katib Çələbi.
4. "Möcəmül-büldan". Yaqut Həməvi,
5. "Təqvimül-büldan". Əbül Fida.
6. "Səyahətnameyi-Ibn-Bətutə" Məhəmməd Şərif tərcüməsi.
7. "Avropa və Rusiyada Şərqin tətəbbö tarixi". Bartold.
8. "Gülüstani-Irəm". Abbasqulu ağa "Qüdsi".
9. "Tarixi-Təbəri".
10. "Dərbəndnamə".
11. "Türk tarixi". Nəcib Asim.
12. "Osmanlı tarixi". Nəcib Asim, Məhəmməd Arif.
13. Əhməd Cövdət. "Tarix"
14. Neftçilər qurultayı şurasının kitabları. Iki cild. Bakı, 1916.
15. "Vesğ Kafkaz". 1916.
16. "Qafqaz kalendarı". 1914.
17. "Qamusül-elam" və başqaları.

[1] Azərbaycanın son istiqlal dövrünə dair bir çox övraq, məsələn, iki sənəlik rusca "Azərbaycan" qəzeti kolleksiyonu, "Azərbaycan" cümhuriyyəti hökümətinin əkbari", milli iqtisadımıza dair kitablar və məcmuələr: Qafqasiyada erməni-müsəlman vuruşmalarını təsvir edən vəsiqələr və sairə – mühafizə edilmək üçün Istambulda Süleymaniyyə nəzdində Qatanov kitabxanasına tərəfimizdən təslim verildi.

LİTVA TATARLARININ TARİXİ

MÜQƏDDİMƏ

Böyük Avropa müharibəsi bir çox millətlərə zərbələr vurduğu kimi, Litva tatarlarına da toxundu və əsrlərdən bəri Litvada, Lahistanda və Volında gəlmə olan tatarlar torpaqlarını və məskənlərini tərk etməyə məcbur oldular. Bu gün bu tatarların bir çoxunu Krımda görürüz: generallar, zabitlər, hüquqşünaslar, doktorlar, məmurlar və bir çox sənətçilər. Əvvəlcə vətənlərindən yay və qılıncdan başqa tişa bir şey götürməyən tatarlar, bu gün (tişdan) elm və fünun ilə təchizli olaraq geri dönür. Lakin çox yazıq, ana dillərini qeyb etmişlər. Bizim islamlıq və türklük borcumuz: Litvanyalı qardaşlarımızı hörmət ilə əski vətənlərinə qəbul etmək və onlara türk dili öyrətmək. Bu bizim həpimizin müqəddəs vəzifəmizdir. Krım tatarı münəvvər sinfinə çox möhtac olduğu üçün zəruri ehtiyacı bir parça dəf edərlər, zənnindəyiz.

Bu kaç səhifəlik risalə ilə əgər Litva tatarlarina dair rəğbətləri qazanan məlumat verə bilərsəm, məqsədimə müvəffəq oluram. Yeganə məxəzim Peterburq professoru A.Muqlinskinin zildə yayılan risaləsidir. "İssledovanie o proisxojdenii i sostayanii litvanskix tatar".

Professorun əsəri yetmiş sənə əvvəl meydana çıxmış və təbiidir ki, bəzi məlumatı əksimiş olduğundan onlardan istifadə olunmadı.

Y.V.

I. LİTVANYADA BİRİNCİ TATAR MÜHACİRLƏRİ

Rusiya müvərrixlərinin verdiyi məlumata görə Altun Ordu tatarları Özbək xan zamanından Böyük knyaz Nedemin məmləkətinin cənub tərəflərinə hücum edərdilər və yağmalar yapdıqdan sonra bir çox əsir də alırdılar. Şübhə yox ki, tatarlardan da əsir sifətində Litvanyada qalırdı. Əskidən bəri rus və Litva hökmdarları maaş ilə tatar bölükləri saxlayırdılar. Bunlar düşmənlər ilə vuruşduqda çox sədaqət və cəsurluq göstərirdilər. Knyaz Nedemin 1319 sənəsində tevtunlara qarşı açdığı müharibədə ordunun birinci səflərində tatar əsgərləri vuruşurdular.

Zatən türk-tatar qövmlərinin cəngavərliyindən bir çox hökmranlar istifadə etmişlər. Islam xalqları məmləkətindəki üsyan və yaxud valilər itaətsizliyində türk qövmləri vasitəsilə mübarizə edirdilər. Cənub-şərqi Asiyada türk qövmləri kəndi iqtidarını duyaraq məmləkəti idarədə böyük rollar oynayırdılar. Istədikləri adamları iş başına gətirirdilər. Və rəğbətlərini qazanmayanları taxtından endirirdilər.

İslam padşahlarina para ilə xidmətdə bulunan türk-tatar qövmləri xristianlara da xidmət edirdilər.

Şübhəsiz ki, knyaz Nedem tatarlara torpaq paylayaraq müharibədən sonra məmləkətində saxladı. Françisqan ordeninə mənsub tarixnəvis 1324 sənəsində qeyd ilə yazır: Litvanya məmləkətini xristianlıq dininə hidayət etməsi üçün göndərilmiş qardaşlarımız bütün milləti müşrikliyə qərq olmuş və əndişəyə tablayan gördülər. Bunların arasında bəlli olmayan bir xan ölkəsindən gəlmiş, ibadətlərində Asiya lisanı kullanan asiflər var imiş. Bir çox zaman tatarları "Asif" deyə təsmiyə etmişlər. Məzkur xan da Özbək xan olmalı.

İştə Litvanya birinci tatar mühacirləri bu zamandan başlayaraq tarix səhifələrində görünür. Sonra Litvanyanın Polonya və Almanlar ilə yardığı müharibələrində tatarlar cəsarət və sədaqətlərilə Litvanya bayraqlarını yüksəltmişlər.

1558 sənəsində Sultan Süleymanın vəziri Rüstəm paşa üçün bir Litvanya tatarı tərəfindən yazılmiş "Risaleyi-tatarlar" adlı kitabçada bir Canı bəyin xatirəsi var. Litvanya tatarlarının rəvayətinə görə, Canı bəy islama sadiq və ehkamının naşiri olduğu üçün bir kaç dəfə Lehistana hücum ctmiş və bir çox müsəlmanı orada tərk etmiş. Canı bəyin səfərinə dair Polonya tarixində də söylənilir. 1343 sənəsində tatar hücumuna qarşı Böyük Kazimir çıxmış, Livlin altında onlara qələbə çalmışdır. Canı bəyin başqa hücumlarına dair tarixdə bir əsər görünməyir.

II. KNYAZ VİTOVT ZAMANI

Litvanya tatarları üçün ən parlaq bir dövr Şimali Avropanın müqtədir hökmdarlarından böyük knyaz Vitovtun dövrüdür. Cəsurluğu, təcrübəsi və zəkiliyi ilə Vitovt bütün qonşu dövlətləri qorxu altında saxlayırdı. Otuz səkkiz sənə arası kəsilməyən yardığı qanlı müharibə-

lər ilə Rus məmləkəti, Altun Ordu işlərinə müdaxilə və təsir edirdi. Hərblərdən zəfərlər qazanaraq Vitovt səltənətini Şərq dənizindən (Baltik olmalı) Qara dənizə və Poloniyadan Uzaq Şərqə doğru yürütdü. Osmanlı sultanı dördüncü Muradın müvərrixi Becəvi yazdığı "Osmanlı milli tarixi"ndə (1520-1630) tatarların Litvanyaya böyük miqdarda köçmələrinə Vitovtun cülusu zamanına isnad verir. Bu xəbərin doğruluğunda şübhə yeri qalmayır. Çünki Becəvi bütün əsərlərində mötəbər mənbələrdən istifadə etmiş.

Qıpçaq xalqını təsvir edərək Becəvi əlavə edir: "Dəhşətli Teymur Qırçağa gəldikdə (1391) tatarların bir çoxu əsir alınıb öldürüldü. Tatar qövmünün bir çoxu Poloniyaya (Litvanya olmalı) qaçdı. Şimdi də altmış tatar köyü orada sükunət etmədədir. Başqa millətlər Teymura təbəət etdilər və üç gecə onun ilə yan-yana Idildə Toxtamış xana qarşı vuruşdular və Toxtamışı qaçırdılar".

Litvanya tatarlarının rəvayətinə görə mühacirlərin sayı 40 min imiş. Böylə də olmalı. Bunlar kəndi arzularına istinadən Vitovtun təbatini qəbul etmişlər. Beş sənə sonra Toxtamış xan əsgərləri ilə bərabər Vetovta qısıldı və Knyazın mərhəmətilə "Leyda" şəhərində qərar tutdu. Vitovt Toxtamışa yardım verməsini vəd etdi. Ümidi bu idi – bütün rus knyazlarını müqtəhidən ümumi düşmənə qarşı vuruşmaya sövq etsin. Olqardin tatarlara çaldığı qələbə rus müttəfiq knyazları ruhlandırdı və bu ittifaqa Moskov hökmdarı Vasili də daxil oldu. Qət olundu-səfəri 1397 sənəsinin sonu başlasınlar. Toxtamışın qövmləri də qoşularaq müttəfiqlər "Don" nəhrini keçdilər. Ozov ordusuna zərbə vurdular və ilərіyə doğru qovdular. Əsir götürülən bir kaç ulusunu və başqa rəvayətə görə kaç min tatarın bir hissəsini Vitovt Poloniyaya qardaşına göndərdi. Bunlara burada xristianlığı qəbul etdirdilər. Bəzilərini isə qadınları və çoluq-çocuğu ilə Litvanyaya sürdürdü. Könüllü mühacirlər ilə əsirlər Ziladəki mövqelərdə məskən qurdular. Vilna şəhərində, Vilnadan on dörd verstlik məsafədə "Vaqi" nəhrinin kənarında, şimdiki Vilen quberniyasının Teruq, Oştyan Valeyda uyezdlərində, Minsk quberniyasının Lovoqrisk uyezdində, Qrodnensk quberniyasının Brest uyezində; Volında və Avquştav quberniyasında Knyaz Vitovt mühacirləri boş torpaqlara dəvət etmək üçün onlara bir çox imtiyazlar verirdi: bu yolda "busurman" (kafər) təsmiyə olunan müsəlmanlar ilə xristianlar arasında fərq görülməyir-

di. Rusiyada işlər başqa idi. Burada əsirlər böyük knyazlara, çarlara və yaxud xüsusi şəxslərə mal olurdular. Müsəlmanlar xüsusi ələ keçdikdə tam mənasıyla qul olurdular. Knyaz Vitovt isə müsəlman əsirlərinə hərbi xidmətdə bulunmaq şərtilə kafi miqdarda torpaq əta edirdi. Bu torpaqlar tatarların malı olaraq öldükdən sonra övladlarına və əqrəbalarına keçirdi. Əvvəlcə tatarlar həyatlarında torpaqları satmağa, bağışlamağa haqlı idilər. Bu əmlakın panlar əlinə keçməsinə səbəb oldu.

Rusiyada tatarların şəhərlərdə sakin olmasına mane olurdular. Daha doğrusu, onları oradan qovurdular. Vitovtun məmləkətində tatar üçün heç bir maniyyət yox idi. Hətta dövləti vergilərdən belə xilas olunmuşdular. Din və ayinlərində hürr buraxılmışdılar. Onlara bu yolda heç bir təzyiq olunmuyordu.

Litvanya padşahı Vitovtun müsəlmanlara olan mərhəmətini izicilərdən kimsə inkar edəməz. Bunun əvəzində tatarlar da Vitovtu sevərdilər və onun əsgərlərilə bir yerdə Litvanya düşmənlərilə vuruşurdular.

Vitoytun adını "Vedad" və yaxud "Veted"deyə yad edirdilər. Birinci Ziqizmunda 1519 sənəsində təqdim etdikləri ərzi-hallarında tatarlar Vitovta olan rizalıqlarını böylə bayan edirdilər: "Gözəl Vitovtu qayb etdik onun sayəsində peyğəmbərimizi unutmadıq, onun üçün ibadət zamanı üzümüzü qibləyə tutduqda xəlifələrimizlə bərabər Vitovtun da adını yad edirik. Litvalılar bizi əsir olaraq himayə etdilər. Torpaqlarına ayaq basdıq, bizi əmin etdilər bu torpaq, bu su və bu ağaclar bizim üçün ümumi olacaq. Vitovt bizim övladlar arasında bəllidir: Onu Tuzlu Göllər (Krımda) ətrafında tanıyorlar və Qipçaq da bilir ki, biz torpağımızda qərib deyiliz".

Vitovt Qaraimlər ilə də eyni müamilədə bulundu və Krımdan Litvanyaya köçürdüyü dörd yüz ailəyə bir çox imtiyazlar verdi. Qaraimlər Vitovtun adını xeyir və dua ilə yad edirdilər.

Litvanyanin mərhəməti tatarların könüllü mühacirətinə meydan açdi. Daxili qailə və dərəbəylikdən bıqanlar hər Litvanya səltənətinin sayəsinə sığındılar. Toxtamış xana taxtını əda etmək qəsdilə Vitovt 1398 sənəsində Teymura qarşı səfərə çıxdı. Litvalılardan, ruslardan Toxtamiş xan tatarlarından Poloniya, alman və Vuluş alaylarından mərkəb böyük bir qüvvə toplanmışdı. Tarixnəvislərin məlumatına

görə yalnız knyazların sayi əlliyə qədər idi. Əsgərlərin cəsur müdafiələrinə baxmayaraq Vitovt məğlub oldu və yalniz qaçıb canını qurtara bildi. Litvanyanı başdan-başa pozub bərbad etdilər.

Bu müvəffəqiyyətsizlikdən sonra Vitovt Xanlar ilə müharibəyə girişmədisə də, onların işlərinə müdaxilə etməkdən vaz keçmədi və daima Toxtamış xanın övladlarının mövqeyini qüvvələndirməyə çalışdı. Bunların bir çoxu Litvanyada ətrafdakı adamlar ilə yaşayırdı. Əbədi sükunətə qərar verənləri də oldu. Tatarlardan elçilər gəlirdi, hədiyyələr gətirirdilər. Vitovt ilə tatar arasında bir ittifaq zühur etmişdi.

Tevtunlar ilə Kral Yaqoyeva arasında 1410 sənəsində başlanan müharibə zamanı Vitovt ordusunda müttəfiq tatarların otuz minlik bir qüvvəsi var idi. Tatarların komandanı Toxtamış oğlu Cəlaləddin idi. Cəlaləddini Polonya müvərrixləri səhvən "Səlahəddin"adlandırmışlar və yaxud "Taxta Mirza Atnun" və "Toxtamış oğlu"dan qaliba yanlış. Ruslarsa Cəlaləddini "Zeleni", "Zelet" və yaxud "Zedi" deyə təsmiyə etmişlər.

Şübhəsiz ki, xanın göndərdiyi əsgərin miqdarını alman müvərrixləri bir parça fazlalaşdırmışlar. Çünki Qıpçaq geniş dövlət də olsaydı əvvəlinci xanlar zamanında belə yüz mindən ziyadə əsgər çıxarmazdı. Sonra məmləkətin dairəsi daraldı, əsgərin də sayı yarıya düşdü.

Tevtunlar qəsdən Poloniya-Litva ordusunu tarixlərində böyük göstərmişlər ki, onların rəşadəti kiçik və kəndi qüsurları da az görünsün – müharibədə iştirak edən Litvanya tatarı on mindən ziyadə olmali idi.

Cəlaləddin əsgəri kəndisini düşmən torpağinda hiss edərək və əski adətlərinə tabe olaraq Poloniyaya yağma üçün hücumlarda bulundu. Bir çox haqsızlıqlar törətdilər. Əsirlər aldılar. Qırdılar və çocuqlara belə rəhm etmədilər. Bu vaqiəni görərək, atalar və ixtiyarlar ağlar gözlər ilə krala müraciət etdilər. Vitovt ətrafındakıların rəvayətinə tabe olaraq tatarları yardıqları qəbahət əvəzində cəzalandırdı. Qrunvold müharibəsindən sonra Cəlaləddin bir kaç vəqt Litvanyada yaşadı. 1411 sənəsində Vitovt ilə bərabər Kiyev şəhərində idi. Bir sənə keçmiş Vitovt Cəlaləddini qıpçaq taxtına oturtdu və sonrakı zamanlarda övladlarını himayəsində saxladı.

Beləliklə, tatarlar Litvaya da yavuqlaşdılar və sadiq bir müttəfiq oldular.

Tatarın bir hissəsi Dnestr nəhrinin arxasında köçəri bir həyat sürürdü. Bunlar Litvanya hökmdarına tabe idilər və kralın müsaidəsi müacibində Dnestr və Dnepr qurtaracağında otlaq torpaqlara malik idilər. Tatarın digər bir kütləsi, noğay və qıpçaq ilə qonşu Don çöllərində sakin idilər. Bunlar da Litva səltənətini tanıyırdılar və Hacı Gəray tərəfindən fəth olunmuşdular. Poloniya müvərrixlərinin rəvayətinə görə Hacı Gəray Teresdə doğmuş və Litvanyada tərbiyə almış Kral Kazimir Nacı Gərayı Petequb taxtına oturtdu.

Litvanyanın o zamanlar cənub hüdudu Qara dəniz idi. Şimdiki Odessa yerində Nacı bəyin əskiləsi var idi. Bu əskilərdən Yaqaylo Pudol buğdasını Istanbula göndərərmiş (1415). Litvanya Dnepr boyunda tatar müstəhkim binələrinə malik idi. Məsələn: Qaramencuq, Nsiq, Misurin, Qəbrəbədyif, Buynuztavan, Barqun, Yayaqun Varof, Vavçaqrov. Bu binələr Don arxasında köçəri və müstəqil ordular axınını saxlayırdı.

İşdə yuxarıda zikr olunan siyasi müamiləyə Kral Vitovt ilə tatarlar arasında zühur edən dostluq sayəsində Litvanyada müsəlmanların get-gedə artmasına meydan verilirdi.

III. LITVANYADA TATAR AXININ SONRAKI DAVAMI

Litvanya hökmdarı Vitovtun vəfatından sonra yeni bir tatar dövləti meydana çıxır və zühurilə Litvanya məmləkətinə hücuma başlayır. Krım tatarları tarix səhifəsinə atılırlar. Əvvəlcə bunların arasında qovğa bunları qonşu dövlətə hücum etməkdən saxlayırdı. Lakin bu da çox sürmədi. Idil xanlarından Seyid Əhməd Poloniya kralı Kazimir Yaqoyloviçə qoşulduqda Krım xanı Mənikli Gəray şübhəyə düşdü və ittifaqa mane olmaq qəsdilə həmən Poloniyaya hücum etdi və bu vaqeədən sonra Krım-Poloniya əlaqəsi fənalaşdı. Poloniya müvərrixlərinin rəvayətinə görə, Seyid Əhməd Mənikli Gəray tərəfindən basıldıqdan sonra Kiyevə varıb müttəfiqinə qısıldı və himayə əvəzində zindana atıldı və Qrovna şəhərinə gömüldü. Ətrafdakılar Litvanyadakı dindaşlarını bulub, torpaqlara malik oldular.

Seyid Əhmədin Litvanyada vəfati məsələsi səhih xəbər deyildi. Rusiya səfərində müvəffəqiyyət qazanmadığından sonra Seyid

Əhməd geri döndü. Litvanya tatarlarının yardım vermədiyinin intiqamını on iki Litvanya şəhərindən aldı – çaldı, çapdı.

Krım müvərrixi Məhəmməd Rzanın xəbərinə görə, Noğay Məhəmməd Gəray gecədən istifadə edərək Seyid Əhməd ordusuna hücum etmişdir. Noğaylar cəsur tatarlar zərbəsinə davam gətirməyərək qaçmışlar. Bu zaman Mənikli Gəray böyük bir qüvvə ilə oğluna yardıma gəlmiş və Seyid Əhmədin əsgərlərini tamam məhv etmişdir. Bu müharibədə Seyid Əhməd bütün əhbablarıyla əcəl şərbətini içdi. Vəfatından sonra bütün əmlakı Mənikli Gəray ordusuna keçdi.

1503 sənəsində Mənikli Gəray ordusu Podalyayı yağma edib, Litvanyaya keçdi və Qıpçaq şəhərini aldı. Daşı daş üstündə qoymadı. Şəhərin xalqı ormanlara qaçmağa məcbur oldular. Üç sənə sonar Yezequb ordusu Qıpçağa yaxınlaşdı. Lakin knyaz Mixail Ramanski orduyu toplarla qarşıladı və üç saatlıq bir zamanda otuz minlik əsgərə qələbə çaldı. Tatarların bir hissəsi yalnız qaçıb qurtara bildi. Əsirləri isə Qılçıq, Minsk və qonşu torpaqlarda məskun etdirdilər. Qılçıq şəhərində "Tatarskaya Sloboda" denilən soqaqda şimdi tatarlar yaşamaqdadırlar. Minskdə də "Tatarski qoneç" ünvanlı soqaq var.

1508 sənəsi, Birinci Siqizmund dövründə Krım tatarları daimi surətdə Voluna hücum edirdilər.

Bu hücuma qarşı Litvanya tatarları tarixi bir sənəd şəhadətilə dindaşlarına belə cavabda bulunmuşlar:

"Nə Allah, nə Peyğəmbər sizə çalıb-çapmaq və bizə qeyri-sadiq olmağı əmr etmiyor. Sizi yırtıcı sanaraq qılıncımız ilə qırarız. Qardaş deyə öldürməyiriz. Idil arxasında yaşayınız. Yeni qüvvəyə təsadüf' edincəyə kadar. Biz Vaqi (Vilna yanında) ətrafında litvalılar üçün qan tökəcəyik. Çünki onlar bizi kəndilərinə qardaş taniyorlar".

Knyaz Konstantin Avstriyski Vistovsçi altında tatar qüvvələrini pozdu və əsirlərə Vulinda Ostruq şəhərində yer verdi. Şimdi Ostruqda "Tatarskaya ulitsa" deyilən məhəllə var. Knyaz Ostrojski zamanı tatarlar Podelesis, Loq nəhrinin sol kənarında, indiki Poloniyada sakin idilər. Bu yerlərdə indi də tatarlar var. Ostro ski Vulin və Ukraynada tatarları oturtmuşdu. Lakin bunlardan hal-hazırda bir əsər görünməyir. 1659 sənəsi Qanuni-əsası Vulin və Ukrayna tatarlarını yad edir: "Kral Kazimir onların əvvəlki haqlarını tanıdı. Sonra Ukrayna və Vulen tatarları dilləri ilə dinlərini də qeyd etdilər, qaldı yalnız Litvanya və

Poloniya tatarları. Iştə Litvanya tatarları, yuxarıda söylənildiyi kibi, əvvəla müttəfiq tatar əsgərlərindən və maaş ilə xidmətdə bulunanlardan; ikinci, əsirlərdən və Kral Vitovt dəvət etdigi uluslardan; üçüncü, tatar ölkələrindən, daxili qarışıqlıqlardan bezmiş mühacirlərdən vücuda gəldilər.

IV. LİTVANYA TATARLARININ ÜÇÜNCÜ SIQIZMUND ULUSUNDAN ƏVVƏLKİ HALLARI

Litvanya tatarlarına aid kral Vitovt tərəfindən sadir (qalan) heç bir fərman yoxdur. Lakin Aleksandr və birinci Siqizmund tərəflərindən tatara verilən hüquq və imtiyazların təsdiq olunması göstərir ki, tatarların cəsurluqları və igidlikləri nəzəri-etibarə alınaraq, onlara torpaqlar verilirmiş və əvəzində onlardan daima hərbə hazırlıq və ölkəni müdafiə etməklik tələb olunurdu. Əgər Litvanyaya bəy və yaxud Mirzə gəlsə və onların əsilzadəliyini Litvanya vilmojalarından biri təsdiq etsə, əvvəlki mövqeyini qeyb etmirdi, yəni, hüquq və imtiyazda Knyazlar, panlar və Şlaxtelər ilə bərabər olurdu. Qanun və fərmanlara da tatarın iki qövmə bölünməsi müşahidə olunurdu: əsilzadələr və adi tatarlar. Əsilzadələr üç qismə ayrılmışdı: knyazlar, mirzələr və oğlanlar. Bu təsnif Litvanyada və Rusiyada olan qaydayla tətbiq olunmuşdu; oralarda da əsilzadələr knyaz, pan və boyarlara bölünürdü. Əsilzadələrdən başqa bir də məmləkətdə "adi insanlar" var idi.

Tatar knyazları Altun və başqa Ordu bəylərinin nəslindən sayılırdı. "Bəy" böyük məmuriyyəti olanlara deyilirdi. Məsələn: tümən bəyi, min bəyi, yüz bəyi, on bəyi.

Mirzə ləqəbi "pan" ləqəbinə müqabildir. Krım mirzələri knyazın aşağı sinfindən ədd olunurdu. Bunlar xan şurasında iştirak etmirdilər.

"Oğlanlar" mühüm məmuriyyətlərdə bulunurdular. Xan salonunda iştirak edirdilər və kəndilərinə məxsus əmlakları var idi.

Litvanya "Oğlanları" Ordu oğlanları nəslindən olaraq sonra kiçildilər və əhəmiyyətləri düşdü.

Torpağı olmayan tatarlar, yəni arabaçılar, sənətçilər, tüccarlar və torpağı əlindən çıxanlar adi xalq səviyyəsinə keçirdilər və ağsaqqallarına tabe olurdular. Bunlar yəhudilər ilə bərabər xan vergisini verirdilər.

Tatar arasında "tatar qazağı" deyilən bir taqım da var idi ki,

hökmdarlar sarayı xidmətlərinə mənsub olub məktub göndərmək üçün saxlanılırdı. "Qazaqların" da kəndilərinə aid torpaqları və mülkləri vardı. "Xurunji" və "Marşallıq" ləqəbləri tatar ağsaqqallarına (starşina) təəlüq edilirdi. "Xurunji" hərbi xidmət olub, bir istiyaqi idarə edənə deyilirdi. "İstiyaq"ın əsl mənası bayraq deməkdirsə, "nəfər bölügündən" ibarət idi. Xurunjilər kraldan fərman alaraq əsgər torlardılar "voyevoda" və yaxud "hotmana" tədiyə edirdilər.

Litvanya şəhərlərində yaşayan tatarlar hüququnda qeyri millətlərilə bərabər idilər.

Poloniya qanunları torpaq əta olunmuş tatarların ictimai və ailəvi həyatda "dvoryanlar" ilə həmhüquq olmalarını tanıdı. Tatarlar "zemski" əmlakı ələ gətirə bildilər. Məzkur əmlaklara 1496 sənəsindən sonra yalnız "Şlyaxte" (əsilzadələr) malik ola bilirdi.

Tatar torpağının tatar əlində qalmasını təmin etmək üçün kral Vitovt dövr-səltənətindən sonra bu torpaqların "dvoryanlara" satılmasına mane olundu. Tatar satdığı torpaq əvəzində "dvoryanlardan" yeni bir əmlak ələ gətirsə, iki sənə müddətində geri qaytarmaq məcburiyyətində idi. Dvoryanlar da kralın müsaidəsilə olmayaraq, tatar torpağı satın alsalar, əmlaklarını qeyb edirdilər və maaşsız xidmətə məcbur olurdular.

Bir çox tatar torpağının yenə də dvoryanlara keçdiyi üçün 1559 sənəsində Litvanya krallığında təftiş başlandı.

Torpağı olan tatar kəndi xərcinə olaraq əsgərlik yapıyordu. Bunun üçün Litvanya hökuməti tatar kimi cəsur əskərin torpaqda sakin olması və məmləkətə xidmət etməsi yolunda çalışırdı. Torpaqlı tatara maaş vermək də yasaq idi. Son zamanlar tatar əmlakı üçün yarılan məhdudiyyətlər unuduldu. Çünki məhdudiyyət irəlidəki imtiyazlara zidd idi. 1569 sənəsində Litvanyanın qəti surətdə Poloniyaya qoşulması zamanı Litvanyada, Kiyev knyazlığında və Vulində olan Zemski əmlakları fərmansız ələ gətirilənlər böylədə, sabit varis elan olundular. Bu qanun mövcibi ilə tatar əmlakı da hüquq cəhətindən dvoryan əmlakıyla bərabər ədd olundu. Litvanya tatarlarının əksəri, ələlxsus əsirlər kəndi müsəlman qadınlarını yanlarında saxlamağa müqtədir olmadığından kral Vitovtdan sonrakı hökmdarlar tatarın Litvanya qadınlarıyla evlənməsinə müsaidə verdilər. Lakin bir şərtlə ki, tatarlar bir qadından ziyadə almasınlar.

Get-gedə Litvanya tatarlarına bir qadın almaq adət oldu. Əcnəbi qızlar ilə evlənmək tatarın millətinə böyük zərbə vurdu; tatarlar ana dillərini unutmağa başladılar. Hətta Qurani-şərifi anlamaq üçün sətirlərin altında Poloniya lisanında ərəb hərflərilə tərcüməsi yazılmaq adət oldu. Bir çox dini kitablar var ki, Poloniya tərcüməsini havidir. Rus-Litvanya, Rus-Ukrayna şivələrində tərcümələr də qullanılmiş.

V. ÜÇÜNCÜ SIQIZMUND ZAMANI SIXINTILARI

Birinci Siqizmund "Starosta"lar tatar köylüsünü sıxmağa başladı. Hətta əsilzadə qızlarından nigah vergisi belə alınırdı ("qonica"), kral tatara qarşı böylə hərəkətlərdən xoşlanırdı. Lakin Üçüncü Siqizmund dövrü dinə aid yanlış şərhlər sayəsində xristian olmayanları təqib etməyə başladılar və o zamanlar tatarlığa zidd qanunlar da vücuda gəldi. 1588 sənəsi "Litva statu" məcibincə tatar və yəhudi xristianları satın alıb kəndilərinə qul edəməzdilər. Yalnız yeddi sənə çalışdıra bilərdilər və yaxud torpaqlarına qəbul edib, əkin əkdirə bilərdilər. Din dəyişməyə tərcib və təşviq edənləri, tutulmuş və yaxud satın alınmış xristianlara sənət yapanları diri-diri yakmaq ilə qorxudurdu. Tatarlara xristian dairələri (sudenes) tutmaq məmnun idi.

Tatar və yəhudi adamıyla bərabər əmlak icarə etdikdə o adamlara fövqəladə vergi və xidmətlər təyin etməyə haqlı deyil idilər.

Lakin "statun" ötəndən bəri dönər əmlaka malik tatarları başqa litvanyalılar ilə hüquqda bərabər etdi. 1566 və 1569 sənələri qanunları tatar üçün qeyb etmədilər. Bu qanun məvcibi adam yaralamaq cəzası cərimə idi. Öldürmək cəzası ölüm idi. Dvoryanların şəhadəti əhəmiyyətli olduğu kimi, məzkur qanunlar tatar şəhadətini də dvoryanlar şəhadəti qüvvətində tanıyırdı.

Türk müvərrixi Becəvi rəvayət edir ki, Poloniyada altmış tatar köyü var, hər köydə bir came. Camedə xütbə oxunduqda kralın adı yad olunur. Köylərdə xalq çoxdur və kəndiləri varlıdırlar. Yeni hamamlara ehtiyac varsa da, Poloniyalılar yapılmasma mane olurdular. Tatarlar quranlarını ərəb hərfləri ilə yazırdılar. Lakin şərhə lüzum gördükcə Poloniya lisanına müraciət edirdilər. Məmləkətə vergi əvəzinə də hərbi xidmət üçün üç yüz kişi aralarından göndərirdilər. Kralın məktubları belə tatarlar vasitəsilə göndərilir. Çünki tatarlara xristianlardan çox inanılır.

1906 sənəsindən başlayaraq tatar sıxıntısı artır; tatar qadınlarını sehrçilikdə ittiham edirlər. Bir çoxları da Kufə Moskulatı buldular və xəttini anlamayaraq şeytanlar ilə tatartarın əlaqəsinin vasitəsi deyərək bir çox adamları atəşə atıb yakdılar. Tatara qarşı "Pyotr Çijevski"nin "Alferqan tatar" adlı əsəri meydana çıxdı. İki dəfə təb olunan bu kitabda tatarlara olmayacaq iftira və böhtanlar isnad edilir.

Bu iftiraya qarşı "Anologiya tatar" ünvanlı bir əsər təb olundu (1640 sənə). Get-gedə yenə tatara xristian qızları ilə evlənməyi, xristian xidmətçiləri saxlamağı, Kral və dvoryan əmlakı icarə etməyi mən etdilər. Tatar yeni camelər yarmağı və təmir etməkdə də haqqını qeyb etdi. Osmanlı hökuməti sonrakı zamanlarda Litvanya tatarlarını haqsızlara qarşı müdafiəyə girişdi. Bu yolda Adil Gəray xan da çalışdı.

VI. YENİ POLONİYA QANUNLARI VƏ TATAR

Litvanya tatarlarının sıxıntıları üçüncü Siqizmundun vəfatıyla sona çıxdı. Dördüncü Vladislav tatarın imtiyazlarını qaytardı və 1662 sənəsi Pan Kazimir dövrü tatarın haqlarını rəsmi olaraq seymdə tanıdı.

Mixail və Üçüncü Pan zamanları qanunlar tatarın sadiqliyini qeyd edib, haqlarını təsdiq etdi.

Qısası, Tatarlar hüquq və ixtiyarlarında dvoryanlar ilə bərabər oldular. On səkkizinci əsrin sonunda yeni camelər yapmaq və əskilərini təmir etmək haqları ədd olundu.

Yalnız Poloniya qanunları üçüncü Siqizimund dövründən sonar tatarlara seym və senat məclislərinə daxil olmağa müsaidə vermədi. Bunda da təəccüb yeri yox, çünki xristianlar üçün belə bir məhdudiyyət var idi. O zamanlar katoliklərdən kənar başqa qüvvə tanınmırdı.

Poloniya təqsimindən sonra tatarın bir hissəsi Prusiya və Avstriya dairəsinə köçdü. Hüquq cəhətindən yeni idarə tatar həyatında təğyir doğurmadı. Siyasi haqlardan başqa, qeyri haqlara malik idilər. Varşava hersoqluğu meydana çıxdıqda burada tatar haqları tanındı. Hətta tatar seym məclislərində belə iştirak edirdi.

Hal-hazırdakı Poloniya məmləkətində müsəlmanlar əvvəlki
hüquq və imtiyazlarını qeyb etməmişlər.

VII. RUS QANUNLARI

Litva vilayətlərinin Rusiyaya qoşulmasından sonra tatarların yenə hüququna təcavüz olunmadı. 1794 sənəsində ikinci Yekaterina Litvanya general qubernatoru Knyaz Reninin adına göndərilən fərmanda tatarların xatiri saxlanmasını əmr edirdi. Çariça tatarların nəcib və cəsur bir millət olduğunu yad edərək onların hüquq və imtiyazlarının baqi qalmasını Knyaz Reninə dərxatir edirdi.

1797 sənəsində Litvanya tatarlarından atlı alay təşkil olundu. Əvvəlcə alayın adı "Pinsk alayı", sonra "Tatar-oğlan alayı" və hal-hazırda "48-ci tatar-draqun alayi" adlanır. 1799 sənəsi 13 şubat fərmanı mövcibincə tatarlar xüsusi qanunlara tabe oldular. Əsilzadələr, dvoryanlar ilə hüquqda birləşdilər.

VIII. LITVANYA TATARLARININ SAYI

Litvanya tatarının sayı get-gedə azalmaqdadır. Vaxtilə bunların bir qolu Türkiyəyə və Krıma hicrət etmiş. 1616 sənəsində təb olunmuş "Alferqan tatar" ünvanlı əsərdə tatarın sayı yüz min və silah daşımağa müqtədir olanlar isə on min göstərilir. Tatarların rəvayətinə görə Kral Vitovt zamanı Litvanyada tatar mühacirinin miqdarı qırx beş min idi. Narbut yazır ki, Kazimir Yaqoylanın zamanı Litvanyada on minlik bir məhəlli tatar qüvvəsi var idi.

"Risaleyi-tatar" müəllifi 1558 sənəsində tatarın nüfuz rəqəmini iki yüz minə çıxarır. Şübhəsiz ki, müəllif ifrata uğrayır, tatar Litvanyada az olmalı idi.

1631 sənəsi İoan Qerdem tərəfindən Litvanya tatarının əmlakı təftiş olunub, böylə məlumat verilir: Altı vilayətdə yeddi yüz doxsan xanə var imiş. Əgər hər xanə, yaxud ailəni on erkəkdən ibarət saysaq sakinlərin sayı 8000 olurdu. Ticarət, sənət və arabaçılıq ilə idxal edənlərin sayı təqribən beş min idi.

Cəmiət 13000 can, on üç min tatar qadınlarını çolunu və çocuqlarını da nəzəri-etibarə alırsaq, bütün Litvanya tatarının sayı 60 mindən ziyadə olamaz.

Türklər Podolyayı təxliyə etdikdən sonra bir çox tatarlar Türkiyəyə köçdülər və orada üç yerdə sakin oldular. Dubruğda, Bursa ətrafında və Qızıl Irmaq sahilində rəsmi statistika məlumatına binaən zikr olunan məskənlərdə tatarın sayı 3 mindir. Şimdi Litvanyada bir çox köy var ki, tatarlardan iz belə qalmamış.

XIX ƏSRİN ORTALARINDAKI XƏBƏRLƏR

O zaman mənbələri sabit rəqəmlər göstərmirlər. Bunun üçün aldığımız məlumat təqribidir.

Vilen quberniyası	- 2000
Qoren	- 300
Qrodnen	- 800
Minsk	- 1500
Volin	- 200
Podol	- 100
Aqustovsk	- 150
Lublinsk	- 130

İştə on doqquzuncu əsr məlumatına binaən Litvanya tatarının miqdarı təqribən beş min səksəndir. Təbiidir ki, son vaxtlar bu rəqəm bir az daha düşdü. Avropa müharibəsi işləri büsbütün dəyişdirdi.

IX. LİTVANYA TATARLARININ MƏİŞƏTİNƏ DAİR

Litvanya tatarlarını üç qismə təqsim etmək mümkündür. Əmlak sahibləri, xüsusi sektorlarda yaşayanlar və şəhər, qəsəbə xalqı; əmlak sahibləri zəngin deyillər, torpaqları az olduğundan hərbi xidmətlərə gedirlər. Familiyaları əcnəbiləşmiş, məsələn: Bazarovski, Subclovski, Qcrbiçinski, Xumçiski, Sulkeviç və başqaları. Bu nəsillər Litvanya tatar əsilzadələrindən olub ötədən bəri məmləkətdə xidmətləri ilə məşhur olmuşlar.

Köylü tatarlar zəmindarlıq ilə məşğuldurlar. Şəhər və qəsəbə tatarı isə xüsusi məhlə və soqaqlarda yaşayaraq dürlü işlər ilə uğraşırlar. Məsələn: Minsk şəhərində yaşıllık (səbzəvat) satırlar, Penskdə dəriçilik yarırlar. Başqa yerlərdə arabaçılıq edərlər.

Litvanya tatarları çocuqlarını ərəbcə oxudurlar. Minsk şəhərində came nəzdində tatarlar var ki, gözəlcə ərəb xətti yazırlar. Bunlar Qurani-Şərif və başqa ruhani kitablar yazısıyla məşğuldurlar.

Hökumət məktəblərində də tatarlardan istifadə edirlər. Qəza məktəblərini ikmal edənlər hökumət müəssisələrində xidmətdə bulunurlar.

Tatar əsilzadələri arasında elm adamları çoxdur. Bəziləri bir kaç Avrora lisanlarından başqa türk-tatar dillərini də bilirlər. Qərb quberniyalarında mədrəsələr yoxdur, oraların ruhani işləri Krım məktəbləri tərəfindən idarə olunur.

Mövcud on iki molla xalq tərəfindən intixab olunur. Əvvəlki hökumət zamanında Litvanya tatarlarının məhkəmələri və qaziləri də var idi. Xristianlar belə bir çox vəqt tatar məhkəməsindən istifadə edirdilər. Kral Mixail dövründə Poloniya tatarlarına İstanbuldan fitvalar gəlirdi. Üçüncü Pan Subeski Türkiyədən gələn fitvaları mən etdi.

On yeddinci əsrin əvvəllərində Becəvinin rəvayətinə görə Litvanya tatarlarının altmış camei var imiş. Evdəki ibadətxanaları isə "Risaleyitatarlar" yüzə qədər sayır. Hal-hazırda iyirmi bir camei qalmış. Vilen quberniyasında – 2; Minsk – 8; Qrunensk – 3; Volinda – 2; Podolda – 2; Poloniya çarlığında – 2.

(Aqustov və Lubbilin quberniyalarında)

X. XÜLASƏ

Litvanya tatarlarının qısaca tarixləri göstərildi. Bunlar bir kaç əsr xristianlar mühitində dağınıq bir halda yaşamışlar. Dürlü tarixi axınlara təsadüf etmişlər, yenə də kəndilərini qeyb etməmişlər. Litvanyaya gəldikdə, tatarlar qüvvətli bir mədəniyyətə malik deyil idilər.

Təbiidir ki, əcnəbi məmləkəti ikinci vətən tanıdıqda oranın yüksək mədəniyyətində yaşamaq məcburiyyətində bulunacaq idilər.

Avropa mədəniyyəti fikri genişləndirir. Ruhda bir aclıq doğurur və bu aclığı dəf etmək üçün ruhani qidalar vücuda gətirir.

Litvanya tatarı sayca azlığını hiss edərək və milli mədəniyyətinin yeni mühit üçün, məsud yaşayış üçün çox da əlverişli olmadığını duyaraq Avropa mədəniyyətinə alışdı. Təbiidir ki, qüvvətli mədəniyyət qələbə çaldı və Litvanya tatarı milli amillərini qeyb etdi. Bu gün litvalı qardaşlarımız milli dillərini unutmuşlar; əski adətlərini tərk etmişlər; adları belə rus adlarına çevrilmiş.

Təkrar edirəm; əsrlərcə zəif kütlələrlə mədəni bir mühitdə yaşamağın ən təbii nəticəsi bu kütlələrin mühitə qarışıb, yox olması idi.

Lakin Litvanya tatarı bu təbii qanuna bir o qədər də tabe olmadı: dilini, milli adətini unutdu isə də, varlığını qeyb etmədi. Bu gün hər yerdə Litva tatarı tatarlığını və müsəlmanlığını kəmali-iftixar ilə söyləyir.

Bu dursun kənarda, Litva tatarı əski vətəni Krıma olan duyğularınıda mühafizə edə bilmiş; çoxdan bəri Krıma hicrət etməyə başlamışlar. Bu gün Krımda bir kaç yüzdən ziyadə Litva tatarı var. Çoxları Zemstvoda, şəhərlər idarəsində və milli tatar təşkilatlarında çalışmadadırlar. Qayət doğru və namuslu xidmətlər yapırlar. Çoxları tatar lisanı öyrənməyə başladılar. Gözəl bilənləri də yox deyil.

İnsanı artıq dərəcədə mütəəssir edən Litvanyalıların milliyyətə olan məhəbbətləridir.

Tatar teatrosuna gələn bir çox litvalılar arasında birindən sordum: – Siz tatar dili bilmədiyiniz halda teatromuzdan həzz ala bilirsinizmi?

– Tatar teatrosu bizə çox ləzzət veriyor. Çünki ruhumuzun milliyyətə çox-çox ehtiyacı var, – deyə cavab aldım. Əvət Litvanya tatarı kəndisində milli bir aclıq duymuş, onun üçün saatlar ilə teatroda oturub kəmali-diqqət ilə səhnədə söylənən sözləri dinləyir. Mənasını anlamırsa da, milli dilin kəndisindən həzz duyur.

Məclislərimizdə də eyni hal. Daimi olaraq Litva tatarları Krım məclislərində iştirak edirlər və türk dilini məmnuniyyətlə dinləyirlər. Ağməscid Litva tatarı komitəsi türk dili kursları açmış. Müvəffəqiyyət diləriz. Əlbəttə, Krım tatarları bu komitəyə yardımda bulunmalıdırlar. Bu yardımda qardaşlıq borcundan başqa bir də fayda tərəfi var, türkcə öyrənən Litvalı, Krım tatarı ehtiyacatı ilə yaxından tanış olub, onun yolunda çalışacaq.

Müqəddimədə söylənildiyi kimi, Krım tatarı ziyalı qüvvələrə möhtacdır. Zemstvo və şəhər idarələrində tatarın hüququnu müdafiə edən bir çox rus təhsili görmüş adamlar lazımdır. Litvanya tatarlarının əksəri rus məktəbləri ikmal etmiş münəvvərlərdən ibarət olduğundan, bunlardan faydalanmalıdır.

Litva tatarında milli hiss yoxdur demək böyük qəbahətdir. Krımlılar ilə litvalılar arasındakı soyuqluq, ancaq ümumi milli lisan yoxluğundan doğur. Litvalı qardaşlarımız milli dilimizi öyrənərlərsə, türk-tatarlıq aləminə böyük faydalar verərlər. Bunların arasında sena-

tor Axmatoviç kimi alim hüquqşünaslar var. Bu addan faydalanmalı, bu ad ilə iftixar etməli.

Gənclər arasında da dəyərlisi az deyil. Bu gün Krım tatarı tarixi ilə də uğraşanı var. Bir Litva gənci rus hökuməti tərəfindən Krım tatarına olan zülmə dair məlumat toplamaqdadir: Gecə-gündüz arxivlərdə tozlu vərəqlər arasında çalışır. Bir vaxt gələr, bu gəncin adı və xidməti meydana çıxar.

Litva tatarının qeyb olmamasına birinci səbəb dini duyğular olmuş. Litvalılarda dini hiss qüvvətlidir. Krım tatarı arasında din duyğusu yox kimidir. Bunun sayəsində əxlaq düşüklüyü vücuda gəlmişdir. Sərxoşluq, cinayət və fəna fəallar meydan almışdır. Litvanya tatarlarından iştə islam ənənəsi yaşayıb gəlməkdədir.
Bəzi batil fikirlər var ki, guya Avropa təhsili görənlər dinə rəğbət etmirlər. Litvanya tatarlarının məlum siniflərilə yaxından tanış olduqda bu fikrin əksinə iman edərik; bir çox Litva arifləri gördüm ki, Cənab Allahı və Həzrəti Peyğəmbərimizi yad etdikdə gözləri yaşarırdı. Əcnəbi lisanında olsa da, Litvalı qardaşlarımız daima kəndilərilə bərabər ayətlər və yaxud dualar daşıyırlar.

Litvalılarda dini etiqad qəvi olduğundan əxlaqları da düşkün deyil. Həpsi ayınıq, ciddi və işlərində sabit, bərabərlərilə müttəfiq bir tərzdə yaşayırlar. Yeki digərini sevirlər. Qeydlərinə qalırlar. Qürur və həsəd kimi məzlum sifətlər litvalılarda yoxdur. Qayət demokratik xalqdır.

Milli məclislərdən birində Litvalı bir hüquqşünas nitqində Krıma torlanan türk ünsürlərini qiymətli daşlara təşbiyə etdi, dedi: “Bu daşlardan gözəl bir came yarmalıyız və böyük rəbbimizə o camedən ibadət etməliyiz”.

İştə o müqəddəs came qurmağın zamanı gəldi. Hüsniniyyət ilə yapalım və islamın ehkamı olan üxüvvət əsaslarını canlandıralım. Üxüvvət ehkamını təqdiyə və təqdir edərsək, Krımda bütün tatar ünsürləri rahət yaşarlar və milli bayrağı yüksəldərlər.

1919

AZƏRBAYCAN MUXTARIYYƏTI
AYILIN, TOPLAŞIN!

Türk millətinə xitab

Əsrlərlə qılınc zərbəsi ilə istila olunub, millətlərin qan və göz yaşları ilə bir-birinə bitişdirilən torpaqlar başsızlıq sayəsində məhv olub gedir. Şəddadın zülm ilə abad olmuş imarəti uçur, dağılır. Böyük ölkə bir-birinə dəyir: Rusiyanın qiyaməti qopur. Geniş bir dövləti mərkəz bir orta idarəyə qadir deyil. Hökumətə gündə bir adam daxil olub, biri çıxır. Sabit idarə yox, nizam yox, qayda yox, əmin-amanlıq yox. Güclü gücsüzü döyür, əzir və təhqir eləyir; abrı və namusu ara yerdə gedir. Başsızlıq gün-gündən ölkəni ağzına alır; nahaq qanlar tökülür, abadanlıqlar talan olunur.

Bu hal getdikcə şiddət eləyir və eləyəcək, aləm viran olur və olacaq. Rusiya hökumətindən cəmi millətlər ümidini çəkib öz başını öz ətəkinə bükməyə başlayır. Rusiya millətləri hərə öz cəmiyyət və şuraları ilə idarə olunmağa üz qoyur, qoşun toplayırlar. Hər millət öz fərdini axtarıb tapır; əl-ələ verib camaatın halına qalır. Çünki milli himmətdən savayı özgəsi milləti bu dəhşətli zamanda müdafiə eliyə bilməz!

Bu sətirləri millətlər şurasından qayıdarkən yazıram. Orada eşitdiyim məruzələrdən sonra od tutub yanıram. Çünki cəmi millət öz yükünü təpəyə vurub və vurur. Biz isə köhnə ətalət və kəsalət ilə yaşayırıq. İndiyə kimi bizim nə mərkəzi bir şuramız, nə milli bir idarəmiz var. Qafqazda sayda hamıdan artıq ola-ola, əlahiddə bir millət təşkil edə-edə, mal və dövlətə malik ola-ola öz milli işimizi öz əlimizə ala bilmirik.

Ey nəcib türk milləti, ayıl! Bir rəşadətli balalarını yad et! Şan və şövkət ilə ömür sürülməlidir. Köhnə rus məmurlarının çəkməsi altında tapdalandığın kifayət edər.

Ayılın, toplaşın! Rusiyanın siyasi həyatı yeni bir dairəyə girir. Rusiyada yaşayan millətlər üçün tarix yeni bir səhifə hazırlayır. Ədəmimərkəziyyət binası qurulur. Ölkə federasion üsuli ilə idarə olunmaq istəyir.

İmdiyə kimi Peterburq hər millət üçün qanun yapıb, əmrlər veriyordu, imdi isə qanunları millətlərin milli məclisləri yazacaq. Hərənin öz malı, öz dövləti, öz səadəti özünə məhvəl olacaq.

Pəs böylə bir gözəl yaşayış üçün niyə çalışmırsınız? Niyə fürsəti fot eləyirsiniz? Keçirirsiniz. Sonra peşman olarsınız! Bu zaman firqəbazlıq zamanı deyil. Onlar üçün sonralar da vaxt olacaq. İmdi toplaşın, milli idarə yapın, sonra firqə qeylü-qalını salarsınız.

Ey "Hümmətçilər"! Ukraynanın cəmi firqələri ittifaq edib, Ukrayna muxtariyyətini yapdılar. Muxtariyyət olmasa, ölkə başsızlıq bəlasından xilas olmasa, orada firqə həyatı da olmaz. Pəs əqidə davası eyləmək zamanı deyil. Mərkəziyyəti öldürüb, yerində ədəmi mərkəziyyət payidar edilməlidir. Milli idarə qoy çöl tərəfdən düzəlsin, sonra içini düzəltdikdə mübahisə edərik.

Ey dini firqələr! İslamiyyəti hər şeydən qabaq tutursunuz. Bizim dediyimiz sizin əqidəyə zidd deyil. Əlimizdə milli idarə olsa, din şərafəti də artar. Köhnə idarə tərəfindən dinimiz hər an, hər dəqiqə təhqir olunurdu. Yeni idarə üçün çalışmalı ki, tahı bir də o qədim vaxtlar geri qayıtmasın!

Ey dövlətlilər! Pul qazanmaq asandırsa da, saxlamaq bu saat çətindir. Çünki dərəbəylik zamanında heç kəsin canı və malı əmin-amanlıq tapmayacaq. Əgər istəyirsiniz ki, mal və dövlətiniz əlinizdə qalsın, qazandığınız pulların bir hissəsini millət sandığına verin milli idarə yapmağa sərf eləsinlər. İnanın ki, milli idarəmiz olmasa, can, mal və namusunuz, əldə qalmayacaq. Rusiyada törəyən işlərdən sizin xəbəriniz yoxdur. Bunun axırı çox pərişan olduqda da sədəməsi ancaq bizə toxunacaq. Çünki biz millət işinə nəzər yetirmirik. Ayılmaq vaxtıdır Ey cavanlarımız! Eyş-işrət zamanı deyil! Hər millətin cavanları millət üçün imarətlər yapırlar. Gecə-gündüz çalışırlar. Məgər siz onlardan əskiksiniz? Onlarda olan zor, qüvvə sizdə də var. Rəşadət və cürətdə siz onlardan da irəlidəsiniz. Böylə olduqda pəs sizin səsiniz niyə gəlmir? Niyə Azərbaycan türklərinin bayrağını uca tutmursunuz?

Ey cavanlar! Cəmi millətlər sizin işə diqqət ilə baxır. Sizdən qeyrət gözləyirlər. Pəs siz haradasınız?

Ədəmi mərkəziyyət fikrinin başında toplaşın: "Müsavat" firqəsinə yazılın! Yatmışları oyadın. Onları federasion nuru ilə işıqlandırın! Durmaq zamanı deyil. Bir mərkəzə tabe Rusiya uçurum qarşısında du-

rub, bizi də çəkib aparmaq istəyir. Məmləkəti bu haldan qurtarın; onun idarə ixtiyarının bir hissəsini Qafqaza gətirib öz əlinizə alın.

Ey ziyalılar! Qafqaziyanın böyük və bərəkətli bir qismi biz Azərbaycan türklərinindir. Burada toprağın və mülkün çoxu bizim, dövlət izim, onda yaşayan millətin çoxu bizim, danışılan dil bizim, ruhumuzu bəsləyən musiqi və ədəbiyyat bizim... Pəs allahın o gözəl nemətindən niyə üz döndərirsiniz? Cürət ediniz, iş görünüz! "Müsavat" şöbələrini hər şəhər və kəndlərə yayınız! Durmaq zamanı deyil; bir az səbr eləsəniz, gözəl ölkəmiz fut olub əldən gedər!

Qorxmayın, tutduğunuz işdə sizi heç kəs təqsirləndirməz. Çünki pis fikrə düşmürsünüz. yapdığınız təşkilat ilə həm Rusiyanı hifz edirsiniz, həm Azərbaycanı.

Ey bəylər, xanlar, mülkədarlar! Öylə güman eləməyin ki, Azərbaycan muxtariyyəti sizi uçurub dağıtmaq fikrindədir. Muxtariyyət uçurmaq üçün yaranmayıb, bəlkə yaratmaq və bina etmək üçün yaranıb. Muxtariyyət onun üçün düzəlir ki, dərəbəylik zamanında millətin mal və canı sağ və salamat qalsın. Muxtariyyət onun üçündür ki, namusumuz ayaqlar altına düşməsin.

Ey türklər! Qars-Ərdəhan müsibətləri, Urmu, Qəsri-Şirin və qeyri yerlərin talanı sizə bunu öyrətdi ki, başsız və pərakəndə milləti hər yetən döyür, incidir və öldürür. Zəmanə böylə xarab zəmanədir ki, ağlamağa, göz yaşlarına qulaq asan olmur. Zamanə iş zəmanəsidir.

Məgər neçə milyon türkün gücü yoxdur? Güc var. Ancaq dağınıq gücdür. Böylə güc faydalı olmaz. Toplanıb cəmi gücümüzü təşkilata tabe etməliyik. Ədəmi mərkəziyyət qayəli Azərbaycanda bir idarə yaradılmalıdır ki, Dağıstan, Bakı, Gəncə, Irəvan, Batum və Qars vilayətlərindəki türklər mal, və namusunu mühafizə eləsin. Həm hal-hazırda, həm gələcəkdə asudə və səadətli yaşamağını təmin eləsin.

Toplanın! Qoşun düzəldin! Zərurət vaxtı ölkəmizi əmin-amanlığa çıxardan milli əsgər olacaq. Ləngiməyin: "Fürsəti fot eliyən aqil deyil, divanədir"!

Kiyev, əvvəli – noyabr, 1917

I. MUXTARİYYƏT NƏDİR

Oxucularımız muxtariyyət sözünü çox eşidib. Çünki qəzetələrimiz bu sözü hər gün işlədir. Ola bilər ki, muxtariyyətin mənasını çox adamlar başa düşməsinlər. Bunu dürüst bilmək üçün sizə bir məsəl gətirim. Götürək bir türk kəndini. Tutaq ki, bu kənddə on beş daxma var. Bir gün bu kəndin adamları bir yığnaq qururlar və özlərinə bir məclis təşkil edirlər. Bu məclis başlayır kəndi dolandırmağa. Hər kəsin nə dərdi oldu, məclisə deyir və məclis də çarə arayır. Bu gün tutaq ki, kənddə birisi vurub bir adam öldürür. O saat məclis işə baxır və təqsiri olanı tənbeh eləyir. Tutaq ki, su üstə qeylü-qal çıxıb. Genə məclis işə baxır, hərənin haqqını özünə verir. Hər kəs ki, dəcəllik eləyib, məclisə qulaq vermək istəmir və camaatı incidir, dəcəl adamı məclis tutub tənbeh eləyir. Xülasə, camaat bəyəndiyi adamlardan əmələ gələn bu məclis kəndin cəmi işlərini sahmana salır. Məktəb açır, azarxana düzəldir, yollar salır, körpülər tikdirir, işsiz camaata iş verir, topraqsıza topraq tapır, fəqir və əlsiz-ayaqsız adamlara kömək eləyir və qeyri və qeyri...

Belə xoşbəxt kəndə muxtariyyətli kənd deyirlər.

İndi Rusiyada hər bir millət özünə muxtariyyət istəyir. Yəni istəyirlər ki, cəmi millət işini hökumət çinovniklərinin əlindən alsınlar.

Muxtariyyət, yəni öz əli, öz başı olmaqlıq. Muxtariyyətli bir millət ölkəsinin, yəni şəhərlərinin, kəndlərinin, əkin yerlərinin, meşələrinin, mədənlərinin və qeyri mallarının ixtiyarını öz tanıdığı millət adamlarının öhdəsinə verir. Bu adamlar da milləti dolandırır. Millətin nəyə ehtiyacı olsa, ona çarə axtarır. Millət rahat və farağat yaşayır. Millət başında duran adamlar camaatı dürüst dolandıra bilməsələr, onda millət qeyri adamlar seçə bilər. Deməli, muxtariyyətin əsl dediyi budur ki, cəmi işlər ölkədə camaatın xahişi ilə əmələ gəlsin. Yəni, güclü gücsüzə cəfa çəkdirməsin; xalqın malı, dövləti, canı və namusu özgələrin kefinə qurban olmasın.

Rusiyada qeyri millətlər özünə muxtariyyət düzəldən kimi bizim müsəlmanlar da bu yolda çalışırlar. Ən qabaqda gedən krımlı qardaşlarımızdır. Türküstanlılar və başqırdlar da muxtariyyət elan elədilər. Yəni, cəmi dünyaya elan elədilər ki, bundan sonra öz işlərinə özgələri qarışmağa qoymayacaqlar. Növbət indi bizə yetişir. Bizim də ki, bir dövlətli ölkəmiz var. Biz də başsızlıq bəlasına giriftar oluruq. Bizi də

nahaq yerə qırırlar, talayırlar və incidirlər. Bunların da səbəbi budur ki, bizim ölkəni dolandıran özgə millətlərdir. Əlbəttə, dini dinimizdən, dili dilimizdən olmayan bir millətin bizə canı heç də yanmayacaq. Amma ölkəmiz öz vəkillərimiz əlinə düşsə, bizim də dərdimizə yanarlar.

Ona görə çalışmalı ki, vaxt ikən muxtariyyət qazanılsın.

II. MƏHƏLLİ MUXTARİYYƏT

Muxtariyyət iki cürdür. Birinə mədəni muxtariyyət və o birinə məhəlli muxtariyyət deyirlər. Mədəni muxtariyyət özgə millətlər ilə qarışıq olub özünə məxsus əlahiddə toprağa malik olmayan millətlərə əlverişlidir. Edilboyu tatarlar ruslar ilə qarışıq olduqlarına görə özlərinə milli və mədəni muxtariyyət istəyirlər. Bunların xahişi budur ki, dil, din və adətlərinə mane olunmasın. Şəxsi hürriyyətləri təmin olunsun.

Mədəni muxtariyyətin böyük eybi budur ki, onu mühafizə eləməyə millətin əlində lazımi bir qüvvə yoxdur. Mərkəzi hökumətdən nə növ təğyir olsa, siyasətin nəticəsi mədəni muxtariyyətli millətlərə də sirayət edər. Deməli, bu gün məmləkətin başına pis fikirli vəzirlər gələrlərsə, siyasəti dəyişib millətlərin hüququnu ayaq altına salarlar.

Məhəlli və milli muxtariyyət isə böylə deyil.

Məhəlli muxtariyyət torpağa malik olub, bir millətdən ibarət olanlara əlverişlidir. Məsələn; Türküstan və ya Başqırdıstan. Türküstanda sakin türklər arasında qeyri millətlər yox kimidir. Türküstanlıların özlərinə məxsus dilləri və adətləri var. Bu millət məhəlli muxtariyyətə malik olduqda tez tərəqqi eylər. Özünəməxsus qoşunu və milli məclisi olduqda mərkəzi Rusiya hökumətində baş verən təğyirdən qorxmaz. Çünki mərkəzi hökuməti Türküstanın daxili işlərinə qarışmağa qoymaz. öhnə istibdad zamanı rus padşahlarının zülmü nə qədər ağır idisə də, Finlandiya muxtariyyətinə dürüst kar edə bilmədi. Çünki finlər öz torpaqlarına pənah aparıb, məhəlli məclisləri ilə öz haqlarını əldə saxlaya bildilər.

Biz, Azərbaycan türkləri, bir millətdən ibarət olub, geniş bir torpağa malik olduğumuz üçün muxtariyyət binası qurmaq istəyirik. Ölkəmizin sərhədi Dərbənd şəhərindən tutmuş Osmanlı məmləkətinə

qədər və Batumdan tutmuş Xəzər (Kaspi) dənizinin qiblə tərəflərinədəkdir. Paytaxtımız Bakı şəhəri olacaq. Çünki, bu şəhər bizə həmişə yol göstərib və bizə kömək əli uzadıb. Bakı şəhərində millət məclisi qurulacaq və bu məclisə Azərbaycanın hər bir guşəsindən camaat vəkilləri göndəriləcək. Vəkillər o məclisdə camaatın dərdlərini və diləklərini bildirəcək və ona görə əlaclar ediləcək. Millət məclisi Azərbaycanımız üçün qanunlar yazacaq, biz də ona əməl edəcəyik. Millət məclisinin buyruqlarını yerinə yetirmək üçün milli hökumətimiz olacaq. Millətə lazım olan tədbirləri millət vəkilləri tökəcəklər və əmələ gətirmək üçün milli hökumətə veriləcək. Milli hökumətimiz bizim malımızı, canımızı, namusumuzu hifz eləmək üçün var qüvvəsilə çalışacaq.

III. MUXTARİYYƏT BİZƏ NƏ VERƏCƏK?

Rusiya bu saat alt-üst olur. Başsızlıq o qədər artıb ki, sabaha sağ çıxmağa ümid yoxdur. Azərbaycan da Rusiya kimidir. Bir tərəfdən rus soldatları camaatımıza qorxu çəkdirir, o biri tərəfdən də camaatın özü dinc durmur; bir-birinin canına düşüb, həlak eləyir. Qamçı gücü ilə tərbiyə almış camaat qamçıdan xilas olan kimi qəfəsdən çıxan bir yırtıcıya bənzəyir. Ölkə nizama salınmalıdır. Köhnə rus hökuməti öldü. Təzəsi yoxdur. Olsa da ondan bizə bir o qədər fayda olmayacaq. Çünki, "tat dilini tat anlar". Bizim milli və dini ehtiyaclarımızı özümüzdən başqa özgəsi düşünə bilməz. Böylə olduqda cəmi məsələlərimizin həllini millət məclisindən gözləməli. Ən əvvəl millət məclisinin borcudur ki, ölkəmizi dərəbəylik bəlasından qurtarsın. Çünki bu nizamsızlıq uzun çəksə, camaatımız tərk olub gedər. Ümid budur ki, muxtariyyətimiz başa gələn kimi, milli qoşunumuz vasitəsilə Azərbaycanda əmin-amanlıq hasil olar.

Topraq məsələsi də həllini muxtariyyətdən gözləyir. Kəndçi və əkinçilərimiz topraq üstə çox müsibət çəkiblər. Bir tərəfdən topraq azlığı, o biri tərəfdən köhnə hökumətin vətənimizə yerləşdirdiyi malakanlar (mühacirlər) işi qarışdırıb. Millət məclisi öylə qanun yazacaq ki, topraqsızlara topraq paylanacaq. Kəndçinin güzəranı yaxşılaşacaq. Tahı güclülərdən yumruq görməyəcək. Fəhlə qardaş da ümidini muxtariyyətimizə bağlamalıdır. İndiyə kimi fəhləni adam sayıb eyləmirdilər,

onu incidirdilər, pulunu kəsirdilər. Biçarə fəhlələr gündə zavodlarda və neft quyularında hədər yerə tələf olurdular. Onların qeydinə, külfətinin imdadına çatan olmurdu. Güclülər fəhlələrin zoru ilə pul qazanıb kef eləyirdilər, fəhlələr isə sabahın çörəyinə möhtac idilər.

Bu müstəbidlər muxtariyyətimizin gücü ilə ortalıqdan götürüləcək. Xülasə, hər kəsin nə dərdi var, əlacını millət məclisindən gözləsin. İndiyə kimi ana dilində məktəb açdıqda rus hökumətindən qorxurduq. Çünki rus hökumətinin fikri bu idi ki, bizi dinimizdən, dilimizdən, dədə- baba adətlərimizdən geri salsın. Indi allaha şükür, səy eləyirlər ki, Azərbaycanın özünün hökuməti olsun. Bu hökumətin də çox adamları müsəlman olduğu üçün, hər bir məsələmiz özümüzün xahişi ilə əmələ gələcək. Deməli, camaata o ki lazımdır, ana dilində məktəblər açılacaq. Oxumaq xərci ucuz olduğu üçün, hamı oxuyub, yazmaq bilib, elm öyrənəcək. Elmi olan millət dünyada asanlıqla yaşaya bilər. Bizim də cəmi fikrimiz budur ki, nəcib millətimiz özgələrə möhtac olmayıb, rahat dolansın. Dünya beş gündür. Bu dünyada bolluq, salamatlıq ilə ömür eləməlidir. Öylə eləməlidir ki, dirilik, xoşbəxtlik olsun. Bunun da nicatı muxtariyyətimizdədir.

IV. MUXTARIYYƏTƏ LAYIQIK

Yüz il olur ki, biz türklər rus qılıncı zorilə Rusiyaya tabe olmuşuq. Amma bu yüz ildə bəzi barədən istiqlaliyyətimizi əsla unutmadıq. Məsələ, bir xeyli rus dəftərxana və məhkəməsini tanımaq belə istəmədik. Aramızda baş verən çox işlərdə məsləhət yerimiz həmişə ağsaqqallar olurlar. Ağsaqqallar qanlıları barışdırırlar; bir-birindən incimiş ər-arvad arasında barışıq yaradırlar; iki adamın biri bir hadisədən zərər gördükdə zərəri təqsirkardan alınıb zərərdidəyə verilir. Böylə adətlər aramızda hökmdür. Rusiyada sud gördüyü işi bizlərdə qazı və ağsaqqallar görürlər.

Bunun səbəbi nədir? Bu degilmidir ki, bizim camaat öz milli işlərini özgə əlinə verməyi istəmir, baxın görək az vaxtadək camaatımız hökumət məktəblərinə nə nəzər ilə baxırdı. Uşaqlarını etibar edib, oraya göndərmirdi. Camaatımızın cəmi meyli öz milli idarəmizə və öz adamlarımızadır. Bu dəlil istəməz. Imdiyədək mədəni olmamağımıza səbəb Rusiyanın mərkəziyyət üzrə yapılmış idarəsi idi. Oradan bir qə-

dər rus göndərirdilər gəlib adət və qaydasından, dil və dinindən xəbərdar olmadığı bir milləti idarə eləyirdi. Asırdı, kəsirdi, vergi yığırdı, bolluca da rüşvət alıb, otururdu yerində. Camaatımız da bu çinovniklərə əsla etibar eləməyib öz qədimliyində qalırdı. Çinovniklər öhdələrinə götürdükləri təzə işləri qəbul etmək istəmirdi. Amma hərgah vaxtında bizim muxtariyyətimiz olsaydı, hər işin başında öz adamlarımız dursaydı, camaatımızın etibarını qazanıb xeyirli işlər görərdilər.

Xülasə, keçən keçib. Allah gələcəyi bərəkətli eləsin. İndi də muxtariyyətimizi başa gətirsək, gec deyil. Şükürlər olsun ki, yaxşı iş görən adamlarımız da var. Halhazırda Azərbaycanın idarəsini öz əlimizə götürməyə biz qadirik.

V. MUXTARİYYƏTİ NƏ CÜR ALA BİLƏRİK

Muxtariyyət yolu axtardıqda gərək mürşidimiz Ukrayna dalınca gedək. Ukrayna əvvəl mərkəzi bir məclis qayırıb işə başladı. Əsla bu məclis dürüst seçilmiş də deyildi. Sonra qurultaylar dalbadal çağrıldı. Cəmi firqələrin və qeyri cəmiyyətlərin qurultayları mərkəzi Ukrayna məclisini təsdiq edib üzvlərini artırdılar. Sonra hökumət əmələ gəlib qeyri işlər də yavaş-yavaş islaha düşdü.

Ukraynanın məqsədə nail olmağının ümdə səbəbi bu oldu ki, cəmi firqələr muxtariyyət barəsində həmfikir oldular. Cürbəcür fikir və məsləkə tabe adamlar əl-ələ verib müttəfiq bir halda millət imarətini tikməyə başladılar. Məlumdur ki, ittifaq olan yerdə də iş aşar gedər. O yerdə ki, nifaq oldu, orada xeyir və bərəkət olmaz.

Deməli, bizə ən əvvəl lazımdır ki, bir qurultay çağırıb cəmi firqə, cəmiyyət, komitə və şuralarımız arasında muxtariyyət almaq üçün razılıq hasil edək. Öylə ki, razılıq əmələ gəldi və ortalıqdan küdurət və söz güləşdirmə götürüldü, onda dərdimizin yarısına dava tapılmış kimidir.

Sonrakı fikir millət məclisidir. Bu məclis ki, əmələ gəldi və camaat ki, onu təsdiq etdi, məclis milli işlərimizi yüngüllük ilə yola verə bilər.

Vacib məsələlərimizdən biri də milli qoşundur. Milli qoşun düzəlsə, ölkəmizdəki başsızlığı fövrən ortadan qaldırmaq mümkündür.

Bir də başsızlıq və qarışıqlığın ümdə səbəbi camaatın aclığıdır. Hərgah bizdə muxtariyyət tezlik ilə başa gəlsə, aclığı da tez yox etmək

olar. Məsələn, Ukrayna dövlətində bolluca çörək və qənd var. Azərbaycanda da bol neft var. Milli hökumət olsa, Ukrayna ilə alış-veriş başlardı; neft verib əvəzində çörək və qənd alardı. Camaatımız da bu iki şeydən çəkdiyi əziyyəti çəkməzdi.

Bu saat cəmi Qafqaz müsəlmanlarının canını qara qayğı alıb ki, Osmanlı sərhədindən qayıdan bir milyon qoşun kənd və şəhərlərimizdən keçərkən aləmi kor qoyacaqlar: can və mal tələf edəcəklər, xanimanlar yaxacaqdırlar, arvad və uşaqlarımızın namusuna sataşacaqdırlar. Hərgah bizim muxtariyyətimiz olsa, bizim nizamlı qoşunumuz olsa, biz rus soldatından əsla qorxmarıq. Onlar qayıdan yollara öz milli əsgərlərimizdən düzərik; dahı birinin hünəri olmaz ki, müsəlmanın malına və canına qəsd eləsin.

VI. MUXTARİYYƏTİMİZİN ƏSL ƏSASI

Muxtariyyətimizin əsl əsası ədalət ilə qurulmalıdır. Ədalət olmaz isə, binamız başa getməz. Rusiya zülm ilə abad olmuşdu. Axırda ədl ilə bərbad oldu. Ədalət də onda olar ki, allahın yaratdığı insanların birinə pis və o birisinə yaxşı nəzər ilə baxmayasan. İnsanlar bərabərdirlər, istər arvad, istər kişi; istər erməni, istər rus və ya müsəlman hüquqda gərək şərik olsunlar. Azərbaycan muxtariyyəti üçün millət ayrılığı gərək olmasın. Qanunlarımız da gərək bu əsas üzrə yazılsın. Məmləkətimizdə ədalət olar isə, cəmi millətlər ona sədaqət ilə qulluqedərlər. Yox, əgər olmaz isə, ağacı içindən qurd yeyən kimi, gözəl ölkəmizi düşmənçilik və küdurət tərk edib viranəyə döndərər. Və hərgah bunların arasında xüsumət olsa, səbəbləri tapılıb yox edilməlidir. Səbəb yox olduqda düşmənçilik də öz-özünə yox olar.

Kiyev, dekabr, 1917

BİZ KİMİK VƏ İSTƏDİYİMİZ NƏDİR

MÜQƏDDİMƏ

Tarix kitablarına nəzər yetirdikdə türk millətinin qədim hallarını öyrənməyə dürüst qadir ola bilmirik. Çünki türk tarixinə dair lazımi məlumatlar hələ toplanmayıb. Ancaq bunu bilirik ki, türklər Altay dağlarının ətrafında olarmışlar. Oradan dəfələrlə dəstə çəkib qibləyə tərəf gediblər və qırğınlar ilə bir yerdə çox yerlər ələ gətiriblər. Təbiətən cürətli, rəşadətli və cəngavər olduqları üçün türklər Türküstanda, İranda, Hindistanda, Qafqazda, Avropa və Afrikanın bəzi nöqtələrində çox müddət ağalıq sürüblər.

Bizim Azərbaycan da türk axıntısından əmələ gəlmə bir ölkədir. Türk tarixi qarışıq olduğu kimi, bizim Azərbaycanın tarixi daha da qarışıqdır. Biz barədə Aləmdə bir tarix heç yazılmayıb. Ancaq dürüst bunu deyə bilərik ki, qədim zamanlardan bəri (məsələn, min illər bundan əvvəl) Azərbaycan gah müstəqil və gah yarı müstəqil bir halda yaşayıb. Dillərdə Azərbaycan indiki Iranın şimali-qərbindən ibarət idisə də, cənubi Qafqazın şərq tərəfi onun əksərən hakimiyyəti altında olardı. Məsələn, on ikinci əsr miladidə məşhur şair Xaqani zamanı Şirvan şahlığını Azərbaycan Atabəyliyinə tabe görürük. İndiki Gəncə vilayəti, yəni Kür ilə Arazın arası, qədim zamanlar "Aran" adlanırdı. Aran əyaləti də paytaxtı Gəncə ilə birlikdə çox zamanlar Azərbaycan Atabəyliyinin bir hissəsi olmuşdur. Min illik müddətində Azərbaycanın zahiri şəkli hədsiz dəfələr dəyişilib: gah vəqti bir hökmdar əlinə keçib qonşu torpaqlara da əl uzadıb, gah da bölük-bölük olub, xanlar, əmirlər və məliklər rəyasətinə düşüb. Azərbaycanımız çox davalar və çox millətlər görüb və hərə də həyatımıza bir təsir buraxmamış olmayıb.

Xülasə, keçmişimiz necə olub müfəssəl bir surətdə müvərrixlərimiz gələcəkdə yazarlar, bilərik. Hal-hazırda biz tarixi pillələrdən keçib, min qovğa görəndən sonra uyuşub, sabit bir şəkil almışıq. Böyük türk millətinin bir şöbəsini təşkil eləyirik. Millətə məxsus bir amillərə dəxi malikik: ayrıca dilimiz, adət və qaidəmiz, ədəbiyyatımız var. Əsrlərcə rəyasətpərvər hakim dairələr tapdağı olan xalqımız həmişə mədəni həyatında davam edib, milli simasını itirməyib, hətta İranın cazib nəfsləri, rusluğun dəhşətli zərbələri türklüyümüzü məhv edə bilmədi: şirin dilimiz və ədəbiyyatımız salamat qaldı. Xalqımızın gö-

zəl bir xasiyyəti var ki, hansı millət ilə yaşadı (istər hakim, istər məhkum) öz dilini qolaylıqla yadından çıxartmaz. Bu həqiqət həm tarixdə, həm hal-hazırda görünmədədir. Nadir şah İranın mənfəəti üçün, məmləkətin bir tərəfindən o biri tərəfinə millətlər köçürürdü. Məsələn, farsları daşıdardı türk arasına və Qafqazdan türkləri göndərərdi fars əyalətinə. Qəribə budur ki, Qafqaza köçürülən farslardan indi bir əsər qalmayıb: hamısı türkləşib. İrandakı türklər isə dilləri, adət və qaidələri ilə indiyədək dururlar. Xorasan vilayətində Şirvan adlı bir türk kəndi var (yəqin Qafqazdan buraya köçürülüb). Dörd tərəfi fars ola-ola bu kənd türklüyünü əsla itirməyib. Uzaq getməyək: Azərbaycanda tək-tük erməni var ki, dilimizi bilməyə. Hətta Rusiyadan gəlmə malağanlar da öyrəniblər.

Deməli, mədəniyyətimizin əsasını təşkil edən dilimizdə bir cazibə var. Qeyri-məcburi olaraq özgələri tərəfinə çəkir və təsiri altında saxlayır. Bu səbəbdəndir ki, rus hökuməti bizi zor ilə dilimizdən uzaqlaşdırmaq meylində olduğu halda, biz rus mühacirlərini türkləşdirirdik. Yenə həmin səbəbdəndir ki, ermənilər Avropa mədəniyyəti ilə bizdən çox-çox əvvəl aşina ola-ola yenə bizim mədəniyyətə bac verirlər: dilimizi öyrənirlər, musiqimizdən həzz aparırlar; hətta ədəbiyyat tariximizdə də erməni adları görünür. Diqqət yeri buradadır ki, özgə millətləritürk mədəniyyətinə baç verdirməyə heç də səy eyləmirik, zor da işlətmirik.

Bizi bir millət edib, gələcəyimizə parlaqlıq ümidini bəslədən həmin mədəniyyətimizin bu xüsusiyyəti, bu mənıliyidir.

I. ƏSL MƏQSƏD

Dünyada hər bir millətin xoşbəxt yaşamasına səbəb ancaq o millətin öz milli idarəsi ola bilər. Milli idarə də milli torpaqda, yəni müəyyən bir ölkədə bərqərar ola bilər. Hər kəs ki, milli ölkədən məhrumdur, yəhudi kimi həmişə başı qapazlı olar. Halımızı nəzərə aldıqda özümüzü xoşbəxt gördüm. Çünki biz Azərbaycan kimi dövlətli bir ölkəyə malikik. Deməli, əvvəlinci məsələ milli ölkədir. Milli ölkə olduqda ikinci məsələ sakin xalqdır. Bir xalq ki, bir dinli, bir qanlı, bir adətli, bir tarixli oldu, o xalqın mənası artar.

Azərbaycanda hamıdan artıq olan biz türkləri mülahizə etdikdə özümüzü xoşbəxt görürəm, çünki torpağımıza söykənsək, heç bir düşmən bizə xətər yetirə bilməz. Ölkə və cəmaətdən başqa bir böyük məsələ də var. Bu məsələ də hakimiyyət məsələsidir. Bu hakimiyyət,yəni ölkəmizin ixtiyarı kimin əlinə düşsə, üstümüzdə o ağa olacaq.

Bizim Azərbaycan min il bundan əvvəl də mövcud idi. Onda həm ölkəmiz var idi, həm də xalqımız. Lakin hakimiyyət bizim əlimizdə deyildi. Gəldi-gedər bir xan və ya bəy faydamızı gözləyə bilmirdi. Rusların hakimiyyəti bizi dəxi də pis hallara gətirdi; ixtiyarımızı əlinə alıb, bizi həm torpağımızdan, həm də millətimizdən məhrum qılmaq istədi. Vətənimizi rus köçəriləri ilə doldurdu.

Böylə olan surətdə bizim üçün ən vacib məsələ Azərbaycanın hakimiyyətini öz əlimizə almaqdır. Bu isə istiqlal ilə olur. Odur ki, Azərbaycan istiqlalı firqəmizə ələm olmuşdur.

Türk ədəmi-mərkəziyyət firqəsi "Müsavat"ın əsl məqsədi də bundan ibarətdir.

Ola bilər ki, öz ixtiyarımız öz əlimizə düşdükdə ədalətsizlik baş versin. Ədalətsizliyi yox etmək üçün Azərbaycan hakimiyyəti gərək xalqın öz istədiyi adamların əlinə keçsin. Ta ki, milli idarə xalqın xahişi ilə olub camaatın hər bir sinfinin ehtiyacını nəzərə alsın. "Musavat" ın ümdə istədiyi budur ki, ümumxalq imtiyazlı siniflərin keyfi-nəşəsinə qurban olmasın. Deməli, biz müsavatçıların bu saat iki fikri var: biri Azərbaycanın xarici işlərinə dairdir, digəri də daxili işlərinə.

II. XARİCİ MƏSƏLƏ

Azərbaycan hakimiyyəti əlimizə düşdükdə vətənimiz müstəqil bir şəkil alır. Üç amil – millət, ölkə və hakimiyyət bir yerdə toplanır.

Azərbaycan istiqlaliyyətini təmin etmək üçün cəmi qüvvət və qüdrətimizi meydana çıxartmalıdır. Bu yolda nə qədər fədakarlıq lazım olsa, göstərməliyik. Bir tərəfdən beynəlmiləl konqreslərdə haqlarımızı bildirməliyik və milli tələblərimizdə israr etməliyik: o biri tərəfdən istiqlaliyyətimizin davamına çalışmalıyıq; məmləkəti müstəqil yaşatmalıyıq. Yəni daxili və xarici işlərimizdə asudə yaşamalıyıq.

III. DAXİLİ MƏSƏLƏLƏR

Daxili işlərdə Azərbaycan büsbütün asudə olacaq. Ona heç kəsin qarışmasına imkan verilməyəcək. Ölkəmiz millət vəkilləri yazdığı qanun ilə dolanacaq. Çünki millətin çoxu kənd əhli əkinçidən ibarətdir və kəndçi zəhmətkeş olduğundan qanunlarımız zəhmətkeşlərin tərəfini saxlayacaq.

Ölkəmiz qanuna tabe olacaq və qanundan xaric bir iş görülməyəcək. Qanun da bitərəf olduğundan heç zülm olunmayacaq. Yəni hamı qanun qabağında bərabər olacaq, ögeylik-doğmalıq olmayacaq. Qanun soruşmayacaq ki, filankəs ermənidir, yainki müsəlman; filankəs kişidir, yainki arvad. Filankəs dövlətlidir, yoxsa fəqir. Erməni, müsəlman, rus, kişi, qadın, dövlətli, kasıb hüquqda bərabərdir. Qanunun nəzərində hamısı müsavidir. Qanunlarımızın ən baş əsasları: hürriyyət müsavat və ədalətdir. Vətənimizdə hamı azad olacaq. Onları səbəbsiz tutub qazamatlarda saxlamayacaqlar. Hər kəsin təqsiri oldu, onu dustaq edə bilərlər. Təqsir də qanun və məhkəmə vasitəsilə məlum olar. Köhnə rus hökuməti bir danos üstə adamı həbsə atırdı. İnsanlar aylar və illər üzrə naməlum səbəblərə görə qazamatlarda yatırdılar. Vətənimizdə böylə ədalətsizliklər olmayacaq. Bir adamı ki, tutdular, onun ixtiyarı olacaq, özünün 24 saatın müddətində ya buraxılmasını və ya məhkəməyə aparılmasını tələb edə. Öylə ki, məhkəmə baxdı gördü nahaq yerə tutulub, onda tutan adamı cərimə edəcəklər. Hərgah bir şəxs tutulub dustaq olsa, çəkdiyi zərərlər tutan adamdan məcburən alınacaq.

Şəxs azad olan kimi onun sakin olduğu mənzil, evi-məskəni də asudə olacaq. Deməli, hər yetən gəlib, oranı axtarıb, alt-üst çevirməyəcək. Köhnə hökumətin zamanında və inqilab vəqti evləri axtarmağı çox görürdük. Heç nahaq yerə gecəni mülahizə etməyib xalqın rahatlığını pozurdular.

Bizim "Müsavat"ın istədiyi budur ki, evə girmək və axtarış bilmərrə yox olsun. Xalqımızın istirahəti və asudəliyi xələldar olmasın. Milis və ya polisin evə girməyə ixtiyarı bəzən vaxtlar olmalıdır. Bunlar da ki, qanunda yazılacaq. Məsələn, evə qanunu pozmuş adam qaçıb girsə, dalınca getməlidir. Bu şərt ilə ki, caninin orada olması dürüst məlum olar. Evdən "haray" və "aman" səsləri eşidilsə daxil olmalı. Yanğı və su basqınında da girmək olar. Qeyri vaxtlar xalqın evi, istər fəqir, istər dövlətli, bir padşah sarayına dönməli və hər kəsin ax-

tarış qəsdilə oranın qapısından içəri ayaq basmağa belə ixtiyarı olmamalıdır. Azərbaycanlı azad olduqda onun sözü, yazısı, iman və etiqadı da azad olacaq. Danışdığı söz üstə və yazdığı şeylər üstə ona tənbeh olunmayacaq. Məsələn, Azərbaycanın idarəsi xoşu gəlməzsə, o barədə keyfi istədiyi qədər danışıb yaza bilər.

Köhnə rus hökuməti etiqad üstə insanları dəstə-dəstə Sibirə göndərirdi. Etiqad gərək azad olsun. "La gərah fi ələddin" ayəsinin hokum bilxassə siyasi etiqadlara tətbiq olunmalıdır. Etiqad azadlığından azərbaycanlılar hüquqlarını itirməzlər. Çünki bizim qanunlar bitərəf olub məmləkətimizdə etiqadların heç birinə təzyiq etməyəcək, kimsənin dininə təriz olunmayacaq. Çünki din insan ilə Allahın əlaqəsinə dair bir şeydir. Din bir müqəddəs yoldur ki, insanın gizli sirlərini, dua və diləklərini Allah hüzuruna aparır. Bu yolu hərə özünə bir növ təsəvvür eliyor. Din bir aləmdir ki, oraya dünya qanunlarının qarışmağı lazımsızdır. Allah ilə insanın arasına girmək insanın azadlığına xətər yetirir. Ona görə Azərbaycanda etiqad və inamlara zor olmayacaq: hər kəs hansı məbədə üz döndərəcək döndərsin. Bizə onun sadiq vətən xadimi olması lazımdır. Köhnə hökumət zamanında xalq bir yerdə toplanıb dərdini danışmaq üçün də gərək izn alaydı. Bizim istədiyimiz budur ki, cəmaət yığıncağı da azad olsun. Xalqın keyfi istədiyi zaman yığıncaq qurub, istər evdə, meydanda və ya küçədə, bağda hər nə məsələsi var müzakirəyə qoya bilər.

IV. İQTİSADİ İŞLƏR

Köhnə hökumət bizdən keyfi istədiyi təhər vergi alırdı. Bir vergi bu idi ki, açıq-açığına alırdı. Məsələn, kağız göndərirdi ki, bir bu qədər borcun var ver. Bir vergi də bu idi; örtülü alınırdı, bizim xəbərimiz olmurdu. Məsələn, yapon davasınadək kibritin (ispiçka) qutusu bir qəpik idi. Davadan sonra ikisi üç qəpik oldu. Bunun səbəbi bu idi ki, hökumət kibrit qutusuna yarım qəpik xərc artırdı. Deməli, camaat bir qutu kibrit aldıqda hökumətə yarım qəpik vergi verirdi. Böylə örtülü vergi çox idi. Çox şeyin bahalaşmasının səbəbi burada idi. Və bahalığın ağırlığı da həmişə kasıb və füqəraların üstünə düşürdü. Çünki çox qazanclı, dövlətli ilə yoxsul, kasıb bir qərarda vergi verirdilər.

Bu ədalətsizlikləri nəzərə alıb, bizim "Müsavat" örtülü verginin yox olmasını tələb eliyor.

Vergi gəlirə görə alınmalıdır. Məşhədi Həsənin ildə yüz manta gəliri var, ona görə millət xəzinəsinə vergi verir. Hacı Əsəd də ildə on iki manat qazanır, bu qazancına müvafiq bəddə verir. Bundan əlavə, biz mirasdan vergi alınması tərəfdarıyız. Çünki irs adama göydən düşmə kimi qalır. Məsələn, Əhməd bir də eşidir ki, varissiz əmisi ölüb, yüz min manat tənxahi (var dövlət) qalıb, bu malı və dövləti Əhməd qazanmayıb, zəhmət çəkməyib, alın təri tökməyib. Ona görə bunun bir hissəsi millət xəzinəsinə çatmalıdır.

Bir məmləkətdən o biri məmləkətə keçirilən mala qoyulan çox vəqti cəmaətə böyük ziyanlar verir. Görürsən Arasın o tayında xalq yağ-yavanlığı və qeyri yemək şeylərini qoymağa yer tapmırlar. Amma bu tayda cəmaət korluq çəkir. Hökumət sərhəddən mal keçirməyi qadağan etmək ilə iki tərəfi də zərərə salırdı. Iranlı malını satıb pul hasil edə bilmirdi. Qafqazlı da baha qiymətə alırdı.

Gah vəqti mal keçirmək gömrük ilə məhdud olunurdu.

Yağın girvənkəsi Arazıın o tayında bir abbası olduqda, bu taya keçdikdə iki abbası olurdu. Çünki satıcı hökumətə verdiyi bir abbasını malın üstünə qoyurdu. Axırda ağırlıq gənə fəqir və kasıba düşürdü. Ayda yüz min manat gəliri olan da yağın girvəngəsinə iki abbası verirdi, on beş manatı olan da, böylə ədalətsizliyi yox etmək üçün firqəmiz zəruri olan şeylərə az gömrük qoyulmasını və ya heç qoyulmamasını tələb edirdi.

V. RƏNCBƏRLƏRƏ İSTƏDİYİMİZ

Azərbaycan xalqının çoxu kəndlərdə və qəsəbələrdə olurlar. Bunların güzəran və diriliyi torpağa və onun məhsuluna bağlıdır. Biri buğda əkir, o biri pambıq becərir, bir ayrısı bağçılıq eliyor. Bəzi yerlərdə də əkinçiliyə heç həvəsi olmayan bir bəy, mülkədar və ya tacir hədsiz torpağa malikdir. Görürsən buğda əkmək meylində olan rəncbər gedir bəyin və ya tacirin qapısına diyor:

– İstiyorum uşaqlarıma qış ruzisi üçün buğda əkəm. Toxumluq buğdam da var: amma torpağım yoxdur. Gəl torpaq səndən, zəhmət məndən buğda əkək.

Torpaq sahibi razı olur. Amma bu şərtlə ki, biçin zamanı buğdanın yarısı torpaq haqqı verilsin. Rəncbərin əlacı nədir? Yer yiyəsi qeyri şərtlər də qoya, gənə qəbul edəsidir. Çünki torpaq olmasa, buğda əkilməsə, qışda rəncbərin külfəti acından öləsidir. Biçarə rəncbər başlıyor yeri əkməyə, suvarır, biçir, xırmana toplayıb döyür. Buğda çuvallara dolduqda bəy gəlir bölüşməyə. Zəhmət çəkən rəncbər buğdanın tən yarısını kənarda oturub əlini-əlinə vurmayan bəyə verir.

Bu misaldan məlum olur ki, bir şəxs zəhmət çəkir, o biri çəkmir və zəhmət çəkməyən zəhmət çəkənin alın təriylə əmələ gələn malına şərik çıxır.

Bizim nəzərimizcə hər kəs öz zəhmətinin məhsulunu almalıdır.
Biri çox zəhmət çəkdi gərək əvəzini alsın.

Zəhmət çəkməyən də cəzasına çatsın, yəni tənbəlliyin meyvəsini yesin.

Torpaq işlərini ədalətli bir qaydaya salmaq üçün firqəmiz məsələni böylə həll ediyor. Azərbaycandakı cəmi torpaq məmləkətimiz ixtiyarında olur. Azərbaycandakı cəmi torpaq (istər sabiq padşahın xəzinəsinin, istər qeyri mülkədarların ola) pulsuz olaraq zəhmətkeşlərə paylanacaq. Əlbəttə, paylanandan qabaq gərək torpağın miqdarı və rəncbərlərin sayı məlum olsun. Sonra hər zəhmətkeşə bir parça yer veriləcək. Bu yerin böyüklüyü qanun ilə təyin olunacaq. Hər halda verilən torpaq rəncbəri və külfətini dolandıracaq. Verilən yerə rəncbər malik olur və öz yeri olduğunu və heç vədə əlindən alınmamağını bildikdə o yerin üstündə cani-dildən işliyor.

Rəncbərə dövlətimiz tərəfindən yer bağışlandıqda o yerin altındakı xəzinələr, mədənlər və sair verilmir. Məsələn, kəndçi Mustafaya bir parça yer verilir. Sonra məlum olur ki, bu yerin altında qızıl mədəni var. Onda milli idarə mədənin işlənməsini öz ixtiyarına alır. Hərgah mədən işlədikdə kəndçi Mustafanın əkininə zərər yetişirsə və ya əkin mümkün olmursa, Mustafaya yeni torpaq verilir. Deməli, məmləkətin fikri bu olmalı ki, zəhmətkeş zəhmətini qoymaq üçün yer tapsın. Ta ki, özünü və külfətini rahat dolandıra bilsin.

Torpaq tamam alınıb rəncbərlərə paylandıqda, mülkədarlar böyük zərərlər çəkirlər. Öylə adamlar var ki, bilmərrə müflis olurlar. Dünən bəylik və ağalıq edən adam bu günkü ruzisini qazana bilmir, malına ümid bağlayıb, yaxşı ömür sürənlər birdən yoxsulluq bəlasına giriftar olub, naçar qalırlar. Millətin bu sinfinin də dərdini nəzərə alıb firqə-

miz qərar qoyar ki, torpaq əlindən alınan mülkədarlara da zərər və xəsarətlərinin əvəzi verilsin. Əlbəttə, bu pulları millət xəzinəsi öz öhdəsinə götürür və borcludur ki, dövlətlilərdən alınan vergilərdən versin.

Meşələr, göl və göləvat yerlərə və axar sulara gəldikdə bunlar hamının malı hesab olunacaq. Ümumin mənfəəsini nəzərə alaraq öylə qanunlar qoyulacaq ki, təmi artırıldıqdan xalqa xətər toxunmasın. Məsələn, meşə başına qalsa, hər yetən onu qırar. Axırda xalq odunsuz qalar. Meşə də tez əmələ gələn şeylərdən deyil. Buna görə odun qırmaq qanuna və nizama tabe olacaq.

Göl, göləvat yerlər və axar sular da habelə.

VI. İŞÇİLƏRƏ VƏ FƏHLƏLƏRƏ İSTƏDİYİMİZ

Mədəniyyət vətənimizdə artdıqca, fabrik və zavodlar da artır. Fəhlə xalqı gün-gündən çoxlaşır. Məlumdur ki, insan (kəndli insan) ağ günlükdən fəhləliyə getmir. Hər kəsin pulu yoxdur və ya əkməyə torpağı yoxdur, baş götürüb gedir şəhərə və zəhmətini satmağa yer axtarır. Yiyəsiz fəhlə çox əziyyətlər çəkir: çox əllərə keçib bir qarın çörəyə qul olur. Çoxları fəhləni ac və çörəksiz gördükdə, onu bacardıqca artıq işlədir. Çox vaxtı körpə uşaqlar dövlətlilərin toruna düşüb, fabrika künclərində ömürlərini çürüdürlər...

Bu zülmləri nəzərə alaraq firqəmiz “Müsavat” fəhlənin rahatlığa çıxmağını istiyor. Böylə ki, fəhlənin iş günü səkkiz saatdan artıq olmamalıdır. Gecə-gündüz iyirmi dörd saat olduqda insan bunun səkkizini yuxuya, səkkizini işə və səkkizini də xüsusi işlərinə sərf eyləməlidir.

Fəhlə həftədə altı gün işləməli, yeddinci gün isə dincəlməlidir. Gecə qulluğu qadağan olunmalıdır. Ancaq bəzi işlərdə gecə işləməyi vacib olduğundan gecə işləməlidir. Işin vacibliyi fəhlə cəmiyyətləri tərəfindən təsdiq olmalıdır ki, bəhanə ilə fəhlələri aldadıb işlətməsinlər.

On altı yaşına çatmamış uşaqların fəhləliyi qadağan olunmalıdır. Çünki bunların bədəni o qədər kövrəkdir ki, işə tab gətirməzlər. Bir də balalar on altı sinlərinədək məktəbdə oxumalıdırlar. On altıdan 18 yaşına qədər olanlar gündə altı saat işləməlidirlər. Çünki artıq iş onların bədənlərinə zərərlidir. O ki, qaldı arvadlara, bunlara da bədənlərinə zərər gətirən iş vermək qadağandır.

Muzdur və işçi arvadlar hamilə olduqda doğana bir ay qalmışdan işdən azad olmalıdırlar və doğduqdan ay yarım sonra işə başlamalıdırlar.

Bu iki ay yarım vaxtın məvacibi tamam-kamal muzdur arvada çatmalıdır.

Hamilə və doğan arvadı işdən azad eyləməkdə məqsəd budur ki, arvadın qarnındakı balanın vücudlarına zərər toxunmasın. Bir çox əli uşaqlı arvadları fəqirlik fabrikalarda işləməyə məcbur ediyor. Bizim istədiyimiz budur ki, böylə arvadların balaları üçün fabrikin yanında tərbiyəxanalar açılsın. Ta ki, həm analar balalarından arxayın olsunlar, həm də balaların salamatlığı və tərbiyəsilə çalışılsın.

Südəmər uşaqlar olduqda işçi analar hər üç saatdan bir yarım saatlığa balalarının yanına buraxılmalıdır.

Çox fəhlələr iş zamanında şikəst olurlar. Kimi qoldan və qıçdan olur, kimi gözlərini itirir. Böylə fəhlələr hökumət xərcinə olaraq sığorta olunmalıdır. Yəni şikəst olub, işə gedə bilməsələr məmləkət xərcinə saxlansınlar.

Uzun müddət bir yerdə işləyən fəhlə muzdunu hər həftə başı alır.

Muzd pul ilə olur. Pul əvəzinə şey vermək qadağan olunacaq. Çünki şey verdikdə fəhləni tovluyurlar. Bəzi adamlar fəhləni cəriməliyor və muzdundan çıxır. Bu, qadağandır. Fəhlə işlədikdə bir şeyi xarab eyləsə və ya xoşa gələn sayaq qayırmasa, onların qiymətlərini fəhlənin məvacibindən çıxmamalı. Fabrika və zavod kimi cəmi fəhlə işləyən yerlərə müfəttiş təyin olunmalıdır. Bu müfəttişlər fəhlələrə dair verilən qanunların dürüst yerinə yetirilməsinə baxacaqlar. Fəhlənin mənfəətini gözləmək uçün fəhlə vəkilləri də müfəttiş ilə işə baxırlar. Bu fəhlə vəkillərinə dövlət məvacib verməlidir. Ev qulluqçuları və nökərlər də bu müfəttişə tabe edilir. Fəhlələr çox vəqti narahat mənzillərdə yatıb-dururlar. Bu mənzillərdə insanın səlamətliyi üçün vacib olan işıq, quruluq və istilik olmur.

Fəhlə mənzillərinə baş çəkmək ixtiyarı və onları nizama salmaq məsələsi idarəyə məhvəl (həvalə) olunur. Əlbəttə, gənə fəhlə vəkilləri iştirak edir ki, doğruluq ortaya çıxsın.

Hər bir fəhlə işləyən fabrikalarda əmələlər üçün həkimlər saxlanmalıdır ki, azarlılara vaxtında baxıb, işdən azad eyləsin və müalicə başlansın. Dərman və həkim gərək iş sahiblərinin xərcinə olsun.

Azarlı fəhlə azarladığı zamanda məvacibini almalıdır.

Hansı iş sahibi qanunu pozub, fəhləyə zülm eyləsə, məhkəməyə verilib, tərbiyə olunmalıdır, hərgah fəhlə və fabrikaçı arasında qeylü qal baş versə, işə baxmaq üçün məsalhə heyəti qayırmalıdır. Bu heyətin yarısı fəhlə vəkillərindən, yarısı iş sahiblərinin adamlarından təşkil edib, bir yerdə işə baxıb, haqqı ortaya çıxarırlar: Yad şəhərə iş axtarmağa gələn fəhlələrə kömək etmək üçün zəhmət birjası qayırılır.

Qayıran da məhəlli idarələr olur. Zəhmət birjasının borcu budur ki, fəhlələrə tezlik ilə iş tapsın. Burada da yenə fəhlə vəkilləri iştirakedirlər.

VII. ƏDLİYYƏ İŞLƏRİ

Hər bir məmləkətin yaxşı və pisliyi onun qanunu ilə bilinir. Məsələn, Almaniya dövləti dedikdə yadımıza oranın qanunu düşür. Oranın nizamı xalqın rahatlığı, məmləkətin möhkəmliyi bütün oranın qanunlarının dövlətindədir. Almaniyadan sonra İrana nəzər saldıqda oranı alt-üst görürük. Çünki oranın qanunu da alt-üstdur.

Qanunun yaxşılığı onun zəmanəyə və əmrə müvafiq olmasıdır. Bu da onda olar ki, ömür qabağa getdikcə qanun da qabağa gedə. Yəni köhnə məzmununu dəyişib, təzələşə – Avropanın cəmi inqilabları qanunun dəyişməsi üstdədir. Köhnəpərəstlər and edib, qədim qanunların qalmasını istiyorlar. Inqilab isə qədim qanunları uçurub, əvəzində təzəsini yazır. İran, Buxara və bu kimi müsəlman dövlətlərinin ümdə bədbəxtlikləri bundadır ki, qanunları köhnəlib, dəbdən düşüb. Biz Azərbaycanımızı bəlaya salmamaq üçün gərək ölkəmiz yeni yazılmış ədalətli qanunlar ilə dolansın. Cəmi ədliyyə məhkəmələrimiz gərək qanunlara tabe olub, müdaxilədən hifz olunsun. Məhkəmə işinə hər yetən qarışar isə, məhkəmə bitərəfliyini və ədalətini itirər. Birisi bir təqsirli iş tutarsa, məhkəmə onun işinə baxıb qərar çıxarmalıdır. Bu qərar qanun üzrə təsdiq olunmamış o adam cəzalanmamalıdır.

Qanun bitərəf olduqda hamı onun qabağında bərabərdir. Bu gün məmləkətin vəziri bir adama zülm eyləsə, ikisi də məhkəməyə çəkilməlidir.

İki tərəf də məhkəmə qarşısında danışıb, dərdini diyor. Sonra təqsir isbat olunduqda, məhkəmə qanuna baxıb olunan zülmə görə iş kəsir. Daha vəzirlik mənsubiyyəti nəzərdə tutulmur. Çünki qanun gərək nə padşah tanısın, nə gəda. Hər kəs təqsirlidir – qanun onu ta-

nımalıdır və onun tənbehi üçün məhkəməyə müraciət etmək hər kəsə müyəssər olmalıdır.

Bunun üçün də məhkəmə xərci ləğv olunub, mühakimə müftə və pulsuz olmalıdır.

Məhkəmə adamlarının qulluğu həmişəlik olmalıdır və məvacib tərəfdən korluqları olmamalıdır. Çünki bunlar qulluqdan qovulmaqdan qorxub, gələcəkdə aclıq, möhtaclıq qorxusu çəksələr, işə bitərəf baxa bilməzlər. Hakimlərin heç kəsə və heç şeyə ehtiyacları olmamalıdır.

Böylə olduqda rüşvətxorluq da olmaz.

VIII. MAARİF İŞLƏRİ

Hər bir məmləkətə təzə qüvvə verən, onun qabağa getməsinə səbəb məktəb olur. Hansı məmləkətin məktəbi, nizami olsa və sayca artıq olsa o biri məmləkətə qalib gəlir – istər davada, istər ticarətdə, istər sənətdə. Məktəbsiz millət rişəsiz ağac kimidir; diriliyi üçün lazım olan qüvvəsi olmayıb, quruyub candan düşər. Məktəb təzə fikirli adamlar yetirir. Bunlar da cəmaətin məişətini dəyişməyə çalışırlar.

Böylə olduqda Azərbaycanda məktəb və maarif işinə artıqlığınca çalışmalıyıq. Bu barədə bizim firqəmiz "Müsavat"ın fikirləri böylədir:

Maarif işlərində din, millət, arvad və kişilik bilmərrə kənara qoyulmalıdır: elm yolunda hamı bərabərdir. Deməli, maarif işinə dövlətimiz pul buraxdıqda hamının ehtiyacını nəzərdə tutar.

Maarif işlərində bitərəflik olan kimi azədəlik də gərək olsun.

Məktəb elm ocağıdır, daha buraya heç kəsin qarışmağa hünəri yoxdur. Vətənimizdə Avropa qaydası hər bir məktəblər açılmalıdır.

İstər şəxs, istər idarə və camaat məktəb açmaq və maarif üçün çalışmağa azaddırlar.

Məktəblər öylə gərək düzülsün ki, aşağıdan ortaya və ortadan yuxarı məktəblərə keçmək asan olsun. Yuxarı məktəblər daxili işlərində azad olmalıdırlar. Hökumətin bu məktəblərin xüsusi idarəsinə qarışmağa ixtiyari olmamalıdır. Xalqın oxumasına meydan vermək uçun aşağı məktəblər məcburi və müftə olmalıdır. Yəni hər bir ata və ya ana borcludur ki, övladını məktəbə göndərsin, məktəbin də borcu budur ki, uşağı pulsuz oxutsun. Ata və ana övladlarını məktəbə göndərməsələr, onlar da cərimə və ya tənbeh olunmalıdır...

Dil məsələsinə gəldikdə, əlbəttə Azərbaycan məktəblərində işlənən türk dili olmalıdır. Çünki buranın çox cəmaəti türkdür. Ona qaldı qeyri xırda millətlərə, onların da dili qadağan olmasın. Hərgah lazımi miqdarda uşaqları var isə məktəblərində öz dillərində dərs verilir.

Bizim dil (türk dili) dövləti dil olduğundan, əlbəttə, onu bilmək cəmi azərbaycanlılara vacibdir.

IX. AXIRKI SÖZLƏRİM

Firqəmiz "Müsavat"ın məqsədlərini nəql eyləyib qurtardım. Hər kəs ki, bizim yuxarıda yazılan fikirlərə şərikdir, bizim cərgəyə keçməlidir: yəni "Müsavat" firqəsinə yazılmalıdır. Öylə ki, bizim fikirli adamların sayı artdı, onda biz fikirlərimizi tamamilə əmələ gətirə biləcəyik. Ümidimiz budur ki, bundan məqsədlərimizə çataq.

Fikirlərimizi yerinə yetirməyə hazırkı vaxtdan əlverişli bir zaman olmayacaq. Ona görə Vətənimizi hifz etmək üçün firqəmiz başına yığılın.

Sağ olsun bizim fikirlərə şərik olanlar! Yaşasın Azarbaycan istiqlalı!

KİYEVDƏN MƏKTUB

Möhtərəm “Günəş” 69-cu nömrəsində Moskva erməni studentlərinin nəşriyyata girişib rus ədəbiyyatı ilə öz millətlərini aşina etmələrini xəbər verib və sonra müsəlman studentlərinə “Əcəba, siz nə etmişsiniz və nə edirsiniz?” – deyə sual edir; onların himmət, həmiyyət və xidmətləri nərədə olmağını soruşur və bunlardan sonra “Vücudgərdən varlığınızdan millət heç bir nəf görməz!” – deyib müsəlman studentlərinin parlaq istiqbalından da bilmərrə qəti-ümmid olur...

Möhtərəm “Günəş”in bu barədə dediklərini inkar etmək olmaz! Müsəlman studentlərindən gözlənən meyvə hasil olmadı və olmur. Bu, aşkar və vazeh bir işdir! Bu barədə qəzetə, məcmuələrimiz sütunlarında dəfələrlə yazılıb və oxuduqca təsdiq etmişik. Lakin qəzetlərimiz məsələnin həmişə bir tərəfini unudub və unutmaqdadır.

Studentlərin himmət və həmiyyətsizliyini mözuyi-bəhs edib, qəzetlərimiz buna bircə səbəb də göstərməyiblər. Səbəb nədir ki, studentlər “iş” görməyirlər və görürlərsə də gözə gələn bir nəticə göstərmirlər? Halbuki, erməni studentləri bular ilə darülfünunda elm təhsilinə məşğul ola-ola, öz millətlərinə yarıyıb və yarıyırlar!

Əsl səbəb budur ki, erməni studentləri ilə bizimkilərin təfavütü ruh və qanlarındadır. Ruh və qanı da yetirən tərbiyə və məhəbbətdir.

Erməni uşaqları dünyaya gələr-gəlməz vəzifəsini gözəl ifa edən analar ağuşunda lazımınca tərbiyə alar, milli ruh ilə ruhlanar. Tərbiyə uşağın ruh və qanına keçib dərin köklər atar və axirüləmir (işin axırında, nəticədə – A.B.) sabit qalıb əfkar və amalına irşad olar!.. Erməni uşaqları ana tərbiyəsindən qurtardıqda özünü milli məktəblərində görürlər və burada məlumatlı müəllimlər təhd-nəzarətində ana dilini mükəmməl öyrənib milliyyət ilə məmluqan və ruh ilə hökumət məktəblərinə rəvan olurlar. Biz isə ev tərbiyəsindən bilmərrə məhrum qalırıq!

Kim tərbiyə etsin? Hüququ pamal olub nəinki analıqdan, hətta insanlıqdan belə uzaq tutulan övrətlərimizmi? Ən fəna, ən şədid bir halda ümrari-həyat edənlərmi?.. Ki, müqəddəs vəzifələri tərbiyəni yaddan çıxarıb, kişilərin keyfi-maişae, zülm və vəhşiliklərinə qurban olublar?..

Təbiidir ki, təzyiq altında fot olan övrətdən tərbiyə gözləmək olmaz. Odur ki, uşaqlarımız öz-özünə qalıb mühitin müzür girdablarına düçar olurlar.

Məktəblərimizə gəldikdə, buradan da bir şey əxz etməmişik. Bəlkə,n ömrümüzün ən gözəl vaxtlarına "məktəb" adlı tozluqlarda balta çalıb fot etmişik. Bir tərəfdən üsuli-qədim, əzabı-fars kitabı, qədim ibarələr, bir tərəfdən də məktəb mollalarının müstəbidanə hərəkətləri, falaqqa, çubuq və qeyri...

Bir məktəbdə ki, ruh ölə, bədən əriyə, zehin korşala, daha o məktəb millət balalarının gələcəyinin təmininə səbəbi-xeyir ola bilməz!

Deməli, iki mənbə var ki, buradan "millət" nə olduğunu öyrənib onun mühafizə və tərəqqisi üçün çalışacaq idi – biri ana tərbiyəsi, biri məktəb. Bunların ikisindən də acı yaddaşdan başqa bir şey qalmadı. Millətin ruhu, canı və bəlkə cəmi vücudu hesab olunan – ana dilini bizə lazımınca öyrədən bir vəsilə olmadı. Daha dilsiz də nə etmək olar. Hər yerdə dil və savad lazım, nəşriyyat bunlar ilə olar. Camaat dərdinə əlac aramaq, məişətimizin fəna tərəflərini tənqid etmək... Bunların hamısına dil və savad lazım. Bir də bir camaata yol göstərmək fikrində olana lazımdır ki, o camaatın adət və qaydalarından müxbir olsun, tarix və ədəbiyyatı bilsin. Bunları bilmək camaatın məişətini bilmək, onların qüsurlarını və qüsurlarının səbəblərini bilmək deməkdir! Burada da ki yenə türk-fars savadına möhtacız! Savaddan və dildən də ki, ana dilindən müsəlman studentləri məhrumdurlar!!! Hər bir qüsurun bir səbəbi, bir mənbəyi olan tək, müsəlman studentlərinin böyük qüsuru ədd olunan "nəfəs"sizliyin, camaatımızın dərdlərinə yaramadığının səbəb və mənbəyi yuxarıda göstərdiklərim olub.

Bu səbəbləri mövzui bəhs etmək! Bu fəna maneələrin əleyhinə sövq edib yox etmək! Övrətlərimizin hüququnu geri qaytarmaq!..

Bular olarsa, gələcəkdəki studentlərimizə böyük ümidlər, bağlamaq olar. Olmaz ki, studentlərimiz əvvəlki nəfəssizliyində davam edələr və ikmali-təhsildən də sonra yaxalarını camaatımızdan kənara çəkib öz cib və rahatlıqlarından başqa bir müqəddəs vəzifə bilməzlər.

Kiyev darülfünunun tələbəsi:
Yusif Vəzirov. 1910

KİYEVDƏ MİLLƏTLƏR ŞURASI

Millətlər qurultayının qərarına görə əmələ gələn millətlər şurası neçə vaxtlar var işə başlayıb. Sədri professor Qruşevskidir.

Şuraya bir neçə millətlərin nümayəndələri qeyd olan kimi Azərbaycan türklərininki də olunmuşdu. Lakin türk nümayəndələrinə indiyə kimi Qafqasiyadan etibarnamə göndərilməyibdir.

Millətlər şurası yenidən Rusiyanın cəmi millətlərinə kağız göndərib oktyabrın iyirmi dördündə bir neçə vacib maneələrin həlli üçün iclaslar başlanmasını xəbər vermişdisə, bizim Azərbaycana yenə kar eyləmədi. İclaslara cəmi millətlər gəlib çıxdı, hətta başqırdlar belə laqeyd qalmadılar.

Xülasə, iclaslarda bu sətirləri yazandan başqa Azərbaycan türkləri tərəfindən vəkil yox idi.

Millətlər şurasının oktyabr iclasları bir neçə gün çəkdi. Müzakirəyə qoyulan məsələlərin ümdələri bunlar idi:

Ümumi məclisi-müəssisan, məhəlli məclisi-müəssisan, milli qoşun və mərkəzi təşkilat, millətlər konqresi, sülh məsələsi və qeyrə.

ÜMUMİ MƏCLİSİ-MÜƏSSİSAN

Ümumi məclisi-müəssisan barəsində bir neçə məruzə oxundu.
Türklər tərəfindən bu sətirləri yazan məruzədə bulundu (gələcək nömrələrimizdə dərc edəcəyik).

Bu məruzələrdən məlum oldu ki, Rusiyada cəmi millətlər məclisi- müəssisanda iştirak edirlər. Millətlər şurasında bunun əleyhinə bir fikir olmadı. Ancaq məclisdən dərhal mənfəətdar olmaqdan ötrü millətlər şurası belə qərar çıxardı:

"Millət vəkillərinin və federasion fikrinə şərik nümayəndələrin məclisi-müəssisanda bir ittifaq yapmaları tövsiyə olunur". Bu ittifaq əmələ gəldikdə məclisi-müəssisanda federasion fikirlərini beyinlərə yeritməyə müvəffəq olmaq asan olar. Bizim müsəlman nümayəndələrinin bu ittifaqa daxil olmaları, əlbəttə, gözəl və faydalı olar.

Məruzələrdən aşkar oldu ki, bəzi millətlər məclisi-müəssisana qarşı tədbirlər də görmüş: hərgah məclis millətlərin istədiyini eyləməzsə, millətlər nümayəndələri məclisi tərk edib çıxacaqlar və sonra öz başlarının çarəsini özləri qılacaqlar.

Bəzi millətlər bu barədə qəti qərar çıxarıblarsa da, məsələnin həllini zəmanənin öhdəsinə qoyublar. Deməli, hərgah zaman gələr isə məsələ həll olunar.

Bizim nümayəndələrimiz məclisi-müəssisana getməzdən qabaq bu barədə qəti bir qərar çıxarsalar, daha da gözəl olar. Çünki, məclis bizə muxtariyyat yolu göstərməsə etiraz etməkdən başqa bir şey qalmır.

Biz canlı və qüvvətli bir millət olduğumuz üçün səsimizə gərək qulaq assınlar. Zaman öylədir ki, ancaq inqilab təriqi ilə məsələlər həll olunur. Rüxsət və izinə ümid bağlanar isə, işlər naməcməl qalar.

Haqqımız tələb olunmalı, verməsələr zorla alınmalıdır. Əmin olmalıyıq ki, hal-hazırda hörmət zor ilə alanların tərəfindədir. Gələcəkdə də böylə olacaq, həmişə də böylə olmuşdur.

Müxtəsərcəsi, məclisi-müəssisana getməliyik. Orada qeyri millətlər ilə ittifaq bağlayıb haqqımızı istəməliyik. İstədiyimizə çatmasaq məclisi-müəssisanı boşlayıb, öz yuvamızı özümüz tikməliyik.

MƏHƏLLİ MƏCLİSİ-MÜƏSSİSAN

Bu məclis ümumrusiya məclisi-müəssisanından asılı deyil. Hərəsinin bir yeri var. Ona görə də bəzi millətlər imdidən məhəlli məclisi- müəssisan çağırmağı lazım bilib binagüzarlıq edirlər. Krımlı qardaşlarımız oktyabrın 24-də məclis dəvət eylədilər. Hamını qabaqladılar.

Ukrayna da, qət olunub ki, çağırsın. Estonlar yanvar ayında "Zeski seym" çağırırlar. Bu seym məclisi-müəssisana əvəz olacaqdır. Millətlər şurasına vurulan teldən məlum oldu ki, Moldavan hərbi qurultayı Bessarabiya muxtariyyəti elan edib. Haman il də Moldavan qurultayı millətlər qurultayının qərarlarına tabe olmadığını da bildirmişdi. Deməli, Bessarabiyada da milli məclisi-müəssisan çağırılması aşkardır. Bərəkətlər olsun, biz türklər də bu yolda geri qalmaq istəmirik. Gəncə məşvərətinə "Müsavat" firqəsi tərəfindən təqdim olunan məramnamə layihəsindən məlum oldu ki, muxtariyyətlərin hüdudunu təyin eləmək və muxtariyyətlərə məxsus qanuni-əsasiyyəyi tərtib etmək məzkur muxtariyyətlərin kəndi məclisi-müəssisanlarında həll olunmalıdır. Ancaq iş buradadır ki, milli-məclisi-müəssisanı tezlik ilə dəvət etməlidir. Dəvət olunmasa da yainki iş-işdən keçər. Qorxmalı-

dır ki, fürsət əldən gedə. Bu zaman kimi millətlərə əlverişli bir zaman neçə əsrlərdə bir baş verir. Vaxt ikən işlərimizi düzəltməli. Kim bilir, bir neçə aydan sonra hansı hadisələrə rast gələcəyik.

Millətlər şurasının qərarı da bu oldu ki, məhəlli məclislərin çağrılması teziksin.

MİLLİ QOŞUN

Ukrayna Radası millətlərə federasion fikrində rəhbərlik etdikdə bu fikrin amili milli-hərbi təşkilatları unutmur. Milli məsələləri həll edən qərarları qüvvədən felə çıxaran millətlər şurası kimi, bir hərbi komitə də yapmaq ehtiyacı da var. Bu komitə Kiyevdə olub, millətlər qoşunlarına yol göstərmək fikrində gərək olsun. Bu görməli fikri əmələ gətirmək üçün millətlər şurası bu qərarı çıxardı ki, Ukrayna əsgəri qüvvəsi Kiyevdə olan qeyri-milli və hürrü təşkilatlar iştirakilə bir hərbi qurultay çağırsın. Bu qurultaya vaxtında milli və hərbi cəmiyyətlərdən vəkillər göndərilməlidir. Ümidimiz budur ki, bu qurultay çağırılanadək biz Azərbaycan türklərinin də milli qoşunu olar və hərbi nümayəndələrimiz bu qurultayda iştirak edərlər.

MİLLƏTLƏR KONQRESİ

Məhəlli məclisi-müəssisan çağrılmaq ilə millətlər ittifaqı əmələ gəlib qurtarmır. Milli məclislər bizə ancaq muxtariyyət verə bilər. Lakin bu muxtariyyətləri bir yerə toplayıb möhkəm bir ittifaq yapmaq üçün mərkəzi idarə lazımdır. Bu da millətlər konqresi ola bilər. Konqres çağırılmazsa, getdiyimiz yol yarımçıq qalar. Milli fikirləri ikmala çıxarmaq üçün millətlər şurası qət eylədi ki, konqres dəvət etsin. Konqresin çağırılması üçün ümumi məclisi-müəssisandan asılı deyil. Çünki millətlər qurultayında iştirak edib öz dərdinə əlac axtaran millətlər axıradək bu fikirdə gərək olsunlar və öz işlərini özgə əlinə salmasınlar.

Konqresin nə vaxt çağrılması vaxtında məlum olacaq.

Şurada millət vəkilləri rus qoşunundan çəkdikləri əzabları birbəbir nəql eylədilər. Məlum oldu ki, milli qoşunlardan başqa heç kəsə ümid yoxdur. Onun üçün Ukrayna hərbi komitəsinə, Kazanda müsəl-

man hərbi şurasına, Valk şəhərində on ikinci ordunun milli polkuna, Reveldekest hərbi komitəsinə, Vəndan şəhərində latış nişançısı alayının icra komitəsinə millətlər şurası adından bu məzmunda rəsmi kağızlar göndərildi:

"Əyalətlər haqqında oxunan məruzələrdən məlum oldu ki, rus qoşunlarının bəzi hissələrinin pis hərəkətlərinə daha tab gətirmək mümkün deyil. Bu barədə dəfələrlə müvəqqəti hökumətə və baş komandanlara müraciət edilmişsə də, nəzər diqqətə alınmamışdır. Əyalətlərdə xalqı mühafizə etmək üçün qoşun yox, hökumət adamları iş görmürlər. Buna görə də bəzi qoşun bölüklərinin nizamsızlığı aləmi xaraba qoyur. Latışlar Qafqaz müsəlmanlarına və qeyrilərinə cəbricəfa edirlər; camaatı yerlərindən qovub, aclıq bəlasına düçar edirlər.

İranın qərb-şimal tərəfində şəhərlər müntəzəm bir halda talan olunub, yandırılır, latviya və estonlarda kənd əhalinin evi, taxıl və otu da tutulur.

Millətlər şurası Rusiyanın ətraf xalqlarının nicatını ancaq milli qoşunda və milli əsgəri təşkilatlarda görüb, təvəqqe edilir ki, millətlər qoşunları camaatı öz himayəsi altına alsın".

Bu müraciətnamənin surəti Ingiltərə, Fransa, Yaponiya, İtaliya, Şimali Amerika cümhuriyyəti səfirlərinə, şimal və Qafqaz cümhuriyyətlərinin baş komandalarına göndərildi.

İKİ ALƏM

Ukrayna cümhuriyyəti elan eylədi... Ol axşam mərkəzi rada millətlər şurası üzvlərinə məxsus (heyəti rəisə arxasında) kürsüdə oturub qarşımda oturan yüzlər ilə xalqa tamaşa edirdim. Rada üzvləri giribçıxırdılar, heyəti-rəisə və Ukraynadakı xırda millətlər vəkilləri salonda yox idilər. Deyirdilər; "Xırda millətlər cümhuriyyətə razı deyillər. Bu barədə məşvərət olur".

Axşam saat ona yaxın məclis açıldı. Professor Qurşevski cümhuriyyət əsasını oxumağa başladı. Tufani bir alqış qopdu. Salon zəlzələ eylədi. Milli şərqilər oxundu və cəmi adamlar ayaq üstə dərin imanlı bir sima ilə dinləməyə başladı...

Bir gün keçmiş rəsmi keçid başladı: Sofiya meydanında neçə min milli qoşuna və camaata da cümhuriyyəti elan etdilər. Yenə böyük alqış və təntənə...

Hər kəs nə deyir desin, millət ayılmış, ruhu qəvi, ümidi böyük, üzləri mütfaq, sözləri doğru, əməlləri möhkəm...

Bu qırıq-quruq lövhələr bir aləmi təsvir eyləyir. Bu aləmdə firqə var, məqsəd ayrılığı yoxdur. Hamının fikri Ukraynanın muxtariyyətini mühafizə eyləməkdir. Bu aləmdə-nifaqpərvərlər və intriqa yoxdur: hamı cəmi gücünü, zorunu, səy və məhəbbətini vətənə həsr eyləyib.n Bu aləmdə nizam var, çünki milli qayələrinə inamları möhkəmdir. Mənəmlik, şəxsi qərəz Ukraynada yoxdur. Burada qoçubazlıq və qolu çomaqlıq yoxdur: biliksizlər biliklilərə tabedirlər. İstedadlı və cürətlilər qabağa gedir, qalanı onların dalınca. Çox yerdə yeniyetmələr müsinkeşlərə (yaşlılara – A.B.) yol göstərir. Bu hal nə müsni dilgir edir, nə cavanı lovğalandırır. Çünki, ikisi də millətin doğru xadimlərindəndirlər. Ukraynada ruhanilər, yəni keşişlər siyasətə qarışmırlar. Çünki, siyasət ilə din arasında böyük uçurum var. Hərəsinin bir yolu var. Siyasətin din ilə işi yoxdur. Çünki, siyasətin məqsədi büsbütün ayrıdır. Din öz yolu ilə gedir, siyasət də öz yolu ilə...

Ukraynalılar ana dillərindən başqa bir dildə danışmaq istəmirlər...

Xülasə, xoşbəxt Ukrayna nəcib övladlara da malikdir.

Bizim aləm... qəribə aləm! Ariflərindən tutmuş avamlarınadak qəribədirlər. Arif avamın dilini bilmir, avam da arifin. Bunların hərəsi də öz aralarında bir-birilərini düşünmürlər...

Qürbət bir şəhərdə oturub istəyirəm vətənimizin halından xəbərdar olam. Bakı komitəsinin məlumatını əlimə alıram, ("Kaspi"nin dal vərəqəsindədir.) başlayıram öz-özümə danışmağa, suallar verirəm, özüm də cavabını axtarıram.

1. Niyə müsəlman komitəsinin cəmi üzvləri türk ola-ola buna türk komitəsi demirlər?

Cavab: Bizdə hələ din ilə millət mənaları bir-birindən ayrılmayıb, biz hələ özümüzü tanımamışıq. Biz hələ həddi-büluğa çatmamışıq.

Biz hələ köhnə yol ilə gedirik.

2. Niyə türk komitəsinin məlumatı rus dilində verilir?

Cavab: Bizdə milli dil qədri bilmək qabiliyyəti hələ yoxdur. Biz ol qədər ruslaşmışıq ki, Nikolaydan sonra yenə köhnə işlərdən əl çəkə bilmirik.

3. Niyə biz öz adımızı bilmirik? Niyə özümüzə türk (tyurk) deməyə ərinirik?

Cavab: Yuxarıda söylədik ki, biz hələ özümüzü tanımamışıq ki, adımızı da biləkk.

4. Niyə "müsəlman" komitəsinin məlumatı zəmanəyə dair yazmır?

Cavab: Məsələ aydındır...

İki aləm... Ukrayna cümhuriyyət elan eləyir, bizim məlumat yazır ki, drama yaxşıdır, yoxsa opera. Ukrayna cəmi Rusiyanın idarəsini əlinə götürmək istəyir. Bizdə də "Rusiyada müsəlmanlıq" əmələ gəlib ortalığa nifaq toxumu səpir. Hərə qərəzi şəxsi üçün şəriəti oyuncaq eyləyib çəkir meydana. Ukrayna əsgəri yarağını hazırlayıb vətən düşmənini güdür, bizim camaat da biri üç manata patron alıb öz qardaşını vurub öldürür. Tahı bunu düşünməyir ki, belə hərəkətin axırı hamı üçün pis olar...

İki aləm... Biri doğru yolda, o biri... yol itirmiş. Məndən inciməyin. Haqq söz haqlığında qalmalıdır...

Bu ümidsizlik zamanında əlimə "Açıq söz" götürüb "Müsavat" qurultayının iclasları ilə tanış oldum. Ümidim yenidən işıqlanır.

Dərin iman ilə deyirəm; "Bizə nicat versə, ancaq "Müsavat" firqəsi verəcək!!" Sakit oluram.

Uğurunuz xeyirli, xeyir işiniz bərəkətli olsun, ay müsavatçılar!

KİYEVDƏ "MÜSAVAT" ŞÖBƏSİ

Kiyev türk tələbələrinin milli təşkilatı 1909-cu ildə əmələ gəlib. Əvvəli siyasi məqsədlər təqib eləməyib, ümdə fikri mədəni bir yolda işləmək idi.

Belə olduqda bu təşkilata hər kəs olur-olsun, ancaq müsəlmanlıq sifətilə daxil olurdu. Bu hal hürriyyətdən qabaq aylaradək davam etdi. Sonra ümumi müsəlman təşkilatından bir dəstə türk aralanıb, bir ictimaiyun federasion firqəsi əmələ gətirdi. Bü firqə üzvləri inqilab başlar-başlamaz dağılıb Azərbaycana təbliğata getdilər. Deməli, bu firqənin siması dürüst məlum olmayaraq, yox oldu. Ortada yenə köhnəb "zemlyaçestva" qaldı. Təbiidir ki, siyasi bir məslək təqib eyləməyən "zemlyaçestva" zəmanəmizin ehtiyacını rəf edə bilməzdi. Odur ki, cavanlarımızın gözündən bilmərrə düşdü. Dəfələrlə yığıncaqlar qurmaq istənildisə də, nəticə hasil olmadı. Tələbələrimizin ümumi işə soyuqluq ilə baxmalarını yox etməyə çarə tapıldı. Kiyevdə "Müsavat" şöbəsi açıldı. Doğrudan da firqə həyatı cavanlarımıza yeni bir ruh bəxş etdi. Həmişə laqeyd görünən student şövq ilə çalışmağa başladı. İndiyədək firqənin bir neçə iclası olub, nəticələr çox gözəldir. Ən sevinməli hallardan biri budur ki, iclaslarda türk dili işlənir və kağızlar da milli dildə yazılır. Ədəbi dilə malik olmayanlar özlərinə xırda lüğət dəftərçəsi qayırırlar..

Firqənin ümdə fikri budur ki, federasion əsası ilə aşina bilikli və təcrübəli adamlar vücuda gətirsin ki, gələcəkdə millətə lazım olsunlar.

Onun üçün qət olundu.

1) Ana dilində danışılsın. Bilməyənlər öyrənsinlər. İclaslarda rus dili bilmərrə qadağan olsun.

2) Kitabxana binası qoyuldu. Kitab meydanında nə qədər milli məsələlərə və fedarasion fikrinə dair əsərlər var, qət olundu toplansın.

Hal-hazırda Kiyev də olan məzkur məsələyə dair risalələr alındı.

3) Bir statistika heyəti seçildi ki, ali məktəblər kitabxanasında olan və Azərbaycana dair nə qədər rəqəmlər var isə ələ gətirsin. Bu saat heyət işə məşğuldur. Məlumat hazır odan kimi qəzetə və ya risalə vasitəsilə nəşr olunacaq.

Bundan başqa, Qafqaz şəhərlərindən də məlumat istəniləcək. Məqsəd budur ki, Azərbaycan türklərinin sayı, sakin olduqları yerlər-

də qeyri-millətlərə nisbətlə miqdarları məlum olsun. Ümid var ki, müvəffəq olaq.

Kiyev şöbəsi camaatımıza bilik vermək qəsdilə qərar qoydu ki, risalələr nəşr etsin. Hələlik min manat pul ilə işə başlanacaq. Əvvəlinci risalə "Ümumi və milli məclisi-məbusanlar" ünvanlı olub, millətlər şurasında bu sətirləri yazan tərəfindən oxunmuş bir məruzədir.

"Müsavat" şöbəsi əmələ gəlmədən qabaq proqram dairəsində danışıq oldu. Əldə olan proqramın bəzi maddələri ilə həmfikir olmaq istəmədilər. Ələlxüsus torpaq məsələsi uzun-uzadı bəhslərə səbəb oldu. Sonra məsələnin əsl əsasını nəzərə alaraq razılıq hasil eylədilər və aşağıda yazılan qərarları çıxartdılar:

1) Türk ədəmi-mərkəziyyət fikrinin tərəfdarı olub türklərin müttəhed olmalarını nəzərə alaraq "Müsavat" firqəsinə ilhaq oluruq.

2) "Müsavat"ın əldəki məramnaməsinin fəsilləri ilə həmfikir deyilsək də, güman edirik ki, gələcək qurultaylarda ümumi səy ilə bu fəsillər islah olunar.

3) Azərbaycan muxtariyyəti üçün Ümumrusiya məclisi-müəssisan məclisini gözləməli, məhəlli məçlis çağırıb camaatın gələcək idarə üçün öz rəyini bilməli.

4) Azərbaycan sərhədini türk dili işlənən dairələrdə görməli. Bu dairə təqriba Dərbənddən tutmuş Xəzər dənizinin cənubunadəkdir.

5) Səy eyləməli ki, ədəmi-mərkəziyyət fikri Iran Azərbaycanında, Türküstanda, Başqırdıstanda, Qırğızıstanda və qeyri türklər içində də nəşr olunsun.

6) Azərbaycanda yaşayan erməni, gürcü, yəhudi, rus və qeyri millətlər ilə hüquqda müsavi olmalıdırlar.

7) Azərbaycanın ortasında qədimdən yaşayan kürd, türk və qeyriləri köçürmək və ya tələf eləmək ilə süni surətdə meydan açıb məhəlli muxtariyyət hazırlayan millətə qarşı şiddətli etiraz olunur.

8) Azərbaycanın nicatı, milli muxtariyyət qoşun altındadır. Bu qoşunu düzəltməli.

Qoşun düzəlincə Kazandakı müsəlman hərbi şurasının izni ilə Qafqaza lazımi miqdarda tatar alayları köçürməli.

Deməli, Kiyev federalistləri bu qərarlar ilə bəzi rəylərini bildirib, ikinci müsavat qurultayında lazımi surətdə iştirak edəcəklər.

ZƏRURİ MƏSƏLƏLƏR

I. QOŞUN

Kiyev müsavatçılarının tatar alaylarının Azərbaycana köçürülməsinə dair çıxardıqları qərarları yazmışdıq. Bu səfər müsəlman hərbi şurası tərəfindən Ukrayna işləri ilə aşina olmaq üçün Kiyevə göndərilən miralay Yaqubovskidən aldığım məlumatı yazıram. Həm miralayın söylədiyinə görə, həm də Kiyev müsəlman hərbi komitəsi vasitəsilə aldığım xəbərlərə görə Rumuniya sərhədində tatar qol orduları (süvari ordu – red.) əmələ gəlməlidir.

Hazırda bir neçə alay düzəlib qurtarıb. Böylə olan surətdə yaxşı olmazmı şimal türk qardaşlarımıza müraciət edib təvəqqe edək, bu alaylardan bizə də göndərsinlər. Bizim qoşunumuz yoxdur. Çünki bizi əsgər aparmırdılar. Yenidən qoşun düzəltmək də asan deyil. Olsa da, bu saatın işi deyil. Bu saatda bizim varlığımız böyük qorxu altındadır. Ona görə tatar alaylarının Qafqaza nəqli həm bizə, həm də Rusiya müsəlmanlarına böyük xidmət olar. Biz – Rusiya musəlmanları birbirimizə əl uzadıb, müttəfiq bir surətdə çalışmasaq, həlak ola biləriz. Gələcək Rusiyada bizim mənafeyimiz birdir. Qoşma cümhuriyyətin binası imdidən qoyulmalıdır ki, gələcək mənafeyimiz qəzaya uğramasın.

İmdidən ölkələrimizin idarəsini öz əlimizə almalıyıq və camaatın rahat yaşamasını təmin etməliyik. Bu işlərdə də ümdə iş görən qoşun olacaq.

Xahiş olunardı ki, "Müsavat"ın mərkəzi idarəsi tatar alayları barəsində Kazan hərbi şurası ilə yazışa idi. Miralay Yaqubovski özlüyündə razılıq göstərdi və söz verdi ki, bu məsələni hərbi şuraya həll üçün təqdim etsin. Hər halda, bu, düzələn və mənfəətli məsələdir. Ancaq çalışılmalıdır.

II. UKRAYNA VƏ BİZ

Ukrayna gözümüzün qabağında işə başlayıb, bir neçə ayın içində cümhuriyyət elan edib, oturdu yerində. Bu əhvalatları biz gendən eşidib geninə yetişmədik. Qəzetələrimiz də bu barədə oxucularına lazı-

mi məlumatı verə bilmədi. Rus qəzetlərindən kəsik-kəsIk xəbərlər dərc eyləyib, məsələyə özgələrin nöqteyi-nəzərindən baxdıq. İş böyləmim gərək olaydı? Əlbəttə, yox! Ukrayna məsələsinin bir ucu da bizə toxunurdu. Biz də məhkum deyilən millətik, biz də Rusiyada cövrücəfa görmüşük, bizim də axır nicatımız muxtariyyətdədir...

Belə olduqda gərək idi Ukraynanın hər addımına nəzər yetirəydik: gödəyi, gərək qəzetələrimiz və ya cəmiyyətlərimiz Kiyevdə müxbir saxlayaydılar və bu müxbirlər də hər nə əhval eşidib, bildi, həm komitəmizə və həm də qəzetələrimizə xəbər verəydi.

Deyək, qəzetələrimiz maddi tərəfdən lazımi qaydada təmin deyillər.

Bərəkətlər olsun ki, cəmiyyətlərimizdə pul var. Yaxşı olmazdımı bir adamın məişətini təmin edib Kiyevə göndərəydilər. Ukrayna radası gündə muxtariyyət imarətinə yeni bir zinət vurur. Bu, bizim üçün bir dərsdir; görüb götürməliyik. Biz çox geridəyik. Kiyevdə oturub "Kaspi" qəzetəsi oxuduqda elə bil iyirminci əsrdə oturub orta əsrlərin tarixini mütaliə eyləyirsən. Budur, milli komitə "İzvestiyası". Baş məqaləsini sənət məktəbinə həsr eyləyib. Deməli, qızlarımıza əl işi öyrətmək üçün bir məktəb açılıb. Bunun üçün də milli komitə miruci-əfkarı səs-küy salıb böyük fərəhlər büruzə verir.

Mən məktəbə zidd deyiləm. Məktəb nicat yoludur. Lakin bu saatın məqsədi bu deyil. Bu saat məktəb açmaq belə balaca işdir ki, onu açdıqda qeyri millətlər qəzetlərə belə qeyd eləmirlər. Bu saat bir saatdır ki, əsrlərdə bir ələ düşər: fürsət zamanıdır. Siyasət zamanıdır. Cəmi fikir və zikrimiz gərək buna həsr olunsun. Gərək cəmi qəzetələriz sütunlarını hal-hazıra sərf edib, camaatımıza zəmanənin necə əlverişli olduğunu bildirsinlər. Gücümüzü mədəni və maarif məsələləri yolunda itirməməliyik.

Çünki bu saat zəfər burada deyil, zəfər muxtariyyətimizi feli bir surətdə ortalığa çıxarmaqdadır. Muxtariyyət ki, oldu, orada milli mədəniyyət və maarif də olacaq, yox, hərgah fürsətdən mənfəətbərdar olmayıb, məqamı boşlarsaq, onda köhnə zamanlar tək maarifimiz də əldən gedər...

III. MİLLİ ŞƏRQİ

Zənnimcə, milli nəğmə də (milli qiymən) zəruri məsələlər cərgəsinə gələ bilər. Səbəbisə məlumdur. Bunu bizim köhnə fəallarımız da beləcə düşünmüşdülər. Zərdablı Həsən bəy "Milli nəğmələr" məc-

muəsini əmələ gətirmişdi. Lakin ümurət qazanan bir şərqi imdiyədək ortalığa çıxmadı. Şərqisiz də bizim siyasi coşğunluğumuz və milliliyimiz ortalığa çıxmır. Hər bir millətin özünəməxsus bir milli nəğməsi var. O nəğmə oxunduqda millət fərdlərinin ruhu ucalır. Mübarizə edib öz xalqını mühafizə etmək xahişi artır. Bizimsə bu nəğməmiz yoxdur.
Odur ki, milli sərxoşluğumuz və nəşəmiz də yoxdur. Düşməni yıxmaq üçün də milli sərxoşluq lazımdır.

Bolqarlar "Şumey murpeçə" nəğmələrini oxuduqda intiqam hissi ürəyi dəlir. "İşşənəvimala Ukrayna" şərqisi adamda elə qüdrətli birlik doğdurur ki, doğrudan da Ukraynanın həmişə diri qalıb səadətdə yaşamağına iman edirsən...

Bizim hələ milli nəğməmiz yoxdur. Biçarə cavanlarımız milli hiss coşğunluğunda bilmirlər nə oxusunlar. Kiyevdə inqilabın əvvəl günləri təntənəli nümayişlər yapılanda tatarlar "...sübhanallah" oxuyurmuşlar. Bizim studentlər isə nəğməsizlikdən nümayişi sükut içində keçiriblər.

Bizə milli şərqi lazımdır. Bu da bu saatın məsələsidir. Milli şərqi bizim yatmış milli hisslərimizi oyadar. Bu şərtlə ki, məzmunu və havası ayıq olsun, oxunduqda "Segah" kimi ruhumuzu boşaltmasın.

Milli tərəqqi əmələ gətirmək üçün şairlərimiz və musiqişünasımız Üzeyir bəy Hacıbəyov cənabları çalışmalıdırlar.

Yaxşı olardı ki, milli komitə və ya mərkəzi "Müsavat" milli şərqi əmələ gətirmək üçün mükafat vəd edəydi.

1917

UKRAYNA MÜSƏLMANLARININ NƏZƏR-DİQQƏTİNƏ

Necə ki, məlumdur, Ukrayna cümhuriyyətində Ukraynada sakin qeyri-millətlərin işlərini idarə etmək üçün generalnı sekretarlar təyin olunub. Polyak, yəhudi və velikorusların işlərinə baxmaq üçün belə sekretarlar var.

Ukraynada müsəlmanlar az olduğu üçün işlərinə baxmağa əlahiddə sekretar təyin olunmayıb. Lakin milli bir idarəyə ehtiyac çoxçoxdur. Bunu nəzərə alaraq Kiyev türk ədəmi mərkəziyyət firqəsi "Müsavat"ın idarəsi Ukrayna millətlər işi generalnı sekretarı Şulgin cənablarına müraciət edib müsəlmanlar barəsində bu qərarı hüsula gətirdi:

Müsəlmanların cəmi dini, milli və mədəni məsələləri Kiyev "Müsavat" idarəsinin vasitəsilə əmələ gəlir.

Deməli, Ukraynada sakin və ya gəldi-gedər müsəlmanların Ukrayna hökumətinə işi düşsə, Kiyevdə türk ədəmi mərkəziyyət firqəsi "Müsafat" idarəsinə müraciət eləyir və idarə vasitəsilə müsəlmanların işləri Ukrayna hökumətinə çatdırılır. Kiyevdə "Müsavat" dəftərxanasının adresi bu:

KİEV JILXOVSKAYA UL. DOM №-51, KV. 1, KANSELYARIYA "MUSAVAT".

Ukraynanın qeyri yerlərində sakin olan müsəlmanların, ələlxüsus, xarkovluların nəzərlərini bu nöqtəyə cəlb edirik. Ümumukrayna müsəlmanlarına xəbər çatmaq üçün qeyri qəzetlərin də yuxarıda yazılanları dərc eləməyi rica olunur.

Kiyevdə "Müsavat" sədri:
Yusif VƏZIROV.
1917

YUSİF VƏZİROVUN MƏRUZƏSİ

Çərşənbə günü təmuzun (iyulun – red.) 29-da axşam saat 7-də türk ədəmi-mərkəziyyət firqəsi "Müsavat"ın Ukrayna səfiri Yusif Vəzirovun parlaman binasında "Müsavat" firqəsinə məxsus ötədə (iqamətgahda – red.) məruzədə bulundu. İbtida Məhəmməd Əmin Rəsulzadə əfəndi məclisi açaraq məruzəçi Vəzirovu məclisə mərufilik etdilər. Vətənindən uzaq olmaqla bərabər vətən mənafeyi uğrunda çalışmaqdan yorulmaq bilməyən Vəzirov axır zamanlarda İstanbula gedəcəkdir. Ibtida ümumi bir konfrans sürətilə məruzə oxumağı təsəvvür

olunurdu. Lakin havalar sıcaq (isti – A.B.) olduğundan ümumi konfrans vermək mümkün olmadı. Bakı komitəsinin qərarına görə rayon nümayəndələrindən ibarət kiçik bir məclisdə kəndisinə həsbi-hal etmək qərara alındı.

Məruzəçi cənabları alqışlarla məqam xitabətə gələrək bir vəcəatə bəyanatda bulundular:

– Acizləri Odessadan çıxarkən topladığım bir çox məlumat bolşeviklər tərəfindən dərdəst (müsadirə – red.) edilən əmlakımla birgə məhv və tələf edildiyindən məaltəəssüf, sizə müfəssəl məlumat vermiyəcəyəm.

Kiyevdə 1909-cu sənədən başlayaraq müsəlman tələbələrinin bir təşkilatı olmuş; o zamandan türk tələbələri çalışmaya başlamışlar. İbtidada

bu təşkilat din və islamlıq adı ilə fəaliyyətə başlayıb. Rusiya müsəlmanlarının hankı təbəqəsindən hankı tərəfindən olursa-olsun Kiyevdəki müsəlman studentlərini öz ətrafına toplamışdı. Sonra müharibənin ibtidasında studentlər arasında siyasi ruhda gizli bir təşkilat düzəldi. Bunun fəaliyyəti o qədər geniş olmayıb, yalnız Rusiya müsəlmanlarına xitabla bir-iki intibahnamə nəşrilə o vaxtkı Rusiya hökuməti əleyhinə çıxmış idi.

1917-ci ildə Ukraynanın bütün şiddət və həyəcan ilə doğulan milli hərəkatı bütün Rusiya daxilində yaşayan qeyri rus millətlərə bir örnək oldu. Ukraynanın milli hərəkatları hər yerə sirayət etməyə başladı. Krımda və sair Ukraynaya yaxın yerlərdə bu hərəkatın təsiri ilə onlarda da Ukraynadakı şiddətlə olmasa da, yenə milli hərəkatlar görünməyə başladı. Böylə bir halda Ukraynada biz özümüzü yalnız gördük. Heç bir hazırlığımız olmadığı halda Rusiya inqilabını qarşılamağa məcbur olduq. Siyasi təşkilata böyük ehtiyac hiss edildi. Ona gö-

rə 1917-ci sənənin noyabrında türk ədəmi-mərkəziyyət firqəsi Müsavatın Kiyev şöbəsni küşad etdik. O zamanlar hər şeyə Ümumrusiya nəzərilə baxdıq. Zata bu zamanın icabı idi. Çünki, o zamanlar biz hələ rusiyalı hesab edilirdik. Son zamanlarda Azərbaycan cumhuriyyəti və istiqlaliyyəti elan olunduqdan sonra bizim qeyri-müəyyən hərəkatımız müəyyən olaraq sərbəst surətdə hərəkət etməyimizə müsaidə verdi. Bu sırada Rusiya daxilində siyasi bir firqə sifətilə deyil, başqa bir yolda çalışmaq lazım gəlirdi. Budur ki, Kiyev müsavat şöbəsi Ukraynada Azərbaycanın siyasi bir nümayəndəliyi təsis etməyi təhdi-qərara alaraq bu gündən etibarən Kiyev şöbəsi bir konsulxana vəzifəsini görməyə başlamışdır.

Sizə məlumdur ki, milli hərəkatlar birinci olaraq Ukraynada başlayıb bütün xırda millətləri öz tərəflərinə çəkməyə başladılar. İbtidai Kiyevdə bir "millətlər qurultayı" dəvət etdilər. Qurultay kəndi qərardadlarını icra etmək üçün bir icraiyyə komitəsi təşkil etdi. Haman icra komitəsinə biz də dörd nəfər nümayəndə verdik. O icra komitəsinin əsl məqsədi bu idi ki, Rusiyada ədəmi-mərkəziyyət fikrini nəşr etsin.

Bu məqsədlə bir jurnal da nəşr edildi. Biz də şu jurnalda tamam ciddiyyətlə çalışmaya başladıq. O vaxta qədər Rusiyada Azərbaycanı tanımazdılar. Azərbaycanı yalnız İranın bir hissəsi bilirdilər. Bizim vəzifəmiz və qayəmiz bu oldu ki, birinci olaraq əvvəl Rusiya əfkariümumiyyəsinə Azərbaycanı tanıdaq. Odur ki, Azərbaycan üçün ibtida bir Azərbaycan xəritəsi cızdıq. O zamandan Azərbaycan haqqında, onun tarixi, ədəbiyyatı, mədəniyyəti, ticarət və iqtisadiyyatı barəsində bir çox məqalələr yazdıq. Yavaş-yavaş Azərbaycan şöhrət tapmağa başladı.

Hər kəsdən artıq Ukrayna Azərbaycana əhəmiyyət verirdi. Onlar deyirdilər, biz hər xüsusda Azərbaycana kömək edəriz. Onların bizdən bir çox ümidləri var idi. Onlar öz əsgərlərinə bir o qədər inanmayırdılar, biz onlara müraciət etdikdə Ukraynanın hərbiyyə naziri Juqofski vəd etdi ki, hər bir barədə o, azərbaycanlılara müavinət etməyə hazırdır. O, bizim nə kibi bir xahişimiz olursa, ona əməl edəcəyini vəd etdi. Bizə iki vaqon verirdilər ki, onunla Ukraynadan istədiyimiz hər qisim şeyləri Azərbaycana gətirək. Odur ki, biz nümayəndə sifətilə o zaman

Bakıya iki tələbə göndərdik. Onlar Bakıya gəldilər. Lakin özlərinin fəaliyyətsizliklərindənmi, yaxud o zaman Bakının bolşeviklər əlinə keçdiyindənmi və yaxud başqa səbəblərdənmi bilməyirəm, bir xəbər

çıxmadı. Ən nəhayət, Gəncədən bir məktub aldıq ki, o zaman Ukrayna hökuməti dağılmış, bolşeviklər orada hökmran olmuşlardı. Təbii böylə bir zamanda heç bir şey yapmaq olmazdı.

* * *

Ukraynanın Rusiya xırda millətlərinə böyük xidməti olmuşdu.
Odur ki, biz daimi surətdə Ukraynanı tuturduq. Hətta məclisi-məbusan seçkilərində bir xitabnamə ilə Ümumukrayna daxilində yaşayan müsəlmanlara tövsiyə elədik ki, səslərini ukraynalılara versinlar. Bunun üçün Ukrayna ilə aramızda bir müddət səmimi dostluq zühur etdi.

Bunun da Ukraynada yaşayan azərbaycanlılara böyük xidmətləri oldu. Evləri hicz etdikdə azərbaycanlılara toxunmadılar, əsləhələrini almadılar. Azərbaycanlılar ilə sair xarici təbəələr kimi müamilədə bulunurdular. "Müsavat" adı da Ukraynada böyük rol oynayırdı. Ukrayna "Müsavat"ı tanıyırdı. Hətta əsgərlər tərəfindən tutulan bir musəlmanı müsavatçı olduğunu bildikdən sonra buraxmışlardı.

Ukraynada "Müsavat" firqəsi bir siyezd təşkil etdi. Siyezd Ukraynanın xariciyyə sekretariatına Ukraynada yaşayan 60-70 bin müsəlman namından müraciət edib onların siyasi və ictimai ehtiyaclarını təmin üçün bir məmurluğun lazım olduğunu qandırdı. Bu məmurluq vəzifəsi "Müsavat" şöbəsinə həvalə edildi. Rəsmi surətdə tanınan "Müsavat" şöbəsinin Rusiya müsəlmanları hərəkatında bir çox xidmətləri oldu.

Krım məsələsi meydana gəldikdə anlaşıldı ki, Ukrayna Krımı ilhaq etmək istəyir. Bu xüsusda etiraz etdik. Krım məsələsində biz laqeyd qala bilməzdik. Çünki bizim proqramımızda açıqdan-açığa Rusiya daxilində yaşayan türk və islamlar üçün məhəlli və milli muxtariyyət tələb etmək var idi. Komitənin qərarı ilə Krıma getdim. Məqsədim orada parlaman çağırıb hökumət təşkil etmək idi. Ayın 4-də Krıma varid olub, səkkizində parlaman küşad edildı. Krım ziyalıları parlaman ətrafına toplandı, milli hərəkat orada böyük bir meydan aldı. "Müsavat"ın fəaliyyəti burada tamam olur. Sizə imdi Krım hərəkatından bir qədər məlumat vermək istəyirəm.

Krımda bir müdiriyyət təşkil edildi. Müdriyyət ibarət idi bir baş müdirdən, ədliyyə, maarif, xariciyyə mövqufat, ədyan kibi beş müdirlərdən ki, hərəsi müstəqil öz idarələrini dolandırmaqda idilər. Bu mü-

dirlər üç yüz binə baliğ olan Krım türklərini idarə ediyordular. Bununla bərabər Krımın bir də məclisi-məbusanı var idi.

Krım müdiriyyəti maddi cəhətdən təmin idi. Zira Krımda mövqufat adı ilə millətin böyük bir sərvəti var ki, onunla bütün Krım türklərinin

mədəni və ictimai işlərini idarə etmək olar. Krımın 89 bin desyatinlik bir mövqufatı var ki, bu böyüklükdə yer tamama abad olub, onda böyük məhsuldar bağlar və binalar vardır.

Krımlılar kəndilərinin nüfuzca azlıqlarını nəzərə almayaraq köhnə tatar xanlığını təşkil etmək fikrinə düşdülər. Hər yerdə olduğu kibi qeyri-müsəlman ünsürlər bunun əleyhində idilər. Hələ Krımda ki, əksəriyyət orada müsəlmanlarda və tatarlarda deyil, krımlılar istəyirdilər ki, Osmanlı şahzadələrindən birisini özlərinə xan təyin etsinlər. O zamanlar Krımda bulunan almanlar da buna müvəffəqiyyət etdiyindən qeyri-müsəlmanlar açıqdan-açığa müsəlmanlar ilə ədavətə başladılar.

Krımlılar bu fikirləri ilə bütün Krımda məskun olanları öz əleyhlərinə qaldırdılar. Halbuki, tatarlar xanlıq təşkil etmək qüvvəsində deyillər. Krımlıları əski rus istibdadı və siyasəti bir hala vəz etmiş ki, məhəlli istiqlaliyyətini idarə edəcək bir halda deyillər.

Krımlılar bizim qan qardaşlarımızdır. Onların səadəti bizim səadətimiz, fəlakəti bizim fəlakətimizdir; biz hər xüsusda krımlı qardaşlarımızı hürr və sərbəst görmək istəyiriz. Lakin burası da etiraf edilməlidir ki, Krımın qüvvəsi qayət azdır. 150 sənədir ki, onlar Rusiya mədəniyyətindən layiqincə istifadə edə bilməmişlər. Krımda yalnız bir nəfər mühəndis, iki nəfər hüquqşünas və beş nəfər doxtur vardır ki, müstəqil yaşamaq istəyən bir millət üçün bu qayət az bir şeydir. Milləti və ümuri-məmləkəti (dövləti – red.) idarə etmək üçün Yevropa elmləri ilə müchəz ziyalılar lazımdır. Orta sinif bir millətin müqəddəratını kəndi əlinə alıb idarə etmək səlahiyyətində deyildir. Idarə üçün çoxlu qüvvələr lazımdır ki, məaltəəssüf, Krımda bu yoxdur.

Bunun üçün onlara söylədim:

– Məqsədim hər xüsusda sizə müavinət etməkdir. Lakin sizdə qüvvə yoxdur. Xanlıq fikrini təqib etməklə yalnız siz başqalarını öz əleyhinizə qaldırırsınız..

Bir də İsmayıl bəy Qaspirinski vətənini siz öylə təsəvvür etməyiniz ki, mədəni bir ölkədir. Bununla bərabər Ismayıl bəyin işdə, dildə, fikirdə birlik şüarı Krımda kəndisinə hazırkı halda bir çox tərəfdar deyil, əleyhdar qazanmışdır. Demək olar ki, bütün Krım tatarları İsmayıl

bəyin əleyhinədir. Onlar deyir ki, Ismayıl bəy doğrudan-doğruya krımlıların fikrini azdırır. O, Turan fikrini təqib etməklə nəinki krımlıları Turanla birləşdirə bildi, bəlkə onları tatarlıqdan da uzaqlaşdırdı. Bunun üçün "Tərcüman" qəzetəsi qapanıb, əvəzinə "Millət" qəzetəsi çıxdı. Krımlılarda qızğın bir tatar cərəyanı var. Bu xüsusda onların bir çox yazıları və mənzumələri var. Bir şeirləri var ki, məaltəəsüf onu fəramuş etmişəm, orada şair qayət həyəcanlı bir surətdə deyir:

– Əgər məni cəhənnəmə də sürüyüb salsanız, mən yenə tataram.

Vaxtımız az olduğundan bu qədərə kifayət edirəm. Bir qədər də Denikin haqqında sizə məlumat verməк istəyirəm.

Almanların zamanında Denikinin qüvvəsi yoxdu. Krım müdiriyyətində sabiq İstanbul səfiri Çarıqov da var idi. Bu, hər nə qədər maarif vəziri idisə də, lakin tamamilə xarici siyasətlə məşğul idi. Çarıqov, Sazanovun fikrinə qarşı bir fikir çıxarmış idi. Bu da ədəmi-mərkəziyyət fikri idi. O, Rusiyanı ədəmi-mərkəziyyət üsulu ilə idarə etmək istəyirdi.

Çünki, sabiqdə Rusiyada yaşayan bütün qeyri-ruslar get-gedə Rusiyadan ayrılmaqda və Rusiya ilə birləşmək istəməməkdə idilər.

Çarıqov bunları yalnız ədəmi-mərkəziyyət üsulu ilə əski Rusiyanı əhya etmək fikrinə düşmüş idi. Bununla bərabər Rusiyanın paytaxtını da Petroqraddan Kiyevə köçürmək fikrində idi. Bununla da tam şiddətlə Ukraynada qaynamaqda olan milliyyət fikrinin əleyhinə çıxmaq istəyirdi.

Alman vəkilləri ilə tatar vəkilləri buna etiraz etdilər. Çarıqov ən nəhayətdə Denikini dəvət eylədi. Denikin Krıma gəldikdə şiddətli fəaliyyətə başladı. Onların fikri bu idi ki, hər zaman Rusiyaya sadiq qalan tatarlardan və müsəlmanlardan qüvvə toplayıb bir ordu təşkil etsinlər. Bu ordu vasitəsilə Rusiya inqilabına bir xatimə çəksinlər. Krımın əsilzadələri, varlıları Denikinin ətrafına toplaşdılar. Tatarlardan əsgər cəm etmək istədilər.

Bunun üçün bir qurultay dəvət edib, onunla bütün Krımın fikrini bilmək xahişində bulundular.

Qurultay açıqdan-açığa Krım müdiriyyətinə etimad etdiklərini, yalnız müdiriyyətə inanıb, onun qərarlarına əməl edəcəklərini bildirdi və əsgərlikdən imtina etdi. Bundan sonra Denikin qurultayın əleyhinə çalışmağa başladı. Bu tarixdən başlayaraq şiddətlər və təzyiqlər icra edildi. Bu hərəkət yalnız Krım tatarları əleyhinə deyil, bütün Rusiyada zühur edən milliyyət məhsullarının əleyhinə idi. Denikin və onun başı-

na toplaşanlarda yanlış bir zehniyyət vardı. Onlar Rusiyanın bütün inqilabını təsadüfi bir şey bilirdilər. Onun üçün də bunu yatırıb, əski Rusiyanı bütün əzəmət və həşəmətilə yenidən əhya etmək istəyirdilər.

Qəribədir ki, bunu da hər kəsdən artıq Rusiyada milliyyət cəhətincə əzilib təzyiq edilməkdə olan tatarların və müsəlmanların əli ilə yapmaq istəyirdilər. Budur ki, bir müsəlman korpusu təşkili fikri doğdu.

* * *

Necə ki, məlumunuzdur inqilabın əvvəllərində hər yerdə əsgərlərin arasında təşkilat düzəlməyə başladı. Bununla bərabər, bir də milli polklar vücudə gəldi. Bu cümlədən olaraq Rumıniya sərhədlərində bulunan tatar əsgərlərinin də arasında bir təşkilat əmələ gəlmişdi. Krım tatarları bundan istifadə etmək istəyirdi. Hətta o zaman Kiyev müsavatçıları istəyirdilər ki, bu əsgərlərin bir qismini Qafqaza göndərtsinlər.

Sonra anlaşıldı ki, bu milli tatar polkunun bir də iç üzü varmış. Bu təşkilatı məşhur Kaledin düzəldirmiş. Kaledinin fikri bu idi ki, bu əsgərlər vasitəsilə Rusiyanın cənubunda qaynamaqda olan milliyyət fikrinə ağır bir zərbə vursun. O zaman altı yüz nəfərədək rus zabiti Krıma toplanmışdı.

Onların fikri bu idi ki, ibtida Krımdan əsgər toplasınlar. Sonra Şimali Qafqaz və Azərbaycandan əsgər cəm edib bolşeviklər ilə müharibəyə başlasınlar. Onlar deyirdilər ki, rus soldatının əxlaqı pozulmuş, bolşeviklik fikri onlara sirayət etmişdir. Budur ki, rus soldatlarına etibar etmək olmaz. Müsəlmanların isə sədaqətlərinə şübhə yox idi. Bu fikirdən onlar çəkinməyirdilər. Əl altından Kaledin və onun həmməsləkləri iş görürdülər...

Zahirdə isə buna milli bir rəng verilirdi. Hətta bu barədə tatar ziyalılarından bir neçəsini İstanbula göndərdilər. Türklərin də hüsnü-təvəccöhünü təşkil edilmək istənilən müsəlman qol ordusunun əleyhinə qalxızmaq istədilər. Sonradan bu işin üstü açıldı. Budur ki, müvəffəq olmadılar.

Qol ordu dağıldı. Bütün silah və ləvazimatı-hərbiyyə Denikinə həvalə edildi. Bu uğurda sərf edilən altı milyon para da hədər getdi.

Bununla vahid rusiyaçıların Krımdakı planları baş tutmadı.

Sizə bir qədər də bolşeviklərdən məlumat vermək istəyirəm. Bən birinci dəfə olaraq bolşevikləri Kiyevdə görmüşdüm. O zaman bolşe-

viklərin yeni iş başına keçərək Rusiya ömrü-idarəsini əllərinə alan vaxt idi. Ukraynaya hücum edib onların təşkil etdikləri milli hökuməti dağıtmışdılar. O vaxt bolşeviklər Kiyevdə yapmadıqları dəhşət buraxmadılar. Üç-dörd gün içərisində yalnız Kiyevdə beş min nəfərdən artıq adam qırdılar. Şəhərin küçələrində qan adəta su kibi axırdı. Kimsəyə fərq qoymayır, müqəssir və günahsızı yeki digərindən ayırmayırdı. Hətta məktəb çocuqlarınadək belə qırırdılar. İyirmi beş günə şəhərdə qalmaqla Kiyev kibi bir şəhəri xarabazara döndərdilər.

Sonradan nemes qüvvəsi Kiyevə gəldiyindən çəkilib getdilər.

Tale məni ikinci dəfə də bolşeviklərə rast gətirdi. İki ay yarım bundan əvvəl mən bolşevikləri Odessada gördüm. Bu kərrə bolşevikləri büsbütün təsəvvürümün xaricində tamaşa etdim. Mən bolşevikləri Kiyevdə gördüyüm kimi təsəvvür edirdim. Bolşevik əsgərlərini bir taqım cındır əlbəsəli nizamsız əsgər kütləsindən ibarət bilirdim. Lakin yanıldığımı anladım. Bu kərrə Odessanı işğal edən Qırmızı Orduda bir intizam müşahidə etdim. Bolşeviklər adəta burjuy misalı yeni və təmiz əlbəsə ilə məlbəs idilər. Bununla bərabər Odessada bolşeviklərin vürudundan əvvəl, hökumət dabrovollarda olan zaman bir hərc-mərclik ar idi. Şəhərin həyatı büsbütün alt-üst olmuş, hər zaman, xüsusa gecələr kefli əsgərlər güllə atır, xalqın hüzuri-rahatlığını pozurdular. Əksəra soyğunçuluqlar vaqe olurdu. Şəhərdə yek digərinə zidd iki dürlü tərzi-həyat var idi. Birisi kefdə, işrətdə son dərəcə ifrata varmış, digəri səfalətdən, aclıqdan son dərəcə təfərrüata uğramışdı. Hər küçə başında acından yerə yıxılıb qəşş edən qadın və çocuqlara əksəra təsadüf edilirdi. Adəta bu, bir adi şey olmuşdu. Bununla bərabər hərneçə gündən bir qəzetələrdə səfil bir ailənin tamamilə acından qırılıb öldüyü və kimsənin ondan xəbəri olmadığı oxunurdu. Aclıq və səfalət bu dərəcəyə çıxdığı bir halda digər tərəfdən qənnadı dükanlarında gözəl şəkərləmələr, restoranlarda ləziz xörəklər və yeməklər öz qaydası ilə satılır. Şəhərin ikinci sinfi – zəngin və sərvətdar qismi əbəda öz istirahətini pozmayırdı. Şəhərin bir hissəsi işsizlikdən və yoxsulluqdan qırılır, tələf olur, digər hissəsi hər cür klublarda, əyləncə yerlərində eyş-işrətdə milyonlar sərf edirdi. Görülən acı və səfalətli mənzərələrdən əbəda mütəəssir olmayırdı. Budur ki, yek-digərinə düşmən, heç bir təriqlə barışmayan iki cərəyan müşahidə edilirdi. Bu da adi bir həyat surətini almışdı. Mən bolşevikliyin nə olduğunu, onun qüvvətini o zaman hiss etdim. Hiss etdim ki, Rusiyada bolşevizmi do-

ğuran Rusiyanın tərzi-həyatı olmuşdur. Bolşevizmin qüvvəti Rusiyadakı ədalətsizlikdən nəşət etmişdir.

Çünki səfalətin müdhiş qaranlıqları içərisində əzilən, inləyən və can verən böyük bir kütlənin yeganə bir ümidi düşdüyü fəlakətdən xilas olmaq üçün yalnız bir çarəsi var idi. Yəni özünün xilası, nicatını yalnız bir şeydə görürdü. O da bolşevikdən ibarət idi.

Mən, əsasa, bolşevizmə ziddəm. Bolşevizm heç bir millət üçün, xususa, bizim kimi, əsəratdən yenicə xilas olmuş millətlər üçün heç bir səadət gətirməz. Bolşevizmin sonu hərc-mərclikdir. Biz gərək bolşevizmin öz vətənimizə gəlməsinə bütün ciddiyyətimizlə mane olaq. Bunun qarşısını almaq üçün bolşevizmi doğura biləcək ədalətsizliyi məmləkətimizdən rəf və dəf etməliyiz. Bolşevizm aclıqdan və səfalətdən çıxır. Bunun üçün millətimizin əksəriyyətini təşkil edən fəhlə və kəndçi sinfinin iqtisadi həyatını yoluna qoymalı, topraq məsələsini onlara əlverişli bir surətdə həll edilməlidir.

Odessada, ərz etdim ki, bolşeviklikdən əvvəl bir hərc-mərclik müşahidə edilir, ehtikar gündən-günə şiddətlənirdi. Bazarda açıqdan-açığa pul alış-veriş edilirdi. Bolşeviklərin vürudundan sonra şəhərin intizamsızlığına bir xitamə çəkildi. Ehtikarçılıq ləğv edildi. Bolşeviklərin bir nöqsanı oldu ki, o da çörəyə məzənnə qoymalarıdı. Onlar elan etdilər ki, çörək gərək üç manatdan satılsın. Bu elan çörəyin tamamilə qəhətliyinə səbəb oldu. Hətta girvənkəsi yüz manata çörək axtardım, tapa bilmədim.

Şəhərdə zahirdə nizam var idi. Güclə xalqdan bir şey almayırdılarsa da, lakin tədriclə hər şeyi milliləşdirməyə başladılar.

Odessada bolşeviklərin süqutuna başlıca səbəb onlarda məruf olan (den bedneta) füqəra günü oldu. Məlumunuzdur ki, bolşeviklər ayda bir kərə (füqəra günü) adı ilə kasıblar faydasına ev əşyası və əlbəsə toplayırlar. Hər kəsin iki dəst əlbəsəsi ayaqqabı və sairəsi var isə birisini alırlar. Odessada dəxi böylə bir gün tərtib verdilər. Birinci olaraq Puşkin küçəsindən yığmağa başladılar. Bu küçə bir o qədər də burjuy küçəsi deyil. Arabaları o küçəyə sövq edilərək o günə məxsus seçilmiş şəxslər evlərə soxularkən məhlə əhlində onların əleyhinə bir həyəcan başladı. Ən nəhayəti arvad, uşaq, gənc və ixtiyar ağac ilə, daş və isti su ilə, hətta balta ilə onlara hücum etdilər. Şiddətli bir çarpışma vaqe oldu.

Nəhayət, Den Bednatanı o gün ləğv etdilər. Sonradan şəhərdə bolşeviklərin əleyhinə, o cümlədən yəhudilərin əleyhinə şiddətli fitnəa-

mizə şayələr nəşr edilməyə başladı. Guya, Məruf Qriqorev bir yəhudi talanı salmaq fikrində imiş. Bu fikri bilən Odessanın komissarı ki, kəndisi də yəhudi idi, bunun qarşısını almaq qəsdilə bu işi görürmüş.

Bolşevikləri yıxmaq üçün vahid rusiyaçılar rus əfkari-ümumiyyəsini yəhudilərin əleyhinə qaldırırlar. Mən şəxsa yəhudi əleyhinə deyiləm. Lakin burası var ki, bolşevik komissarlarının 99 faizi yəhudidir. Sağlar böylə rəng verirlər ki, yəhudilər Rusiyadan intiqam alırlar.

Məşhur rus ədiblərindən Dostayevski öz dnevnikində demiş ki, Rusiyanı yıxacaq bir amil olacaqsa, o da yəhudilər olacaq.

Sağlar bolşevikliyi yəhudiliyə istinad verirlər. Bundan ötrü əllərində bir çox dəlillər də var. Əvvəla, bolşeviklərin rəsmi nişanlarını yəhudiliyə istinad verirlər. Məlumunuzdur ki, bolşeviklərin nişanı qırmızı yıldızdır. Budur ki, sağların qəzetələri açıqdan-açığa bolşevikliyi yəhudi balası adlandırırlar. Bir də bolşeviklər ümumi dinlərin əleyhinədirlər. Onlar deyirlər ki, din millətlərin tiryəkidir.

Moskvada məruf kəlisaların birində bulunan məşhur bir IKONA
İsanın rəsminin üzərində cəli xətt ilə yazmışlardır: “Din millətlərin tiryəkidir. Onları qəflət uyğusunda yatırmaqdan başqa bir xidməti yoxdur”.

Habelə, hər kəs evində Səlib və İsanın rəsmini saxlasa, hökumətə müəyyən bir xərc verməlidir. Bununla bərabər ruslarda bir etiqad var idi; müqəddəslərin meyiti hər zaman sağ və salamat qalar, onlar başqa adi insanlar kibi çürüməzlər. Bolşeviklər bunun yalan olduğunu isbat etmək üçün bütün Rusiyada bulunan müqəddəslərin qəbirlərini camaatın gözü qabağında açıb, bunların yalan olduğunu aləmə isbat etdilər. Budur ki, ruslar bolşevikləri xristianlığın düşməni kimi tanıyırlar.

Hətta bolşeviklər ilə mübarizə edən Kolçak orduları müqəddəslərin adları ilə adlanmışlar. Onların başında rəhbanlar durmuşlardır.

Bu gün dindar Rusiyada dinlər tamamilə qaldırılmış. Kəbin və talaq məsələsini də ləğv etmişlərdir. Onlar tamam şeyləri əsasdan uçurub, yerində istədikləri kibi yenidən bir şey bina etmişlər. Onlar hər şeyə ancaq zəhmət nöqteyi-nəzəri ilə baxırlar.

1919

XARİCİ SİYASƏTİMİZ

I. QÜVVƏLİ İSTİQLAL

Dünyada hər bir dövləti təşkil edən üç amildir: torpaq, millət və hakimiyyət. Bu gün Azərbaycanda bu üç amil mövcud olduğu üçün Azərbaycan müstəqil bir məmləkətdir. Lakin məmləkətlər arasında fərqlər çoxdur. Məsələn, köhnə Avstriya-Macarıstan dövləti ilə Almaniyanı müqayisə edək. Tövri-idarəsindən başqa bu iki dövlətin əsl mahiyyətində böyük fərqlər görünür. Almaniyanın tam əksəriyyətini təşkil edən alman milləti olduğu halda, Avstriya-Macarıstanda cürbəcür millətlər yaşayırdı. Onun üçün səmaməti-mülkiyyə Almaniyada Avstriya – Macarıstandan çox idi.

Ola bilər ki, bir məmləkətdə daxili musalimət çox millətlərin vücudu ilə də təmin olunsun. Bu halı Şimali Amerika cəmahiri-müttəhidəsində görürük. Dürlü millətlər vətəni olan bu Cümhuriyyət ən sağlam bir idarəyə istinadən xoşbəxt yaşayır və xalqının rahat və istirahətini təmin edərək, rəğbətini qazanır, bunun səbəbi isə uca bir idarə, gözəl bir qanundur.

Bir tərəfdən ədalətli bir idarə, o biri tərəfdən qüvvətli bir mədəniyyət məmləkətdəki bütün millətləri yoğurub, bir qəlibə salır. Hər kəs ümumi vətənini sevir və onun mədəniyyətini qeyri-məcburi bir halda alır.

Türk idarələrində ən qədimdən bəri istila olunmuş millətlərə qarşı bir ədalət yeridilmişdir: heç bir millətin daxili işinə qarışılmamış.

XII əsrdə qərbə doğru axıb gələn tatar qüvvələrinə nə qədər vəhşilik isnad etmək istəmişsələr də, bitərəf müvərrixlər tatarların da idarəsinin ədalətli olduğunu inkar etməyirlər. Neçə əsr Rusiyanı hökmü altında saxlayan tatar rus millətinin daxili işlərinə qarışmadı; dini və milli məsələlər tatar hakimiyyətindən kənarda qaldı.

Eyni halı Osmanlı idarəsində də görürük: ermənilər, bolqarlar, rumlar, qreklər, serblər və başqaları milli və dini məsələlərində asudə idilər. Ancaq Türkiyə Amerika kimi qəvi bir mədəniyyətə malik olmadığı üçün əlinin altındakı millətləri yoğurub bir şəklə sala bilmədi, Türkiyədə sakin bütün millətlər ümumi məmləkət mədəniyyətindən ayrılıb, öz milli mədəniyyətinin inkişafına çalışdılar. Türkiyədən fay-

dalanmaq istəyən avropalılar da bu millətləri tutmağa başladılar. Avropa mədəniyyəti Türkiyəyə ən əvvəl məhkum millətlər vasitəsilə girdi. Müstəbid sultanlar, cahil "alimlər" hürufat müşkülatı, şərq tənbəlliyi Avropa mədəniyyətinə tərəfi-müqabil gəldisə də, yalnız müsəlmanlar bu mədəniyyətdən məhrum qaldılar. Xristianlar isə tərəqqi etdilər. İş bu yerə gəldi ki, xristianlar çürük türk idarəsindən bezməyə üz qoydular. Türkün münəvvər qismi də bunlara qoşulub inqilab doğurdular. Əski Rusiya dövləti də çox millətlərdən ibarət idi, burada əksəriyyət təşkil edən velikoruslardan başqa, finlər, estonlar, latışlar, litvalılar, polyaklar, beloruslar, moldavanlar, ukraynalılar, gürcülər, ermənilər, türklər, tatarlar və yəhudilər də var idi. Rusiya ən fəna bir idarəyə malik idi. Tək velikoruslar hakim millət sanılırdı. Başqaları isə məhkum idilər. Hakim millət öz dini və millətini məhkum millətlərə cəbran istibdad təriqi ilə qəbul etdirmək istəyirdi.

Məhkumlar da bunu duyaraq rus millətinə alışmaqdan çəkinirdilər. Rus idarəsi öz mədəniyyətini sərf etməkdə də xəsislik edirdi. Məhkum millətləri həmişə qaranlıqda saxlamağa çalışırdı. Bunun üçün məhkumlar ilə hakim arasında daimi bir uçurum olduğu hiss olunurdu. Böyük inqilab pərdəni qaldırdı və uçurumu bütün aləm gördü. Uçurumun bu tayında bir Azərbaycan da meydana çıxdı. Bu məmləkət mövhum bir ölkə, süni bir qitə deyil. Bura tarixdə ad qoymuş və istiqlaliyyətini neçə əsr əvvəl qaib etmiş bir dövlətdir. XII əsr miladidə Atabəy Şəmsəddin Eldəniz indiki Qafqaz və Iran Azərbaycanını bitişdirdi, bir məmləkət şəklinə saldı. Atabəy Nəsrəddin Əbubəkr bin Cahan Pəhləvan Aranda, yəni indiki Qafqaz Azərbaycanında və əsl Azərbaycanda 20 il səltənət sürübdür. Bu günkü Azərbaycan ən sağlam vücudə malikdir. Burada tam əksəriyyəti təşkil edən Azərbaycan türküdür.

Bu millətin özünəməxsus bir mədəniyyəti var. Mədəniyyətimiz o qədər qüvvətlidir ki, bizdən başqa qonşularımızı təsiri altında saxlayıb və saxlamaqdadır; dilimiz Qafqazda, Xəzər arxasında və Şimali İraqda ümumi bir dildir. Bu dildə Dağıstan qövmləri, ermənilər, bir çox gürcülər və rus mühaçirləri danışırlar; musiqimizdən və teatromuzdan qonşularımız da faydalanırlar.

Milli operalarımız vətəndən dışarıda da şöhrət tapmağa başladı...

Bu hallar mədəniyyətimizin qüvvətliliyinə dəlildir. İndiyə kimi biz məhkum idik. Lakin mədəniyyətimiz hakim idi. Yəni qeyri-məcburi olaraq qonşularımız arasında yayılırdı. Bundan sonra ehya olunmuş istiqlalımız sayəsində mədəniyyətimiz geniş meydan alacaqdır.

Böyük türk irqinə mənsub olduğumuz üçün türk idarəsinin ədalətini saxladıq. Bu gün vətənimizdəki xırda millətlər bizim ilə bərabər yaşamadadırlar; bunların hüququ heç bir qanun ilə təhdid olunmayıb və olunmayacaqdır. Ədalət hökmranlığını daimi surətdə təmin etməyə çalışacaqdır.

II. BEYNƏLMİLƏL ƏLAQƏ

Avropa mədəniyyəti yer üzünə yayıldıqca millətlər arasında sırf bir mədəni yavuqluq ehtiyacı duyuldu. Bu yavuqluq insanların bir-birindən asılı olduğunu qarşı ehtiyac və qarşı fayda məsələsini doğurdu. Millətlər və dövlətlər bir-biri ilə əlaqələrini qanuni şəklə salmağa çalışdılar.

Beynəlmiləl hüquq meydana çıxdı. Dövlətlər faydalarını nəzəri- etibarə alaraq, hər kəs beynəlmiləl qanunu öz xahişi ilə tanımaq istədi. Dövlətlər arasında əlaqə başlandı: elçilər göndərdilər, müahidələr əqd olundu, məmləkət qapısı əcnəbilərə açıldı, mənəvi və maddi məhsullar mübadiləsi başlandı.

Böyləcə sırf bir fayda və mədəni məsələlərdən doğaraq bir qanun əmələ gəldi və bu qanunu tanımaq ilə millətlər bir-biri ilə əlaqəyə girişdilər.

Lakin beynəlmiləl əlaqəyə girənlərin hamısı hüquqda bərabər olmadılar. Bunun üçün də şərtlər lazım gəldi. Əvvəlcə sırf xristian dövlətlərinə aid olan bu əlaqə və hüquq sonra başqalarının da malı olmağa başladı. Paris konqresinin yeddinci maddəsi Osmanlı dövlətini "Avropa konserninə" qəbul etməklə hüquqda başqa dövlətlərlə bərabər etməli idi. Lakin bir çox maniələr göründü. Şərq üsulu ilə idarə olunan bir məmləkəti avropalılar öz aralarında həmhüquq olaraq görməyi istəmədilər. Beynəlmiləl əlaqə rabitəyə tam hüquq ilə girməyi üçün məmləkətdə islahat lazım idi. Ələlxüsus qanunları və məhkəməni düzəltməli idi. Şəriət işlərini mülki qanunlardan aralamalı idi.

Türkiyə bu barədə ağır tərpəndiyi üçün Avropa Paris əhdnaməsinə əməl etmədi və Türkiyənin bütün hüquqlarına təcavüz etməyə başladı.

Yaponiya belə səbr etmədi. Avropa təcavüzündən qurtarmaq üçün Avropanın fənn və idarəsini əxz etmək lazım gəldiyini anladı. Keçən əsrin ortasından başlayaraq islahat başlandı və bununla bərabər əcnəbilərə qapıları açdı və əhdnamələrlə əlaqələrini təmin etdilər. Qanun-

lar və məhkəmələr islahı dünyada Yaponiyanın köhnə vəziyyətini dəyişdi. Çin-Yapon müharibəsi yaponların qüvvət və qüdrətini aləmə bildirdi. Və bundan sonra böyük dövlətlər yaponların hüququnu tanımaq istədi. Vekonsulus məhkəməsi kimi məmləkətin daxili işinə qarışan şeylər ləğv olundu. Halbuki, Iranda və Osmanlıda vekonsulus məhkəməsi son vaxta kimi davam etmədədir.

Keçək Azərbaycana...

Azərbaycan birinci islam məmləkətidir ki, qanunlarının və məhkəməsinin islaha ehtiyacı yoxdur. Burada rusun Avropada məşhur qanun və məhkəməsi daha da ədalətli bir şəklə qoyuldu. Millətlər, cinslər və siniflər bərabərliyi balfel tanındı.

Azərbaycan birinci islam cümhuriyyətidir. Demokratik bir idarəs ilə islam tarixinə yeni səhifələr əlavə edir. Əcəba tam mənası ilə bir Avrona tərzi-idarəsində təşəkkül edən bu dövlətin beynəlmiləl münasibətdə vəziyyəti nə təhər olacaq? Bu hamımızı maraqlandıran bir məsələdir.

Təbiidir ki, sağlam bir vücuda malik, ədalətli bir idarəsi, məclisiməbusanı, gözəl qanunu və Avropa üsulunda məhkəməsi olan dövlət beynəlmiləl münasibətdə avropalılarla həmhüquq olmalıdır.

Ölkəmizin sərvəti çoxdur. Faydalanmaq istəyən dövlətlər bizə əl uzatsınlar, müahidə yapaq. Bizim də bir çox ehtiyacımız var. Bunları da dəf etmək üçün xaricə müraciət edəcəyik.

III. ELÇİLƏR GÖNDƏRMƏLİDİR

Beynəlmiləl münasibətdə bulunmaq üçün dövlətlər bir-birinə elçilər (səfirlər) göndərirlər. Bu adət qədimdən var idi. Vestfal sülhündən sonra ümumiyyət qazandı. Elçi onu göndərən məmləkətin bütün hakimiyyətini təmsil etdiyi üçün əhəmiyyəti çox böyükdür. Onun üçün elçinin hörmət və hüququ da böyükdür. Onu tutmaq, axtarmaq kimi həqarətamiz şeylər yasaqdır. Çünki elçiyə qarşı bəslənən hisslər elçi təmsil etdiyi dövlətə qarşı sanılır. Elçi göndərmək məmləkətin istiqlaliyyətini göstərir. Doğrudur, nimmüstəqil məmləkətlərin də elçi göndərməsi tarixdə görünmədədir. Məsələ, köhnə Bolqariya Türkiyədən asılı olduğu halda, səfir göndərmək hüququna malik idi. Bu günkü İran, Çin və Siyam dövlətləri elçi göndərirlər. Deməli, elçi göndərmək mədəni və qeyri-mədəni millətlər arasında adətdir.

Avropa müharibəsindən sonra meydana çıxan yeni dövlətlər elçilər göndərməklə istiqlaliyyətə birinci addımlar atdılar. Məsələ, Ukrayna ilə Gürcüstan bu yolda çox ciddiyyət göstərirlər. Hətta, balaca Krım da Almaniya istilasından özünü qurtarmaq üçün İstanbula elçi göndərdi və alman qəsbkarlarını əmri-vaqe qarşısında bulundurdu.

Türklərlə dostluğu pozmağa cəsarət edə bilməyən almanlar qəsb nəşəsini pozdular. Yeni vücuda gələn məmləkətlər elçi göndərməklə beynəlmiləl əlaqəyə girişirlər. Özlərinin müstəqil yaşamaq meyllərini və istedadlarını göstərirlər. Bu gün gürcü siyasi müməssilləri hər bir yerdə var. Bunlar Gürcüstanın tam mənası ilə istiqlala müstəhəqq olmalarını aləmə bildirirlər. Elçi hökumət yanına göndərilir. Elçidən başqa bir də şahbəndər (konsul) göndərilər. Konsulun sayı bir məmləkətdə birdən artıq da ola bilər. Konsulun sayı ehtiyaca bağlıdır.

Məsələ, Ukraynada Azərbaycan təbəələrinin tüccari və başqa ehtiyaclarını dəf etmək üçün üç konsul kifayət edər; Kiyevdə, Odessada və Xarkovda, elçi isə bir nəfər olmalıdır.

Bir məmləkətdəki konsullar elçiyə tabedirlər və onun təlimatı ilə iş görürlər.

Azərbaycan hələ bir çox yerlərə elçi və konsul göndərməyib. Halbuki, ehtiyac çox-çox böyükdür. Indiki zamanda vətənlərindən ayrı düşmüş bir çox təbəələr var ki, konsul köməyinə möhtacdırlar. Yollar xarab, evdən pul gətirmək mümkün deyil. Sonra, himayə lazımdır ki, təbəə etinasızlıq zəhmətini çəkməsin. Indi başqa məmləkətlərdən viza alıb Qafqaza qayıtmaq üçün minlərcə manatlar və aylarca vaxt itirirlər. Bu da xalqımızı incidir və ticarətimizi öldürür. Bu gün bir çox təbəələrimiz var ki, Istanbuldan çıxıb, vətənlərinə qayıda bilmirlər. Əvvəla, viza ala bilmirlər; ikinci, pulları yoxdur ki, gəmiyə iki-üç min manat versinlər. Istanbuldakı təbəələrimizin çoxları əcnəbi ölkələrində siyasi qarışıqlardan zərər görmüşlərdirlər.

Xaricdə olan təbəələrimizin çoxu dil bilmir və vətənə qayıtmaq üçün izni bilmir nərədən alsın. Onun üçun xırda məmurlar çəngəlinə duşüb, böyük rüşvətlər vermək məcburiyyətində bulunur. Elçilər və konsullar göndərməklə həm vətənimizi tanıdarıq, həm də təbəələrimizin zəhmətlərini azaldarıq. Bundan başqa, bir ticarət məsələsi də var. Konsul təyin olmasa, ticarət genişlənməz. Çünki bazarın övzaini xəbər verən, milli ticarəti himayə edən konsul olur. Konsul olmasa, ti-

carət kor və başsız olar. Məsəla, İstanbul bazarından xəbərsiz bir çox azərbaycanlılar oraya neft gətirdilər. Qrek tüccarı bunu eşidərək, sindikat yapdılar və Qafqaz neftini almamağa qərar verdilər. Təbiidir ki, böyləliklə, malı qiymətdən saldılar.

IV. İSTANBUL SƏFARƏTİ

Beynəlmiləl hüquq tarixi göstərir ki, bir məmləkət yaşamaq üçün özunü yaşatmalıdır və dışqarıdan təsdiq gözləməməlidir.

Böyləliklə, Bolqariya meydana çıxdı. Türkiyənin muxtariyyətli bir hissəsi olan bu ölkə hər yerə səfirlər və vəkillər göndərə-göndərə özünü aləmə tanıtdırdı. Biz də bu yolu tutmalıyıq.

Paris müzakirəsində davam etsin. Biz də məmləkətimizin möhkəmliyinə çalışaq. Daxili nizam və islah ilə bərabər xarici işləri də yoluna qoymalıyıq. Bu gün bizim elçilərimiz Rusiyadan ayrılan dövlətlərdən başqa qeyri yerlərdə yoxdur. Halbuki, bizim istiqlal məsələsi Qərbdə muzakirə olunacaq və Qərbdə də elçilər bulundurmalıdı. Elçi təyin olunacaq paytaxtlardan bu gün əhəmiyyəti ilə birinciliyi qazanan İstanbuldur.

İstanbul bu gün müttəfiqlər qüvvələrinin toplandığı bir nöqtədir.
Burada bütün yer üzünün mətbuat nümayəndələri mövcuddur. Burada bizdən başqa yeni təşəkkül etmiş dövlətlərin və müttəfiq məmləkətlərin siyasi muməssilləri də var...

Deməli, aləm İstanbuldadır: siyasi işlərin ucu, əfkari-ümumiyyənin gözü... hamısı burada. Bu səbəbdəndir ki, müstəqil yaşamaq istəyən polyaklar, ukraynalılar, gürcülər və başqaları İstanbulda elçilər bulundururlar; bunun üçün də rumlar (yunanlar), ermənilər və qeyriləri burada firəng dilində qəzetlər çıxardıb, öz milli dərdlərini ümumə bildirirlər. İstanbulda yapılan gurultular Parisə çatıb, təsirsiz olmur.

Sabiq Rusiyada yaşayan millətlər istiqlal imtahanının bir hissəsini burada Avropa qarşısında verməlidirlər.

Biz hamıdan çox bağırmalıyız, özümüzü tanıtmalı, fikrimizi tərvic etməliyiz, bu yoldakı müvəffəqiyyətimiz bizə müvəffəqiyyətlər qazandırar.

İstanbulun başqa cəhətlərdən də bizə əhəmiyyəti böyükdür, bu gün İstanbul Bakı mədənləri məhsulları üçün yeganə bir xarici bazardır. Bundan əvvəl Bakı nefti şimala gedərdi. Şimal indi bağlı olduğu

üçün nefti bir ayrı nöqtəyə daşımalıdır. İstanbuldan başqa əlverişli bir yer yoxdur. Lakin İstanbul bazarını qazanmaq üçün orada ticarət vəkilləri bulundurmalıdır ki, bazarın ovzaini tez-tez Bakıya xəbər versin. Azərbaycan tüccarı birinci dəfə Istanbula neft gətirdilər, zərər gördülər. Səbəb budur ki, məhəlli rumlar toplanıb, sindikat yapdılar və Bakı neftinin qiymətini saldılar.

Halbuki, İstanbulda səfarətimiz, konsulumuz olsa, məhəlli Azərbaycan tüccarlarından təşkilat yapıb, rum sindikatının qabağına çıxa bilərdi. Sonra ticarətimizi qüvvətləndirmək üçün İstanbulda iskladlar icarə edib, tüccarlarımıza müftə verər ki, Amerika nefti ilə rəqabət edə bilsinlər. Bizim üçün neftimizin İstanbul bazarında asanlıqla müştəri tapması birinci dövləti məsələdir. Bu məsələnin qolaylıq ilə həlli gələcəkdəki İstanbul elçimizdən asılı olacaqdır.

Maarif işlərimiz bir nöqtədə duran kimi görünür. Səbəb budur ki, müəllimlər azlığı hiss olunur. Sonra, kitab yoxluğu da görünür. Maarifi yoluna qoymaq üçün İstanbul elçimiz müəllim və müəllimələr hazırlamalıdır. Kitablar çap etdirməlidir. İstanbula göndərilən bir çox tələbələrimiz geri qayıtdılar. Səbəb bu oldu ki, orada heç bir yerdən gömək görmədilər. Istanbulda leyli (pansion) açmalıdır ki, Azərbaycandan gələn tələbələrimiz istirahət ilə yaşayıb, təhsil edə bilsinlər.

Bunlar hamısı böyük dövləti məsələlərdir, hökumətimiz pullar təxsis etməlidir ki, bu işlərin hamısına əncam verilsin.

Bir millət olaraq müstəqil bir məmləkətə malik olmaq istədikdə bizə yazılı tariximiz su kimi zəruridir. Istanbul kitabxanalarında bir neçə adamlar bulundurmaqla bizə dair böyük məlumatlar toplamaq olar...

İşlər çoxdur. Adamlar göndərməlidir, çalışmalıdır.

Bunlardan başqa, təbəələrimizin himayəsinə çalışmalıyıq. Azərbaycanın siyasi müməssili olaraq və bolşevik qəzasına uğrayaraq İstanbulda çox pulsuzluq müşkülatı çəkdim. Halbuki, səfarət möhürü ilə sənədlər verib pul almaq imkanı var idi. Bu imkanla yenə çətinliyə düşdüm. Əziyyətlər çəkdim. Halbuki, təbəələrimiz xaricdə on qat zəhmətlər çəkirlər. Bolşeviklikdən zərərlər görmüş böyük tüccarlarımız belə İstanbulda qalıb, çox vaxt yol kirayəsinə möhtac olurlar. “Viza” müşkülatı daha da çox...

Bu məsələlərin hamısını həll etməli. Təbəələrimizin istirahətini lazımınca təmin etməliyik.

V .ƏFKARİ – ÜMUMİYYƏ

Dünyada ən böyük qüvvələrdən birisi əfkari-ümumiyyədir. Topdan tüfəngdən və zirehlilərdən də bu qüvvə böyükdür. Odur ki, hər kəs istər ki, bu qüvvəni əldə saxlasın. İstər məhkum, istər hakim. Hökumətlər rəsmi qəzetlər nəşr etməyi ilə və ajans teleqraflarla əfkariümumiyyəni özlərinə çəkmək istəyər. Məhkum millətlər bu yolda daha da çox çalışırlar. Əfkari-ümumiyyəni qazanmaq üçün məhkumların hərəkəti bəzi vaxt qəribə hallar alır.

Avropa şəhərlərindən birində bir ermənin bir çocuğa güllə atdığını qəzetədə oxumuşdum. Ermənidən cinayətin səbəbini soruşduqda demişdi: "Bu cinayət ilə erməni çocuqlarının halından sizi xəbərdar eləyirəm, onları Osmanlıda qırırlar".

İştə əfkari-ümumiyyə cəlbi üçün qəribə hərəkət. Lakin bu adətdən kənar bir işdir. Amma bununla da istifadə edirlər.

Neçə sənə əvvəl içəri Rusiyada dəmir yol ilə gedərkən başqa bir hərəkətə rast gəldim. Bir bolqar çocuğu istasiyonun birində vaqona minib, bütün miniklərə kağızlar yaydı. Məzmunu təqribən bu idi:

"Vəhşi türklər dilimi kəsdiyi üçün danışa bilmirəm. Təvəqqe edirəm, mənə kömək edəsiniz". Bu işin doğru olub-olmadığını kimsə təhqiq etmirdi. Lakin xalqın rəğbətini bolqar məsələsi qazanırdı və türklərə də nifrət qalırdı.

Əfkari-ümumiyyəni cəlb etmək üçün yuxarıda göstərilən ifrat vasitələrdən başqa, bir də adi yollar var. Bu da mətbuat və nümayişlərdir. Hankı millət yaşamaq istərsə, öz dərdini söyləməlidir, səsini çıxarmalıdır. Səsini çıxarmağı bilməyən və bağırmaq bacarmayan millət həmişə əzilər. Səs vasitəsi də qəzetələr və məcmuələrdir. Qonşularımızdan bağırmağı ilə məşhur ermənidir. Bu millət dərdini və tələbini bildirməkdə böyük istedad sahibidir. Rusiyada bir qəzetə yoxdur ki, erməni məsələsini yazmasın. Bundan başqa, özlərinə məxsus bir çox qəzetə və məcmuələri var. Müharibə əsnasında Moskvada rus dilində "Armyanski vestnik" məcmuəsi verilirdi. Bu məcmuə başdan-başa ermənilyi təqdir və tərvic etməklə məşğul idi. Məcmuənin fikri ermənini ən mədəni bir millət şəklində Avropaya tanıtmaq idi. Odessada dəxi eyni fikirdə bir qəzetə çıxırdı. Bu gün İstanbulda fransızca qəzetələri var. Tələblərini Avropanın qulağına söyləməkdən çəkinmirlər.

Bir çox məhkum millətlərlə yavuqdan tanış oldum. Çalışmalarını gördüm. Onlarda da eyni hal – əfkari-ümumiyyəni cəlb etməyə böyük əhəmiyyət verirlər. Öz tarixlərini, ədəbiyyatlarını, başqa mədəni məhsullarını Avropanın gözünə soxmağa çalışırlar. Bu gün Paris konfransının nəzərini cəlb etmək üçün hədsiz-hesabsız kitablar çap olunur, qəzetlər nəşr olunur; hər kəs dərdini, tələbini uca səslə bildirir. Eşitdiyimə görə, ermənilər bu il milli məsələlərinə dair doqquz yüz əsər təb etdirmişlər.

Mətbuatdan başqa bir də bir nümayiş var. Muttəfiqlər İstanbula girdikdə rumlar ev və mağazalarını milli bayraqlarla bəzəmişlərmiş və çalışmışlarmış ki, İstanbulun zahiri görünüşünə yunan rəngi versinlər.

İştə nümayiş. Burada oxumaq lazım deyil. Hər kəs gözü ilə görər və bilər.

Məlumdur ki, yunanlar Istanbulu almaq iddiasında bulunurlar.

Buna haqları olmağını bildirmək üçün hər vasitəyə müraciət edirlər.

Birinci yol əfkari-ümumiyyədir ki, buna xoş gəlmək istəyirlər. Türklərin rəvayətinə görə, yunanlar Bəyoğlunda və Qalatada küçələri çox zibilli saxlayırlar; hər nə əllərinə gəlir, küçəyə tullayırlar. Səbəbi bu imiş ki, avropalılar türkün "idarəsizliyini" görsünlər. Baxınız, nümayiş nə şəkillər alır.

İstanbulda bir ayrı nümayişə dair söylədilər. Bir neçə erməni uşağı cırıq-cındır libasda şəhəri dolanmışlar. Məqsəd erməni qaçqınlarının halını bəyan etmək imiş...

Xülasə, minlərcə zikr olunan şəkillərə rast gəlmək olar.

Bizim müsəlman aləmində əfkari-ümumiyyənin rəğbətini qazanmaq üçün az çalışılır. Onun üçün də dərdlərimiz kimsəyə bəlli olmur və bizlə maraqlanan az olur. Son səyahətim zamanında bir çox Avropa siyasiyunu ilə görüşdükdə, təəssüf ki, əcib hallar gördüm. Bizim Azərbaycanın nerədə olduğunu çoxları bilmirmişlər. Siyasi adamlar məmləkətimizdən xəbərsiz olduqda, yəqin adi adamların heç də xəbəri yoxdur. Böylə olduqda biz ermənilərdən də çox çalışmalıyıq ki, özümüzü tanıdaq. Bu yolda birinci addımları səfirlərlə konsullarımız atmalıdırlar. Gürcü konsulxanalarında bir mətbuat şöbəsi var. Bunun vasitəsilə məhəlli qəzetələrə Gürçüstana dair məlumat verilir. Biz də eynini düzəltməliyik. Tariximizi, məmləkətdə sayımızı və iqtisadi qüvvəmizi aləmə bildirməliyik.

VI. İNGİLTƏRƏ İLƏ DOSTLUQ

Avropa müharibəsi xırda millətlərin nə qədər qüvvətsiz və böyük hadisələr qarşısında qüdrətsiz olduğunu göstərdi. Bu millətləri siyasi tufanlar yuyar götürər. Bunun üçün xırda millətlər böyük bir dost qazanmalıdır.

Bu dost olursa və arada iki tərəf də bu dostluqdan fayda götürmək ehtimalı varsa, dostluq sabitliyini təmin edər. Balkan millətlərinin tarixi göstərir ki, ancaq rus qorxusu və millətlər rəqabəti sayəsində balkanlar müstəqil olaraq meydana çıxdılar. Rus iştəhası Balkanı udmaq istəyirdi. Bu iştəhaya meydan verməmək üçün istiqlala riza göstərildi. Rusla Qərbin rəqabəti sayəsində Balkan millətləri qazandılar.

Beynəlmiləl dostluq yalnız faydadan asılıdır. Bütün məsələlərin həllinə bu nöqteyi-nəzərdən baxılır. Gözümüzün önündə Polşa dövləti ehya olunur və bu məmləkət təşkilində Avropa, ələlxüsus, Firəngistan polyaklardan çox çalışır.

Neyçün, əcəba?

Məsələ aydındır. Polyakların istiqlaliyyəti alman üçün bir yumruqdur. Sabah yenə Almaniya müharibə ilə meydana çıxarsa, Polşanı arxasında görər. Və Firəngistana hücum məsələsi alman üçün bir az çətinləşər. Deməli, bütün beynəlmiləl əlaqə qarşı fayda üzərində möhkəmləşir. Adətən xırda millətlər qarşı faydadan çox qarşı təzaddan istifadə edirlər. Iki qüvvətli dövlət arasında "bufer" olaraq təşəkkül edirlər. Bu nöqtələrdən baxdıqda Azərbaycanın coğrafi vəziyyəti çox gözəldir. Bir tərəfdən böyük rus tufanı, o biri tərəfdən İngiltərə faydası. Rus tufanı iki yüz ildən bəri gözünü cənuba, Hindistan yollarına dikmədədir.

İki əsrdir ki, addım-addım Hindistana yavuqlaşır. Bu yolu kəsmək üçün, rus tufanını durdurmaq məqsədilə Azərbaycanla Gürcüstan istiqlaliyyətini tanımaq icab edəcək. Bu dövlətlərin təşəkkülü doğrudan-doğruya Ingiltərə faydası ilə mərbutdur. Bizim üçün də əlverişlidir.

Çünki Rusiyadan ayrılıb hürr yaşamaq gürcülər və bizlər üçün tarixi bir məqsəd, həm də müqəddəs bir məqsəd idi. Gec-tez rus axını, rus mühacirliyi tapdağı olub məhv olmağımızı bilirdik. İngiltərə isə bizi öz faydası üçün tutmaq məcburiyyətində olacaqdır, bu məmləkətdən bizə zərər gəlməz. Bunun mühacir kimi ölkəni hərc-mərc edən məsələsi yoxdur. Ingilislər bizdən faydalanmaq istədiyi kimi biz

də onlardan faydalanacağıq. Onlarla aramızda şübhə doğuran bir məsələ də yoxdur ki, ortalıqda soyuqluğa səbəb olsun. Biz xırda bir millətik, yaşamaq istərik. Aləmşümul məsələlərlə uğraşmayacağıq.

Qüvvətimizə görə iş görəcəyik. Yəni vətənimizin tərəqqisi yolunda çalışacağıq. Ittihadi-islam və ya türk ittihadı kimi xülyapərvər fikirlər gözümüzün önündə qoca bir Osmanlı dövlətini yıxdı. Bunun səbəbini xalqın geniş sinfi belə duyub anladı, ziyalılarımız isə bunu çoxdan etiraf edib durmadadırlar. Bizim bütün məqsəd və amalımız Azərbaycanımızdır. Bu yolda kim bizi tutarsa, biz də ona rəğbət və meyl göstərərik.

Bu gün ingilislər Qafqazdan çəkilib, yerinə italyanlar da gəlsə, yenə İngiltərə dostluğundan çəkinməməliyik. Bu millət dünya siyasətində həmişə böyük rollar oynayıb və oynayacaqdır. Millətlər hüququna riayət etmədə onların istirahətini təmin etmədə, millətləri tərəqqi yolu ilə gətirmədə Avrovada birincilik qazanıbdır.

Əminəm ki, ingilis dostluğu bizi asudə yola çıxaracaqdır. Çünki iki millətin də faydası bunu istəyir.

VII. İRAN VƏ BİZ

Böyük rus tufanından həmişə zərər görənlərdən biri də İran idi. Bu məmləkət çoxdan bəri dövləti islahatla uğraşmaq meylində idisə də, rus intriqaları, heyfa ki, bu fikirləri yıxıb əzirdi. İranın bir daxili işləri yox idi ki, ona rus qarışmasın.

Daima ölkənin heysiyyətı ayaqlar altında taptalanmada idi. Təbrizdə mücahidlərin asılması, Məşhəddə Imam Rza qəbri-şərifinin təhqir olunması hamının yadındadır, Biçarə Iran rus zərbəsindən göz açа bilmirdi ki, ölkəsinin rahat və tərəqqisinə çalışsın. Rus yıxıldı. Rusla İranın arasında, Azərbaycan dövləti təşəkkül etdi. Rus qorxusuna qarşı Qafqaz orduları döşlərini sipər edərək durdular və duracaqlardır. İran da asudə nəfəs almağa başladı.

Bundan sonra bu iki qonşu və islam dövlətləri arasında dostluq hüsulə gəlməlidir. İranla aramızda məchul və ixtilaflı bir məsələ yoxdur. İki qonşu dövlətin tərəqqisi yalnız dostluq ilə ola bilər. İran bizi tutarsa və bizi müstəqil deyə tanırsa, özü üçün şimal tufanına qarşı bir sipər qazanar. Iran istiqlaliyyəti bizə də böyük faydalar verəcəkdir. Bu

istiqlaliyyət sayəsində dindaş qonşumuz islahat və idarə inkişafı ilə məşğul olaraq ölkədə rahatlıq və asayiş doğura bilər. Nə qədər Iranda daxili rahatlıq olarsa, bir o qədər biz də rahat yaşarıq. Sərhəd boyundakı təbəələrimizin sülhpərvər həyatı təsadüfi hadisələr ilə pozulmaz. Rus rəqabəti Iranı iqtisadi cəhətlərdən əzirdi. Biz istərdik ki, Iranın iqtisadi qüvvələri artsın. Çünki məmləkətin məhsulları Azərbaycan yolu ilə başqa məmləkətlərə nəql olunacaqdır. Biz də bundan fayda götürəcəyik. Iqtisadca tərəqqi etmiş Iranın alıcıları artar və biz də oraya artıq mal yeritməyə müvəffəq olarıq. Müstəqil yaşayan Iranın, əminik ki, yolları çoxlaşacaq, nəqliyyə vasitələri gözəlləşəcək, insanların asayişi təmin olunacaq. Və bunların sayəsində bizimlə Iran arasında alış-veriş yüngüllüklə yola gedəcək. Bundan da hər iki tərəf fayda görəcəkdir.

Hankı nöqteyi-nəzərdən baxsan, Iranın müstəqil və məsud yaşaması bizə əlverişlidir.

Dövlətimizin Azərbaycan adlandığı sui-təfəhhümlərə səbəb oldu.

Halbuki, Təbriz əyalətinin, yəni Iran Azərbaycanının Iranın olubolmaması barədə ortalıqda heç bir məsələ yoxdur. Iranın hüququna təcavüz etmək fikrində deyilik; olmamışıq və olmayacağıq. Bizim tərəqqi və istirahətimizi təmin edən yalnız qonşularımız ilə dostluğumuz olacaqdır.

VIII. ERMƏNİSTAN VƏ BİZ

Erməni hərəkatı tarixi göstərir ki, bu millət iki yüz sənədən bəri Avropaya müraciət edib, onlardan kömək gözləyir. Və hər müraciətlərini xristianlıq naminə, dindaşlıq adına söyləyir. Təbiidir ki, avropalılar vədlər etmiş, hissiyyat oxşayan sözlər söyləmiş, lakin məsələ həll olunmamışdır. Keçən əsrdən başlamış erməni məsələsi böyük əhdnamələrdə də qeyd olundu. Berlin əhdnaməsinin 61-ci və Ayastefanus sülhnaməsinin 16-cı maddələrində ermənilər xatırlanır. Lakin yenə məsələ sonra basdırıldı. Təkrar-təkrar Avropa vicdanına dindaşlıq naminə müraciət olundu. Əvəzində bəlli oldu ki, Ingiltərə donanması Ararat dağına çıxmağa müqtədir deyil. Bismark bütün ermənilіyə bir alman əsgərinin gəmiyini (sümüyünü) dəyişmək istəmədi. Rus da ermənіləri xilas yox, Ermənistanı istila etmək xahişində bulundu; yəni ermənidən boşalmış Ermənistana malik olmaq meylini göstərdi.

Ermənilər məyus olmadılar. Təkrar əvvəlki yollarında çalışdılar. Müharibədən əvvəl yenə erməni məsələsi siyasət sahəsinə çıxdı. Lakin yenə həll olunmadı...

İki yüz illik bir tarix göstərdi ki, dindaşlıq naminə olunan müraciətlər bütün erməni qırğını ilə itmamə yetişir.

Neyçün?

Məsələ aydındır. Siyasətdə hissiyyat yoxdur. Siyasət nə din, nə insaniyyətpərvərlik – heç bir şey tanımaz. Siyasətin əsl əsası faydadır və bütün siyasi və beynəlmiləl münasibətə dair məsələlər fayda nöqteyi nəzərindən həll olunur. İki yüz sənə bağıran, göz yaşı tökən və qan axıdan bir millət etinasız qaldı. Səbəb bu ki, bunların istiqlaliyyəti avropalılara faydalı deyildi. Bu istiqlaliyyət bəzilərini belə qorxudurdu: məsələn, Rusiyanı.

İndi yenə erməni məsələsi meydana çıxır. Bunun həlli bizi də maraqlandırmaya bilməz. Ermənistan bizimlə həmsərhəd bir dövlət olduqda, iki qonşu dövlət əlaqəsini yoluna salmalıdır. Biz erməni istiqlaliyyətini tanımaq istərik və istərik də aramızda davamlı bir sülh olsun. Lakin erməni ədaları bu sülhü pozur. Ermənilər etnoqrafi cığırlarından çıxırlar.

Böyük Ermənistan xəritəsini gördüm, üç dəniz arasında təşəkkül edəcək imiş: Ağ, Qara və Xəzər dənizləri arasında. Xəritədə Gəncə, Lənkəran, Salyan, Təbriz, Marağa və başqa şəhərlər də Ermənistana daxil edilmişdi.

Əgər bu xəritə erməni milli amilinin şəkli isə, onda erməni məsələsi yenə bir çox münaqişə və mucadiləyə səbəb olacaq və həlli yenə kağız üzərində qalacaqdır. Halbuki Qafqazda asayişin təmini məsələsinin etnoqrafi dairədə həll olunması ilə mərbutdur. Uzun bir təcrübə göstərdi ki, dindaşlıq ilə siyasət arasında böyük bir uçurum var.

Qafqaz məsələsini həll etmək üçün öncə qafqazlılar öz aralarında anlaşmalıdır.

Bizim etiqadımız bundadır ki, Qafqazda yaşayan üç böyük millətin faydası yalnız qarşı anlaşmaya bağlıdır. Köhnə ədavəti unutmalıyıq. Siyasət kin və intiqam bilməz.

Bu günkü gün həmsərhəd Ermənistanla Azərbaycanın faydası nələr tələb edirsə, onu əmələ gətirməyə çalışmalıyıq.

Erməni ilə Azərbaycan məsələsinin təbiətində bir çox ümumi nöqtələr var. Ermənilər bizim dil və adətlərimizi gözəlcəsinə bilirlər,

bizim mədəniyyətimizi təqdir edirlər. Məsələn, musiqi və teatromuzdan həzz alırlar. Söz arasında "turkasala" deyə bizim məsəlləri işlətməyə alışmışlar. Çox vaxt türkcə danışırlar...

Bunlar bunu göstərir ki, iki millət arasında sıxı bir rabitə var. Dostluq ilə yaşamaq üçün böyük bir zəmin mövcuddur. Lakin siyasətin əyri yol ilə getməsi iki millətin dostluğunu və asayişini pozur.

Erməni rəhbərləri bizə əl uzatmalıdırlar, kin-küdurəti buraxıb, doğru yola gəlməlidirlər. Və əmin olmalıdırlar ki, erməni dərd və istəyini avropalılardan tez başa düşərik.

IX. GÜRCÜSTAN VƏ BİZ

Gürcüstan ilə dostluğumuz ən təbii bir haldır. Şimalda rus qorxusu və cənubda ola biləcək intriqalar gürcülər ilə azərbaycanlıları kip dostluğa məcbur edir. Iki müstəqil dövlət üçün də hər işlərinə təcavüz edən qüvvələrə qarşı bir hazırlıq lazımdır. Bu dövlətlər hücum üçün deyil, müdafiə məqsədilə birləşdilər və əqd yapdılar. Bu əqdin sabit qalacağına əminik.

İki dövlət arasında olan dostluq yalnız faydaya bağlı olduğunu söyləmişdik. Gürcüstan-Azərbaycan dostluğunun iki tərəf üçün də böyük faydası var. Şübhə ola bilməz ki, həm Gürcüstan, həm də Azərbaycan müstəqil yaşamaq istəyir. Böylə olduqda Gürcüstan üçün bir qorxu baş versə, axırda xətəri Azərbaycana da toxunacaq. Bu iki məmləkətin hürr yaşaması bir-birinə bağlıdır. Biri asudəliyini itirsə, o birisi də itirmək məcburiyyətində bulunar. Qafqazın dağlarını Qara dənizlə Xəzər dənizi arasında müttəfiqən müdafiə etməliyik. Açıq dənizə yolumuz olmadığı üçün ölkəmizə mal ixrac və idxalını Gürcüstan təriqi ilə edəcəyik. Dost bir dövlət bizə bu yolda maniələr təşkil etməyəcək və ya ağır şərtlər qoymayacaq.

Gürcüstan ilə aramızda qovğalı bir məsələmiz yoxdur. Acar məsələsi aramızda soyuqluq doğura bilməz. Bu məsələnin iki dövlətin faydasına uyan bir şəkildə həll olunmasına əminik.

Ümumi fayda üçün Gürcüstana maddi köməkdə bulunmalıyıq.

Bizim üçün əhəmiyyətli bir məsələ də var. O da məmləkətimizdə sadiq məmurlar yetişdirmək. Lakin bu günün işi deyil. Məsuliyyətli məmuriyyətləri öz əlimizdə saxlamalıyıq. Özumüzdə adam az olsa, gürcü-

lərdən gətirməliyik. Yoxsa istiqlaliyyətimizə düşmən bir çox məmurlar bəsləyirik. Bunlar Denikinin gəlməsini cani-dildən gözləyirlər. Xəyanət olmamaq üçün məsuliyyətli yerləri dost əlinə verməlidir.

X. DENİKİN QORXUSU

Kerenskinin mücərrəd nəzəriyyələri əməli bir nəticə vermədikdən sonra rus xalqına bağlanan ümidlərin boşa çıxmağı rus məmləkətçiləri fikrində təğyirlər doğurdu. Rus fəalları yəqin etdilər ki, sırf rus qüvvələri ilə Rusiyanı ehya etmək olmayacaq. Donda general Kaledinin başçılığı ilə olan müzakirələrdə bu yerə gəldilər ki, Rusiyanı köhnə şəklinə salmaq üçün Rusiyada sakin başqa millətlərdən istifadə etməlidir. Bu millətlər arasında sadiq və cəsurluğu ilə məlum Rusiya müsəlmanları da nəzərləri cəlb eləyirdi.

Milli bölüklər, sonra qul ordu və ordular vücuda gəlməsinə meydan verildi. Romaniya sərhədində "Birinci müsəlman ordusu" ünvanında qüvvələr toplandı. "Birinci müsəlman ordusu"nun Ukrayna hökuməti nəzdindəki komissarı miralay Tukan Baranovski ilə olan müsahibəmdə anladım ki, Don fəalları "müsəlman ordusu"na böyük ümidlər bağlayırlar.

Aşıb-daşmış inqilab bütün qüvvələrə zərbə vuran kimi, "müsəlman korpusu"na da sirayət etdi: əsgərlər qaçıb dağılmağa başladılar.

Kiyev "Musavat" komitəsi kimi bəzi müsəlman təşkilatı da açıq-açığına "korpus"un əleyhinə propakanda yapmağa başladı. Böylə hərəkətlər korpusun qüvvəsini daha da qırdı. Lakin Rusiya ehkamçıları "müsəlman korpusu"ndan ümidlərini kəsmədilər. Bu halda korpus yalnız beş-altı yüz zabitdən (bunlardan təqribən iyirmisi müsəlman idi) və külli ləvazimati-əskəriyyədən ibarət idi. Fikir bu idi ki, zabitlər və ləvazimatla Krıma gəlib, müsəlmanları əsgər çağırıb, Qafqaza yerisinlər və müsəlmanlardan ibarət sadiq və bolşeviklikdən uzaq bir qüvvə ilə Rusiya ehyasına çalışsınlar.

Lakin iş başqa cür oldu: müsəlmanlar gözlənilən kimi kor və avam deyilmişlər. Kiyev "Müsavat"ının fikrinə krımlı qardaşlarımız da şərik olaraq "müsəlman korpusu"nun yalnız rusluğa xidmət edəcəyini bilib, ona şiddətli müqavimət etməyə başladılar. Axırda "korpus" başında duranlar Denikini Krıma dəvət edərək "korpusun iki-üç yüz qalan müsəlman əsgərini də ona təqdim etdilər.

Böyləcə, müsəlmanlığı hazırlayan "korpus" öldürüldü. Lakin Kaledinin planı ölmədi: müsəlman sadiq və avamlığından istifadə etmək istənildi. Altı ay əvvəl (yəni: 1919-cu ilin əvvəli – T.H.) Krımda kadetlər hökuməti vasitəsilə səfərbərlik elan etdi. Lakin bir nəticə hasil olmadı: bircə müsəlman da əsgərliyə gəlmədi. Yalnız Krım mirzalarının (tatar əsilzadələri) bəzisi köhnə imtiyazlarını ehya etmək üçün Denikinə qoşuldu. Axırda bolşeviklik Krımda həm Denikini, həm də mirzaları yuyub götürdü.

Yenə fikir ölmədi. Bu dəfə Don gözünü Qafqaza dikdi. Beş ay əvvəl Yekaterinodar şəhərində miralay Belikov əhəmiyyətli məruzədə bulundu. Belikov isbat etmək istədi ki, Moskovu alıb Rusiyanı ehya etmək üçün öncə Qafqazı almalıdır. Belikovun nəzərincə Bakının nefti, Kuban və Stavropolun çörəyi, Xəzər dənizinin balığı rus qüvvələrinə Moskovu almaq üçün bir əsül-hərəkə təşkil edə bilər.

Belikov fikri bir addan ibarət deyil. Denikin ordusunda bir axındır. Bir çoxları bunun tərəfdarıdır ki, Moskovu bolşeviklərdən qurtarmaq üçün Qafqazın bütün qüvvələrini sərf etməlidir. Bu fikrin nə dərəcə qüvvətli olması gözümüz önündədir. Şimali Qafqaz, Dağıstan ilə bərabər bu gün "istifadə" olunur. Uşaqdan böyüyə əsgərliyə çağırıb, bolşeviklərə qarşı göndərilir, xülasə, avam dili ilə danışaraq deyə bilərik ki, köhnə Rusiya üçün qaynayan bir qazanın altına bizi odun əvəzinə atmaq istəyirlər. Məsələ aydındır: Denikinə odun lazımdır ki, Rusiya qazanını qaynatsın; başımıza bəla etsin. Deməli, bizim yağımız ilə bizi qovurmaq istəyirlər. Bunu çəmi müsəlman bu gün anlayıbdır. Odur ki, Krım müsəlmanları Denikinə əsgər vermədilər və bu səbəbdəndir ki, inquş qardaşlarımız əllərində silah olaraq ölmək istəyirlər, namuslarını satmaq istəmirlər.

Hökumətimizin ciddi tədbirləri Denikin qorxusunu, vətənimizdən uzaqlaşdırır. Bu yolda xalqımızın geniş dairəsi hökumətimizə kömək etməlidir. Xalq anlamalıdır ki, Denikin gəlsə, vətənimiz alt-üst olacaqdır. Əvvəla, daxildə zidd qüvvələr bizə qarşı çıxacaq, ikinci, bolşeviklik meydan alacaqdır. Təcrübə göstərdi ki, Denikin ayağını basan yerlər bolşevik olur. Çünki "dükan yanarsa siçan da yanar" fəhqasincə Denikin siçanlarını öldürmək məqsədilə bütün dükanı yakmaq lazım gəlir. Bu müsibətlər vətənimizə üz verməmək üçün Denikinin qara qüvvəsi ilə həmişə mübarizəyə hazır olmalıdır.

XI. BOLŞEVİK QORXUSU

Rus inqilabı rus millətinin təbiəti üzərindən pər dəni götürdü. İnqilab göstərdi ki, rus təbiəti hakimiyyəti sevməyir; bu hakimiyyət nə şəkildə olursa olsun. Rus həyati-fikriyyəsində və rus tarixində bu hallar çoxdan bəri görünmədə idi. Anarşi nəzəriyyəsini rus fikri doğurdu. Baxınız anarşi nəzəriyyəsinin banisi Bakunin nə söyləmiş: "Yıxıcılığın şirinliyində yaradıcılıq ləzzəti var".

İştə Bakuninin şüarı!

Bakunin kimi beynəlmiləl inqilabçını rus xalqı yetirib. Bu xalq bir çox hakimiyyət tanımayan məzhəblər də vücudə gətirib. Rus hökuməti məmləkətə müzürr məzhəblərlə əsrlərdən bəri mübarizə edə gəlmədədir. Bizim Qafqaza mühacir surətində gələn malakan, duxabur və başqaları da sürgün olaraq gəlmişlər. Rusiyadakı məzhəblərin əksəri müharibəni inkar edən, hakimiyyəti tanımayan və kommuna şəklində yaşamağı sevən qüvvələrdir. Bir xalq deyil, rusun ziyalıları arasında da hər şeyi inkar edici axınlar da çoxdan meydan almadadır. Keçən əsrin ortalarında bu hərəkət qüvvət kəsb edərək, nihilizm sözü ilə təsmiyə olunmuşdur.

Eyni halı rus ədəbiyyatında da görürük. Maksim Qorkinin özü bolşevik olan kimi, bütün qəhrəmanları da bolşevikdirlər. Qraf Tolstoyun fəlsəfə həyatı da bolşeviklikdən xali deyil. Böyük ədib əsrlərcə yaradılmış insaniyyət tərəqqisinin bütün məhsullarını inkar eylədi və axırda da bir nöqtədə dayanmayaraq dünyadan getdi və sabit bir yol da göstərmədi.

İştə rus təbiəti, həmişə qəlyan içində şüruş axtarır! Bu təbiəti azdırmaq üçün çar istibdadı da çalışdı. Fitri amillərə bir də acıq və intiqam hissi qarışdı. Odur ki, çar hökuməti yıxılar-yıxılmaz təbii hallar: acıqlar və intiqamlar meydana çıxdı. Hərc-mərclik geniş Rusiyanı ağzına aldı.

Deməli, bolşeviklik rus təbiətindən çıxan bir vulkandır. Bizi maraqlandıran bir şey var: əcəba, bu rus vulkanı başqa millətlərin də malı ola bilərmi, yoxsa ola bilməz?

Macarıstan hadisələri bu suala müsbət cavab verir: "Bolşevik qorxusu başqa ölkələrə də sirayət edə bilər" – deyir.

Bunun səbəbi də aşkardır: əsrlərcə yığılıb toplanan acıqlar və intiqamlar dalğalanır. Deməli bolşeviklik əsrlərin illəti, keçmiş səhvlərin məntiqi nəticələridir.

Bunun uçun bolşeviklikdə tikicilikdən çox yıxıcılığa əhəmiyyət verilir: "Yaxmaq, yıxmaq və öldürmək!" şüarı hər Yerdə hökmfərmadır.

Bu gün etiraf edəriksə, Şərq dəxi bolşevikliyə alışmadadır.

Həqiqətən, tabe və sadiq, hər bir sıxıntıya səbr edən, hakimiyyəti təqdis və təqdir edən Şərq də bu gün bolşeviklik xəstəliyinə bac verməyi istəyir. Türküstan hadisələrində və başqa hərəkətlərdə müsəlman kommunistlərin adı çəkilir.

Burada da əsri intiqamlar və acıqlar görünür. İntiqam hissi dindar və millətpərvər Şərqi dinsiz və millət tanımayan bolşeviklik qucağına atmaq istəyir.

Nə qorxulu addımlar! Bizim mühitdə bolşeviklik nə dəhşətli şəkillər ala bilər! Bu tufanın önünü almaq çarələrini düşünməli, yəqin etməli ki, bu axın bizi götürsə, bütün Şərqə sirayət edib, uzun müddətlər anarxiyə səbəb ola bilər.

Düşünməli və çox düşünməlidir.

Bolşevikliyi doğuran səbəbləri təkrar-təkrar təhlil etməli və məhvinə çalışmalıdır.

Azərbaycanda asayişin təmini üçün torpaq və əmələ məsələlərinin həllini təxirə salmamalıdır. Kağızda yazılanları işlə nəticələndirməlidir.

Sonra idarəmizin tənziminə çalışmalıdır. Ədalətsizlik ilə qəti surətdə mübarizə etməlidir. Məmləkətimizin hər nöqtəsinə təftiş heyətləri göndərməlidir. İdarəmizi sağlamlandırmalıdır.

Əminəm ki, ədaləti təmin edərsək, acıq və intiqama yer qalmaz və bolşeviklik qorxusundan vətənimizi mühafizə etməyə müqtədir olarıq.

1919

MİLLİ VƏ MƏDƏNİ İŞLƏRİMİZ

I. ÜMUMİ KİTABXANA

Bakıda ümumi bir kitabxana açılmasını qəzetlərdə oxumuşduq.

Sonra bu məsələ unudulmuş kimi göründü. Halbuki, kitabxananın bizim üçün o qədər əhəmiyyəti var ki, çoxdan bu yolda çalışmalıydıq. Kitabxana açmaq bir o qədər də çətin iş deyil, təşəbbüs olunsa, pulsuz belə bir çox kitablar toplamaq olar. Ümumi kitabxana fikri birinci olaraq Kiyev "Müsavat" komitəsini düşündürdü. İlyarım əqdəm komitə Bakıda ümumi kitabxana təsisinə qərar verdi və min çildə qədər kitab ələ gətirdi. Kitablar iqtisadi, siyasi, ictimai və başqa məsələlərə aiddi. Avropalıların islam və türk aləminə olan nəzəriyyələrinə dair bir çox kitablar var. Fikir bu idi ki, kitabxananın bir qismi islam məsələsinə sərf edilmiş və islama dair nə qədər əsərlər yazılıbsa, ələ gətirilsin. Təəssüf ki, inqilab bir çox maniələr təşkil etdi və kitabxanamız da Kiyevdə qaldı. Bakıya gətirə bilmədik. Bu gün bu məsələ yenə önümüzdədir. Gələcəkdə də bizdən əl çəkməyəcəkdir. Bu gün bu məsələnin həllinə çalışmalıdır.

Milli işlərimizdə hər şeyi hökumətdən gözləməməlidir. Xüsusi təşəbbüslər də lazımdır. Bu barədə zəhmətkeş ziyalılar ittifaqı işə girişməlidir. "Ittifaq" bütün səyini kitabxana məsələsinə həsr etsə, böyük iş görər. Kömək üçün hökumətə müraciət olunsa, hökumət müzayiqə etməz, zənnindəyəm. Kitab ələ gətirmək üçün xaricdəki səfarətlərimizə və konsullarımıza müraciət edilsə, türk, fars, ərəb və Avropa dillərində qiymətli əsərlər ələ gətirmək olar.

Bunları deməyə lüzum yoxdur. Kitabxana açmağa meyl olsa, yolu da tapılar. Milli adamlar bulunmalı.

Kitabxanamızın olmaması bizə çox zərərlər verir. Rusiyanın böyük şəhərlərində yaşadıqda və bir məsələ ilə maraqlandıqda o saat ümumi kitabxanaya gedirsən. Səni maraqlandıran məsələyə aid bir neçə cild kitab alıb çəkilirsən kitabxananın böyük salonuna, nə lazımsa o kitablardan yazıb götürürsən. Bir şeyi yazmaq üçün nə məlumat lazım isə asanlıq ilə almaq mümkündür. Bizdə isə belə deyil.

Bu günlərdə bu sətirləri yazana bir qədər keçmiş yazıçılarımıza dair məlumat lazım idi. Şəhərdə kitabxana yox, xüsusi kitabxanam da yanımda deyil. Axırda bütün şəhəri ayaqlamaq məcburiyyətində qaldım.

İştə yazıçı üçün nə qədər muşkülat...

Hərgah milli fikrimizə, milli sözümüzə meydan verilmək istəyiriksə, tezliklə ümumi kitabxana açmalıdır.

II. NƏŞRİYYAT CƏMİYYƏTİ

Xalq üçün asan dildə faydalı kitablar nəşr etmək üçun özgə millətlərdə nəşriyyat cəmiyyətləri var. Bu cəmiyyətlər ucuz qiymətə millətə gözəl kitablar verirlər.

Heyfa ki, bizdə belə cəmiyyətlər yoxdur və olmayıbdır. Yalnız
Kiyev tələbələrimizin "Nəşriyyat heyəti" türk dilində üç kitabça təbi ilə işlərinə xitam vermişdir.

Nəşriyyat cəmiyyətlərinə olan ehtiyac bizdə başqa millətlərdən çox-çox böyükdür. Çünki naşirlərimiz yox mənziləsindədir. Bir Orucov qardaşları var idi. Şimdi onlar da nəşriyyat işlərindən əl çəkmişlər. Bizim millət üçün ticarət məqsədilə açılan müəssisə xeyir verməz. Bu yolda hökumətimiz və ya xüsusi cəmiyyətlərimiz çalışmalıdırlar. Yaxşı olardı ki, maarif nəzarəti nəzdində bir heyət təşkil olunaydı və bu heyətə kitab möhübləri dəvət olunaydı. Firidun bəy Köçərli həzrətləri məktəbdə müdirlik edirlər. Müdir üçün başqa adamlar da tapmaq olar. Amma Firidun bəyin ədəbi vəzifəsini kimsə görə bilməz. Firidun bəyi maarif nəzarəti nəzdində açılacaq olan nəşriyyat şöbəsinin başına dəvət etməli və birinci olaraq ədiblərimizin əsərlərini basdırmalıdır. Nəşriyyat şöbəsinə əza olmaq üçün Salman Mümtaz çox faydalı olar.

Mümtaz cənabları kitab möhübbü olduğu üçün çox qiymətli əsərlər toplamışdır. Onun kitabxanasında bir çox ədiblərin əlyazmaları mövcuddur.

Köçərli ilə Mümtaza nəşriyyat işlərimiz tapşırılsa və onlara pullar təxsis olunsa, az bir zamanda gözəl nəticələr meydana çıxar, zənnindəyəm.

Hansı yolda qənaət olunsa, nəşriyyat üçün gərək qənaət olunmasın. Çünki bu günlər basılan kitablar kəsilən pullardan qiymətlidir. Bir çox pullar var ki, sərf olunur və əməli nəticələr də vermir. Nəşriyyata xərclənənlər millət üçün böyük sərmayələr vücudə gətirir. Bütün gələcəyimiz, mədəni binalarımız, tərəqqi məhsullarımız bu sərmayə üzərində binalanacaqdır.

Pəs sərmayə üçün çalışmalıyıq və onu əhali əlinə verməliyik.

III. MİLLİ MƏCMUƏ

Bizdə heç vədə milli məcmuə təb olunmayıb desək, səhv etmərik. Nə "Fyuzat", nə "Şəlalə", nə sonra çıxan məcmuələr milli olmuşdur. "Fyüzat" yolu itirdiyi üçün müaqibləri də onu təqlid etmişlər. Hankı məcmuə çıxmağa başlarsa, Hindistan və Misir camilərinin təsvirini qeyd edərək, ümumislam aləminə aid şeylər yazar.

Halbuki, birinci bizi həvəsləndirən məsələ Azərbaycanımız gərək olsun: onun üçün milli məcmuəni başdan-başa Azərbaycan ilə doldurmalıdır. Bərəkət versin ki, tariximiz, ədəbiyyatımız, teatro musiqimiz və başqa mədəni məhsullarımız çox-çox var. Bunlara dair yazılsa, həm özümüz özümüzü, həm də əcnəbilər bizi tanıyarlar. Vətənimizdə bir çox tarixi binalar var. Hər nömrədə bunun birinin rəsmini qeyd edərək, ətraflıca məlumat verməlidir.

Ticarət məsələləri məmləkətin can nöqtəsidir. Buna dair statistika saxlamalı, ölkəyə nə qədər mal gəlir, ölkədən nə qədər mal çıxır, xaricdə bizim nə kimi mallarımız kimlər tərəfindən alınır, müştərilərimiz nə növ mal sevir, bazarın övzai nə təhərdir?

Yazmalı min şey var. Bizdə yeni-yeni qüvvələr və istedadlı cavanlar çıxır. Bunlara meydan verməli, vergilərinin yolunu təmizləməlidir. Yoxsa bir çox təb və qabiliyyətlər məhv olub gedər.

Milli məcmuədə əksər səhifələr Azərbaycana həsr olunmalı və sonra bütün aləmi-islama və Avropa mədəniyyətinə. Millətimizin təbii tərbiyə və başqa məsələlərə ehtiyacı var. Amma bu yolda heç bir şey yazılmadı. Yazmalı, yazdırmalı, tərcümə etməli. Yeni şeylər vücudə gətirməlidir. Yeni şey də onda olar ki, əvvəlcə ərəb və fars aləmini təsvir etməkdən daşınıb, türk aləmini və bilxassə Azərbaycanı təsvir edək.

IV. KÖÇƏRLİNİN ƏSƏRLƏRİ

Hər bir insanın mahiyyəti və məzmunu onun fikri və işi ilə bəlli olan kimi, millətin də bütün istedadı və qabiliyyəti, qüvveyi-fikriyyə və xəyaliyyəsi onun ədəbiyyatında bəyan olunur. Bir milləti öyrənmək üçün onun tarixi ilə bərabər ədəbiyyatını da öyrənirlər. Millətin, mənəvi həyatı geniş bir surətdə xalq ədəbiyyatında inikas eyləyir. Burada şəxsiyyət yox, bütün millət görünür. Yazılı ədəbiyyatsa ayrı-ay-

rı şəxsiyyətlərin nə dərəcədə xalq ümumiyyətindən ucalmasını göstərir. İstər xalq, istər şəxs ədəbi məhsulları ilə bütün millətin ruhunu və o ruhun incə meyl və hərəkətlərini təsvir eləyir. İşdə bizi özümüzə tanıdan və başqalarına zinətli bir şəkil də təqdim edən ədəbiyyatımız olacaq.

Heyfa ki, indiyə kimi ədəbiyyatımıza əhəmiyyət verməmişik. Ən müqtədir ədiblərimizin əsərləri bir çoxları üçün gizli qalmışdır. Səbəb bu ki, onlar ya heç təb olunmayıb və ya ki basılıb və çoxdan satılıb qurtarmışlar. Qarabağ şairlərinin əsərləri Almaniyada Leypsiq şəhərində 1868 sənəsində Adolf Berje tərəfindən təb olunmuşdur. Bu gün nadir bir şeydir. Mirzə Fətəli Axundovun mətbu əsərləri bir az adamlarda qalmışdır. Bir çox məqalə və məktublar heç də təb edilməmişdir. Həsən bəy Zərdabinin əsərlərindən yalnız ikisi Kiyev tələbələrimiz tərəfindən çap olunub. Başqaları isə qeyri-mətbudur. Xalq ədəbiyyatımız çox adamlar təşəbbüsü ilə toplanmışsa da, təb olunmuşu yoxdur. Bir çox şairlərimiz var ki, adları belə çoxlarına bəlli deyil...

Ədəbiyyatımızı müntəzəm bir şəklə salmaq və ümumə tanıtmaq əhəmiyyətli, həm də çox əhəmiyyətli məsələlərdəndir. Bu yolda iyirmi ildən bəri çalışması ilə və ədəbiyyatımızı nizama salması ilə məşhur Firidun bəy Köçərlidir.

Firidun bəy ən müqtədir, ən sevgili ədiblərimizdən biridir. Bu şəxs ədəbiyyat tariximizi yazmaq ilə bütün keçmişimizi diriltdi. Şairlərimizin ülvi ruhlarını canlandırdı və həyati-fikriyyəmizi təbii yoluna saldı.

Çox heyf ki, Firidun bəy həzrətlərinin çox az əsərləri oxuculara mal oldu. Ən güzidəsi "Azərbaycan türklərinin ədəbiyyat tarixi" hələ təb olunmayıb qalır.

Müharibədən əvvəl bu əsərlərin təbi üçün Bakıda "Nəşri-maarif" cəmiyyətinə müraciət olunmasını o vaxtlar qəzetələrdə oxumuşduq. Müharibə və inqilab ortalığı qarışdırdı. Ədəbiyyat məsələsi unuduldu. İndi isə bu məsələlər üçün əlverişli bir zaman gəldi. Bu gün maarif nəzarətimiz bu yolda ciddi addımlar atmalıdır.

Doğrudur, kağız yoxluğu hiss olunur, lakin bu, maniə təşkil edə bilməz. Nə qədər kağız baha olsa, milli kitabdan baha olmaz. Bizə kitab lazımdır ki, bizi həm özümüzə, həm də əcnəbilərə tanıtsın. Bu kitab da ədəbiyyat tariximizdir.

Hal-hazırda Bakıda gözəl kitablar basdırmaq mümkün deyilsə, İstanbulda təb etdirmək olar. Istanbul səfarətimiz cəmi maarif məsələlərində maarif nəzarətimizə kömək etməyə hazır olduğu kimi, nəşriyyat işində də kömək edər.

V. HÜRUFAT MƏSƏLƏSİ

Hürufat məsələsi Şərq üçün ən zəruri məsələlərdən biridir. Çünki hürufat çətinliyi milləti bu hürufatdan qaçma məcburiyyətində saxlayır. Bu səbəbdəndir ki, Qaftazda ruslaşma xalqımızın öz xahişi ilə geniş meydan almadadır. Xalqı qınamaq olmaz. Rus əlifbasına iki ay sərf etdikdə oxuyub yazmağı öyrənirlər. Bizim hürufata isə bir il sərf olunsa da, dürüst oxuma mümkün olmur. Rus hərfi ilə bir şey yazılarsa, yazıldığı kimi də oxunar. Bizdə isə böylə deyil: yazılan sözə cürbəcür mənalar verilir. Əcnəbi sözləri bizim hürufat ilə yazılarsa, heç doğru oxumaq olmaz.

Bizə oxumaq və yazmamıza bir çox vaxtlar sərf olunur. Axırda da lazımi nəticələr görünmür. Hürufatımız latın əlifbası olsaydı, az bir zamanda milli maarifimiz ölkəmizin hər tərəfinə yayılardı.

Şərqin məktəblərində uşaqlar illər itirirlər. Oradan savadsız çıxırlar. Bais hürufat...

Millətini sevən bir adam hürufatımızı görərək laqeyd qala bilməz. Bizim can nöqtəmiz. Burada bu hal çoxdan bəri millət xadimlərimizi düşündürməkdədir. Mirzə Fətəli Axundov hürufat məsələsini həll etmək üçün Istanbula səfər etdi; Tehrana layihə göndərdi. Heyfa ki, Mirzə Fətəlinin fikirlərini anlamadılar. O vaxtdan bu məsələ arabir meydana çıxdı.

Bu gün ölkəmizin və millətimizin müqəddəratı əlimizdə olduğu bir zaman hürufat məsələsi yenidən fikirləri məşğul eləyir. Bizim nazirimiz Xudadad bəy Məlikaslanov cənablarının təklifi Nazirlər Şurasında qəbul olunaraq hürufat islahı üçün çalışmağa başlanır. Bu yolda bir heyət işləyir.

Şərqdə dəfələrlə mütəəssiblik sədlərini yıxan, ənənəvi hüdudları pozan və həyat tələbatından başqa heç bir şeyə bac verməyən Azərbaycan bu gün yenə bir inqilab doğurmaq istəyir. Babaların köhnəlib dəbdən düşmüş adətlərini atıb, yenilik hüsulə gətirir... Uğurlar olsun!

İndi baxaq görək bizə hankı hərflər və səslər lazımdır: zənnimizcə, yeni əlifbamız 35 səsdən ibarət olmalıdır...

Bu səslərin çoxu latından alınmalıdır. Latında olmayanları icad edib uydurmalı, təbiidir ki, soldan sağa oxunub, yazılacaq. Yeni hürufat ilə söz söyləndiyi kimi də yazılacaq. Bir səs neçə şəkildə olmayacaq. Yəni sin, sad və ze, zad kimi əhva şəkillər olmayacaq. Hər səsə müvafiq bircə şəkil olacaq.

Əgər yeni əlifba qəbul olunarsa, oxumaq, yazmaq qayət asanlaşar, qələtsiz yazı yazmaq az bir vaxt sərf etmək ilə mümkün olar. Deməli, millət oxuyar, yazar, müşkülat görməz, xeyir və şərin anlar. Köhnə hürufatımız milli idarəmizdə də bir çox əngəllər törədir. Teleqrafda işləmir, dəftərxanalarda yazı maşınlarına uymur. Avropalılar bir kağızı bir neçə dəqiqədə maşında yazıb, kopyası ilə bərabər çıxarırlar. Bizdə isə əl ilə yazaraq bir çox vaxt itirilər...

Deməyə nə hacət. Millətimiz o qədər ayılıb ki, özü hürufatımızın qüsurlarını görür, bilir. Əgər hökumət bu məsələni həll edərsə, millətə unudulmaz bir xidmət etmiş olar.

Bir sual dilimizin ucuna gəlir: əcəba, Azərbaycan yeni hürufatı qəbul eləsə və başqa müsəlman ölkələri eləməzsə, nə təhər olar?

Təsəvvür olunan sualın cavabı gödəkdir:

– Biz qəbul eləməliyik. Vaxt gələr başqa ölkələr də görər, götürər.

Doğrudan da, nə üçün hər cəhətdən tərəqqi etmiş Azərbaycan bir nöqtədə dayanıb mürgü döyən qardaşlarını gözləsin? Biz çoxdan bəri inqilabçılığa öyrəndik. Biz Rusiyada birinci olaraq türk qəzetəsini nəşr etdik.

Biz türk aləmində Qurani-şərifi ana dilimizə tərcümə etməklə birincilik qazandıq.

Aləmi-islamda birinci olaraq opera vücudə gətirdik.

Azərbaycan Cümhuriyyətini vücudə gətirməklə islam tarixinə yeni səhifə əlavə elədik...

Latın hürufatını qəbul etməklə bir inqilab da yapaq və əmin olaq ki, bu inqilab əvvəlkilərdən də parlaq və məhsuldar olacaq.

1919.

AZƏRBAYCAN NAĞILLARININ ƏHVALİ-RUHİYYƏSİ

Azərbaycanın Şuralar dövrü ədəbi tariximizin izahı üçün qiymətli bir sahə vücuda gətirdiyi inkar olunmaz. Bir neçə ilin müddətində o qədər materiallar meydana çıxdı ki, indi artıq ədəbiyyat tariximizin yazıla biləcəyinə əmin olmaq olar. Yalnız şifahi ədəbiyyatımız hələ lazımi surətdə təsvir olunmamışdır. Səbəbi aşkardır. Əvvəla şifahi parçalar toplanmalı və sonra nizama salınıb təhlil olunmalıdır.

Azərbaycan şifahi ədəbiyyatını öyrənmək üçün ölkəmizdə səltənət sürən nüfuzları, onların tarixini bilməlidir. Bir kərə Firdovsinin "Şahnamə"də təsvir etdiyi İran ilə Turan mübarizəsini nəzərə almalıdır. Tarix göstərir ki, bu mübarizə üçün Şimali Azərbaycan mərkəz təşkil etmiş və nəticədə türk dili qədimdən "Böyük Midiya" adlanan Qaf dağı ilə Həmədan arasında hökmran bir vəziyyət almışdır.[1]

Lakin şimal axını Azərbaycanı türkləşdirmişdirsə də, orada rast gəldiyi qədim və yüksək mədəniyyəti tamamilə öldürməmiş, biləks onu mənimsəmiş, öz qəlib və şəklinə salmışdır. Bu şəklə bilaxirə ərəb ruhu da girmişdir... Nəticədə müəyyən mədəni məhsullar zəmanəmizə qədər gəlib çıxa bilmişdir.

Azərbaycan xalq ədəbiyyatı bu məhsulların ən qiymətlisiədd oluna bilər...

Xalq ədəbiyyatımızın tədqiqi yalnız bizim üçün deyil, bütün insaniyyət tarixinə yeni bir səhifə əlavə edəcəyinə iman edənlərdənəm, çünki dünyanın ən qədim mədəniyyətlərindən birinin beşiyi Kür ilə Araz çaylarının arası olmuşdur. Bu mədəniyyətin əsrarını bilmək üçün xalq ədəbiyyatımız, bilxassə nağıllarımız qiymətli vasitə ola bilər. Nağıllarımızın hamısı əlan toplanmadığı üçün, mə'ruf və mətbu "Məlik Məmməd" nağılından istifadə edirəm.[2]

Nağıl xalq ədəbiyyatının mühüm bir qismini təşkil eləyən hekayələrdir ki, çox vaxt zahirən xəyali göründüyü halda, dərin bir fəlsəfəyə

[1] Türk və Iran mətbuatında münaqişəsi mövcib olan bu məsələlər haqqında mənim irəlidə çap olunacaq "Azərbaycan tarixinə mədxəl" kitabıma baxmalı (müəllif).

[2] Xalq nağılından yazdığım bu nağılı on beş il əvvəl Kiyev türk tələbələri basdırmışdı. İkinci təb olaraq yaxında "Bakı işçisi" kooperativ nəşriyyatı tərəfindən basılacaq (müəllif).

istinad edir. Şifahi ədəbiyyatın ənvai kimi nağıl da nəsildən-nəslə keçir və müəllifi kim olduğu məlum deyil.

Nağıl xalq ədəbiyyatının qeyri-ənvaindən daha da qədim olmalıdır, çünki fikir, etiqad və fəlsəfə etibarilə Zərdüştün "Avesta" və hindi- qədimin "Veda"sına yavıqlaşır.[1]

Bütün Azərbaycan nağılları içində "Məlik Məmməd" tipik sanıldığı üçün bunun təhlili qeyrilərini də izah edər, zənnindəyəm, çünki hər bir nağıldakı fikir haqqın nahaqqa qələbə çalmasından ibarətdir. Yalnız vəqə və məzmun başqa-başqadır.

"Məlik Məmməd"in fəlsəfəsi təbiətdəki ikiliyi təsvir eləyir. Bir tərəfdə Hürmüzd və onun xəlq etdiyi nur, əbədi həyat, haqq və ədalət, o biri tərəfdə də Əhriman və güruhu: qaranlıq dünyanın məhsulu divlər, əjdahalar, büxl, həsəd, fəna fikirlər.

Bir-birilə əbədi çarpışmada olan bu iki qüvvə Hürmüzdün qələbəsilə nəticələnir. Əbədi həyat bəxş edən, almanı oğurlayan divlər, Zümrüdün balalarını öldürmək istəyən əjdəhalar, büxl və həsədə qapılan iki şahzadə məhv olub gedirlər. Zirək, quvvətli, təmiz ürəkli Məlik Məmməd isə qurtarır və işıqlı dünyanın bütün səadətinə nail olur.

Nağıllar haqqında fikrimizin doğru olduğunu isbat etmək üçün bir az da təfsilata ehtiyac var, bilxassə bəzi qaranlıq nöqtələrin izahı lazımdır.

Nağılda bəhs olunan alma ağacına bənzər, "Avesta"da bir Naara var... Kür ilə Araz çayları arasında yaşayan qədim irqin etiqadınca Naara ağacı Kürqəsb dənizində bitib, bütün nəbatata ruh verərmiş[2]. Bəziləri Naaranı əbədi həyat bəxş edən ağaca bənzədirlər.

"Məlik Məmməd"dəki alma ağacı Naaraya çox bənzəyir: almanı yeyən cavanlaşır və əbədi həyata vasil olur.

"Məlik Məmməd"dəki mücadilə haqq və işığın hökmranlığı ilə nəticələnir. "Avesta"nın fəlsəfəsi də bundan ibarətdir. Sami irqindən zühur etmiş dinlərin (yəhudilik, xristianlıq və müsəlmanlıq) tövhidi zərdüştilikdə yoxdur. Vəhdət əvəzində kainatda ikilik var və mübarizə hər şeyə əsas olaraq vəz olunmuşdur. Bu mübarizə getdikcə inkişaf

[1] Bu kitablar təqribən üç min il bundan əvvəl təlif olunmuşdur (müəllif).

[2] Kürqəsb"in Bakı dənizi olduğuna dair ehtimallarımızı bir başqa məqalədə izah edəcəyəm (müəllif).

edib böyüyür və axırda qaranlığın, div və əjdəhaların, paxıl vücudların yox olub, yer üzündən qaib olması ilə qurtarır. Zərdüştilikdə dini məfkurə dünyada əbədi bir həyat, əbədi işıq, əbədi istirahət və səadət təmin etməkdir. Lakin buna mane olan qara qüvvələr var.

"Məlik Məmməd"də də məsələ bu şəkildədir: ecazkar alma ağacı padşaha daimi cavanlıq hazırlayır, lakin Əhrimənin xəlq etdiyi div buna mane olur. Mübarizə başlayır. Müvəffəqiyyət Məlik Məmmədin tərəfinə keçir, çünki o təmizqəlbli və zəki bir şəxsiyyətə malikdir. İki böyük qardaşı hüsni-niyyətdən məhrum olduqları üçün müvəffəqiyyət əldə edə bilmirlər.

Bütün nağıllarımızda olduğu kimi, "Məlik Məmməd"də də müəyyən rəqəmlərə təsadüf edirik. Bu rəqəmlər 3, 7 və 40-dan ibarətdir.

Hər bir irqin özünə məxsus bir rəqəmi var: türkün – 9; samilərin – 40, 7; qədim Misir və yunanın – 12[1].

Bu rəqəmlər haqqında təfsilatı başqa bir kitabda bəhs edəcəyimdən, burada yalnız üç rəqəmi haqqında danışacağam.

Qədim zamanın ən mötəbər sanılan kitabları – "Riqveda", "Avesta", "Əhdi-ətiq", hətta qədim yunan müvərrix və coğrafiyyunları belə hadisə və vəqələri təsvir edərkən, nədənsə müəyyən irqi rəqəmlərə baç verirlər.

"Məlik Məmməd" hekayəsi də məlum rəqəmlərdən bəhs edir: Padşahın 3 oğlu var, qaranlıq dünyada 3 div və yanlarında 3 qız 3 otaqda yaşayırlar. Məlik Məmməd divlərlə 40 gün 40 gecə güləşir. Zümrüd quşu Məlik Məmmədi qanadının üzərinə alarkən 40 şaqqa ət, 40 tuluq su götürür. Axırda toy olur, 40 gün, 40 gecə çəkir.

Milli cəhətdən nağıllarda şayani-diqqət nöqtələr var. Zamanımızda belə şiddətini qaib etməmiş paxıllıq və intiqam hissi hökmfərmadır.

Həsəd üzündən qardaşları Məlik Məmmədin ipini kəsib, onu quyuya salırlar.

Buna görə kin qardaşlar arasına düşmənçilik salır və Məlik Məmməd kimi alicənab görünən şəxs qardaş qanına susayır.

Ümumiyyətlə nağılların fikri yüksəkdir. Bütün vəqələrdən sonra yenə haqq hər şeyə qələbə çalır və Hürmüzdün nuru təcəlli edir.

_____

[1] 7, 40 rəqəmləri arilərdə də mərufdur (müəllif).

NAĞILLARIMIZI NECƏ TOPLAMALI

Nağıl xalq ədəbiyyatına məxsusdur. Xalqın ruhunun, etiqadlarının məhsuludur. Bütün şüarlarımız xalqa doğru olduğu üçün nağılın əhəmiyyəti bir qat daha artır. Belə olan surətdə nağıllarımızı toplamaq və nəşr etmək ən birinci mədəni məsələlərimizdən olmalıdır. Ancaq nə cür toplamanın yollarını bilməlidir. Nağıl xalqındır və xalq da onu mühafizə edərək yeni nəsillərə tərk edir. Onu toplamaq üçün müəyyən nöqtələrə, müəyyən şəxslərə müraciət etməlidir.

Azərbaycanın mədəniyyət tarixini tədqiq edərkən Qarabağ, Şirvan, Qazax tərəflərin mədəniyyət tariximizdə, bilxassə ədəbiyyat sahəsində böyük rol oynadığını görürük. Halbuki Bakı, Salyan, Lənkəran səmtləri istər ədəbiyyat, istər şivə etibarilə səfalı Şirvan və Qarabağdan çox-çox geridə qalır. Səbəbi aşkardır. Xalq mühitində rast gəlmədiyi şeylərə ad qoya bilməz. Mühit təbiətcə zəngin olursa dil də genişlənir, ədəbiyyat da zənginləşir.

Xalq ədəbiyyatı ilə məşğul olarkən, bu nəzəriyyənin doğruluğunu hər addımda duyuruq. Bir zaman mən xalq ədəbiyyatını toplayarkən, onları tutuşdurardım. Qarabağda işlədiklərimin Bakıda öyrəndiklərimdən hər cəhətcə yüksək olduğunu görürdüm. Deməli dağlı, meşəli, çeşməli yerin xalqı daha incə dilə, daha şairanə tərkiblərə malik olur.

Nağılı toplayarkən bu nöqtəyə əhəmiyyət verilməlidir.

Nağılın xalq ədəbiyyatına məxsus olmasına baxmayaraq, xalqın hər bir fərdi onu bilmir. Əslən ona aşina olan şəxslər tək-təkdir. Bunları toplamaq və bunlara ehtiyatla yanaşmaq nağıl toplayanın məharətinə bağlıdır. Ələləksər nağıla və bütün xalq ədəbiyyatına vaqif olanlar arvadlardır. Arvadların da içində hamısı yox, yalnız xalqın işinə yarayan və onunla həmişə təmasda olanlar bilirlər. Xalqa yaxın olanlar məşşatələr, ağıçılar, yengələrdir. Ürkütmədən, təşvişə salmadan bunlara yanaşılarsa böyük bir mənbə kəşf edilmiş olar.

Üsula gəldikdə, nağıl ədəbiyyatının müəyyən üsulu var. Onları gözəl edən və süsləndirən müəyyən dil, tərkib və cümlələrdir. Xalq ədəbiyyatı ilə maraqlananlar bu nöqtəni unudarlarsa, çəkdikləri zəhmət hədər olar. Xüsusən cümlələr və dil nağılda da əhəmiyyətli yer tutur. Bir çox nağılların "Biri var imiş, biri yox imiş, allah var imiş, bəndəsi yox imiş" deyə başlandığını hər kəs bilir, qurtardıqda "o yedi yerə keçdi, sən də ye dövrə keç" deyirlər. Gözəl gördükdə "yemə-iç-

mə, xətti-xalına, kül camalına tamaşa et", yol getdikdə "az getdi, üz getdi, dərə-təpə düz getdi" kimi cümlələr nağılın zinəti hesab olunur.

Nağılları toplarkən bunları qeyd etməlidir. Bunlarsız nağıl bütün gözəllikdən məhrum olar.

Xalq ədəbiyyatını toplayarkən kitab təsirinə düşülərsə, böyük xəta zühur edə bilər. Səhv etməmək üçün xalq ədəbiyyatını savadsız mühitdən əxz etməlidir. Bu sahədə kitab təsirinə düşən və şəhərbəşəhər gəzən dərvişlərin nağılları faydasızdır. Çünki bunlar əsil mühitin gözəllik və təmizliyindən məhrumdurlar.

Azərbaycan nağıllarını başqa türk ünsürlərinin masalları və ya qissələri ilə müqayisə etdikdə, bizimkilərin məzmun və fəlsəfəcə onlardan nə qədər zəngin olduğu meydana çıxır. Məsələn, Türküstandakı tarançıların qissələrini tədqiq edirkən nağılın şəkil və məzmunca yalnız azərbaycanca təkmil olunmasına hökm verilir[1]. Nağıllarımızı toplayarsaq, ədəbiyyatımız, dilimiz və mədəniyyət tariximiz üçün böyük bir iş görmüş olarıq.

1928

[1] Паттуссов. Образны таринчиской литературы. Казань, 1909 (müəllif).

NAĞILLARIMIZ BARƏSINDƏ BİR – İKİ SÖZ

Aşağıda dərc etdiyimiz "Caçcı" nağılı qarabağlı ağzından yazılıb, yerli şivə dəyişilməyib. "Caçcı" nağılı zərdüşti fəlsəfəsindən doğmuş sıraya aiddir. Lakin "Məlik Məmməd" qədər dolğun deyil. "Məlik Məmməd"də işıq ilə qaranlığın mübarizəsi[1] bilfeil olmalıdır, burada isə rümuzi bir surətdə ifadə olunur: Həsud qardaşların bütün səyinə rəğmən Caçcı mübarizədən qalib və müzəffər çıxır, nəticədə nökərçilikdən yüksəlib padşah olur.

Haqqın nahaqqa qələbə çalması bir bizdə deyil, başqa millətlərin nağıllarında da əsas təşkil edir.

Onlarda da haqq tərəfdarları yox olmur, fənahərəkətlilər özgələrə qurduqları tələyə düşüb məhv olurlar.

Başqa nağıllarda gözə çarpan 3, 7, 40 rəqəmlərindən "Caçcı"da yalnız 3 və 40-a təsadüf edirik. Türküstanda və türk-tatarların təsiri olaraq rus nağıllarında rast gəldiyimiz 9 rəqəmini bizdə görmürük. Deməli, zərdüşti fəlsəfə və etiqadından doğma nağıllarımız yalnız dil etibarilə türkləşmişlər. Irqi rəqəmini nağıllarda işlədən Orta Asiya yalnız dilcə deyil, məzmunca da nağıllara təsir etmişdir.

Bizdə "biri varmış, biri yox imiş, allah var imiş, bəndəsi çox imiş", – deyə zərdüşti etiqadına bir də islam sərlövhəsi əlavə olunur.

Özbəklərin sərlövhəsi daha həyati və millidir: "Bar ikan, yok ikan, ac ikan, tox ikan, buru biqəval ikan, tülkü yasvıl ikan, gözkun falbil ikan, çomçok çakçı ikan, comalı azğiyu ikan, qaz çörpayçı ikan, [2]
ördək surnayçı ikan, taşbağa çakçı ikan, tarazı dar ikan, qurbağa daş bərdar ikan, qoza paya tozdin ikan, hər bəla qızdan ikan". Özbəklər nağıllarında ölkələrinin heyvan, quş və cüçülərini də iştirak etdirirlər, ziraətlərinin məhsulu pambıq da nağılda özünə yer tapır.

Adətən nağıl zaman və məkandan uzaq olduğu üçün onu hər bir millət özünə qəbul edib mənimsəyir. Bizim bu qisim nağıllarımızdan başqa, bir də tarixə yanaşmışları var. Bunlar ələləksər şah Abbasın şəxsiyyəti ətrafına toplaşmışlardır.

---

[1] Məqaləni 1928-ci ildə çap edən "Azərbaycanı öyrənmə yolu" ilə məcmuəsi burada yazıçının bu fikri ilə razılaşmadığına dair belə bir qeyd verilmişdir: "idarə bu nöqtədə yazıya şərik olmur."

[2] Buru – qurd, biqəval – aşçı, falbil – falçı, çomçok – sirkə, çakçı – dedi – qoduçu, çomalı – qarınca, azqiyu – qərəvəlli söyləyən, çərpayçı – sorucu, taşbağa – tısbağa, taş bədar – diş qoyan, qoza – pambıq, tozdan – duzdan çıxan (müəllif).

Üçüncü qisim nağıllarımız çocuqları əyləndirmək üçündür. “Cırtdan” kimi çocuq nağılları müəyyən fəlsəfə və məntiqdən uzaqdır. Onlarda həyat və zindəganlıq daha çox yer tutur.

İkinci və üçüncü qisim nağıllarımız haqqında başqa dəfə.

CAÇCI

Biri var imiş, biri yox imiş, günlərin bir günü üç qardaş var imiş.

Bunların böyüyü gedir papaqçılıqla, ortancılı başmaqçılıqla, kiçiyi Caçcı da padşaha nökər olur. Padşah Caçcının xatirini çox istəyirmiş, yaxşı yedirirmiş, yaxşı geyindirirmiş. Caçcının o biri qardaşları bunu görüb paxıllıqları tutur, deyirlər. Biz axşama kimi işləyirik, zəhmət çəkirik, heç Caçcı kimi dolana bilmirik. Nə qayıraq ki, Caçcı ölsün, yeri bizə qalsın.

Fikir-fikir eləyirlər, axırda deyirlər: gedək padşaha deyək ki, küpəgirən qarının sənə layiq qızıl qaşıqları var, onu Caçcıdan başqa heç kəs gətirə bilməz, Caçcını göndər gətirsin.

Qardaşlar durub gedirlər padşahın yanına, deyirlər:

– Padşah sağ olsun, güpəgirən qarının sənə layiq qızıl qaşıqları var.

Onları Çaçcıdan başqa heç kəs gətirə bilməz, göndər getsin gətirsin.

Padşah Caçcını çağırır, deyir: gərək o qaşıqları gedib gətirəsən.

Caçcı padşaha baş endirib çıxır.

Buncuğaz yola düşür, az gedir, üz gedir, dərə-təpə düz gedir. Gedir çıxır qarının evinə. Qarıca qızla oturmuş imiş. Caçcını görcək özözünə deyir: nə yaxşı oldu, gəldi, elə bunu kəsib yeyərəm.

Caçcı oturdu. Bir evə göz gəzdirdi, gördü qaşıqlar irəfə düzulüb. Çörək yedilər, yığışdırdılar. Yatanda qarı qızına dedi ki, ağ keçəni öz üstünə sal, qaranı qonağın üstünə, badyanı da qoy, sabah tezdən durub qoyunları suvarmağa gedəcəyəm.

Qız ağ keçəni öz üstünə saldı, qaranı Caçcının üstünə, badyanı da anasının yanına qoydu. Yıxılıb yatdılar.

Gecənin bir yarısı Caçcı durdu, ağ keçəni götürdü, öz üstünə saldı, qaranı da qızın üstünə.

Sabah tezdən qarı qalxdı, qara keçəni götürüb, bıçaqla qızının başını kəsdi, dedi:

– Ay qız, Caçcının ətindən bozbaş as, mən də qoyunları suvarıb gəlirəm.

Qarı getdi. Caçcı durdu, qaşıqları götürüb, getdi.

Qarı da qoyunları apardı çayın qırağına, qabı suya basdı, istədi qoyunlara su versin, gördü qabda su yoxdur. Işıqlanana kimi belə elədi, bir də sübh açıldı, qarı baxdı gördü, badya əvəzinə xəlbir gəlib çıxıb.

O saat barmağını dişlədi, dedi:

– Yəqin bu Caçcının işidir.

Durdu qaçdı evə, gördü qızının başını kəsib, qara keçənin altında qızı imiş.

Qarı bir başına vurdu, bir dizinə, yüyürdü Caçcının dalınca. Getdi gördü Çaçcı tövbələtmə dağını aşıb gedir. Qarı dağı aşa bilməzdi, çıxdı üstə, dedi:

– Ay Çaçcı, vay Çaçcı, həlbət əlimə düşərsən, ətini aşıqca elərəm, qanını qaşıqca.

Caçcı gəlib, padşaha baş endirdi, qaşıqları qabağına qoydu.

– Caçcının qardaşları baxdılar, gördülər bu yenə gəldi çıxdı, qaldılar yana-yana. Bir gün belə, beş gün belə, axırda yenə fikir-fikir elədilər, dedilər: bunu hara göndərək ki, daha qayıdıb gələ bilməsin?

Dedilər: qarının bir tazısı var, yaxşısı budur ki, göndərək onu gətirsin.

Bu səfər qarı lap acıqlanıb, elə ki, Caçcını gördü, daha sağ buraxmayacaq. Getdilər padşahın yanına, dedilər:

– Padşah sağ olsun, küpəgirən qarının bir tazısı var, sizdən savayı heç kəsə layiq deyil. Caçcını göndər, onu gətirsin.

Padşah Caçcını çağırdı dedi.

Caçcı bir az fikirləşdi, gördü əlac yoxdur. Padşaha baş endirib getdi. Az getdi, çox getdi, getdi çıxdı qarının damının üstə. Bacadan baxdı, gördü qarı oturub, yağ əridir, tazısı da yanında oturub. Əlini atdı, bir az torpaq götürdü, bacadan aşağı tökdü. Tazı yuxarı baxıb, dedi: bacbac-bac-bac.

Qarının acığı tutdu, kəfkiri yağdan çıxarıb, tazının başına çırpdı, dedi:

– Dəli olmamısan, köpək oğlunun iti, burada Caçcı nə qayırır?

Tazı acıq eləyib, evdən çıxdı. Caçcı onu tutdu apardı.

Qarı bir az gözlədi, gördü it gəlmədi, dedi: bəlkə də elə Caçcı burada imiş.

Durdu, ora it, bura it, gördü yoxdu. Yüyürdü tövbələtmə dağına, gördü Caçcı gedir. Dedi:

– Ay Caçcı, vay Caçcı, həlbət əlimə düşərsən, ətini aşıqca elərəm, qanını qaşıqca.

Caçcı gəlib padşaha baş endirib, tazını verdi. Caçcının qardaşları baxdılar gördülər, bu yenə gəldi.

Dedilər, biz bunu ölümə göndəririk, qayıdıb gəlir, Padşahın yanında hörməti daha da artır. Nə eləyək, nə eləməyək, bu səfər də qarının qumrulu kürsülərinin dalınca göndərək. Getdilər padşahın qulluğuna, dedilər:

– Padşah sağ olsun, qarının bir dəst qumrulu elə kürsüləri var ki, səndən savayı heç kəsə layiq deyil. Gərək Caçcını göndərəsən onları gətirsin. Padşah Caçcını çağırdı yanına, dedi:

– Nə təhər olsa, gərək o kürsülər mənə gəlsin. Caçcı bir az fikirləşdi, dedi:

– Nə deyirəm ki, padşah sağ olsun, ancaq bir iş var ki, gərək mənə bir xeyli pambıq verəsən.

Padşah pambığı verdi. Caçcı getdi.

Qarı həmişə qoyunları dama doldurub, qabağına kürsüləri düzərdi.

Qoyunlara da tapşırardı ki, Caçcı gəlsə, kürsülərə dəyin, qumruları tərpənsin, mən yuxudan oyanım gəlim.

Caçcı gəldi. Əvvəl yavaşca başladı pambıqları qumruların deşiklərinə doldurmağa. Hamısınıca doldurdu. Sonra çiyninə alıb, apardı. Qoyunlar hə qumrulara toxundularsa da, səs çıxmadı.

Caçcı yenə baş endirib kürsüləri padşahın qabağına qoydu.

Qarı da ki, yenə yüyürdü tövbələtmə dağına, haray haraya çatardı ki, Caççı çıxıb getmişdi.

Qardaşlarını yenə paxıllıq qoymadı ki, düz otursunlar. Yenə fikirfikir elədilər, dedilər: bu səfər Caçcını elə yerə göndərək ki, daha gəlib çıxmasın. Hara göndərək, hara göndərək? Dedilər, bu səfər qarının özünün dalınca göndərək.

Getdilər padşaha baş endirdilər.

Padşah dedi:

– Nə qulluq?

– Dedilər:

– Padşah sağ olsun, küpəgirən qarı belə oyunlar bilir ki, lap sənin məclisinə layiq. Gərək Caçcını göndərəsən, gedib onu gətirsin.

Padşah Caçcını çağırdı, dedi:

– Nə təhər olsa gərək gedəsən, küpəgirən qarını bura gətirəsən.

Caçcı bir az fikirləşdi, öz-özünə dedi: Mən qarının qızının ölməsinə səbəb olmuşam, tazısını gətirmişəm, kürsülərini oğurlamışam.

Əlinə düşsəm ətimi aşıqca eləyəçək, qanımı qaşıqca. Mən onu necə gətirim?..

Fikir-fikir elədi, gördü əlacı yoxdu. Dedi:

– Padşah sağ olsun, gətirrəm, ancaq ki, mənə bir yapıncı ver, hər tükündən bir qumru sallansın, bir çuval ver, bir də başı dəmirli bir çomaq.

Padşah əmr elədi, bir dəqiqədə hamısını hazırladılar. Caçcı geyinib getdi.

Az getdi, üz getdi, dərə-təpə düz getdi, gəldi qarının evinə çıxdı.

Qarıca ocağın qabağında oturmuşdu. Caçcı içəri girən kimi yapıncını silkələdi, qumrular səsləndi. Qarı dedi:

– Sən kimsən?

Dedi:

– Mən əzrayılam, gəlmişəm sənin canını almağa.

Qarı dedi:

– Di yıxılım yerə, al.

Caçcı dedi:

– Burada olmaz, səni aparıb tövbələtmə dağında canını alacağam.

Dur gir bu çuvala.

Qarının əlacı kəsildi, girdi çuvala. Caçcı çuvalın ağzını bərk-bərk bağlayıb atdı dalına apardı. Tövbələtmə dağına yetişdilər. Qarı dedi:

– Di canımı al.

Caçcı qulaq vermədi, dağı keçdi. Qarı çığır-bağır salanda çuvalı yerə qoyub, "çö" demisən qarıya bir çomaq, daha haray hara çatardı, tövbələtmə dağını keçmişdilər.

Caçcı qarını gətirdi padşahın qulluğuna, dedi:

– Padşah sağ olsun, getdim. Amma çuvalın ağzını hələ açma. Mənə qırx boş otaq ver, sonra çuvalı açarsan.

Padşah qırx boş otaq verdi, Caçcı bunlarıca bağlayıb, dalda birisinə çəkildi.

Qardaşlar eşitdi ki, Caçcı qarını gətirib, yığıldılar padşahın qapısına, çuvalı açdılar. Birdən qarı çıxıb, başladı əlinə düşənləri boğmağa, hamınıça boğub, gəldi Caçcı olan evin qapısına. Başını əvvəlki otağın qapısına söykəyib dedi:

– Qoç başı, qoyun başı?

Caçcı cavab verdi:

– Qoç başı.

Qarı bir təkan verib qapını açdı, içəri girdi. İkinci qapıya başını söykəyib dedi:

– Qoç başı, qoyun başı?

Caçcı çavab verdi:

– Qoç başı.

Qarı bir təkan vurdu, ikinci qapını da açdı. İçəri girdi...

Belə-belə "qoç başı, qoyun başı" dedikcə, Caçcı dedi:

– Qoç başı.

Qarı 39 qapını sındırıb, gəldi Caçcı olan otağın qapısına, dedi:

– Qoç başı, qoyun başı?

Caçcı dedi:

– Qoyun başı.

Qarı qapıya təkan vurduqda başı əzilib yıxıldı. Caçcı qapını açıb çıxdı. Çomağı çəkdi qarını öldürməyə, qarı dedi:

– Indi ki, məni öldürürsən, sənə bir şey öyrədim: Mənim qanımdan bir damcı aparıb, hər kəsin burnuna damızsan, dirilər.

Caçcı qarını öldürdü. Qanından bir damcı aparıb padşahın qızının burnuna damızdı. Qız o saat asqırıb, ayıldı. Caçcı dedi ki, hamı ölmüşdü, bircə sənin ürəyin getmişdi, ayıldın.

Qalan adamları Caçcı ayıltmadı. Hamısını yığıb basdırtdı. Caçcı padşahın qızının kəbinini özünə kəsdirdi. Qırx gün, qırx gecə toy oldu.

Caçcı başladı padşahlıq eləməyə.

Onlar yedilər yerə keçdilər, siz də yeyin dövrə keçin.

1928

XALQ ƏDƏBİYYATINDA BƏŞƏRİ TƏMAYÜLLƏR

Xalq ədəbiyyatı ağızdan-ağıza keçib nəsildən-nəslə intiqal[1] edən ədəbiyyata deyilir. Bu tərif haqqında bütün müdəqqiqlərin[2] rəyi bir kimi görünür. Lakin xalq ədəbiyyatı deyilən bu el fikrinin məhsulu kimə və hankı xalqa məxsusdur deyildikdə, bir az çətinlik çəkilir. Çünki bir xalqın arasında məruf olan bir parça, istər şəkil, istərsə mövzu etibarilə başqa xalqların arasında da görünmədədir. Nağıl, atalar sözü, tapmaca kimi xalq ədəbiyyatının növləri bir çox xalqların ədəbiyyatında da mövcuddur. Şəkil kənarda dursun, müəyyən bir mövzu belə bir çox millətlərin arasında dolaşıb durmadadır. Məsələn: "Skazka" adı ilə məşhur "O xitrosti Didoniya" rəvayəti dünyanın hər bir tərəfinə yayılmış bir hekayədir. Öküz və yaxud inək dərisi böyüklükdə bir yer istənilir, sonra dərini kəsib qayış şəklində geniş bir torpağın ətrafına çəkir, yeri işğal edirlər. Rəvayət bundan ibarətdir.

Akademik Miller bu rəvayəti tədqiq edərkən izini Afrika, Hindistan və Avropa arasındakı geniş qitədə bulub, ünvanını qeyd edir[3]. Halbuki, bu rəvayət Qoçum xana və Yermaka da istinad edilir[4]. Şimal türk-tatar xalq ədəbiyyatını toplarkən Radlov üç yerdə dəri rəvayətinə rast gəlir. Yakut sərvətdarlarından Tifin adlı birisinin gəlmə rusları öküz dərisi fəqərəsi ilə aldatması söylənilir. Yalnız Sibir deyil, Orta Asiyada belə bu rəvayət məşhurdur.

XI əsrə məxsus Əbdülqafar Əlmainin "Tarixi-Kaşğar"ından əxz edib yazan Camal Karşi islamiyyətin Kaşğarda yayılmasına dair bir hekayə söyləyir. Kaşğar hökmdarı Oğulcaq Qadir xan hələ "kafir" ikən Nəsir ibn Mənsur adlı bir müsəlman şahzadəsinə yanında yer verir. Şahzadə xoş rəftarı ilə xanın rəğbətini qazanır və nəticədə Artic adlı yerə vali təyin olunur. Bir gün şahzadə məscid tikdirmək üçün xandan inək dərisi böyüklükdə bir yer istəyir. Xan razı olur və şahzadə inək dərisini doğrayıb, müəyyən yerin ətrafına çəkir, ortasında məscid tikdirir.

"Nemətullahi" təriqətini təsis edən Nemətullah Vəlinin də dəri fəqərəsi ilə Mahanda bir yer ələ gətirib məscid tikdirdiyi İran dərvişləri arasında mərufdur.

---

[1] İntiqal edən – keçən
[2] Müdəqqiq – tədqiqatçı
[3] "Russkaə mıslğ", k. XI, 1893 (müəllif)
[4] V.V.Bartolğd. K skazke o xitrosti Didoniə. SPb., 1917 (müəllif)

Azərbaycanda da bu rəvayət dillərdə gəzir. Guya Sultan Məhəmməd Fateh Bizans imperatorluğundan dəri böyüklüyündə bir yer istəmiş, dərini doğrayıb, qayışını Istanbulun ətrafına çəkərək oranı zəbt etmişdir. Bu rəvayətin əsil mənbəyindən uzaqlaşıb, başqa-başqa irqə mənsub xalqlar arasında yayılması və mənimsənilməsi göz önündədir. Xalq ədəbiyyatını tədqiq edərkən mənbə məsələsindən bəhs olunduqda çətinliklərə rast gəlindiyi də bu səbəbdəndir. Müəllifi bəlli olmayan, zaman və məkana az tabe olan bir ədəbi məhsul tədqiq və tətəbbö çərçivəsinə də çətin sığır. Odur ki, bu sahədə yürüdülən rəy və təsəvvür də başqa-başqadır. Ümumiyyətlə, xalq ədəbiyyatı toplanır, müəyyən bir üsula salınıb nəşr olunur, tarixi tədqiqə gəldikdə məsələyə səthi olaraq yanaşılır. Çətinliklərə rəğmən xalq ədəbiyyatını tərif edən ovsafi nöqtələr var ki, sabit deyiləcək qədər qüvvətlidir. O da bunlardan ibarətdir:

1. Xalq ədəbiyyatı millilikdən fəzlə[1] *bəşəridir.*

2. Xalq ədəbiyyatı sənətdən fəzlə günün ehtiyacına xidmət edir.

3. Xalq ədəbiyyatı müəyyən fəlsəfədən məhrum deyil, lakin bu fəlsəfə, bəzi nağıllar istisna edilərsə, mücərrəd deyil, əməlidir.

4. Xalq ədəbiyyatında rümuz, işarə və müqayisə böyük yer tutur.

5. Xalq ədəbiyyatı bir kütlə tərəfindən alınıb, mənimsəndikdə ona milli, ya dini bir süs və rəng verilir. Milli xalq ədəbiyyatı deyildikdə məzkur rəng və süs nəzərə gəlir. Məzmun isə çox yerdə ümumi, bəşəridir.

Azərbaycan xalq ədəbiyyatını bütün ənvai[2] ilə tədqiq edərkən bu yuxarıda qeyd olunan həqiqətlər aşkar bir surətdə meydana çıxır.

Şifahi ədəbiyyatımızın ənvai arasında "Atalar sözləri" daha ümumi və bəşəridir. Aramızda dolaşan bir çox məsəllərin eynini ruslar və başqa millətlərdə də görürük. Bir az araşdırdıqda bunları rusların da başqalarından aldığı məlum olur. Axırda ipin ucu yunan və Roma mütəfəkkirlərinə qədər gedib çıxır. Fikrimizi doğrultmaq üçün bəzi məsəllərimizi rus məsəllərilə, qədim alim və mütəfəkkirlərin kəlamları ilə müqayisə edək.

Azərbaycanlılardakı bəzi atalar sözünü ruscası ilə müqayisə edək:

Ölü dalınca danışma – O pokoynike xudo ne molvi.

İlanı qoynunda bəslədi – Otoqrel zmeyu za pazuxoy.

[1] Fəzlə – artıq

[2] Ənva – növlər

Bir gül ilə bahar olmaz – Odna listoçka ne delayet vesnu.

Əl əli yuyar, əl də üzü – Ruka ruku moet.

Qoyun olmayan yerdə keçiyə Kərəməddin ağa deyərlər – Na bezrıbi i rak rıba, na bez lyudii foma çelovek.

Dost-düşmən yaman gündə məlum olar – Druq poznayetsya v bede.

Hər nə doğrarsan çanağına, o çıxar qaşığına, hər nə əkərsən onu biçərsən – Kak poseeşya, tak pojneş.

Yağışdan çıxdıq, yağmura düşdük – Iz oqnya, da v polımya.

Qurd dərisini dəyişər, xasiyyətini dəyişməz – Volk kajdıy qod menyaet svoyu şubu, da obıçaya ne menyaet[1].

Kim bilir, əlimizdə material olsaydı, bəlkə məsəl və atalar sözlərinin daha da qədim olduğunu isbat edərdik.

Çünki insan ictimai həyata ilk addım atdığı zamandan başlayaraq, şübhəsiz ki, həyati təcrübələr keçirdikcə özünə müəyyən qanunlar cızıb. Bu qanunlar şifahi olaraq nəsildən-nəslə, xalqdan-xalqa keçərək ümumin malı ola bilmişdir.

Başqa-başqa irqlərə mənsub xalqların ədəbi məhsullarının bir-birinə bənzəməsi təbii isə, türk irqinə mənsub ünsürlərin, məsəllərin biri-birinin eyni olması daha da təbiidir. Ləhcə ayrılığı nəzərdə tutulmazsa, türk qövmləri arasında işlənən bir çox məsəllər bir məzmunda, bəlkə bir şəkildədir. Nümunə üçün bir az da Türkiyədə işlənənlərlə Azərbaycanda işlənən atalar sözlərini müqayisə edək.[2]

Saqqalı olmayanın sözü tutulmaz – Saqqalım yoxdur, sözüm ötmür.

Qaşını doğruldurkən gözünü çıxardı – Qaşını düzəltdiyi idi, vurdu gözünü çıxartdı.

Söz böyüyün, su kiçiyin – Yol böyüyün, su kiçiyin.

Kor satıcının kor alıcısı olar – Kor atın kor da nalbəndi olar.

Mum dibinə işıq verməz – Çiraq dibinə işıq salmaz.

Su dəstisi su yolunda qırılır – Su bardağı suda sınar.

Təncərə dövrildi, qapağını buldu – Koduş yumbalandı qapağını tapdı.

Tavığın pilicini gözün sayarlar – Cücəni payızda sayarlar.

İtin axmağı qayqanağdan pay umar – Tulanın əbləhi qaysabadan pay umar.

---

[1] 1 I.E.Timohenko. Literaturnıe pervoistoçniki 300 russkix posloviü i poqovorok. Kiev, 1897 (müəllif)

[2] 2 Qeyd: Birincilər Türkiyədə, ikincilər Azərbaycanda işlənir.

Keçiyə can qayğısı, qəssaba yağ qayğısı – Keçi can qaydında, qəssab da piy axtarır.

Köpək dəvəyə hürmüş də, dəvənin xəbəri yox – Ayı meşədən küsmüş, meşənin xəbəri yox.

Dəvəçi ilə qonuşan qapısını böyük açar – Sarban ilə yoldaş olanın darvazası gen gərək.

Sən ağa, mən ağa, bizim unu kim üyütsün – Sən ağa, mən ağa, bəs inəkləri kim sağa.

Səbir elə, tut yarpağı sarı altun olur – Səbir elə, qurut halva olur.

Və ya:

Səbir elə halva bişər, ey qora səndən,
Bəsləsən atlas olar tut yarpağından.

Dərziyə çıx demişlər, iynəm başımda demiş[1].

Dərziyə köç demişlər, iynəsini yaxasına sancmışdır.

Yalnız Türkiyədə deyil, bizdə işlənən məsəllərin eynini Türküstanda və Krımda görürük. Məsələn: "Azacıq aşım, ağrımaz başım", Krımda "Azğana aşım, qayğusuz başım" şəkli alır. Yaxud bizim "Anasına bax qızını al, kənarına bax bezini al" məsəli tarançılarda belə deyilir: "Ana görüb qız al, qırğaq görüb bez al[2]. Bəzi yerdə: "Ana görüb qız alğıl, qırğaq körüb bez alğıl"[3] da deyirlər.

Nümunə üçün bir az da tarançılarda işlənənlərlə Azərbaycanda işlənənləri müqayisə edək[4]:

Yetimin ağzı aşqa təksanda, başı taşta təkdi – Yetimin ağzı aşa çatdı, başı daşa.

Qızım sənə ayıtım, gəlinim sən eşit – Qızım sənə deyirəm, gəlinim sən eşit.

Yutğanğa bakıb fotsun – Yorğanına görə ayağını uzat.

Üz toysa, göz toymaz – Qarnı doysa, gözü doymaz.

Tama, tama göl tuşar – Dama-dama göl olar.

1928

[1] V.V.Radlov. Obrazüı narodnoy literaturı severnıx törskix plemen t. VI, SPb, 1886 (müəllif)
[2] N.N.Pantusov. Obrazüı tarançinskoy literaturı. Kazanğ, 1909 (müəllif)
[3] V.Qordlevskiy. Obrazüı osmanskoqo narodnoqo tvorçestva, t. I, Moskva, 1919 (müəllif)
[4] Qeyd: Birincilər tarançılarda, ikincilər Azərbaycanda işlənir.

XALQ ƏDƏBİYYATININ TƏHLİLİ

Onillik Şura üsuli-idarəsi Azərbaycan həyatında böyük təbəddülata səbəb oldu: əskimiş, çürümüş quruluş, əfsanəvi etiqad yıxıldı. Yerində yeni bir bina, yeni bir yaşayış sahəsi başlandı. Bu yenilik ədəbiyyat və nəşriyyat işlərində də canlandı və gözəl məhsullar verdi. Oktyabr inqilabından əvvəl yalnız məhdud bir zümrənin malı olan ədəbi bir əsər, bu gün minlərcə nüsxə nəşr edilib geniş kütlənin arasında yayılır. Istər yazılı, istərsə şifahi ədəbiyyatımıza dair bir çox material meydana çıxdı və çıxmaqdadır. İndi artıq tədqiq üçün böyük imkanlar əldə edilir. Toplananları sistemə salmalı, təhlil etməli və mövcud olan nəzəriyyələrin tətbiqinə çalışmalıdır.

Bu gün Azərbaycan gəncləri arasında xalq ədəbiyyatına böyük bir maraq oyanmış, kəndbəkənd gəzilir, ağızdan-ağıza keçən, əsrlər məhsulu olan atalar sözü, bayatılar, nağıllar, aşıq sözləri toplanır. Lakin bir çoxlarının hazırlığı olmadığı üçün yığdıqlarında qüsurlar görünür, xalq şivəsini lazımınca gözləmirlər, şəhər təsirinə qapılırlar. Çox vaxt ədəbi sözlər qataraq, xalq əsərinin ahəngini pozurlar. Bilxassə Hümmət Əlizadə yoldaşın topladığı materiallarda bu qüsurlar görülməkdədir. İrəlidə qüsurlara yol verməmək üçün həvəskar gənclərimizi mətbuat vasitəsilə hazırlamalıyıq. Bir çoxları rusca bilmədikləri üçün mühüm mənbələrdən istifadə edə bilmirlər. Türk və Şərq aləmində bu yolda az çalışılmış və etinaya layiq bir əsər meydana çıxarılmamışdır. Halbuki, türklər zəngin bir xalq ədəbiyyatına malikdirlər və çalışmaq üçün geniş bir sahə vardır.

Məsələnin çətinliyi xalq ədəbiyyatındakı təsirləri araşdırmaq, ondakı qaranlıq nöqtələri izah etməkdən ibarətdir. Zahirən aydın görünsə də, şərhə ehtiyacı olan nöqtələr çoxdur. Məsələn: "Xoruz olmasa sabah açılmaz" deyirlər. Bu atalar sözünü anlamaq üçün xoruzun qədim tarixdə oynadığı rolu bilməliyik. Zərdüştilərdə "pəridar" adlanan xoruz müqəddəs kimi tələqqi olunur, çünki işığın və gündüzün zühurunu xalqa xəbər verir. Xoruz işıq allahı Hürmüzdün güruhundan sayılır.

İzahata ehtiyacı olan bir başqa misal alaq:

Ay getdi batan yerə,
Mələklər yatan yerə,
Sinəmi nişana qoydum
Yar oxun atan yerə.

Əksər bayatılarda olduğu kimi, burada da paralelizm var. Sonku iki misra qüvvətini birinci misralardan alır. Birinci misraları izah edək. Xalq etiqadınca ay oğlandır, günəş qız. Ay mütəmadiyən günəşin peşincə[1] dolanır. Yuxarıda göstərdiyimiz bayatıda ay mələklər yatan yerə gedir. Burada ay həssas bir aşiq kimi göstərilir. Bayatını söyləyən öz eşqini və eşq yolundakı fədakarlığını ayın eşqilə bərabər tutur...

Deməli, xalq ədəbiyyatını ətraflı bilmək üçün bir çox tarixi məlumat əldə etməli, xalq adət və ayinlərini bilməli, əsatir qismini öyrənməli və başqa xalqlarınkı ilə müqayisə etməlidir. Belə olmazsa tədqiqatımız səthi və yarımçıq qalar. Bu sahədə avropalılar çox çalışmışlar və bir neçə nəzəriyyə vücuda gətirmişlər. Qısa olaraq bu nəzəriyyələri gözdən keçirək.

Birinci nəzəriyyə əsatiri, yaxud ari nəzəriyyəsidir. Bu nəzəriyyəni müdafiə edənlər: Qrimm, Kun, Şvarts, Maks Müller, Buslayev, Afanasyev, Potebnya və başqalarından ibarətdir. Bunlar tədqiqatlarını ari fikrinə mənsub xalqlar arasında aparırlar və bunların nəzərincə nağıl, əfsanə və epik mövzular əsatirdən doğmuşdur. Odur ki, nəzəriyyənin adı "əsatir, yaxud ari"dir. Bu nəzəriyyəcə ari irqi ibtidai vətənini tərk edərkən, özü ilə bərabər bir çox əsatir də aparmışdır.

Bu əsatirlərdə allahlar və qəhrəman sifətində təbiətdəki arizələr[2] təmsil olunmuşdur. Ari irqi ayrı qövmlərə bölünərək, dünya üzünə yayıldıqdan sonra ibtidai vətənlərindən gətirdikləri əsatirləri təkamül yolu ilə inkişaf etdirərək nağıl və epik əfsanə şəklinə salmışlar.

Avropa və bəzi Asiya xalqlarının nağıl və əfsanələrinin biri – birinə bənzəməsini bu nəzəriyyə ilə izah edirlər.

Bu nəzəriyyə yolunda ilk müqtədir bir əsər vücuda gətirən alim Yakov Qrimm olmuşdur. Qrimm əsatirləri toplamış, sistemə salmışdır. Qrimmin təsəvvüründə əsatir vasitəsilə ibtidai insanlar öz fikir və hisslərini ifadə etmişlər. Odur ki, əsatir lisan kimi xalq yaradıcılığının məhsuludur. Dillər müəyyən ailəyə mənsub olan kimi, əsatirlər də müəyyən qruplara ayrılır.

Əsatirin mənşə və inkişafına dair Qrimm bir şey söyləməmişdir. Lakin onun başladığı işin davamına şagirdləri Kun və Şvarts çalışmışlar. Hind-Avropa dillərinin tədqiqilə məşğul olan Kun lisaniyyətdəki

[1] Dalınca
[2] Baş verən hal, hadisələr

müqayisəli üsulu əsatir tədqiqində tətbiq etmişdir. İbtidai xalqlar arasında odun kəşfinə dair tədqiqat apararaq, vəhşilərin bir dəyirmi taxtanın və ya təkərin ortasını deşib bir ağac taxaraq fırladıqlarını və bu vasitə ilə od və qığılcım çıxardıqlarını anladır. Təbiətdə də ay və günəşin dəyirmi olduğunu görən vəhşilər, göydə də dairənin ortasını deşib ağactaxma üsulunun varlığına qane olmuşlar.

Məlum olduğu üzrə, qədim yunan əsatirində Prometey adlı birisi göydən od oğurladığı üçün Qaf dağında zəncirlənməyə məhkum olmuşdu. Prometey sözünü Kun sanskrit dilindəki "pramathuis" tələffüzü ilə rabitəli görür. Hindistanın ən qədim kitabı hesab olunan "Riq Veda"da təsadüf olunan "pramathuis" sözü "deşici" deməkdir. Zaman keçdikcə dairənin ortasını deşmə məfhumu qaib olmuşsa da, göydən yerə od gətirən Prometey adı qəhrəman sifətilə insanlar arasında qalmışdır.

Deməli, bu nəzəriyyəcə ibtidai insanlar fəzadakı arizələri həyatda təsadüf etdikləri hərəkətlərlə izah etmişlər.

Qrimmin o biri şagirdi Şvarts müəlliminin nəzəriyyəsini inkişaf etdirərək, ildırım kimi arizələrə əhəmiyyət verir. Bunları tədqiq edərək, əsatirdə iki dövr qeyd edir: biri ibtidai, biri yüksək. İbtidai əsatir əcdadın ruhlarını təqdis etməkdən ibarət imiş. Sonra bu əsatir inkişaf edərək qədim yunan tarixində gördüyümüz kimi yüksək bir şəkil almışdır.

Qədim əsatirlərdə işıq və qaranlıq, buludluq və günəş kimi bir-birinə zidd amillər olduğunu Şvarts ilk dəfə qeyd edir.

Kun və Şvarts fəzadakı arizələr ətrafında olan əsatirləri tədqiq etdikləri üçün bunların nəzəriyyəsinə "meteorik" nəzəriyyə deyilir. Bu nəzəriyyədən sonra "günəş nəzəriyyəsi" zühur edir ki, bu da günəşin ətrafında toplanan əsatirlərin tədqiqilə məşğul olmuşdur. Bu nəzəriyyənin müməssili məşhur lisaniyyətçi Maks Müllerdir.

Müller əsatiri öyrənmək üçün ibtidai insanların dilindəki xüsusiyyətlərə diqqət edir. Deyir ki, ibtidai insanlar bir şeyi bir sözlə deyil, əlamətlərilə adlandırardılar. Zatən bir şeyin bir çox əlamətləri olduğundan, ona bir çox adlar da qoşmuşlar. Məsələn: Günəş və ay ona qədər ad, sifət və istiarəyə malik idi. Zaman keçdikcə bu sifətlər ilk mənalarını qeyb etmiş, canlı bir məxluq təsəvvür olunaraq təbiətdəki arizələrin rümuzuədd olunmuşdur. Məsələn: ibtidai insan günəşin batmasını belə ifadə edirmiş: "Parlaq istirahətə gedir". Bilaxirə bu ifadə-

dən bir əsatir doğmuşdur: “parlaq”ı canlı bir insan zənn etmişlər. Sonra, bir şeyin bir çox adı olduğundan və bir ad bir çox şeylərə verildiyindən bəzi şeylər bir neçə sifət daşımışdır. Məsələn: at və şüa, dəniz və göy, günəş və göz. Yəni bir söz həm at, həm şüa mənasını ifadə edir. Müəyyən ləfz dənizi və göyü andırır və i. a. Bilaxirə şüanı göyün atı, günəşi göyün gözü deyə təlqin etmək bundan irəli gəlmişdir.

Müllerin fikrincə bir sözlə bir neçə məna ifadə etmək dildə bir xəstəlik törətmiş və bu xəstəliyə də Müller əsatir adı verir.

Spenser, Teylor və Lebbok kimi antropoloqlar da bilaxirə bu nöqteyi- nəzəri müdafiə etmişlər. Spenser deyir: həyatımızda bir çox ifadələr işlədilir ki, bunlar bizim üçün müəyyən mənadan məhrumdur. Halbuki, vaxtı ilə bunların böyük əhəmiyyəti varmış. Məsələn: birisi asqıranda ətrafındakılar “ya allah, şükür” deyirlər. Bunun mənası bir çoxlarına bəlli deyil, halbuki, əsatirə görə bir adam asqıranda cin və şeytan kimi fəna qüvvələrdən xilas olur. Odur ki, ətrafındakılar şükür eləməklə onu təbrik edirlər.

Qədim zamanlarda belə müəyyən mənaya malik hərəkətlər bir çox xalqlar arasında görünməkdədir. Başqa-başqa xalqların müəyyən adətlərinin biri-birinə bənzəməsi ibtidai insanların eyni psixologiyaya malik olmaqlarından irəli gəlir. Odur ki, ibtidai etiqaddan ibarət olan əsatir bütün xalqlara aiddir, bir-birinin eynidir. Çünki əhval-ruhiyyə müəyyən dərəcəya çatdıqda müəyyən məhsul verir.

Teylorun təsəvvüründə ibtidai psixologiya animizmə isnad edir, yəni insan öz fikrini, iradəsini, məzacını və bütün xislətlərini təbiətdəki arizələrdə görür. Vəhşilərin etiqadınca ay, günəş, ildırım və i. a. birər canlı məxluqdurlar və insani xislətlərə malikdirlər.

Teylor zatən maddi monizm tərəfdarıdır, onun fikrincə ibtidai insane yaşadığı mühitin, keçirdiyi təcrübələrin sayəsində təbiətdəki amilləri canlı tələqqi etməyə başlamışdır. Məsələn: ibtidai insan kölgəsini görərək özündən başqa bir ayrı adamın da yaşamasına etiqad edə bilirdi. Röya və sayıqlama kimi hallar da eyni etiqadı təlqin edirdi. Bu etiqaddan “dünya” və “axirət” məsələsi çıxaraq dinlərin əsasına vəz olunmuşdur. Qədim Misir və Meksikada hər bir insanın bir qarşılığı olduğuna inanılır və bir zaman biri-birinə qovuşacaqlarına etiqad olunurdu. Odur ki, insan öləndə onun bədənini balzame edər və bütün əşyası ilə mühafizə edərdilər. İslamiyyətin qiyamət əfsanəsi də bundan irəli gəlmirmi? Xalq zehnincə suri-İsrafil çalınacaq və hər bir qə-

birdən qırx baş qalxacaq. Azərbaycanda ölünü dəfn edərkən, qoltuqlarının altına söyüd ağacından söykənəcək qoyurlar ki, sorğu zamanı yerindən qalxması asan olsun.

İndi başqa nəzəriyyələrə keçmədən əvvəl əsatiri nəzəriyyənin bəzi cəhətlərinin tənqidi ilə məşğul olmalıyıq. Iqtibas nəzəriyyəsini izah edərkən, bir çox biri-birindən uzaq məsafədə yaşayan xalqların şifahi ədəbiyyatının biri-birinə bənzəməsini görəcəyik. Bunun səbəbi nədir? Əsatir nəzəriyyəçilərincə bu arilərin əcdadına məxsus əsatirlərdir ki, ibtidai insanlar vətənlərindən çıxdıqda özləri ilə aparmışlar və tarixdən əvvəlki zamanlardan hal-hazıra qədər saxlamışlar. Halbuki, ibtidai əsatir əsrlərdən bəri inkişaf edərək mürəkkəb mövzular şəklinə düşməli idi. Bir-birindən məkanca ayrı yaşayan, başqa-başqa coğrafi, iqtisadi və ictimai mühitdə yaşayan xalqların "əcdadı" əsatirləri hərə öz mühitinə görə təkamül etdirməli idilər. Həqiqət hal isə, bunun əksini göstərir: bir çox xalqların şifahi ədəbiyyatı biri-birinə müşabihdir[1].

İş bu surətdə olduqda, bütün təfsilatı ilə biri-birinə bənzəyən ədəbi məhsulların qəbləttarix ibtidai ari vətənindən gətirilməsini iddia etmək doğru olarmı?

Məsələni aydın etmək üçün sadə əsatiri, mürəkkəb mövzulu əsatirdən ayırmalıyıq. Ibtidai insan təbiətdə gördüyü bir çox arizələrin əsil səbəbini dərk edə bilmir. Məsələn: bizim xalqın ibtidai zehniyyətdə yaşayan qisminə müraciət edək. Bunların etiqadınca ayın anası xəmir yoğururmuş, ay gəlib çörək istəmiş, anasının acığı tutaraq əli xəmirli oğlunun üzünə bir şapalaq vurmuşdur. Ayın üzündəki ləkə haman xəmirli əldən qalan ləkədir.

Nümunə üçün göstərdiyim bu əsatir sadə şəkillərdir ki, bir çox xalqlar arasında mərufdur. Bunlar ibtidai psixologiyadan doğaraq biribirinə heç bir təsiri olmayan qövmlər arasında eyni şəkil ala bilər.

Lakin nağıl və əfsanə kimi mürəkkəb mövzulu əsatirlərin bir-birinə bənzəməsi ari nəzəriyyəsilə izah olunmaz. Tarixdən əvvəl bir-birindən ayrılmış xalqlar bu mövzuları bütün təfsilatilə saxlaya bilməzdi. Sonra müəyyən və bir-birinə bənzər mövzuları yalnız ari irqinə mənsub qövmlərdə deyil, başqa irqlərə məxsus olanlarda da görmək olar.

[1] Müşabih – oxşar

* * *

Əsatiri nəzəriyyədən sonra ən məruf iqtibas nəzəriyyəsidir. Bu nəzəriyyə məşhur filosof Benfeyin "Pancatantra"ya yazdığı müqəddimə ilə başlayır. "Pancatantra" (beş kitab) Şərq nağıl və əfsanələrinin tərcüməsindən ibarətdir. Bu əsərin tədqiqi sayəsində Avropa xalqları arasında dolaşan şifahi ədəbiyyatın Şərqdən iqtibas olunmasını Benfey meydana çıxarmışdır. Benfeyin nəzəriyyəsi o qədər xoşa getmişdir ki, onu V.Müller, Tatanin və Veselovski, Şifner, Stasov kimi alimlər təqib edərək, bu sahədə tədqiqatda bulunmuşlar.

Stasov rus eposunu Qərbinki ilə müqayisə edərək, ikisinin də Şərqdən iqtibas olunduğunu göstərir. Yalnız onun fikrincə, Qərb əxz etdiyi rəvayətləri işləmiş və mənimsəmiş olduğu halda, Rusiya işləməmişdir. Bəzilərinin fikrincə rus xalq ədəbiyyatına monqolların təsiri olmuşdur. Şifner bu təsirin Qafqaz vasitəsilə Irandan gəldiyini iddia edir. Bu fikri V.Müller bir az daha inkişaf etdirir. Rus eposunu tədqiq edərkən Ilya Murometsi Firdovsinin Rüstəmi ilə müqayisə edir və aralarında yaxınlıq görür. Ilya Kiyevə, Rüstəm də Mazandarana gedir.

İkisi də oğulları ilə dava edirlər. Sonra rus eposundakı qəhrəmanlar yaşayış, səciyyə etibarilə tamamilə şərqlidirlər. Çadırda yaşayırlar, atdan ayrı durmurlar. Daşıdıqları "boqatır" adı belə farsın "bəhadir" indən əxz olunmuşdur. Halbuki, ruslar oturaq bir xalq olduqlarından çadıra da ehtiyacları olmamışdır. Ata pərəstiş etmələri belə sırf rus həyatından uzaq şeydir. Müllerin sözlərinin qüvvəti üçün atın yalnız farslarda və türklərdə ayrıca bir mövqeyə malik olduğunu göstərə bilərik. Sonra rus bılinası Ilyanın otuz il aramsız oturduğundan bəhs eləyir. Bunu da Sibir tatarlarının xalq ədəbiyyatında görürük. Bir nağılda Alp Altun xan 40 il yatır və i. a.

Şərq nağıllarına vaqif olan səyyah Patanin də iqtibas nəzəriyyəçilərindəndir. Pataninin fikrincə rus eposundakı ümumi fikirlərə, ayrıca parçalara monqol dastanında da rast gəlinir. Yalnız Pataninin fikrincə iqtibas tarixdən əvvəlki zamanlara təsadüf edir. Böyük hicrət dövründə xalqlar Şərqdən axıb Avropaya keçirkən əfsanə və dastanlarını ruslar arasında yaya bilmişlər.

İqtibas nəzəriyyəçiləri arasında ən irəli gəlmiş, şübhəsiz ki, Veselovskidir. Veselovski Süleyman dastanını təhlil və buna olan təsirlərdən bəhs edir. Nəticədə Vikramaditi taxtının ətrafında uydurulmuş məşhur hind hekayəsinin Süleyman "peyğəmbər"in şəxsiyyəti ətrafı-

na köçürüldüyünü qeyd edərək, Süleyman dastanında Zərdüşt dualizminin böyük bir yer tutduğunu söyləyir.

Vikramaditi birinci əsrdə yaşamış bir padşahdır. Bu padşahın taxtı haqqında mövcud 32 nağıl budda dini ilə bərabər Monqolustana keçmişdir. Burada bu nağıllar yəhudilərə keçmiş və Süleymanın şəxsiyyəti ətrafına toplanmışdır. Bilaxirə Süleyman əfsanəsini müsəlmanlar yəhudilərdən əxz edərək Avropada yayılmasına səbəb olmuşlar. Beləcə məruf bir hind əfsanəsi xalqdan-xalqa keçərək, bir çox təğyirlərə uğramış, qol-budağa ayrılmışdır. Adlar dəyişilmiş və vəqələr başqa-başqa tarixi şəraitlərdə göstərilmişdir.

Vəqə cəhətincə hind malı olan Süleyman dastanı fəlsəfə etibarilə tamamilə Iran və Zərdüşt etiqadlarını daşıyır. Novuxodonosrun yəhudiləri əsir edərək Midiyaya (bugünkü Iran Azərbaycanına) sürgün etməsi tarixcə bəllidir. 70 il davam edən (536-606-cı sənələr, İsadan əvvəl) bu əsarət yəhudiləri farslarla yaxınlaşdırdı. Yəhudilər fars təsirinə düşməyə bilməzdilər. Bilaxirə Iran padşahı Kir yəhudilərin vətənlərinə dönməsinə müsaidə etdisə də, yəhudilərdən yalnız iki qol döndü, yerdə qalan isə Iranı vətənlərinə tərcih etdi. Burada qalan yəhudilər tamamilə Zərdüşt etiqadına qapıldı. Sasanilər dövründə İran dövlət təşkilatı qüvvət kəsb edən bir zamanda zərdüştilik də parlaq bir vəziyyətdə idi. Beləliklə o zaman yəhudi dimağına olan İran təsiri bir qat daha artmışdı. Odur ki, bu vaxt yazılmış yəhudi əsərlərində İran dualizmi açıqdan-açığa görünmədədir. Talmudun toplanması bu vaxta təsadüf edir. Və Sami dinlərində əsası təşkil edən vəhdətə rəğmən
Talmud fars etiqadı və fars adları ilə doludur. Məsələn, zərdüştilərdəki mitraya (Mehr-günəş allahı) qarşı Talmudda Mitran adına rast gəlinir. Aesto-dayevanın qarşılığı Eşmadaydır. Aesto "Avesta"ca fəna divlərdən biridir. Bu div daima işıq allahı Hörmüzdlə mübarizədə bulunur. Vücudları məhv edən, xeyir işləri batırandan hiddəti çoxdur. Bu div bütün əsrarəngiz biliklərə, təbabətə vaqifdir. Ətrafındakı divlərə sərkərdəlik edir. Talmudun təsvir etdiyi Eşmaday "Avesta" divining malik olduğu xislətləri daşıyır. Süleymanın yanına gətirilərkən acığından bir ağacı kökündən qoparır və evi uçurur, Süleymanın özünü də 400 verst bir məsafəyə atır.

Süleymanın şəxsiyyəti də Iranın əfsanəvi hökmdarlarını andırır. Süleyman ağıl və zəka sahibidir. Ins və cinə hakimdir. Heyvanatın dilini bilir. Hökmünü göstərmək üçün heyvanları, quşları, cinləri və şə-

yatini gətirdir, qarşısında rəqs etdirir. Məbəd tikdirəndə cinlər ona yardım edir. Eşmadayı belə özünə tabe edir, inşaatına yardım etdirir. Lakin Süleyman xudpəsəndliyə qapılarkən Eşmaday ona qələbə çalır və Süleyman Sinaşıqdan köçməli olur.

İndi Talmudun Süleymanın təsvirini izah etmək üçün İran tarixinə müraciət edək. Pişdadyan sülaləsinə mənsub Huşəngin divlərlə müharibə etməsini, onlara qələbə çalaraq yerin 7 qitəsini özünə tabe etməsini rəvayət edirlər.

Huşəngdən sonra gələn Təhmurəs də divlərlə mübarizə edir, qələbə çalır. Divlər onun inşaatına yardım edirlər. Əhrimənin özünü belə tabe bir hala gətirir. 30 ilin müddətində hər gün onu minir, yer üzünü dolanır. Təhmurəsin hökmünün səbəbi qorxusuzluqdan irəli gəldiyini Əhriman bilirdi. Qorxan zamanı olub-olmadığını Əhriman bilmək istəyir, qadınını əldə edərək Təhmurəsin yalnız Elbrus dağından keçərkən qorxu duyduğunu öyrənir. Əhriman bundan istifadə edib Elbrusdan keçirkən Təhmurəsi öldürmüş və başqa bir rəvayətə görə udmuşdur. Təhmurəsdən sonra Iran taxtına cülus edən Cəm (Cəmşid) adil və aqil bir surətdə təsvir olunur. Novruz bayramının binasını, Persopolis şəhərinin təsisini Cəmə isnad edirlər, guya onun bir Cami-cahannüması varmış ki, bütün dünya oradan görünürmüş.

Cəm də Süleyman kimi insə və cinnə hakim imiş. Divlər ona saraylar tikərmişlər. Cəmin vaxtında Iran səadət içində yaşarmış. Bunu görən Cəm bütün müvəffəqiyyətləri özünə isnad edərək, qürurlanmağa başlayır. Nəticədə bütün qüvvəti quş sifətilə onu tərk edir. Iqtidarını qaib edən Cəmə fəna qüvvələr yol tapırlar. Zöhhak[1] zühur edir. Nəticədə Cəmşid məğlub olaraq səltənətdən vaz keçir.

Beləliklə, Iran əfsanəvi tarixindən alınmış bu parçalar Süleyman hekayəsinə olan təsirlərin mənbəyi açıqca göstərir. Iran zehniyyətindən doğmuş dualizm: xeyir ilə şərin mübarizəsi Süleyman hekayəsinə sirayət edərək yəhudilərdən Bizansa, oradan Rusiyaya və Qərbə keçmiş, cürbəcür əfsanələr doğmasına səbəb olmuşdur.

Şərqin Qərbə etdiyi təsirdən bəhs edərkən bu təsir nə zamanlardan başlamış deyə sual hasil olur. Böyük hicrət, arilərin Avropaya köçməsi, Şərqlə Qərbin ticarəti, iqtisadi əlaqələr, qədim dinlərin inti-

[1] Firdovsinin təsvir etdiyi Zöhnak “Avesta” da Azhidehaka (əjdaha) adlanır (müəllif)

şarı kimi amillər müəyyən təsirlərin yayılmasına böyük səbəb ola bilərdi. Bununla bərabər Makedoniyalı Iskəndərin Şərqə səfəri, yunanların Yaxın Şərqdə ikiəsrlik hakimiyyəti Avropa təsirini Şərqdə yaya bilərdi.

Bu barədə Avropa alimlərini dinləyək:

Veder 1871-ci ildə nəşr etdiyi bir əsərdə Şərqlə-Qərbin bir-birinə olan qarşılıqlı təsirindən bəhs edərək Isgəndər səfərinin nəticəsini anladır: "Hindistanın şimali-qərbinə və Qərb vilayətlərində yunan knyazları iki əsr hakim bir vəziyyətdə olmuşlar. Hind saraylarına yunan elçiləri gəlirdi.

Yunan ticarəti, fənni və sənəti hind mərkəzlərində rol oynardı və oralarda yunan təsiri zənn olunacaq dərəcələrdən daha çox idi. Memarlıq, sikkə zərbi, münəccimlik və teatr həyatı ilə yanaşı yunanlar Hindistanda Qərbin dastan, əfsanə və əsatirini, hətta dini xurafatı da yaymağa müvəffəq olmuşlar. Eyni münasibət nəticəsi olaraq Hindistanın bir çox maddi və mənəvi mədəni məhsulları Avropaya keçmişdir. Bunu demək olar ki, xristianlıqdan əvvəl Qərbin Şərqə təsiri çox idisə də, xristianlıq dövründən başlayaraq Şərq təsiri üstün gəlir".

Benfey Şərqin Avropaya etdiyi təsirin başlanğıcını xristianlığın zühurundan on əsr əvvəllərdə görür.

Şərqin Qərbə təsiri Benfeyin qeyd etdiyi zamandan daha əvvəl olmalıdır. Təsirdə şübhəsiz ki, zərdüştiliyin rolu böyük olmuşdur. Mədəniyyət yayan, həyatın və yaradılışın əsasını mübarizədə görən bu din xristianlıqdan on-on beş əsr əvvəl Yaxın Şərqdə böyük bir mövqe qazanmışdı. Zərdüşti ruhaniləri möğlər[1] Babildə, Kapadosyada zərdüştiliyi yaymağa çalışırdılar. Bunların təsiri o qədər böyük idi ki, Pompey ordusu (xristianlığa bir əsr qalmış) zərdüştiliyə qapılmış və mitra (mehr) allahını mənimsəmişdi. Fransız alimi Huart "Qədim Iran" (Paris, 1925) adlı kitabında deyir: "Pompeydən başlayaraq Konstantin zamanlarına qədər mehrə pərəstiş etmək, romalılar, bilxassə əsgərlər arasında böyük mövqe qazanmışdı. Bu xristianlığa belə təhlükə təşkil edirdi".

Beləliklə, iqtibas nəzəriyyəsinin nə qədər mühüm bir nəzəriyyə olduğunu bu qısa tədqiqatdan görmək mümkündür. Türk-tatar xalq

[1]Cəmi möğandır. Möğlər qədim zamanlar Muğanda yaşamışlar. Bunu IX-X əsr ərəb coğrafiyaşünasları da qeyd edirlər (müəllif)

ədəbiyyatının ayrı-ayrı nümunələrinin təhlili ilə məşğul olarkən iqtibas məsələsi daha da aydınlaşacaq. Indilik bununla iktifa edərək, bir neçə söz də tarixi nəzəriyyəyə dair söyləməliyik...

Tarixi nəzəriyyə xalq ədəbiyyatında tarixi və məişət izləri arayır. İlk əvvəl bu nəzəriyyəni meydana atanlardan biri rus alimlərindən Maykovdur. Bu alim Vladimir ətrafında toplanmış rus eposunu tədqiq etmişdir.

Tarixi nəzəriyyə bizcə, nisbi olaraq qəbul oluna bilər. Çünki tarixi bir simaya isnad edilən əfsanələrin çoxunun iqtibas olunduğunu gördük. Məsələn, bizlərdə Şah Abbas ətrafında bir çox nağıllar söylənilir. Halbuki, bu nağılların izini Şah Abbasdan çox irəlidəki zamanlarda görürük. Nağıl və əfsanələr kimi zaman və məkan tanımayan xalq ədəbi nümunələrinə ehtiyatla yanaşmalıyıq. Bunlarda müəyyən tarixi etiqadların izi görünə bilər. Lakin tarixi şəxsiyyətlərin qondarılması sünidir. Məsələn, Axsıxa türkləri nağıllarında Osmanlı sultanlarından və Istambuldan bəhs edirlər. Halbuki, məzmun etibarilə bu nağıllar bizlərdə və Iranda söylənənlərin eynidir.

Tarix və məişət izləri atalar sözlərində, bayatılarda, tapmacalarda, vəsfi-hallarda daha çoxdur. Bunlarda yenə müəyyən bir fikir zaman və məkana bağlanmış, hər kəs öz mühitinə görə uydurmuşdur.

Hər halda zikr etdiyimiz bütün nəzəriyyələr xalq ədəbiyyatının təhlilində lazım olacaqdır. Bunlardan hərəsinin öz mövqeyi vardır.

1929

VƏSFİ-HAL

Xalqımız arasında novruz bayramına bir ay qalmışdan başlayaraq çərşənbə axşamı vəsfi-hal salmaq kimi bir adət vardı. Qadın və qızlar toplanaraq, bir badya su qoyar və hərədən bir nişan alıb suya salardılar. Badya başında oturan qadın təsadüfən əlinə keçən nişanı sudan çıxarıb bir vəsfi-hal söyləyər, bu qayda ilə fala baxardılar. Deməli, nişan verənin ürəyində bir niyyəti olar və niyyətinin baş verəcəyini və ya verməyəcəyini söylənən vəsfi-haldan duyardı.

Vəsfi-hal adəti ruslarda da var. Afanasyev "Poetiçeskiye vozzreniya slavyan na prirodu" adlı əsərində bu adəti belə təsvir edir: "Bir qab çeşmə suyu gətirirlər, içinə bir parça çörək, bir çimdik duz, kömür və bir az kül töküb, qabı ağ örtüklə örtürlər. Sonra qısa olaraq gələcəyi xəbər verən mahnılar oxuyurlar. Oxuduqdan sonra suya salınmış şeylərdən ilk ələ gələnini çıxarırlar. Şey sahibi mahnının sözlərini qədərlənmiş hökm kimi qəbul edər" (c. II, səh. 194). Ruslar bu mahnılara "podolyudnıye pesni" deyirlər.

Məsələ ilə məşğul olmuş alimlər falaçma adətini ikiyə ayırırlar: biri sırf falaçma (kleromantiya), ikincisi su ilə falabaxma (hidromantiya). Bu adətlərin bəsit şəklinə ibtidai xalqlar arasında rast gəlirik, mürəkkəb şəkli isə qədim Yunanıstanda və Bizansda olmuşdur.

Bizim vəsfi-hal da hidromantiya qismindən olaraq Azərbaycanın bəzi nöqtələrində icra olunur. Badya başında söylənilən mahnıya gəldikdə, bu, bayatı deyə tanıdığımız dördmisralı xalq şeridir. Halbuki bayatı, ağı və vəsfi-halın bir-birinə bənzəyişi zahiridir. Ağı daima kədərli olduğu halda vəsfi-hal ümid verən, nəşə doğuran və mətanət bağışlayandır. Bunlar bir-birindən yalnız məzmunca ayrılır. Quruluş etibarilə bir-birindən ayrılmaz: üçü də dördmisralıdır, üçündə də birinci iki misradakı fikir son iki misradakı məqsədi qüvvətləndirmək üçündür. Buna paralelizm deyilir.

Vəsfi-halların bəzilərində ən qədim etiqad və fəlsəfə izlərinə rast gəlirik. Bunların izahı üçün Yaxın Şərqin və bilxassə Iranın ən qədim dövrünü öyrənmək lazımdır. Fikrimizi izah etmək üçün bir vəsfi-hal alaq:

Ağ at gəlir enişdən
Sinəbəndi gümüşdən
Bizə də nəsib olsun
Heybədəki yemişdən.

Zahirən baxdıqda birinci sətirlərlə sonuncu iki misra arasında heç bir rabitə və əlaqə görünmür. Halbuki, burada üzvi bir rabitə var: birinci misralardakı fikir həsrətində bulunan arzunu qüvvətləndirir və ümid verir. Burada işlənən ayrı-ayrı sözlərin belə böyük bir tarixi var.

Bu gün belə bizdə yuxuda at görülsə, onu murada çatmaq sayırlar. Bu gün də bəziləri qapısına, ya dükanın kandarına bir at nalı salmaqla arzusuna çatmaq istəyir. Iran tarixində rast gəldiyimiz adların çoxunda əsb (at) sözü var. Məsələn: Gişdasb, Damasb, Camasb, Ardızasb, Farnasb, Ariasb və i. a. Sahilində yaşadığımız dənizin adında da "əsb" sözü var, bunlarda yaşayan "Qasb" xalqının adı ilə adlanmışdır. Qafqaz kəlməsində də eyni söz var: Əslində "Qafqasb" olmalıdır (Qasb dağı deməkdir...).

Vəsfi-halda murad və arzu mənasına işlədilən at kəlməsinə bir "ağ" sifəti də qoşulmuşdur. "Ağgünlü" xoşbəxtə deyərlər. Vəsfi-haldakı "gümüş sinəbənd" də mənasız deyildir, xalq arasında bütün parlaq şeylər – gümüş, su, güzgü, nur xoşbəxtliyə və parlaq gələcəyə aiddir.

Vəsfi-halda ifadə olunan əsil arzu məcazi olaraq "Heybədəki yemişdən" ibarətdir. Xalq şeri müəllifi bu arzunu bir sıra səadət rümuzları ilə əhatə etmişdir:

Ikinci bir vəsfi-halı alaq:

Güzgünü atdım bayıra,
Şövqü şəfəqi çayıra.
Yığılın qohum-qardaş
Işimiz dönüb xeyirə.

Yenə paralelizm: güzgünün şəfəqi çayırı nurlandıran kimi işlər də xeyrə dönür. Güzgü xoşbəxtlik rümuzudur. Gəlin köçürüldükdə, ya xonça aparanda həmişə ön tərəfdə güzgü aparırlar ki, bu da gəlinin xoşbəxt olmasını arzulamaqdır.

Islamiyyət dövründə meydana çıxmış vəsfi-hallarda, təbiidir ki, Zərdüşt fikirlərilə bərabər müsəlman etiqadları da ifadə olunur. Ancaq vəsfi-halların xüsusiyyətini təşkil edən nikbinlik, ümid və səadət rümuzları yenə əsas olaraq qalır:

Bu məscidi mən yapdım,
Darvazasın gen yapdım
Şax atdı, budaq atdı,
Kölgəsində mən yatdım.

Göydə bir quzu gördüm,
Tükün qırmızı gördüm,
Açdım cənnət qapısın
Sevdiyim qızı gördüm.

Məscidin ocağında,
Şam yanar bucağında.
Allah muradın versin
Ağ oğlan qucağında.

Ağlama naçar ağlama,
Əlində açar ağlama,
Qapını bağlayan allah
Bir gün açar ağlama.

Qapıdan biri gəldi,
Gözümün nuru gəldi.
Bu arxı kim arıtdı,
Su belə duru gəldi.

Oturmuşdum səkidə
Ürəyim səksəkədə
Üç qızıl alma gəldi
Bir gümüş nəlbəkidə![1]

[1] Yaxud da: Göydən bir alma düşdü,
Qızılı nəlbəkidə.
(müəllif)

AĞI

Ölüyə ağı demək xalqlar tarixində ən qədim zamandan bəri davam edib gələn bir adətdir. Bir çox xalqların arasında ağıya cürbəcür oyunlar və rəqslər də əlavə olunarmış. Misir barelyeflərində (qabartma) əli qısa ağaclı rəqqaslar təsvir olunmuşdur, bunlar ağı ayinində iştirak edərmişlər. Qədim Roma qəbirlərindən maskalar və üzərində səhnə oyunları çəkilmiş vazlar tapılır. Bunlar ağıya tamaşa verildiyini göstərir. Herodotun rəvayətinə görə, qədim Misirdə adlı-sanlı bir adam öləndə, evin bütün qadınları başlarına örtü salıb sinələrini açarmışlar, bellərinə xüsusi bir kəmər bağlar və əqrəbaları ilə bərabər bütün şəhəri dolaşıb, sinələrinə vurarmışlar. Bir tərəfdən də kişilər bu hərəkəti edərmişlər. Sonra meyiti basdırılan yerə apararmışlar.

"Iliada"nın təsvirinə görə, Hektorun meyitinin üzərində xanəndələr ağı deyir, qadınlar ağlaşırmış. Atilla öldükdə doqquz sənət pərisi növbə ilə ağı deyir, ağlaşırmış. Qədim ermənilərdə "ağı qızları" deyilən bir dəstə ağıçı ağı anası ilə bərabər cürbəcür alətlərdə çalaraq ağı deyər, meyitin yanında qopuz adlı alət çalaraq, onun haqqında oxuyarmışlar. "Kitabi-Dədə Qorqud"da Beyrək adlı birisinin ölümü belə təsvir olunur: "Beyrəyin babasına-anasına xəbər oldu, Ağ evin eşiyində şivən qopdu. Qaza bənzər qızı-gəlini ağ çıxardı, qara geydi. Ağ-boz atının quyruğun kəsdilər. 40 – 50 yigid qara geyib göy sarındılar. Qazan bəyə gəldilər, sarıqları yerə urdular. Beyrəyi deyib çox ağladılar. Qazanın əlin öpdülər: "Sən sağ ol, Beyrək öldü" dedilər... Qazan bu xəbəri eşitdi, dəsmalın əlinə alıb, ökür-ökür ağladı, divanda zarlıq qıldı. Həp onda olan bəylər ağlaşdılar. Qazan vardı, odasına girdi. Yeddi gün divana çıxmadı, ağladı, oturdu".

Akademik Veselovskinin məlumatına görə Atillanın dəfn mərasimi belə olmuşdur: Düşərgədə təpə başında meyitini ipək çadır altına qoydular, hun süvarilərinin ən gözəllərini seçdilər, təpəni dolanaraq gözəl ağılarla Atillanı mədh etməyə başladılar: hunların şəhid padşahı, qoçaq millətlər hökmdarı Minaşuq oğlu Atilla görülməmiş qüvvətlə iskit və german ölkələrinə malik idi. Şəhərləri istila etdikdə iki Roma imperatorluğunu da qorxutdu.

1935

FOLKLOR YOLUNDA

Yazılı ədəbiyyatımızın realist dövrü rus ədəbiyyatı təsirində doğulduğu kimi, bizdə folklora oyanan rəğbət də şübhəsiz rus alim və redaktorlarını təqliddən alınmışdır. Əvvəllər bu sahədə rus müəllifləri yalnız başına qalmışlar, sonralar türklər[1] də köməyə gəlmiş və bəziləri sərbəst təşəbbüslərdə də olmuşlar. 1882-ci ildə Tiflisdə nəşrə başlamış "Sbornik materialov dlya mestnostey plemen Kavkaza" adlı məcmuə türk[2] folklorunun toplanması yolunda ilk addımlar atmışdır. Qori və Irəvan seminariyalarını bitirmiş müəllimlər eşidib öyrəndikləri xalq məhsulunu bu məcmuələr vasitəsilə nəşrə çalışmışlar. İlk toplayış təsadüfi olmuş, heç bir sistem və plana tabe olmamış, təbiidir ki, qüsurlardan da xilas ola bilməmişdir: toplanılan yer göstərilməmiş, yerli şivə saxlanılmamışdır...

Dar bir oxucu dairəsi üçün nəşr olunan bu məcmuələr geniş kütlələrin malı ola bilməzdi, məktəb yoxluğu və savadsızlıq da bura əlavə olunarsa, məsələ aydınlaşar. Folklorun ayrı-ayrı xırda parçaları ilk dəfə olaraq məktəb kitabları vasitəsilə geniş kütlə arasında yayılmışdır. Bu yolda da Çernyayevskinin "Vətən dili" ilk təşəbbüsdür. 1905-ci il inqilabından sonra folklora maraq artırsa da, toplanılan materiallar çap olunmur. Meydana ancaq bir-iki risalə çıxır. Məsələn,

İrəvanda basılan "Atalar sözü", Bakıda nəşr olunan "Balalara hədiyyə" (Köçərli), "Sofi şeyda" (S.M.Qənizadə), "Məlik Məmməd" (Çəmənzəminli) və "Arvad ağısı" (Mirzə Abbas Abbaszadə). "Balalara hədiyyə" folklora həsr olunmuş məxsus bir əsər deyil, "Sofi şeyda" fal üçün toplanan məsəllərdir. "Arvad ağısı"na da ağılarla bərabər bayatılar, vəsfi-hallar və xalq oyunları qarışmışdır. Bu xırda məlumat folklorun o zamankı vəziyyətini aydın bir surətdə göstərir.

Folklor toplayanlar isə, işə təsadüfi olaraq yanaşmışlar, hazırlıqları olmamış və məsələnin elmi cəhətinə heç də əhəmiyyət verməmişlər. Nəzəri sahəyə bir az əl atan F.Köçərli aramızda ağızdan-ağıza dolaşan bu geniş ədəbiyyatı tamamilə bizim məhsul deyə qəbul etmişdir. Halbuki dar milli çərçivədən çıxaraq, folkloru dünya miqyasında tədqiq edəriksə, başqa nəticələrə gələrik. Zatən hər xalqın yalnız özünə

[1] Azərbaycanlı
[2] Azərbaycan

məxsus və başqasınınkına heç də bənzəməyən folkloru olsaydı, meydana əsatiri, iqtibas, poligenizm, antropoloji kimi bir sıra nəzəriyyələr çıxmazdı. Məsələ incədən-incəyə tədqiq olunmazsa, qəti hökm vermək çətindir.

Bizdəki folklorun geniş surətdə toplanışı və tədqiqi təcrübələri yalnız Oktyabr inqilabından sonra olmuşdur. Bu sahədə atılan böyük addımlar haqqında başqa bir məqalədə bəhs etdiyim üçün təkrarə lüzum görmürəm. Ancaq bunu əlavə etməliyəm ki, dörd-beş il bundan əvvəl darülfünunun Şərq fakültəsində ayrıca bir xalq ədəbiyyatı kursu da var idi. Orada mühazirə oxuyurdum, folklorun elmi tədqiqi ilə əsaslı məşğul olmağa başlamışdım. O zaman yarımçıq buraxdığım tədqiqatın davamını təmin etmək üçün gənclərdən birinin bu işə təyini çox faydalı olardı.

Elmi tədqiqata ən çox ehtiyacı olan folklor daha dərindən öyrənilməlidir. Akademiya şöbəsinin bu sahədəki təşəbbüsü çox əhəmiyyətlidir, ancaq gənc qüvvələrin hazırlanmasına ayrıca diqqət verilməlidir. Indiyə qədər xalqla bilavasitə təmasda bulunaraq folklor toplayan yeganə gənc Hümmət Əlizadədir. Başqaları da toplamışsa, ən irəli gələni hələlik budur. Folklor sahəsində böyük xidməti olan bu gəncin elmi hazırlığı ilə ciddi surətdə məşğul olmalıdır. Belə olarsa, Hümmət Əlizadənin topladığı materiallar daha böyük qiymət qazanar.

1934

AZƏRBAYCANDA ZƏRDÜŞTİ ADƏTLƏRI

NOVRUZ

"Azərbaycan nağıllarının əhvali-ruhiyyəsi" adlı məqaləmdə zərdüştiliyin xalq ədəbiyyatında nə qədər əsaslı bir mövqe tutduğunu qeyd etmişdim.[1]

Məsələnin daha ətraflı izahı üçün xalqımızın adət və ayinlərini də gözdən keçirməliyik. Bu sahədə tədqiqə o qədər lüzum vardır ki, bunsuz xalq ədəbiyyatının təhlili yarımçıq qalar, çünki xalqı öyrənmənin başlıca yolu onun dimağı məhsullarının toplanmasından daha əfzəl o məhsulların açarını tapmaqdır. Bu "açar" da həyatımızın elmi və tarixi tədqiqindən ibarətdir.

Xalq ədəbiyyatımız əsrlərin məhsulu olan kimi və minbir mədəni nüfuzlardan ilham alan kimi, adət və ayinlərimiz də eyni yolları keçmişdir, burada da zərdüştilik təməl daşı vəziyyəti alır, "Avesta" fəlsəfəsi hər yerdə hökmrandır.

Xalqımızın təqdir etdiyi adətlərdən ən birincisi, heç şübhə yox ki, novruz bayramıdır. Bu bayram o qədər əziz tutulur ki, hətta "Mövludi- Nəbi" belə buna nisbətən yox mənziləsinə gəlir. Səbəbi aşkardır: Xalq özü yaratdığı bir adəti kənardan gələn və qılınc zoru ilə təlqin olunan bir etiqada tərcih edir. "Biz qılınc müsəlmanıyıq" deyən bir millətin islamiyyətə nə qədər yabançı olduğunu izah etməyə lüzum görülmür və əsrlərdən bəri bütün hücumlara rəğmən təntənə ilə keçirdiyi adət və ayinlərin də nədən irəli gəldiyi aydın bir məsələdir. Məqaləmizdən də məqsəd bu məsələni izah etməkdir.

Bu günə qədər adət və ayinlərimiz tədqiq sahəsindən uzaqda qalmışdır. Az-çox novruz haqqında fikir yürüdülmüşsə də, tarix nəzərə alınmamış və məsələ mücərrəd mülahizələr şəklində durub qalmışdır. Şərq müəlliflərinin bu barədə verdiyi məlumat qarışıqdır və çox zaman məsələyə sami etiqadları qarışdırdıqlarından tarixi həqiqət ortada itir gedir. Məsələn, "Bürhani-qate"nin: "Cənab həq aləmi və Adəmi ol gündə (Novruz günü) xəlq elədi" deməsi bizə Tövratı andırır. Halbuki, qədim Azərbaycan və Iran Tövrat fəlsəfəsinə tamamilə yabançıdır.

[1] "Maarif və mədəniyyət", 1926, № 9 (müəllif)

"Bürhani-qate" ikin[1]ci bir rəvayət də nağıl eləyir: "Cəmşid şah ki ərəblər Mətuşələh deyirlər, sələtini-Pişdadiyandan bir padşahi-məşhurdur, nami-əslisi Cəmdir, əqtabi-ərzi geşt eləyərək Azərbaycan vilayətinə gəlib, ol mövzeyi istehsan etməklə əmr elədi. Bir mürtəfe məhəldə Şərq canibinə[2] doğru bir mürəssə[3] təxti-ali qurdular, kəndisi dəxi əlbisəyi-şahanə geyib və başında mücövhər[4] və müşşə[5] tac ol təxt üzrə mülukanə[6] keçib qərar elədi. Vəqta ki, günəş tülu edib, şəşəəsi ol tac-təxtə toxunduqda bütün ol həvalini[7] qərğeyi-nur və ziya etməklə hər kəs bu keyfiyyəti təyəmmün[8] və istisad edib, ziyadəsilə fərəhnak oldular və bu gün bir yovmi-mümtazdır deyə o günə "Novruz" ilə təsmiyə elədilər və pəhləvi lisanında şüa-pərtövə "şid" itlaq olunmaqla cəm ləfzinə izafə ilə ol padşaha Cəmşid dedilər və ol gün cəşni-əzim edib ondan sonra və hər sənə rəsmi – mərqumu icra elədilər".

"Bürhani-qate" və bütün Iran müəlliflərinin "Novruz"u Cəmşidə mənsub elədikləri tarixi həqiqətdən uzaq görünür. Bir kərə Cəm və mənsub olduğu Pişdadiyan sülaləsi və Firdovsinin qeyd etdiyi əksər adlar tarixi adlar gərək olmasınlar: Yunani-qədim müvərrixlərində başqa-başqa adlar göstərilir və Iran abidə və kitabələrinin son tədqiqi yunanların haqlı olduqlarını meydana çıxartdı. Ola bilər ki, sasanilər təşviq etdiyi kimi, onlardan əvvəlki sülalələrdən bir padşah "Novruz" a artıq əhəmiyyət vermiş, lakin bu adətin bir şəxsə isnad edilməsi məncə doğru deyil. Lakin "Novruz"un Azərbaycan mədəniyyəti məhsulu olduğuna qaneyəm. Buna zatən "Bürhani-qate" də işarə eləyir. Iran mədəniyyətini Midiya və bilxassə Azərbaycan yaratmış və Midiya səltənəti münqəriz olduqda bu mədəniyyət zərdüştiliklə bərabər Irana keçmiş və əsrlərcə pars səltənəti ilə yan-yana azərilər (muğlar) məmləkətin ruhani və mədəni həyatını idarə eləmişlər[9]. "Novruz" və başqa adətlərimiz də o zamanlardan qalmadır.

[1] Uca
[2] Canib – tərif
[3] Daş-qaşla bəzədilmiş
[4] Cavahiratla bəzənmiş
[5] Parlaq
[6] Şahanə
[7] Həvali – ətraf, civar
[8] Xoş əlamət
[9] Muğların vəzifəsi atəşin bəqası olduğu üçün onlara "Azərban" deyərdilər. Cəmi "Azərbangan"dır ki, ərəblər "Azərbaycan" şəklinə salmışlar (müəllif)

“Novruz” adətinə “Avesta”da rast gəlmiriksə də, fəlsəfəsi tamamilə oradan alınmışdır. Qışla təbiətin ölməsi zərdüştilərə qış və soyuğun müzür olduğunu təlqin edir. Odur ki, qışı Əhrimənin yaradılışı ədd eləyirlər. Zərdüştilik məfkurəsində nurani və sağlam bir aləm təsvir olunarkən orada soyuq və xəstəlikdən əsər olmadığı qeyd edilir. Bu fakir xalq ədəbiyyatımızda da əsər buraxmışdır:

Üçü bizə yağıdır,
Üçü cənnət bağıdır,
Üçü yığar gətirər,
Üçü vurar dağıdar.

Bu sözlərdən görünür ki, xalqımız da qışı “yağı düşmən” və yazı “cənnət bağı” deyə təsvir eləyir. Eyni fəlsəfəni də zərdüştilikdə görürük: bir tərəfdən yaz təqdir və təqdis olunur, o biri tərəfdən də qışa etiraz edilir. Birinci “fərvərdin” (mart) ayında, ikinci isə “azər” (noyabr) ayında icra olunur. Qədim Azərbaycanda il yazla başlardı və ayların adı belə idi: Fərvərdin, Urdibehişt, Xurdad, Tir, Murdad, Şəhrivər, Mehr, Aban, Azər, Dey, Bəhmən, Isfəndar. Hər ay otuz günə bölünmüşdü və hərəsinin ayrı- ayrı adı var idi. Ayın birinci günü “Hürmüzd” adlanırdı. “Fərvərdin”in ilk gününə isə “Novruz” deyilirdi[1]. Deməli, “Novruz” ilin və yazın ilk günü deməkdir. Bu gün həyatın oyanmasının, qış kimi müzür düşmənin məğlub edilməsinin bayramıdır. “Novruz” bir rümuzdur: işıq, haqq və həqiqətin qələbəsi deməkdir. Odur ki, ruhunda əbədi həqiqət daşıyan xalq onu təntənə ilə qarşılayır – hər kəs təzə paltar geyir, evlər təmizlənir, şamlar yanır, şirnilər düzülür, masalar ciçək, səməni otu və meyvələrlə bəzənir.

Qədim zamanlar “Novruz” gününə kimi adətlər icra olunduğunu Nizamül-mülkün “Səyasətnamə”sindən öyrənirik[2]. Bayrama bir neçə gün qalmış carçılar bazarlarda car çəkərmişlər və sarayın ümuma açıq olduğunu elan edərmişlər. Xalq toplanarmış və hər kəsin padşahdan nə şikayəti varmış, elan edərmiş. Sonra padşah taxtından enib möbidimöbidanın[3] qarşısında dizi üstə çökərmiş və deyərmiş: “Mənim şəx-

[1] Məsudi “Kitabi-mürəvvicüz-zəhəb və müarinül-cövhər”. Barbur de-Meynardın 1861-ci ildə Parisdə basdırdığı nüsxədən istifadə etdim (müəllif)

[2] On birinci əsri-miladidə yazılıb (müəllif)

[3] Muğların böyüyü, baş ruhani (müəllif)

siyyətimə əhəmiyyət verməyərək, bitərəfanə bu mənə qarşı elədiyi şikayətə bax və hökm ver". Carçının təkrar carına istinadən şikayətçilər xalqdan aralanıb bir tərəfə yığılarmış və məhkəmə qurularmış. Nəticədə "möbidi-möbidan" iki tərəfin də təqsirini bitərəfanə meydana qoyarmış[1]. Bunu padşahlar məmləkət adamlarına örnək olmaq üçün edərmişlər və hər kəsi haqq və ədalət tərəfinə dəvət edərmişlər. Nizamül- mülkün şəhadətinə görə bu adət Ərdəşirdən Yezdgirdə qədər davam etmişdir.

"Novruz" qədər əhəmiyyətli bayramlardan biri də "Azər" (noyabr) ayında imiş. "Novruz" yazı təqdis edən kimi "Azər" bayramı da qışı zəmm[2] edərmiş. Xalq "kövsəc" adlanan bir şənlik təşkil edərmiş və hər kəs quzu və yağlı ət kimi istilik gətirən şeylər yeyərmiş[3]. Sonra qatıra minmiş birisi qış düşməni rolunda meydana çıxarmış və ətrafdakıların onun başına soyuq su tökmələrinə baxmayaraq, etinasız "gərma, gərma" ("istidir", "istidir") – deyə bağırarmış[4].

Bu bayramla xalq qışdan və soyuqdan qorxmadığını nümayişkaranə elan edərmiş.

DUVAQQAPMA

"Duvaqqapma" adəti gəlin gələndən üç gün sonra icra olunur. Taxt qurulur, xalılar və püştələrlə döşənmiş bu taxtda üzüqoylu çöndərilmiş bir teştin altında şam yandırılır, gəlini teştin üzərində əyləşdirirlər, başına incə cunadan bir duvaq salırlar. Sonra başına şirni tökürlər və şirnini ətrafdakı qız-gəlinlər və çocuqlar qarpışıb yığışdırırlar. Bu anda çocuqlardan birisi oxlovla duvağı qapır, həyətə qaçıb barlı bir ağacın üzərinə atır.

Kiçik görünən bu Azərbaycan adəti böyük bir şərhə möhtacdır. Əvvəla adətin toydan üç gün sonra icra olunmasına diqqət etməlidir. 3 rəqəminin müqəddəs olduğunu əvvəlki məqaləmdə söyləmişdim. Bu rəqəm türklər tərəfindən də mənimsənmiş və "ərənlər üçü demiş" de-

[1] Şeferin Parisdə basdırdığı nüsxədən istifadə etdim (müəllif).

[2] Həcv

[3] Azərbaycanda təbabət hər şeyi "istilik" və "soyuqluq" deyə ikiyə ayırır. Məsələn, istiot, şirniyyat istilikdir, qarpız və kartof soyuqluqdur (müəllif).

[4] Məsudi. "Mürəvvicü-zəhəb" (müəllif).

yə xalqın ruhuna yerləşdirilmişdir. Şam Zərdüştün nuruna, ocaq və bina salmağa işarədir. Xalılar və taxt gəlinin ev olub yaşamasının, şirni irəlidə dadlı və xoşbəxt vaxt keçirməsinin, duvaq bəkarətin rümuzu olmalıdır. Duvağın barlı ağaca atılması gəlinin övlad sahibi olması arzusunu ifadə edir.

Duvaqqapma adəti şübhəsiz ki, ilhamını "Avesta"dan alır: bu kitabda hava və yel pərisinə həsr olunmuş bir duada deyilir: əllərində "barəsm"[1] ərə verilməmiş gənc qızları bol töhfələrlə, altun taxt, yaldızlı xalı, qızıl yastıq üzərində onun (hava və yel pərisinin) dərgahına gətiririk[2].

Hava və yel pərisi zərdüştilərin etiqadınca yıxan, dağıdan və eyni zamanda tikən, ehya edən və səadət bəxş edən olduğu üçün, gənc qızlar onun himayəsinə verilir. Duvaqqapma ərə getmiş qızın bilfel hava və yel pərisinin dərgahına gətirilməsini və onun himayəsinə tərk olunmasını göstərir.

ÖLÜYƏ QÜSL VERİLƏN YERDƏ ŞAM YANDIRMA

Azərbaycanda ölüyə qüsl verilən yerdə üç axşam şam yanar. Bu adətin tarixi belədir: zərdüştilərcə ölünün ruhu üç gün üç gecə himayəsiz qalır. Dördüncü gün mehr (işıq pərisi) dağları işıqlandıranda ədalət məhkəməsi qurular və ruhlar himayəyə alınar. Üç ilk gecə divlər ruhları fənalığa sövq etməyə çalışarlar. Divlər qaranlığın məxluqu olub, işıqdan qaçdıqları üçün, ölü sahibi ya meyitin yanında və yaxud qüsl verilən yerdə şam yandırır ki, ədalət məhkəməsinə qədər ruhu divlərin təcavüzündən mühafizə eləsin.

ÇİLLƏ

Çillə "çehil"in zəbanzədi olmuşdur, "qırx" deməkdir. Fənalıq gətirən mövhum qırx pərilərə aid olmalıdır. Ən çox samilərdə təsadüf olunan qırx rəqəmi bilaxirə arilərə və türklərə keçmiş olmalıdır. Hər

[1] Barəsm barlı ağacın budaqlarından bağlanmış bir dəstəyə deyilir ki, əsli "bariasiman" olmalıdır. Zərdüşti ruhaniləri ibadət edərkən əllərində "barəsm" tuturlar (müəllif).

[2] "Xırda Avesta" (müəllif)

halda Azərbaycan əfsanələrində istər doğrudan-oğruya, istərsə "çillə" şəklində işlənməkdədir. Məsələn, bizlərdə qışın ilk gününə "böyük çillə", sonra gələn iyirmi günə "kiçik çillə" deyirlər.

Xalq arasında "çillə" ağırlıq mənasındadır. İnsan bir müşkülat qarşısında qaldıqda rümuzi bir ayin icrasına qalxışır ki, ona da "çillə kəsmək" deyirlər. Adətən əl və ayağın baş barmaqlarını ipliklə üç dəfə bağlarlar, uclarından su axıdarlar, sonra ipi kəsərlər. Kəsən adam adəti ifa edərkən bu sözləri söylər: "Həzrət Süleyman eşqinə, çin qızı Mərcan hökmünə, bəni-adəmdən, bəni-heyvandan, çindən, şəyatindən, axar sudan, köklü ağacdan, dibli qayadan, yeddi yolun ayrıcından – hər kəsin çilləsinə düşmüşsənsə, çilləni kəsdim".

Bu sözlərdən görünür ki, çillə arilərə qarşı gələ bilən bəlaları dəf etmək üçün qurulmuş bir ayindir.

Bu bəla nə tərəfdən gələ bilərdi? "Həzrət Süleyman, çin və şəyatin" – sözləri bəlanın samilərdən və bilxassə ərəblərdən törəyə biləcəyini andırır, çünki div arilərə məxsus olduğu kimi "cin və şəyatin" də samilərə məxsus fənalıq pərilərdir.

Burada anlaşılmaz bir nöqtə var ki, o da axar su, köklü ağac, dibli qaya və yolayrıcının işə qarışdırılmasıdır. Bunlar zərdüştilər tərəfindən təqdis edilən amillər olduğu halda cinlər və şəyatinlər cərgəsinə qoyulmuşdur.

Bu adətin bir çox təsirlərə düşüb pozulduğunu göstərir.

ŞƏR VAXTI

Azərbaycanlılar toran qovuşan vaxta "şər vaxtı" deyirlər. Zərdüştilərin kainatı nurla qaranlığın mübarizəsindən ibarət bildiklərini söyləmişdim. Bu mübarizə hər axşam toran vaxtı təkrar olunur: gündüzlə gecə çarpışır, axırda gecə və qaranlıq işığa qələbə çalır. Işığın məğlubiyyəti "şər" ədd olunur. Xalq adətincə "şər vaxtı" bikef olmaq, əli qoynunda durmaq, çocuqları ağlatmaq və çıraq yandırmamaq günahdır, çünki şər və fənalığa qarşı mətanətlə durmaq zərdüştilərin başlıca ehkamındandır. Bunu qışa qarşı edilən "kövsəc" nümayişində də gördük.

"Axşamın xeyrindənsə, sabahın şəri yaxşıdır" – məsəli də yuxarıda zikr olunan fəlsəfəyə isnad edir.

AB, ATƏŞ, XAK, BAD

Ənasiri-ərbəə deyilən bu dörd amil xalqımız arasında təqdis olunur. Bunların içində böyük bir qüdsiyyət daşıyan od və axar sudur. Ocağa və çırağa and içərlər, suyu murdarlamazlar. Novruza yaxın çərşənbələrdə sabah erkən axar su üstə çıxarlar, çillə kəsdirərlər və i.a. Qız ərə gedərkən onu ocağın başına dolandırarlar, çərşənbələrdə tonqal qalarlar.

Bu adətlərin haralardan başlandığını izah etmək üçün bir az tarixə doğru dönməliyik. Qədim yunanın məşhur müvərrixi Herodot Iran adətlərini təsvir edərkən deyir: "Parslar günəşin, ayın, torpağın, odun, suyun və havanın şərəfinə qurbanlar gətirirlər... Onlar çaya tüpürməzlər və bövl etməzlər və kimsəni də bu hərəkətləri eləməyə buraxmazlar, çünki çayı təqdis edərlər[1].

Herodotun təqribən iki min beş yüz il bundan əvvəl təsvir etdiyi adət bu gün eynilə aramızda yaşayır: suya tüpürmək və bövl eləmək, odu murdarlamaq xalqımızca günah sayılan əməllərdəndir.

Ənasiri-ərbəəyə qədim yunan fəlsəfəsində də təsadüf edirik. Empedoklun nəzəriyyəsincə yaradılışda baqi olan dörd amil var: od, su, hava, torpaq. Bunlar var idi, var və olacaq.

Şübhəsiz ki, Empedokl fəlsəfəsini Irandan əxz etmişdir, çünki ondan əvvəl yaşayan Herodot bu fəlsəfəni Iranda kök salmış bir adət kimi təsvir edir.

Irandan əvvəl də bu nəzəriyyə Kürlə Araz çaylarının arasında doğulmuş olacaq, çünki Midiya dövlətini inqiraza uğradan parslar, Midiya və Azərbaycanın din və ayinlərini və bütün mədəniyyətini iqtibas etdilər. Zərdüştiliyi Irana bəxş edən azərbaycanlılar (muğlar) Irandakı müəssisələri əsrlərcə idarə etmişlər. Hətta bəzən hökuməti də ələ almağa qalxışmışlarsa da, müvəffəq olmamışlar.

1927

[1] Historue Herodote, birinci kitab (müəllif)

TARİXİMİZ HAQQINDA AZƏRBAYCAN MÜƏLLİFLƏRİNİN ƏSƏRLƏRİ

Azərbaycan üç min sənəlik az-çox səhih bir tarixə malikdir. Bu məlumatımız yalnız siyasi cərəyan və yaxud əsgəri bir hərəkatdan ibarət deyil, biləks, siyasət və hərb daima Azərbaycanın xaricində qalmış hadisələrdir. Əsil Azərbaycanı orada aramamalıdır. Ölkəmizi aləmşümul edən, onu mədəniyyətin təməl daşı kimi tələqqi etdirən yalnız onun mənəvi tarixi, fəlsəfəsi və bu yolda olan mücadilə və yaxud sülhpərvər təlqinlərdir.

Bu həyat muğ (cəmi muğan) adlı zəki və peyğəmbəri ilhama malik bir millətin minlərcə illər əvvəl Kür ilə Araz çaylarının arasında məskən salmaları ilə başlayır[1]. "Aran" təsmiyə etdikləri bu torpaq dünyaya Zərdüştü bəxş edir. Qədim aləmin ən böyük kitabı "Avesta" burada vücuda gəlir. Zərdüşt mədəniyyətin başlıca əsaslarını qurur və onu mütəaqib mənsub olduğu muğlar əsrlərcə bütün Şərqin mənəviyyat rəhbərləri olurlar.

Köçəbəliklə mübarizə, torpağa mərbutiyyət, bağ və bağça salmaq, körpü tikmək, xəstəlik və soyuqla mücadilə, torpaqçılıq, nurun təcəllisi, qaranlığın və cəhlin məğlubiyyəti... iştə Zərdüştün və muğların başlıca ehkamları.

Bu fəlsəfə və yaratdığı zehniyyət sayəsində Aran, Muğan və bütün Azərbaycan mədəniyyət həyatında yüksək dərəcələrə çıxmışdı. Lakin ərəb istilası Zərdüştün atəşi ilə bərabər ölkəmizin mədəniyyət işığını da söndürdü. Dərbənddən ta Həmədana qədər sərf olunan əməklər məhv oldu.

"Avesta"nı yaradan bir millət ölkəmizə dair nə kimi məlumatlar tərk edib getmiş. Təəssüf ki, əlimizdə o dövrə dair çox da yazı yoxdur. Böyük hadisələrə meydan olan Azərbaycan təxrib olunarkən ədəbi, dini və qeyri məhsulları da məhv olmuşdur. Bir kərə Iskəndər Rumi Yunanıstana vurulan zərbəyə müqabil Iranı və Azərbaycanı alt-üst etdi. Bir sənət möcüzü ədd olunan Kə ra sarayını yıxmaqla iktifa etmədi. Böyük bir mədəniyyəti kökündən qopardı və elmi məhsullar da öldürüldü.

[1] Muğlar haqqında ayrıca yazılacaq (müəllif).

O dövrə dair məlumatı yalnız qədim yunan müvərrixlərindən öyrənə bilərik. Herodot, Strabon, Seysel, Ksenefon və başqaları şayani- təqdirdirlər. Bir də Istəxr, Nəqşi-Rüstəmsuz kimi xarabaların kitabələri azacıq da olsa məsələni aydınlaşdırır.

Ikinci böyük axın ərəblər tərəfindən edilirkən, yeni dinin ehkamından başqa bir şey tanılmırdı. Iran fəlsəfə, fikir və etiqadı əbəs sayılırdı. Onun üçün ölkəmizin nəfis və incəsənətlə tikilmiş məbədləri yıxıldı və kitablar yandırıldı.

Əgər zərdüştilərin bir hissəsi Hindistana çəkilməsəydi, "Avesta" dan belə məhrum olmaq ehtimalı var idi. Bərəkətlər ki, bu kitabın bir hissəsi xilas edilmiş və bu gün sanskrit dilində mövcuddur. Sasani dövrü pəhləvi dilində yazılan əsərlərin də bir hissəsi bu təriqlə yəqmaya müncər olmamışdır.

Əgər bu gün Azərbaycan haqqında geniş və müsbət məlumata malik isək, o da islamiyyətdən bəridir. Ərəb müvərrix və coğrafiyunları o qədər ciddi əsərlər vücuda gətirmişlər ki, onlardan məmləkətimizi yenə ətraflı öyrənə bilmirik. Ərəbin bu yoldakı dühası doqquzuncu əsr miladidən başlayaraq parlayır və nəticədə Təbəri, Məsudi, Yaqut Həməvi kimi yüksək şəxslər vücuda gəlir. Bunlar ölkəmizi tarix, coğrafiya, ictimai, dini və iqtisadi tərəfdən bizə öyrədirlər. Ərəbləri təqlidən azərbaycanlı müəlliflərdən Əlbəhri Əlilham Əbdülrəşid ibn Saleh ibn Nuri Əl Bakuyi "Kitabi-təlxis əlasar və əcaibəl mülk əlqəhhar" adlı 14-cü əsr miladidə bir əsər vücuda gətirmişdir. Lakin ərəbcə yazılmış bu kitab o qədər səthidir ki, məlumatımıza yeni bir şey əlavə etmir. Hətta müəllif vətəni olan Bakıdan bir söz belə yazmır. Halbuki Bakı Zərdüşt ruhanilərinin iqamətgahı və Suraxanı atəşgədəsi ilə Şərqə qiblə olmuşdur.

Şimali və Cənubi Azərbaycana başlı-başına həsr olunan iki əsər var. Biri "Tarixi-Azərbaycan", müəllifi Ləbün Əbü Əlhica Ərrəvadi, ikincisi "Tarixi-Aran", yazanı Əlbərdəi. Çox mühüm əddi oluna biləcək bu kitablar meydanda yoxdur. Bunlar haqqında qısa məlumatı osmanlı alimi Katib Çələbinin "Kəşfülzünun fi əsamiyi-kütbül-fünun" adlı əsərində görürük. Əgər kitablar əlimizə keçsə idi, bəlkə vətənimiz haqqında topluca bir məlumat əxz edərdik. O biri tərəfdən, bu kitablar marağımızı dəf edəcək dərəcədə qüvvətlidirmi? – deyə düşünürəm.

Çünki Katib Çələbinin "Cahannüma" adlı məşhur coğrafiyası əlimizdədir. Aran və Azərbaycan tarixini oxumuş bir müəllif bir çox

yeni məlumat verməli idi. Halbuki Azərbaycan haqqındakı bəhslərdə "Cahannamə" bir o qədər də yeni və ətraflı deyil. Katib Çələbidən əsrlərcə əvvəl yaşamış Əlmüqəddəsi ibn Hövqəl, Məsudi, Yaqut Həməvi, Ismayıl Əbülfida və yaxud çoğrafiyun Həmdullah Müstövfü Qəzvini daha müfəssəl və ətraflıdırlar[1].

Türkiyəlilərdən Çələbi adlı məşhur səyyah on birinci əsr hicrinin ortasında Azərbaycanı ziyarət etmiş və mübaliğəyə rəğmən məmləkətimizi ətraflı təsvir edən alimlərdəndir. Zamanına dair məlumatdan başqa Övliya tarixi-övzayi, iqtisadi və ictimai həyatı da tədqiq etmiş, hətta filologiya və statistika ilə də maraqlanmışdır.

XIX əsr miladidən etibarən tarix sahəsində Azərbaycan müəllifləri fəaliyyətə başlayırlar. Abbasqulu Ağa Qüdsi "Gülüstani-Irəm" adlı əsəri ilə Azərbaycan tarixi üçün təməl daşı qoyur. "Gülüstani-Irəm" əslən Şirvan tarixindən ibarətdirsə də, bütün Azərbaycandan da bəhs edir, çünki Şirvan bir çox zaman Şimali Azərbaycana hakim olmaqdan başqa Araz çayının cənubu ilə də uğraşmış və oraların tərzi-idarəsinə nüfuz etmişdir.

"Gülüstani-Irəm" indiyə qədər mövzumuza dair qələmə alınan əsərlərin ən quvvətlisidir. Qüdsi tarixi yalnız hadisəyi-siyasiyyə deyə tələqqi etmir. Onu daha geniş olaraq təsəvvür edir. Coğrafiya, etnoqrafiya və ədəbiyyatımızı belə unutmur. Bizə görə etnoqrafi məlumatı son dərəcə maraqlıdır...

Təəssüf ki, kitab farsca yazılmış və indiyə qədər türkcəyə tərcümə olunmamışdır[2]. Halbuki nə qədər faydalı olardı.

Eyni əsrdə yazılan ikinci əsər Şeyx Əhməd Səlyaninin "Bəsaül nas fi məmləkətil – Qafqaz" adlı kitabıdır ki, 70 səhifədən ibarət olub, fars dilindədir. Əsər yarımçıqdır, müəllif bitirməyə müvəffəq olmamışdır. Istifadəlidir, ancaq çox dərin deyil. "Gülüstani-Irəm"də əgər fars təsiri görünürsə, Şeyx Əhməd də erməni müvərrixlərinin nüfuzunda bulunur. Bu kitab da qeyri-mətbudur.

Türkcə yazılan əsərlərin içində ən güzidəsi, şübhəsiz ki, "Təlifi Mirzə Camal Qələbəyi Məhəmmədxan bəy oğlu Cavanşir"dir. Bu kitab tarixi cərəyanların mərkəzini Qarabağda qeyd edərək, Şuşa şəhərinin binasından rus istilasına qədər təsvir edir. Ibrahim xan zamanı

[1] Həmdullahın "Nüzhətül qülub"u mərufdur (müəllif).

[2] Bu əsər Azərbaycanı tədqiq və tətəbbö cəmiyyəti tərəfindən bir neçə il bundan qabaq rusca dəxi nəşr edilmişdir (müəllif).

Qarabağın hökmü şimalda Dərbəndə qədər və cənubda Təbriz, Ərdəbil, Marağa hüdudlarınadək uzanır. Vəzləri qeyd edərkən Mirzə Camalın təlifi tam bir Azərbaycan tarixi olur.

Bu çox mühüm əsərin vücuda gəlməsi səbəbini aramaq üçün sözü müəllifə tərk edirəm.

"Çünki mən, Mirzə Camal Qələbəyi Məhəmmədxan bəy oğlu Cavanşirin müsəlman elmlərinə və təvarixinə ittilaim olub. Qarabağın cəmi əhvalatına və hər növ nağıl və hekayətinə xah görmək və xah müsinn və kardan kəslərdən diqqətlə təhqiq edib eşitmək vasitəsilə bələdiyyəti-tamım var idi və həm əlli sənə miqdarı mərhuman Ibrahim xan və Mehdiqulu xan Qarabağı xidmətlərində mirzəlik edib və Qarabağ vilayətində dəxi vəzarət qılıb və xanların əyyami-hökuməti münqəzi olandan sonra müddəti-mütəmadi yenə dövləti-Rusiyyəyə xidmətkar və sədaqət şüar var idim. Buna binaən 1847-ci ildə cənab sərdari məmaliki-Qafqaziyyə qraf Mixail Semyonoviç Voronsovun fərmayişinə binaən əhvalati-Qarabağı və hökumət və istiqlali-xəvanini-mərhumin: Pənah xan və Ibrahim xan və Mehdiqulu xan və hakəza. Dövləti-Rusiyyə ilə dövləti-Iranın mabeynlərində vaqe olan cəng və ədavətləri və münasib məqam və günçayiş olan sair vəqayeyi-mütəfərriqəni 26 fəsil və bir xatimə üzrə çəm və tərtib edib, sərdari-müəzzəmileyhə ərz və pişnihad elədim".

Mirzə Camalın müqəddiməsi bizə bir çox nöqtələri tənvir edir. Mirzə rus hakimiyyətinə sədaqət bəslədiyindən bəhs edir. Bu sədaqətin səbəbi nədir? – deyə bir sual hasil olur. Hər halda Mirzə kimi zəki və müdəbbir bir ricalın sədaqəti-qüvvəti qarşısında zəif deyə tələqqi olunmaz. Kitabı tədqiq etdikdən sonra məsələnin dərin olduğu meydana çıxır. Aşkar olur ki, o zaman Qafqaza üç siyasi cərəyan hakim imiş. Məmləkətin salamatlığını kimi şimalda, kimi cənubda və bəziləri də Türkiyə tərəfdarlığında görürlərmiş. Bu cərəyanları doğuran amil yeganə Irandan Qafqaza gələn yəğma axınları idi. Sonu kəsilməz bu sel abadanlıqları təxrib, insanları qətl etməkdən başqa bir şeylə nəticələnmirdi.

Ağa Məhəmməd şah Qacar zamanı artıq Qafqaz tar-mar edilmiş,ölüm və aclıq hər yerdə hökmfərma idi. Bir aralıq cənuba qarşı bir Qafqaz ittihadı mövzuyi-bəhs olur. Lakin qüvvədən felə keçir. Hər dövlət özbaşına çarə aramaq yolları düşünür. Gürcüstan rus himayəsini tərcih edir, Gəncə hökmdarı Cavadxan Irana mərbut görünür. Qara-

bağ və Irəvan xanlıqları isə Türkiyə dövlətinin himayəsini tələb edirlər.

Irana qarşı ibraz olunan siyasi qanunsuzluq Ağa Məhəmməd şahın hiddətinə mövcib olur. Təkrar Arazı qoşunları ilə keçir və yəğmayə davam edir. Iştə Mirzə Camalın "sədaqətinin" başlıca səbəbləri.

Mirzə Camal bu yolda tək deyil. Ibrahim xan nəzdində zinüfuz olan "Müşiri-məmləkət", mərhum şairimiz Molla Pənah Vaqif də eyni fikri daşıyanlardandır.

1926

MOLLA PƏNAH VAQIF HAQQINDA

Indiyə qədər Vaqifin həyatına və dövrünə dair ətraflı olaraq bir əsər meydana çıxmamışdır. Yazılanlarda tarixi materiallarla bərabər bir çox uydurma şeylər var. Bunun başlıca səbəbi ədəbiyyatçılarımızın tarixi materiala elmi olmayaraq yanaşması və tarixçilərimizin fəaliyyət göstərməməsidir. Halbuki Vaqifin dövrünə dair türk, rus və fars dillərində olduqca bol material var. Başlıca qüsurlardan biri də materialların ayrı-ayrı əllərdə olub istədikləri kimi şərh edilməsindədir. Əsər basılsa, ya kitabxanada olsa, belə fərdi yanaşanlar olmaz və ümumin yoxlamasına imkan verilərək həqiqət meydana çıxar.

Mirzə Camalın Qarabağ tarixinə dair yazdığı əsər də nadir olaraq ələ keçməyən və yanlış təfsirə uğrayan materialdan biridir. Bu kitab Vaqifin tərcümeyi-halını öyrənmək üçün ən mötəbər mənbə sayılır. Ədəbiyyatçılarımıza kömək məqsədilə Mirzə Camalın Vaqif haqqında verdiyi məlumatı Paris nüsxəsindən alıb, eynilə bura köçürməyi lazım bildim. Əsil məsələyə keçməzdən əvvəl kitabın nə məqsədlə yazıldığına dair Mirzə Camala söz verəlim:

"Çünki mən, Mirzə Camal Qələbəyi Məhəmmədxanbəy oğlu Cavanşirin müsəlman elmlərinə və təvarixinə ittilaim olub. Qarabağın cəmi əhvalatına və hər növ nağıl və hekayətinə xah görmək və xah müsin və kardan kəslərdən diqqətlə təhqiq edib eşitmək vasitəsilə bələdiyyəti- tamım var idi və həm əlli sənə miqdarı mərhuman Ibrahim xan və Mehdiqulu xan Qarabağı xidmətlərində mirzəlik edib və Qarabağ vilayətində dəxi vəzarət qılıb və xanların əyyami-hökuməti münqəzi olandan sonra müddəti-mütəmadi yenə dövləti-Rusiyyəyə xidmətkar və sədaqətsüvar idim. Buna binaən 1847-ci ildə cənab sərdari məmaliki Qafqaziyyə qraf Mixail Semyonoviç Voronsovun fərmayişinə binaən əhvalati-Qarabağı və hökumət və iqtislali-xəvanini-mərhumin: Pənah xan və Ibrahim xan və Mehdiqulu xan və hakəza. Dövləti-Rusiyyə ilə dövləti-Iranın mabeynlərində vaqe olan cəng və ədavətləri və münasib məqam və günçayiş olan sair vəqayeyi-mütəfərriqəni 26 fəsil və bir xatimə üzrə cəm və tərtib edib, sərdari-müəzzəmileyhə ərz və pişnihad elədim. Bu qərar zil üzrə ki, zikr olunur".

Bu müqəddimədə müəllifin kim olduğu, nə məqsədlə yazdığı və əsərin tarixi bəlli oldu. Indi Vaqifə keçəlim. Mirzə Camal yazır: Mol-

la Pənah bir sahib kamal və müdəbbir və təcrübəkar və xoşgöftar adam idi. Və özü dəxi Ibrahim xanın vəziri və çox mötəmədidi ki, hər ümur-hökumətdə Molla Pənah axundun tədbiri və müşavirəsi ilə rəftar edərdi və ona yaxşı inanıb etimad etmişdi ki, övladından artıq onun xatirini mənzur edərdi və ona çox-çox hörmətlər edib ixtiyari-külli vermişdi. Xan Dağıstana və Car və Balakənə gedən vaxtda Molla Pənah çün muğanlı Cəmil ağanın ittifaqı ilə ki, Təklə muğanlı həm əslən qədim Qazax elindəndirlər, ikisi Tiflis canibinə getmişdilər, oradan Qarabağa müavidət edən zamanda və yainki bir rəvayətdə Qarabağda Ağa Məhəmməd şahın xofundan qaçıb xanın dalınca o tərəfə əzm etdiyi halda Gəncənin dağlarının həvalisində Gəncə hakimi Cavad xan onu özünə olan sovqat bilib tutub öz ittifaqı ilə Ağa Məhəmməd şahın hüzuruna gətirmişdi. Çünki şah onu tutub çoxdan qətlə yetirməyə şövqmənd var idi...

Axund Molla Pənahı qüruba bir, ya iki saat qalmış Şuşa qalasına gətirdilər və Məhəmməd Həsən ağanın evinin qapısında ki, şah[1] orada mənzil eləmişdi, dəstgir saxlayıb şaha məlum etdilər. Şah buyurdu ki, bu gecə onu yaxşı mühafizət edib sabah ona bir siyasət edim ki, ibrətilnazirin olsun. Qərəz, o halda Məhəmməd Hüseyn xan Qacar sərkeşik başı ki, çox müqərriblərdəndi, axundu qapıda əlləri bağlı görüb soruşdu: Bu kimdir?

Dedilər: bu həmən məşhur molla Pənahdır ki, eşidibsiniz. Haman dəm ağzını föhş və latailata açıb axunda çox yaman föhşlər və itab və xitablar elədi. Axund biçarə ərz elədi ki, ey xani əzimüşilən, siz böyük olan şəxs varsınız və padşahi-Iranın mötəmədi, nəzərkərdəsi və müqərribi-hüzurusunuz. Layiq deyil ki, siz dəstkir və günahkar və müqəyyəd və giriftar və biçarə və dərmandələrə yaman kəlmələr və föhş və hədyan sözlər buyurasınız, bəlkə sizin rütbə və məratibinizə şayistə olan budur ki, gərək ətvar və əxlaqi-həsənə və göftar və rəftari-nəcibanə sizdən zühur edə və bu gunə dərmandə və əsir və xaif olan açizlərə siz dildarlıq gərək verib, əltaf və mərhəmət və əfv və ətayə ümidvar qılasınız. Nəinki şahın qəzəbindən müqəddəm siz qəzəbnak olub dilazarlıq edəsiniz.

Məhəmməd Hüseyn xan bu gunə kəlimatdan heç bir mütəəssir olmayıb yenə föhş və hədyana ziyada başladı. Axund "hər ki dəst əz çan

[1] Ağa Məhəmməd şah (müəllif)

bişuyəd, hər çi dər dil darəd biquyəd[1]" məzmununa görə dəxi qərar etməyib haman xanın cavabını dəxi ziyadə föhşkarlıq və dürüst köftarlıq edib dedi: "Ey xani-nanəcib, qəzayi-sübyanı və dövri-zamanı və müqəddimeyi-fərdanı sən nə bilirsən. Bəlkə sabah şah və ya fələyi- kəcrəftar və təqdiri-pərvərdigar bir xeyri-təriq-yol gedəcəkdir.

"Şəb ahistənəst, to çi zayəd bəruz[2]".

Mən əgər dustağam, dustağı-şahəm, sən nəçisən ki, mənə bir zərrəcə asib yetirə biləsən. Həmin bu günə göftar və rəftar məhz sənin nanəcib və nəqabilliyindən nişanədir. Haqq-təala kərimdir, türklər məsəlidir ki, mıxı mismar elədi.

Pəs, təqdiri-qəza bu tövr oldu ki, gecə şahı qətlə yetirdilər. Molla Pənah salamat qaldı. Mirzə Camalın "mıxı mismar elədi" – deyə türk məsəlinə işarə etməsi aydınlaşdırılmalıdır. Qarabağda mismar mıxın böyüyünə deyirlər. Bu mıx-mismar məsələsinin tarixçəsi belədir: Ağa Məhəmməd şah Şuşanı aldıqdan sonra bir çox adam həbs etdirmişdi. Şahın əmrinə görə həbsdəkilərin başı kəsilib onlardan bir minarə yapılmalı imiş. Dəmirçilər səfərbərliyə alınıb mıx qayırmaqla məşğul imişlər. Gecə sabaha qədər lazımi miqdarda mıx hazır olmasa imiş dəmirçilərin də başı kəsiləcəkmiş. O gecə şahı öldürürlər, dəmirçilərə xəbər gedir ki, mıx lazım deyil, şahın tabutu üçün bir neçə mismar lazımdır.

Təhlükədən qurtaran dəmirçilərdən birisi: "Ey mıxı mismara döndərən allah" – deyə sevincini ifadə edir. Bu sözlər məsəl olaraq xalq arasında indi də qollanır.

Vaqifin ölümü məsələsinə keçəlim. Mirzə Camal yazır: "Molla Pənahın bir yaxşı cəmilə və gözəl və məşhurə övrəti var idi ki, çox sahib-camal və şöhrətli Məhəmmədbəy dəxi onun hüsn və camalını və tərifini eşidib ona əlaqə bağlamışdı. Övrət cavan və cahilə və axund qoca və piranə idi və əlavə Məhəmmədbəyin rəşadət və şücaəti və xoşəndam və kamal və fərasəti və padşah xəzinəsinin əlində olmağı və cavan oğlanlığı övrəti dəxi ziyadə əlaqələndirmişdi. Övrət əhəmmədbəyə demişdi ki, nə qədər Molla Pənah axund ölməyib hali-həyatda sağ olsa, mən şərən sənə gedə bilmənəm. Bir səbəb bu idi və bir dəxi qeyri bir para adamlar özlərinin səlahiyyətdarlığı üçün

[1] Gecə hamilədir, görək gündüz nə doğacaqdır (müəllif)

[2] Candan ümidini kəsən adam ürəyində nə varsa söylər (müəllif)

Məhəmmədbəyi təhrik etmişdilər ki, Məhəmmədbəy Molla Pənahb axundu öldürə və o səbəbə Ibrahim xandan uzaq ola və onlar da Məhəmmədbəyin hüzurundan sahibkar və nəfibərdar olalar ki, rəşid və kəramət adamıdır və xəzinə sahibi və hünərmənd kimsədir, onları mühafizət edə, xoş keçələr. Qərəz, hər hal ilə Məhəmmədbəyin əmri və izin və işarəsilə Molla Pənah axundu və Qasım ağa adlı bir oğlunu öldürürlər".

Mirzə Camalın verdiyi məlumata görə Məhəmmədbəy Ibrahimxanın qardaşı Mehralıbəyin oğlu idi. Ağa Məhəmməd şahın yanında olarmış və şah öldürüldükdən sonra Qarabağ hakimiyyətini əlinə keçirir. Sonra Şəki hakimi Mustafa xanın dəvətinə aldanıb Şəkiyə gedir və orada öldürülür. Aralarında köhnə qanlılıq varmış. Məhəmmədbəyə ərə gedən Vaqifin arvadı da Şəkidə imiş. Sonra Sarıcalı Hadibəyə ərə gedir. Hadibəyi çapavulda öldürürlər. Arvad Mustafabəyə ərə gedir. Mustafa xandan iki oğlu olur, sonra Mustafa xan onu boşayır. Arvad Qarabağa dönür və mayor Imamqulu ağaya ərə gedir... Vaqifin arvadı səksən ildən çox yaşamışdır.

Molla Pənahın siyasi simasına gəldikdə, buna dair də Mirzə Camal qiymətli məlumat verir. Qarabağ sarayının çar hökuməti ilə xoş keçinmək istəməsi aydınca görünür. Bunun başlıca səbəbi Iran xanlarının Qafqaza hücumu, xalqı qırmağı, işdən avara qoyub, aclığa salması ilə izah olunur. Buna istinadən istər Mirzə Camal, istərsə Molla Pənah Iran hökumətinə qarşı zidd bir vəziyyət alırlar. O zaman general Zubovun komandasında olan rus ordusu Şamaxı cəhətini işğal etmişdi. brahim xan oğlu Əbülfət xan başda olmaqla bəyzadələrdən mütəşəkkil ir heyəti hədiyyələrlə bərabər Zubovun yanına göndərmişdi. undan sonra Peterburq sarayı ilə Qarabağ sarayı arasında sıx bir əlaqə aşlamışdı. Çariça Yekaterina da Ibrahim xana hədiyyələr göndərdi. Təbiidir ki, Vaqif də unudulmadı, "Bir mürəsse cəvahirli əsa dəxi Molla Pənah Vaqif təxəllüsə göndərmişdi"...

Mirzə Camalın Vaqifə dair verdiyi məlumatı oxucularımıza təqdim etdim. Lakin bu məlumatı kafi görmürəm. Vaqif haqqında çox yazmaq olar. Bu məsələnin həllini ədəbiyyatçılarımıza tərk edirəm. Məncə Vaqifi dövrü ilə bərabər qavramaq üçün dərin bir tədqiqat lazımdır. Adolf Berjenin topladığı qalın cildlər, rus müəlliflərinin Qafqaz stilasına dair yazdıqları tarixi əsər və xatirələr, Iran müəllifləri...

tamamilə tədqiq olunmamış qalır. Vaqifin Tiflisə getməsi, Yekaterinanın brahim xana və Vaqifə hədiyyə göndərməsi şübhəsiz ki, Tiflis və Leninqrad arxivlərinin materiallarında iz buraxmışdır. Bunları tapıb Meydana çıxarmalıdır. Bu sahədə tarixçilərimiz və ədəbiyyatçılarımız əl-ələ işləməlidirlər.

ABBASQULU AĞA QÜDSİNİN ƏSƏRLƏRİ

Ədəbiyyatımız tarixində Mirzə Fətəlidən sonra Şərq və az çox Qərb elmlərinə vaqif bir adam varsa, o da Qüdsidir. Qüdsi türk, rus, fars və ərəb dillərini bilir, tədqiqat və mütaliəsi sayəsində müasirlərindən yüksək bir mövqe tutur. Yazdığı əsərləri nəzərdən keçirsək onun böyük məlumat sahibi olduğunu görərik...

Qüdsinin yazdığı əsərlər aşağıda göstərilir:

1) "Gülüstani-Irəm". Farsca yazılmış bu əsər Şirvan və Dağıstanın tarixinə aiddir, ən qədim zamandan başlayaraq Gülüstan müahidəsinə (1813-cü il) qədər davam etdirilir. Ərəblərin Qafqaza hücum etdiyi zamana qədər (VII əsr) olan hissəsi şübhəsiz ki, bu gün elmi mənasını itirmişdir, sonrakı hissələrdə bilxassə Qüdsinin dövrü və ona yaxın zamanlara dair olduqca qiymətli material var.

Bu əsər "Azərbaycanı öyrənən" cəmiyyət tərəfindən ruscaya tərcümə edilib, 1926-cı ildə Bakıda çap olunmuşdur.

2) "Kitabi-riyazül-qüds". Türkcə yazılmış bu əsər imamlara və Kərbəla vəqəsinə həsr olunmuşdur.

3) "Qanuni-Qüdsi". Fars qrameridir. Müəllifin dediyinə görə, özü ruscaya tərcümə edib, Tiflisdə basdırmışdır.

4) Kəşfül-qəraib". Amerikanın kəşfi, əhval və övzainə dair bir əsərdir. Farsca yazılmışdır.

5) "Təhzibi-əxlaq". 12 bab və xatimədən ibarət olan bu əsər dini kitabların, islam, yunan və firəng hükəmasının əxlaqa dair söylədiklərinin yekunudur. Farsca yazılmışdır.

6) "Eynül-mizan". Ərəbçə yazılmış məntiq kitabıdır.

7) "Nəsihətnamə". Türkcə yazılmış 102 nəsihətdən ibarətdir.

8) "Əsrarül-mələkut". Nücuma dair fars və ərəb dilində yazılmış bir əsərdir. Qüdsi hicrətin 1262-ci sənəsində Istanbuldan Məkkə ziyarətinə keçirkən bu əsərin ərəbcəsini Sultan Əbdül Məcidə təqdim etmişdir. Sonra bu kitab Həyatzadə Seyid Şərif tərəfindən türkcəyə tərcümə olunub, hicrin 1265-ci ilində "Əfkarül-cəbərut fi tərcümey"Əsrarül-mələküt" ünvanı ilə Istanbulda çap edilmişdir.

9) "Çoğrafiya". Farsca yazılmış coğrafiya kitabıdır.

10) "Mişkatül-ənvar". Farsca əxlaqi şeirlərdir.

11) "Miratül-cəmal". Farsca şeirlər yazılmışdır.

12) "Əsgəriyyə". Türkcə yazılmışdır. Köçərlinin verdiyi məlumata görə bu əsər Vəzirov Mirzə Əbdülhəsən Ziyanın "Qəvaidi-Ziya"sında çap edilmişdir. "Qəvaidi-Ziya" vaxtilə Peterburqda çap edilmişdir. Lazerev 1866-cı ildə Moskvada çap etdirdiyi "Intixabil-təsanif türki lisanda" adlı əsərində Kazımbəy Vəzirovun əsərləri ilə bərabər Qüdsinin "Əsgəriyyə"sindən də bir parça dərc etmişdir.

Bu əsərlərdən başqa Qüdsinin bir çox müxtəlif şeirləri və Krılovdan tərcüməsi var. "Gülüstani-Irəm"ə əlavə olaraq yazdığı avtobioqrafiyasından görürük ki, Qüdsi şeirlərini divan şəklinə salmaq fikrində imiş, lakin bu iş yarımçıq qalmışdır.

Qüdsinin əsərlərini toplayıb müfəssəl tərcümeyi-halı ilə birlikdə nəşr etmək Azərnəşrin borcudur.

1935

MİRZƏ FƏTƏLİNİN ƏSƏRLƏRİ BAŞQA DİLLƏRDƏ

Şərqin XIX əsr müəlliflərindən Avropada ən çox tanınanı, heç şübhəsiz ki, Mirzə Fətəli Axundovdur. Bir çox müstəşriqlər Mirzə Fətəlinin əsərlərinin tədqiqi və tərcüməsi ilə məşğul olmuşlar. Ilk əvvəl Mirzə Cəfərin farscaya tərcümə etdiyi nüsxə Avropada 1859-cu ildə Tiflisdə basılan türkcə nüsxəsindən əvvəl məşhur olmuşdur.

1853-cü ildə Mirzə Fətəlinin komediyaları ruscaya tərcümə edilib basılmışdır. Ondan əvvəl bu komediyalar o zaman Tiflisdə çıxan "Qafqaz" qəzetində felyeton şəklində dərc olunmuşdur. 1853-cü ildə "Russki invalid" qəzetində Mirzənin əsərləri haqqında yazılan bir məqalədə Mirzə Fətəli "Azərbaycan Molyeri" adlandırılır. Həmin ildə Peterburqun xüsusi teatrlarından birində Mirzənin özü tərəfindən ruscaya tərcümə edilmiş "Müsyö Jordan" və yenə rus dilində Tiflisdə "Xırs quldurbasan" oynanmışdır. Erməni ədibi Yerisyan tərəfindən "Müsyö Jordan" və "Sərküzəşti-vəziri-xani Sərab"ın ermənicəyə tərcüməsi də bu zamanlara təsadüf edir.

Lakin Mirzə Fətəlinin başlıca şöhrəti əsərlərinin fars dilinə tərcümə olunması ilə başlayır. Zatən bu tərcümə vasitəsi ilə Avropa Azərbaycanın böyük ədibi ilə maraqlanmışdır. Bu tərcümədən sonra müstəşriqlər onu öyrənib təb və tərcüməsinə çalışırlar. Mirzənin əsərlərinin farscaya tərcümə olunmasını belə rəvayət edirlər.

Şahzadə Cəlaləddin Mirzə Iran tarixinə dair yazdığı "NameyiXosrovan" adlı əsərindən bir nüsxə Mirzə Fətəliyə göndərir. Mirzə Fətəli də əvəzində komediyalarını göndərib, Cəlaləddin Mirzədən farscaya tərcümə olunmasını arzu edir. Mirzənin əsərləri bir müddət şahzadənin dolabında yatıb qalır. Bir gün Cəlaləddin Mirzənin xüsusi katibi Mirzə Cəfər Qaracadağı dolabı eşərkən Mirzə Fətəlinin kitabına rast gəlir, götürüb böyük bir maraqla oxuyur və "Molla Ibrahimxəlil kimyagər"i farscaya tərcümə edib, şahzadəyə təqdim edir. Şahzadə tərcümədən məmnun olub, Mirzənin bütün komediyalarının farscaya tərcümə olunmasını arzu edir. Mirzə Cəfər Cəlaləddinin arzusunu yerinə yetirir və Mirzə Fətəlinin əsərləri 1872-ci ildən başlayaraq litoqraf üsulu ilə basılmağa başlayır. 1874-cü ildə ayrı-ayrı çap olub, bitən komediyalar toplanıb bir kitab şəklində dünyaya çıxır[1].

[1] "Sərgüzəşti-vəziri-xani-Sərab"ı nədənsə Mirzə Cəfər "Sərgüzəşti-vəzirixani- Lənkəran" deyə tərcümə edib. Mirzə Cəfəri təlidən avropalılar da "Sərab" əvəzinə "Lənkəran" işlədirlər (müəllif)

1882-ci ildə W.Haggard və W.Strange "Sərküzəşti-vəziri-xani Sərab"ı farscadan ingiliscəyə tərcümə edib, Mirzə Cəfərin mətni ilə bərabər "The vazir of Lancoran" ünvanı altında Londonda təb edibdirlər.

Fransız müstəşriqi Barbier de Meynard bu tərcümə haqqında "La revu critque" məcmuəsinin 19 mart 1883-cü il tarixli nömrəsində bir məqalə nəşr edib, həmin ildə Alexandre Chodzko "Vəziri-xani-Sərab" a dair "Aventure du vazir du khan de Llenkeran" ünvanlı tədqiqini Parisdə nəşr edir.

1886-cı ildə Barbier de Meynard, Stanislav Guyapd "Mürafiə vəkillərinin hekayəti", "Xırs quldurbasan" və "Molla Ibrahimxəlil kimyagər"i fransızcaya tərcümə edib, farscası ilə bərabər "Trois comedies Françes" sərlövhəsi ilə Parisdə çap etdirirlər. Məcmuəyə gözəl bir lüğət də əlavə olunubdur. Barbier de Meynard Mirzə Fətəlinin farsca tərcüməsi ilə kifayətlənməyib, həmin ildə "Molla Ibrahimxəlil kimyagər" in tərcüməsini türkcə mətni ilə bərabər "Journal asiatique"un yanvar nömrəsində çap etdirir. Parisdə bu əsər meydana çıxar-çıxmaz G.Strange məzkur komediyanı ingiliscəyə çevirib "Asiya cəmiyyətiKraliyyə məcmuəsi"nin 18-ci yanvar cildində "The Alchemist" ünvanı ilə basdırır.

Bir az sonra Barbier de Meynard "Sərgüzəşti-mərdi-xəsis" və "Aldanmış kəvakib"i də fransızcaya tərcüməsi və türkcə mətni ilə "Asiya" jurnalında basdırır. Bu əsərlərə bir də Azərbaycan ləhcəsi haqqında bir müqəddimə yazılmışdır.

1888-ci ildə Fransa xariciyyə nəzarəti attaşesi Alfons Cilliere "Deux comedies turques de Mirza Feth Ali Akhondzade" sərlövhəli Mirzənin "Sərgüzəşti-vəziri-xani-Sərab" və "Mürafiə vəkillərinin hekayəti"nin fransızca tərcüməsini uzun bir müqəddimə ilə Parisdə təb etdirir. Müəllif müqəddiməsində Şərq teatrından bəhs açır və Avropada anlaşılan mənada Molyer kimi bir-iki Avropa müəlliflərindən tərcümə olunan əsərlər istisna olursa, "Qaragöz" oyunundan başqa bir şey olmadığını qeyd edir. Misir və Ərəbistan da hakəza. Irana gəldikdə müəllif şəbihgərdanlığı təhlil edib, bunun bir teatr mənşəyi olacağına inanır. Müəllif şəbihgərdanlığın heç bir xarici təsirə uğramayıb, sırf Iranın milli malı olduğunu qeyd edərək, bunu Iran üçün bir məziyyət bilir. Bu mülahizələrdən sonra Siylyer Mirzə Fətəlinin ko-

mediyaları haqqında fikir yürüdür. Bu komediyaların şəkil etibarı ilə Avropanın və məzmun etibarı ilə milli olduğunu qeyd edir və bunları Istanbulun Avropadan alıb tərcümə və təbdil etdiyi əsərlərdən yüksək tutur.

1889-cu ildə Stokholm müstəşriqlər konqresi məcmuəsinin birinci nömrəsində "Xırs quldurbasan" nəşr olunur.

Mirzə Fətəlinin əsərlərinə qarşı Almaniya da laqeyd qalmamışdır. Wahrmund tərəfindən bir neçə komediyası almancaya tərcümə edilmişdir. Deməli, Mirzə Fətəlinin bütün əsərləri fransızcaya, bir hissəsi də ingiliscəyə və almancaya tərcümə olunubdur.

Fransız tərcümanlarının arasında "Asiya cəmiyyəti" katibi L. Bauvat- ı da qeyd etməliyik. Bu, "Müsyö Jordan"ı 1906-cı ildə tərcümə edib, ayrıca kitabça şəklində nəşr edibdir. Müsyö Buva 20 ildən bəri Azərbaycan ədəbiyyatı və mətbuatı haqqında Şərq məcmuələrində məqalələr yazmaqdadır.

1928

FRANSA MÜTƏFƏKKİRİ MİRZƏ FƏTƏLİ HAQQINDA

(Mirzə Fətəli Axundzadənin Alfons Siylyer tərəfindən tərcümə edilmiş iki türk komediyası, Paris, 1888)[1].

"Müsəlman Şərqində ərəblər, farslar və türklər teatrı tanıyırlarmı və dramatik ədəbiyyata malikdirlərmi? Teatr bizim Avropada bildiyimiz kimi dekordan, geyimdən və pyesləri təmsil etməyi özünə peşə eləmiş artistlərdən ibarət isə, deməliyik ki, müsəlman Şərqi teatrı tanımır.

Türkiyədə ələləksər Molyerdən, Sardü və Dümadan tərcümə olunmuş fransız komediyalarından, Istanbul qəzetlərində felyeton şəklində dərc olunmuş Avropa komediya və dramlarına bənzədilmiş imitasiyalar istisna edilərsə, müsəlman Şərqində polişineli Qaragöz oyunu kimi orijinal və populyar bir tamaşa və bir sıra ədəbi əhəmiyyəti olmayan fars və buffenerdən başqa bir şey tapmırıq. Ərəb dili ölkələrində də iş bundan yaxşı deyil, Misir xalqlarını da Qaragöz oyunu məftun edir, yüksək sinif və orada yaşayan avropalılar isə italyan və fransız operalarına gedirlər. Iranda bir az yaxşıdır, orada ölkənin ürəyinə yatan həqiqi bir milli teatr var. Lakin yeni Iranın dini dramı ideyaca Avropa dram və komediyasından uzaqdır. Iranlılar hələ bizim əcdadımızın tamaşasına və orta əsrlərin fars və misteriyalarına malikdirlər. Onların dram sənəti çocuqluq halındadır, buna baxmayaraq çox əhəmiyyətlidir və tədqiq etmək üçün çox qəribədir".

"Tərcümə etdiyimiz komediyaları oxuculara təqdim etmədən əvvəl müsəlman Şərqinin müxtəlif tamaşa janrını gözdən keçirəlim".

Burada mütərcim Kərbəla vəqəsinin tarixini verir, bizim üçün əhəmiyyəti olmadığına görə tərcüməsindən vaz keçirik. Sonra mütərcim yazır:

[1]Mirzə Fətəlinin "Vəziri-xani-Lənkəran" və "Mürafiə vəkilləri" adlı komediyaları Fransa xariciyyə ataşesi Alfons Siylyer tərəfindən fransızcaya tərcümə olunub, 1888-ci ildə "Iki türk komediyası" adı ilə Parisdə çap edilmişdir. Mütərcim kitabın sərlövhəsində bu komediyaların ilk dəfə olaraq fransızcaya tərcümə olunduğunu qeyd edir, halbuki "Vəziri-xani-Lənkəran"ı ondan əvvəl Aleksandr Şodsko tərcümə eləyib 1883-cü ildə Parisdə çap etdirmişdir. Siylyer tərcüməsinə uzun bir müqəddimə yazmışdır ki, bəzi yerlərini ixtisar edib türkcəyə tərcümə eləməyi lazım bildik (müəllif).

“Biz gördük ki, müsəlman Şərqində dram yalnız Iranda tanınmış, heç bir əcnəbi təsirinə düşməyərək sərbəst və özbaşına doğulmuşdur. Günü-gündən dar dini çərçivədən çıxaraq bizim Avropada tanıdığımız normal şəklə yaxınlaşır. Fars dramı Iran torpağının məhsuludur və şiə olmayan müsəlmanlar arasında buna bənzər bir şey tapılmaz. Qeyd etməliyik ki, komediyaya gəldikdə bu şəkil heyf ki, həmən-həmən bütün müsəlman xalqlarında olduğu kimi Iranda da yoxsul bir haldadır. Türkiyədə, son illər Iranda Avropadan iqtibas edilmiş bəzi pyesləri bir tərəfə qoysaq, bütün müsəlman Şərqində komediya hələ ibtidai haldadır və bu sahədə ərəb, türk və farsların bir-birinə həsəd aparacaq bir şeyləri yoxdur. Fars və türk tamaşaları ilə Avropa əxlaqi komediyaları arasında böyük bir məsafə var. Asiya və Afrikanın ən uzaq guşələrinə Qərb ideyası və nümunələri gətirən Avropa xalqlarını Şərqə doğru itələyən böyük hərəkətlər olmasaydı, bu məsafə bir neçə əsr belə keçilməmiş qalardı. Geridə qalmağına gəldikdə bunun bir çox məlum səbəbləri var. Müsəlman ölkələrində komediyanın meydana çıxmasına başlıca maneə təşkil edən yalnız müsəlman dinidir. Bu maneə Iranda Türkiyədən və ərəb məmləkətlərindən azdır, çünki sünniliyə nisbətən şiəlik daha az məhduddur. Din xaricində olaraq Şərq təbiət və adətlərinə mənsub xüsusiyyət də var ki, Qərbdən gələn bütün yeniliklərə qarşı əngəllər törədir. Komediya teatrı da belədir, bütün müsəlman Şərqində tamamilə biçimsiz və səliqəsiz bir haldadır: marionet[1] və gülməli tamaşalarla iktifa edirlər”.

Burada müəllif Qaragöz və Keçəl pəhləvan oyunlarından uzunuzadı bəhs etdikdən sonra Mirzə Fətəlinin komediyalarına keçir:

“Tərcüməsini verdiyimiz iki komediya gözdən keçirdiklərimizin (Qaragöz və Keçəl pəhləvan – Y.V.) janrında deyil. Bunlar Avropa pyeslərinə bənzədilmiş əxlaqi komediyalardır və Avropa teatrını bilən bir adam tərəfindən yazılmışdır. Müəllif ilham və metod mənbəyini gizləmir və bir şey deməsə də, komediyalarının quruluşu bunların mənşəyini göstərməyə kafidir. Eyni zamanda bunlar həqiqətdə orijinal və dahi bir yazıçı tərəfindən yaradılmış pyeslər də deyil. Mirzə Fətəli öz-özlüyündə bir novator da deyil, o özbaşına qalsaydı, Şərqdə yeni bir dramatik qayda vermək onun xəyalına belə gəlməzdi. Lakin

[1] Kuklaların hərəkətə gətirilməsi və ya Qaragözdəki kimi kölgələrin oyadılması (müəllif)

komediyalarının formasını Avropadan almış deyə bu əsərlərə xor baxılırmı? Roma səhnə büsatını Yunanıstandan almamışmı? Plavt və Qerens[1] Aristofana[2] təqlid etmişlər. Bəs bizim tragediya? Bilavasitə yunan tragediyasından əmələ gəlməmişmi? Bütün xalqların ədəbiyyatı bir-birindən iqtibas olunmuş və bu iqtibas faydalı və məhsuldar olduğu üçün həmişə qanuni sayılır. Bizim köhnə quruluşumuzu təqlid etdiyi və Avropa teatrına bir az sadəlövhcəsinə heyran qaldığı üçün Mirzə Fətəlini qəbahətləndirmək ədalətsizlik olardı. Biz yalnız onun əsərdə işlətdiyi material qaydası ilə hesablaşmalıyıq. Müəllif özündə və ətrafında orijinal və səmimi müşahidə mənbəyi taparsa, səhnəyə gətirdiyi şəxslər və həqiqi isə onun əsəri qiymət qazanır və onu hadisə baş verən dairədən çıxaraq iqtibas etmiş deyə qəbahətləndirmək olmaz.

Lakin şərqlilər Avropa teatrlarından ilham almağa haqlıdırlarsa, əsrcəsinə təqlidə qapılaraq bizim ideyaları və modelləri almaq təhlükəsindən qaçmalıdırlar. Əxlaqi komediyaları bizdən əxz edərkən özlərinə sadiq qalmalıdırlar, öz ölkələrinin adətlərini təsvir etməli və səhnəyə gətirdikləri şəxslər ad və dil etibarilə deyil, daha dərindən türk ya fars olmalıdırlar. Heyf ki, şərqlilər bu aydın həqiqəti çox da başa düşə bilmirlər. Bunlar görə bilmirlər ki, müəllifin əsəri hər şeydən əvvəl şəxsi arayış və müşahidə nəticəsində əmələ gəlir. Istanbulda çap edilmiş türk komediyalarının əksəri belədir – heç bir ədəbi qiymətə malik deyil. Biz görürük ki, bizim müəllif əsarətin ifratçılığından qaçmış, komediyalarının personajı incədən-incəyə müşahidə edilmiş və səmimi olaraq yazılmışdır.

Mirzə Fətəli Axundzadə Qaracadağlıdır və adı göstərdiyi kimi kənd mollasının oğludur. Rusiya xidmətinə girib kapitan rütbəsinə qədər gəlib çıxmışdır. Şübhəsiz ki, hərbi vəzifə üçün Tiflisə yaşamağa çağırılmış və oradakı avropalılarla əlaqəyə girmişdir. Tiflisdə canişin Voronsov tərəfindən 1850-ci ildə tikilmiş bir teatr var, orada səhnəyə rus pyesləri və bəzən fransız dramatik əsərləri də qoyulur. Mirzə Fətəli orada olmuş və Avropa teatrına vurulmuşdur. Əsərə başlamış və bir sıra komediya yazmışdır: 1. "Molla Ibrahim" ya "Kimyagər", 2. "Nəbatatçı Müsyö Jordan və dərviş Məstəli şah", 3. "Divanbəyi", 4. "Və-

[1] Roma dramaturqları (müəllif)
[2] Yunan dramaturqu- müəllif

ziri-xan-Sərab", 5. "Xəsis", 6. "Mürafiə vəkilləri", 7. Şah Abbas dövründə olmuş tarixi və dialoqlu səhnə. Bunlardan dördüncü və altıncının burada tərcüməsini də veririk. Bəzi ünvanları dəyişdik, izah edəcəyik.

Mirzə Fətəli Axundzadə komediyalarını Şərq-türk ləhcələrindən olan Azərbaycan ləhcəsində yazmışdır. Bütün Şimali Iran və rus Qafqazı bu ləhcədə danışır. Bu komediyalar 1858-ci ildə Tiflisdə çap edilmişdir, çox nadir tapılır. Onlar məruf Mirzə Cəfər Qaracadaği tərəfindən farscaya tərcümə edilmişdir. Onun tərcümeyi-halını bir qədər təfsilatı ilə verə bilərik. Irandan gələn və səhihliyi təsdiq edilən xəbərə görə Barbiye de Meynar Mirzə Cəfərin ölməsini bildirdi. Lakin sonra bildi ki, Mirzə hələ bərhəyatdır. Bu əhvalat Sidney Çörçilin London-Asiya cəmiyyətinə göndərdiyi məktubdan görünür. Çörçilin məktubuna görə Mirzə Cəfərin əlan əlli dörd yaşı var və yaxasını əcələ tapşırmamışdır. Barbiye de Meynara Irandan göndərilmiş məktub qəsdən yazılmış idi. Mirzə Cəfər bir neçə il bundan əvvəl Iranda qiymətli sayılan "Nameyi-xosrovan" müəllifi şahzadə Cəlaləddin Mirzənin katibi olmuşdur. Çörçil deyir ki, şahzadə öz kitabından bir nüsxə Mirzə Fətəliyə göndərir, o da əvəzində öz komediyalarını ona bağışlayır və farscaya tərcümə olunmasını arzu edir. Mirzə Fətəlinin komediyaları uzun müddət şahzadənin dolabının bir guşəsində unudulub qalır. Nəhayət katib onları tapıb oxuyur. Oxuduğundan heyran qalan Mirzə Cəfər türk[1] müəllifinin arzusunu rəğbətlə qarşılayaraq az bir zamanda "Kimyagər"i fars dilinə çevirib Cəlaləddin Mirzəyə təqdim edir. Şahzadə məftun olub tərcüməni davam etdirmək üçün onu şövqləndirir. Farscaya tərcümə edilmiş komediyalar 1871-1874-cü illər arasında Tehranda meydana çıxmışdır. 1874-cü ildə hamısı toplanıb bir cild oldu. Bu da Tiflisdə çıxmış türkcə nüsxə kimi nadir bir şeydir. Heyf ki, bu daş basma fəna oxunur və onda bir çox imla səhvləri var".

1935

[1]Bundan sonra Azərbaycanla bağlı işlənən türk ifadələri Azərbaycan və ya azərbaycanlımənasında başa düşülməlidir.

ƏCƏMİLİK MÖHÜRÜ VƏ ONUNLA MÜBARİZƏ

Azərbaycan türklərinin həyatına ətraflıca nəzər yetirib, bu həyatı qeyri-türklərin, məsələn, əvvəlki hallarında qalmış türkmənlərin dolanışığı ilə müqayisə etsək, bu iki tarixə yavuq qövmin arasında böyük bir təfavüt görərik. Bu təfavüt bundan irəli gəlmir ki, biz türkmənlərə münasib mədəni bir tayfayıq – özümüzə məxsus ədəbi dilimiz, ədəbiyyat və musiqimiz mövcuddur: maarif yolunda da onlardan çox-çox irəli gedib məktəb, mətbuat və bir xeyli də mükəmməl təhsil görmüş alimlər yetirmişik. Əsl məsələ bunlardan ibarət deyil, söz ondadır ki, bizim tərz-həyatımıza, adət və ayinlərimizə bir xeyli türklüyə yabançı əməllər qarışıb, möhkəm mövqelər məşğul ediblər. Bu amillər də əlbəttə, tarixi səbəblərdən irəli gəlir. Iran hökmranlığının, əcəm mədəniyyətinin nəticəsi olub. Hansı tərəfdən həyatımıza nəzər yetirsək, adət və ayinlərimizə, milli mədəniyyət məhsullarımıza Iranın qoyduğu fəna izlərə rast gələrik. Hər yeni iş (mədəniyyət ya qeyri-mədəniyyət nəticəsi) şəhərlərdə əvvəl baş verdiyinə görə əcəmlik möhürü də kəndlərimizə artıq təsir edə bilməyib şəhərlərimizdə dövran sürməkdədir. Məsələn, arvadların qapanmağını götürək. Çarşab ("çadır-şəb" fars sözüdür) gəzdirmək türkmən elində adət olmayan kimi bizim kəndlərimizdə də və Anadolu göylərində də adət deyil. Şəhərlərimizdə də Iran mədəniyyətinin dövlətindən şədid bir halda yaşamaqdadır. Və hansı möhürlərdə ki, əcəmlik təsiri daha da artıqdır, orada çarşab ilə kifayətlənməyib rübənd də (fars sözüdür) gəzdirirlər. Kəndli türk arvadının açıq gəzməyi, "çadırşəb" və "rübəndin" fars kəlmələri olmağı açıqca isbat edir ki, türklərdə belə adət yox imiş...

Tərbiyəmizə gəldikdə burada da haman təsirə rast gəlirik. Uşağı çağıranda gərək "bəli" desin. "Hay" desə, onu ədəbsiz sanarlar. Deməli, türkün hayı, Iranın... "bəli"sindən alçaq tutulur.

Köhnə məktəblərdə uşaq öz dilində oxuyub yazmır – kitablar və yazılar fars dilində olur. Təbiidir ki, bu məktəblərdən çıxanlar özləri ilə həmişə bir farslıq daşıyırlar. Bunun üçün də şairlərimiz əsərlərini fars dilində yazır, fars hərflərini təqlid edirlər və cəmiyyətimizin adi üzvləri də məktub, sənəd, ticarətə dair hesablar və qeyri-şeylər yazdıqda yenə fars dilinə müraciət edirlər. Qəribə burasıdır ki, iki türk bir-biri ilə öz dillərində danışdıqları halda, bir-birinə kağız yazdıqda

fars dilində yazırlar. Cənab Nəvvab türk şairlərinin tərcümeyi-hallarını farsca yazır, türk oxucularına təqdim edir. Halbuki cənab Nəvvab türk dilini bilir və bu dildə şeirlər də yazıb.

Ədəbi qaydaları da farsdan götürmüşük. Şair gərək şeirlərini məhdud bir dairəyə salsın. Qafiyələrin qurtaracağı "əlif" olsun. Sonra v. t və i. a. Bundan əlavə qeyri-təbii eşqi mədh edib əxlaqı pozğun fikirlər nəşr etmək də əcəmlərdən qalıb. Badəni və uşağı tərif edən ədəblərin də izincə camaat gedib. Qeyri-təbii məhəbbət türk icadı deyil, çünki türk ünsürü təkə, qırğız və tatarlar arasında buna rast gəlmirik. Bu murdar adət qədim yunan və Roma dövlətlərindən Bizansa, oradan da Irana keçib. Sonralar Iranın ədəbiyyatı ilə də Türküstana və Azərbaycana sirayət edib. Arvadların qapalı olmaqları bu adətə əlverişli bir zəmin hazırladıqlarından indi də camaatımız bu fənalıqdan xilas ola bilmir.

Türküstan qövmlərinin ruhani həyatını nəzərə aldıqda onların qeyri-dindar olduqlarını bilirik. Qırğızlar müsəlman adını daşıdıqda dinə əsla möhtac deyillər. Türkmən obalarını dolandıqda məscidə rast gəlməzsən. Təkə nişanlarının (müsəlmanlarının) özlərinə məxsus libasları olmaz. Camaat geyinən çapandan geyib başlarından da dəri papaqları olar. Mollaya müqəddəs bir nəzər ilə baxıb onları uca mərtəbələrə mindirən müridbazlıq ömürlərini boş-boş dini mübahisə, cənnət və cəhənnəm məsələsi ilə keçirmək – türkmən arasında adət deyil. Bu sağlam qövmlər dünya ilə məşğuldur. Bunların qayələri – şücaətli ömür sürüb şan və şərəfə malik olmaqdır. Uzaq Şərqdən gəlib Qafqaz, Anadolu və Balkan dağlarını aşıb macarlara tərəf üz qoymaqlıq da türklərin şücaət pərvərliklərindən və müzəffəriyyət aşiqi olmaqlarından irəli gəlir. Azərbaycan türklərində bu əsl türkə mənsub nişanələr qalmamağına səbəb yenə Iran hökmranlığının mənhus nəticəsi olan riyakar xəlifəsidir ki, başımıza çəkib cənnətə yol axtarırıq. Özümüzün də əqidəmiz budur ki, bizdən pak, doğruçu millət dünyada yoxdur. Bizdən savayı hamı murdardır, dünya da "darfənadır". Bundan başqa, bir darbəza da vardır ki, gərək ora üçün çalışasan. Bu da əcəmlərdən iqtibas olunan bizim fəlsəfəmizdir. Bu fəlsəfə sayəsində murdarları darfənaya verib özümüz gözümüzü darbəzayə dikmişik. Ümidimiz də budur ki, hər mömin qardaşa darbəzada bir neçə gözəl huri verəcəklər, əbədi ləzzətə nail olacayıq.

Məzhəbbazlıq, dərviş, duaçı, falçı, seyid və mərsiyəxan kimi ixtira və icadlar da Iran həyat əqliyyə məhsulları olub oradan bizlərə töhvə olub.

Yuxarıda söylənəndən məlum oldu ki, əcəmin pozğun mədəniyyəti Azərbaycan türk həyatına bir elə ağır möhür basıb ki, indi də onun nüfuzundan xilas ola bilmirik. Heyif ki, bu nüfuz ilə mübarizə etməyə hələ bizdə qüvvə yoxdur. Zənnimcə, onda mübarizəyə müqənnid ola bilərik ki, aşağıda bəyan olan fikirlər qüvvədən felə keçə. Fikirlərim səkkiz fəsildən ibarətdir:

1. Gərək bizim bir cəmiyyətimiz olsun ki, dilimizi farslıqdan xilas eləsin. Bu da onda mümkündür ki, cəmiyyəti fəal və kamil amillər təşkil edələr. Və hər müəllif kitabını çapa verməkdən qabaq cəmiyyətə göstərib qüsurlarını düzəltdirə. Beləliklə də, ədəbiyyatımızın iki axıntıdan da uzaq olub, osmanlı və ərəb dillərinin nüfuzu altına düşməz. Bir də ədəbiyyatımız ədəbsiz kəlmələrdən və qeyri qüsurlardan xilas olar.

2. Gərək müstəid və geniş məlumatlı münəqqidlərimiz ola, qələmləri qüvvəsi ilə dil və ədəbiyyatımızı düz yola çıxardalar. Ədəbi dil el ədəbiyyatından götürülməlidir. Bunun ilə ehtiyaclar dəf olmasa, fars və ərəb sözlərinə əl atmaq olar. Ədəbiyyat ayıq bir məsələni təqib etməlidir. Həqiqətnəcisliyə artıq meydan verməlidir. şeri nəzmdən uca tutmalıdır. Çünki nəzm qafiyənin düzlüyü üçün fars və ərəb kəlmələri ilə şu istemal edir. O söz ki, türkdə var, onun əvəzinə qeyri söz yazmaq, danışıqda işlətmək, əlbəttə, böyük xətadır. Məsələn, "su" ola-ola "ab" və ya "qan" əvəzinə "xun" demək kimi. Şeirnəvislikdə də ki, belə xətalardan çəkinmək mümkün deyil. Amma şeir ilə yazan qafiyə düzlüyünə möhtac olmayıb həmişə "arvad" əvəzinə "zən" və ya "qadın" kimi xətalardan əsərini uzaq saxlaya bilər.

El ədəbiyyatını toplamaq dilimizə artıq genişlik verəcək. Bu nöqteyi- nəzərdən Firudin bəy Köçərli həzrətlərinin "Azərbaycan türklərinin ədəbiyyatı" sərlövhəli kitabı ziqiymət bir əsərdir. Köçərlinin "Balalara hədiyyə"si və Mirzə Məhəmməd Axundovun "Məclis yaraşığı" da bu yolda böyük xidmətlər edirlər.

3. Milli musiqimsiz türkləşməlidir. Bunun ilə həm farsa qalib gələrik, həm də türk mədəniyyətini ləzzətli bir mövqeyə gətirərik ki, hamı məhəbbət və rəğbət göstərib ona yavuqlaşar. Məsələn, Üzeyir bəy Hacıbəyov cənablarının operaları bizim aramızda kəsbi-şöhrət edən

kimi, türkmən və onlara qonşu – kürdlərin arasında parçaları ağızlarda oxunmaqdadır. Bir kürd uşağının "Söylə bir görüm ey ərəb" oxumağı türklüyün müvəffəqiyyəti deməkdir.

4. Qızlarımızı mükəmməl surətdə oxutmalıdır. Onları hüquqsuzluq təzyiqindən qurtarmalıdır. Arvad elmli və əri ilə müsavi olsa milli ruhlu və tərbiyəli övladlar yetirər. Təbiidir ki, belə uşaqlar gələcəkdə öz tərbiyələri sayəsində nə farslığın və nə qeyri millətlərin nüfuzu altına düşməyib öz milli yolu ilə milli qayələrə (ideala) doğru gedər.

5. Türk məktəblərinin sayını artırmalıdır. Onların içində ruhani sinfi yetirmək üçün ədadi və ali məktəbi bina etməlidir ki, oradan kamil mollalar çıxıb biçarə camaatımızı Irandan gələn əcəm ətvarlı mollanümalardan və mərsiyəxanalardan xilas etsinlər.

6. Bizi farsların nüfuzu altına salanlardan biri də fars ədəbiyyatıdır. Lazımdır farsların Firdovsi, Sədi Hafiz kimi dahilərini Azərbaycan türkcəsinə tərcümə etməklə tahı fars dilində onları oxumağa ehtiyac olmasın. Tərcümə əlbəttə, "dəhri-həqai" kimi olmamalı, tərcümənin birinci şərti düzgünlük və sadəlikdir. Tərcümə nəsrdə olunsa bu iki şərtlər də lazımınca yerinə yetirilir.

7. Firdovsi və Sədilərin öz millətlərini nəşr etməkdə müvəffəqiyyətlərini gördükdə bizə də çalışıb dahilər yetirmək lazım gəlir. Bunların vasitəsi ilə həm özgələrin mənəvi... (söz oxunmadı. Ehtimal ki, "təsirindən" olmalıdır – D.D.) qurtararıq, həm də öz nüfuzumuzu qonşularımız arasında artırarıq.

8. Azərbaycan türklərinin tarixini sadə bir dildə yazdırıb nəşr etməlidir ki, camaat özünün türk olmağını bilsin. Keçmişini öyrənsin və milli vəzifələrini düşünüb gələcək üçün çarələr arasın. Yoxsa hər kəsdən soruşursan: "Sən kimsən?" Deyir: "Müsəlman". Tahı bunu bilmirlər ki, dinimiz müsəlman dinidir, millətimizsə türk millətidir.

Rəy və fikirlərimi bildirdim. Bəlkə möhtərəm oxucular bu yolda bir qeyri də vasitə göstərəcək! – Razıyam! Ancaq hamımızın fikri bu olsun ki, əcəm hökmranlığından qalma fəna "yadigar"ları özümüzdən uzaqlaşdıraq.

1913.

DİL MƏSƏLƏSİ

Dil barəsində arabir yazılır. Hərə ortalığa bir fikir atır, yenə məsələ əvvəlki dairəsində qalır. Camaatımızın anlamadığı, başa düşmədiyi bir dildə yazanların sayı gün-gündən artır. Bircə bunu bilməli ki, bu yazıçıların qəliz ibarələr işlətməkdə fikirləri nədir? Bu məsələ məni artıq dərəcədə həvəsləndirir. Çünki camaatımızın gələcəyi üçün bu da lazımlı və həlli vacib işlərdən biridir. Buna görə qələm sahiblərinə rast gəldikdə bu məsələ barəsində söhbət açıram, rəylərini bilmək istəyirəm.

Belə söhbətlərin nəticəsi olaraq düşünürsən ki, qəliz ibarə işlədənlərin və osmanlı dili ilə yazanların çoxusu əqidə və məsləklə iş görmürlər. Məhz "belə yazıblar, yazırlar, biz də onlara baxıb yazırıq" demək xahişindədirlər. Bir çoxları "türk dilini birləşdirmək" istəyirlər. Buna görə də osmanlı dilini ümumi bir dil sayırlar və bu dildə də kitablar, qəzetlər və jurnallar yazıb Azərbaycan türklərinə verirlər. Halbuki, bunların özlərinə məxsus gözəl, asan və möhkəm dilləri var.

Dilin birliyi üç-dörd adamın bir dildə yazmağı ilə olmaz: dil gərək işlənsin, mürurla gəlib birləşsin. Dil qayırmaq zəiflik sevməz, zor gücü də qəbul etməz. Dil öz kökü üstə bitər, qalxar, qol-qanad açar və bu asudəlik sayəsində də belə gözəl, zərif və geniş bir hala gələr ki, hamını heyran qoyar. Dilin kökü camaatımızın yaratdığı el ədəbiyyatındadır, gərək onlar toplansın, öyrənilsin, əzbərlənsin. Dil axtaran gərək camaatımızın arasında gəzsin, dolaşsın, öyrənə bilsin. Əsil dilimiz bazarlarda, xalqın toplandığı yerlərdə, tərəkəmə elinin içində danışılmaqdadır. Qələm sahiblərimiz buralara yönəlib bunları öz dilləri ilə danışdırıb yol göstərməkdənsə, özləri düz yoldan çıxıb, camaatı da avara qoymaq istəyirlər. Hərgah yazıçılıq etməkdən məqsəd fars və ərəb sözləri işlədib bilik satmaq isə, bu ayrı bir məsələdir. Yoxsa camaatın mənfəəti də mülahizə olunursa, gərək o camaatın başa düşdüyü bir dildə yazılsın ki, o da oxuyub, bundan bir hissə götürsün.

Gərək yaddan çıxmasın ki, Azərbaycanda neçə milyon adam var və onların çoxu geridə qalıblar. Bu səbəbdən də gün-gündən əsir olub, əcnəbilərin ayağının altına düşürlər. Torpaqları, əkin yerləri əllərindən çıxır, ticarət gedir, sənətdən xəbərləri yox, milliyyət və tərəqqi nə olduğunu bilmirlər...

Bu camaatı qaranlıqdan çıxartmağa ən əvvəl dil lazımdır ki, deyəsən: "Ay qardaş, uşaqlarını məktəbə qoy, əkin yerlərini satma, gözü

açıq ol...” Bunları hansı dillə danışdırmalı ki, başa düşsün? Əlbəttə camaatın öz dili ilə, Azərbaycan türkcəsində. Osmanlı dilini bunlar bilməzlər.

Belə olan surətdə qəzet və jurnallarımızı osmanlı dili ilə doldurmaq camaata yol göstərmək olmayıb onu yoldan çıxartmaq deməkdir. “Necə” sözü əvəzində “nasıl”, “arvad” əvəzində “qadın”, “ata” yerinə “baba” və ya “pədər” yazmaq millətin dilini dolaşdırıb, işini çətinləşdirməkdən savayı bir şeyə yaramır.

Yaxşı olardı yazıçılarımız ata-baba dilimizə qayıda idilər. Onda mətbuatımız bir ovuc savadlının malı olmayıb, ümumin, yəni az savadlıların və heç savadı olmayanların da mənfəətinə qulluq edərdi

1914

QULLUQ VƏ ƏSRLİK

"Böyük dura-dura kiçik danışmaz" – bu bizim ev tərbiyəsinin əməl əsasıdır. Bunun nəticəsi nə olur, məlumdur. Gözü açıq, hər şeyi bilmək istəyən uşaqlar böyüklərin rəyasətlərinin qabağında susub, ixtiyarsız bir qul halına gəlirlər. Belə tərbiyə ilə böyümüş uşaqlar özbaşına bir iş görməyə qadir ola bilmirlər. Bunlardan banilik, müasirlik gözləmək boş bir xəyaldır. Çünki uşaqlıqda qul kimi böyüklərə tabe olub, onların yanında danışmağa cürət edə bilməyən balalar irilənib kişi olduqda da uşaqlıqdakı tərbiyələrinin iyi burunlarından getmir. Yəni yekələndə də yeni bir "böyük" axtarırlar ki, ona tabe olsunlar.

Bir müsəlman cəmiyyətinin məclislərinə gedərdim. Otağın yuxarı tərəfində həmişə iki molla oturardı və onlardan aşağı sağ və sol divarların qabağındakı döşəkçələrin üstündə cəmiyyətin qeyri üzvləri əyləşərdilər. Bir məsələ müzakirəyə qoyulduqda ən əvvəl, əlbəttə, mollaların rəyi sual olunardı. Bunların hərəsi öz rəyini bildirərdi (buna sözüm yoxdur). Qeyri üzvlərə gəldikdə biri öz fikrini bəyan etməyə cürət etmirdi. "Tahı ağa buyurdu, mən nə deyim", ya "mən də ağa deyəndən deyirəm" sözlərilə qənaətlənirdilər. Çox ittifaq düşdükdə, sağ divarın dibindəki üzvlər onlara tərəf oturan mollanın sözünü təsdiq edirdilər, o biri tərəfdə oturanlar da öz mollaları ilə həmrəy olurdular. Daha hər kəs öz fikrini bəyan edib, doğruluğunu qeyrilərə də qandırsın bu yox idi.

Bunun səbəbi nədir ki, yazıq üzvlər fikirsiz, şəxsi rəysiz, cəsarətsiz bir qul halına gəliblər? Əlbəttə, həmən "böyük dura-dura kiçik danışmaz" sözləridir ki, bir möhkəm qanun sanılıb ev tərbiyəmizin binasına qoyulub!

Ev tərbiyəsinin yoxluğu bizi qanadı kəsilmiş bir quş halına gətirib, ancaq quş ilə bizim təfavütümüz budur ki, onlarda qanadı kəsildikdə də uçmağa bir meyl görünür, bizdə isə heç bir meyl və həvəs yoxdur. Biz quluq, qulluqdan da çıxmağa əsla razılıq göstərmərik. Sözümün doğruluğunu isbata yetirmək üçün bir müsəlman məhəlləsinə gedin, oturun otağın bir guşəsində qapıdan girənə zənn eləyin. Molla içəri girən kimi gedəcək yuxarı başa (buna sözüm yoxdur). O ki, qaldı qeyri adamlara, bunlar otağa daxil olduqda, bir az duruxacaqlar. Bilirsiniz, duruxanda nə fikir eləyirlər? Özlərinə yer axtarırlar. Məclisin yuxarı başı (mollanın ətrafı) həmişə boş olar, lakin oraya getməyə cürət et-

məzlər: orada “böyük” oturar. Odur ki, hər kəs özünə başqa yer axtarır. Yer də olmasa, xalqı aralayıb, güc ilə sığışır.

Aşağı başın darkeşliyi, isti vəziyyəti yuxarı başın geniş və asudəliyində uca tutular.

Gördünüzmü biz quluq. “Yuxarı” sözündən qorxuruq; həmişə özümüzü alçaq tutmağa meyl eləyirik. Bu səbəbdən də əcnəbilər arasında ləyaqətsiz bir mövqe məşğul edirik. Belə də gərək olaydı, çünki “niyyətin hara, mənzilin də ora” deyiblər.

Bir şəxs və ya millət üçün niyyət çox şərtdir. Hər kəs niyyətini uca tutub və cəmi fikir və səyini onun əmələ gəlməsinə sərf eləsə, əlbəttə, peşiman olmaz. Bir ingilis və ya bir nemsə öz vətənindən çıxıb, bizim məmləkətlərə üz qoyduqda fikri bu olur ki, gəlib böyük bir işə başlasın. Doğrudan da, görürsən səy və bacarığı sayəsində bir elə iş başladı ki, bizim aramızda misli yoxdur. Müsəlmanlar isə belə deyillər: bunlar həmişə başlanmış bir işə yapışmaq meylində olurlar. Və ya bir “böyük” axtarırlar ki, ona tabe olsunlar. Məsələn, dağıstanlı ləzgi, inquş və ya qeyri qövmə mənsub bir müsəlman vətənindən çıxdıqda fikri bu olur ki, gedib bir dövlətliyə nökər olsun. Və ya 20-30 manata qulluq edib, hökumət məmurlarını inqilabçıdan vəya qeyri bir təhlükədən hifz eləsin... Zavallı türklərin niyyəti meymundan savayı ayrı yerə getmir: bir meymunu götürüb, düşürlər cəmi Rusiyyətin canına və başlayırlar millətimizin adına ləkələr vurmağa. Iranlılar fikirlərini hammalığa, xırda-xuruşluğa, müftəxorluğa verirlər və i. a. və i. a.

Rusiya Türküstanı aldıqan sonra bir neçə yerlər abad olub, şəhərlər əmələ gəldi. Erməni, yəhudi və qeyri gözü açıq millətlər bu şəhərlərdə cəmi ticarəti və qeyri mənfəət gələn yerləri əllərinə aldılar. Qarabağın, Şirvanın kəndçi ermənіləri ayağı cındır çarıqlı buralara gəlib, indi hərəsi böyük bir dövlət və mülk sahibi olublar. Müsəlmanların gələnləri də baqqallıqdan yapışdı. Bunların dədə-babası bu işdənsavayı ayrısını görməmişlər; bunlar da o yoldan çıxmadılar: kişilər “gördüklərini qoyub, görəcəyə getmək” istəmirlər. Öz cızıqlarından çıxmırlar: “Azacıq aşım, ağrımaz başım” deyib özlərini zəhmətə salmırlar. “Beş günlük” dünyaya vəfa yoxdur: çəkməsilən müsəlman da ölüb, qəbrə qoyulacaq, karxana və zavod sahibi xaçpərəst də. Qoy nə olur-olsun!” Millətimizin bu fəlsəfəsindən sonra siz hələ şikayət edirsiniz ki, Bakının neft mədənləri müsəlmanların ola-ola əcnəbilərə keçib, milyonlarını onlara verirlər.

Gəncə, Irəvan, Qarabağ bəyləri böyük mülkə, geniş torpağa malik ola-ola onları dolandıra bilmirlər. Ağalıq edə bilmirlər. Ancaq cəmi fikirləri bu olur ki, görsünlər pristavın dəftərxanasında bunlara bir yer olarmı, orada qulluq eləsinlər. Bəylərimiz o qədər alçaq tinətdirlər ki, pristavlara baş endirməyi özləri üçün fəxr bilirlər. Bir dəftərxana katiblik şapqası bunlara o qədər ləzzət verir ki, onun yolunda cəmi namus və qeyrətlərini verməyə hazır olurlar. Nişanın qüvvəsi də ki, məlumdur – mollalarımız qeyrətdən əl çəkib, nişandan əl çəkməyən kimi, əyan da bunlardan geri durmur.

Bəs biz quluq! Bir adam axtarırıq ki, ona deyək:

- Ağa, qulluğunda hazıram!

- Mənə görə qulluq!

- Qulluğuna müşərrəf olmaq eyni səadətdir!..

Biz alçağıq. Çünki "Yenilik", "Təzəlik", "Ucalıq" sözlərindən ürkürük. Insaniyyət yoluna, mədəniyyət yoluna yeni bir cığır açmağa müqtədir deyilik. Əcnəbilər gedərlər, biz baxarıq. Onlar elmdə, fənndə, ədəbiyyat və sənayeyi-nəfisədə də yeni yollar açıb, tazə üslublar icad edirlər; biz laqeyd qalarıq. Artıq-artıq tərəqqi meyilli olsaq, onların izincə düşərik.

Iz ilə getmək də qulluğun bir qismidir. Amma nə fayda, belə̈lik bizə artıq xoş gəlir. Götürün ədəbiyyatımızı oxuyun, əsla təzəliyə bir meyl görünmür. Ədəbiyyatımız, ələlxüsus yeni yazılarımız tamam bir meymunluqdan ibarətdir. Şair əlinə qələmi alırmı, götürüb qaşı kamana və kiprikləri də oxa bənzədir. Daha bunlar mülahizə eləmirlər ki, qaşı kamana oxşatmaq onu ilk söyləyən şairin kəlamında gözəl göründü. Ona əhsən deyildi. Sonradan yüzlərcə şair adlanan onu təqlid edib, yenə qaşı kamana bənzətməklə təzə bir şey vücuda gətirmədilər, bəlkə o şairin də gözəl kəlamını rəğbətdən saldılar.

Bəzi şairlərimiz hüriyyəti mədh eləyirlər. Bunlar osmanlı şairlərinin izincə getmək istəyirlər. Bunu düşünmək istəmirlər ki, osmanlı şairi istibdadın ağırlığından əzilib "Hüriyyət" deyə ah-fəğan eləyirdi.

Onların səslərindən dəhşət və zülm eşidilərdi. Bunlar hamısı təbii: əzilənin halı çığırtısından bilinir.

Indi gərək bizim şairi nə vadar edir ki, hüriyyətdən yazır? Budamı istibdadın zorbalığından gecə və gündüz rahatlıq tapa bilmir? Bunudamı hər tərəfdən xəfiyyələr təqib edib, ağzını açmağa imkan vermirlər?

Şairlərimizin xüsusi həyatı ilə aşina olduqda, görürük ki, bunlar nəin-

ki istibdad ağırlığını hiss edirlər, həyatda laqeyd bir ömür sürürlər və günlərini eyş-işrətdə keçirirlər.

Bəs, bunlar təqlid üçün hüriyyəti mədh eləyirmişlər. Odur ki, bunların kəlamını oxuyanda nə hüriyyətin feyzini hiss edirsən, nə də istibdadın ağırlığını; ürəyimiz heç bir iztirab və həyəcan ilə dolmur.

Çünki şair hissiyat ilə yazmasa, oxucuya bir təsir bağışlaya bilməz!

"Millət" sözünü doğruçu millət xadimlərilə bərabər hər sərsəri də ağzına alıb, "millət dalda qaldı", "milləti gərək qabağa aparaq" deyə-deyə qiymətdən salan kimi, "hürriyyət" sözü də hissiyyatsız şairlərin dövlətindən gülünc bir hala gəlib. Az çəkər ki, şerin özü də əvvəlki hüsnünü itirib gözdən düşər. Səbəb də həmən iz ilə getmək xülyasında bulunan təqlidçilik qulları olarlar. Çünki bizim üçün təb, ilham, allah vergisi mənasız sözlər olub. şeri sənətə (peşəyə) döndərmişik; guya hər kəs istəsə şair ola bilər, hər nə desələr yazar, müəyyən vəqtdə sifariş verilən şey kimi hazır edər. Avropanın müqtədir şairlərinin tərcümeyi-halını oxuduqda görürük ki, bunlar uşaq vaxtlarından şeir yazırmışlar. Bizim Sabir də 8-9 yaşımda şeir yazmağa qədəm qoymuş. Deməli, bir şəxsdə təb olsa, uşaqlıq-dan bəyan olunur.

Adam ki, 30 – 40 sinnində başladı şairlik iddiasına düşməyə, buna şair deməyib, özündən müştəbeh olmuş bir axmaq desək, səhv etmərik. Çünki bunlar bənzətmə və nəzirələr yazmaq ilə şeri daşlayıb bihörmət etməkdən savayı bir iş görə bilməzlər. 40 yaşında "nörəstə" şairin "təbi" ya qoca qarının eşqi – ikisi də gülünc hallardan biridir.

Bununla belə şairlik iddiasına düşənlərimizin sayı günü-gündən artır. Qəzetə sütunlarımız təxmis və təcnis ilə doludur. Heç bir usanmaq, utanmaq görünmür. Tənqidçilərimiz də yoxdur ki, yazalar təbi olanları təbsizlərdən, ağıllıları divanədən aralayalar. Ədəbiyyatımız bir dərəbəylik olub, hər yetən qələm götürüb dahilik eşqinə düşüb.

Keçək hekayənəvisliyimizə:

Bura da bir tənqidçilik meydanına dönüb, nə milli dil var, nə milli ruh. Qəhrəmanlar bir-birilə osmanlı dilində danışırlar. Özləri də Avropa həyatına bənzər bir ömür sürürlər. Oğlan-qıza görüş təyin edir, görüşürlər, bir-birilə ədəbi dildə danışırlar, bir-birinə şeir oxuyurlar. Qız da bilikdə, məlumatda, istedad və qabiliyyətdə oğlandan geri qalmır. Deyirsən: "Pərvərdigara, bu yazıçılar hansı məişəti belə təsvir edirlər?" məgər biz o qədər mədəni olmuşuq ki, qızlarımız oğlanlar ilə görüşüb danışa bilirlər? Məgər qızlarımızın biliyi və təcrü-

bəsi bir o qədər genişdir ki, hər şeyi lazımınca dərk eləyib düşünürlər?.. Yox, qardaşım, bizim məişət belə deyil! Bizim qızlarla (görüş dursun kənarda) ərə verdikləri adamın sifətini görmək hələ mümkün olmayan işlərdən biridir. Özləri də dilsiz-ağızsız və başlarını dolandırmağa qüdrətli olmamaq dərəcəsində təcrübəsiz şeylərdir.

Deməli, hekayənəvislərimiz avropalıları təqlid edirlər. Bunlar da şairlərimiz kimi ədəbi əsirliyi qəbul edib, qələmlərində qulluq zənciri daşıyırlar.

Faciənəvislərimiz də bunlardan geri qalmırlar. Bunların da qəhrəmanları pəncərəni açıb, gecələr kainata xitabən nitqlər söyləyirlər:

"Ey, yıldızlar, dağılın, tökülün yerə!.." kimi sözlər deyirlər. Görün nə gülünc işdir: bir kərbəlayı və ya onun oğlu ulduzlar ilə söhbət eləyir! Bu da təqlidçilikdən əmələ gəlir. Şekspirin bəzi qəhrəmanları ulduzlara müraciətən sözlər deyirlər. Burasını unudurlar ki, böyük ingilis şairinin təsviri ilə deyil, zaman və məişət ilə bizim əsrin və həyatın arasında böyük məsafə və dedikcə artıq təfavüt var.

Cəmiyyət təşkilinə və fəaliyyətinə gəldikdə burada da həmən iz məsələsinə rast gəlirik. Cəmiyyətimizin proqramları tamam bir-birinə bənzəyir. Burada da köhnə yol ilə gedilir, kənara çıxmaq yoxdur.

Bizə bir zəmindarlıq cəmiyyəti vacib işlərdən biridir ki, kəndçilərimizə təzə qaydada yeni ixtira makinaları ilə yer əkmək öyrətsin: yeri nə növ qüvvətləndirməli ki, məhsulu artıq versin... belə-belə çox şeylər öyrətməlidir. Kəndçilərimizi savadlandırmalıdır, onların tərəqqisi yolunda çalışmalıdır. Bir çox kəndçilər sucuq, qamışlı, kol-koslu və ya susuz yerlərə malik olduqda o yeri mənfəətsiz hesab edib, əcnəbilərə satırlar. Bizim bir qüvvəli cəmiyyətimiz və ya zəmindarlıq bankımız olsa belə yerlər satılmaz. Xərc qoyular, kol-kosu təmizlənər, suyu qurudular və ya su gətirilər.

Avam kəndçini öyrətməlidir. Çalışmalı ki, kəndçilər əkin yerlərini satmasınlar. Inanın ki, əkin yerləri müsəlmanların əlindən çıxdıqda, onların vücudu bir qəpiyə dəyməyəcək, qiyamətimiz onda qopacaq. Millət əkin yerindən və onda sakin kəndçilərdən ibarətdir. Bunların tərəqqisi millətin tərəqqisidir. **Şəhərlərin tərəqqisi milləti fot olmaq qorxusundan hifz edə biləcək!** Biz bu nöqtəyə diqqət yetirmirik, amma sonra peşiman olacağıq.

Zəmindarlıq cəmiyyətindən başqa bizə bir çox qeyri cəmiyyətlər də lazımdır. Hanı bizim ticarətə, sənətlərə dair cəmiyyətlərimiz? Mil-

li banklarımız? Ticarətimiz özgələrin əlində. Pullarımız özgə cibində. Hanı yazıq arvadlarımızı himayə edən cəmiyyətlər? Əcnəbilər arasında heyvanları himayə edən cəmiyyətlər var ki, onlara əziyyət vermək qadağan olub. Bizlərdəsə arvad kimi əziz məxluqu əzib döyürlər, küçələrə tullayırlar. Buna bir acıyan tapılmır.

Hanı dil və ədəbiyyatımızın genişliyinə çalışan cəmiyyət? Ədəbiyyatımız istedadsız, başsız bir neçə yarımçıqların dövlətindən əcnəbi ədəbiyyatına əsir olub. Qafqaz, Türküstan, Iranda gün-gündən asan və gözəlliyi sayəsində tərəqqi edən dilimiz lüzumsuz bilinib atılır və yerinə camaatımız başa düşmədiyi osmanlı dili götürülür. Tarixi, etnoqrafi və qeyri cəmiyyətlərə ehtiyac görünürsə, təşkil edən yoxdur. Nəşriyyat cəmiyyətimiz yoxdur, hər yazıçımızın yaxası bir tacirin əlindədir. Keçmişlərin əsərləri çap olunmamış qalır, fikirləri və zəhmətləri siçanlara yem olub. Həsənbəy Məlikzadənin "Zəminədarlıq" sərlövhəli neçə cilddən ibarət olan qiymətli kitabı təb olunmamış qalır. "Heyvanların əqli" adlı böyük bir elmi-fənn əsərləri də var ki, heç yerləri də məlum deyil ki, kimdədir.

Mirzə Fətəli Axundzadə kimi böyük yazıçımız, ədəbiyyatımızda həqiqətnəvislik kimi ayıq bir məsləkin banisi yavaş-yavaş yaddan çıxıb gedir, əsərlərinin ikinci təbinə şüru edən yoxdur. Firudin bəy Köçərli müqtədir bir ədib on beş il zəhmət çəkib üç cild "Azərbaycan türklərinin ədəbiyyat tarixi"ni vücudə gətirib. Bunları çap etdirən yoxdur. cəmiyyətlərimiz də ona etinasızlıq edirlər. Eşitdiyimə görə bu əsəri cənab Firudin bəy Bakı "Nəşr-Maarif"ə göndəribmiş ki, təb etdirsin. Cəmiyyət qət eləyib ki, ədəbiyyat tarixi bir o qədər də millətə lazımlı kitablardan deyil.

Pərvərdigara! Nə böyük xəta eləyirlər. Ədəbiyyat tarixi həyati fikrimizi, onun tərəqqisini göstərib, milli simamızı həm özümüzə, həm əcnəbilərə göstərən bir kitab olduqda, bizə mədənilik adı qazandırdıqda niyə lazımlı olmasın, bilmirəm. Bu kitabı...bir əcnəbi yazsa, Avropada onun ilə böyük ad qazanardı. Görəsən bəs bizim aramızda Firudin bəy Köçərli cənabları kimi adamların əmələ gəlməsini niyə şövq və həvəs ilə qarşılamırıq?

Keçmişimiz naməlum, hal-hazırımız pərişan, özümüz qul, fikrimiz qul, işlərimiz başsız, fəaliyyətimiz cürətsiz – yol həmən yol, kənara çıxmaq yoxdur. Ali məktəbə gedənlər hakimlik, vəkillik və incinarlıqdan savayı ayrı sənət tanımırlar. Diş həkimliyini "dalan sənə-

ti” deyə boykot edirik. Rəssamlıq, heykəltəraşlıq kimi zərif və həvəsli sənətlərə əsla etina olunmur. Rusiyada 30 milyon türkün bir rəssam və ya heykəltaraşı yoxdur.

Musiqi məktəbi tanımaq istəmirik. Bunların hamısının səbəbi qullara məxsus bir cürətsizlikdən irəli gəlir. Qulluq nişanəsi həyatımızın hər bir guşəsində müşahidə olunur. Buna səbəb nədir? O deyilmi ki, bizim özümüz qulluğa artıq meyl və həvəs göstəririk. Məsələn, bir adamı yaxşı bilib tərif etdikdə “filankəs çox allah bəndəsi adamdır” deyirik. Halbuki Allah-taala insanı yaratdıqda onu “bəndə”, “əbd” və “qul” deyə yaratmayıb, onu məxluqun əşrəfi bilib, ona ağıl kimi böyük bir qüvvə əta edib. Bu ağlın dövlətindən də insan ətrafındakıları özünə tabe edib, şəxsi və ümumi mənfəət üçün işlədib. Ağıl olmasaydı at, eşşək, dəvə, inək kimi heyvanları və toyuq, xoruz, qaz və ördək kimi quşları öyrədib, insan onları öz diriliyi üçün qiymətli bir mənbə qayırmazdı. Həmən ağlın vasitəsilə insan təbiətə qalib gəlir, onun uca dağlarını yarıb dəmiryollar salır, zəhmli dəryaların tələtümə gəlmiş səthi ilə gəmilər işlədir. Hava ilə də mübarizə edir, buludların arasında uçquclar seyr etdirməkdədir. Bəs insan qul olmağa yox, ətrafındakıları özünə qul eləmək üçün yaranıb. Insana qul sənəti vermək allaha nasaz gələn hərəkətlərdən biridir. Biz buna baxmayaraq yenə özümüzə qulluq isnad veririk. Bircə kişilərə verdiyimiz adlara diqqət edin:

“Allahqulu”, “Məmmədqulu”, “Həsənqulu”, “Hüseynqulu”, “Əliqulu”, “Vəliqulu”, “Imamqulu” və qeyri. Hələ bu allah, peyğəmbər və imam quluları dursun kənarda, biz özümüzü adi şəxslərin də qulu hesab edirik. Məsələn, “Şahqulu”, “Ağaqulu”, “Xanqulu”. Insanın şəni, qədr və qiyməti müsəlman aləmində o qədər alçaq tutulur ki, bunları pir və ocaq kimi cansız və mənasız şeylərə də qul verirlər: “Pirqulu”, “Ocaqqulu” kimi.

Biz türk ola-ola mən güman eləmirəm ki, bizim təbiətimizdə qulluq və ocaqlıq olsun. Bu adlar da bizə ərəblərdən qalmadır. Dinislamın intişarından qabaq ərəblər bir xeyli allah və ilahələrə iman edirdilər. Bunların ən böyüyü yeri və göyü xəlq edən idi ki, adına “Allah- taala” deyirdilər. “Ərəb... izhar etmək üçün kişi övladını allahtaalanın qulu adlandırırmış. “Əbdullah” o zamanlar kişilərə verilən addır. Allahqulu deməkdir.

“Allah”dan savayı ərəblərin etiqad etdikləri “Manaf”, “əzza”, “Lat”, “baqi” və qeyriləri idi.

Bunları nəzərə aldıqda “Əbdülmanaf”, “Əbdüləzza” kimi qədim türk adlarının mənası aşkar olur.

Islamiyyət “Allah-taala”nın sifətlərini artırdı. Bu da kişi adlarına sirayət etməmiş olmadı: “Əbdülkərim”, “Əbdüləzim”, “Əbdüləziz”, “Əbdülbaqi” kimi bir xeyli yeni adlar əmələ gəldi. Bu yolda ərəbləri təqlid etmək, şiəlik aləmində daha da tərəqqi edib ifrata üz qoydu: “Əbdüləli, Qulaməli, Əliqulu”, “Əbdülrza, Qulamrza – Rzaqulu”; “Əbdülhüseyn – Qulamhüseyn” – “Hüseynqulu”... kimi adlar icad olundu. Cail mütəəssiblər bu yerə gəldilər ki, özlərini “Kərbəlayi”, yəni Əlinin iti də adlandırdılar... Bəs bu alçaqlıq da bizə bir xeyli qüsurlar ilə özgələrdən qalmadır. Ulu babalarımız oğullarına “Dağ”, “Qaya”, “Dəniz”, “Gün”, “Ay” və “Ulduz” kimi adlar qoyardılar. Onda adlarına müvafiq də şan və şərəf ilə ömür sürərdilər.

O zamanlar türklük dağ kimi qüvvətli və qaya kimi möhkəm idi; fikirlər gün kimi parlaq, niyyətlər ulduzlar kimi yüksək idi.

Biz məgər həmin türklərin hümmətlərindən deyilik?

Bizə ən əvvəl lazımdır ki, özümüzü qulluqdan xilas edək.

Dürüst düşünməlidir ki, biz insanlar qulluq üçün yaranmamışıq şan və şövkət ilə ömür sürməyə gəlmişik. Bunu düşündükdə türklərə məlum olacaq ki, şan və ad ilə ömür sürmək meylində olan bir millət gərək mədəni olsun. Gərək “fəqirlik”, “yoxsulluq” və “alçaqlıq” kimi sözlərdən nifrət eləsin. Həmişə dövlətli, qüvvətli və salamat bir millət olmağa çalışsın; çünki təbiət qanunu zəiflik tərəfdarı deyil, zəif gərək fot olsun! Insaniyyət sürətlə qabağa getdikdə zəiflər ancaq ayağa dolaşırlar; belə mənalar ortalıqdan götürülməlidir. Fəal və dünyaçı Avropanın tənbəl və axirətpərvər şərqə axıb gəlməsi həmən təbiətin qanununa tabedir; parlaq ömürdən gözləri qamaşıb, dünyaya “darfəna” ad qoyanlar yox olunacaqlar!..

Bir də deyirəm, mədəni olmalıyıq. Mədəniyyətdən savayı ayrı bir şey bizə nicat yolu ola bilməyəcək. Məzhəbbazlıq heç bir milləti xoşnicatlığa çıxarmadı, bizi də çıxartmayacaq. Bu yükün nə dərəcə batil olub, insanları fot olmağa məcbur etməyi gün kimi aşkardır. Dəlil istəyirsinizsə, din və kilsə tarixlərini oxuyun. Məzhəbbazlıq yuvası olan Iranın hal-hazırdakı zəlalətinə nəzər yetirin. Onda görəcəksiniz ki, məzhəbbazlıq nifaq və fəsadın çeşməsidir.

Türk oğlu türk olun! Türklər heç vədə dünyanın şövkətli həyatından əl çəkib axirət yolu üçün çalışmayıblar. Həmişə ağalıq ediblər.

Şanlı yaşayış üçün qılınc vurublar. Bu fikrin doğruluğunu türk və islamın düşmənləri belə inkar etmirlər. Böyük Volter deyir: "Türk həyatında dini məsələ üstdə baş vermiş bir qafilə görünməmişdir. Qafilə dursun kənarda, türk arasında dini mübahisə, bir üsyan, bircə qarışıqlıq isə də tarixdə qeyd olunmayıb".

Bəzi mütəfəkkirlərimizin "müsəlman Lüteri" gözləməsi də yaxşı fikir gərək olmasın. Özündən müştəbeh olmuş bir divanə çıxıb yeni bir məzhəb icad etməsindən başqa Lüter məsələsi ayrı işə müvafiq ola bilməz. Mühüm bir Lüter axtarıb ona tabe xəyalında olunca yaxşı deyilmi hər bir dolaşıq dini və milli məsələlərimizi zəmanəyə və ağıla müvafiq özümüz həll edək? Allaha şükür, cəmiyyətlər, nədvələr (konqralar) vasitəsilə hər bir məsələnin həllinə çalışmaq mümkün olan işlərdən biridir. Daha özümüzə "böyük" axtarmağın nə mənası var? bizə kəskin ağıldan və zəmanə tələbatından uca bir şey ola bilməz!

Nicatımız mədəniyyətə bağlıdır! Mədəniyyət də bundan ibarətdir ki, ən əvvəl dədə-babamızdan qalan əkin yerlərimizi, kənd və şəhərlərimizi əlimizdən çıxartmayıb onlarda züraət, ticarət və sənətin tərəqqi etməsinə çalışmalıyıq. Bunu düşünməliyik ki, ana dilimizin tənəzzülü millətimizin tənəzzülüdür. Ona görə türk dilinin genişliyinə çalışmalıdır. Bu dili sevməlidir, bunda danışmağı eyb yox, fəxr hesab etməlidir. Vətənimizin hər guşəsində tazə üsul ilə məktəblər açmalıdır. Tərbiyə və təlimdə qızlar ilə oğlanlara təvavüt qoymamalıdır; ikisini də kamil oxutmalıdır. Qızların elmini və təcrübəsini artırmalıdır ki, kişilərə möhtac olmayıb, özləri öz başlarını dolandıra bilsinlər. Həkimlik, mamalıq, müəllimlik, dərzilik, əkin və ticarət işlərilə arvadları tanış eləsək, milli dövlətimiz artar. Indiki kimi arvadlar müftəxor olub, kişilərin üstə düşməzlər. Ruhani işlərimizin islahına çalışmalıdır, ruhani məktəbi açmalıdır ki, mollalarımız ətabata möhtac olmasınlar. Oradan gələn ruhanilər bizə cəhalətdən və mütəəsiblikdən başqa heç bir şey gətirmirlər. Yeni fikirli ruhanilər ermənilər və Balkan islamlarını dirildən kimi, bizi də canlandıra bilərlər.

Müəllimə və müəllimlər yetirmək üçün milli məktəb açılmalıdır. Belə məktəb qurtarmışlar aramızda milli toxumlar saçmağa artıq lazımdırlar.

Ədəbiyyatımızı əcnəbi əsirliyindən qurtarmalıdır; təqlidçilik kifayət edər, indisə ortalığa milli bir şey çıxartmalıdır. Musiqimiz milləti-

mizin şan və adıdır, onun tərəqqisi bizim nüfuzumuzu qonşularımız arasında artırır. Musiqikarımız Üzeyir bəy Hacıbəyov cənablarının qədri bilinməlidir...

Operamızın gələcəyi çox parlaq görünür. Rus teatrı bunu gözdən sala bilməz. Bu şərtlə ki, burada da təqlidə aləmi-islamda ilk opera vücudə gətirməyini təşviq etməlidir. "Opera dramanı öldürdü" deyib, çığırmaq və operanı mənfəətsiz bilmək böyük xətadır! Opera teatrımızı diriltdi və ona əbədi bir ölməzlik qazandı! Teatrımız drama möhtac olsaydı erməni teatrı kimi çoxdan fot olmuşdu. Səbəb budur ki, halhazırda müqtədir dram yazanlarımız yoxdur: Nəcəf bəy Vəzirov və Əbdürrəhim bəy Haqverdiyevlərimizin qələmləri əvvəlki qüdrətlərini itiriblər.

Operamızın dövlətindən teatrımız erməni, gürcü və hətta rusların da nəzərini özünə cəlb eləyib. Ermənilər qədimdən bizim musiqimizin aşiqi olduqları kimi, indi də ona bac verməkdədirlər. Operamız musiqimizin nüfuzunu ermənilər arasında daha da artırdı. Bir millət ki, qeyri-məcburi bir halda özü nüfuzunu əcnəbilər arasında artırmağa qüdrətli oldu, o millət qaranlıqdan çıxıb, mədəniliyə qədəm qoyur. Operamızın daha da böyük xidmətləri olacaq: Rusiya müsəlmanlarının ittifaqına böyük bir vasitə olacaq. Indilikdə "Leyli və Məcnun"un parçaları təkə-türkmən və dağıstanlılar arasında yayılıb ağızlarda oxunmaqdadır. Beləliklə, türk dili tərəqqi edir və dağıstanlılar kimi xırda qövmlər mədəniyyətimizi qəbul edib türklüyə daxil olurlar.

Bundan savayı operalı bir camaat "millət" adını daşımağa haqlıdır. Avropanın mədəni mərkəzlərində "bizim opera belə oldu, elə oldu" deyildikdə millətimizə bir ayrı nəzərlə baxırlar: tərəqqi etmiş deyə hörmətini saxlayırlar. Bizə də Avropanın rəğbətini qazanmaq vacib işlərdən biridir. Erməni milləti hər bir mədəniyyət məhsullarını, məsələn, ədiblərinin tərcüməsini, rəssamlarının çəkdiyi şəkilləri, heykəltəraşlarının yapdığı heykəlləri, böyük artistlərini, cəmiyyətlərini və qeyriləri Avropanın gözünə soxan kimi, biz də bu yolda çalışmalıyıq. Avropanın əfkar-ümumisini bizim tərəfə döndərən şeylərdən biri də operamızdır.

Mart 1914. Aşqabad.

BİZƏ CİDDİ MƏTBUAT ÇOXDAN LAZIM İDİ

On il olar ki, Qafqaz türkləri sabit bir mətbuata malikdirlər. Doğrudur, Rusiyada ilk qəzet nəşr edən Qafqaz türkləri olmuşlar, lakin bu qəzet uzun bir müddət davam etmədiyi üçün, mətbuatımız tarixi ancaq 1904-1905-ci illərdən başlanır. "Həyat" qəzeti ilə mətbuatımız yeni bir dövrə girib, yeni bir həyat sürməyə başlayır.

Bu dövrün özündə də sabitlik ayrı bir dövr alır: Bir qəzet uzun bir müddət başa getməyib, bağlanır, amma mətbuatsız qalmırıq, bir qəzetin əvəzinə bir ayrısı çıxır, bir müdirin yerini bir ayrısı tutur. Bu hal ilə mətbuatımız indi də ömür sürür.

Deməli, mətbuatımız xarab olmuş lampaya bənzəyir – gah yanır, gah keçir, yandıqda işıq vermir, işıq verdikdə şöləsi həmişə bərqərar olmur. Mətbuatımızın bu qeyri-sabit halı oxucuların və millətin halına da sirayət etməmiş olmur.

Mətbuatımız tarixi bu müxtəsərcə sətirlər ilə qurtarır gedir.

Məsələ dürüst aşkar olmaq üçün bu sətirləri şərh etmək lazım gəlir. Məqaləmizin məqsədi də bundan ibarətdir.

"HƏYAT" DÖVRÜ VƏ ONUN QÜSURU

Yaponların Uzaq Şərqdə ruslara qələbə çaldıqları cəmi Asiyaya əcib bir təsir buraxdı: Əsrlərcə yuxuya getmiş qövmlər hərəkətə gəlib, ayılmağa başladılar. Islam aləmi də bu hərəkətə bac verib tərpəndi, gözlərini açdı, kəsalətli üzündə dirilik nişanələri göstərdi. Rusiya türkləri "maarif" deyə səsləndilər. Məktəb, mətbuat, xeyriyyə və maarif cəmiyyətləri ortalığa çıxdı.

"Həyat" qəzeti də bu qızğın dövrdə Bakıda nəşrə başladı. Cəmi ərbabi-qələmlərimiz [...] "Həyat"ın ətrafına toplandılar. Bu ciddi və tərəqqipərvər qəzet başa getmədi.

"Həyat"ın bağlanmağına ümdə səbəb müştəri azlığı oldu. Müştəri azlığı da onun üçündü ki, əvvəla, Qafqazda savadlı adam az idi. Ikinci, savadlı olsaydı da, qəzet alıb oxumağa camaat öyrənməmişdi. Üçüncü, "Həyat" bir elə dildə yazırdı ki, onu ancaq pürsavad adamlar oxuyub, feyz ala bilirdilər. Xalq isə az savadla belə qəzetləri oxuya bilmirdi.

"Həyat" bağlandısa da, onun təsiri mətbuatımızda dərin izlər buraxdı. Qəzetlərimiz xalq malı olmayıb, bir ovuc ibarəbazlara qulluq

eləməyə başladı. Əlibəy Hüseynzadənin istedadı, məlumatı və tərcümeyi- halı, gözübağlıca kimi oxucuların və ələlxüsus mühərrirliyə həvəslənənlərin ağıl və məsləklərinə qalib gəldi. Hamı bir ağızla onun dahiyi-əzim olmağını söyləyib inandılar. Mətbuatımızda təqlidçilik meydanı açıldı: qəliz ibarələr ortalığa çıxdı. Dilimiz təzədən məhv olmağa başladı... Hüseynzadənin dövlətindən ərəbləşmiş osmanlı dili "ədəbi"lik iddiasına düşdü. Mətbuatımız bilmərrə xalqdan ayrıldı. Nə xalq qəzetlərin dilini bildi, nə də qəzetlər xalqın. Biçarə camaatımız dərdləri dərmansız bir halda can vuruşdurmaqda qaldı[1].

Həqiqət halı düşünənlər çox idi, lakin səsləri eşidilmirdi.

Deyirlər bir dəfə sabiq "Əkinçi" müdiri məşhur Həsənbəy Zərdabi "Füyuzat" məcmuəsinə baxıb soruşub:

– Bunu kimin üçün yazırsınız?

– Camaat üçün, – demişlər. Həsənbəy gülümsünərək demişdir:

– Elə isə camaatın dilində yazın ki, çamaat da başa düşsün.

Əlbəttə Həsənbəyin haqq sözləri heç kəsə kar eləmədi. Çünki sadə dildə yazmaqlıq o zaman bisavadlıq kimi tələqqi olunurdu və bu dərddən hər kəs yazıçılıq meylində olsa idi, gərək bir xeyli fars və ərəb ibarələrinə malik ola idi. Adi türk sözləri yerinə ərəb ləfzləri işlətmək mod olmuşdu.

Deməli "Həyat" qəzeti və onun müaqibləri camaatımızı qəzet oxumağa rəğbətləndirməyə çalışmaqdan, onun bu yolda həvəsini artırmaqdan, dəxi də camaatı qəzetdən uzaqlaşdırdılar. Qəzet camaata yad və düşünülməz bir şey oldu. Hökumət məktəblərində təhsil edənlərimiz az savadları ilə milli qəzetdən bir az da uzaqlaşdılar.

"Həyat" dövrü belə keçdi.

CİDDİ MƏTBUAT MÜVƏFFƏQİYYƏTSİZLİKLƏRİNİN QEYRİ SƏBƏBLƏRİ

Dil məsələsindən başqa bir xeyli səbəblər camaatımızı qəzet oxumaqdan usandırdı, mühərrirlərimiz arasına nifaq düşdü. Gərək bu nifaq qəzetlərimizin sütunlarına sirayət etməyə idi. Çünki qəzetçilikdən

[1] Burada redaksiya belə bir qeyd vermişdir: "Mühərririn bu mütaliəsi məlum olduğu üzrə üslubçularımız arasında ixtilaflı bir məsələdir. Əlibəy dilinin bu yolda təfsirinə idarə şərik deyildir.

məqsəd millətə yol göstərməkdir. Şəxsi nifaq, şəxsi qovğa mətbuata dəxli olmayan işlərdən biridir. Heyfa ki, burada da yarımçılıq büruzə verildi. Qəzetlərimiz şəxsi-qərəzə, behtan və iftiraya, söyüş və biədəbliyə vasitə oldu. Milli məsələlər yaddan çıxdı. Oxuculara dəxli olmayan, millətə baş ağrısından başqa bir şey bəxş etməyən sözlər və söhbətlər ortalığa çıxdı. Biçarə oxucular təngə gəldilər. Ümid bağlayıb, göz dikdikləri adamların da nə dərəcədə şəxsi-qərəz bə məsləksizliyə aludə olmalarını gördülər. Ciddi mətbuat nüfuzunu yavaş- yavaş itirməyə başladı [...].

Bu dövrdən tutmuş indiyədək mətbuatımız axsamağa başlayır. Müqtədir yazıçılarımız fikirlərini bəyan etməyə lazımi bir qəzet və ya məcmuə tapmayıb, sükuta qərq olur, onların əvəzində ortalığa elmsiz, biliksiz adamlar çıxırlar. Məslək məsələsi bilmərrə itir, məqalələr daddan, gözəllikdən, mənadan uzaqlaşır. Hərə ilk öyrəncəyini qəzet idarəsinə aparır. Bir məsələ üstündə təkrar-təkrar danışılır. Birisi bir söz dedikdə bir ayrısı da haman sözü təkrar söyləyir. Oxucunun yeni fikirlərdən əsla xəbəri olmur. Budur, görürsən qəzet düşüb molla əlinəorucdan, namazdan, təharətdən söhbət açılıb, min il danışılıb, aləmin zəhləsini tökən söhbətlərin yenidən ortalığa çıxıb qəzet vasitəsilə bəyan olunmağı oxucunu zara gətirir. Insaniyyətin qazandığı hədsiz-hesabsız elm və fənnlər əvəzində, oxucuya növhələr, dini vəzlər və nə bilim nələr təqdim edirlər. Arif qismi mətbuatdan dəxi də nifrətlənir.

Qəzet beləcə yavaş-yavaş qiymətdən düşməyə başladı. Orucov qardaşlarının qəzetləri hürrəndiş oxucuların məsləklərinə müvafiq idisə də, sabit bir proqrama tabe olmayıb, ehtiyacı dəf eləmirdi. Avropa mədəniyyətindən, onun məhsullarından yenə oxucularımız lazımi məlumat ala bilmirdilər. Qəzet başına gündə bir mühərrir dəvət olunduqda, qəzet sabit bir məslək təqib edə bilmirdi. Bu səbəbdən həmişə də bir dil işlənməyib, hər sərmühərrir qəzeti yeni bir dildə yazırdı. Bundan əlavə, çox vaxt sərmühərrirlər qəzetçiliyə lazımınca hazır olmadıqlarından, qəzeti oxuduqda bunun təcrübəsiz və biliksiz mühərrirlər tərəfindən qələmə alınmış olduğu gözə sıçrayırdı...

Belə olduqda ciddi qəzetlərimiz həmişəlik olaraq camaatımızın rəğbətini qazana bilməzdi. Avropa qəzetləri sabit məsləklərlə ətraflarına milyonlarca adamlar toplayırlar. Həmişə onlara rəhbərlik edirlər. Ona görə böyük-böyük məsələləri qəzetlər vasitəsilə həll eləyirlər. Mətbuatın Avropada olan qüdrət və qüvvəti bizlərdə yoxdur. Bunun

ümdə səbəbi budur ki, mətbuatımız başında ləyaqətli adamlar durmurlar.

Qəzetçilik bizlərdə ad, şöhrət, mod və qazanc məqsədi ilə olur. Görürsən varlığından heç kəsin xəbəri olmayan bir şəxs həftəlik bir məcmuə nəşr etməyə başladı. Nə tövr məcmuə olsa olar, xərcini çıxardacaq. "Müdir" cənablarının da fikri budur ki, bir neçə vaxtlığa adı çıxsın. Bir neçə aylığa ağzına gələni yazır. Özgələrin ağızlarında dastan olmuş fikirlərini yenə də təkrar eləyir, qəzetçiliyi bununla qurtarır.

Libas modaya tabe olan kimi mətbuat da bizdə modaya bac verirdi. Bir vaxt moda belə şiddət eləmişdi ki, hər yetən "müdirlik" iddiasına düşürdü.

MƏZHƏKƏNƏVİSLİK

Mətbuat bir fikrə meydan verdiyi kimi, bəzi ayrı-ayrı fikirləri də yox etməyə gərək çalışsın. Mətbuatın əsil məqsədi haqqı intişar edib, nahaqqa qalib gəlməkdədir. Nahaq ilə də iki cür mübarizə etmək olar: ya ciddi məqalələrlə, ya məzhəkə təriqi ilə. Məqsədə çatmaq yolunda məzhəkə dəxi də məqbul görünür. Ona görə mətbuat tərəziyə bənzəyir: Bir şaxəsi ciddi qəzet və məcmuələrdən, o birisi məzhəkə və həzl[1] jurnallarından ibarət olur. Bir fikrə çatmaq üçün mətbuatı vasitə etdikdə tərəzinin müvazinətinə çalışmalıdır. Mətbuat müvazinəti pozulduqda lazımi nəticələrə də çatmaq mümkün olmur. Ciddi mətbuatın məqsədi tikmək və yaratmaqdır. Məzhəkənəvislik isə uçurmaqdan ibarətdir. Məzhəkə uçurduqca, ciddi mətbuat da tikməli və təmir etməlidir. Müvazinət itib, məzhəkə qüvvət tapdıqda köhnəlik uçurular, yox olar. Lakin məqsədə nail olmaq olmaz. Çünki yenilik əmələ gətirməyə məzhəkə lazımınca qadir deyil. Bu qeyri-salamat bir hal bizim mətbuatda dövran sürüb və indi də sürməkdədir. Nədənsə bizim Qafqaz mühərrirləri həmişə məzhəkənəvisliyə meylli olurlar. Yüz əlli il bundan əqdəm yaşamış şairimiz Molla Pənah Vaqifdən tutmuş son müqtədir şairimiz Sabirədək hamısı məzhəkə yazmağa, həcvguluğa artıq həvəs göstəriblər. Teatrnəvislərimiz də bu yolda artıqlığınca cəhd eləyiblər. Mirzə Fətəli Axundov yetmiş il qabaq komediya hüsula gətirib. Sonrakı yazıçılarımız da onu təqlid ediblər.

[1] Lətifə, zarafat

Əsrlərcə məzhəkə ilə tərbiyə tapan millətimiz aşkardır ki, "Molla Nəsrəddin" jurnalının zühuruna artıqlığınca sevindi. "Molla Nəsrəddin" də əvvəl illər doğrudan gözəl və cazibəli idi, məsləki sabit və salamat, yazıları kamil və şirin, dili asan və xalqa yavıq. Özü də mahir rəssamlar qələmindən çıxmış şəkillərlə müzəyyən idi. Həqiqətdə "Molla Nəsrəddin" jurnalı ilə biz fəxr edə bilirdik.

Ciddi qəzet və jurnallarımız çətin dilləri, duzsuz yazıları və məsləksizliyi ilə oxucuları zara gətirdiyi zaman "Molla Nəsrəddin" şöhrət tapıb, vətənimizin hər bir guşəsində oxunurdu. Tüccar, əsnaf, əyan, əşrəf, avam, xas – hər bir sinifdə rəğbət qazanırdı. Kəmsavad baqqallarımız, çörəkçilərimiz höccələyə-höccələyə oxuyur, "Molla Nəsrəddin" dən ləzzət apardıqları kimi, studentlərimiz, doktorlarımız, laqeyd bəy və hökumət məmurluğunda olanlarımız da ondan həzz alırdılar. Çox ailələrdə arvadlar toplanıb, balaca uşaqlara oxutdurub, qulaq asardılar.

Belə olduqda məzhəkənəvisliyin təsiri ciddi mətbuat təsirindən artıq olaraq camaat arasında yayılırdı. Məzhəkənin işə keçdiyini görərək, qəzetlər də əsil məqsədlərini unudub məzhəkəyə meydan verməyə üz qoydular. "Molla Nəsrəddin"dən savayı arabir ayrı həzl məcmuələri də ortalığa çıxdı. Mətbuat müvazinəti bilmərrə itdi. Hamı uçurmağa üz qoydu, amma tikmək meylində olan olmadı. Uçurduqda da yaxşını pisə qarışdırıb, uçurdurdular. Cəmi köhnə binalarımız, milli və dini imarətlərimiz məhv olub getdi.

MƏTBUATIMIZDAKI MƏVAZİNƏSİZLİYİN NƏTİCƏSİ

Məzhəkənəvislikdən yadigar olaraq bizə bir gülüş qaldı. Cəmi rişxəndimizi bu gülüşlə bəyan edirik. Istər haqq, istər nahaq rişxəndli gülüşümüz hər yerdə büruzə verilir. Heyfa ki, təkcə pisə rişxənd etmək əvəzində, yaxşını da pisə qatırıq gedir. Bu hal millətin hər bir sinfində müşahidə olunur və şiddətli nəticələr verməkdən qalmır. Köhnə yol gülünc olub itdi. Təzə bir yol göstərən də olmadı.

Həmişə rəhbərə möhtac olan qara xalq yolu bilmərrə itirdi. Adət və əxlaqlarına yerli və yersiz o qədər gülünmüş və əskikləri o qədər üzünə vurulmuş, təkrar olunmuşdu ki, zavallı xalq özünü bu həqarətdən saxlamaq üçün doğma adət və əxlaqını unutmağa, onlara xor baxmağa başlamışdı.

Bu surətlə mənliyimizdə əgərdən-əskikdən başqa bir şey, dəyərli və qiymətli bir var görməməyə öyrəşən camaatımız yavaş-yavaş özlüyündə laqeydlik göstərdi. Dilimiz əcnəbi sözlərlə dolmağa başladı. Çox yerlərdə türkcə danışmağa utandılar. "Türkcə danışma – eyibdir" deyə bir gimnazistin birinə müraciət elədiyini çox görmüşəm. "Müsəlman" ləfzi föhş və eyib ifadə edən bir kəlmə oldu... hər kəs nə bitərbiyə iş gördüsə, onu görən şəxsin müsəlmanlığına yozdular. Halbuki, pis əməllər müsəlmandan baş verdiyi kimi, qeyri dinə və millətə məxsus şəxslərdən də baş verir. Müsəlman və ya qeyri-müsəlman deməməli, tərbiyəli və tərbiyəsiz desək, dəxi doğru olar. Bu həqiqət məqsədsiz gülüşlər içərisində buludlandı. Birisi oğurluq etdikdə deyirlər: "Müsəlmandan ki, yaxşı iş çıxmaz". Halbuki, müsəlman oğru olmayıb, qeyri dinə tabe olanlardan da oğru olub. Amma nədənsə cəmi pis əməlləri müsəlmanlıqdan görürük.

Milli bayramlarımız camaatımızın gözündə hüsnünü yox etdi. Xalq da dədə-babadan qalma gözəl bayramlarını şad bir halda keçirməyə qorxdu. Bəziləri hətta qələm götürüb, novruz bayramının canına düşdülər. Neçə əsrlər millətə[1] xidmət edən, ona şadlıq və fərəh verən bir əziz günü şərafətdən salmaq istədilər. Halbuki, novruz şairanəliyi ilə əcnəbilərin də rəğbət və məhəbbətini qazanır. "Bahar bayramı" adı ilə cavanlarımız arasında günü-gündən tərəqqi eləyir. "Novruz"u yox eləmək meylində olan mühərrirlər bilmirəm millətə hansı bayramı verəcək idilər?

Bundan əvvəl balalarımız milli oyunlarımızı oynardılar. Indi çoxusu utanıb, onlardan əl çəkir. "Südlü sümük", "başıqovurma", "cızıqdançıxma", "leygələ" və bir çox başqa oyunlarımız var ki, uşaqların hərəkətinə, şadlığına səbəb olub, onları millilikdə sabit saxlayır.

Çox yerdə atalar oyunu bilmərrə balalar üçün lüzumsuz bilirlər. Yolu itirmiş yazıq atalar elə güman edirlər ki, uşaq sübhdən axşamadək kitab üstə otursa, çox bilik qazanar. Dəxi bunu bilmirlər ki, uşağı yormazlar, oxutduqda da dərs şeylərini oyuncaq şəklinə salarlar ki, uşağın həvəsi və meyli artsın. Bir hacı oğlunu mənim yanıma oxutmağa qoymuşdu. Yazıq hacı tez-tez yanıma şikayətə gələrdi ki, oğlum ağaca çıxır. Biçarə elə bilirdi ki, əcnəbi balaları ağaca çıxmırlar və ağaca dırmaşmaq da ədəbsizliyə dəlalət edir. Bir şagird məktəbdən xi-55

[1] Müəllif əksər hallarda "millət" sözünün burada olduğu kimi, "xalq" mənasında işlədir.

las olub, bikar vaxtında tar çalarmış. Atası tarı alıb atır ki, nə tarbazlıqdır. Yol azmış kişi yenə elə güman eləyir ki, tar çalmaq eyibli bir işdir. Halbuki, milli musiqi milliyyətimizin möhkəmliyinə böyük xidmətlər edir.

Məzhəkənəvislik sabit bir halda qalmayıb ifrata üz qoydu, millətimiz dəxi də rəxnədar oldu. Bikar mühərririn biri bir gün də qələm götürüb, milli nağıllarımızı həcvə qoydu. Belə xəta törətdikdə görəsən bir dəlil və sübut göstərdilərmi? Əlbəttə yox. Inkar etmək yolu asan olduğu üçün bu yola müraciət etmək fikirləri əlbəttə biliksizlik bəlasından qurtarır. Lakin hər şeyi inkar etməklə də millət çox şey itirir. Nağılların millətimizin həyat, əqliyyə və xəyaliyyəsinin məhsulu olduğunu gərək idi düşünəydik. Onda dərin bir fəlsəfə olmağını gərə qana idik. Amma qanmaq istəmədilər. "Bu da qədim işdir" – deyə nağılı hörmətdən saldılar. Əcnəbilər isə nağıla bu nəzərlə baxmırlar, onu hər yerdə toplayıb təb etdirirlər ki, məhv olmasın. Avropada az-az ədiblər tapılar ki, nağıl yazmasın. Avropalılar nağılları bihörmət etmirlər, amma biz nağılı həcv edirik. Biz millətin əsrlərcə vücuda gətirdiyi nağılları çölə tullayırıq, onlara yiyə olmuruq.

Əcnəbi dildən tərcümə olunmuş həyatımıza yad, ruhumuza zidd hekayə və nağılları uşaqlarımızın oxumağını rəva görürlər. Bizim şirindilli, maraqlı nağıllarımız kənarda qalır. Uşaqlara ağır, ağıl həzm eləməyə qadir olmayan nəsihət kitabları yazılır, uşaqları kitabdan nifrətləndirirlər. Bunu düşünmürlər ki, nəsihət yazmaq qaydası mədəni millətlər arasında çoxdan dəbdən düşmüşdür, çünki uşağa quru nəsihət heç vaxt kar eləməz, uşaq gördüyünü götürər. Sən uşağın yanında yalan danış və uşağa tapşır ki, yalan danışmasın. Bunu uşaq heç vədə qəbul eləməz. Uşağın yanında doğru danışmalıdır ki, o da doğruçuluğu öyrənsin. Yaxşı deyilmi ki, Avropanın əsrlərcə qazandığını biz də əxz eləyək? Dəxi zəmanəyə müvafiq olmayan fikirlərə niyə meydan veririk?

"AÇIQ SÖZ" DÖVRÜ

Rus-yapon müharibəsi bizə "Həyat" ilə "Irşad"ı bəxş etmiş idi. Böyük Avropa davası da "Açıq söz"ü vücuda gətirdi. Məsləksiz mətbuatdan inciyib kənara çəkilmiş mühərrirlərimiz yenə də qəzet başına toplandılar. Dərdlərimiz müzakirə olunur, halımızı təsvir edirlər.

Yaxşı olardı ki, müqtədir, yazıçılarımızın “Açıq söz” başına toplanmaları ittifaqi olmayaydı. Bunlar himmət edib, həmişəlik olaraq bircə də olsa ləyaqətli bir qəzetin davamına çalışa idilər. Yazmalı dərdlərimiz çoxdur. Qara camaatımızı öyrətməlidir. Bunun üçün də artıq bilikli olmalıdır. Ala-yarımçıq xəbərlər, kəsik-küsük biliklər camaatı yoldan çıxardır. Camaata bütün məlumat verməlidir. Bunun üçün də qəzetdə iştirak etmək üçün mütəxəssislər dəvət etməlidir.

Mərhum Həsənbəy Məlikzadənin zəmindarlığa dair böyük əsərləri var. Gərək bunlar çoxdan təb oluna idi. Lakin himmətsizliyimiz sayəsində onlar ortalıqda yox olub gedir. Barı heç olmasa Həsənbəyin əsərlərini mürurla qəzetlərdə çap eləyə idilər. Onlardan camaatımıza böyük mənfəətlər hasil olar. Qonşularımız erməni və gürcülər zəmindarlıq cəmiyyəti qayırıb kəndçilərinə təzə üsulla yer əkmək öyrədirlər. Əkinəcək torpaqlarını mühafizə edirlər ki, əcnəbilərə satılmasın.

Bizim cəmiyyətimiz olmamağı bəs deyildir, bu barədə qəzetlərimizdə bircə söz də yazılmır. Halbuki, torpaq məsələsi millət üçün həyati və zəruri məsələlərdən biridir. Iqtisadi məsələlər bu saat cəmi dünyanı məşğul eləyir. Hər kəs öz millətini varlı və tavanalı eləməyə çalışır. Çünki yoxsul xalq tərəqqi edə bilməz. Bu fikri əmələ gətirmək üçün iştirakı-əməliyyat (kooperasiya) tərtib edirlər. Bu şirkətləri cəmi şəhər və kəndlərə yayırlar, xırda borc bankları açırlar, xalqa pul lazım olanda əllərindən tuturlar...

Bizim camaat isə fəqvrlik torbasını daşıyır.

Elmsizliyi cəhətinə hər kəs başına vurub onun çörəyini əlindən alır. Tamahkar tacirlər bir tərəfdən, müamiləçilər də bir tərəfdən yazıq millətin qanını sorurlar.

Bu barədə qəzetlərdə yazan yox, iş görən yox.

Arvad məsələsi millətin tərəqqisi yolunda böyük maneə təşkil edirdi. Bu məsələ barəsində danışıldı. Arvadların elmsiz olmalarının nəticələri ortalığa tullandı. Şükürlər olsun, məsələ həll olunmağa üz qoydu. Qız məktəbləri açıldı, atalar həvəslə qızlarını məktəbə göndərdilər. Ancaq məsələnin vacib tərəfi qaldı kənarda. Tərbiyənin mahiyyət və keyfiyyəti haqqında dinən olmadı. Bir qəzet yoxdur ki, “cəmi pis hərəkətlərimiz tərbiyəsizlikdəndir” deməsin. Bu “tərbiyəsizlik” sözünü qəzetlər təkrar-təkrar söyləyiblər və söyləyirlər. Lakin bircə mühərrir isə də tərbiyə barəsində oxuculara məlumat vermədi, oxucular da tərbiyənin nədən ibarət olmağını bilmirlər.

Bu barədə gərək yazıla idi, həm də çox yazıla idi. Bu məsələyə dair Avropada cərəyan edən fikirlər camaatımıza bildirilməlidir.

Məsələlərimiz çoxdur. Dərdlərimiz başdan aşıb. Deyib danışan yoxdur. Müəyyən fikirlər var ki, Avropada hüsula gəlib, bizim camaata məlum deyil. Mətbuatımız bu halda qalsa, o fikirlər yenə bizim üçün gizli qalacaq. Yazılmalıdır, kamil yazılmalıdır. Öyrənməmişdən qəzet başına gəlməməlidir. Yoxsa "qaş qayırdıqda göz çıxarılar".

Oxucuları təkcə Avropa davası ilə məşğul etmək fayda verməz, bu ötəri bir şeydir. Bu gün var, sabah yoxdur. Bizə varlığımız ilə həmişə mərbut olan məsələlərin müzakirəsi lazımdır. Bu barədə danışmalıdır, oxucuların rəğbətini buraya döndərməlidir...

Məzhəkənəvislik yıxdığı binaları yenidən tikməlidir. Məharət göstərməlidir. Mətbuat müvazinətini düzəltməlidir. Bunun üçün də ləyaqətli qəzet və jurnallar nəşr etməlidir.

Məsləkin sabitliyinə, məlumatın salamatlığına diqqət etməlidir. Bu yolda möhtərəm "Açıq söz" və "Yeni iqbal"ın vəzifələri böyüyür. Müvəffəqiyyətlərini haqdan diləyirik.

1916

ƏDƏBİ DÖVRÜN BAŞÇISI

1906-cı ildə Şuşada uzun bir xəstəlik keçirmişdim. Bir gün Haşımbəy Vəzirov (bilaxirə "Tazə həyat" və "Səda" müdiri) məni yoxlamağa gələrkən, cibindən rəngli bir jurnal çıxarıb, xoş bir sevinclə mənə verdi. Bu "Molla Nəsrəddin"in ilk nömrəsi idi. Hər şeyi bəyənməyən, həsədə qapılan Haşımbəy bu dəfə olduqca məmnun idi. Xatırımdadır, məcmuəyə dair bir çox mədhiyyələr söylədi. Qara tüklü əllərilə məcmuəni vərəqləyərək başdan-başa oxudu, oxuduqca da hər bir sətri xoş qəhqəhəsi ilə canlandırdı.

Səhhətim yerinə gələr-gəlməz işə başladım. Avropa xəritəsinin qarşısında durub, "Ah, Avropa, bir də səni nə vaxt görəcəyəm?" – deyən Müzəffərəddin şahın karikaturasını çəkib "Molla Nəsrəddin"ə göndərdim. Karikaturanın rəssam Şmerlinqin imzası ilə çıxması bir az məni dilgir etdi. Buna baxmayaraq Şuşada erməni-türk vuruşmasını körüklədən çar generalı Qoloşapova da bir karikatura çəkdim. Bu da senzura qurbanı oldu. Karikaturalarla bərabər kiçik məqalələr də yazmağa başladım. Lakin məqalələrim müvəffəqiyyət qazana bilmədi. Ilk təcrübələrin nəticə verməməsi məni işdən soyutmadı. Bir gün Qarabağ pir və ocaqlarını kəskin surətdə tənqid edən bir məktub da yazdım.

Məktub "Bakı realni məktəbinin altıncı sinfinin şagirdi Mir Yusif Vəzirov" imzası ilə nəşr olunmuşdu ("Molla Nəsrəddin", № 37,1907). Belə açıq imzalı məqalənin nəşri müəllif üçün bir çox fəna nəticələr verə bilərdi: məktəbdən qovalar, təhqir edərdilər, öldürə də bilərdilər. Çox çəkmədi, bir neçə söyüş və təhqir məktubu aldım. Hacı Hacağa karvansarasında yaşayan qarabağlılar həyəcana gəldi... Bir neçə gün evdən çölə çıxmamaq məcburiyyətində bulundum. Nəhayət, "Tazə həyat" sütununda bir "Izahat" basdırıb, yavaş-yavaş meydana çıxmağa başladım.

Bu təcrübələrdən sonra "Molla Nəsrəddin"lə əlaqəmi tamamilə kəsdim. Lakin yenə əvvəlki kimi jurnalı oxuyur və nüfuzundan ayrıla bilmirdim.

Inqilaba qədər bizdə nəşr olunan jurnal və qəzetlər arasında "Molla Nəsrəddin" qədər nüfuzlusu olmamışdır. Bunun səbəbi çox idi, "Molla Nəsrəddin" geniş kütlənin anlayacağı bir dildə yazırdı.

1926-cı ilə qədər Mirzə Cəlili bizzat tanımazdım. Mən onu qaibanə tanıyan kimi, onun da məni artıq bir ədəbi sima kimi tanıdığını bi-

lirdim. Hələ inqilabdan əvvəl "Cənnətin qəbzi"ni oxuyub, təqdirkar mülahizələr yürütdüyünü eşitmişdim. 1926-cı ildə telefon edib, onu ziyarət edəcəyimi bildirdim. Evdə görüşməkdən çəkinərək, "Bakı işçi nəşriyyatı" idarəsinə gələcəyini və orada görüşəcəyini vəd etdi. O biri gün ortaboylu, iri bığlı, narın çopur burnunun üzəri tüklü, iri əsalı bir adam masama yanaşdı. Qalxıb, çoxdan həsrətində olduğum Mirzə Cəlilin əlini sıxdım.

Gülə-gülə:

– Yazılarınızdan sizi çox yaşlı zənn edirdim, cavanmışsınız – dedi.

Iş əsnasında gəlişi ətraflı görüşümüzə mane oldu. Məni evinə çağırdı. Bir axşam getdim, oturduq, axşamı Mirzə Cəlil ilə yaxından tanış oldum. Böyük ədəbi dövr yaradan, ictimai həyatımızda inqilablar törədən, 25 il populyar məcmuəyə rəhbərlik edən bu böyük sima mənə o qədər məhdud göründü ki, heyrətimdən çaşıb qaldım. Mənə onun söhbəti olduqca sıxıntılı, məlumatı çox az göründü:

– Himm?.. Hə... Deməli, belə...

– Hə? .. Nə olar ki?.. Hə...

Bütün axşam söylədikləri qırıq, məntiqsiz, rabitəsiz ifadələrdən ibarət oldu.

"Mənmi yanılıram, Mollamı qocalmış?" – deyə öz-özümə suallar verdim.

Sonralar küçədə tez-tez ona rast gələrdim. Mehriban görüşər, halımı xəbər alardı. Artıq xəstə idi, yavaş addımlarla yürürdü.

Bu gün o aramızda yoxdur. Lakin əsərləri yaşayır. Onları təkrartəkrar oxuyuram. Həp mövzu və tipləri, lətifələri bu əsərlərin böyük bir qələmə mənsub olduqlarını aydıncasına ifadə edir.

Molla böyükdür və orijinaldır.

1934

TEATR PƏRƏSTİŞKARI

Bundan 35 il əvvəl Şuşa mədəni sahədə birinci sırada gedən şəhərlərdən biri idi. Iqtisadi bazası zəif, ticarəti get-gedə azalan əhali çıxış yolunu məktəbdə aramağa başlamışdı. Ən mütəəssübü belə övladını rus məktəblərinə göndərməkdən çəkinmirdi. O zaman Şuşada realni və şəhər məktəbi vardı. Bir az sonra rus-tatar məktəbi də açıldı. Buradakı tələbələrdən başqa Bakı məktəblərində, paytaxt ali məktəblərində (Qafqazda ali məktəb yox idi), Qori və Yerevan seminariyalarında da şuşalılar var idi. Yay aylarında başqa yerlərdəki tələbə və kənd müəllimləri (o vaxt türklər orta məktəblərdə müəllimlik etmək haqqına malik deyil idilər) Şuşaya toplanır, şəhərə mədəni bir həyat gətirirdilər: teatr tamaşası verilir, müsamirə düzəldilir, leksiyalar oxunurdu. Bunların hamısında da Əbdürrəhimbəy Haqverdiyev başçılıq etmədə idi.

"Müsyö Jordan", "Dağılan tifaq", "Tamah" adlı əsərlərin oynanmasını güclə xatırlayıram. 1904-cü ildə oynanılan "Otello" yadımdadır. "Otello" Haşımbəy Vəzirovun tərcüməsi idi. Otello rolunu Haşımbəy özü oynadı. Bundan əvvəl uzun hazırlıq getdi. Erməni artisti Abelyan rəhbərlik edirdi. Əbdürrəhimbəyin də böyük iştirakı vardı. Xandəmirovun teatrı dolu idi. Oyun fəna keçmədi.

Əbdürrəhimbəy təbiətən mütəvaze, demokrat bir adam olduğu üçün ona qarşı yaş fərqi mülahizə olunmadan yoldaşlıq hissi duyurduq. 1905-ci ildən etibarən bizləri də səhnəyə cəlb etməyə başladı. Teatr məşqlərində bizi sevə-sevə öyrədir və şövqləndirirdi. "Adəm və Havva" da Adəm rolunu mənə vermişdi. 1905-ci ildə xanlıq evində tələbələr təşkilatı tərəfindən tikilən səhnədə Əbdürrəhimbəyin rəhbərliyi ilə bu əsəri oynadıq.

1907-ci ildə Bakıya gəlib realni məktəbə girmişdim. Əbdürrəhimbəy də Bakıda idi. "Islamiyyə" otelində yaşayırdı. Bir gün ilk yazdığım "Şaqqulunun xeyir işi" adlı hekayəmi götürüb yanına getdim. Ədəbiyyata böyük bir həvəsi olan, cəsarətsiz, utancaq bir gəncin halını təsəvvür ediniz. "Əcəba, Əbdürrəhimbəy nə deyəcək?" – deyə bütün yolu ürək çırpıntısı ilə düşündüm. Məni qarşılayan gülər və mehriban bir sima bütün həyəcanıma qələbə çaldı. Dəftəri açdı, başdan ayağa səhvlərimi düzəldərək oxudu, bəzi yerlərinə xarakteristik cümlələr əlavə edib, hekayəni bəyəndiyini dadlı sözlər və ifadələrlə bəyan etdi.

“Şaqqulunun xeyir işi”ndən sonra “Saranın hekayəsi”ni yazıb “Islamiyyə” yə gətirdim. Əbdürrəhimbəylə yan-yana Üzeyirbəy Hacıbəyli yaşayırdı. “Leyli və Məcnun”un üzərində çalışırdı. Sarabski və Hüseyn Ərəblinski buraya tez-tez gəlirdi. Opera da Əbdürrəhimbəyin iştirakı olmadan keçmirdi. 1908-ci il yanvarın 12-də “Leyli və Məcnun” un ilk qoyuluşuna getdikdə Əbdürrəhimbəyi dirijor kürsüsündə gördüm.

Əbdürrəhimbəy teatra xidmət etdikdə heç bir zaman özü üçün maddi məqsəd təqib etməmişdir. Ancaq xeyriyyə işləri üçün çalışmışdır. Bir yerə müvəqqəti də getmiş olsaydı, teatrı unutmazdı. 1909-cu ildə ona Aşqabadda rast gəldim. Qulluq üçün gəlmişdi. Gəncləri haman başına toplayıb “Firudini” məktəbinin faydasına olaraq bir spektakl düzəltdi. “Kimdir müqəssir”də Mahmud rolunu da mən öhdəmə götürmüşdüm.

ŞƏXSLƏRİN VƏ HADİSƏLƏRİN TİPLƏŞMƏSİ

Turgenevin həqiqi, canlı simaları nəzərdə tutaraq tip yaratdığını söyləmişdik. Bu qayda Dostoyevski, L.Tolstoy və başqa yazıçılarda da görünür. Dostoyevski ədəbi həyatına böyük bir romanla xitam vermək xəyalında olduğunu 1870-ci ildə şair Maykova yazdığı məktubunda söyləyir. Bu romanın ikinci hissəsi müəllifin planına görə, monastıra həsr olunmalı imiş. Bu barədə Dostoyevski Maykova yazır: "Burada baş sima olaraq Tixon Zadonskini, əlbəttə başqa bir adla təmsil etmək istəyirəm. Bu arxiyereydir və monastırda istirahətdə bulunacaq. Bütün romanın baş qəhrəmanı yoldan sapmış, əxlaqsız, cinayət işləmiş on üç yaşında bir çocuq da (bu tipi tanıyıram) ata-anası tərəfindən monastıra qoyulmuş, orada da dərs oxuyur. Çaadayevi də (əlbəttə başqa adla) bu monastıra salacağam. Niyə Çaadayev bir il monastırda oturmasın? Təsəvvür ediniz, birinci məqaləsinin üstündə hər dəfə doktorlar müayinəsinə məcbur olan Çaadayev bu vəziyyətə dözməyib xaricdə, fransız dilində bir risalə nəşr etdi, buna müqabil Çaadayevi bir illiyə monastıra göndərə bilərdilər. Çaadayevin yanına qonaqlar da gələ bilər. Məsələn: Belinski, Qranovski, hətta Puşkin. (Axı mənim romanımdakı Çaadayev deyil, mən ancaq bu tipi alıram). Monastırda prusiyalı Pavel, Qolubev, inok Parfiriy də olacaq (bu aləmə bələdəm, rus monastırını çocuqluğumdan tanıyıram)..." Dostoyevskinin sadaladığı bu həqiqi simalar rus ədib və ruhanilərinə mənsubdur. Müəllifin "böyük romanı" çıxmadı, onun bir hissəsi olan "Karamazov qardaşları" yazıldı ki, Tixon orada Zosima adı ilə göstərilir.

Bizim ədiblər də həqiqi simalardan istifadə etmişlər və bəzən adlarını belə dəyişməmişlər. Mirzə Fətəli, deyirlər, Hacı Qaraya doğrudan rast gəlmiş və adını dəyişməyə hacət görməmişdir. Yenə eyni müəllifin çullu həkimi. Bu adam da Qarabağda məşhur imiş. Nəcəfbəyin "Qıdı kirvəsi" Daşaltı kəndindəndir, çocuqluğumda adını Şuşada çox eşitmişəm. Əbdürrəhimbəyin ağıçı Mələyi də həqiqi simadır. Ağıcı Mələk Qarabağ təziyələrində məşhur bir qadın idi. Gözəl səsi var idi. Ortaboy, qarayanız bir adam idi. Ağı deyərkən özü də ağlardı, ağlamaqdan kirpikləri tökülmüşdü. 1911-ci ildə bu qadına Aşqabadda rast gəldim. Xalq ədəbiyyatını gözəl bildiyi üçün bir gün onu bacımgilə qonaq çağırdım. Gəldi, lakin qələmi əlimdə görər-görməz durux-

du və bir söz demədi: adım “Molla Nəsrəddin”ə düşər deyə çəkindi. Dediklərini nə məqsədlə yazacağımı anlamaq istəmirdi.

Əbdürrəhimbəyin “Haqq Mövcud”u da həqiqi simadır. Bu adamın əsil adı Molla Qurban idi. Lakin camaat arasında “Haqq Mövcud” adı ilə məşhur idi. Onun doğrudan da nüsxəbənd Məşədi Əkbərlə əlaqəsi olmuşdur. Lakin Əbdürrəhimbəyin hekayəsində söylədiyi kimi deyil. Əbdürrəhimbəy əslini yazsaydı, daha maraqlı və bədii olardı. Məsələ bundan ibarətdir: o vaxt Qarabağda kimyagərlik dəb bir məşğələ idi. Bəzi adamlar altun ixtirası yolunda bütün var-yoxunu sərf edirdi. Civəni butələrdə qaynadar və ona cürbəcür orqanik şeylər qataraq təcrübə edərdilər. Civənin təsirindən adətən, kimyagərlərin dişləri qaralar və gözlərinin qıyları qızarardı. Məşədi Əkbər də belə bir adam idi. “Haqq Mövcud” da kimya iksiri kimi əsrarəngiz bir adam idi. Şəhər qalasının bürcündə yaşar, xeyrə-şərə çıxmaz, ət əvəzinə bəzən qan bişirər yeyər, dini ayinlərə riayət etməzdi. Ölmüş bir çocuğu öz evinin qabağında basdırmış və üzərinə kurqan yapmışdı. Bu tuhaf geyimli (əynində ceyran dərisi, boynunda uzun təsbeh, əlində kəşgül), gözləri sürməli, axşam qaranlığında dilənməyə çıxan qoca Məşədi Əkbərin nəzərini özünə cəlb etməyə bilməzdi. Kimyagər iksir sirrini öyrənəcək deyə “Haqq Mövcud”u işə cəlb edir, çox pul xərcləyir və nəticədə bir şey əldə etməyərək, acığından tutub zorla “Haqq Mövcud”un saqqalını və bığlarını qırxdırır.

“Haqq Mövcud” yox oldu. Bir müddət gözə görünmədiyi üçün Şuşada cürbəcür şayiələr yayılmağa başladı. Dedilər Məşədi Əkbər “Haqq Mövcud”u öldürüb, yağından iksir qayırmışdır. Axırda məlum oldu ki, “Haqq Mövcud” evdə oturub, saqqalının və bığlarının uzanmasını gözləyir...

Deməli, yazıçı həqiqi simalardan istifadə etdiyi kimi, həqiqi hadisələrdən ə istifadə edir. Mirzə Fətəlinin “Kimyakər”indəki əhvalat doğrudan da Xaçmaz dağında vaqe olmuş bir işdir. Ancaq bunu dramaturq tipləşdirmişdir. Qoqolun “Revizor”u Puşkinin başına gəlmiş bir işdir. Puşkin Qoqola nağıl etmiş və Qoqol da bu həqiqi hadisə üzərində çar idarəsini təsvir edən bədii bir əsər yaratmışdır. Əbdürrəhimbəyin “Çeşmək”indəki vəqə olmuş işdir. Mahmudbəy adı ilə göstərdiyi tip də Şuşada advokatlıq etmiş Həsənəlibəydir. Onun zarafatları və anekdotları yazılsa, ayrıca bir kitab təşkil edər. Puşkin “Quldur qardaşlar” adlı poemasının ilhamını həqiqi bir hadisədən almışdır. 1823-cü

ildə Odessadan şair Delviçə yazdığı məktubda məsələni izah edir: “Bu parçanı yazmağa həqiqi bir hadisə səbəb oldu. 1820-ci ildə Yekaterinslavda olduğum zaman bir-birinə zəncirlənmiş iki qaçaq, Dnepri keçib canlarını qurtarmışdılar...”

Yazıçı həqiqi hadisəni alaraq, çox vaxt ona ictimai bir rəng gətirir və fabulasını zənginləşdirib, doğrudan da bədii bir əsər vücuda verir. Bu, təbii, qələmin qüvvətinə bağlıdır. Bəziləri isə hadisəni tipləşdirməyə qalxışarkən olmuş hadisənin belə maraqlı cəhətini pozur. Hadisəni tipləşdirməkdə ən böyük məharət Qoqolun qələmində idi. “Şinel”in tarixi bunu isbat edir. Annenkov xatirəsində yazır ki, yazıçıların bir dəstəsi Qoqolun mənzilinə toplanıb, vaxt keçirirdilər. Qoqol danışıqlara diqqətlə qulaq asarmış. “Bir gün, Annenkov deyir, Qoqolun yanında bir kanselyariya anekdotu söyləndi. Quş ovu məftunu fəqir bir çinovnik qulluğu xaricində ağır zəhmətlərə qatlaşaraq ifrat qənaət sayəsində iki yüz manat birikdirib, yaxşı bir lepaz tüfəngi almışdı. Ilk dəfə balaca qayığına minib Fin körfəzində ova getdikdə, qiymətli tüfəngini qayığın burun cəhətinə qoymuş imiş. Çinovnikin etirafına görə, o özünü tamamilə unutmuş halda imiş, bir də ayılaraq qayığın burnuna baxmış, tüfəngi orada görməmişdi. Sıx qamışlar arası ilə üzərkən tüfəng qamışa ilişib suya düşmüş və onu tapmaq mümkün olmamışdı. Çinovnik evə dönüb yatağa yıxılır və xəstələnir, bir daha qalxmır. Yoldaşları bu vəqədən xəbər tutub, pul toplayır və çinovnikə təzə bir tüfəng alır, onu həyatla barışdırırlar. Bu dəhşətli vəqəni xatırlarkən onun üzü sapsarı kəsilirdi”. Bu həqiqi hadisə Qoqola “Şinel”i yazmağı tələqin etdi. Lakin Qoqol hadisəni tipləşdirərək çar xırda məmurunun dəhşətli həyatını təsvir etmişdir. Kiçik hadisədən doğmuş bu bədii hekayə o qədər qiymətli sayılır ki, onu rus realizmi sahəsində atılmış ilk addım hesab edirlər. Aləmşümul Dostoyevski belə: “Biz hamımız “Şinel” dən çıxdıq” – demişdir.

1935

İQTİBAS, TƏQLİD VƏ TƏSİR

Bizdə bir ədəbi əsər təhlil edildikdə gənc tənqidçilərimiz əsərin texnikasından və əsərə olan təsirdən bəhs etməyirlər. Halbuki bunlar əsərin ən canlı əyarıdır. Bunları nəzərə almamaq əsəri ətraflı qavramamaq və onun ədəbiyyat tarixindəki mövqeyini lazımınca təyin etməmək deməkdir. Hər bir şair və ədib ilk ədəbi addımlarında təsirə düşər. Bu təsir ya dərin, ya səthi olar, ya uzun müddət davam edər, ya ötəri olaraq görsənib, qayıb olar. Bu hallar yazıçının qüvvət və iqtidarından asılıdır. Puşkin və Lermantov kimi böyük rus şairləri Bayronun təsirinə düşmüşdülər. Puşkin bayronizmdən özünü qurtara bilib, azad yola çıxdı və tamamilə müstəqil bir ədəbi mövqe qazandı. Lermantov isə bu təsirdən qurtara bilmədi. Deməli, yazıçının qüvvəti onun təsirə düşüb-düşməməsi, sərbəst cığır açması və yeni bir məktəb təşkil etməsi ilə ölçülür. Aləmşümul klassikləri yüksəkliklərə çıxarıb bütün dünyaya sevdirən onların yüksək texnikası, bədii mündərəcələri və müstəqil yol ilə getdikləri olmuşdur. Bəzən klassiklər də köhnə mövzulardan istifadə edirlər. Firdovsi Iranda ağızdan-ağıza keçən əfsanələri toplayıb "Şahnamə" yazır; Şekspir, L.Tolstoyun dediyi kimi, Italiyada və başqa yerlərdə dolaşan mövzuları alaraq ölməz dramlar yaradır; Höte xalq masallarından "Faust"u vücuda gətirir... Bizim klassiklərimizdə də bu hal görünür. Füzulidən əvvəl "Leyli və Məcnunu"u Nizami yazmışdır.

Ondan da əvvəl bu rəvayət xalq arasında məşhur idi. Mövzu almaq şərt deyil. O mövzunu dahi bir sənətkarlıqla yenidən qurmaq məsələni həll edir və bu mövzuya təkrar dönmək cəsarəti artıq görünməyir.

Mövzu almanın ən bayağı şəkli iqtibasdır. Əli bəy Hüseynzadə "Əbdi qılafi məhfəzə"sini Çexovun "Qlaflı adam"ından almışdır. Cəlil Məmmədquluzadə "Qurbanəli bəy"i Qoqolun "Kolyaska"sundan iqtibas etmişdir... Əli bəy və Məmmədquluzadə iqtibas etdikləri əsəri, şərq həyatına uydursalar belə, ədəbi qiyməti qalmayır. Bəzən yazıçı hadisəni, bəzən də ayrıca tipi iqtibas edir. Lermontov "Maskarad"ın hadisəsini Şekspirin "Otello"sundan alır. Ərəb əvəzinə qısqanc bir rus verir və intriqa vasitəsi olan dəsmalı bazubəndlə əvəz edir. Əsərin sonunda qadın öldürülür və əri də həqiqəti bilib peşiman olur, özünü öldürür. Bu əsəri Lermantov 20 yaşında olanda yazmış, ilk təcrübələrindən olduğu üçün təsirə qapıldığı təbiidir. Qriboyedov "Ağıldan bəla"

adlı məşhur əsərinin qəhrəmanı Çatskini Müllerin "Mizantrop"undan almışdır. "Mizantrop"dakı Alsest Çatskinin eynidir. Alsest cəmiyyətdə kök salan, riya, ikiüzlük kimi sifətlərə qarşı qiyam edir. Hər kəsin qüsurunu üzünə söyləyir, yoldaşı Pıkiti və məşuqəsi Lilmenanı şiddətlə tənqid edir, nəzakətlə qarşılanan bir şairin eyiblərini açaraq istedadsızlığını meydana çıxarır. Çatski də böylə bir tipdir. Moskva cəmiyyətini tənqid topuna tutur.

Bu iki tipin ikisi də həyatilikdən daha çox mücərəddir. Kəskin danışıq və inkardan başqa bir iş görməyirlər. Insan bunların müsbət və faydalı olmaqlarından belə şübhə edir.

Qriboyedov baş tipi iqtibas etsə belə, əsərinin qiymətini azaltmayır: yüz il əvvəlki rus cəmiyyətini, onun qüsurlarını və oradakı təzadları ustadcasına təsvir etmişdir.

Yaradıcılıq tarixində bir təsadüflik də var. On yeddinci əsrin əvvəllərində ingilis yazıçısı Ben Çens "Kimyagər" adlı bir pyes yazmışdır.

Lakin bu kimyagərlə Mirzə Fətəlinin kimyagəri arasında heç bir əlaqə yoxdur. Molyer "Xəsis" komediyası yazmışdır. Mirzə Fətəlinin də "Mərdi-xəsis"i var. Zənnimcə, bunların da bir-biri ilə əlaqəsi yoxdur. Kimyagərlik bir zaman Qərbdə mod olduğu kimi, Şərqdə də olmuş, yazıçı onun yanından qeyd etmədən keçə bilməmişdir. Moyerin zamanında Fransada tücari kapital inkişaf etməkdə idi, bu dövr bizdə də Mirzə Fətəlinin vaxtına təsadüf edir. Kapitalın uyuşması meydana bir sıra xəsislər atır. Molyerin xəsis ilə Mirzə Fətəli xəsisinin ümumi xassələri var. Ikisi də pul toplayır, yeməyir, yedirtməyir, acgözlülük yolunda əzab çəkir. Lakin Molyerin Harpaqonu tam bir fransız, Hacı Qara da tam bir türk olaraq qalır. Harpaqon Hacı Qaraya nisbətən bir az "geniş gərdəli" xəsisdir;

Qapısında neçə nökər və qulluqçusu, arabaçısı var, lakin onlar da Hacı Qaranın nökəri kimi ac və cır-cındır içində saxlanılır.

C.Məmmədquluzadənin "Ölülər"i ilə Meterlinqin "Müqəddəs Antuanın möcüzəsi" adlı pyesi arasındakı yaxınlıq da təsadüfi olmalıdır. Çünki Məmmədquluzadənin Meterlinqlə aşna olmasına inana bilmərəm. "Müqəddəs Antuanın möcüsəsi" "ölü diriltmədən" ibarətdir. Qarımış bir qız ölür və bütün sərvətini yaxın əqrabalarına tərk edir. Xidmətçi qız Virzini belə unudulmayır; vəsiyyətnaməyə görə ona da 3300 frank ayrılır. Meyit dəfn olunmadan əvvəl baş varis Qustav böyük bir ziyafət verir.

Yeyib, içib, keyf etdikləri zaman qapıya bir sərsəri gəlir, özünü müqəddəs Antuan adlandırıb, dindar Virzinin vasitəsilə içəri girir. "Ölünü diriltməyə gəlmişəm" – dedikdə birinci təşfişə düşən Vizini olur. "Bəs mənim 3300 frankım" deyə düşünür. Xanımını sevirsə də, dirilsə pulları geri alar deyə qorxur.

"Ölülər" də bir az buna bənzəyir. Şeyx Nəsrullah ölüləri "diriltmək" istədikdə kərbəlayılar və hacılar təşvişə düşüb, bəziləri ölülərin dirilməsini istəmirlər. Çünki onlar dirilsə, çoxlarının faydasına toxunar.

Müqəddəs Antuan möcüzəsi ilə Şeyx Nəsrulah möcüzəsinin birbirinə bənzəməsi təsadüfdür, zənnindəyəm, "Ölülər"də, daha doğrusu Qoqol və Ostrovskinin təsiri var, bu mühəqqəqdir. Hər şeydən əvvəl "Ölülər" "Revizor"u andırır. Xlestakovu şəhərdə həqiqi müfəttiş zənn edərək hər kəs onun önündə baş əyir, şəhər hakimi onu evinə qonaq gətirir, qadını və qızı ondan iltifatını əsirgəmirlər. Xlestakov və nökəri yeyib, içib, bir çox rüşvət aldıqdan sonra məsələnin həqiqi tərəfi meydana çıxır. Xlestakov qaçır, Şeyx Nəsrullah da min bir fırıldaq çevirirb, qızlarla keyf çəkdikdən sonra yox olur.

Kefli Isgəndərə gəldikdə, buna bənzər tipə Ostrovskinin "Fəqirlik eyib deyil" adlı komediyasında rast gəlirik. Lyubim Qarpıç Torstov adlı bir tip atadan qalmış pulları Moskvada keyfə qoyub, axırda əyyaş və sərsəri olub küçələrə düşür. Zəngin qardaşına müraciət edirsə də, qardaşı onu rədd edir. Buna baxmayaraq bir gün qardaşının evinə gedir. Orada vaxtilə onu keyf yerlərinə çəkən və pulunun da bir hissəsini borc alıb verməyən fabrikant Qorşunova rast gəlir. Qardaşı gənc qızını qoca Qorşunova vermək istərmiş, qız da razı deyil, pirkeşik Mityanı sevir. Lyubin Qarpıç məsələni anlayır sərzənişə başlayır. Qorsunova keyf çəkdikləri zamanı deyil, Lyubimin dilənməsini qeyd edərək ona bir manat təklif edir. Lyubim "Köhnə borcunu, bir də qardaşım qızının əvəzində bir milyon üç yüz ver!" deyir. Qardaşı gəlib çıxır və Lyubimi evindən qovur. Lyubim deyir: "Qardaş, toxta, qovma! Elə bilirsən Lyubim bura məzəlilik eləməyə gəlmiş? Elə bilirsən Lyubim keflidir? Mən sizə tapmaca söyləməyə gəldim. (Qorşunova müraciət edərək) Eşşəyin qulaqları nə üçün uzundur? Di cavab verin görüm!"

Lyubimin tapmacasını tapa bilməyirlər, özü açır:

"Qulaqların uzunluğu onun eşşək olduğunu bildirmək üçündür.
(Qardaşına) Bu da sənə məsələ; qızını kimə verirsən".

Lyubim Tartstovun kefli Isgəndər kimi uzun qəhqəhələrlə qarışıq lətifələri davam edir. Bütün qüsurları açır, uyğunsuz işlərə qarşı küfrlər yağdırır. Nəhayət, qızın qoca fabrikanta deyil, gənc bir kişiyə verilməsinə müvəffəq olur. Nazlını da atası Şeyxə vermək istəyir, Isgəndər razı olmur...

Təsir ədəbiyyatda ən təbii bir şeydir. Bütün xalqlar bir-birinə ədəbi təsir yapmışdır. Lakin daima təsirdə qalan ədəbiyyat yüksəlməyib, əhəmiyyətini itirmişdir. Yalnız müstəqil ədəbiyyat inkişaf edərək dünya xəzinəsində özünə mövqe qazana bilmişdir. Başqa həyatın məhsulu olan bir ədəbiyyatı təqlid edərək onun əsiri olmaq heç bir zaman təsvib edilməmiş. Hələ iki min il əvvəl Roma şairi Horasius təqlidçilər haqqında demiş: "O imitatores servum pesus" – "Ey təqlidçilər, qusurusu!)".

Bu həqiqət həmişə baqidir.

1935

TURGENEVİN YAZI ÜSULU

Klassiklərin yazı üsulunu öyrənmək, yalnız yeniyetmələr üçün deyil, oturuşmuş yazıçılarımız üçün də maraqlıdır. Çünki böyük ədiblərin texnikasını öyrənmək ədəbi irsi qavramağa yol açır. Təəssüf ki, hər bir klassikin yazı üsulu ilə tanış olmağa kafi məlumatımız yoxdur. Yazıçıların hamısı eyni dərəcədə intizampərvər və səliqəli olmamışlar, bəziləri əsəri bitirdikdən sonra ona dair yazılan planları, konspektləri, qeydləri tələf etmişlər. Bizim Azərbaycan yazıçıları bu barədə daha da geridə qalmışlar, bir çoxlarının əlyazmaları belə meydanda yoxdur, arxivi meydana çıxanlar da az olmuşdur. Yalnız Mirzə Fətəli istisnadır, çünki o özündən sonra gözəl və müntəzəm bir arxiv buraxmışdır. Yazıçıların səhlənkarlığı qismən onların özlərinə qiymət verməmələrindən irəli gəlmişdir.

Ədəbi üsulundan bəhs edəcəyimiz Turgenevin arxivi dünya klassikləri arasında belə diqqətəlayiq bir yer tuta bilər. Müəllif yazı üsullarını tamamilə aydınlaşdıracaq bir çox materiallar qoyub getmişdir.

Turgenevin yaradıcılıq metodu Balzak, ya Dostoyevskininkinə bənzəməz. Bunlar tələsiyir, qoşur, əsəri məcmuələrə, ya mətbəəyə yetirməyə can atırlar. Turgenev isə, Tolstoy kimi sakit, səbirli, mövzunu və tipləri ətraflı düşünən və əsərin üzərində diqqətlə işləyən bir yazıçıdır. Turgenev hər bir əsəri üçün plan düzür, tiplərin adını, familini, doğulduqları ili, əsərdəki yaşlarını qeyd edir. Hər bir tipin üzərində dayanır, onların tərcümeyi-halını və danışacaqları sözlərin qısa məzmununu verir. Əvvəlcə əsərin yekununu aydınlaşdırır və konspektini düzəldir, sonra fəsillərə ayırır.

Bunlar bitdikdən sonra əsəri yazmağa başlayır. Əsər qurtarır, lakin məsələ bununla bitmir. Turgenev əsərinin iki-üç dəfə üzünü köçürür, hər dəfə də düzəldir, artırır, əskildir. Əsər çapdan çıxdıqda müəllif oxucuların rəyini dinləyir və kitabın ikinci təbində bəzən yeni dəyişikliklər törədir.

Turgenev tiplərini həyatdan alır və bəzən planlarında zamanındakı həqiqi simaların adını qeyd edir. Deməli, müəllif tanıdığı canlı simaları nəzərdə tutur, onların xassələrini başqalarınınkı ilə tamamlayaraq tip yaradır.

Turgenev ən əvvəl tiplərə əhəmiyyət verir. Bəzən uzun bir tip cədvəli düzəldir, onları aylarca, bəlkə illərcə başında gəzdirir, yeri gəldikcə əsərlərində işlədir. Tipin adının yazılması ilə tərcümeyi-ha-

lının düzəlməsi arasında bəzən uzun bir məsafə olur. Məsələn, "Xam torpaq" adlı romanındakı simalar 1870-ci ilin iyul ayında qeyd olunmuş, tərcümeyi-halları isə 1872-ci ilin fevral ayında yazılmışdır. Deməli, müəllif tiplərin üzərində on doqquz ay düşünmüşdür.

Fabula və qəhrəmanların hərəkətə başlaması Turgenev üçün ən son məsələ hesab olunurdu. Əvvəl, o tipləri təfsilatı ilə öyrənir, sonra onlara mühit arayır, hadisə və vəqələri düzəldir, süjet inkişaf etməyə başlayır.

Turgenevin Parisdəki əl yazılarını tədqiq edən professor Mazo deyir: "Turgenevin yaradıcılıq izlərini bulduğumuz kabinəsinə baxdıq, heç bir şeydən çəkinməyərək onun bütün kağızlarını qarışdırdıq, etüdlərini, qeydlərini tədqiq etdik. Bəzi qeydlər tez yazıldığı üçün zorla oxunur və mənası yalnız müəllifə bəllidir. Bu tədqiqlərdən Turgenevin ehtiyat etməsinə yer qalmazdı, çünki onu qızardacaq bir şey yoxdur. Burada biz nə görürük? Böyük bir enerji, ətraflı müşahidə və yaradıcılıq təmayülü. "Xam torpaq"ın başında: "Xam torpağı üzdəngetmə xışla deyil, dərin qazan kotanla çevirməlidir" – deyə qeyd etdiyi qədim sözlərə istinadən, müəllif də arasıkəsilməz dərin və metodik iş görmüşdür".

Turgenevi yalnız əsərin mündəricə və şəkil məsələsi maraqlandırmırdı, kağıza və qələmə də diqqət edərmiş.

Türgenevin subay olduğu tərcümeyi-halından bəllidir. Həyatının son otuz ilini Polina Viardo adlı ərli bir qadınla sıx dostluqda keçirmişdir. Ədibin Polina ilə olan əlaqəsi də əl yazılarında iz buraxmışdır. "Ərəfə" adlı romanının ilk səhifəsində Polinainın əli ilə: "Sizə səadət gətirə bilsəm də!" – deyə fransızca yazılmışdır. 1865-79-cu illərin məhsulu olan üç böyük dəftərin cildlərində "S. P." hərfləri qoyulmuşdur. Bu da Polinanın ilhamı təsirində deməkdir. Dəftərlərinin bir yerində fransızca: "Işlə" – deyə yenə, yəqin, eyni qadın əmr vermişdir. Yenə ayrı bir yazısının kənarında bir ulduz şəkli çəkilmişdir. Bunun yanında Turgenev öz əli ilə yazır: "Parisdə Rivoli küçəsində 210-cu evdə axşam, 1862-ci il oktyabrın 25-də bu şəkli mənim otağımda P... çəkmişdir".

Professor Mazonun tədqiqi sayəsində bu məlumat Turgenevin öz sənətinə bəslədiyi böyük eşq və marağı göstərir. Böyük ədibin bu sifətləri örnək olmağa layiq deyilmi?

1935

ÇEXOV, QORKİ VƏ L.TOLSTOY

1898-ci ildə M.Qorkinin hekayələrinin ilk iki cildi çapdan çıxmışdı. Çexov bu hekayələrlə tanış olar-olmaz Qorkinin "şübhəsiz bir talant" olduğunu qeyd edir. Yazdığı bir sıra məktubda gənc yazıçıya olan münasibətini belə göstərir: "Stepdə" örnək olacaq bir surətdə yazılmışdır. Bu anac bir şeydir. Qorkinin özü də bədiiyyatçılar qayrılan xəmirdən yoğrulmuşdur".

Çexov bir ayrı məktubunda Qorki haqqında peyğəmbəri sözlər deyir: "Qorkidən böyük yazıçı olacaq".

Qorkinin özünə yazdığı məktubunda onun əsas xassələrini belə xarakterizə edir: "Həqiqi talantınız var, şübhəsiz ki, böyük talantdır. Siz bədii yazansınız, praktikanız var, deməli bir şeyi təsvir etdikdə onu görüb əlinizlə əlləşdirirsiniz, həqiqi sənətiniz var. Bu yaxşı əsaslarınız "Stepdə" və "Solda"dır. Bunlar gözəl və örnək ola biləcək şeylərdir. Bunlarda yaxşı məktəb keçmiş bədii yazıçı görünür".

Çexov onda Qorkini yaxından tanımırdı, onun "yaxşı məktəb" keçmiş olduğunu zənn edirdi. Halbuki Qorki bütün təhsilini həyatdan almışdır. Çox gəzmiş, müşahidə etmiş, cürbəcür insanlarla görüşmüş və bol-bol mütaliə etmişdir. Çexovun məktubları da ona ədəbi bir dərs olmuşdur. Çexov Qorkinin təbiət təsvirlərini uzun hesab edirdi. Onların bir az qısa və yığcam olmasını məsləhət görürdü. Təbiəti təsvir edərkən ona canlı insan xassələri verməyi antropomorfizm (məsələn: "Dəniz nəfəs alır", "Göy baxır", "Göl cilvələnir", "Dəniz gülürdü") təsvirə yeknəsəqlik, ifrat şirinlik və tutqunluq bəxş edir – deyirdi.

Bunlara baxmayaraq, Çexov Qorkiyə böyük qiymət verirdi və ilk görüşdən sonra aralarında səmimi bir dostluq vücuda gəlmişdi. Qorkini dramaturgiyaya sövq edən də Çexov olmuşdur. Qorki "Meşşanlar" və "Cəmiyyətin dibində" pyeslərini yazdı.

Çexov 1900-cü ilin iyul ayında yazdığı məktubda: – Pyes yazdınızmı? – deyə soruşur və onu təşviq edir: "Yazın, yazın, yazın, adi və sadəcə olsun, yazın, əhsən sizə. Vəd etdiyiniz kimi mənə göndərin, oxuyub öz rəyimi açıqdan-açığa bildirərəm və səhnəyə yaraşmayan sözlərin altından qarandaşla cızıq çəkərəm".

Həmin il sentyabrın 8-də Qorkinin pyes başladığını qəzetlərdə oxuyan Çexov məktub yazıb işi yarımçıq buraxmamasını təkidən söyləyir: "Müvəffəqiyyət qazanmasanız eybi yoxdur, müvəffəqiyyətsiz-

lik tez unudulur, əksinə olaraq müvəffəqiyyət az da olsa, teatra böyük fayda verə bilər".

1901-ci il oktyabrın 22-də Çexov "Meşşanlar" haqqındakı fikirlərini Qorkiyə uzun bir məktub vasitəsilə bildirir: Pyes çox gözəl yazılmışdır. Qorkicəsinə orijinal və maraqlıdır. Lakin pyesdəki əsas nöqsan budur ki, Qorki yeni və orijinal adamlara zahiri, köhnəlmiş notlardan yeni nəğmələr oxutdurur. Qorkinin pyesdə iştirak edən adamları nəsihət edirlər. Bu qüsur qızartdaq adamların qızartdaq tükləri kimi düzələsi deyildir.

Çexov bu qüsuru şəklin konservatizmi ilə izah edir.

Çexov pyesdə bəzi dəyişikliklər edilməsini tövsiyə edir, halbuki bu göstərişlər Çexovun öz yazdığı janrlar üçün daha faydalıdır. "Cəmiyyətin dibində" əsərini Çexov "yeni və şübhəsiz yaxşı pyes" sanırdı. Lakin pyes qəmli və ağır intiba bağışlayır, bunlara alışmamış tamaşaçılar teatrı tərk edəcəklər – deyə Çexov bir ümumi nəticə çıxarır və deyir: Pyesdən sonra Qorki optimist adı ilə vidalaşa bilər.

Qorki də Çexovun yaradıcılığına heyran idi. Qorkiyə görə "Çexov xırda şeylərin faciəsini aydın və inçə bir surətdə anlayırdı. Meşşan həyatının qüssəli və hərc-mərc bayağılığını, eyibli və darıxdırıcı şəklini doğru və amansız bir şəkildə təsvir edirdi".

Qorki yenə yazır: Çexov "bütün ömrü uzunu bayağılıqla mübarizə etdi, ilk nəzərdə yaxşı qurulmuş, rahat və parlaq görünən şeylərdə belə bayağılıq taparaq ehtirassız və kəskin qələmi ilə onu təsvir edir, ona gülürdü. Çexovun xırda hekayələri insanda yuxulu və yarımcan həyata qarşı ikrah hissi oyadır".

Qorki Çexovun başlıca xidmətini bunda görür.

1901-ci ilin payızında L. Tolstoy xəstələnərək Krıma gəlmişdi, burada istirahət edirdi. Tolstoyun xəstəliyi Çexo0vu çox həyəcana gətirmişdi. O deyirdi: "Tolstoy ölsə, mənim həyatımda böyük bir boşluq əmələ gələr".

Şübhəsiz ki, Çexov bir zaman Tolstoyun fəlsəfəsi təsirinə uymuşdu. Səksəninci illərdə yazdığı hekayələrdə Tolstoyun fənalığa qarşı müqavimət göstərməmək, sadələşmək, öz şəxsini ikmal etmək kimi fikirləri əks etdirilmişdir. Çexovun özünün də etirafına görə o yeddi il Tolstoyun təsirində bulunmuşdur. 90-cı illərdə Tolstoy fəlsəfəsindən uzaqlaşır. Çexov yazır: "Mənim damarlarımda mujik qanı axır. Məni mujik mərhəməti ilə heyrətləndirmək olar. Mən çocuqluğumdan tə-

rəqqiyə inandım və inanmaya da bilməzdim... Indi dərunim də bir şeyi etiraf edir, məndəki hesabçılıq və ədalət deyir ki, insana qarşı elektrik və buxarda olan eşq, pəhrizkarlıq və ət yeməməzlikdən daha çoxdur".

Çexovun bu son sətri Tolstoy fəlsəfəsindən ayrıldığını aydın bir surətdə göstərir.

Çexov Tolstoyun bədii əsərlərində özünə məftunluq hiss edirdi. Eyni zamanda Tolstoyun bilmədiyi məsələlər haqqında mülahizələr yürütməsindən dilgir idi. Şair Pleşşeyevə yazdığı bir məktubda (1890-cı il) deyir ki, Tolstoy bir sıra bioloji və fiziki hadisələrdən bəhs etməklə öz avamlığını göstərir. Uzun ömrü müddətində bu adam zəhmət çəkib, mütəxəssislər tərəfindən yazılmış bir-iki kitab belə oxumamışdır...

Tolstoy Çexovun istər adamlığını və istərsə yazıçılığını çox bəyənirdi. Tolstoy deyirdi: "Çexov həqiqətən bədii bir yazıçıdır, ancaq pyeslərdən başqa, pyes onun işi deyil. Çexovun əsərlərini dəfələrlə oxumaq olar. Çexov nəsrin Puşkinidir".

Tolstoya görə Çexov həyatda gördüyünü alırdı və aldıqda da o qədər aydın və bədii təsvir edirdi ki, son nöqtəsinə qədər anlaşılırdı.

"Başlıca olaraq o səmimi idi, bu yazıçı üçün böyük bir ləyaqətdir. Səmimiliyi sayəsində də Çexov, yeni bir dünya üçün tamamilə yeni bir yazı şəkli yaratdı. Bu yazı şəklinə mən heç yerdə rast gəlməmişəm".

Qorki xatirələrində Tolstoyun Çexova olan münasibətini belə təsvir edir: "Tolstoy Çexovu ata kimi sevir. Bu sevgidə yaradıçı iftixarı duyulur. Çexovu Lev Nikolayeviç sevirdi və həmişə ona baxarkən nəfis baxışı ilə sanki onun üzünü oxşayırdı". 1902-ci ildə Qorki fəxri akademik seçilmişdi. Bu seçki "yüksək dairələrdə" həyəcana səbəb oldu. Məsələ Ikinci Nikolaya "ərz" olundu. Təbiidir ki, Qorkinin akademiyadan çıxarılması məsələsi meydana atıldı. Akademiklər məsələni köləcəsinə sükutla qarşıladılar. Yalnız ədib Korolenko ilə Çexov bu hərəkətə qarşı etiraz edərək akademiklikdən istefa verdilər.

1935

HƏYATIMIN 20 İLİ

Qarabağda talan var,
Zülfü üzə salan var.
Gedirsən tezcə qayıt
Gözü yolda qalan var.

Əslim qarabağlıdır,
Sinəm çarpaz dağlıdır.
Nə gələn var, nə gedən
Məgər yollar bağlıdır?

Qarabağda bağ olmaz,
Qara salxım ağ olmaz,
Qürbətdə yar sevənin
Ürəyində yağ olmaz.

Mən aşiqəm Qarabağ,
Şəki, Şirvan, Qarabağ.
Tehran gülüstan olsa
Yaddan çıxmaz Qarabağ.

Dağ başında yazı-yayı yaşıllığa, payızı-qışı dumana və qara bürünmüş bir şəhər təsəvvür ediniz. Bu mənim şəhərimdir.

Onun tarixi çox qədim deyildir: iki əsr əvvəl Pənahxan Cavanşir və otuz iki adlı elləri ilə bu yerə gəlib, şəhər salır, ətrafına qala tikdirib oturur. Adı Pənahabad, ya Şuşa qalasıdır. Yeni xanlıq, Qarabağ xanlığı meydana çıxır. Araz çayına qədər hökmü yeriyən bu xanlıq bütün Iran şahları hücumuna baxmayaraq, çar istilasına qədər müstəqil olaraq yaşayır...

Şəhərimizin tarixçəsi bu. Lakin hadisələr bununla bitmir: Vaqifin öldürülməsi, Abbas Mirzənin hücumu, çarizmin istilası...

Şəhərin hər nöqtəsi bir tarix söyləyir: Ibrahim xan kahası, Məlik Şahnəzər kahası, Şahnişin, Cıdır düzü, Dovtələb, Divanxana qabağı, Topxana... hərəsi bir kitab, qanlı və dəhşətli bir səhifədir.

Mən də bu macəralı şəhərdə dünyaya gəldim. Taleyim bu imiş.

O zaman atam Mirbaba Mirabdulla oğlu Aşqabadda imiş. Mənim dünyaya gəldiyimə dair Şuşadan teleqram alır. O ayda evinə düşdüyü

dostunun da bir qızı olmuş imiş. Iki ata çocuqların taleyini yoxlamaq üçün Iran təqviminə baxır, orada "Rəcəb əl müräccəb ayında doğulan uşaqlar bəxtsiz olacaqlar", – deyə yazıldığını atam gördükdə "gəl bunları evləndirəlim" – demiş və gülmüşdür.

Atamın qeydinə görə mən hicrinin 1301-ci ili rəcəbin[1] 20-də Şuşada dünyaya gəlmişəm, rəsmi vəsiqələrimdə isə doğuluşum 1887, sentyabrın 12-də olmuşdur.

Şuşa o zaman əyalət şəhərləri içərisində ən mədənilərdən biri sayılırdı, realni məktəbi, orta qız məktəbi, şəhər məktəbi, erməni seminariyası, teatrı vardı. Əhalisi 40 minə qədər idi, bunun yarısı türk, yarısı erməni idi. Ermənilər şəhərin qərb cəhətində, türklər isə şərqində yaşayırdı. Türk hissəsi 17 məhəlləyə bölünmüşdü, bir çox xan sarayı, bütün məscidlər qədim hamamlar, rastabazarlar, karvansaralar vardı, şəhərin qalın hasar və bürcləri hələ qalırdı.

Evimiz Çuxur məhəllədə, Mirdinli və Quyluq məhəllələrinin ayrıcında idi. Iki otağımız vardı, xırdasında yaşardıq, böyüyündə (kəllayidə) isə qonaq qəbul edərdik. Ikisinin arasındakı koridorun (qəfəxana) bir tərəfinə məkulat yığılırdı, o biri tərəfində də iri bir su küpü basdırılmışdı, tuluqçu Xan qızının bulağından tuluqda su gətirib oraya tökərdi. Kəllayi "bağdadı" idi – taxtadan düzəldilib üzərinə suvaq çəkilmişdi, xırda otaq isə çubuqdan hörülüb suvanmışdı, ikisinin də xırda şüşəli, enib-qalxma pəncərəsi vardı. Evin qarşısında daş döşəli xırda bir meydança, sol tərəfdə təndirxana, qarşıda ətrafına cağ çəkilmiş güllü-çiçəkli meyvə ağaclı gözəl bir bağça vardı... Bağça ilə küçə arasında daş tağlı dörd dükanımız sallaqxana icarəsində idi. Bunun aşağısındakı çubuq daxmada hamballar yaşardı, aclıq nəticəsi olaraq Iran Azərbaycanının Çəmənzəmin adlı kəndindən qaçıb gəlmiş bu ailəni atam bu daxmada yerləşdirmiş və böyüyünü evləndirmişdi. Bunlar bizimlə bir evli kimi idilər, uşaqları ilə bir yerdə oynar, məktəbə gedərdik. Sonralar "Çəmənzəminli" təxəllüsü qəbul etməm də bu ailəyə bəslədiyim məhəbbətdən irəli gəlirdi.

Ilk çocuqluq dövrüm evimizin ətrafında – Aşağı meydanda, Bəylik eşiyində, Qapandibində keçmişdir. Oralarda çocuq marağı üçün bir çox görkəmli və əyləncəli şeylər vardı. Hələ ətrafımızda yaşayan hər

[1] Rəcəb - ərəb qaməti ilinin yeddinci ayı

bir türk ailəsinin özünəməxsus bir macərası vardı. Yan tərəfimizdəki keçəl Səmədin evi idi, bunun arvadının biri gənc, biri yaşlı idi, bir də görürdün qışqırtı qopdu. Anam məni götürüb haraya gedərdi. Nə görərdik: keçəl Səməd əlində çomaq yaşlı qadının qabırğalarını sayır. Anam seyid olduğu üçün qonşular ona hörmət bəslərdilər – biz gələn kimi qovğa bitərdi. Bu dalaşma elə bir adi şəkil almışdı ki, yarım saatdan sonra kin unudulardı və keçəl Səmədin yaşlı arvadı ip kələfini ərinin qollarına keçirib, deyə-gülə yumaqlardı.

Keçəl Səmədin üst tərəfindəki ev bir başmaqçının idi. Bunun ərdə bir qızı vardı. Gündə bir ərinin zülmündən qaçıb atası evinə sığınar, bir-iki gündən sonra əri əlində sivrim xəncər evi basıb öz arvadını qaçırardı. Bu da mütəmadiyən təkrar edilən bir hadisə olduğu üçün adi bir şəkil almışdı.

Küçənin o tayı mamaça Xanxanımın idi. Bu qarı mamaçalıqla dul qızını və yeddi qız nəvəsini bəslərdi. Ən məşhur mamaça olaraq yalnız şəhər deyil, aran və dağ da onu tanırdı. Kahalarda və meşələrdə yaşayan qaçaqlar, görərdin, gecə yarısı at göndərib Xanxanımı gizlicə apardır. Qarı bir həftə yox olardı, bir gecə xələt və pulla geri dönərdi. Bu ailə ilə qonşudakı halvaçı Məşdinin arasında düşmənçilik vardı, tez-tez qovğa qopardı. Təsəvvür edirsinizmi? – Yeddi-səkkiz qadın Məşdinin yıxıq daxmasına hücum edir, qızlar daxmanın nallarına ip bağlayıb dartırlar, qara palçıqla hörülmüş daşlar tökülür, vəlvələ qopur...

Dərənin kənarında çubuq bir koma.

Dul bir qarı əri qaçmış qızı və kiçik nəvəsi ilə yaşayır. Il uzunu bu komadan həvə səsi gələr – hana toxunar: iki arvadın aylıq qazancı on manat edə-etməyə. Ac-yalavac, sönük bir həyat. Kiçik nəvə atasını xatırlamır, kişi evləndikdən bir neçə ay sonra ailəsini buraxıb getmiş, indi səsi arandan-dağdan gəlir – köçərilər arasında həkimlik edirmiş. Bir axşam qarı gəlib bizə çıxdı. Həyatın acılıqları əks etmiş üzü həm kədərli, həm də şən idi. Anama müraciət edərək:

– Əziz bacı, – dedi, – axı qızın əri gəlib çıxmışdır. Bu axşam bizdədir, sabah tezdən gedəcək. Sən allah, kəlin baxın, sonra söz-bez çıxmasın...

Zavallı qarı sonra çocuq olarsa, dedi-qodu olmasın deyə, qonşulara yalvarıb, şahid sifəti ilə evinə çağırırdı. Doğrudan da uzun illərdən

bəri yox olmuş “həkim” arvadı ilə bir yataqda yatmışdı. Səhər tezdən “həkim” getdi, bir daha qayıtmadı, sonralar dağda öldürülüb çaya atıldığı duyuldu. Doqquz ay sonra arvadı əkiz doğdu, zavallı ailənin qayğısı bir qat daha artdı.

Yanlarındakı daxma Palçıq Qasımın idi. Arvadı ilə mehriban bir həyat sürərdi, sonsuz olduqları üçün “qəlbləri sınıq” idi. Qasım altıyeddi ay davam edən qışı ac və işsiz idi, köçərilər gəlib dağa gedəndə, Qasım qazanca başlardı: süd, qatıq alıb satardı. Bir gün Qasımın xəstəliyini eşidib onlara pay aparmışdım, yaz yağışları başlanmışdı. Qasımın damı damır – komada quru yer yoxdu: qab-qacaqlarını polis “qalıq pulu” əvəzində apardığı üçün damcının altına qoymağa da bir şeyləri yox idi...

Maraqlı qonşularımızdan biri də Kosa Əhməd idi. Ikimərtəbə gözəl evləri, cənnət kimi çiçəkli bağçaları vardı. Iki qarıyıb evdə qalmış bacısı il uzunu xalı toxuyub, kəllayiyə yığardı. Kosa da baqqallıqla onları bəslərdi. Bu üç subay adam böyük evin kiçik bir otağına yerləşmişdi – başqa otaqlar döşəli və tərtəmiz qalar, oralara qıyıb ayaq belə basmazdılar. Yazda həyət min rəng çalar, qıyıb bir bənövşə belə qırmazdılar. Doyunca yeməz, geyməz, girib-çıxmaz, əllərinə düşəni yığıb saxlardılar. Bu ailəni məqsədsiz zənn etməyin – nəhayət, Kosa Əhmədə bir gəlin bulacaqlarından ümidlərini kəsmirdilər. Nə etməli ki, bu nisgilli ailənin diləyi yerinə yetmirdi: qızların qul kimi satılan vaxtında Kosa Əhmədə qız verən yox idi. Neçə də versin. Əhmədin qaşı yox, kirpiyi yox, üzündə və qaşında tükdən əsər tapılmazdı. Ha üzünə və başına həna yaxırdı, ha hamama gedib, tövbə edirdi-bir şey çıxmırdı; bacıları da ki, nəzir aparmamış ocaq qalmamışdı. Amma deyildiyinə görə vaxtı ilə Əhmədin lopa bığları, sallaq birçəkləri varmış. Sonra, allah baisin evini yıxsın, pis yollara düşür, cüzam olur...

Iştə, çocuqluğumun bir dövrünü əhatə edən insan həyatı! Əksəri səfil, ac, avam, sənətsiz-savadsız. Küçə çocuqlarına qoşulmaq bizə yasaq edildiyi üçün vaxtımızın çoxusunu taxtapuşa çıxıb qonşuları seyr etməkdə keçirərdik. Qonşularımızın ən zəngini kor A... idi: ikimərtəbə evi və böyük bağı vardı; ev böyük darvazalı yüksək hasarla qavranmışdı. A... qəddar bir müamiləçi idi, qızıl toqqa qurşar, qızıl saatının uzun zəncirini ipək arxalığının döşündən sallardı. Bu adam heç kəsə inanmazdı, kimsəni evinə buraxmaz və ailəsi də hamamdan başqa bir

yer görməzdi. Çocuqları darvazanın arasından yad adam gördükdə, vəhşi qaz sürüsü kimi, ağız-ağıza verib bağırışardılar...

Taxtapuşumuzdan bunların uzun artırmaları, dəmir taxtapuşun ətrafına qonmuş hədsiz-hesabsız göyərçinləri, dizə qədər çıxan yaşıl otlu bağları görünərdi. A.-nın bir qayınanası vardı, bunu kürəkəni evdən qovmuşdu, lakin arvadın getməyə yeri olmadığı üçün A.-nın korluğundan istifadə edərək, gizlincə olaraq onun evində yaşayırdı. Bunun bir dəst xeyir-şər paltarı vardı, yeni paltar ala biləcəyindən ümidini büsbütün kəsərək bu paltarı göz bəbəyi kimi saxlardı və yırtılmasın deyə, əyninə almazdı. Evdə əlinə düşəni, hətta kişi paltarı belə geyib dolanar, isti havalarda fitəli belə olduğunu görərdin.

Bir gün A... arvadı ilə artırmada oturub danışırdı. Arvadı buna nə isə söyləyib, kişini düşündürdü. Bir də kişi özündən çıxıb bağırdı:

– Nəcis quyusu bu tezliklə dolmaz. Hesabını bilirəm, yəqin qayınanam burada qalır, onun üçün tez dolmuşdur.

Ayaqyolu quyusunun vaxtından əvvəl dolması ilə qayınanasının evdə yaşadığını sezən müamiləçi yerindən sıçradı, haradansa bir odun tapdı və odunu havada qolaylaya-qolaylaya baş otağa soxuldu. Otaqları bir-bir gəzib bir qapını bağlı gördü, odunla qapını sındırmağa başladı. Arvadı onu sakit eləmək istədikdə, onu qayınana zənn edib, odunu qoluna çırpdı...

Bu vəqədən bir neçə il sonra A... öldü, bu ölüm evdə böyük bir şadlığa səbəb oldu: gənc, gözəl və zəngin qadın üçün yeni bir həyat başlayırdı. Onda mən məktəbdə idim, bir axşam adam yollayıb məni çağırdılar. Anamla bərabər getdik, qarşıma bir böyük qutu təməssük[1] qoydular: oxuyub kişinin var-yoxunu arvadına bildirməli idim. Otuz min manatlıq təməssük vardı. Bunların arasında şəhərin ən məşhur mollasının yeddi yüz manatlıq bir təməssüyünü gördüm. Iki gün sonra məni yenə çağırdılar, yenə təməssükləri yoxlamaq lazım idi. Diqqətimi bir şey cəlb etdi: mollanın yeddi yüz manatlıq təməssüyü nə vasitə iləsə götürülüb, əvəzində üç yüz manatlıq təməssük qoyulmuşdu.

Şəhərimizin iqtisadi vəziyyəti fəna olduğu üçün sənət və işi olmayanlar çəkilib kəndlərə və başqa şəhərlərə gedirdilər. Əhalinin ziyalısını Bakı və ən dələduz qismini də Aşqabad cəlb edirdi. Bir qismi də

[1] Borc kağızı, borc sənədi

Ağdamda qazanc dalınca gedir və yayda, şəhərdə buraxdığı ailəsinin yanına dönürdü. Bu mühacirət qonşularımızda belə gözə çarpırdı: keçəl Səməd köçüb yerinə bir "lotu" zərgər gəlmişdi. O zaman şəhərdə böyük bir sərvət sahibi ölmüşdü, bu ölüm lotular üçün əlverişli bir vəqə oldu: yuxarıda adı zikr olunan məşhur molla o saat arvadını boşayıb bu zənginin arvadı ilə evləndi... Zərgər də bu məsələyə qarşı yabançı qala bilməzdi: zənginin iki gənc oğlunun xərcinə olaraq gecədə ziyafətlər verirdi. Çocuqlarla artırmadakı pəncərənin önünə toplanıb, kef məclisinə tamaşa edərdik: musiqi çalınır, xanəndə zəngulə vurur, çərəz yeyilirdi. Zərgər müsamirə proqramını tez-tez dəyişirdi, bir axşam bir dərviş çağırılmışdı, nağıla başladı. Məclisin ortasında ayaq üstə durub, cürbəcür hərəkətlər yaparaq nə gözəl nağıl söyləyirdi. Təsəvvür ediniz, bir nağıl üç ay davam etdi, hər axşam da dərviş hekayəsini dadlı bir yerdə kəsib, bizi maraq içində buraxırdı, o biri axşamı səbirsizliklə gözləyirdik...

Vəba ili evdən dışarı çıxmamız yasaq edilmişdi, o ağır il zorla yadımdadır. Mollaların əmrlərinə görə bu "allah bəlasından" xilas olmaq üçün xalq ayaqyalın, başıaçıq cıdır düzünə müsəllaya çıxmışdı, allahın nəzərini "cəlb" etmək üçün o günü südəmər uşaqlara süd verməkdən analar mən olunmuşdu... Qorxunc il idi, adam milçək kimi qırılırdı. Əlimdə bir parça gilerməni və sarımsaq taxtapuşda oturub ətrafı seyr edərdim – gilerməni ilə sarımsaq vəba dərmanı sayılırdı. Evimizin arxa tərəfində Qara Aslanla qızı vəbadan ölmüşdü. Bütün qonşularımız qorxu içində idi.

Indi bu Qara Aslanın və qonşuluğundakı Lal Sarayın evini Ları Muxtar almışdı. Bu Ları, zənnimcə şəhərin ən ucaboy adamı idi, arvadı ilə bərabər təndirdə çörək bişirib satardılar. Arvad həmişə əkiz doğar və hamısı da oğlan olardı. Mən Şuşanı tərk edərkən bunların 14 oğlu vardı. Eşitdiyimə görə sonralar Ları Muxtar təkrar evlənmiş və ikinci arvadından da bir sürü uşağı olmuşdu...

Lal Sarayda bir sirr var idi, xalq arasında əyarı çox da yaxşı deyildi, deyərdilər ki, evində arvadlarla kişiləri görüşdürür. Kim bilir! Hər halda bu ən bədbəxt bir arvad idi: bir oğlu iflicdən yatağa yamanmışdı, böyüyü köçüb şəhərdən getmişdi və anasına heç bir köməyi dəymirdi, kiçiyi isə sərçə mütəxəssisi idi. Məhəllənin sərçələrini tiryəkə öyrətmişdi, tiryək nəşəsi gələndə bütün sərçələr uçub mürşidlərinin yanına gələrdi...

Yazda, yayda çocuqlar üçün əyləncə çox olurdu, bizim üçün qış ən ağır fəsil idi. Yarımişıqlı otağımızın ortasında dördbucaq şəklində qayrılmış ocağın dövrəsində döşəkçələrə düzülüb, oturardıq, əzgil bişirərdik, şabalıd qovurardıq. Qapalı pəncərənin dışarısında duran toyuq, xoruzlar ayaqlarının birini qarnına çəkib, sanki bizə qibtə edərdilər.

Ayaz axşamlar qulağımız küçədə olardı, bir də gözəl səslə oxurdular:

Şorməzə noxud, ağca noxud,
Əla yeməli noxud.

Anamıza yalvarardıq, noxudçunu çağırardı, başı başlıqlı gənc buğlanan badyanı yerə endirib, tərəzini çıxarardı... Ah, nə dadlı dəqiqələr idi!

Şorməzə noxud dadlı da olsaydı, yaz əyləncələrinə çatmazdı, yaza və novruz bayramına bir ay əvvəldən hazırlanardıq, anam ev tökərdi, xalılar, palazlar çırpılar, rəfdəki yığın-yığın qablar yuyular, evin içinidışını əhənglə şirələyərdik. Çocuqlara yeni paltar tikilərdi. Bilxassə çərşənbələri təntənə ilə keçirərdik: çərşənbə dişərdik – ürəyimizdə bir niyyət tutub qonşuların danışığını gizlincə dinlərdik və eşitdiyimiz ilk sözləri yozmağa başlardıq. Sonra tonqal qalayıb üzərindən atılardıq, fişəng- taraqqa atardıq, toran qovuşanda da anam kiçicik piy şamlar yandırıb evin iç və dış divarlarına yapışdırar, işıq aləmə yayılardı. Nəhayət bütün ailəmiz lobyalı aş süfrəsinin ətrafına toplanardı (çərşənbə və novruz axşamları lobyaplov yemək qayda idi). Novruz daha dəbdəbəli olardı: yeni ilin girəcəyi vaxtı öyrənib, hazırlaşardıq – hamı təzə paltarda, süfrəyə çərəz və səməni otu qoyulmuş, könülaçan söz danışılır... El adətincə, il nə vəziyyətdə qarşılansaydı, o vəziyyət ilin axırına qədər davam edərdi. Böyük qardaşım saata baxıb, deyərdi:

Köhnə ili təzə ilə döndərən allah,
Sən bizim əhvalımızı yaxşı elə.

Sonra gedib məsciddən il təhvil suyu gətirib məkulat qablarına tökərdik ki, bolluq olsun.

Bizim evin özünəməxsus bir etiqadı vardı, bu etiqad islamiyyətin zərdüştiliyə bulaşmasından ibarət idi. Nə atam, nə anam namaz qılmazdı, amma hamımız xalq adətlərini təqdis edərdik. Məsələn, orucluğa on beş gün qalmış – "barat axşamı" – hərə bir şiş götürüb,

dinləyərək bağçanı dolaşardıq. Guya o gecə yerin altındakı bütün xəzinələr Fatmeyi-Zəhraya cehiz gedirmiş: cingilti gələn yerə şiş taxılsaymış, xəzinə oradaca durarmış. Təbiidir ki, bütün səyimizə baxmayaraq bir dəfə də olsa, xəzinəyə rast gəlmədik. Yenə eyni "barat axşamı" barlı ağac dibinə iki yumurta, bir az qara, bir az da qırmızı boya qoyardıq və gələcəyimizi bilmək istərdik. Səhər tezdən həyəcanla ağacın dibinə qoşardıq, bir dəfə niyyətlə qoyduğum yumurtanın bir tərəfinə qırmızı ləkə düşmüşdü. Nə qədər sevindim.

Yaz dumanı şəhəri bürüyür, göz-gözü görmürdü. Rütubətli gündə haraya gedəcəksən ki... Yenə pəncərəni salıb, ocağın qırağına yığılardıq – dumana qarşı tədbirlər lazım idi. Bir ip götürüb, şəhərdəki keçəllərin yeddisinin adına düyün salıb ocaqda yandırardıq, sonra dumanın özünə müraciət edərək onu qorxudardıq:

Duman qaç, qaç, qaç,
Səni qayadan atarlar.

Dumanın qaçması üçün hər kəs çalışardı. Çocuqlar dodu gəzdirərdilər. Üzərinə qırmızı şilə çəkilmiş bir dairədən ibarət olan dodu günəşin müqəvvası idi. Bunu qapı-qapı gəzdirib oxurdular:

Dodu dodunu gördünüzmü?
Doduya salam verdinizmi?
Dodu gedəndən bəri
Bir gün üzü gördünüzmü?

Eşşək batıb palçığa
Ayağından nal çıxa.
Qaraqayanın[1] dibindən
Bir qırmızı gün çıxa...

Qızlar da ayrıca olaraq günəş həsrətində oxuşardılar:

Gün getdi su içməyə,
Qırmızı donun biçməyə.
Keçəl qızın qoydu evdə,
Saçlı qızın götdü-gəldi,
Budu gəldi ha, budu gəldi.

[1] 1 Şuşanın şərqində bir dağ adıdır (müəllif).

Atam Ağdamda nüsxəbəndlik edərdi. Və şəhərə ildə üç-dörd dəfə gələ bilirdi, hər gəldikdə də bir həftə qalardı. Bu gözəl həftələr anamız üçün deyil, yalnız biz çocuqlar üçün gözəl idi: meyvə, xoruzbeçələr, yağ-yavanlıq gətirərdi. Yeyərdik, içərdik, xoruzbeçələrlə əylənərdik, nəhayət gözəl həftə gəlib keçər, zavallı atamın pulu qurtarardı və şənbə günü yenə kəndə yola düşərdi. Bu gözəl həftələrin özünəməxsus bir faciəsi vardı – atamla anamın sözləri bir-birinə xoş gəlməzdi, nəticədə atam həmişə şikayətlənər, anam da ağlardı. Bu övza bizim körpə ürəklərimizdə dərin kədərlər oyadardı. Lakin səbəbini dərk edə bilməzdik. Böyüdükdən sonra ailə faciəsinin sirrinə vaqif olmağa başladım. Atamın birinci arvadı ölmüşdü, ikincisini boşamışdı, anam üçüncüsü idi. Atam anamdan yəqin, iyirmi beş yaş böyük idi. Ailə faciəsinin sirri burada idi. Anam atama qarşı hörmətsizlik etmirdi, vəfasızlığı fikrinə belə gətirmirdi, ancaq qismətə inanaraq bəxtindən küsmüşdü. Bu həyata qarşı olan küskünlük bizə də sirayət etmişdi, bilxassə mən həyatımın sonuna qədər uğursuz olacağına çocuqluğumun ilk dövründən inanıb, qəlbimdə qəm kitabı daşıyırdım... Həyatın acılıqlarını duyaraq çocuq xəyalıma qəribə fikirlər gəlirdi: "Ərəbistanda olsaydım, yəqin peyğəmbər olardım" – deyə düşünürdüm... Peyğəmbər neçin? Dərdliləri ətrafıma toplamaq üçünmü? – xatirimdə deyil.

Məktəb yaşına çatmışdım, məni aparıb kar xəlfənin (Molla Mehdinin) məktəbinə qoydular. Böyük bir otaqda otuz – qırx tələbə oturmuşdu, aralarında bığ yerləri tərləmişləri də vardı. Xəlfə yuxarı başda döşəkçənin üstündə oturub dərs deyirdi. Yanındakı küncə falaqqa və bir dəstə çubuq söykənmişdi. Dərs haqqı ayda iki şahıdan beş şahıya qədər idi: hallı halına görə. Mən beş şahı verdiyim üçün bəzi imtiyazlarım vardı; mollanın yanında oturardım, hərdən məni içməli su dalınca göndərərdi, dərsimi də bizzat[1] özü deyərdi, "ikişahılıqlar" kimi böyük tələbələrə tapşırmazdı. O zaman məktəblərdə dərs fars dilində keçilərdi, türkcə məktəb kitabı yox idi. Yazma çərəkə vasitəsilə əlifba öyrədildikdən sonra Quran, Sədi,

Hafiz, Tarix-Nadir, Cameyi-Abbas oxudardılar, "məşq" yazdırardılar, bu da müəyyən formalı məktub və tüccari övraqlardan[2] ibarət idi. Tələbə Quranı oxuyub bitirdikdə molla ona bərk bir şapalaq çəkər və

[1] Şəxsən

[2] Övraq - "vərəq" sözünün cəmi.

sonra əllərinin baş barmaqlarını iplə bağlayıb Quranı üstünə qoyardı, yanına da bir tələbə qoşub evlərinə xələt dalınca göndərərdi. Hər bir tələbənin dərsi başqa-başqa idi, bir-bir mollanın yanına gəlir, dərsini alıb çəkilirdilər. Molla hərdənbir çubuğu yerə vurub: "Oxuyun" – dedikdə, hər ağızdan bir səs çıxıb, məktəb gurultu ilə dolardı. Günorta azanına qədər bu qayda ilə oxurduq, sonra bizi çaşda buraxardılar, nahar edib, təkrar geri dönərdik. Bu dəfə molla bizi böyük tələbələrə tapşırıb sabah ertə aldığımız dərsi dişətdirərdi. Kimin neçə səhvi olsaydı, yazılıb mollaya təqdim edilərdi. Falaqqa ortaya çəkilər, kiminin ayaqlarına, kiminin əllərinə çubuqdan döşərdi. Növbə gələnə qədər başımıza çarə arardıq: əlimizi sürətlə döşəməyə sürtüb keyidərdik ki, çubuğun ağrısını bilməyək. Ayaqların da çarəsini tapanlar olurdu: bəzi tələbə özü ilə məktəbə dalaq gətirər, ayağının altına yapışdırıb corabı üstündən geyirdi. Molla bir-iki çubuq vuran kimi dalağın qanı corabdan dışarı çıxırdı və molla qorxuya düşüb, falaqqanı endirirdi.

Məktəbin özünəməxsus qaçaqları olardı, qaçmış tələbənin dalınca üç-dörd igid tələbə göndərilərdi, şəhəri gəzib qaçağı tutardılar, məktəbə gətirilən kimi, falaqqa hazır olardı: nə yemisən, turşulu aş.

Qışda məktəb daha da əyləncəli olurdu: hər üç-dörd nəfərin biraxsı manqalı vardı, evdən kömür gətirib onu qalardıq. Beytləşmə başlanardı:

-Bismillahi çəkdim, düşdüm meydana.

Gözüm düşdü sənin kimi ceyrana – a gətir.

-A içində biqərarəm.

Aç başını, gör necə yararəm – m gətir.

– Minmərəm, mindirmərəm, mən aləmi dindirmərəm.

Dü zəbər kaf istərəm, dü zəbər lam – gətir görüm...

Saatlarca davam edən bu yarışda yüzlərcə beytlər söylənərdi.

Axırda bir tələbə o birini bağlardı. Başqa bir müsabiqə başlanardı: iki tələbə bir-birinə sıra ilə yumruq döşərdi, yumruğa tab gətirməyib qaçan basılmış sayılardı. Zarafat yarışına girişilərdi: bir-birinə ən kəskin söyüşlər söylərdilər, sınmayan qalib çıxardı. Tələbələr arasında itbaz, xoruzbaz, bildirçinbaz və başqa bazlar olardı. Şəhərdə bazlıq ətrafında söylənilən bütün yenilikləri sabah ertə bir-birinə xəbər verərdilər, sonra mülahizə və mühakimə yürüdülərdi. Məsələn: "Qəssab Balakişinin qancığı bu axşam küçükləmişdir", hər kəs qulağını şək tutub, sual verir. Küçüklərin rəngi necədir, xalı varmı, neçəsi dişidir, neçəsi

erkək... Küçüklər haqqında təfsilatlı məlumat almaq üçün o saat bir tələbə seçib molladan xəlvət qəssab Balakişinin həyətinə göndərərdilər.

Bunlara baxmayaraq məktəb yenə bir zindan idi və arabir bizi bu zindandan qurtarana minnətdar olurduq. Bir də görürdün içəri bir arvad girdi, məktəb kiriyib susurdu.

– Ay xəlfə, səfərə gedənim var, ona dua oxu, uşaqları da azad elə.

Arvadın mübarək abbasısı mollaya çatan kimi dua başlayırdı, biz də amin çəkirdik. Amma amini elə ürəkdən çəkirdik ki, məktəb titrəyirdi. "Azadsınız" sözü qulağımıza dəyər-dəyməz başmaqları ayağa keçirib, bir-birimizi sıxışdıra-sıxışdıra qapıdan sivişib çıxırdıq. Doğrudan da azadlığın böyük nemət olduğunu dışarıda, təmiz havada duyurduq.

Kar xəlfə böyük bir məfkurə daşıyırdı – Ağa Məhəmməd şahın Şuşada öldürülməsindən sonra Qarabağ hökmdarı Məmmədbəyin basdırdığı qızılları tapacağına inanırdı. O, bu yolda çox pul və əmək sərf edirdi. Kim bilir bəlkə də haqlı idi. Qarabağ xanlarına məxsus sarayın bürcünü təmir edərkən bir bənnanın oradan bir sərnic qızıl tapdığı hamıya bəlli idi. Saray da Bəylik eşiyində, kar xəlfənin evindən bir az o yana idi.

Xülasə kar xəlfə o civardakı xırda evləri bir-bir satın alır, tələbələrinə uçurtdurur, tir-taxtasını və daşını bizə daşıtdırırdı. Çox ev sökdük, çiynimizdə çox daş daşıdıq, lakin Fatmeyi-Zəhranın cehizi bizə nəsib olmayan kimi Məmmədbəyin də qızılları kar xəlfəyə nəsib olmadı.

Böyük qardaşım Əbülhəsən realni məktəbdə oxuyurdu. Çox ciddi və sərtdi, türkcə-farsca və rusca mükəmməl bilir, şeir və pyes yazırdı, eyni zamanda dərslərindən də birincilik qazanır və hər il tərifnamə ilə təltif olunurdu. Əbülhəsən evin böyük kişisi idi, atamın əvəzinə xeyrə- şərə o gedər, evdə də ona tabe idik. Qayda belə idi. Ən böyük qüsuru bizi çocuq əyləncəsindən məhrum etməsi idi. Bir dəfə qarın üstündə araba sürməyimi duymuş, arabamı sındırıb, məni də döymüşdü.

Buna baxmayaraq çocuqluq öz haqqını tələb etməkdən çəkinmirdi – qardaşım məktəbdə ikən, biz oynayıb əylənirdik. O zaman Təbrizlə Şuşa arasında alver olurdu – Irandan yüzlərcə xurma yüklü eşşək gələrdi. Qapandibi adlanan böyük meydançada yüklər açılar, qapanda çəkilərdi. Daşaltı adlı erməni kəndinin dəyirmançıları da hər

səhər buraya qatırlarda un gətirərdilər; ətraf hamısı əllaf dükanı idi. Qapandibi çox qələbəlik olardı, bizim üçün də orada əyləncə çox idi – eşşəklərə minib çapışardıq. Lakin oradakı karvansaraya girməyə cəsarət etməzdik. Karvansaranın dəyirmi meydançasından yuxarı meydana qədər dar bir küçə gedirdi, o tay bu tayı da başmaqçılardı. Dünyanın dələduzu buraya toplanmışdı. Ötüb-keçənə söz atar, çərməki çalardılar, qışda yerə çiriş səpərdilər, xalq sürüşüb yıxılardı. Pişiklərin quyruğuna dəmir qutu bağlayıb buraxdıqları da olardı, qutu yerə dəyib cingkildədikcə, pişik ürküb qaçır, bazar xalqı əylənirdi.

Cövləngahlarımızın biri də Aşağı meydan idi. Burada bir hamam, yanında dəllək dükanı, iki baqqal, iki də əttar dükanı vardı. Qışda bura maraqlı olmazdı – palçıq dizə çıxardı; xoş havalar başlananda bura bir aləm idi. Xoruzbazlar xoruzunu, qoçbazlar qoçunu gətirir, döyüşmə başlayır. Döyüşə girmədən əvvəl xoruzlara istiotlu kişmiş yedirib qızışdırardılar. Qoçlar da ki, il uzunu xüsusi olaraq bəslənər, süsünə də ayrıca diqqət verilərdi: başına həna yaxardılar, buynuzları yağlanardı, boynundan gözmuncuğu asardılar.

Hər baqqalın dükanının qabağında bir dəstə gənc oturub yemək mərcinə girişərdi. Kim daha çox yeyər məsələsi günün mühüm hadisələrindən sayılardı. Mərci həmişə Tamas qazanardı, birincilik onda idi. Tamas gödəkqılça, geniş kürəkli, qıvrım saçlı, zənci sifətli bir türk idi. Tamas bir oturuma beş girvənkə turş alça, üstündən də üç girvənkə qıcqırmış qatıq içərdi. Kimin hünəri var Tamasa çatsın – çata bilməz ki, Tamas şəhadət barmağını havada tərpədə-tərpədə bir tabaq tut yeyir... Tamas bir qəlib sabun yeyir... Bu müsabiqələrə alışmış baqqal ayaqlarını bir çanaq sərin suya qoyub, başına da islaq kətan salıb mürgü döyürdü – Tamas qaçmayacaqdı ki...

Bu muxtar[1] meydanın asayişini yalnız aksiz[2] məmuru pozardı.

Irandan qaçaq keçirilmiş çayın satılması yasaq idi. Buna baxmayaraq şəhərdə satılan çayın çoxu Təbriz çayı idi. Çayı aksiz məmurunun əlinə keçirməmək üçün var qüvvə sərf olunurdu: məmur türk hissəsinə ayaq basar-basmaz, uşaq qaçırılıb bütün əttarlara xəbər verilərdi. Bunu məmur duymuşdu, odur ki, bəzən dolanbac küçələrlə gəlib birdən basqın yapardı. Bir gün məmur ansızın meydanın girəcəyində

[1] Seçilmiş, müstəqil, azad
[2] Vergi

göründü. Əttar[1] onu görüb özünü itirmədi: cəld dükandan sıçrayıb, ağaca bağlanmış qoçun yanındakı saman torbasını dalına atdı və məmurun üzünə baxaraq nəzərini cəlb etdikdən sonra küçəaşağı qaçmağa başladı. Məmur torbadakının çay olduğunu zənn edərək əttarın dalınca qoşdu. Camaat da yerindən qopdu – əttar qaçır, məmur qovur. Cəfərqulu xanın sarayına çatanda əttar torbanı yerə qoyub durdu və ağzına gələni məmura deməyə başladı: "Sən nə haqla mənim dalıma düşmüsən? Mən qaçaqçı deyiləm ki. Evə saman aparıram..." Bu dəfə iş dəyişilmişdi, əttar məmurun yaxasından əl götürmürdü, onu qanunla qorxudurdu. Zavallı məmur bu oyunun dükandakı çayı gizlətmək üçün bir vasitə olduğunu anlaya bilmirdi.

Kar xəlfənin məktəbindən, görünür, əməli bir nəticə çıxmırdı. Bir dəfə atam şəhərdə olanda dərsimi dişəmək[2] istədi. Axşam idi, ayağımı yumaq bəhanəsilə həyətə çıxıb orada ləngidim və atam yatdıqdan sonra otağa dönüb, yavaşca yerimə uzandım. Dişənməkdən yaxamı qurtardımsa da, atam məsələni anladı və həftənin sonunda məni özü ilə Ağdama apardı. Karvansaranın küncündə yarıışıq bir nüsxəbənd dükanımız vardı. Bir tərəfinə buxarı və qəfəslərin arxasına da geniş bir çarpayı yerləşmişdi, orada atamla bərabər yatardıq. Çarpayının üzərindəki şəlitlərdən atam üzüm asardı və kənardakı rəflərə də qarpız düzüb çilləyə saxlardı. Yerə ilk qar düşəndə buxarını qalar, qarpızı yeyib, buxarının yanındakı yatağa girərdi. Titrədikcə:

– Bala, üstümü basdır, – deyər, mən də ələ gələn şeyləri onun üstünə tökərdim. Qızışdıqdan sonra qəlyan istərdi. Şiraz tənbəkisi ilə dolmuş qəlyan hazır olardı. Dükanda hər cür qab-qacaq vardı, buxarıda bişmiş bişirərdik. "Günün bir hissəsi bişmişə, müştərilərə və dükanın ehtiyacına sərf edilərdi, qurtarmaqda olan davaların siyahısı tutulub, şəhərdə tədarük edilmək üçün qardaşıma göndərilərdi. Nüsxəbəndlik yavaş-yavaş aptek şəklinə düşürdü, nəbati davalarla bərabər, fabrik əczaları da satırdıq. Lakin əsas davalar yenə nəbati idi, bunların bir qismi (xiyar çənbər səna, tərəncəbir, qara həllə kimi) Irandan gəlir, o biri qismi (ayıdöşəyi, gülxətmi, babına çiçəyi, göyzəban, kasni kimi) Qarabağ dağlarından yığdırılırdı, cürbəcür həbləri, civə yağını və müshil kimi şeyləri özümüz hazırlayırdıq. Atamın tətbiq

[1] Əttar - ətriyyat, davacat (ədviyyat) satan
[2] Yoxlamaq

etdiyi tibbin əsası istiliklə soyuqluq üzərində qurulmuşdu. Guya xəstəlik bədəndə bu xassənin birinin digərinə üstün gəlməsindən əmələ gəlirmiş. Bütün yeməli və içməli şeylər də istilik və soyuqluq artıran deyə, ikiyə bölünmüşdü. Məsələn: düyü, kartof, kələm, qarpız, turşu, yumurtanın ağı soyuqluq artırandır, bal, ədviyyə, yumurtanın sarısı istilik artırandır. Xəstəlik istilikdən irəli gəlmişsə qan aldırmalı, soyuqluq artıran şeylər yedirməli və əksinə. Babasil xəstəliyi guya iki xassəyə də istinad edə bilərmiş. Bunun üçün xəstəni yoxlayırlar. Isti kərpicin üstünə bir parça keçə qoyub, üzərinə bir çiy yumurta çırpırlar və xəstəni onun üstünə oturdurlar. Bədən ehtiyacına görə ya yumurtanın aqını içəri çəkir, ya sarısını. Bu şərq təbabətinin musiqi ilə tədavi etməsi daha maraqlı idi... Sill, diqq və kif xəstəliklərinə çubi çini verərdilər. Çubi çini xırda köklərdən ibarətdir ki, xarab olmamaq üçün onu həmişə şəkərdə saxlarlar. Müalicə qırx gün davam edər və xəstənin ruhunu yüksəltmək üçün hər gün yanında oxuyub, çalarlar. O zaman Ağdam geniş dördbucaq şəklində tikilmiş bir karvansaradan ibarət idi. İçi başdan-başa arxası mənzilli dükanlar idi. Karvansaranın dörd darvazası vardı ki, axşamlar qapanardı. Karvansaranın dışarısında bir hamam, məscid, mehmanxana, məhkəmə, poçt, aptek və bir neçə xüsusi bina vardı. Şose yolla karvansara arxasındakı meydanda həftəbazarı olardı. Deməli hər bazar günü ətraf kəndlilər, arvadlı-kişili, məhsullarını bu bazarda satıb əvəzinə başqa mallar alardılar. Buğda, un, düyü, meyvə... dağlar qədər təpələnərdi, qoyun, mal-qara sürüsürü gələrdi, yumurtanın səkkizi-doqquzu bir şahıya satılardı...

Karvansaranın içində də adam əlindən tərpənmək olmazdı: hacılar, kərbəlayılar, məşədilər min andla kəndliyə mal sırıyardılar...

Axşamçağı bazar bitər və hər kəs şəhərə, ailəsinə pul göndərərdi.
Anamın "həftə xərcliyi" iki manat yarım, qardaşımınkı bir manat idi, evin illik məkulatı[1] ayrıca göndərilirdi...

Adi günlərdə günortadan sonra işimiz az olduğundan, dərs oxuyurduq. Atamın özünə məxsus bir dərs üsulu vardı – Quran oxutmaz, döyməz və həvəsim olmayan zaman məni dərs oxumağa məcbur etməzdi. "Oxuyaqmı?" – deyə sual verərdi, dinməsəydim, "get oyna, sonra gələrsən, oxuruq", – deyərdi. Karvansaranın ortasına çıxıb çocuqlarla doyunca oynardım.

[1]Məkulat – azuqə

Atam bizə bir çərəkə, bir də bir fars-türk lüğəti yazmışdı. Ilk dərsimiz bu idi. Sonra savadım artdıqca Füzuliyə, Sədiyə və Hafizə keçdik. Atam avam, savadsız, riyakar, acgöz dükan qonşularımıza nisbətən çox yüksək bir sima idi. Iranı, Turanı və Türkiyə torpağının bir qismini gəzmiş, fars ədəbiyyatını mükəmməl bilir, beynəlmiləl siyasətlə maraqlanır, din və mövhumata da inanmırdı. Bir məclisdə "Firdovsi Məhəmməddən yuxarıdır" dediyi üstə şəhərdə vəlvələ qopmuş və "sofiməzhəb" ləqəbi almışdı. Bir dəfə şəhərin hər kəsdən bac alan məşhur mollası atama: "Ağa, Ağdamın qırqovulunu, kəkliyini tək yeyirsən"

– dedi. Atam bir məsəl çəkdi:

– Ermənilərdə bir qayda var, – dedi, – camaat keşişə donuz göndərər, keşiş donuzun ətini yeyər, tükünü də verər müridlər bığlarına çəkərlər. Heç olmasa ağa, yediklərinin tükündən göndər, mən də bığıma çəkim.

Atam namaz qılmazdı. Bir səhər evimizdə qonaq qalmış bir hacı namaza başlar-başlamaz, atam da canamazı çıxarıb namaza durdu. Qonaq gedəndən sonra canamaz da yox oldu.

– Niyə həmişə namaz qılmırsan? – deyə atama sual verdim. Atam dedi:

– Allah mənə patronu onun üçün verməyib ki, atıb korlayam, eşşək görəndə atıram.

Dükan qonşuluğumuzda Hacı Məlik adlı riyakar bir sövdəgər vardı, axşamlar namaz qılanda səsi karvansaranı qaplayırdı, gündüzlər isə qonşuların toyuqlarını dükanın dalına salıb yumurtladıb buraxırdı. Birisi bir dəfə atama sual verdi:

– Ağa, sən ki, sofiməzhəbsən, bəs oruc niyə tutursan?

Atam dedi:

– Elə bilirsən allahdan qorxuram, qorxum bu köpək oğlu Hacı Məlikdəndir.

Şəhərimizin bütün maarifçiləri gəlib Ağdamdan keçəndə atamın yanına gələrdilər: Əhmədbəy Ağayev, Haşımbəy Vəzirov və Əbdürrəhimbəy Haqverdiyev bu ziyarətçilərdən idi. Atam Şərq muğamatını da gözəlcə bilərdi, Qarabağın məşhur xanəndəsi Hacı Hüsü atamın şagirdi olmuşdu.

Ağdamda kənd məktəbi olmadığı üçün çocuqlar Muradbəyli kəndinə getmək məcburiyyətində idilər. Rusca oxumaq üçün atam məni

də Muradbəyli məktəbinə göndərirdi, hər səhər təqribən bir saat yol gedərdik. Burada hökumət seminariyası bitirmiş üç türk müəllimi dərs deyirdi. Bunların tələbəyə qarşı rəftarı olduqca sərt idi: bol şapalaq və kötək yeyərdik, sinifdə bir şey yeyənin ağzına səttarə ilə döyərdilər.

Zatən adam döymək o zaman zəruri görülən şeylərdən biri idi: bəy nökərini ağaca sarıtdırıb döydürərdi, pristavlar kəndliləri palçığa salıb döydürərdi... Qana bələşmiş insanları görərkən körpə qəlbim nə qədər acılıqlar duyardı. Zülmün həddi, hesabı yox idi. Bilxassə, kazak görəndə əhali titrərdi. Yadımdadır, Əfətli kəndinə qaçaqlıqla mübarizə üçün yüz kazak göndərmişdilər. Bu kazaklar neçə ay kənddə qalıb, kəndi xaraba qoydu, bütün mal-qaranı kəsib yedilər, qadınların namusuna toxundular, adam öldürdülər və kəndlilərin var-yoxunu götürüb getdilər. Buna hökumət dilində ekzekusiya deyərdilər...

Məktəb müdiri qarasaqqal, bığlarının ucu sallaq bir kişi idi. Sarı düyməli rəsmi tujurkasının yaxası yağlanmışdı, kətəyə bənzər köndələn çinləri solmuşdu. Sonralar eşitdiyimə görə bir dəfə inspektor gəlib məktəbi yoxlayır, hər yerdə intizamsızlıq görür, toz-torpaq, çirk gözünə çarpır... Məmnun olmayaraq məktəbdən çıxarkən, bir it sıçrayıb ona hürməyə başlayır. Müdirimiz inspektora xoş gəlmək üçün yerdən bir daş götürüb itə atmaq istəyir. Inspektor onun qolundan yapışıb:

– Onu vurma, bu məktəbdə yalnız o, vəzifəsinə sadiqdir, – deyir.

1896-cı ildə Şuşaya döndüm, hazırlanıb realni məktəbinə girməli idim. O zamana qədər bu məktəbdə yalnız bəy balaları oxurdular, indi tacir və əsnaf arasında da bu məktəbə həvəs oyanırdı. Çocuqları realni məktəbinə hazırlamaq üçün Camalbəy, Səmədbəy Ağayev kimi müəllimlər tərəfindən xüsusi məktəblər açılmışdı. Mən də qısa bir müddət bu məktəblərə davam edib, sonra yenicə açılmış rus-tatarməktəbinə girdim. Müdiri Haşımbəy Vəzirov idi. Iki rusca, bir türkcə, bir də elmi-ilahi müəllimi vardı. Haşımbəy o zaman maarif sahəsində böyük fəaliyyət göstərərdi, məktəbi təşkil etdikdən sonra, böyüklər üçün rusca axşam kursu açdı, "dumanlı" şəkillər göstərib, nəsihətli izahlar verərdi, Şekspirin "Otello"sunu türkcəyə çevirmişdi, xalq ədəbiyyatını toplardı. Yayda Ə. Haqverdiyevin və şəhərə dönmüş müəllimlərin köməyi ilə teatr tamaşası verərdilər. Geniş kütlə Mirzə Fətəlinin və Haqverdiyevin əsərləri ilə ilk dəfə olaraq tanış olurdu. Nəhayət, 1904-cü ildə erməni artisti Abelyanın rəhbərliyi ilə "Otello" da türk dilində oynandı. Otello rolu Haşımbəyə verilmişdi.

Rus-tatar məktəbində dərslərin gedişi yaxşı da olsa, tələbəyə qarşı rəftar yenə köhnə idi. Haşımbəyin özü olduqca qaba bir adamdı: tələbələrin hərəsinə bir ləqəb qoşar, döyəndə də heç məsuliyyət duymazdı. Bir dəfə təbaşiri birisinin başına vurdu, qan fışıldadı. Elə zəhmli idi ki, küçədə tələbələr onu gördükdə qaçıb gizlənərdilər. Elmi-ilahi müəllimi də ondan geri qalan deyildi, uşaqlar adını "molla zoru" qoymuşdular. "Molla zoru" başmağının nalını taqqıldada-taqqıldada tələbəyə yanaşıb başının tüklərini qopardar, sonra piləyib havada uçurardı.

Bir il sonra bu məktəbi tərk etdim və imtahan verib realni məktəbin birinci hazırlıq sinfinə girdim. Məktəbin formasını sevinclə geydim. Bu da buluz, kənarı sarı zehli şapkadan ibarət idi: şapkamızın qabağında princ[1] yarpaq arasında "Ş.R.U." (Şuşa realni məktəbi) hərfləri düzülmüşdü. O vaxt bu məktəbə girmək türk arasında böyük şərəf sayılırdı. Mən də şəxsən bu şərəfi duyur və saxlayırdım. Qapandibinə, Aşağı Meydana, Bəylik eşiyinə çoxdan vida demişdim. Qardaşım sevincimizi Ağdama bildirdi, atamdan cavab aldıq: mənə həftədə bir abbası maaş təyin etdiyini bildirir və yaxşı oxusam maaşımın artırılacağını vəd edirdi.

Bir dənə abbası. Abbası ilə zarafat etmək olarmı? Bir abbasıya aşbaz Balışdan dörd piti, ya lavaşçı Iskəndərdən iyirmi dənə ağ lavaş almaq olardı... Qardaşımın maaşı bir manata qədər çıxmışdı. Qardaşım bu pulları divardan asılmış xüsusi bir qutuya salıb, ilin axırında bir neçə rus məcmuəsinə abunə yazılardı. Mən də bu yolu təqib etdim.

Şuşadakı realni məktəbi tədris və təchizat e tibarilə Qafqaz orta məktəbləri sırasında birincilərdən sayılırdı. Mükəmməl fizika kabinəsi, böyük kitabxanası vardı. Direktoru və bütün müəllimləri rus idi. Yalnız fransızca Əhmədbəy Ağayevə, almanca da bir erməni müəlliminə verilmişdi. Ermənisinin olması təbii idi, çünki onların orta məktəbdə dərs deməyə ixtiyarları vardı, amma bu haqdan türklər məhrum idi. Deməli, Əhmədbəyin müəllim olması təsadüfi bir iş idi. Elmi-ilahi dərsini həkim Mirzə Sadıq və hazırlıqda türkcəni Haşımbəy verirdi. Məktəbdə üç-dörd yüz ermənіyə müqabil yalnız otuza qədər türk tələbəsi vardı. Xalq çocuqlarını rusca öyrədib, məktəbə verməyə hələ alışmamışdı. Ancaq get-gedə türkün sayı aşağı siniflərdə artmağa baş-

[1] Bürünc, tunc

layırdı. Çünki türk burjuaziyası qüvvətlənir, onu dədə-baba baqqallıq və bəzzazlıq artıq qane etmirdi, türk tacirləri malı erməni topçularından deyil, bilavasitə Moskvadan almağa başlamışdı. Onlar elmə praktiki olaraq yanaşırdılar, çox pul qazanıb, rəqabətdə müvəffəq olmaq üçün rusca bilmək və elmli olmaq lazım idi. Odur ki, balalarının hazırlığı üçün çox pul xərcləyirdilər, bir çoxları uşaqlarını leyli[1] olaraq rus ailələrinə verirdilər. Qəribə burasıdır ki, ruhanilər minbərlərdən şapkaya qarşı küfr yağdırdıqları halda, çocuqlarını realni məktəbə göndərməkdən çəkinmirdilər.

Zatən ruhanilərin xalq arasındakı nüfuzu sarsılmada idi. Irəlilər şəhər əhalisi üsuli və şeyxi deyə, iki təriqətə bölünmüşdü. Yuxarı Gövhər ağa məscidi şeyxilərin, aşağısı da üsulilərin inhisarında idi. Bütün başmaqçı bazarı, hamballar və başqa əsnaf şeyxiliyə, tacirlərin bir qismi, az-çox oxumuşlar və bəylər üsuliliyə mənsub idi. Aralarındakı mübahisəli məsələlər qəribə idi: şeyxilər deyirdilər ki, əşya mükəlləfdir, yəni bütün yaradılmış şeylərə dinin qəbulu təklif olunmuşdur. Məsələn, sərçə qəbul etməmiş və ziyankarlığa başlayaraq Ibrahim peyğəmbəri oda atanda dimdiyində çöp gətirib ocağa tökmüşdür, qarpız, badımcan, xiyar... dini qəbul etmiş, ya etməmiş, ancaq etmələri vacib imiş... üsulilər bu nəzəriyyəni inkar edirdilər. Şeyxilər kişmişin bütöv olaraq xörəyə qatılmasını haram bilirdilər, çünki kişmiş şişdikdə içində dönüklük əmələ gəlib, çaxır ola bilərdi. Haramzadə üsulilər bunu da inkar edirdilər... Əhalini belə "mühüm" məsələlər məşğul edər və sabahdan axşama qədər bazarda, bilxassə dəllək dükanlarında, xeyir-şər məclislərində əşya mükəlləfdir, mükəlləf deyil, – deyə camaat bir-birilə deyişərdi.

Mirzə C... Irandan döndükdən sonra bu da Şuşaya kərimxanilik gətirdi, şəhərin 17 məscidinin birinə də bu çəkilib başına mürid toplamağa çalışdı. Bunun Xorasandan gətirdiyi ideyaya görə papiros tüstüsü orucu batil eləməzmiş. Camaatın bir qismi də günün günorta çağı bazardan sivişib, ayaqyollarında xəlvətcə papiros çəkməyə başladı.

Bu oyunlar artıq keçmirdi. XX əsrin gəlişi özü ilə də bir yeni hava gətirmişdi. Bu hava xalqı ayıltmada idi. Ziyalılar məclislərə yeni mövzular atırdı, türk xalqının geridə qalmasının səbəbləri aranırdı, mollalara hücum etməkdən çəkinmirdilər. Molla da bazarın başqa ba-

[1]Gecəli-gündüzlü

zar olduğunu duyaraq yeni müştərini razı etməyə meyl göstərirdi. Artıq üsuli-şeyxi məsələsi deyil, əsrlərdən bəri kök atmış sünni-şiə məsələsi belə danışılmaz oldu. Kütlənin özündə, kimsənin rəhbərliyi olmadan, bu məsələlərə qarşı bir nifrət oyanmışdı. Məsələn, bayramlarda rus əsgərlərinə qarışmış tatar soldatları məscidə namaza gələrdilər, bunları hörmətlə qarşılar və evlərə qonaq aparardılar.

Məktəblərin hamısında olduğu kimi, bizim məktəbdə də elmi-ilahi dərsi gülünc bir vəziyyətdə idi. Həkim Mirzə Sadıq[1] dərs deməzdi, olsa-olsa görkəm üçün əlhəmin tərcüməsini söylərdi. Bu adam çox kamil və volteri bir adam idi, istehzalı danışığı zəhər saçardı. Elmi-ilahidən çox bizim təhsilimizlə maraqlanardı, sülüs nömrələrimizi tələb edib, baxar və pis nömrəsi olanı məzəmmət edərdi. Çox da obrazlı danışardı. Naxçıvan xanlarından birisi bizimlə oxurdu, onun nömrələrinə baxıb məmnun qalmadı:

– Xan, – dedi – sizə tapşırıblar ki, ildə dörd girvənkə qırxbuğum[2] yığasınız, özü də səni qırxbuğum dalınca Naxçıvandan Qarabağa göndərmişlər. Hamı yığıb, amma sənin dəsmalın boşdur, Naxçıvana dönəndə xəcalət çəkməyəcəksənmi?

Yakuş adlı bir tələbənin qız dalınca qoşduğunu sevməzdi, bir gün dərsdə demiş:

– "Ya" ərəbcə "ey" deməkdir, quş da ki, quşdur. İndi de görüm ey quş, sən hansı yuvanın quşusan?

Bir gün yenə xalqın cəhalətinə darılaraq demiş:

– Bizdə hər şey baş-ayaqdır: "papaq[3]" ayaqqabı deməkdir, başmaq baş qabı deməkdir, bir xalq ki, ayaqqabını başına, baş qabını da ayağına geyə, onun işi həmişə baş-ayaq olar.

Mirzə Sadıqla Əhmədbəy Ağayev bir məclisdə olduqda orada zəka hakimiyyəti duyulurdu, heç bir mövhum fikirlərə yer qalmırdı.

Camaat Əhmədbəyin Fransada təhsil aldığını bilirdi, ona "firəng Əhmədbəy" – deyərdilər. Islam və türk tarixinə hər kəsdən artıq vaqif idi... Məclisdə danışanla heç bir molla cəsarət edib onun fikirlərinə qarşı çıxa bilmirdi. Əhmədbəy sərt və əsəbi bir adamdı, bilxassə bəylərin qudurğanlıqlarına dözə bilməzdi, onlarla bir məclisdə qarşı-qar-

[1] Mirzə Sadığın ədəbi fəaliyyəti haqqında "Riyazül-aşiqin"ə baxmalı (müəllif)
[2] Aşa tökülən bir bitki (müəllif)
[3] "Pa" farsca ayaq deməkdir (müəllif)

şıya gəldimi, həmişə dalaşardı, həmişə də tapançasını hazırda saxlardı. Bəylər də ona qarşı intriqalar çevirərdilər, bir gün onu təhqir etmək üçün klubdan şapkasını və paltosunu oğurlatmışdılar, evinə başıaçıq dönməyə məcbur olmuşdu.

1896-cı ildə Əhmədbəy Şuşada türk hissəsində, birinci olaraq qiraətxana və kitabxana təşkil etdi, o biri il Bakıya getdikdə bu müəssisə qapandı.

O zaman ziyalının nüfuzu olduqca artmışdı, xaricdə və Rusiyada təhsilini bitirib geri dönmüşləri bütün şəhər ziyarət edərdi. Üç-dörd gün davam edən bu görüşdə təhsildən gələn adama bir çox suallar verərdilər, elm və fənnin müvəffəqiyyətləri ilə olduqca maraqlanardılar. Realni məktəbi bitirənlərin şərəfinə ziyafət vermək də ənənəvi bir şəkil almışdı.

Ziyalıların nüfuzuna baxmayaraq hələ xalqın geniş kütləsi qaranlıqda çırpınırdı. Bilxassə qadına qarşı olan zülmün həddi-hüdudu yox idi. Qadın çarşabda, qadın tərbiyə və təhsildən məhrum, qadını görmədiyi adama ərə verirlər, qadını götürüb qaçırlar... Qadına qarşı nə zorbalıqlar yapılmırdı. "Qızın oldu – qara donunu gey" məsələsi səbəbsiz olaraq meydana çıxmamışdı, qızı olan ailənin min bir əndişəsi vardı: Bizim ailə də bu əndişəlilərin ən əndişəlisi idi, çünki evdə üç bacım vardı. Böyük bacım Aşqabada köçmüşdü, lakin evdəki qayınata və başqaları ilə yola gedə bilməyib, arabir acıq eləyib, üstümüzə gəlirdi. Ondan kiçiyi yetişmiş, qapını elçilər kəsdirmişdi. Hər kəsdən də çox bir sərsəri israr edirdi, bizi evimizə basqın yapmaqla hədələyirdilər. Evimiz mühasirə vəziyyəti almışdı – darvaza qıfıllanıb, növbə ilə qarovul çəkilir. Anam gecə sabaha qədər yatmayıb, əlində tapança evi güdür. Bəzən qızı çarşaba bürüyüb, babamgilə göndəririk. Bir neçə gün rahat yatırıq, sonra casusluq edən məşşatələr qızın yerini bilib, xəbər verir, bir də eşidirik ki, babamın evinə hücum olur. Qızı təkrar bizə göndərirlər, camaxatana[1] qoyub bağlayırıq, cürbəcür bəhanə ilə evimizə gələn qadınlara evi göstəririk və qızın burada olmadığını sezdiririk.

Bir gecə darvazanın önündə gurultu eşidildi, hasardan aşıb həyətə düşmək istəyirmişlər. Anam tapancanı götürüb getdi, biz də qorxa-

[1]Yataq yığmaq üçün divar dolabı (müəllif)

qorxa arxasına düzüldük. Darvazanın çatlağından baxırdıq, dışarıda bir dəstə sərsəri durmuşdu. Anam bağıraraq:

– Hünəriniz var, gəlin, hamınızı qıracağam.

Ansızın eşidilən bu qadın səsindən hər kəs qorxuya düşüb dağıldı.

Bu vəziyyət bir ay davam etdikdən sonra sərsərilərin başqa bir ev basıb, qız apardıqlarını eşidib sakit olduq. Sonra bacım başqasına ərə getdi, ondan kiçiyini isə götürüb qaçdılar.

Bu sahədə dəhşətlər olurdu, qaçırılan qızlara zorluqla təcavüz olunduqdan sonra qız polis qarşısında öz razılığı ilə gəldiyini söyləməyə məcbur olurdu. Bəzi qızlar bütün hədələrə və zorbalıqlara baxmayaraq axıra qədər mübarizə edirdi. Birisini qaçırdılar, razılıq göstərmədi və oğlanı yaxın buraxmadığı üçün üç ay kəndlərdə və dağlarda dolaşdırdılar. Nəhayət, bir bəy evinə gətirib, nökərlərin vasitəsilə əl-ayağını bağlayıb, oğlanı yanına buraxırlar. Buna baxmayaraq qız yenə razılıq verməyib, atası evinə dönmüşdü.

Camaat arasında kök salmış fəna adətlərdən biri də aşura büsatı idi. Bu həngamə neçə əsr əvvəl Iran tarixində təsadüf edilən şəbihgərdanlıq şəklində qalsaydı, etiraz edilməzdi. Çünki orta əsr Avropa misteriyası kimi, bu da bir xalq teatrı, xalq tamaşası idi. Heyf ki, bu tamaşa vəhşi bir şəkil almışdı. Şəbihlə bərabər, başyarma (ağköynək), ələmdar, bədənə zəncir və daş vurmaqla özünə əziyyət vermək də ifrata varmışdı. Şəbihgərdanlıq tam mənasilə xalq teatrı idi: xalq geniş meydana toplanır, ortada xeymə[1] qurulur, tarixi libas geymiş şəbihlər gəlir, hər kəs öz rolunu əlindəki kağıza baxaraq söyləyirdi. Qadın rollarını da kişilər oynardılar. Tamaşanın can nöqtəsi Hüseynin məğlub olması, arvad-uşağın əsir getməsi, çocuqların su istəyərək mələşməsi olardı. Bu əsnada xeyməyə od vurulardı, ərəb şəbihləri saman sovuraraq yanan xeymənin ətrafına fırlanardılar. Faytonda "firəng səfiri" gələrdi, taxtda əyləşmiş "yezidi" çiyinlərində gəzdirərdilər...

Bu tarixi vəqənin təmsili ilə bərabər, bir də vəqəyə qarşı olan əlaqə göstərilərdi, vəhşi cəhət də burada idi. Əyinlərinə ağ kəfən geymiş kişilər geniş dairə təşkil edərək, xəncər və gorda ilə başlarını yarıb, qanlarını kəfənə axıdardılar. Arxası açıq qara don geymiş gənclər zəncir qamçılarla arxalarına vurardılar, dərilərinə ox, dairəvi cib güzgüsü, qıfıl, xəncər, kotan dəmiri sancılmış ələmdarlar zorla nəfəs ala-ala

[1] Çadır, alaçıq

yüyürərdilər, açıq sinələrə əl və bəzən iri daşla vurulardı. Qan coşduran zikrlər söylənərdi...

Ağköynək, ələmdar, zəncir və sinə vuran dəstələri gördükdə insanı dəhşət qaplayırdı.

Bu vəhşi adəti aradan qaldırmaq üçün etirazlar başlanmışdı: tələbələrin iştirakı yasaq olmuşdu, məclislərdə ehtiyatla da olsa tənqid meydan alırdı. Bu sahədə ən təsirli söz maarifçilər arasında böyük nüfuz qazanmış Şeyx Hüseynin idi. Bu adamın çox maraqlı tarixçəsi vardı: şəhərin məşhur igidlərindən olaraq əsil adı Kərbəlayı Dadaş imiş. Bir cinayət işləyib Irana qaçır və orada dəruni böhranlar duyaraq tutduğu işlərdən peşman olub, təhsilə gedir. Neçə il keçmiş Şeyx Hüseyn adı qəbul edərək, şəhərə dönmüşdü. Aşağı məscidin bir hücrəsində oturub, pəhrizkar bir həyat sürür və başına toplanan gənclərə mədəniyyət fikirləri aşılayırdı. Gənclik arasında böyük nüfuzu vardı. Şeyx Hüseyn aşura büsatının əleyhinə açıqdan-açığa çıxan ilk molla idi...

Həyat yolu ilə gedir, ailəmiz də öz işi ilə məşğul idi. Ancaq evimiz artıq vecdən çıxmışdı, zavallı anam ora-burasını yamamaqdan, suvamaqdan yorulmuşdu. Taxtapuş çürümüş, aylarca göydən süzülən yağmura müqavimət göstərə bilmirdi... Yağış yağanda palazlar yığılır, hər yerə qab-qacaq düzülürdü.

– Dam, dam, dam... – damcı aramla başlayır, sonra cim, cim, cim...
süzülür.

– Ay uşaq kasa qoy.

– Cırr...

– Qoyma, töküldü, ləyən hanı?.. Zəhrimara qalsın, – oradan da damır, tez ol cin qazanı gətir.

– Dam, dam, cırr...

– Dim, dim, dim...

Damcılar axır. Qəfəxanada ehram şəklində bir-birinin üzərinə düzülmüş qazanlar, dolabdan mis kasalar, piyalələr, nimçələr çıxır, otaq isgər dükanı şəkli alır. Biz də pal-paltarımızı toplayıb künclərə sığınırıq.

Bizim üçün böyük əyləncə təşkil edən bu mənzərə anam üçün faciə idi. Gözləri yaşararaq şikayətlənir:

-Kişi varı olan zaman bu günü yadına salmadı.

Deməli dost var, düşmən var. Gündə bir qonaqlıq, oxu yan, çalan... yedi, içdi, məni bu günlərə qoydu. Yerdə qalanını da bəylərə verdi...

Anam deyinir, ağlayır, damcıların önünü almaq üçün yeni qablar düzür, biz də deyib gülürük, damcıların səsində mahnılar duyuruq...

Yeni ev tikdirmək lazımdır. Düşünüb daşınırıq. Məsələni atama da anladırıq. O razıdır, ancaq pul yoxdur. Borc alarıq, ağır sələmlərə dözərik, ancaq ev olsun. Qaçan Hacıməmməd çağrılır, bu adam hər sahədə mütəxəssisdir: aşura tamaşasına rəhbərlik edər, şifahi də olsa ev planı çəkər, ediləcək məsarifini təyin edər.

Hacıməmməd əlinə uzun ağac götürüb ölçüb-biçdi, hesabladı.

Plan hazır idi: bir kəllayi, bir də on bir arşın uzunluqda bir xeyir-şər otağı, kəllayinin qabağı artırma, altda da zirzəmi. Vəssalam. Altı yüz manat pul lazımdır.

Hacı gedir. Ailə üzvləri oturub, götür-qoy eləyir. Nə olur-olsun, zəngin bir bibioğlumuz vardı, ona müraciət edirik, vermir, ancaq onun vəsatətilə[1] bir ayrı tacirdən böyük sələmlə pul alırıq. Bibioğlunun bu siyasətini yalnız tacirlər anlaya bilərlər, öz doğma dayısından sələm almağı özünə güvara bilmir, sələmsiz də pul vermək tacirlərdə dəb deyil.

Nə isə ev tikilib qurtarır, içinə daşınırıq, ancaq qapılarına, tavanına, döşəməsinə pul çatmamışdır. Evə qarovul çəkməyə başlayırıq. Zavallı anam gecə sabaha qədər çırağın dibində oturub papirosu papiros dalınca çəkir. Oğrular da qonşu evdən keçib, damın üstündə dolaşır, aşağı enməyə məqam gözləyir. Ayağının tappıltısını eşidirik, torpaq tökülür. Bir də damdan bir dəlik açılır, oğru evi yoxlayır. Qorxudan yorğanın içinə çəkilib əsirəm. Anam başını tavana tərəf çevirib, tapancanı yuxarı qaldırır:

– Arvad xeylağına sataşmaqdan utanmırsanmı? Sən kişisənsə, aşağı en, – deyir.

Anamın mətanətli səsi bir an otaqda cingildəyir. Yenə ayaq tappıltısı gəlir, oğrunun qonşu evə tərəf getdiyi duyulur.

Utandımı? Qorxdumu? Kim bilir. Oğru getdi, amma qorxusu canımızdan çıxmır, sabaha qədər yata bilmirik...

Atam aranda yanırdı, indi yayları belə gələ bilmirdi. Necə də gələydi: evin qapı-pəncərəsi qayrılmalı idi, altı baş külfət saxlanmalı idi.

Zavallı kişi beş il bu borcun altından çıxa bilmədi, sələm sələm üstün-

[1] Vəsatət – vasitəçilik

dən gəlirdi, altı yüz manat əvəzində min beş yüz manat verib, bir təhər borcdan üzüldü.

Evimizin qarşısındakı sallaqxana quzulayıb uçmuşdu, onun yerini həyətə qatdıq, gözəl bir bağça saldıq. Şuşada gülbazlıq çox dəb idi, məndə də gülçülüyə həvəs oyanmışdı. Rusiyadan toxum gətirdib əkərdim. Sallaqxananın münbit torpağında nələr bitməzdi?

Qışı otaqda, yazı bağçada keçirərdim. Xoş havalarda artırmanın başqa hüsnü vardı. Küçədə evimizin qarşısındakı quyuluqda gözəl şərqilər söylərdilər, saz və qarmon çalınardı. Nə oxuyanlar vardı! Axşam çağı qatıq almağa gedən uşaqlar qazanı yanağına dayayıb, elə bayatı və şikəstə oxurdular ki, adamın gözləri yaşarardı. Vaqif və Zakirin vətəni olan bu şəhərə təbiət şeir, musiqi və şərqi ilhamı bağışlamışdı. Qafqazın bütün adlı-sanlı türk xanəndə və sazəndələrini bu şəhər yetirərdi. Məşədi Isi, Hacı Hüsü, Qaryağdı oğlu Cabbar, Əbdülbağı, Seyid, Islam kimi oxuyanlar, Sadıqcan kimi çalanlar Şuşada yetişmişdir. Oxumaq və çalmaq sənətində bu ustaların böyük xidmətləri olmuşdur. Beş simli tara altı sim də artırıb, bugünkü şəklə salan Sadıqcan olmuşdur. Bu adam tarı pərdəsiz də mükəmməl çalardı...

"Quyluq" deyilən bir təpə idi. Bu təpənin yerində vaxtı ilə hamam varmış. Cin görünmüş deyə, oranı zibil və peyin altında basdırmışdılar, təpə əmələ gəlmişdi. Yeniyetmə oxuyanlar aydın gecələrdə buraya toplanıb zümzümə edərdilər.

Yayda şəhər daha da qələbəlik olardı, arandakılar şəhərə dönür,Azərbaycanın başqa şəhər və kəndlərinə yayılmış ziyalılar gəlirdi.

Yay toy mövsümü deməkdi. Toylar başlanırdı. Bu da vara bağlı idi, zənginlər həyətlərində böyük mağar qurub nağıllarda söylənən kimi, tam qırx gün, qırx gecə toy elərdi. Gülablı kəndindən aşıqlar çağırılardı, şəhərin bütün oxuyan-çalanları yığılardı, qulplu qazanlarda plov bişərdi, toy böyük dəbdəbə ilə keçərdi. Əvvəllər ağ duvaqlı gəlin və iki yengə atda gedər və cehizlər də qatırlara yüklənərdi. Məşəllər yandırılar, zurnalar çalınardı. Şəhərdə ildə bir yeni hava çıxdığı üçün son və mod hava çalınardı. Bu havalardan biri zorla yadımdadır:

Mən gedirdim yarım çıxdı qa-baqdan,
ay balam, qa-baqdan;
Yarın şövqi məni saldı da-maqdan,
ay balam, da-maqdan.

Laylay, bala, laylay,
Laylay, gülü, laylay,
Laylay, quzu, laylay...

Musiqi bu havanı çalır, yüzlərcə adam ağız-ağıza verib oxuyur və əllərindəki daşları bir-birinə vururdu.

Ailəmiz mütəvaze bir həyat sürərdi. Nə biz qonaq gedər, nə bizə qonaq gələrdi. Atamın vaxtı ilə çox qonaqlıq etmiş olduğunu anam sərzənişlə söylərdi. Mən yalnız son ziyafəti xatırlayıram, atam şairə Fatı xanım Kəminəni qonaq çağırmışdı. O axşam yadımdadır, uzunuzadı münaqişə oldu. Böyük qardaşım Iran şahlarının əleyhinə danışır, Kəminə onları müdafiə edirdi, Kəminə çarşab örtər, amma üzünü gizləməzdi, şairlər və ədəbiyyat maraqlıları onun evinə toplanardılar. Yadımdadır bir xüsusiyyəti vardı: turş şeyləri çox sevərdi, atam bunu bilir və Ağdamdan bir-iki dəfə ona gülöyşə nar göndərmişdi[1].

Atamın ikinci arvaddan olan qızı bibim oğlunda imiş, çocuğu olmadığı üçün bunu boşayıb, yerinə o biri bibimin qızını almışdılar. Bu məsələ üstdə qohumlar arasında ziddiyyət düşmüşdü, gediş-gəliş kəsilmişdi. Bizim gedəcək yerimiz yalnız babam (anamın atası) Seyid Hüseyngil idi. Babam olduqca talesiz bir adamdı. Arvadı iflicə tutularaq 17 il yataqda qaldıqdan sonra ölmüş, iki yetişmiş oğlu və iki qızı eyni xəstəliklə əlaqədar olaraq ölmüşdü. Yalnız bircə oğlu qalmışdı, onu evləndirmiş, ondan bir qız nəvəsi olmuşdu. Özü olduqca tənbəl və inad adam idi. Hələ çocuq ikən o qədər tənbəl imiş ki, uşaqlar onunla dalaşarkən əyilib yerdən daş götürməyə ərinərmiş. Bu dərddən anası həmişə cibinə daş qoyarmış ki, götürüb atması asan olsun. Atam varlıolan zaman buna böyük məscidin yanında bir əttar dükanı açmış. Bir il sonra hesaba oturmuşlar, atam görmüş ki, kişi şeylərin hamısını nisyə buraxmış və borcluların adını heç yerdə qeyd etməmişdir. Dükan qapanmış. Bir dəfə də maya verib Təbrizə göndərmiş. Babam Təbrizdə düşünüb, daşınıb bir neçə dəvə yükü çiriş almış. Yolda çirişi yağış vurur, günəş vurur, çuvallar kəsəyə dönür. Yalnız çiriş deyil, çuvallar da çirişə yapışıb xarab olmuş.

Babamın ticari təşəbbüsləri çiriş xırıdı ilə bitmişdir, gündə iki dəfə qəbiristanlığa fatihəya gedər, arabir də bizə gələrdi. Bizə gəldikdə

[1] Kəminənin ədəbi fəaliyyəti haqqında "Riyazül-aşiqin"ə baxmalı - müəllif

darvazanın arası açıq olmasaydı, itələməyə ərinərək geri qayıdardı. Arabir babamın yanına gedərdim, dar bir küçədə yaşardı. Ancaq orada çox qalmağa hövsələm gəlməzdi, qaranlıq və rütubətli otaqda canım sıxılardı.

Bizim ailənin bir tühaflığı vardı: bütün çocuqlar lunatik idi. Yata bilmədiyim axşamlar qəribə mənzərənin şahidi olurdum: böyük qardaşım yataqdan qalxır, gözləri yumulu olaraq otaqda gəzinir və gündüz oxuduqları dərsləri bərkdən təkrar edərdi. Gündüz elədiyi kimi, dərslərin təkrarından sonra bir neçə fars qəzəli söyləyib, yenə yatağına uzanardı. Bunu qeyri-şüuru olaraq yapardı, özünün xəbəri olmazdı, o biri gün söylədikdə heyrət edərdi. Aydın bir yay axşamı kiçik bacım yatağından qalxdı, gözləri yumulu olaraq çırağa yanaşdı, xodunu yuxarı çəkdi. Sonra kilidli qapını açıb artırmadan həyətə endi, darvazanı açıb qonşudakı bacılığını bir neçə dəfə bərkdən çağırıb geri döndü. Yenə darvazanı və otaq qapısını kilidlədi, ancaq çırağın xodunu aşağı çəkməyi unutdu. Kiçik qardaşım yasdığından səngər qayırır, arxasına uzanıb guya tüfəng atırdı. Səsi evlə bir olardı. Mənim də lunatik olduğumu söylərdilər, gecələr otaqda gəzərmişəm. Bir gecə ayılıb gördüm masanın arxasında oturmuşam, əlimin biri mürəkkəb qabının yanında idi. Yenə bir gecə arxamda iri bir döşək apardığım yerdə ayıldım. Ayıldıqda insan utanır və qorxu da duyur, ayılan dəqiqələrdən əvvəl olanların da heç biri xatırımda olmur. Bu dəqiqələr cəld qaçıb, yatağıma soxulardım.

Evimiz alayarımçıq da olsa hazır idi, suvağı, tavanı və taxta döşəməsi yox idisə də, damcısı da yox idi, geniş idi. Daha bundan artıq ummaq olmazdı, çünki atam qocalmışdı, sənəti də qazanclı sənət deyildi. Yeni doktorlar və apteklər artdıqca nüsxəbəndlik dəbdən düşürdü. Bu əsnada qardaşım Əbülhəsən xəstələndi, boğazına iri bir fır[1] çıxdı. Həkimlərə göstərildi. Tiflisə getməsini məsləhət gördülər. Məktəbin köməyi ilə Tiflisə getdi, əlac olmadı. Geri döndü. Bir müddət sonra Kislovodska göndərdilər, yenə əlac olmadı. Bu dəfə Peterburqa getdi. Məktub aldıq, həkimlər vətəninə getməyi məsləhət görmüşdülər. Ümidimizi kəsdik.

Anam həyəcan içində qardaşımın yolunu gözləyirdi. Mən də onu qarşılamaq üçün darvazaya çıxdım. Bu əsnada məhəllə uşaqlarından

[1] İrinli yara, şiş

birisi keçirdi, sözləşdik, məni itələdi, ayağım daşa ilişib yıxıldım, o da mənim üstümə yıxıldı. Sağ ayağımda acı bir sancı duyaraq çığırdım. Qoluma girib qaldırdılar, qılçam sınmışdı, atam da xəstə qardaşımın qoluna girib gəlirdi. Darvazanı açıb bizi içəri götürdülər. Anam divara söykənib durmuşdu. Əbülhəsənin sönmüş çöhrəsini gördükdə, rəngi üzündən götürüldü, dırnaqlarını divarın daşlarına ilişdirərək bayğın bir halda qaldı. Üç yataq salındı – anam da qadın xəstəliyinə tutulmuşdu.

Xəstəliyim bir ay davam etdi. Hər gün sınıqçı gəlir, qılçamı sığallayıb, sümükləri yerinə salır, sonra bal yaxıb ətrafına qamışlar düzüb bağlayırdı. Cəhənnəmi əzablar çəkirdim. Anam da yataqdan qalxmış, lakin son dərəcə zəifləmişdi. Qardaşım yataqda idi. Ümidsiz bir xəstə də olsa, deyir, gülür, bəzən kart belə oynayırdı. Atam, təbii, bir həftə qalıb Ağdama dönmüşdü. Həyatımızı təmin etmək lazım idi. Novruz yetişdi. Hamımız bayram süfrəsinin ətrafına toplanmışdıq. Birdən Əbülhəsən dedi:

– Bir neçə gün sizə qonağam, gəlin görüşək.

Hamımız göz yaşları axıdaraq ona sarılıb öpdük. Özü də ağladı.

Dörd gün sonra – martın on üçündə 1901-ci ildə Əbülhəsən söndü.

"Xeyir-şər" otağımızda birinci şər məclisi quruldu.

Indi evin böyüyü mən idim. Qardaşımın kitabxanasının açarı mənə verildi. Rus və əcnəbi klassikləri ilə tanış olmağa başladım. Bayron və Lermontovu yaxın dost kimi qəbul etdim. Sanki həyat yenə yoluna girdi, əziz ölü də yaddan çıxdı, lakin ruhumdakı ahəng pozulmuşdu.

Dünyada haqq və ədalət olmasına inanırdım, bu inam anamın südü ilə bərabər bütün varlığıma yerləşmişdi. Indi bu inam şübhə ilə zəhərlənmişdi: ədalət varsa, iyirmi bir yaşında istedadlı bir gənc, yoxsul bir ailənin ümidi neçin sönürdü?

Qardaşımın ölümünə heç inana bilmirdim, mənə belə gəlirdi ki, o müvəqqəti olaraq uyuyur və bir gün qəbirdən durub, yenə bizi sevindirəcəkdir. Heyhat, həyat karvanı öz yolu ilə gedir, karvandan ayrı düşənlərin ahənglərini kimsə dinləmirdi. Təbiətin qanunu bu imiş.

Məktəb həyatı davam edirdi. Hər gün uzaq erməni məhəlləsinə getmək məcburiyyətində bulunurduq. Yalnız məktəb deyildi, bütün hökumət müəssisələri də orada idi. Poçta bir məktub vermək üçün də ora getməli idi.

Şəhər idarəsi bütün varidatını oraya sərf edirdi: küçələr daşlanmış, işığı bol, kitabxana və qiraətxanası, başqa mədəni müəssisələri vardı. Şəhər idarəsinə seçilmiş hacılar və kərbəlayılar savadsız olduqları üçün türk hissəsi xaraba halda idi. Küçələrin daşlanmaması, fənərlərin olmaması bir yana, lağımlar belə örtülməmişdi; kanalizasiya ermənitürk hüdudunda bitirdi. Türk hissəsinin abadanlığı yalnız Haşımbəyin şəhər idarəsinə seçilməsi və şəhərin övzanı "Kaspi" qəzetində təsvir etməsi ilə başladı.

Erməni-türk münasibətinə gəldikdə o zaman heç də kəskin bir məsələ deyildi. Geniş kütlə qardaşcasına yaşayır, ortada da heç bir münaqişəli məsələ yox idi: erməni əməkçiləri – dərzilər, bənnalar, dülgərlər... türk arasında işlərdilər, kirvəlik edərdilər. Geniş kütlə ermənіyə "dinayrı qardaş" deyərdi. Xalq məscid və kilsə ayrılığı ilə belə hesablaşmaq istəmirdi: türklərin nəzir eləyib, kilsə həyətində qurban kəsdiyini və ermənilərin türk pirinə şam gətirdiklərini çox görmüşəm.

Xalqın belə qardaşcasına yaşamasına baxmayaraq burjuaziya və ona nökərçilik edən ziyalılar "uzaq görmək" istədi. Tarixə dalaraq yekə- yekə ideyalar buldular, axırda qaş qayırdıqları halda göz tökdülər: çar məmurlarının təhriki ilə iki qonşu və tarix boyu dost yaşamış xalqı bir-biri ilə çarpışdırıb, gözəl şəhərimizi xaraba qoydular.

Məsələdən uzaq düşdüm. Qardaşımın kitabxanası əlimə keçdikdən sonra məndə ədəbiyyata və rəsmə böyük maraq oyandı. Boş vaxtlarımı rəsmə və ədəbiyyata həsr edirdim. Rusca yazdığım ilk şeirlərimi rus dili müəllimi Klemitə göstərdim. Müəllim şeirlərimi gözdən keçirib nədənsə mənə Çexovu oxumağı tövsiyə etdi. Çexov mənə olduqca şirin və duzlu gəldi. Lakin o zaman hekayə yazmaq fikrində deyildim, tərəddüd dövrü keçirirdim. Şuşanın sərt təbiəti: qara buludlardan tökülən yumurta kimi doluları, ilan kimi göydə qıvrılaraq, dəhşətli gurultu qoparan şimşəkləri, bir az sonra gözəl günəşi və bülbüllərin cəh-cəh vurması məndə dərin düşüncələr oyadırdı. Aydın gecələr artırmanın bir guşəsində tək oturaraq ən dərin sirləri bilmək istəyirdim. Çocuq gördüyü şeylər haqqında anasına sual verən kimi, mən də gənc dimağıma[1] min bir sual verirdim. Yalnız çocuqla mənim fərqim o idi ki, mən görmədiyim şeyləri öyrənmək istəyərək, xəyal quşunu Ay və ulduzların ötəki tərəfinə, əzəliyyətin dərinliklərinə

[1]Dimağ – beyin

doğru uçurdurdum. Lakin insan ağlının məhdudluğunu duyaraq zəfimdən[1] kədərlənirdim. Mənə belə gəlirdi ki, kainata hakim qəvi bir vəhdət var, insanlardan doğruluq, şəfqət və ibadət tələb edir. Inandığım bu mənəvi vəzifənin ifası üçün şəxsiyyətimin təmizliyinə çalışaraq, bütün səmimiyyətlə ibadətə sarıldım. Günəş çıxmadan qalxar, dəstəmaz alıb, namaza başlardım. Qışın çovğununda belə ərinməyərək adi su ilə yox, həyətdəki buzlu su ilə dəstəmaz alardım, ayazdan qolum çat-çat olub, qan axardı. Hər bir həyati çətinliyin həllini ibadətdəki göz yaşlarımda duyardım.

Bu ibadət dövrü iki il davam edə bildi. Sonralar yeni fəlsəfə, yeni yollar buldum.

Insanın ikinci bir vəzifəsi də olduğuna inanırdım. Mənə belə gəlirdi ki, təbiət hər bir insana bir vergi verir, həyatdan məqsəd bu vergini bulub, inkişaf etməkdir. Məndə də, insan olaraq, bir vergi olduğuna əmin idim. Yalnız bu vergini tapmalı idim. O zamandan başlayaraq özümün hər bir hərəkət və həvəsimi öyrənməyə başladım. Rəsm sahəsində müvəffəqiyyətlə çalışmağıma baxmayaraq, şəxsimin tədqiqinə davam edirdim. Bir gün güzgüyə baxarkən sağ gözümün ağında əmələ gəlmiş düzgün bir lira şəklinə rast gəldim. Bunu sirli bir əlamət kimi qəbul edərək sakit oldum... Artıq böyümüşdüm, bığ yerim tərləmişdi. Atamın əvəzinə xeyrə-şərə gedirəm, mənimlə hesablaşırlar, bir yerdə xeyir-dua, o biri yerdə başsağlığı verirəm. Məclislərin də qaydasını öyrənmişdim. O vaxt tacir balaları sıra ilə gecədə birinin evinə toplanıb vaxt keçirirdilər: buna "sirən" deyərdilər. Bibioğlumun birinin vasitəsilə mən də sirən məclisinə daxil oldum. Bu məclislər çox əyləncəli idi, ancaq yalnız kişilər iştirak edirdilər. Çərəz qoyulardı, çərəzlə bərabər dadlı söhbətlər olardı. Bəzən peşmək çəkərdilər. Şəhərin dadlı-duzlu adamlarını çağırardılar. Bir axşam bir molla çağırmışdılar, bütün gecəni əxlaqsız anekdotlar söylədi. Mollanın avam aldadan zahirlərindən başqa, bir də iç üzləri olduğunu onda görmüşdüm. Bir gecə məclis "tutmadı", adam göndərib Qurdlar məhəlləsindən Mirzə Əliyar adlı birisini gətirdilər. Bu adam erməni kəndlərini dolaşıb erməni arvadlarına dua yazarmış və cindarlıq edərmiş. Mirzə Əliyar kəndlərdəki hədsiz-hesabsız macəralarını anlatdıqdan sonra, bizə

[1]Zəf - zəiflik, gücsüzlük

bəzi oyunlar göstərdi. Bir ləyənə su töküb, üstünə dəsmal saldı, sonra cinləri çağırmağa başladı: "Bağdasan gəl, dağdasan gəl, köhnə hamamdan, xarabalardan gəl...". Ləyəndə cığıltı qopdu. Dəsmalı darta saxlayıb, üstünə bir stəkan qoydu və:

– Cinlər stəkanı kimin tərəfinə atsın? – deyə soruşdu. Birisi "mənim tərəfimə" dedi. Stəkan atılıb onun qabağına düşdü. "Cinlərin" özünü görmək istədik. Oğlanmı, yoxsa qızmı istədiyimizi soruşdu.

"Qız" dedik. Dəsmalın bir tərəfini qaldırdı – alma böyüklükdə iki başın arxa tərəfi görünürdü. Əlini salıb, qızların hörülmüş xırda saçlarını da sudan çıxardı. Sonra dəsmalı saldı. "Azadsınız" dedikdə ləyəndən şən səslər və qəhqəhələr eşidildi.

Bu sirəncilər əylənmək üçün nələr yapmazdılar. Şəhərdə Manca Zöhrə adlı bir arvad vardı. Bunun oğlu Təbrizə gedib-gələr, yaxşı pul qazanardı, amma evlənməyə cəsarəti yox idi, anası isə gəlin həsrətində çırpınırdı. Bir gün gənclər yığışıb Zöhrə arvadın yanına gedir və oğluna qız tapdıqlarını söyləyirlər. Arvadla oğlu çox sevinir və toya başlayırlar. Toy gecəsi bir oğlana qadın paltarı geydirib bəzəyirlər və cehiz əvəzinə də saman doldurulmuş məfrəşləri qatırlara yükləyib, musiqi çala-çala aparırlar. "Gəlinin" ayağının altında qurban kəsilir.

Sonra kişi gəlin otağına girib "gəlinin" duvağını qaldırdıqda acı zarafatı duyur.

Bir mollanın babasının ləqəbi "keçi" olduğu üçün "keçi" sözündən çox pərt olardı. Bir axşam sirəncilər dəstəsi gəlib bunlara çıxır. Molla bu ziyarətdən son dərəcə məmnun olaraq, çay qoydurur və kəllayi daha da işıq olsun deyə bir neçə də çıraq yandırır. Bir az sonra gənclərdən birisi ifrat işıq olduğunu bildirib, çırağın birini söndürmək istəyir.

O birilər etiraz edərək:

– Keçi – məə – deyə keçi kimi bəyirməyə başlayırlar, molla pərt olur...

Bir gün yenə sirəndə gənclər söz qoyurlar ki, bir müddət azsınlar. "Yolu azan" təbiidir ki, evlərinə gəlib çıxa bilməz. Kimsəyə xəbər vermədən hərəsi çıxıb, başqa şəhərə gedir. Içlərində biri azmağa yer tapmadığı üçün qərarlaşdırılan vaxta qədər Şuşada iki məhəllə arasında dolaşmağa başlayır. Bunu çox axtarırlar, axırda gəlib tapırlar:

– Niyə evə gəlmirsən, neçə gündür səni axtarırıq? – dedikdə evə dönmək istəmir:

– Gedin, azmışam, – deyə cavab verir.

Tacir balalarının sirənləri olduğu kimi, şairlərin də məclisləri vardı. Gündüzlər bunlar Mir Möhsün Nəvvabın yuxarı məscidin hücrəsindəki güllü-çiçəkli mənzilinə yığılardılar. Xan Qaradağı, Növrəs, Məmayi, Baki, Alı yüzbaşı oğlu Həsən Nəvvabın başına toplanan "Beytül xamuşan" üzvlərindən idi. Bundan başqa bir çox şair, oxuyan və çalanlar da şairə Xurşud Banu Natəvanın ətrafına yığılarlarmış. Bu da "Məclisi-üns" adlanardı. Böyük qardaşım Natəvanla görüşdüyünü söylərdi, heyf mən onu görə bilmədim. Şair Ibrahim Tahir Nəvvab qrupuna daxil deyildi. O fərdi həyat sürərək, həcvləri ilə hər kəsi oxlardı.

Teatr xadimləri Əbdürrəhimbəy Haqverdiyev, Haşımbəy Vəzirov, Məmmədhəsənbəy Mirzəcamalov, vəkil Həsənəlibəy də ayrıca bir dəstə təşkil edərdilər[1].

Şuşa məclislərində incə zarafat, lətifəçilik, hazırçavablıq olduqça inkişaf etmişdi. Mayor Əbdürrəhimbəy, Səfibəy, Alı yüzbaşı, Dəli Xudubəy, Allahverənli Kalba Şirin kimi adamların söyləmiş olduqları lətifələr yalnız Şuşada deyil, Azərbaycanın hər guşəsində söylənir. Bunların çoxu ictimai xarakter daşıyır. Əbdürrəhimbəy Vəzirov vaxtı ilə çarın xas[2] alayına mənsub olaraq 1877-78-də baş vermiş rus-osmanlı müharibəsində iştirak etmiş və bir Vladimir xaçı da almışdı. Mən görən vaxtlar istefada idi və Vladimir nişanına məxsus olaraq ildə on manat təqaüd alırdı... Bütün gəliri bu idi. Il uzunu dəftərxanalarda ayaq döyüb, yer axtarar, tapa bilməzdi. Bir neçə ay şəhər naçalnikinin yanına gedir, hər dəfə naçalnik onun adını eşidəndə deyir sabah gəlsin. Bu "zavtra"lar Əbdürrəhimbəyi təngə gətirir. Axırda bir də gedir və "zavtra" sözünü yenə eşidər-eşitməz çıxıb dəftərxananın qabağında havaya bir güllə atır. Bunu tutub naçalnikin yanına aparırlar, naçalnik güllənin səbəbini soruşanda Əbdürrəhimbəy deyir:

"Zavtra"nı öldürdüm, artıq "zavtra" yoxdur. Əbdürrəhimbəy yer üçün Gəncəyə, qubernator Naqaşidzenin yanına gedir. Vizit kartını göndərir, vali onu qəbul etmir. Dəfələrlə gedir, qəbul olunmur, nəha-

[1] 1 Həsənəlibəy Hacı rolunu, Məmmədhəsənbəy də Yaqo rolunu gözəl oynardılar (müəllif).

[2] 2 Xüsusi

yət vizit kartına “Veziridze” yazıb göndərir, vali o saat onu yanına çağırır. Soruşur ki, familin nədir: deyir “Vəzirov”. Naqaşidze heyrətlə:

– Bəs Veziridze neçin?

Əbdürrəhimbəy:

– Başqa əlacım qalmamışdı, – deyir.

Naqaşidze qulluq verməmək üçün bəhanə axtararaq:

– Axı sən qocasan, qulluq nəyinə lazımdır?

Əbdürrəhimbəy:

– Zati-dövlətləri, – deyir, – mən qulluq üçün ərizə verəndə cavan idim.

Bir gün Əbdürrəhimbəy təziyə məclisinə düşür. Görür mollalar daşların Xorasana ziyarətə getməsindən danışırlar – biri daşa dair ayə nazil olduğunu, o biri hədis və rəvayətləri anladır, bir ayrısı da daşın yeridiyini öz gözü ilə gördüyünü söyləyirmiş. Əbdürrəhimbəy bu söhbətlərə qulaq asıb deyir:

– A qardaşlar, mən ərəbcə və farsca bilmirəm, ancaq türkdə bir məsəl var, deyərlər:

“Eşşəkqulaq, qabanbaş?

Heç görmüsən yeriyə daş?”

Əbdürrəhimbəy babadan qalma evi qardaşı ilə bölüşüb, alt mərtəbəsini mözünə götürmüş, üst qatını da qardaşına vermişdi. Bir gün qardaşı aşağıdan tappıltı gəldiyini eşidib enir, görür Əbdürrəhimbəy divarı. külünglə sökür.

– Nə qayırırsan, ev uçar? – deyə bağırtı salır.

Əbdürrəhimbəy deyir:

– Alt mərtəbə mənim deyilmi? Pulum yoxdur, söküb daş-taxtasını satmaq istəyirəm.

Qardaşı məsələni duyub, Əbdürrəhimbəyə pul verib razı salır.

Bir gün Əbdürrəhimbəyin qardaşı xəstələnir, Əbdürrəhimbəyə deyir:

– Get həkimə de, bir dava versin.

Əbdürrəhimbəy:

– Nəyi deyim, həkim özü gəlməlidir.

– Gəlməsi lazım deyil. De ki, dili ağzında şişib badımcana dönüb, burnu xiyar kimidir, qulaqları kələm yarpağı kimi sallanır.

Əbdürrəhimbəy onun sözünü kəsərək:

– Bildim, deyərəm bostan olub...

Xoş havalarda zəriflər[1] Divanxana qabağına toplaşardılar. Bir gün orada dil məsələsi mövzuyi-bəhs olur. Əbdürrəhimbəy deyir:

– Mən heç rusun "prişol"u ilə "priyexal"ının mənasını anlamadım. Hamısına prişol desinlər, canımız qurtarsın.

Əbdürrəhimbəyin qardaşı məsələni anlayaraq deyir:

– "Prişol" ayaqla gəlməyə, "priyexal" isə eşşək də, atda və arabada kəlməyə deyirlər.

Bu halda Əbdürrəhimbəyin gözləri eşşək üstə gələn bir kəndliyə sataşır. Kəndlinin ayaqları o qədər uzun imiş ki, yerlə sürünürmüş və yeriməsi ilə eşşəyə minməsi bəlli deyilmiş. Əbdürrəhimbəy kəndlini qardaşına göstərib soruşur:

– Indi buna mən "prişol" deyim, yoxsa "priyexal"?

– Zəriflərdən biri də Xudubəy idi. O deyərdi: "Bağ var tumana salarlar, bağ var meyvəsini yeyərlər".

Xudubəyin bu sözləri məsəl olub qalmışdır. Xudubəydən iki məsəl də söylərlər. Onun bol siçanlı bir papaqçı dükanı varmış. Dükan yanır. Qonşuları buna təsəlli verdikdə deyir: "Dükan yandısa, siçan da yandı".

Bir məclisdə xanəndə səsini açmaq üçün yumurta istəyir. Xudubəy deyir: "Yumurta səs açsaydı, toyuğun arxası şahnaz çalardı".

Bir gün Xudubəy məclisdə plov yeyərkən xörək qabından əlinə bir aşıq keçir. Aşığı yuxarı başda oturan mollaya göstərib deyir:

– Ağa, bu nədir?

– Aşığdır.

– Göydən Ismayıl peyğəmbərə gələn qoçun da aşığı vardımı?

Molla:

– Yəqin varmış, – deyir.

Xudubəy cavabında:

– Aşıq ki, göydən gəlmiş, bəs niyə aşıq oyununu haram hesab edirsiniz?

– deyir.

Bir gün Xudubəy qonşu həyətində ağacdan qoz salıb sındırırmış.

Bu əsnada həyət sahibi olan müəllim gəlib çıxır. Xudubəy özünü itirməyərək deyir:

1 Zərif – zarafatçı, incə, qəşəng, məzəli danışan, xoşsöhbət adam

– Müəllim, bəs deyirsən əz-dən dən çıxar[1], sabahdan bəri qozları əzirəm, heç dən çıxmır...

Xudubəy məclisdə mollaların mövhum məsələlər üstə münaqişə etdiklərini görüb sual verir:

– Ağa, – deyir, – niyə xoruz həmişə ayağının birini qarnına çəkir?

Molla cavab verə bilmir. Xudubəy:

– Çünki, – deyir, – xoruz ayağının ikisini də qarnına çəksə yıxılar.

Şuşa zəriflərindən biri də Səfibəy olmuşdur. Səfibəy uzunpapaq, çuxasının qolları arxadan sallanan, sallaq ağ bığlı bir qoca idi. 1863-64-cü illərdə Polşada baş vermiş üsyanı yatırmaq üçün Qafqazdan aparılan bəylər arasında Səfibəy də varmış. Mən görən vaxtlar Səfibəy həyətinin aşağısındakı dərədə kələm əkərdi. Dərənin bir tərəfində də Anaxanım adlı bir qadın kələm əkər və ortalıqda olan tikan çəpəri irəli itələyib, Səfibəyin torpağını qəsb elədiyi üçün aralarında həmişə sərhəd davası olardı.

Nikolay taxta çıxanda Şuşada Divanxana qabağında qoşun rəsm – keçid yapırmış. Bütün generallar və zabitlər rəsmi libasda gəlmişlər.

Səfibəy də uniformasını geyib, Polşada aldığı nişanları da döşünə taxıb gedir. Orada köhnə yoldaşlarına rast gəlib birindən:

– Sən nə olmusan? – deyə soruşur.

– General-mayor.

Səfibəy o birisinə yanaşıb soruşur.

– Bəs sən nə olmusan?

– Infanteriya[2] generalı...

Onlar da Səfibəyə müraciət edərək:

– Sən nə olmusan? – deyə soruşduqda, Səfibəy kədərlə deyir:

– Mən də dərədə kələm əkirəm, onun da üstündə gündə Anaxanımla davadır.

Səfibəy mollaya rast gəlir. Molla deyir:

– O, Səfibəy, heç məscidə gəlmirsən, qocalmısan axı, heç olmasa indi gəlməlisən.

Səfibəy boyun qaçıraraq:

– Yox, – deyir, – indi getsəm, Allah deməzmi a qurumsaq, bəs doxsan ildir harada idin?

Bir axşam kənddə Səfibəy qaçağa rast gəlir. Qaçaq tüfəngini düzəldib deyir:

– Tərpənmə.

[1] 1 Məsələn: əz xanə – evdən deməkdir. Müəllimlər bu zərfi qaydaya əz-dən dən çıxar deyərdilər (müəllif)

[2] Piyada

Səfibəyin əlində bir ağac varmış, bu da qaranlıqda ağacı tüfəng kimi düzəldib bağırır:

– Sən də tərpənmə, sənnən mənim aramda tərpənən çox pis adamdır.

Səfibəy Alı yüzbaşı ilə qonşu idi. Küçədə iki evin arasında bir səki vardı. Alı yüzbaşı ilə Səfibəy burada yan-yana otururaq bütün günü yalan söyləyib əylənərmişlər. Alı yüzbaşı deyir:

– Səfibəy, sən öl bir keçim vardı, həyətdə saxlardım. Qar yağırdı.

Qar yağdıqca keçi qarın üstə çıxırdı. Axırda qar o qədər ucalmışdı ki, keçinin buynuzları Ülkər ulduzuna dəyirdi.

Səfibəy cavabında:

– Alı, sən öl, Ağdamdan gəlirdim, bir ilana rast gəldim, yol getdikcə ilan uzanırdı. Şuşaya çatmağa az qalmışdı, amma, sən öl, hələ ilanın başı görükmürdü.

Alı yüzbaşı əlini boğazına ataraq:

– Səfibəy, mən ölüm, bir az gödəlt, – deyir.

Səfibəy cavabında:

– Alı, sən öl, keçi göydən yerə düşməsə, ilan gödəlməyəcək,

– deyir.

Səfibəy Varşavadan çin və nişanla döndükdə bütün şəhər onun ziyarətinə gedir. Alı yüzbaşı da köhnə dostunun görüşünə gəlmiş imiş, görür ki, Səfibəy döşək üstə deyil, kürsü üstə oturub, üstdən aşağı lovğa-lovğa danışır. Alı yüzbaşı Səfibəyin hərbi libasına baxıb, qorxaqorxa:

– Səfibəy, bu nə büsatdır? – deyə soruşur.

Səfibəy dostuna məhəl qoymayaraq ağızucu:

– Vayennidir, – deyir.

Alı yüzbaşı Səfibəyin lovğalığından pərt olaraq evinə gəlir. Eşşək tapır, qırmızı şilə ilə eşşəyi bəzəyib, darvazanın dalında gözləyir. Səfibəy evindən dışarı çıxar-çıxmaz Alı yüzbaşı eşşəyi itələyib, küçəyə salır. Səfibəy eşşəyi süzərək soruşur:

– Alı, bu nə büsatdır?

Alı yüzbaşı:

– Vayennidir, – deyə cavab verir.

Səfibəy məsələni anlayıb, Alı yüzbaşı ilə təzədən dost olur.

Allahverənli Kalba Şirin də hazırcavablığı və lətifələri ilə məşhur idi. Şuşada Məmiqoca adlı iri gövdəli, yekə bığlı bir adam var idi. Bu, zahirinə baxmayaraq, şəhərin ən qorxaq adamlarından idi. Çocuqlardan belə qorxardı. Lakin məhərrəmlikdə aşura günü əlinə qılınc alıb, Şümürü və Yezidi hədələyərək zikr deyərdi. Bir gün Kalba Şirin Məmiqocanı belə bir "cəngavər" vəziyyətdə görür. Məmiqoca qılıncı havada oynadaraq oxuyurmuş:

"Kərbəlada olmadıq. Şümrü sənani öldürək.

Parə-parə eyləyək övladi-peyğəmbər qanlısın..."

Kalba Şirin baxıb deyir:

– Kül başına Şümür, gör nə günə qalmısan ki, Məmiqoca da səni hədələyir.

Kalba Şirinin bu sözləri məsəl olaraq qalmışdır.

Bir gün Kalba Şirinin birisi ilə sözü çəp gəlir, ikisi də xəncəri çıxarıb hücuma hazırlanır. Birdən Kalba Şirin qarşısındakından soruşur:

– Külfətin varmı?

Deyir:

– Var.

Kalba Şirin cavabında:

– Mənimki də var – xəncəri qoy qınına.

Barışıb ayrılırlar.

* * *

Kalba Şirinin atı oğurlanır. Atı axtara – axtara gedib qala qapısına çıxır. Orada birisinə rast gəlib atının nişanələrini söyləyir, soruşur:

– Belə bir at görmədin ki?

– Gördüm, odu birisi aparır, aşağı ensən tutarsan.

Kalba Şirin:

– Atı aparan nə təhər adam idi? – deyir.

– Nazikbığ bir adam idi.

Kalba Şirin cavabında:

– Yekəbığ olsaydı, gedərdim, nazikbığda xata olar, – deyib qayıdır.

* * *

Kalba Şirinin bir curu varmış, həmişə onunla zarafatlaşarmış. Aralarındakı qayda belə imiş: Kalba Şirin zarafata başlayanda, curu mütləq cavab verərmiş. Bir gün Kalba Şirin curunun Bazar başında fayto-

na minib səfərə çıxdığını görür. Yaxınlaşıb zarafata başlayır. Curu qulaq asıb, cavab vermir və faytonu sürdürüb, yola çıxır. Kalba Şirin də bir fayton tutub, onun dalınca gedir. Gəlib, Ağdama çıxırlar. Kalba Şirin yenə yoldaşına yaxınlaşıb cavab istəyir. Müvəffəq olmur. Yoldaşı faytona minib, Yevlaxa gedir, Kalba Şirin də onun dalınca. Yezlaxda da Kalba Şirin cavab ala bilmir. Qatara minib Gəncəyə gedirlər. Gəncədə Kalba Şirinin yoldaşı zarafatın cavabını verir.

Kalba Şirin:

– Ay zalım, – deyir, – bu cavabı Şuşada versəydin, mən də bu qədər xərcə düşməzdim.

* * *

Kalba Şirin gəmidə ziyarətdən dönürmüş. Dənizdə fırtına başlayır. Gəminin təhlükəli vəziyyətini görən miniklər dua-niyaza başlayırlar, seyidlərə nəzir vəd edirlər. Kalba Şirin gəminin üstündə laqeyd bir halda gəzinirmiş. Camaat buna heyrət edib deyir:

– Ay Kalba Şirin, gəmi batır, bir sən də əlini göyə qaldır, dua elə, bəlkə sənin duanı allah eşidə.

Kalba Şirin əlini qaldırıb deyir:

– Allah, bizi bu qorxudan qurtar. Bakıya salamat çıxaq, seyidlərə on manat verim.

Gəmi gəlib Bakıya çıxır. Miniklər kənara çıxan kimi seyidlərə nəzir paylamağa başlayırlar. Kalba Şirin vəd etdiyi nəziri vermir. Yoldaşları səbəbini soruşduqda deyir:

– Mən dua eləyəndə allaha göz vurmuşdum ki, seyidə bir qəpik də verməyəcəyəm.

Kalba Şirinin ölümü də məzəli olmuşdur. Xəstə imiş, onu yoluxmağa bir çox adam gəlmişmiş. Kalba Şirin qonaqlara deyir:

– Durun otaqdan çıxın, yanıma gələn var.

* * *

Hamı otağı tərk edir. Yarım saatdan sonra dönüb görürlər ölmüşdür.

Rus-yapon müharibəsi başlandı. O zamana qədər tanınmayan kiçicik Yaponiyanın böyük Rusiyaya qələbə çalması xalqa böyük təsir bağışlayırdı. Yaponiyanın qələbəsi fənnin və texnikanın əhəmiyyətini göstərirdi. Bunu xalq anlayaraq köhnə söhbətləri buraxıb, siyasətə qapılmağa başladı. Yapon müharibəsindən əvvəl bəzi ziyalılara Krımda

çıxan “Tərcüman”, Istambul qəzet və jurnalları gəlirdi. Bir-iki adam da Misirdə nəşr olunan “Türk” qəzeti gətirdirdi. Qafqazda türk mətbuatı yox idi, çar hakimiyyəti müsaidə etmirdi. Nəhayət, inqilab hərəkatı nəticəsində Məhəmməd ağa Şaxtaxtinski Tiflisdə gündəlik “Şərqi-rus” qəzetini çıxarmağa müvəffəq oldu. Şuşada indi ən çox oxunan “Şərqirus” la Bakıda çıxan rusca “Kaspi” idi. “Kaspi”də Əhmədbəy Ağayevlə bərabər, başqa türk mühərrirləri də iştirak edirdi.

Inqilab hərəkatı getdikcə alovlanır, üsyan və tətil Rusiyanı başdan- başa sarsıdırdı. Məktəbdə gizli olaraq intibahnamələr paylanır, oxuyub coşurduq. Bir gün bir erməni yoldaşın evində iclas oldu. Türklərdən mənimlə Mirhəsən Vəzirov[1] çağırılmışdı. Tətil etmək qərara alındı. O biri gün məktəbdə dərsləri yarımçıq kəsib koridorlara çıxdıq. Marselyoza oxundu. Şur bizi tutub bir çox da şüşə sındırdıq. Özümüzlə lax yumurtalar gətirmişdik, konservator[2] müəllimlərin başlarına vururduq.

Inqilab ruhlu müəllimləri hörmətlə müəllim otağına apardıq, tələbələrlə fəna rəftar edənlərin çoxları pəncərələrdən atılıb qaçmışdılar. Sabiq feldfebeldən[3] biri mübəssir[4] vəzifəsində idi, bu bizi çubuqla döyərdi, ilk əvvəl onu axtardıq, ələ keçmədi. Buraxıb qaçdığı kürkünü götürüb, acığımızdan cırıq-cırıq elədik.

Bir bölük soldat gəlib məktəbi dövrəyə almışdı, buna baxmayaraq mitinq yapıb tələblərimizi məktəb müdiriyyətinə təqdim etdik.

Tətilə cavab olaraq məktəbi bağladılar. Bu qərardan məmnun qalmayan bəylər və rus məmurları balalarının tətildə iştirak etmədiklərini irəli sürüb məktəbin açılmasına dair ərizə verdilər. Bizi təkrar məktəbə yığdılar, bir-bir rəyimizi sordular, yenə tələblərimiz yerinə yetməsə, dərsə girişməyəcəyimizi qəti olaraq bildirib məktəbi tərk etdik. Oxumaq istəyən əqəliyyətdə qaldığı üçün məktəbi açmadılar. Buna baxmayaraq bəylər israrlarında davam edir, türklərin çara sadiq olmalarını irəli sürürdülər. Bir gün Qarabağ xanlarından Cavad ağa türk tələbələrini evinə çağırdı. Ora gedərkən Mirhəsən yolda mənə dedi:

– Qapını həmişə Cavad ağanın oğlu Kikil ağa açır. Kikil ağa acıqlı olsa, bil ki, Cavad ağa da bizə qarşı acıqlıdır.

[1] 1918-ci ildə 26-lar sırasında öldürülmüşdür. Mirhəsənlə Şuşada “Fokusnik”adlı əllə yazma jurnal çıxarırdıq, rəsmlərini də mən çəkərdim (müəllif)

[2] 2 Yeniliyə zidd adam

[3] 3 Hərbi çin

[4] 4 Baxıcı, nəzarətçi

Doğrudan da Kikil ağa acıqlı idi. Içəri girdik, oradakı ağalar və bəylər də bizi kinlə qarşıladılar. Bir zadəgan mitinqi də burada başlandı. Müsəlmanların ənənəvi sədaqət və übudiyyətində[1] padşahın "şəfqət və ədalətinə" dair havalar çalıb bizi yolumuzdan daşındırmaq istədilər. Axırda Mirhəsən tətili davam etdirəcəyini qəti olaraq bildirdi, mən də eyni fikri ifadə edib, məclisi tərk etdik. O gündən etibarən bəylər bizə düşmən oldular.

Bir neçə ay davam edən tətil zamanı boş vaxtımızı ictimai işlərə sərf etdik: türk hissəsində qiraətxana, kitabxana, teatr təşkil etdik. Mövqufatı[2] öz xüsusi əmlakına çevirmiş mollalarla çarpışaraq aşağı məsciddə özümüzə bir hücrə alıb, müəllim tutduq, türkcə savadımızı

1905-ci il inqilabı bütün türklər üçün intibah dövrü oldu. Bakıda türkcə qəzetlər çıxır, hər yerdə cəmiyyətlər, məktəblər açılırdı, türk işçiləri də inqilaba sarılmağa başlamışdı.

Bu yeniliklər bizi sevindirir, çar məmurlarını da əndişəyə salırdı. Şeytənət[3] toxumu səpilməyə başladı. Bunun nəticəsi olaraq Bakıda milli çarpışma baş verdi. Bu acı hadisə haman hər yerə əks etdi. 1905-ci ilin yayında Şuşada vuruşma düşdü. Polis və hökumət əsgərləri bu düşmənçiliyə qarşı laqeyd qaldığı üçün xalq bir-birini qırıb, bir çox evlər yıxdıqdan sonra barışdılar. Bu axmaq düşmənçiliyin nəticəsində əldə nə edildi? Iki tərəf də xaraba məhəllələr, ölü, yaralılar və yetim qalmış çocuqlardan başqa bir şey qazanmadı. Türk hissəsində xəstəxana olmadığı üçün doktor Kərimbəy Mehmandarovun təşəbbüsü ilə xəstəxana açılıb, türk yaralılarını oraya topladılar. Yetimlərə məktəb açmağı da Kərimbəy mənimlə bir yoldaşıma tapşırdı. Məktəb təşkil edib, dərsə başladıq.

Iki aylıq mühasirədən sonra hökumət qoşunu gəlib, Əsgəranı topladı, yol açıldı. Bakıdan göndərilən ianə unları şəhərə gəlib camaatı aclıqdan qurtardı. Barışıq olar-olmaz türk hissəsinə ilk gələn erməni sənətkarları və yoxsulları oldu. Bunlar həyatlarını türk arasında işləyərək təmin edirdilər. Bəlli oldu ki, türk yoxsulu kimi, erməni yoxsulu da ac imiş, erməni-türk düşmənçiliyini körükləyən burjuaziya isə çox gözəlcə yaşayırmış.

[1] Übudiyyət – bəndəlik, köləlik, qul olma
[2] Mövqufat – vəqf edilmiş şeylər, mal, mülk və s. artırmağa çalışdıq.
[3] 3 Şeytanlıq, hiylə, fitnə-fəsad

Şəhərin təhlükəli vəziyyətindən doğan aclığa bir də ailə aclığı əlavə olundu: atam xəstələnib Ağdamdan gəldi. “Atam xəstələnərsə, necə olacaq?..” – deyə illərdən bəri məni həyəcanlandıran qorxu bu gün bir əmr-vaqe olmuşdu. Atam qoca olduğu üçün tez-tez xəstələnərdi və xəstə olduğu zaman, bir fars məcmuəmiz vardı onu açdırar və çox sevdiyi bir şeri oxutdurardı. “Atəşi mibinəm, ey yaran, zi dur[1]...”
– deyə başlanan beytlər oxunurkən atam ağlar, xəstəliyi yüngüllənərdi. Bu dəfə xəstəliyi o qədər ağır idi ki, sevdiyi şeir belə yadına düşmürdü.

1906-cı il fevralın 20-də atam vəfat etdi.

“Xeyir-şər” otağında ikinci şər məclisi quruldu.

Anam, kiçik bacım və qardaşımdan ibarət bir ailə himayəmə keçdi.

Özüm də beşinci sinifdə ikən məktəbdən məhrum olmuş bir gənc, həyati təcrübəm yox, pulum yox. Çıxılmaz bir vəziyyətə düşərək, bədbin və hövsələsiz idim. Anam mənə ürək-dirək verirdi, “allah kərimdir” – deyirdisə də, bu sözlərdən daha da acıqlanırdım.

İlk əvvəl Ağdamdakı dükanı satmalı idim. Bazarın başına getdim, iki boş neft fıçı[2] yüklənmiş bir ağ araba gedirdi, altı şahı verib mindim. Araba getdikcə fıçılar atılıb düşür, fəna qoxu başımı gicəlləndirirdi. Düşüb piyada getməkdən başqa çarəm yox idi. Yol uzunu yandırılmış evlərə, karvansaralara tamaşa edirdim, canavara dönmüş insanlar abadanlıqları kor qoymuşdu. Bütün günü yol gəlib, axşamçağı Ağdama çatdıq. Bir-iki gün qalıb, dükana müştəri axtardığım halda, xəstələnib Muradbəylidə yaşayan bibimin evinə getdim. Iki ay yatalaqdan yatdım. Özümü bilmirdim, hərdən bir-iki dəqiqəliyə ayılıb ətrafı süzür, təkrar böhdə gedirdim. Bir gün soyuq havada bağların arasında kəndlilərlə əlləşdiyimi duydum, yataqdan qaçmış imişəm. Dalğın zamanlar gözümə qəribə şeylər görünürdü: divlər məni təpiklə vurub, un çuvalına soxurdular, nimçədə mənə qarpız gətirilirdi, anam ağacın budağında oturub məni çağırırdı, getmək istədikdə, buraxmırdılar... Iki aydan sonra məni şəhərə gedənin birisinə qoşub, evimizə göndərmişdilər. Sonralar eşitdiyimə görə, bibim sağalacağımdan ümidini kəsib məni Şuşaya ölmək üçün göndərirmiş. Anamın məni necə qarşıladığını xatırlamıram, ancaq indi tez-tez ayılır, ətrafımdakıları tutqun

[1] Uzaqdan, ey dostlar, atəş görürəm.
[2] Boçka

da olsa sezirdim. Üç ay da yataqda qaldım, anam yasdığımın yanını kəsdirib, mənə baxır, məni bəsləyirdi. Bir gün yeməyimi verib, yarım saatlığa getdi, mən də yuxuladım. Yuxuda gördüm ki, artırmamızda bir çıraq var, kim isə mənə dedi, bu çıraq üç idi, ikisi sındı. Bu sözləri eşidər-eşitməz o bir dənə çıraq da düşüb sındı. Ayıldım. Anam gəlmişdi.
Yuxumu ona anlatdım, bir söz demədi.

Bir müddət sonra yaxşılaşıb artırmaya çıxmışdım. Anam yanımda idi, dedi:

– Bir ay əvvəl gördüyün yuxu yadındadırmı? O günü dayın öldü, mən də yarım saatlığa onun təziyəsinə getmişdim. Bir çırağımız qalmışdı, o da söndü.

Deməli babamın son oğlu da ölmüşdü. Anam məni rahatsız etməmək üçün xəbəri sezdirmir, acı kədərini susdururmuş.

Çox zəif olduğum üçün gündə bir saat gəzib, evə dönür və artırmada otururdum. Bu artırmada nələr düşünməzdim. Əlifbamızın qüsurlarını duyaraq iyirmi doqquz yeni hərf icad etmiş, bunun ətrafında çalışırdım, yeni-yeni rəsm mövzuları arayırdım... Xəstəliyim getdikcə yaxşılaşırdısa da, özümdə təqib olunmaq maniyası duyurdum, mənə belə gəlirdi ki, məni nə üçün isə öldürmək istəyirlər. Bu vasvasılıq mənə rahatlıq vermirdi. Bir gəzməkdən dönərkən dərəqıraqlı bir sərsəriyə rast gəldim. Üzünə baxar-baxmaz: "Bu adam məni öldürəcək" deyə başımda bir fikir doğdu. Ehtiyatla evə döndüm. Anamın israrına baxmayaraq on gün evdən çölə çıxmadım. Bir də atışma başladı... General Qalaşsapov da kazakları ilə bərabər daşnaqlara kömək edirdi. Top və tüfəng səsindən qulaq tutulur, yanan məhəllələrin işığında gecələr iynə saplanılır... Bu dəhşətlər arasında hər şeylə bərabər vasvasılığımı da unutdum.

Bir çox adam qırıb, ev yandırdıqdan sonra yenə sülh oldu, yenə riyakar andlar içildi, keşiş məscidə, molla kilsəyə gedib, əməkçiləri yalan sözlərlə uyudub dağıldılar. Doktor Kərimbəy Mehmandarov bir xəstəxana təşkil edib, türk yaralılarına müalicəyə başladı, tələbələri də xəstəxanaya işləməyə çağırdı. Evi tərk edərkən yenə vasvasılıqdan həyəcanlanmağa başladım, dərəqıraqlının sərt siması gözlərimin qabağından çəkilmirdi. Istər-istəməz məndə bir arzu əmələ gəldi: Dərəqıraqlı heç olmasa, yüngül yaralanaydı, ona xəstəxanada qulluq edəydim, mənə dəyməyəydi...

Xəstəxanada əynimə ağ don geyib, birinci yaralılar otağına girdikdə... dərəqıraqlını yataqda gördüm. Gözünün biri bağlı idi.

Sevinc içində ona yanaşıb dedim:

– Gözünə nə oldu? Qorxma yaxşı elərik.

Dərəqıraqlı gülümsünərək dərdini anlatdı: dumdum gülləsinin qabığı qopub, sol gözünün üstünə girmişdi...

Artıq bu adam məni öldürməyəcək, – deyə nə qədər sevinmişdim...

Payız düşür. Duman ətrafı bürümüş. Sarıya və qırmızıya donanmış[1] ağaclar kədər saçır. Varlı türk tələbələri çəkilib o biri şəhərlərə getmiş, yalnız yoxsul balaları köçdən ayrı düşmüş quşlar kimi çırpınırdı. Təhsilimizi tamamlamalı idik, oxumaq həvəsi bizi sarsıdırdı.

Bakıdakı yoldaşlarımdan birinə məktub göndərib, vəziyyətimi anlatdım.

Neçə gün keçməmiş bir teleqram alıram: "Kərimbəydən 20 manat yol xərci al, gəl".

Bakıya deyil, mənim üçün yeni başlayan elm və mədəniyyət aləminə gedirdim...

Nə sevincli dəqiqələr idi!

11 fevral 1936-cı il

[1] Donanmaq – boyanmaq, bəzənmək

ANA VƏ ANALIQ

BİR NEÇƏ SÖZ

Dörd-beş il var ki, arvad məsələsinə dair məlumat toplamaqdayam. Bunun nəticəsi olaraq "Arvadlarımızın halı", "Qanlı göz yaşları" və arvadların ağır vəziyyətini təsvir edən bir neçə hekayə qələmə almağa müvəffəq oldum. Lakin bununla əsil məqsədimə çatmadım. Çünki böyük bir məsələ barəsində fikir və rəyi iki risalə vasitəsilə bəyan etmək mümkün deyil idi. Bu barədə bir xeyli kitabçalar yazmaq lazım gəlir. Ümidim bunadır ki, vaxtım olduqca düşünüb bildiklərimi yenə də məlum edəm.

Hələlikdə "Ana və analıq"ı təqdim edirəm. Möhtərəm oxucular qüsurlarımı göstərsələr məni artıq məmnun edərlər.

Student: Yusif Vəzirov
Firuzə, avqust, 1914

I. ARVAD ƏZİZ MƏXLUQDUR

Təbiət arvadları xəlq edəndə bunlara böyük bir vəzifə verib: insanların artmasını, tərbiyəsini və salamatlığını bunlara tapşırıb. Kişilər insanların artmasında müvəqqəti olaraq iştirak etdikdə arvadlar ömürlərinin çoxusunu bu yolda sərf edirlər. Hər uşağı doqquz ay qarınlarında daşıyıb cürbəcür əziyyət və məşəqqətə davam edirlər, onların salamatlığı yolunda öz istirahət və rahatlıqlarından əl çəkirlər. Bala doğulub dünyaya gələn kimi özünü anasının qucağında görür. Arvad bu zaman yeni bir dairəyə girib analıq kimi pak bir vəzifəni ifaya başlayır. Arvad üçün burada yeni bir meydan – fədakarlıq meydanı açılır. Uşaq nə qədər doğulmamışdı, ananın qanı ilə pərvəriş tapırdı, indi isə ananın südü ilə canlanır, böyüyür. Deməli, ana öz balasının uğrunda canının əziz və qiymətli mayasından əl çəkir. Hələ bununla iş qurtarmır, ana cəmi fikrini övladının xoşbəxtliyinə sərf eləyir: ona tərbiyə verir, pisi və yaxşını başa salır, dostunu və düşmənini tanıdır. Onun sağ-salamatlığı üçün var qüvvəsini əsirgəmir. Bala azarladımı, ana da onun azarına şərik olur, bala bişüur oldumu, dərdini ana çəkir, balanın xoşbəxtliyinə bir xətər yetdimi, ananın ürəyi sızıldamağa başlayır.

Övladı öləndə ana yeməkdən-içməkdən əl götürüb, gününü göz yaş-

ları ilə keçirir və cəmi ömrünü qəm dəryasına döndərir. Balalarının dalınca anaların özlərini yanar odlara, dərin dənizlərə vurub fövt eləmələri adi işlərdən biridir. Çünki analıq fədakarlıqdan, fədakarlıq da analıqdan ibarətdir. Bu iki ləfz bir-birindən ayrı yaranmayıb. Təbiət ananı xəlq edəndə onunla bərabər fədakarlığı da yaradıb və ziqiymət hədiyyə olaraq ona əta edib. Fədakarlıq arvadların mənəvi zinətidir ki, ondan uca heç bir şey ola bilməz. Pəs, arvad təbiətin dostudur, onun ən sevimli məxluqudur. Çünki arvad öz balaları yolunda fədakarlıq etdikdə insaniyyət yolunda fədakarlıq eləyir, onların dərdinə qaldıqda insaniyyətin dərdinə qalır. Onlar hamiləlik zəhmətinə, doğmaq əziyyətinə davam etməsələr, balaları hər bir xətərdən hifz eləməyə hazır olmasalar, insaniyyət yox olub gedər. Arvad üç-dörd balanın yox, cəmi insanların mürəbbisi olub onlara dirilik kimi əziz bir şeyi verəndir.

Analar böyük vəzifələrini ifa etdikdə heç bir əvəz almaq fikrində olmurlar. Çünki əvəz adi insan arasında, xüsusi işlərdə olar. Analıq isəb xüsusilikdən çox uzaqdır. Analıq o qədər ucadır ki, öz-özlüyündə elə bir müvəffəqiyyətdir ki, ona nail olmağa biz kişilər layiq olmamışıq. Bu imtiyaz təkcə arvadlara verilib.

II. ANALIQ HİSSİ MÜQƏDDƏSDİR

Qədim yaponlar bir xeyli allahlara etiqad edirdilər. Bu allahların başçılığı arvad əlində idi, adına Amatərasu deyirdilər. Amatərasu Günəş ilahəsidir (...) Dürüst fikir etdikdə bu etiqadda dərin bir fəlsəfə olmağını düşünürük: dünyaya Günəş işıq və istilik bağışlayıb dirilik verən kimi, arvad da insaniyyətə belə xidmətdə bulunur. Amatərasu allahlar cərgəsində olub onlarla əlahiddə bir əlaqədə bulunan kimi arvad da uca vəzifəsi ilə allaha yavıqlaşır. Onun uca məqsədinin əmələ gəlməsinə xidmət edir. Belə olduqda arvadların xilqətində bir müqəddəslik olmağı aşkardır. Bu müqəddəsliyə qədim almanlar da etiqad edirdilər. Bu səbəbdəndir ki, qədim almanlar bir iş başladıqda arvadlarla məsləhət və məşvərətdə bulunurdular (...)

Arvadın allaha yaxın olub onun müqəddəsliyinə şərik olması fikri türk milləti arasında da müşahidə olunur. “Ata və ana övladın kiçik tanrısıdır” məsəli zənnimizin doğruluğunu isbat eləyir. Heyfa ki, qaba və riyasətpərvər kişilərimiz qara bulud kimi, bu nuru örtüb gizlətmək istəyirlər. Arvadlar üçün çarşablar, qıfıllar, uça divarlar icad edirlər.

Elmdən uzaqlaşdırıb fikirlərini, zehinlərini qaranlıqlar ilə əhatə edirlər. Bunlara baxmayaraq allah səsi arvadların qulaqlarından çəkilmir, deyir: “Ey əziz məxluq. Sənsən fikirlərimin vasitəsi. Arvad olduğunu unutma”.

Bunun üçün arvadlarımız doğmağa, övlad anası olmağa həris olurlar. Hansı arvadın övladı olmadı, onu özünə böyük dərd hesab eləyir. Ana olmaq yolunda əlindən gələni müzayiqə eləmir. Həkim yanına gedir, dava-dərman yeyir, falçılara müraciət eləyir, dualar və ocaqlar gücünə ümid bağlayır.

Arvadlarımız yaranışlarının müqəddəsliyinə gözəlcə inanırlar. Hər kəs onlara zülm etsə, dostları allaha müraciət edirlər, “Qara saçın naləsi yerdə qalmaz” deyirlər. Arvad döşləri əlində nalə eləsə və ya başının tükünə şam bağlayıb uca qüllədən və məscidin minarəsindən assa, xalqın nəzərincə, o arvadın səsi allah tərəfindən eşidilər, istədikləri əmələ gələr.

Bunlardan savayı ana südündə bir hikmət olmağına camaatımız etiqad eləyir. Analar övladlarına acıqlandıqda deyirlər: “Südüm səni tutsun”, “Südümdə varsa, sənə göstərsin”, “Südüm burnunun deşiklərindən gəlsin”.

III. ARVADLARA HÖRMƏT ETMƏLİDİR

Arvadlar xilqətdə əziz olub böyük bir vəzifəyə malik olduqda, onlara əziyyət etmək günahdır. Arvadı döymək, onu söymək xilqətə çirkin hərəkətlər isnad vermək kimidir. Haqqın dostunu məyus etmək onun özünü incitmək deməkdir. Insaniyyət nöqteyi-nəzərindən də baxsaq, arvadı döymək insafsız işlərdən biridir. Əsrimiz tərəqqi əsridir, adam döymək zamanı çoxdan keçib gedib. Indi ancaq vəhşi qövmlər arasında mövcuddur. Hərgah mədənilik adı qazanmaq istəyiriksə, belə çirkin hərəkətlərdən gərək əl götürək. Arvada da hörmət etmək hər bir kişiyə vacibdir. Küçədə qabaq-qabağa gəldikdə arvada ehtiram ilə yol verməlidir, tramvayda və ya konkada arvadlar ayaq üstə qalsa, gərək kişilər durub yerlərini onlara versinlər...

Belə-belə adətlər avropalılar və amerikalılar arasında mövcuddur. Məsələn, “Titanik” gəmisinin tarIxini nəzərə aldıqda, arvada nə dərəcədə hörmət edilməsi biz asiyalıları qeyrətə gətirir. Gözü ilə görən na-

ğıl eləyir ki, “Titanik” suda üzən bir buz qayasına toqqaşıb ümidsiz bir halda xarab olduqdan sonra kapitan əmr elədi ki, kişilər qayıqlardan kənar çəkilsinlər. Kişilər kamali-sükutla kənara çəkildilər. Xanımlar qayıqlara əyləşdilər. Bir neçəsi ərlərindən aralanmağa razı olmayıb, bir yerdə suya qərq olmağı qəbul etdi. O cümlədən qoca bir qarı (milyoner Ştrausun) arvadı əri ilə qucaqlaşıb bir yerdə suya batdılar. Lazımi nizam bərpa idi, kişilər qayığa minib nicat tapmaq meylində olmadılar. Ağlamaq və qorxu səsi əsla eşidilmirdi[1].

Bu minvalla nəcib kişilər qayıqları arvadlara və uşaqlara verib özləri ölüm şərbətini mərdliklə içdilər (...)

IV. ARVADA İXTİYAR VERMƏLİDİR

Arvadlarımızın ixtiyarsız bir parça şey mənziləsində olmadıqlarını qabaqda nağıl eləmişdik[2]. Bu barədə burada müfəssəl danışmağın lüzumu yoxdur. Ancaq bunu deyəcəyəm ki, arvadlara ixtiyar verməməyə, onları ağlı naqis bilib özümüzə qul kimi tabe eləməyə heç bir haqqımız yoxdur. Bunsuz insanın diriliyi bir qəpiyə dəyməz. Arvada ağlı az demək də böyük səhvlərdən biridir. Avropalılar da axır vaxtadək bu məsələ ilə məşğul idilər, hükəma arvadın beynini ölçüb-biçməyə, tərəziyə qoyub çəkməyə vaxtını sərf eləyibdir. Bu minval ilə isbat edirdilər ki, arvadın ağlı kişininkindən azdır. Təcrübə isə əksinə göstərdi. Arvadlardan bir xeyli istedadlı ədiblər, rəssamlar, heykəltəraşlar, professorlar, həkimlər və qeyriləri əmələ gəldikdə “naqislik” məsələsi öz-özünə məhv olub getdi. Bizim təzədən bu barədə danışmağımız boş işlərdən biridir. Yaxşısı budur ki, arvadların üstündən bu töhməti vaxt ikən götürək. Bunlara xüsusi tərbiyə verilsə, bunlar üçün ləyaqətli məktəblər bina olunsa, kişilərə yol göstərməyə qadir olarlar. Indilikdə Qafqazda bir neçə xanımlarımız əmələ gəlib ki, istedad və elmləri sayəsində “naqislik” ləkəsini arvadların adından silib təmizləməkdədirlər. Möhtərəmə Həmidə xanım Cavanşir öz mülkünü dolandırmaqda, abad eləməkdə qeyri-zəmindar bəylərimizdən geri durmur. Bəlkə onlardan artıq karkün olub, istedadda, qabiliyyətdə hamını mütəhəyyir qoyub.

[1] “Russkoe slovo”, 1912, № 84

[2] Mənim “Arvadlarımızın halı” adlı risaləmə baxın (müəllif).

Bakıda Hənifə xanım Məlikova qız məktəbi nazirliyində millətimizə tərbiyəli analar yetirməkdədir. Bu hörmətli xanım müəllimlikdən savayı avam arvadlar üçün bir məsləhət yeri olub. Hər kimin nə dərdi var, buna deyib çarə istəyir. Kiminə ərizə yazır, müşküllərini həll eləyir, azarlılarına həkimi tanıdır, mərizxananı nişan verir. Bu həmin xanımdır ki, Peterburqda müəllimlər mədrəsəsində kişilərimiz cürət edib danışmadığı bir halda nitq söyləmişdi. Arvadların ağlı naqisdirsə Həmidə və Hənifə xanım kimi şəxslər necə əmələ gəlib? Bunlar min kişiyə ağıl öyrədər. Yenə, Bakıda həkim Aminə xanım Bəradərşah Peterburqda ali məktəb qurtarıb. Bu xanım da minlərcə arvad və kişiləri müalicə edib ölümdən qurtarıb. Ağlı az insanda da bir bu qədər istedad və kamillik olarmı?

Pəs, arvada ağlı naqis deməkdə səhvimiz var. Bunlara ixtiyar verib ağıllarının genişliyinə çalışılsa, heç bir şeydə kişilərdən geri durmazlar. Arvad ixtiyarsız olduqda bundan böyük ədalətsizlik baş verir. Bunun da xətəri həm arvada toxunur, həm də millətimizə. Bir qızı atası götürüb tanımadığı bir adama verdikdə görün nə qədər zülmlər əmələ gəlir. Ixtiyarsız qız atasının sözündən çıxa bilmir və cəmi ömrünü xoşlamadığı bir adamla keçirib diriliyini göz yaşlarında çürüdür. Ixtiyarsız arvad öz xahişi ilə ərindən boşana bilmir. Əri evindən qaçdıqda kişisi onu qeyri ərə getməkdən məhrum qoyur. Burada yeni müşküllər əmələ gəlir. Arvad boşanmaq üçün cürbəcür vəsilələrə əl atır: kəbinindən keçir, izzəti-nəfsindən keçir. Gündə bir mollaların, ağsaqqalların qabağında göz yaşları tökür ki, bəlkə ərini yola gətirələr, onu azad eləyə. Iş bununla qurtarmır. Qız tərəf talaq üçün yeni vasitələr axtarır və bu vasitələr də çox vaxt qanuna və insafa xilaf olur. Məsələn: Ittifaq düşür ki, arvadı azad etmək üçün onun ərini öldürürlər, çünki ər arvadına kağız verməmək fikrində olduqda ondan heç bir vasitə ilə arvadı boşamaq olmur. Kişinin ölməyi bu məsələni həll eləyir. Öldürmək mümkün olmasa, arvad cəmi ömrünü "kağız altında" keçirir və min cürə məşəqqətə davam edir. Belə də ittifaq düşür ki, kişi kağız verməyə razı olur, bu şərtlə ki, onu pul ilə razı eləsinlər. Onun da nəticəsi bu olur ki, əqdi-nigah müqəddəsliyini itirib oyuncağa dönür və hər yetən pul qazanmaq üçün qız almağa şüru eləyir. Axırda da qız bədbəxt olur.

Arvadı ərindən biizin boşamağa camaatımız yeni bir vasitə tapıb, bu da küfr təriqilə əmələ gəlir. Çünki arvadı ağlı naqis bilirlər, bunlar

kafir olub bir də islama daxil olsalar tövbələri şərən dürüst olur. Deməli bir neçə şahid yanında küfr elədikdə ərindən boşanmış olur. Talaq verilib asudəliyə çıxdıqda yenə müsəlmanlığı qəbul eləyir.

Aşkardır ki, bu vasitə də şəriətin camaat gözündə nüfuzunu qırır, nigahın müqəddəsliyi yenə yox olur və əxlaq düşkünlüyü meydan tapır.

Bu bir belə bədbəxtliyin səbəbi arvadın ixtiyarsızlığıdır. Hərgah arvad da kişilərlə bərabər bir hüquqa malik olsa idi, bu işlər ittifaq düşməzdi.

Arvad övladının zəhmətini kişidən artıq çəkir, kişi isə özünü balalarının sahibi hesab eləyir. Halbuki arvadın təbii vəzifəsi qanununca o kişidən artıq ixtiyara malik olmalıdır ki, övladına tərbiyə və təlim verə bilsin. Bizim arvadlar avam ola-ola oxumuş kişilərdən çox maarifpərvərdirlər. Uşaqlarımızın məktəbə yollanmağının səbəbi çox vaxt anaları olur. Qız uşaqlarının oxumağına kişilər mane olduqda, arvadlar bu yolda var qüvvələri ilə çalışırlar. Bir müsəlman müəlliməsi nağıl eləyirdi ki, bir arvad qızını ikinci dərs başlananda məktəbə gətirirdi. Müəllimə arvaddan sual eləyir ki, niyə qızı məktəbə gec gətirir.

Arvad cavab verir: ərim qızımın oxumağına razı deyil. Ərimi bazaar yola salandan sonra qızı məktəbə xəlvəti gətirirəm. Ərim evdən gedincə də məktəbin vaxtı yetişir.

Burada da ixtiyarsızlıqdan böyük müşküllər əmələ gəlir. Bir-iki arvad ərlərindən xəlvət övladlarının oxumağı yolunda iş görə bilirlərsə, minlərcəsi görə bilmir və ərlərinin qorxusundan gözəl fikirləri arzu dairəsindən kənara çıxmır. Bu səbəbdən də köhnəliyimizdən aralanıb tərəqqi edə bilmirik. Arvadlara ixtiyar verilsə, işlər tamam dəyişilər.

Elm aramızda yayılar və onun işığında diriliyimiz də asanlaşar. Ixtiyarlı arvad özünü xoşbəxt edən kimi, özgələrinin də xoşbəxtliyinə bais ola bilər. Ixtiyarsız arvad müftəxorluğa adət edib, kişilərə əngəl olur. Hüquqa malik arvad isə kişiyə dərd və qəm yoldaşıdır. Belə arvadlar analıq vəzifələrini yerinə yetirəndən sonra kişilərlə bərabər təminiməişət üçün çalışmağa qadir ola bilirlər. Indi qədim zaman deyil ki, bir kişi neçə arvadı saxlamağa qüvvəli olsun, mübarizeyi-həyat hər yerdə şiddətlə irəliləməkdədir. Vaxt ikən arvadlara hüquq verilməlidir ki, bunlar kişilərə qoşulub dirilik boyunduruğuna şərik olsunlar.

V. ANALIQ

Arvadın əsil vəzifəsi analıqdan, evdarlıqdan və zövcəlikdən ibarətdir. Bu çətin və çətin olduğu qədər də vacib işlərdən biridir. Bir analığa dair neçə cild kitab yazılsa kifayət eləməz. Ana insaniyyət yanında məsul olduğu üçün doğduğu balanın salamat və tərbiyəli olmağına səy eləməlidir. Bunun üçün də arvad ilə kişinin ilk görüşüb əlaqədə olmalarından tutmuş sonralaradək gözüaçıq olmalıdır. Məsələn, kişi arvadla kefli (sərxoş) zamanında əlaqədə olsa, bundan salamat övlad olmadığı kimi, dəlilərin, ürəkgetməlilərin, vərəm və siflis kimi azarları olanların da övladları azarlı və eyibli olar[1].

Bunları arvad ana olmamışdan qabaq gərək nəzərə alsın. Hamiləlikdə arvad yenə gərək elə dolansın ki, bətnindəki balaya xətər yetməsin. Bala dünyaya gəldikdə zəif və himayə edilməyə möhtac olur. Bu zaman ana çəmi səyini gərək balasını mühafizə etməyə versin. Statistikanın göstərdiyinə görə Qərbi Avropada cəmi ölənlərin üçdə biri beş yaşına çatmamış uşaqlar olur. Rusiyada avamlıq artıq olduğundan burada uşaq ölümü daha da artıq ittifaq düşür (60%)2[2]

Yəqin ki, müsəlman ölkələrində bu tələfat Rusiyadan da şiddətli bir haldadır. Uşağın ölümü anaya bağlıdır. Ana kamil olsa uşağı ölümə verməz. Yoxsa avam olub gündə balasını çöpcüyə, dua yazana və qeyri- yerlərə aparsa, əlbəttə tələf olub gedər. Uşaq gərək tez-tez çimdirilsin, paltarı dəyişilsin, vaxtında yatırılsın, gündə neçə saat da təmiz havada gəzdirilsin.

Cismani tərbiyədən savayı uşağın ruhani və ya əxlaqi tərbiyəsi də var, bu da uşaq ananın qucağında ikən başlanır. Əsil tərbiyə bundan ibarətdir ki, buna da ev tərbiyəsi deyirlər. Hərgah bu tərbiyə yaxşı oldu, uşaq gələcəkdə xoşbəxt olur, yaxşı olmasa, evdə tərbiyə görməmiş uşağı məktəb düzəldə bilmir. Çünki altı-yeddi yaşadək uşaq gördüyünü götürür, məktəbə hazır gəlir. Daha uşağın cəmi vücuduna yerləşmiş tərbiyəni məktəb uçurmağa qadir ola bilmir. Atalar demişkən "südlə gələn sümüklə çıxır". Ana tərbiyənin nə dərəcədə vacib olmağını gərək düşünsün. Özünü islah edib övladına örnək (sərməşq) etsin. Yalan, oğurluq və əxlaqən pozğun hərəkətləri balalarına qadağan eləsin. Onları pis yoldaşdan gözləsin, başlı-başına buraxmasın.

[1] Д-Р Ермануэла Л.М.Мейер. От девочки к женщине.
[2] Пр. Водлый. Статистика

Bala sual verdikdə, ana gərək ona acıqlanmasın, onun sualına ehmallıca cavab versin, cəhd eləsin ki, cavabı ciddi və doğru olsun. Uşaq gözünü açıb ətrafındakıları gördükdə onları bilmək istəyir. Odur ki, hədsiz və hesabsız suallar verir. Beləliklə balalar məlumat toplayırlar. Səhih məlumat uşağın ağlını genişləndirir, avam sözlər isə onu axmaq ə gülünc bir hala gətirir. Uşağı məktəbə qoymaq da analara mühəvvəl olunur, çünki kişilər həmişə çörək dalınca gedirlər, övladlarından xəbərləri olmur. Ilk oxumaq və yazmağı da ana öyrədir. O, uşağı zora salmamaq üçün oyun təriqilə öyrədir, hərdən bir az.

Uşaqlar ilbəil böyüyüb bir yaşdan o birinə keçdikdə yenə yaşlarına müvafiq analarına möhtac olurlar. Ana həmişə balaları ilə bir yerdə olduğu üçün onların hər bir sirrinə bələd olur (olmasa da gərək olsun ki, onları düz yola dəvət eləsin), onların namusunu gözləməyə və onları çirkin hərəkətdən çəkindirməyə qadir ola bilir. Ələlxüsus balalarçhəddi-büluğa çatdıqda ana artıq lazım olur. Bu zaman analar gərək övladlarından artıq mütəvəcceh olsunlar (...)

VI. EVDAR ARVAD

Evdarlıq geniş məlumat və böyük məharət istəyir. Hər arvad evdarlığın bacarmaz, ələlxüsus savadsız və avam arvad. Ev bir məmləkətə bənzəyir, evdar arvad da onun padşahına. Padşah yaxşı olsa, məmləkət də nizam və qayda ilə dolanar. Şərt bir qazan bişmişi ocağın üstünə qoyub qaynatmaq deyil, arvad gərək evin hər bir dairəsinə nəzər yetirsin. Ən əvvəl təmizliyə diqqət versin. Ev hər gün silinib süpürülməlidir, otaqlarda hər şey öz yerində qayda ilə qoyulub baxanlara səliqə nə olduğunu duydursun. Külfət üzvlərinin təmiz libas geyməyinə evdar arvad çalışmalıdır. Mətbəxin nizamı da xanıma bağlıdır: aşbaz da hazırlasa, xanımın gözü bişmişin üstə olmalıdır ki, külfət təmiz və dadlı xörəklər yeyə bilsin. Evdar arvad səy eləməlidir ki, israf olunmasın, evin məkulatı hədər yerə dağılmasın. Bacarıqlı arvad evdə qış üçün tədarük görər, cürbəcür mürəbbələr bişirər, turşular və şorabalar (duzlu xiyar və qeyri) hazırlar, göyərti və meyvə qurudar, riçal qayırar. Qoçaq arvad hər şeydən mənfəət götürər, həyətdə qəşəng ləklər saldırıb göyərti əkdirər; toyuq, xoruz saxlar, kürt düşənini vaxtında basdırar, cücə çıxardarlar. Mümkün olsa inək saxlarlar ki, südü ilə balalar bəslənsinlər... Xülasə evdar arvadın vəzifəsi çox çətindir. Böyük

hünər və qanacaq istəyir. Evə bir qonaq gəldikdə kişinin başını uca eləyən arvad olur. Lazımi bir qayda ilə qonağı qarşılayır, söhbətlərlə məşğul edir. Sonra çörək masasına dəvət eləyir. Buraların səliqəsi evdar arvadın ləyaqətli olub-olmamağını göstərir. Arvad oxumuş, qanacaqlı və bacarıqlı oldu, ailənin üzünü güldürəcək, yoxsa vay ərin halına.

Getdikcə yaşamaq çətinləşir, çörək yolları azalır. Biçarə kişilərin zəhməti daha da artır. Özlərini oda-közə vurub külfətin yaşamağı üçün pul qazanırlar. Işdən sonra yorğun bir halda evə qayıtdıqda ev kişilər üçün gərək bir dincəlmək məkanı ola. Burada onlar gərək cəmi dərdlərini yadlarından çıxardıb rahat olsunlar, özlərini xoşbəxtlik aləmində görsünlər. Kişi üçün bu xoşbəxtliyin əmələ gəlməsi arvadın kamilliyinə bağlı deyilmi? Kişi axşam evi təmiz və işıqlı, bişmişi hazır, balalarını tərbiyəli gördükdə əlbəttə dərdləri yadından çıxar. Arvadın xoş rəftar və uşaqların mehribanlığı kişi üçün böyük xoşbəxtlik gərək olsun.

VII. ARVAD ZÖVCƏLİKDƏ

Ər və arvad iki yoldaşdır. Bunlar bir-birilə əl-ələ tutub şərt kəsirlər. Kişi deyir: arvad, razısanmı mənimlə ömür yoldaşı olasan? Mənim borcum çörək qazanıb səni və gələcəkdəki balalarımızı müräffəhülhal dolandırmaqdır. Sənin də borcun bu olsun ki, balalarımızı böyüt, tərbiyə ver və evi dolandır.

Arvad da razılıq versə, ortalıqda bir ittifaq əmələ gəlir. Bu ittifaqa nikah deyirlər. Nikahın ümdə şərti ər ilə arvadın bərabərliyi olur, biri o birinə zülm edə bilməz, biri o birinə tabe gərək olmasın və bu şərtlər əmələ gəlməsə, nikah düz və doğru olmaz.

Bizim böyük bədbəxtliyimiz budur ki, ər arvadını özünə yoldaş bilmir. Beləliklə arvad ərinin heç bir şərtindən xəbərdar olmur. Bundan da böyük zərərlər əmələ gəlir. Məsələn, bir tacir öləndə arvadı bilmir kişinin alacağı haradadır, verəcəyi kimdədir, mülkü nə cür dolanırmış. Odur ki, kişi böyük mülkə və dövlətə malik olsa da, öləndən sonra dağılır. Pulları onun-bunun əlində qalır, tələf olur. Çünki kişi bu barədə arvadına heç bir məlumat verməmişdir.[1]

[1] 1 Burada ümdə bir səbəb də çarşabdır ki, onun sayəsində təcrübəsizlik və avamlıq əmələ gəlir. Çarşab barəsində əlahiddə risalədə danışılacaq (müəllif).

Arvad ərinin ən yaxın dostu olmalıdır. Kişinin arvadından gizlin gərək heç bir işi olmasın. Arvad da ərini düşünməlidir, onun fikirlərinə, məsləkinə bələd olmalıdır. Kişi bir iş başlayanda arvadına məsləhət etməlidir, hər məsələ gərək bir yerdə müzakirə olunsun. Kişi arvadına təkcə dişiyə baxan kimi baxsa, bunların arasında doğruçu bir ittifaq əmələ gəlməz. Çünki cismani əlaqə müvəqqəti bir işdir, dostluq da bunun vasitəsilə əmələ gəldikdə o da müvəqqəti olur. Halbuki nigah əbədi bir dostluqdan ibarətdir. Harada ki, dostluq qurtardı, orada talaqdan savayı bir çarə yoxdur. Pəs, ər-arvadlığın binası gərək ruhani əlaqədə olsun. Belə əlaqə sabit olar və uzun vaxt gedər.

VIII. ARVADLAR ELMLİ GƏRƏK OLSUNLAR

Analıqdan, evdarlıqdan, zövcəlikdən müxtəsərcə danışdıq. Arvadların vəzifəsinin böyüklüyü məlum oldu. Diqqətlə mülahizə edilsə, aşkar olar ki, bu vəzifəni ağlı elm işığı ilə nurlanmış kamil və bilikli arvadlardan savayı ayrıları lazımınca yola verə bilməz. Oxumamış və avam arvadların nə analığa, nə evdarlığa və zövcəliyə qabiliyyətləri yoxdur. Elmsiz arvadın həmişə evi səliqəsiz olar, balaları tərbiyə tanımazlar və əri də evdə rahatlıq tapmaz. Elmsiz arvad ərinə həmişə yad olar, əri bacardıqca evdən uzaq dolanar. Çünki əri evdə saxlamağa qabiliyyət gərəkdir. Ər ki, arvaddan nə mərifətli söz eşitmədi, nə qanacaqlı hərəkət görmədi, o ər ömrünü qumarxanalarda, çayçı dükanında, klublarda və əcnəbilər məclisində keçirər. Cavanlarımız evlənəndən iki gün keçməmiş görürsən arvadı damın altında qoyub başladı axşamlar evə gəlməməyə. Səbəb budur ki, arvadlar bunların təkcə nəfsiheyvaniyyələrinə qulluq edirlər və nəfs öləndən sonra daha cavanı evdə saxlamağa bir vasitə olmur. Hərgah arvadlar oxumuş və məlumatlı olsalar, kişilərinin ruhani aləminə də təsir edib onu evə cəlb eləyərlər. Nemsə filosofu Fridrix Nitşe nikahı uzun bir söhbətə oxşatmaqda haqlıdır. Filosof deyir: "Əqd-nikah vaxtında özünüzə sual verin, görün evləndiyiniz arvadla lap qocalanadək söhbət eləməyə qadir ola biləcəksinizmi? Çünki nikahda hər şey ötəri olur və vaxtın çoxunu söhbət məşğul eləyir[1]."

[1] Ф.Нитше. Человеческое, слишком человеческое.

Aşkar olur ki, oxumuş ərlə oxumamış arvadınkı tutmaz. Oxumuş bir söhbət elədikdə arvad onu düşünməyəcək. Avam arvadla böhtan, qeybət və bunun kimi boş şeylərdən savayı ayrı söhbətlər eləmək olmur. Həmçinin savadsız kişinin də dostluğu savadsız arvadla başa getmir. Çünki kişi asudə gəzib dolandığına görə özünə təcrübə və bilik qazanır, savadsız arvad isə heç yerə çıxa bilməyib evdə oturmaqla bildiyini də itirir. Deməli, tərəzinin bir gözü həmişə yuxarıda qalır, o birisi aşağıda. Ər-arvad tərəzisi həmvəzn gərək olsun.

Pəs, arvadları oxutmalıdır və tərbiyələrini artırmalıdır. Bunların xoşbəxtliyi elmə bağlıdır. Bir oxuyub yazmaq arvadlara kifayət eləməz. Bunlar olduqca kamil oxumalıdırlar. Heç olmazsa yeddisəkkiz sinifli orta məktəb qurtarmalıdırlar. Bu məktəblər hökumət gimnaziyalarına gərək bənzəməsin: orada rəqs kimi ömrə və arvadlığa əsla lazım olmayan şeylərə çox diqqət olunub. Qız məktəbində analığa, evdarlığa, zövcəliyə və bəzi iqtisadi məsələlərə artıq nəzər yetirməlidir. Oradan təhsil edib çıxan qızlar gərək kamil bir ana olsunlar. Tərbiyə barəsində ətraflı məlumatları olsun, onun tarixini və o barədə Avropadakı son rəy və fikirləri bilsinlər. Uşağı nə təhər bəsləməli, südü necə verməli? Nə vaxt verməli? Evin havasını necə dəyişməli, otaqda isti neçə dərəcə olmalıdır? Bunları qızlar gərək məktəbdə öyrənsinlər. Çox analar uşağa öz südlərini verməyib inək südü verirlər, halbuki uşaqların qırılmağının bir səbəbi də budur ki, onlar ana südü əmmirlər. Statistika göstərir ki, Berlin şəhərində beş ilin müddətində (1897-1901) anadan olan uşaqların hər ildə yüzündən doqquzu ölürmüş. Bunlar ana südü ilə bəslənirmişlər. Inək südü ilə bəslənənlərdən yüzdə yetmiş səkkizi tələf olurmuş[1].

Bir çox analar balalarını dayələrə verirlər və onların çoxusunun siflis kimi azarları olduğunu bilmirlər. Ya dayələrin özündə azar olur, balalara sirayət edir, ya da ki, azarlı balaları dayəyə verirlər, ona da düşür, sonra başqa salamat uşaqları da xarab edir. Belə ittifaqlar bizlərdə tez-tez olur. Məhz avamlıqdan günahsız xalq fövt olub gedir. Bizim arvadlar uşaq saxlamağı əsla bilmirlər. Anadan olandan qırx gün keçənədək evə bir adam gəldikdə uşağı otaqdan çölə çıxardırlar ki, "qonağın çilləsi onu basmasın". Bizlərdə evlər narahat olduğundan və çox vaxt qapısı həyətə açılan bir otaqdan ibarət olduğuna görə kör-

[1] Пр. Водлый. Статистика

pə balaları qonaq gələndə lap soyuğa çıxardırlar. Bundan başqa da uşaqdan həcəmət aldırmaq kimi bir xeyli pis adətlərimiz də var.

Bu avamlıqları aradan götürməyə nizamlı, geniş proqramlı qız məktəbləri lazımdır. Məktəbdə qeyri-elm və fənnlərdən savayı pedaqogikaya, hifzi-səhhətə, fiziologiyaya, kimyaya, gimnastikaya diqqət olunmalıdır. Anaya tibbə dair məlumat vacibatdandır. Evdə bir bədbəxtlik üz versə ilk imdad anadan gözlənir. Boğaz ağrısı, ilanvurma, zəhərli cücü dişləməsi, suya düşüb boğulma, od yanığı, bədənin yaralanması - bunların hamısında ananın biliyi lazımdır ki, həkim gəlincə zərərdidəyə

gömək eləsin. Balaca soyuqdəymə və başağrısı kimi çox xırda nasazlıqlar da var ki, bunlara ana həkimsiz də müalicə edə bilər. Arvad əsil yaranışından tibb elminə möhtacdır. Heyz, ər ilə arvadın əlaqəsi, doğmaq, balanın cismani tərbiyəsi – bunların hamısının sirrlərinə agah olmağa tibbə dair geniş məlumat lazımdır.

Evdar arvad da məktəbə möhtacdır. Heyf ki, bizim qız məktəbləri ehtiyacları dəf eləmir. Ev işlərini təlim vermək üçün məktəbdə böyük mətbəx və qeyri-otaqlar tikdirməlidir ki, burada qızlar bişmişlər hazırlamaq, paltar yumaq, biçin, tikiş, əl işləri və hana toxumaq öyrənsinlər. Kəndistanda açılan məktəblərdə bunlardan savayı bağçaçılıq, yağ-yavanlıq qayırmaq, mal-qara bəsləmək, toyuq və xoruza baxmaq, barama qurdu və arı saxlamaq da gərək öyrədilsin. Qız məktəbi açmaq bizə ən vacib işlərdən biridir. Hər kəs istəyir savab qazansın, camaatımıza məktəb açsın. Gərək məktəblərin də proqramı elə tərtib olunsun ki, məktəb bizim ömrümüzü işıqlandırsın, diriliyimizi yüngülləşdirib, bizi xoşbəxtliyə və rahatlığa çıxartsın. Bizim nicatımız məktəblərə bağlıdır. Məktəb bir ad üçün açılmamalı, orada ümdə fikri rəqsə və əcnəbi dillərini öyrənməyə gərək verməsinlər.

Orada həyati məsələlərə diqqət etməlidir. Köhnə arvadlar üçdör bişmişdən başqa ayrı şeyləri bişirməyi bacarmırlar, bunları da allah bilir necə bişirirlər. Oxumuş qızlar xörəklərin sayını və dadını artırmağa çalışmalıdırlar. Köhnə arvadlar paltar yuduqda ağ geyimləri qırmızının suyuna soxurlar, qırmızını da sarı geymənin suyuna. Paltarı nə qaynadırlar, ona nə lil vururlar, nə soda. Adı olur ki, yuyurlar. Çirkliliyindən də pis bir hala salırlar. Fağır ərlər və balalar da ləyaqətsiz paltar geyməyə məcbur olurlar. Təzə məktəblər bu qüsurumuzu da düzəltməlidir. Oradan çıxan qızlar ağappaq qar kimi paltar yumaq gərək bilsinlər.

Köhnə arvadlar belə biədəb paltarlar geyirlər ki, tərpənəndə həm döşləri, həm qarnı, həm də topuqları görünür. Bunlar ona qənaət edirlər ki, üzlərini gizlədirlər. Əsil həyalı yerləri isə göz qabağında qalır. Təzə qızlarımız biçin və tikiş öyrənməlidirlər ki, təzə libaslarlaavamlığın abırsızlığından xilas olaq. Təzə məktəblərimiz əl işlərinə və hanaya da diqqət yetirsələr, sənətin arvadlar arasında tərəqqi etməyinə bais olarlar. Sənət arvadlar üçün vacibdir. Əvvəl evi bəzəməkdən ötrü, ikinci, qızların cehizinə. Sənətin ümdə mənfəəti budur ki, arvadları özgələrə möhtac olmaqdan qurtarır. Bir qız çirkin olub ərə getmədikdə özgə çörəyinə möhtac olur. Ata, ana həmişə qızları ilə yaşayıb qalmırlar ki, onları özləri bəsləsin. Sənət belə yazıq və kimsəsiz qızları çətinlikdən xilas edir: öz əli öz başı olur, namusunu da gözləməyə qadir ola bilir.

IX. ANASIZ UŞAQLAR

Uşağa adamlıq şəkli verən tərbiyə olur, yaxşı tərbiyə olmasa, bunlar insana məxsus hərəkətlərini itirib heyvana yavıqlaşırlar. Tarixdə bir xeyli uşaq adı var ki, dağlarda, daşlarda anasız böyüyüb adamlıqlarını bilmərrə məhv ediblər. Məsələn: nağıl eləyirlər ki, 1657-ci ildə Qrudna vilayətində litvalı bir uşağı ayıların əlindən alıblar. Uşaq meşədə bunlarla ömür keçirirmiş. Uşağı gətirirlər Varşava şəhərinə, ad qoyurlar və xaç çəkdirib xristianlığı qəbul etdirirlər. Uşağın sifətindən görünürmüş ki, təqribən onun on iki yaşı var. Başının ağ və uzun tükləri var imiş. Barmaqları uzun imiş. Alnı ortabab, səsi də ayı səsinə oxşayırmış. Uşaq yeriyəndə dördayaqlı heyvan kimi əyilib əlləri ilə də gedirmiş. Bir çox zəhmətdən sonra buna ayaq üstə yerimək öyrədirlər. Uşaq danışa bilmirmiş, ancaq hərdənbir ayı səsinə bənzər bir səs çıxardırmış. Onun üzü və əlləri şırımlarla dolu imiş. Görünür ki, ayılarla cırmaqlaşırmış. Bu anasız uşaq tamam heyvanların dolanışığını götürübmüş. Paltar geymək istəmirmiş. Yediyi ya ot olurmuş, ya çiy ət. Sonralar böyük bir əziyyətlə uşağa bişmiş yeməyi və insan kimi danışmaq öyrədirlər[1].

[1] П.Легафт. Семейное воспитание ребенка и эго значение.

“At atın yanına bağlansa, ya halını götürər, ya xasiyyətini” fəhvasınca[1] bu insan övladı heyvanlarla yoldaşlıq elədikdə özü də heyvana bənzər bir şey olubmuş. Əlbəttə bunun anası olsa idi, buna tərbiyə versə idi, belə olmazdı.

Bir ayrı vəhşiləşmiş qız barəsində belə nağıl eləyirlər. 1731-ci ildə Şampan vilayətinin Sonqi adlı kəndinə doqquz-on yaşında bir qız gəlib çıxır. Qızın əlində bir ağac var imiş. Özü ayaqyalın, bədənini də əski parçaları və dəri qırıqları ilə örtmüş imiş. Kənddə bir iti qısqırırlar, yüyürür, buna tərəf. Qız əvvəl etinasızlıq edib iti lap yaxına buraxır. Sonra başına bir elə ağac vurur ki, it yerində gəbərir. Bir az keçmiş qız kənddən qaçır çölə. Burada cəld bir ağaca dırmaşıb yatır. Oyandıqda bunu çağırıb düşürürlər yerə. Gətirib bir imarətdə saxlayırlar. Burada buna bir dovşan verirlər, yırtıcı heyvan kimi o saat əzikləyib çiy-çiy yeyir. Qızın bədəni çox salamat imiş. Barmaqları ağaca dırmaşmaqdan iri və qüvvətli idi. Özü də belə müdrik imiş ki, bir ağacdan o birinə sıçrayırmış, olduğu evin divarlarını və taxtapuşunu deşib istəyirmiş ağaclara tullanıb qaçsın. Qızın tərpənişi belə cəld imiş ki, ovu göydə alırmış, suda da gözəlcə üzüb tutduğu qurbağaları və balıqları yeyirmiş. Bu da danışmaq bilmirmiş, bunun əvəzində çığırırmış. Iki il bu qıza tərbiyə verildikdən sonra yenə heyvanlara məxsus hərəkətlərindən əl götürmürmüş: yediyi çiy ət, yarpaq və bitkilərin göyü olurmuş[2].

Bu heyvanlaşmış uşaqların tərcümeyi-halı buna dəlalət edir ki, anasız demək tərbiyəsiz deməkdir. Analı bir uşağın tərbiyəsi olmasa, ona da anasız desək səhv etmərik. Çünki nadan anaya ana demək yaraşmaz. Analıq bir uşaq doğmaqdan ibarət deyil. Ana insanlara cismani və ruhani dirilik verən arvadlara deyirlər ki, elm və çox biliklə islah olunub kamilliyə çatıblar. Ana o əziz arvadlardır ki, nəcib övladlar bəsləyirlər. Bu övladlar öz şəxsi və ictimai vəzifələrini anlayırlar: Həm özləri xoşbəxt yaşaya bilirlər, həm də özgələrinin bəxtinə sədd çəkmirlər. Ana həqiqi bir arvaddır ki, tərbiyə verib meydana çıxartdığı övladı yaşadığı mühitdə ata və anasının başını uca eləyir, xoş əxlaqı, elm və istedadı ilə hamının rəğbətini qazanır.

[1] Məsəlində deyildiyi kimi

[2] П.Легафт. Семейное воспитание ребенка и его значение

Oxumamış və avam arvadların analıqda heç haqqları yoxdur. Bunların özləri qanacaqsız, övladları daha da pis. Bunlar heyvanlaşmış uşaqlardan pis hərəkətlər edirlər. Küçədə toza, torpağa bulaşan, paltarını cırıqlayan, onun-bunun evini daşa basıb qıran uşaqlarımız vəhşi bir hala gəlmişlər deyillərmi? Heyvanda yenə bir yaxşı sifət var ki, danışmır, bizim uşaqlar isə ağızlarını açdıqda elə söyüşlər söyürlər ki, adam həya eləyir, qızarır. Iki-üç müsəlman uşağı bir yerə yığılanda dava salıb bir-birinin baş-gözünü əzirlər. Hətta bir evdə bir ata-ananın övladları axşamadək vuruşmada-deyişmədədirlər.

Bunlar anasızlıqdan deyilmi?

Uşaqlıqda özbaşına buraxılıb oğurluğa adət edirlər. Camaatı təngə gətirib malını və mülkünü dağıdırlar. Axırda da bir neçə adam öldürəndən sonra namussuz bir ölümlə tələf olurlar. Bu işlər də anasızlığa dəlalət eləmirmi? Təkcə buna iman etməlidir ki, cəmi dərdlərimizin səbəbi anasızlığımızdır.

X. ANALI YETİMLƏR

Bir müsəlman məktəbində dərs deyirdim. On beşədək şagirdim var idi. Bunların heç birində təmizlik, nizam və tərbiyə yox idi. Əlləri tozlu, mürəkkəb qaralı, üzləri yuyulmamış, paltarları çirkli. Tər qoxusundan və üfunətdən yanlarından keçmək belə mümkün deyil idi. Əxlaqları pozğun idi. Bir-birinə latail söyləməklə, biədəb hərəkətlər törətməklə ömürlərini keçirirdilər. Dərs otağında bir növ bunları nizamla saxlamaq mümkün olurdu. Tənəffüs zamanı həyətə çıxdıqda cəmi tərbiyəsizlikləri büruzə verilirdi. Yırtıcı qurda dönüb bir-birlərinin canına düşürdülər. Budur, görürdün ağlaya-ağlaya biri şikayətə gəldi. Bir az keçməmiş bir ayrısı başının və ya ağzının qanı axa-axa müəllimə tərəf üz qoydu. Bu tərbiyəsizlərin rəftarında o qədər qabalıq, vəhşilik və əxlaqsızlıq var idi ki, adamı özlərindən tamam nifrətləndirirdilər...

Bu biçarə uşaqlara baxdıqda həmişə fikrə gedirdim. Ev tərbiyəsinin böyük mənasını düşünürdüm. Hərgah analar övladlarına tərbiyə versə idilər, bilirdim ki, məktəbdə nizamsızlıq, uşaqların rəftarında qabalıq və vəhşilik görünməzdi. Gördüklərim getdikcə mənim bu əqi-

dəmi möhkəmləşdirdi. Təcrübəm artdıqca əqidəm də qəviləşdi. Məsələn, yaylaqda bir hacının iki oğluna dərs deyirdim. Bunlardan savayı bir neçə əcnəbi uşaqlarının təlimi ilə də məşğul idim. Müsəlman balaları ilə əcnəbilərin arasında nə qədər təvafüt olmağı gözə çarpırdı. Əcnəbilərin dərsini qurtarıb müsəlman evinə rəvan olduqda elə bil zindana gedirdim. Bilirdim ki, qanım xarab olacaq. Heç müəyyən vaxtda bunları dərs üçün hazır görməzdim. Çox vaxt qaçıb gizlənirdilər ki, dərs oxumasınlar. Qaçmasa idilərsə də "kitabları itirdi". Dərslərini dürüst əzbərləməzdilər. Özləri də nə halda müəllimin qarşısına çıxırdılar – görməsəniz bilməzsiniz. Başdan ayağa çirk, üfunət, toz. Burunlarını qollarına silərdilər, fırtlıq quruyub həftələrlə orada qalardı. Üstünə yüzlərlə milçək yığılardı. Tər üst libasa çıxıb quruyardı, ağ izi qalardı. Rəftarları daha da xarab, iki qardaş həmişə bir-birləri ilə deyişib söyüşərdilər.

Mən elə bilirdim ki, hacının arvadı yoxdur. Sonra bildim ki, arvadı var imiş, bir də deyil, iki imiş. Lakin iki arvad iki uşağı ləyaqətli bir sayaqda saxlamağa müqtədir deyilmiş. Halbuki təmizliyə bir o qədər də xərc və zəhmət lazım deyil idi.

Çəpərin altından çay axırdı. Uşaqları gündə çimizdirib paltarlarını yumaq böyük bir iş deyil idi.

Belə analı yetimlərə ömrümdə çox rast gəlmişəm. Bir mərizxanaya gətirilən azarlılara diqqət yetirirdim. Bunların əksəri müsəlman uşağı idi. Budur, görürdük gətirib həkimin qabağına yarımcan bir uşağı uzatdılar, gözləri yumulub, özü lal və tərpənməz bir haldadır. Uşağı başına buraxıblar, gedib küçədəki çərdəkləri[1] sındırıb yeyib. Üstündən əlinə düşən zibili töküb qarnına.

Bir ayrı uşaq gətirirlər. Üstünə lampa tökülüb və ya qaynar samovar əndərilib, yanıb. Biçarənin rəngi qaçıb, yaraları sızıldayır. Bədəninin dərisini həkim qayçı ilə kəsib götürdükcə min əzab çəkir. Mərizxanada gözü ağrıyanlara hər addımda rast gəlmək olar. Toza-torpağa bələşmək, çirkli əlini gözlərinə vurmaqdan bu dərdə düşüblər. Kiminin gözünə bıçaq batıb, "qeyrətli" anası üstünə quyruq bağlayıb. Kimi yara çıxardıb, anası üstünə əvəlik yarpağı yapışdırıb və i. a. və i.a.

Bunların hamısı anasızlığa, tərbiyəsizliyə dəlalət edir. Elmli, qeyrətli, asudə analar olsa, bu halətlərə düçar olmarıq.

[1]Tumları (müəllif)

Rusiyanın böyük şəhərlərinə ayağınız düşsə günorta zamanı bir bağçalara gedin, uşaqlar oynayan meydançalara bir nəzər yetirin. Görün oralarda nə lətif, nə gözəl və tərbiyəli balalar var.

Hamısı təmiz geyinmiş, bədənləri salamat, özləri totuq, qırmızıyanaq. Rəftarları xoş, dolanışıqları sevməli. Anaları və mürəbbiləri bunlarla mülayim bir sayaqda söhbət edirlər. Bunların şadlığı üçün çalışırlar, bilmədiklərini öyrədirlər.

Bu gözəl balalara tamaşa etdikdə həmişə insan olmağımla fəxr eləyirdim. Nikbin hisslər ürəyimi bürüyürdü. Deyirdim: insaniyyət tərəqqi edir, ruhən və cismən salamatlaşır. Bir də yadıma bizim yazıq asiyalılar düşürdülər. O saat insaniyyətin nə dərəcələrə varınca alçaqlanmağını düşünüb xəcalət çəkirdim. Yadıma azarlı, çəlimsiz, rəngi qaçmış analı yetimlərimiz düşürdü. Bunların dəqiqədə bir döyülüb söyülmələrini, küçələrdə hamisiz veyllənmələrini yad edib dərdləşirdim.

XI. ANALI UŞAQLAR

Böyük adamların tərcümeyi-hallarını oxuduqda görürük ki, istedad və qabiliyyətləri uşaqlıq və cavanlıq zamanlarından aşkar olmağa başlayar. Napoleonun hüsn-təsirinin qüvvət və qorxusu məktəbdə ikən büruzə verilirdi. Yoldaşları Napoleondan qorxub həmişə ona tabe olardılar[1].

Deməli sonralar milyonlarca adamlar onun əmrinə baxaraq ölüm şərbətini içdikdə həmən uşaqlıqda büruzə verilən qüvvəyə tabe olurmuşlar.

Teymurləng uşaq vaxtında yoldaşları ilə oynadıqda onları iki yerə bölüb bir-birilə dava elətdirərmiş və özünü də əmir adlandırıb sərkərdə olarmış[2].

Məşhur nemsə musiqikarı Motsart dörd yaşında uşaq ikən havacatlar icad edərmiş. Altı yaşında konsert təlifinə müvəffəq olub, on iki yaşında isə opera yazmağa qədəm qoyub (...).

[1] Проф. А.С.Трачевский. Наполеон, эго жизнь и государственная деятельность.
[2] «Автобиография Тамерлана». Перевод с тюского Н.Лыкошино

Firənglərin böyük filosof Volter on iki yaşında həcv yazarmış. Iyirmi yaşında isə Firəngistan hökmdarını həcv elədiyi üçün həbsə alınıb.

Ədib Viktor Hüqo ilk faciəsini on beş yaşında yazıb qurtarıb. Italyanların böyük heykəltəraşı Kanova da qabiliyyətini uşaqlığında büruzə verib: nağıl edirlər ki, dörd yaşında şit yağdan şir düzəltməyə başlayıb. On dörd sinnində isə mərmərdən heykəllər qayırarmış[1].

Belə-belə bir çox tərcümeyi-hallar göstərir ki, təbii vergilər ilk uşaqlıqdan büruzə verilməyə başlayır. Onun üçün lazım gəlir ki, uşaqları ən balaca vaxtlarından etinamızdan salmayıb onların meyl və həvəslərinə diqqət edək. Burada da ana yada düşür. Bu böyük və məsul vəzifə də ona həvalə olunur. Çünki analar övlada tərbiyə verib həmişə ömürlərini onlarla keçirirlər. Tərbiyədən də ümdə məqsəd uşaqlarda olan təbii vergilərə meydan verib onların tərəqqisinə çalışmaqdır. Ana savadsız və avam olsa balalarının istedad və qabiliyyəti məhv olub gedər. Elmli və qanacaqlı olduqda balalarının təbii vergilərinin vüsətlənməsinə inanıb gələcəyinə ümid bağlamaq mümkündür.

Aləmi-islamda üç yüz milyon adamdan fövqəladə istedada malik bircəsi çıxıb yeni bir şey ixtira və icad etməməyinin səbəbi həmən avam arvadlardır ki, övladlarının şövq və həvəsini öldürüb fövt edirlər.

Bizlərdə qabil və mahir uşaqlar az deyildir. Lakin bunlar ev tərbiyəmizin yoxluğundan və dolandıqları mühitin müzür havasından istedadlarına meydan tapa bilmirlər. Uşaqlar rəssamlığa meyl göstərdikdə "o dünyada çəkdiyin şəkillərə necə can verəcəksən?" – deyə yoldan çıxardırlar. Kağıza, karandaşa və rəngə verilən pul hədər yerə sərf edilmiş hesab olunur. Musiqi ilə məşğul olanları bikar və arsız sayırlar. Bir tərəfdən də ləhvü ləəb[2] deyə onu qəbih əməllər cərgəsinə gətirirlər.

Fövqəladə istedada malik uşaqları bizlərdə sevmirlər. Onları allah bəlası bilirlər[3]. Belə ittifaq düşüb ki, neçə aylıq uşaq başlayıb danışmağa, anası bunu bir müsibət hesab edib uşağa süd verməkdən çəkinib. Halbuki, belə uşaqlar gələcəkdə istedadları ilə həm özlərinə, həm də insaniyyətə böyük xidmət edə bilərlər. Lakin nə etməli ki, avam arvadlarımızın dövlətindən işıqlar qaranlığa dönür.

[1] С.Смайльс. Ум и эненргия, т.1

[2] 2 Ləhvü ləəb – faydasız iş

[3] 3 Bunun üçün "əllamə" sözü bizlərdə qarğış yerinə işlənir (müəllif)

Mədəni millətlər arasında isə işlər tamam ayrı cürdür. Orada təbii vergiyə artıq etina olunub tərəqqisinə çalışırlar. Əlbəttə ən əvvəl övladın zəka və istedadı anaların nəzərini özünə cəlb edir. Odur ki, Avropanın bir çox böyük şəxslərinin gələcəyinə analarının artıq təsiri olub. Buna dəlil Şiller, Şenye, Lamartin kimilərinin tərcümeyi-hallarıdır.

Məşhur nemsə şairi Şillerin də ədəbiyyatda böyük ad qazanmağına ümdə səbəb anası Yelizaveta olub. Bu arvad oğluna oxumaq və yazmaqdan savayı bir xeyli məlumat da verib. Tövrat səhifələri ilə tanış edib, ədəbiyyat tarixinə, şairlərə dair biliklər verib, şeirlər öyrədib, onların qüsurlarını və gözəl tərəflərini də bildirib. Oğlunu məşğul etmək üçün Yelizaveta ona nemsə həyatına dair hekayələr də oxuyardı. Bu minval ilə əlbəttə Şillerin ədəbiyyata olan həvəsi daha da artacaq idi[1].

Böyük Hötenin də anası oğluna artıq etina edirdi. Vaxtının çoxunu ona hekayə oxumağa sərf eləyirdi. Bunun nəticəsi olaraq balaca Höte də yoldaşlarını toplayıb özü təlif etdiyi hekayələri nağıl eləyirdi[2].

Deməli, hər ana övladlarının istedadlarını uca bir mərtəbəyə çıxartmağa qadir ola bilər. Bu şərtlə ki, ana özü elmli və qanacaqlı ola. Ana ki, istedadın nə olduğunu düşünmədi, daha o zəkalı övlad yetirə bilməz. Hərgah Şillerlər, Hötelər bizim arvadların tərbiyəsi ilə böyüsə idi, baqqaldan ya hambaldan biri olub adları çoxdan itib getmişdi. Məhz qanacaqlı anaların və həyatbəxş mühitin dövlətindən onlar məhv olmadılar, özlərinə və millətlərinə əbədi ad qazandılar. Ananın övladına olan təsiri çox böyükdür (...).

Bəs, arvadların böyük təsirindən nəfbərdar olmaq üçün onların qanacaqlarını artırmalıdır. Yoxsa övladlarımızı cəhalət yoluna döndərib xalqımızı bərbad edərlər.

XII. HƏQİQİ ANA

Nizamlı milli bir məktəb qurtarmış, çox bilikli, açıq fikirli bir arvad təsəvvür ediniz. Bu anadır. Ana mehriban bir adamdır. Bunun qəlbi dili ilə, dili də qəlbi ilə müvafiqdir. Ikisi də təmiz, ikisi də pak və

[1] М.Блок. Матери великих людей.
[2] Н.А.Холодовский. В. Гете, уто жизнь и литературная деятельность.

pakizə. Anada qeybət və böhtan kimi alçaq sifətlər, yalan və oğurluq kimi pis adətlər olmaz. Həqiqi ana həm ruhən, həm də cismən salamat olar. Uşaqlar gördüyünü götürər. Ana bunu gözəlcə düşünüb, onun üçün həmişə özünün islahına çalışır ki, balaları onda pis hərəkət görüb götürməsinlər. Ana heç vaxt təklikdə özünə xoşbəxtlik istəməz, ana övladlarının xoşbəxtliyinə tamaşa edib ondan ləzzət aparar. Övladı olmamaqda heç bir şey ananı xoşbəxt eləməz. Qızıl, cavahirat, şöhrət və ad analara təskinlik verə bilməz. Ana uşaq vaxtından analığa həvəslənir, bir müqəvvanı[1] qumaşa büküb oynadar, onu mehriban dillə danışdırar, layla çalar.

Böyüdükdə də ana həmin fikirdən daşınmaz: yenə qayəsi övlad
olar. Ana bala doğub bəsləməkdən usanmaz, bəlkə bundan böyük bir ləzzət anlar. Ana salamat və tərbiyəli balalarını göstərib həmişə fəxrlə deyər: bu övladlar mənimdir.

Və bu əqidədə olar ki, övladsız onun diriliyi meyvəsiz bir ağac kimidir.

Həqiqi ana balalarını döyməz, onlara tənbeh eləməz. Yalnız analığa məxsus bir istedadla övladının ürəyində bir hiss oyandırar. Bunun sayəsində balalar analarını istərlər, ona hörmət edib sözlərinə əməl edərlər.

Ana azaddır, heç kəsə tabe deyil. Bu azadlığı da balalarına təlqin edir. Bunlar asudə fikirli, azadə ruhlu bir insan olurlar. Bunlar da anaları kimi qulluq və əsirliyi sevməzlər, meylləri genişlik istər, niyyətləri ucalıq.

Asudəlik ananın əxlaqını pozmaz, çünki ana kamildir, namus ona övladları qədər qiymətli və əzizdir. Ana çarşab tanımaz, amma örtülü arvadlardan çox-çox ismətlidir. Ananın zinəti həyadır. Bu məlaikə həmişə ana ilə bir yerdə olub cəmi paklığı ilə onu əhatə edər, bir dəqiqə müqəddəs vəzifəsindən xaric olmaz. Ana kamil olduqda həyadan əl götürməz, həya bir gözəl tacdır, arvad bu tacı başına qoymasa, analıq mülkünə sultan olmağa layiq görülməz.

Ana milli bayramlarımızı çox əziz tutar... Ələlxüsus Novruz bayramı şairanəliyi ilə anaya artıq dərəcədə xoş gələr. Buna "Bahar bayramı" deyə heç dini rəng də verməz, onun məhz təbiiliyini sevər, bu bayramı ana artıq təntənə ilə qarşılar. Neçə gün qabaqdan evlər süpürülər, silinər, hər yer təmizlənər. Sonra külfətin üzvləri yuyunub

[1] Gəlinciyi, kuklanı

geyinib böyük bir şadlıqla bayram edərlər. Şirnilər düzülər, xonçalar bəzənər, evlər çıraqban olar. Hər yeri gül və çiçəklərlə zinətləndirərlər. Milli musiqimiz çalınar. Rəqslər olunar. Milli nəğmələr və minacatlar oxunar. Milli musiqinin təsiri heç vaxt insandan aralanmaz. Nə qədər adamda gözəlliyi düşünməyə bir duyğu var, o adam milli musiqini xoş bir iztirabla yad elər. Bunun üçün ana milli musiqini artıqlığınca sevər. Istər piano, istər tar və saz olsun – bunların birində çalmaq bilər. Övladlarını da musiqimizlə aşina elər. Bir sallama bayatı və ya segah bəxş eləmiş təsirlərlə balaların cəmi vücudunda bir ruh oyadıb onların türklükdə sabit qalmağına çalışar.

Həqiqi ana mətbuatdan xəbərdardır. Qəzet və jurnalları oxuyur, çapdan çıxan kitabı alıb mütaliə elər. Övladlarının yaşlarına və qanacaqlarına müvafiq xəbərləri onlara da deyər. Xalq yolunda çalışan müqtədir ədiblərimizin adlarını onlara xəbər verər və bacardıqca əsərləri ilə də onları tanış elər.

Ana mütəəssib deyil, nikbindir. Əqidəli həyatpərvər və dünya tərəfdarıdır. Ana xalqının ucalığına, ağıl və istedadına tabe bir halda şükürlər edər. Ana övladlarına xalqını tanıtmaq üçün onları şəhərdən çölə aparar, təbiətin gözəlliyini onlara nişan verər. Uca dağların heybətini, çayların lətif şırıltısını, gecələr dərin və nəhayətsiz göyün sirri ilə əhatə olunmuş ulduzları balalarına tanıtmaqla onların ürəyində həqiqi bir dünyapərəstlik hissi oyadır. Beləliklə, uşaqlar hər bir xurafatdan uzaq olub həqiqi bir təsəvvürə malik olurlar. Belə bəslənmiş balalar diriliyi sevirlər, bu dünyanın xoşbəxtliyini düşünüb ona tərəf meyl və həvəs göstərirlər.

Xülasə ana tərbiyə və elmlə islah olunmuş bir insandır. Dedikcə zərif bir arifdir: fikri açıq, hər işi ciddi. Vəzifəsinə müvafiq kamil və ağıllıdır.

Ana insaniyyətin məşəl aparanıdır. Bu nə qədər qabil olsa, bir o qədər insaniyyətin getdiyi yolu lazımınca işıqlandırmağa qadir olar. Bunu həqiqi analar gözəlcə düşünürlər və çalışırlar ki, daha da qabil və kamil olsunlar.

1914

KİTABDAKILAR

Bir cavanın dəftəri 5
Həzrəti-Şəhriyar 45
Altunsaç 91
Azərbaycan ədəbiyyatına bir nəzər 113
Tarixi, coğrafi və iqtisadi Azərbaycan 154
Litva tatarlarının tarixi 193
Azərbaycan muxtariyyatı. Ayılın, toplaşın! 209
Biz kimik və istədiyimiz nədir 218
Kiyevdən məktub 230
Kiyevdə millətlər şurası 232
Iki aləm 236
Kiyevdə "Müsavat" şöbəsi 238
Zəruri məsələlər 240
Ukrayna müsəlmanlarının nəzər diqqətinə 243
Yusif Vəzirovun məruzəsi 244
Xarici siyasətimiz 253
Milli və mədəni işlərimiz 271
Azərbaycan nağıllarının əhvali-ruhiyyəsi 277
Nağıllarımızı necə toplamalı 280
Nağıllarımız barəsində bir-iki söz 282
Xalq ədəbiyyatında bəşəri təmayüllər 288
Xalq ədəbiyyatının təhlili 292
Vəsfi-hal 302
Ağı 305
Folklor yolunda 306
Azərbaycanda Zərdüşti adətləri 308
Tariximiz haqqında Azərbaycan müəlliflərinin əsərləri 315
Molla Pənah Vaqif haqqında 320
Abbasqulu Ağa Qüdsinin əsərləri 325
Mirzə Fətəlinin əsərləri başqa dillərdə 327
Fransa mütəfəkkiri Mirzə Fətəli haqqında 330
Əcəmilik möhürü və onunla mübarizə 334
Dil məsələsi 338
Qulluq və əsirlik 340
Bizə ciddi mətbuat çoxdan lazım idi 350
Ədəbi dövrün başçısı 359
Teatr pərəstişkarı 361

Şəxslərin və hadisələrin tipləşməsi 363
Iqtibas, təqlid və təsir 366
Turgenevin yazı üsulu 370
Çexov, Qorki və L.Tolstoy 372
Həyatımın 20 ili 375
Ana və analıq 417

Buraxılışa məsul: *Umud Rəhimoğlu*

Texniki redaktor: *Mübariz Piriyev*

Kompyuter səhifələyicisi: *Allahverdi Kərimov*

Korrektor: *Tofiq Qaraqaya*

Yığılmağa verilib 08.10.2004. Çapa imzalanıb 08.04.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 27,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 73.

Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.